# HEYDƏR ƏLİYEV

## MÜSTƏQİLLİYİMİZ ƏBƏDİDİR

*doqquzuncu kitab*

*mart, 1997 - may, 1997*

*çıxışlar • nitqlər*
*bəyanatlar • müsahibələr*
*məktublar • məruzələr*
*müraciətlər • fərmanlar*

AZƏRNƏŞR
BAKI-2000

**BBK 66.3(5Aze)8**
**Ə - 65**

Buraxılışına məsul
**RAMİZ MEHDİYEV**

**ƏLİYEV HEYDƏR**
**Ə 65 Müstəqilliyimiz əbədidir.** B., Azərnəşr, 2000, 466 səh.

Kitabda Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyevin 1997-ci il martın 5-dən mayın 26-dək olan dövrdəki nitqləri, məruzələri, müsahibələri, məktubları, müraciətləri, bəyanatları, fərmanları və s. daxil edilmişdir.

Bu əsərlərdə iqtisadi islahatları sürətləndirmək və dünya iqtisadiyyatına inteqrasiya olunmaq, regionda və bütün dünyada sülhü və sabitliyi möhkəmləndirmək, müstəqil dövlətimizin beynəlxalq nüfuzunu durmadan yüksəltmək, Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə ədalətli həllinə nail olmaqla Azərbaycanın ərazi bütövlüyünü təmin etmək, doğma xalqın ədəbiyyat və incəsənətinə yorulmadan qayğı göstərmək istiqamətlərində və digər sahələrdə Azərbaycan Prezidentinin gündəlik fəaliyyəti xronikası parlaq əks olunmuşdur.

**BBK – 66.3(5Aze)8**

Ə $\frac{0801000000}{M – 651(07) – 2000}$

**© Azərnəşr, 2000**

# KİTABIN İÇİNDƏKİLƏR

"ŞAHDƏNİZ" NEFT YATAĞI ÜZRƏ MÜQAVİLƏ LAYİHƏSİNİN İDARƏETMƏ KOMİTƏSİ ÜZVLƏRİ İLƏ GÖRÜŞDƏ GİRİŞ SÖZÜ
*5 mart 1997-ci il*.................................................................................................. 11
YEKUN NİTQİ

XALQ ŞAİRİ SƏMƏD VURĞUNUN EV MUZEYİNDƏ ÇIXIŞ
*6 mart 1997-ci il*.................................................................................................. 14

SƏMƏD VURĞUNUN 90 İLLİK YUBİLEYİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN BAKIYA GƏLMİŞ DAĞISTANIN XALQ ŞAİRİ RƏSUL HƏMZƏTOVLA GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
*7 mart 1997-ci il*.................................................................................................. 16

XALQ ŞAİRİ SƏMƏD VURĞUNUN 90 İLLİK YUBİLEYİNƏ HƏSR EDİLMİŞ GECƏDƏ NİTQ
*7 mart 1997-ci il*.................................................................................................. 17

BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİLƏ "SEVİL" AZƏRBAYCAN QADINLARI MƏCLİSİNİN TƏŞKİL ETDİYİ GÖRÜŞDƏ NİTQ
*8 mart 1997-ci il*.................................................................................................. 20

PAKİSTAN İSLAM RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ NƏVAZ ŞƏRİF CƏNABLARINA
*11 mart 1997-ci il*................................................................................................ 22

XALQ ARTİSTİ LÜTFİ MƏMMƏDBƏYOVA
*13 mart 1997-ci il*................................................................................................ 23

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ–ALİLƏRİ HAŞİMİ-RƏFSƏNCANİ CƏNABLARINA
*15 mart 1997-ci il*................................................................................................ 24

GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATI-ALİLƏRİ EDUARD ŞEVARDNADZE CƏNABLARINA
*17 mart 1997-ci il*................................................................................................ 25

XALQ ŞAİRİ BALAŞ AZƏROĞLUNA
*17 mart 1997-ci il*................................................................................................ 26

NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK
*19 mart 1997-ci il*................................................................................................ 27

AZƏRBAYCAN PREZİDENTİ TƏRƏFİNDƏN ŞƏHİD ÖVLADLARI VƏ KİMSƏSİZ UŞAQLAR ÜÇÜN TƏŞKİL EDİLMİŞ NOVRUZ ŞƏNLİYİNDƏ ÇIXIŞ
*20 mart 1997-ci il*................................................................................................ 28

BAKININ GƏNCLƏR MEYDANINDA, QOŞA QALA QAPILARI ÖNÜNDƏ NOVRUZ ŞƏNLİYİNDƏ ÇIXIŞ
*21 mart 1997-ci il*................................................................................................ 30

PAKİSTANIN DÖVLƏT MÜSTƏQİLLİYİ GÜNÜ ŞƏRƏFİNƏ PAKİSTAN İSLAM RESPUBLİKASININ AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ

**RƏSMİ QƏBULDA NİTQ**
*23 mart 1997-ci il*........ **33**

**UKRAYNA PREZİDENTİ LEONİD KUÇMANIN DƏVƏTİ İLƏ RƏSMİ DÖVLƏT SƏFƏRİNƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB**
*24 mart 1997-ci il*........ **34**

**UKRAYNANIN ALİ MÜKAFATININ – YAROSLAV MUDRI ORDENİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ NİTQ**
*24 mart 1997-ci il*........ **35**

**UKRAYNA-AZƏRBAYCAN DÖVLƏTLƏRARASI SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA MƏTBUAT ÜÇÜN BƏYANAT**
*24 mart 1997-ci il*........ **36**

**UKRAYNA PREZİDENTİ LEONİD KUÇMANIN ADINDAN AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ**
*24 mart 1997-ci il*........ **38**

**AZƏRBAYCAN PREZİDENTİNƏ KİYEV ŞƏHƏRİNİN FƏXRİ QONAĞI DİPLOMUNUN ŞƏHƏRİN RƏMZİ AÇARININ TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ ÇIXIŞ**
*25 mart 1997-ci il*........ **41**

**AZƏRBAYCAN VƏ UKRAYNA PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT**
*25 mart 1997-ci il*........ **43**

**UKRAYNADAKI AZƏRBAYCAN DİASPORUNUN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ**
*25 mart 1997-ci il*........ **47**

**ZƏMANƏMİZİN GÖRKƏMLİ MUSİQİÇİSİ MSTİSLAV LEOPOLDOVİÇ ROSTROPOVİÇƏ**
*26 mart 1997-ci il*........ **50**

**FRANSAYA İŞGÜZAR SƏFƏRƏ YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB**
*26 mart 1997-ci il*........ **51**

**FRANSA PREZİDENTİ JAK ŞİRAK İLƏ GÖRÜŞDƏ BƏYANAT**
*27 mart 1997-ci il*........ **52**

**FRANSANIN APARICI KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİNƏ BƏYANAT**
*27 mart 1997-ci il*........ **53**

**MDB-nin ÜZVÜ OLAN DÖVLƏTLƏRİN BAŞÇILARININ İCLASINDAN SONRA BİRGƏ MƏTBUAT KONFRANSINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB**
*29 mart 1997-ci il*........ **58**

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİNƏ MOSKVA DÖVLƏT HÜQUQ AKADEMİYASININ FƏXRİ DOKTORU ADI VERİLMƏSİ MƏRASİMİNDƏ ÇIXIŞ**
*29 mart 1997-ci il*........ **59**

AZƏRBAYCANDA RUSİYA FEDERASİYASININ MƏDƏNİYYƏT GÜNLƏRİNDƏ DÖVLƏT TRETYAKOV QALEREYASININ KOLLEKSİYASINDAN İBARƏT SƏRGİDƏ ÇIXIŞ
*1 aprel 1997-ci il*........................................................................................................ **63**

AZƏRBAYCANDA RUSİYA FEDERASİYASI MƏDƏNİYYƏT GÜNLƏRİNİN TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏN SONRA ONUN İŞTİRAKÇILARI İLƏ GÖRÜŞDƏ TƏBRİK SÖZLƏRİ
*1 aprel 1997-ci il*........................................................................................................ **64**

KƏLBƏCƏR RAYONUNUN ERMƏNİSTAN SİLAHLI QÜVVƏLƏRİ TƏRƏFİNDƏN İŞĞALININ 4-cü İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR NƏRİMANOV RAYONUNDAKI YATAQXANADA MƏSKUNLAŞMIŞ KƏLBƏCƏR QAÇQINLARI İLƏ GÖRÜŞDƏ NİTQ
*2 aprel 1997-ci il*........................................................................................................ **65**

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ SÜLEYMAN DƏMİRƏL CƏNABLARINA
*5 aprel 1997-ci il*........................................................................................................ **71**

TÜRKİYƏ MİLLİYYƏTÇİ HƏRƏKAT PARTİYASI SƏDRİNİN MÜAVİNİ TOĞRUL TÜRKEŞ CƏNABLARINA
*5 aprel 1997-ci il*........................................................................................................ **72**

XƏZƏRİN AZƏRBAYCAN SEKTORUNDA "QARABAG" PERSPEKTİVLİ STRUKTURUNUN MÜŞTƏRƏK İŞLƏNMƏSİ İLƏ ƏLAQƏDAR 1995-ci İLİN NOYABRINDA ARDNŞ-lə BİR SIRA TRANSMİLLİ NEFT ŞİRKƏTLƏRİ ARASINDA İMZALANMIŞ MÜQAVİLƏNİ HƏYATA KEÇİRƏN "XƏZƏR" BEYNƏLXALQ NEFT ŞİRKƏTİNİN RƏHBƏR HEYƏTİ İLƏ GÖRÜŞDƏ GİRİŞ SÖZÜ
*5 aprel 1997-ci il*........................................................................................................ **73**
YEKUN SÖZÜ

AZƏRBAYCANDA RUSİYA FEDERASİYASININ MƏDƏNİYYƏT GÜNLƏRİNDƏ VAXTANQOV ADINA MOSKVA AKADEMİK TEATRININ SƏMƏD VURĞUN ADINA AZƏRBAYCAN DÖVLƏT RUS DRAM TEATRINDA D. KİLTİNİN "ƏZİZ YALANÇI" TAMAŞASI QURTARDIQDAN SONRA MOSKVALI QONAQLARLA SÖHBƏTDƏN
*5 aprel 1997-ci il*........................................................................................................ **77**

AZƏRBAYCANDA RUSİYA FEDERASİYASI MƏDƏNİYYƏT GÜNLƏRİNİN BAĞLANMASI MƏRASİMİNDƏN SONRA RUSİYA ARTİSTLƏRİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
*6 aprel 1997-ci il*........................................................................................................ **78**

YAPONİYANIN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİNİN ETİMADNAMƏSİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ ÇIXIŞ
*6 aprel 1997-ci il*........................................................................................................ **79**

YAPONİYANIN İŞGÜZAR DAİRƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*7 aprel 1997-ci il*........................................................................................................ **80**

TİBB ELMLƏRİ DOKTORU, ƏMƏKDAR ELM XADİMİ, DÖVLƏT MÜKAFATI LAUREATI TAMERLAN ƏZİZ OĞLU ƏLİYEVİN MATƏM MƏRASİMİNDƏ

ÇIXIŞ
*7 aprel 1997-ci il*............ **81**

**TÜRK DÖVLƏT VƏ TOPLULUQLARININ 5-ci DOSTLUQ, QARDAŞLIQ VƏ İŞBİRLİYİ QURULTAYININ İŞTİRAKÇILARINA**
*9 aprel 1997-ci il*............ **83**

**ABŞ-ın "AMOKO" ŞİRKƏTİNİN BAKIDA YENİ OFİSİNİN AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ**
*11 aprel 1997-ci il*............ **84**

**TÜRKİYƏNİN TANINMIŞ MÜĞƏNNİSİ ƏBRU GÜNDƏŞİN KONSERTİNDƏN SONRA AİLƏSİ İLƏ BİRLİKDƏ ONUNLA SÖHBƏTDƏN**
*13 aprel 1997-ci il*............ **85**

**MƏŞHUR HEYKƏLTƏRAŞ, XALQ RƏSSAMI ÖMƏR ELDAROVUN GÖRKƏMLİ OFTALMOLOQ, AKADEMİK ZƏRİFƏ ƏLİYEVANIN XATİRƏSİNƏ HƏSR ETDİYİ "ELEGİYA" ƏSƏRİNİN – MƏRMƏR ABİDƏNİN VƏ BU ABİDƏDƏN BƏHS EDƏN ALBOMUN TƏQDİMAT MƏRASİMİNDƏ ÇIXIŞ**
*15 aprel 1997-ci il*............ **86**

**İKİ MÜQƏDDƏS OCAĞIN XİDMƏTÇİSİ, SƏUDİYYƏ ƏRƏBİSTANI KRALI FƏHD İBN ƏBDÜLƏZİZ ƏL-SƏUDA**
*16 aprel 1997-ci il*............ **90**

**AZƏRBAYCANDA İQTİSADİ İSLAHATLARIN GEDİŞİNƏ, EYNİ ZAMANDA KƏND TƏSƏRRÜFATINDA CARI İŞLƏRİN VƏZİYYƏTİNİN MÜZAKİRƏSİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ GİRİŞ SÖZÜ**
*16 aprel 1997-ci il*............ **91**

**YEKUN NİTQİ**
**QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK**
*16 aprel 1997-ci il*............ **99**

**QURBAN BAYRAMI GÜNÜ LERİKLİ FERMER XANIŞ ŞAHIYEVLƏ GÖRÜŞDƏ ÇIXIŞ**
*18 aprel 1997-ci il*............ **100**

**XALQ ARTİSTİ NƏSİBƏ XANIM ZEYNALOVAYA**
*20 aprel 1997-ci il*............ **102**

**KALMIKİYANIN XALQ ŞAİRİ DAVİD KUQULTİNOVA**
*21 aprel 1997-ci il*............ **103**

**"AZƏRBAYCANDA İNVESTİSİYA QOYULUŞU İMKANLARI" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA**
*22 aprel 1997-ci il*............ **104**

**AZƏRBAYCANA RƏSMİ SƏFƏRƏ GƏLƏN QIRĞIZISTAN RESPUBLİKASININ PREZİDENTİ ƏSGƏR AKAYEVİN BİNƏ HAVA LİMANINDA QARŞILANMASI MƏRASİMİNDƏ BƏYANAT**
*23 aprel 1997-ci il*............ **105**

**QIRĞIZISTAN PREZİDENTİ ƏSGƏR AKAYEVİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ ZAMANI YÜKSƏK SƏVİYYƏLİ AZƏRBAYCAN-QIRĞIZISTAN DANIŞIQLARINDA ÇIXIŞ**

*23 aprel 1997-ci il*............................................................................................................ 106

**AZƏRBAYCAN–QIRĞIZISTAN İKİTƏRƏFLİ SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT**
*23 aprel 1997-ci il*............................................................................................................ 108

**QIRĞIZISTAN PREZİDENTİ ƏSGƏR AKAYEVƏ M. Ə. RƏSULZADƏ ADINA BDU-nun FƏXRİ DOKTORU DİPLOMUNUN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ NİTQ**
*23 aprel 1997-ci il*............................................................................................................ 112

**QIRĞIZISTAN PREZİDENTİ ƏSGƏR AKAYEVİN M. Ə. RƏSULZADƏ ADINA BDU-nun TƏLƏBƏ ŞƏHƏRCİYİNDƏ MÜVƏQQƏTİ YERLƏŞDİRİLMİŞ QAÇQINLARLA GÖRÜŞÜNDƏ ÇIXIŞ**
*23 aprel 1997-ci il*............................................................................................................ 115

**AZƏRBAYCAN PREZİDENTİ ADINDAN QIRĞIZISTAN RESPUBLİKASININ PREZİDENTİ ƏSGƏR AKAYEVİN ŞƏRƏFİNƏ VERİLMİŞ RƏSMİ ZİYAFƏTDƏ NİTQ**
*23 aprel 1997-ci il*............................................................................................................ 117

**PASXA BAYRAMI MÜNASİBƏTİLƏ RESPUBLİKANIN PRAVOSLAV XRİSTİANLARINA TƏBRİK**
*25 aprel 1997-ci il*............................................................................................................ 120

**AZƏRBAYCANIN XALQ ARTİSTİ LYÜDMİLA GEORGİYEVNA ZIKİNAYA**
*26 aprel 1997-ci il*............................................................................................................ 121

**QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİNİN İSTANBULDA KEÇİRİLƏCƏK BİZNES KONFRANSINDA İŞTİRAK ETMƏK ÜÇÜN TÜRKİYƏYƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ**
*28 aprel 1997-ci il*............................................................................................................ 122

**İSTANBULDA KEÇİRİLMİŞ "QARA DƏNİZ REGİONUNDA YENİ İMKANLAR" MÖVZUSUNDA BİZNES KONFRANSINDA NİTQ**
*28 aprel 1997-ci il*............................................................................................................ 123

**MSTİSLAV ROSTROPOVİÇ, ONUN ZÖVCƏSİ QALİNA VİŞNEVSKAYA VƏ AİLƏSİNİN DİGƏR ÜZVLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ**
*29 aprel 1997-ci il*............................................................................................................ 125

**MSTİSLAV ROSTROPOVİÇİN 70 İLLİK YUBİLEY ŞƏNLİKLƏRİNƏ GƏLƏN KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ BƏYANAT**
*1 may 1997-ci il*............................................................................................................ 128

**MSTİSLAV ROSTROPOVİÇİN 70 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YUBİLEY GECƏSİ VƏ KONSERT QURTARDIQDAN SONRA ÇIXIŞ**
*2 may 1997-ci il*............................................................................................................ 138

**AZƏRBAYCAN RESPUBLİKASININ YƏHUDİ İCMASINA**
*3 may 1997-ci il*............................................................................................................ 139

**BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ LEYBORİSTLƏR PARTİYASININ LİDERİ ZATİ-ALİLƏRİ ENTONİ BLEYR**

CƏNABLARINA
*4 may 1997-ci il*............................................................................................................. 140

TÜRKİYƏ RESPUBLİKASINA RƏSMİ SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ BƏYANAT
*5 may 1997-ci il*............................................................................................................. 141

TÜRKİYƏ RESPUBLİKASINA RƏSMİ SƏFƏRƏ GƏLƏRKƏN QARŞILANMA MƏRASİMİNDƏ MƏTBUAT ÜÇÜN BƏYANAT
*5 may 1997-ci il*............................................................................................................. 142

AZƏRBAYCAN RESPUBLİKASI İLƏ TÜRKİYƏ RESPUBLİKASI ARASINDA SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİNDƏ MƏTBUAT ÜÇÜN BƏYANAT
*5 may 1997-ci il*............................................................................................................. 143

AZƏRBAYCAN PREZİDENTİNƏ TÜRKİYƏ CÜMHURİYYƏTİNİN "DÖVLƏT NİŞANI"nın TƏQDİM OLUNMASI MƏRASİMİNDƏ ÇIXIŞ
*5 may 1997-ci il*............................................................................................................. 145

XARİCİ ÖLKƏLƏRİN İQAMƏTGAHLARI ANKARADA YERLƏŞƏN, EYNİ ZAMANDA AZƏRBAYCAN RESPUBLİKASINDA AKKREDİTƏ OLUNMUŞ SƏFİRLƏR İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*5 may 1997-ci il*............................................................................................................. 147

TÜRKİYƏ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏLİN ADINDAN AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ ZİYAFƏTDƏ NİTQ
*5 may 1997-ci il*............................................................................................................. 149

ANKARANIN MƏRKƏZİ KÜÇƏLƏRİNDƏN BİRİNƏ – 3-cü CADDƏYƏ AZƏRBAYCAN PROSPEKTİ ADI VERİLMƏSİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ ÇIXIŞ
*6 may 1997-ci il*............................................................................................................. 152

AZƏRBAYCAN RESPUBLİKASININ TÜRKİYƏDƏKİ SƏFİRLİYİNİN YENİ BİNASININ TƏMƏLİNİN QOVULMASI MƏRASİMİNDƏ ÇIXIŞ
*6 may 1997-ci il*............................................................................................................. 154

TÜRKİYƏ QURU QOŞUNLARI MƏKTƏBİ İLƏ TANIŞLIQ, TƏLƏBƏLƏRLƏ VƏ AZƏRBAYCAN DİASPORUNUN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*6 may 1997-ci il*............................................................................................................. 156

TÜRKİYƏNİN BİLKƏND UNİVERSİTETİNDƏ ÇIXIŞ
*6 may 1997-ci il*............................................................................................................. 158

TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*6 may 1997-ci il*............................................................................................................. 160

TÜRKİYƏNİN TANINMIŞ JURNALİSTLƏRİNƏ MÜSAHİBƏ
*6 may 1997-ci il*............................................................................................................. 168

TÜRKİYƏNİN "SAMANYOLU" TELEVİZİYASINA MÜSAHİBƏ
*6 may 1997-ci il*............................................................................................................. 172

TÜRKİYƏNİN “NTV” TELEVİZİYASINA MÜSAHİBƏ
*6 may 1997-ci il*............................................................................................................. 173

AZƏRBAYCAN PREZİDENTİNƏ "9 EYLÜL" UNİVERSİTETİNİN FƏXRİ DOKTORU ADI VERİLMƏSİ MƏRASİMİNDƏ NİTQ
*7 may 1997-ci il*........................................................................................................ 176

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ İZMİR VALİSİ KUTLU AKTAŞIN VERDİYİ ZİYAFƏTDƏ NİTQ
*7 may 1997-ci il*........................................................................................................ 180

İZMİRDƏ "BAKI PARKI"NIN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ
*7 may 1997-ci il*........................................................................................................ 181

İSTANBULDA MƏTBUAT NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ BƏYANAT
*7 may 1997-ci il*........................................................................................................ 183

AZƏRBAYCAN PREZİDENTİNƏ "FATİH" UNİVERSİTETİNİN FƏXRİ DOKTORU ADI VERİLMƏSİ MƏRASİMİNDƏ NİTQ
*8 may 1997-ci il*........................................................................................................ 189

TÜRKİYƏNİN "TRT", "TQRT", "SAMANYOLU", "NTV" TELEVİZİYA KANALLARININ RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*8 may 1997-ci il*........................................................................................................ 195

TÜRKİYƏNİN İŞ ADAMLARI İLƏ GÖRÜŞDƏ NİTQ
*8 may 1997-ci il*........................................................................................................ 199

İSTANBULDA İSLAM KONFRANSI TƏŞKİLATININ TARİX, KÜLTÜR, SƏNƏT MƏRKƏZİNDƏ ÇIXIŞ
*8 may 1997-ci il*........................................................................................................ 204

TÜRKİYƏDƏN RƏSMİ SƏFƏRDƏN VƏTƏNƏ QAYIDARKƏN İSTANBULUN ATATÜRK HAVA LİMANINDA MƏTBUAT KONFRANSINDA BƏYANAT
*8 may 1997-ci il*........................................................................................................ 205

İKİNCİ DÜNYA MÜHARİBƏSİNDƏ ALMAN FAŞİZMİ ÜZƏRİNDƏ QƏLƏBƏNİN 52-ci İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ İKİ DƏFƏ SOVET İTTİFAQI QƏHRƏMANI, TANK QOŞUNLARI GENERAL-MAYORU HƏZİ ASLANOVUN MƏZARI ÖNÜNDƏ KEÇİRİLƏN MƏRASİMDƏ NİTQ
*9 may 1997-ci il*........................................................................................................ 207

BAKININ NİZAMİ RAYONUNDA – 8-ci KİLOMETR QƏSƏBƏSİNİN CƏMŞİD NAXÇIVANSKİ KÜÇƏSİNDƏ HEYDƏR ƏLİYEV PARKININ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ
*10 may 1997-ci il*...................................................................................................... 209

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ ƏLİ ƏKBƏR HAŞİMİ-RƏFSƏNCANİ CƏNABLARINA
*11 may 1997-ci il*...................................................................................................... 213

İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ (İƏT; EKO) ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ NÖVBƏDƏNKƏNAR AŞQABAT ZİRVƏ GÖRÜŞÜNƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ
*13 may 1997-ci il*...................................................................................................... 214

AŞQABAT ZİRVƏ GÖRÜŞÜNDƏ NİTQ
*13 may 1997-ci il*...................................................................................................... 215

**NORVEÇ KRALLIĞININ MİLLİ BAYRAMI – KONSTİTUSİYA GÜNÜ MÜNASİBƏTİLƏ NORVEÇİN AZƏRBAYCANDAKI SƏFİRLİYİNDƏ RƏSMİ QƏBULDA ÇIXIŞ**
*19 may 1997-ci il*............................................................................................................ **217**

**GÜRCÜSTANIN MİLLİ BAYRAMI – DÖVLƏT MÜSTƏQİLLİYİ GÜNÜ MÜNASİBƏTİLƏ GÜRCÜSTANIN AZƏRBAYCANDAKI SƏFİRLİYİNDƏ RƏSMİ QƏBULDA ÇIXIŞ**
*20 may 1997-ci il*............................................................................................................ **218**

**GÜRCÜSTAN PREZİDENTİ ZATİ-ALİLƏRİ EDUARD ŞEVARDNADZE CƏNABLARINA**
*23 may 1997-ci il*............................................................................................................ **220**

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ MƏHƏMMƏD HATƏMİ CƏNABLARINA**
*26 may 1997-ci il*............................................................................................................ **221**

## "ŞAHDƏNİZ" NEFT YATAĞI ÜZRƏ MÜQAVİLƏ LAYİHƏSİNİN İDARƏETMƏ KOMİTƏSİ ÜZVLƏRİ İLƏ GÖRÜŞDƏ GİRİŞ SÖZÜ

*Prezident sarayı*

*5 mart 1997-ci il*

Hörmətli xanımlar və cənablar!

Bu gün "Şahdəniz" neft müqaviləsi layihəsinin idarəetmə komitəsinin iclası keçirilmişdir. Bu iclasda "Şahdəniz" neft müqaviləsi layihəsinin həyata keçirilməsi məsələləri müzakirə olunmuşdur. Bu barədə mənə vaxtilə məruzə edilmişdir. Mən idarəetmə komitəsinin üzvlərini bu gün buraya dəvət etmişəm ki, gördükləri işlər və nəzərdə tutduqları proqram haqqında məlumat versinlər.

Fevralın 28-də biz 1994-cü il sentyabrın 20-də imzalanmış ilk neft müqaviləsinin – "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi üzrə layihənin rəhbər komitəsinin üzvləri və ABƏŞ-in rəhbərləri ilə görüşdük. Həmin görüşdə son iki ildə görülən işlər, 1997-ci və 1998-ci illərdə görüləcək işlər haqqında məruzələr dinlənildi.

Bu gün "Şahdəniz" neft yatağının birgə işlənməsi üzrə müqavilə layihəsinin həyata keçirilməsi məsələləri bizi maraqlandırır. Güman edirəm ki, biz imzalanmış digər müqavilələrin layihələrinin həyata keçirilməsini nəzarət altında saxlayaraq, onlarla da belə görüşlər keçirəcəyik. Mən məmnuniyyətlə qeyd etmək istəyirəm ki, "Şahdəniz" müqaviləsi layihəsinin idarəetmə komitəsi bu məsələlərlə vaxtında məşğul olubdur. Onlar bu məsələləri bu gün müzakirə ediblər. Mən məmnuniyyətlə onları dinləmək istəyirəm. [5-6]

### YEKUN NİTQİ

Birincisi, mən çox məmnunam ki, "Şahdəniz" neft-qaz yatağının (onun neft və ya qaz yatağı olması sonra məlum olacaqdır) müştərək işlənməsi haqqında keçən ilin iyun ayında imzalanmış müqavilə qısa bir müddətdə əməli surətdə həyata keçirilir. Müqavilə keçən ilin oktyabr ayında təsdiq edildi. Beləliklə, o vaxtdan 5 ay keçir. Hesab edirəm ki, bu müddətdə görülən işləri müsbət qiymətləndirmək lazımdır.

Cənab Şerman öz məruzəsində bu qısa müddətdə görülən işlər barədə məlumatı bizə çatdırdı, həm də gələcək planları, proqramları haqqında danışdı. Bu məlumatlardan aydın görünür ki, "Şahdəniz" neft-qaz yatağı Xəzərin Azərbaycan sektorunda çox zəngin və perspektivli bir yataqdır və onun müştərək işlənməsi haqqında imzalanmış müqavilə çox böyük əhəmiyyət kəsb edir. Mən bu gün bu məlumatları dinləyəndən sonra daha da çox ümidlə deyə bilərəm ki, bu müqavilə çox gözəl nəticələr verəcəkdir.

Bu müqaviləni həyata keçirən şirkətlər böyük və zəngin təcrübəyə malikdirlər. "Britiş Petroleum", "Statoyl", "Elf Akiten", "LUKoyl", İranın "OİEK", Türkiyənin "Türk petrolları" şirkətləri çox təcrübəli, yenə də deyirəm, böyük, zəngin təcrübəyə malik olan şirkətlərdir. Onların bir yerdə, müştərək iş görməsi və işin bu qısa müddətdə lazımi səviyyədə təşkil olunması şübhəsiz ki, yaxşı qiymətə layiqdir.

Təbiidir ki, bu konsorsium, yəni bu layihəyə daxil olan şirkətlər – buraya Azərbaycan Dövlət Neft Şirkəti də daxildir – bütün işləri bilavasitə Azərbaycan Dövlət Neft Şirkəti ilə birgə görürlər. Mən məmnunam ki, görülən işlərin əksəriyyəti Azərbaycan Dövlət Neft Şirkəti, respublikamızın sənaye müəssisələri, şirkətləri ilə müştərək şəkildə həyata keçirilməklə planlaşdırılır. [6-7]

"Şahdəniz" neft-qaz yatağı çox mürəkkəb yataqdır. Bu yatağın yerləşdiyi sahədə suyun dərinliyi 400-500 metrə çatır. Burada deyildi ki, orada qazılacaq quyunun dərinliyi 6 min metr olacaqdır. Bunlar onu göstərir ki, biz Xəzər dənizində hələ indiyə qədər belə bir sahədə işləməmişik.

Mən əminəm ki, bu layihəni həyata keçirən şirkətlərin imkanları, təcrübəsi və eyni zamanda, Azərbaycan mütəxəssislərinin, neftçilərinin biliyi, bacarığı, təcrübəsi, dünyanın qabaqcıl texnologiyasından, təcrübəsindən istifadə edərək bu yataqda müvəffəqiyyətlə iş görüb, yaxşı nəticə almaqda bizə kömək edəcəkdir. Amma Xəzər dənizində hələ bundan da dərin yerlərdə bizim yataqlarımız var. Ona görə də "Şahdəniz" yatağında gördüyümüz işlər və əldə edəcəyimiz nəticələr bizə bundan da dərin yerlərdə iş görməyə imkan yaradacaqdır.

Mən bizim dostlarımıza demək istəyirəm ki, onların artıq rəqibləri də vardır. Məsələn, ABŞ-ın "Eksson" şirkətinin prezidenti bu yaxın vaxtlarda Azərbaycana gəlmişdi, mənim onunla görüşüm olmuşdur. O mənə bildirdi ki, onlar suyun dərinliyi 700 metrə çatan sahədə işləyirlər və bu sahədə çox böyük təcrübələri vardır. Ona görə də onlar bizim belə sahələrimizdə olan yataqlarımıza çox böyük maraq göstərirlər və bu münasibətlə mənə müraciət ediblər. Güman edirəm ki, onlar da burada işləmək imkanı qazanacaqlar və "Şahdəniz" yatağında əldə etdiyimiz təcrübə bizə də bu sahədə işlər görməyə imkan verəcəkdir.

Cənab Şerman layihənin həyata keçirilməsi proqramı barədə burada məlumat verərkən onun müddətlərini də bildirdi. Bu müqavilə imzalananda da bəzi müddətlər göstərilmişdi. Qeyd edilmişdi ki, 3 il yalnız kəşfiyyat işləri üçün ayrılır və həmin kəşfiyyat işləri müddətində bu yatağın bütün göstəriciləri tam müəyyən olunmalıdır.

Güman edirəm, bizim bu gözəl təşkilatımız, bu layihənin idarəetmə komitəsi işləri elə quracaqdır ki, nailiyyətlər bəlkə də üç ildən də tez əldə ediləcəkdir. Mən belə düşünürəm. Siz bildirdiniz ki, neftin alınmasına doqquz il müddətində nail olacaqsınız. Ancaq eyni zamanda, dediniz ki, siz bunu dörd il müddətində edə biləcəksiniz. Ümidvaram ki, siz həvəslə işləyib, yaxşı nəticələr əldə edərək, bu proqramı daha da sıxlaş[7-8]dıracaqsınız və bu müddətləri qısaldacaqsınız. Çünki bu, sizin üçün də, bizim üçün də lazımdır. Bu işləri sürətlə aparmaq və son nəticəni əldə etmək hamımız üçün lazımdır.

Eyni zamanda sizin bu məlumatınızı dinləyərkən mən bir daha düşündüm – nə qədər düzgün iş gördük ki, "Şahdəniz" yatağının müştərək işlənməsi haqqında müqaviləni biz keçən ilin iyun ayında imzaladıq. Bunu ona görə deyirəm ki, o vaxt bu məsələni müzakirə edərkən ətrafımızda olan, bizimlə bərabər işləyən, o cümlədən kənardakı adamlardan bəziləri hesab edirdilər ki, bu müqaviləni imzalamaq lazım deyil. Onlar deyirdilər ki, biz gözləyək, "Şahdəniz" yatağının işlənməsinə gələcəkdə – bağlanmış birinci müqavilədən alacağımız vəsait vasitəsilə başlayarıq. İndi təsəvvür edin, birinci müqavilədən neft almaq, gəlir əldə etmək, müəyyən texnika, texnologiya yaratmaq və bundan sonra "Şahdəniz" yatağının işlənməsinə başlamaq üçün bizə nə qədər vaxt lazım idi? İşə bu cür başlayandan sonra onun gələcəkdə nə qədər vaxt alacağı göz qabağındadır.

Bu müqavilələrin əleyhinə çıxanlar, yaxud ona şübhə edən adamlar belə hərəkətləri bir tərəfdən, bu məsələləri dərk edə bilmədiklərinə görə edirlər, digər tərəfdən isə Azərbaycanın irəli getməsinə, bizim işlərimizə mane olmaq istəyirdilər. Bugünkü müzakirə onu açıq-aydın göstərir ki, həm "Şahdəniz" müqaviləsini, həm "Qarabağ" müqaviləsini, həm "Əşrəfi-Dan Ulduzu" müqaviləsini, həm də "Lənkərandəniz – Talışdəniz" müqaviləsini imzaladığımıza görə biz çox doğru yoldayıq. Onların hamısı bir vaxtda işə düşməlidir. Onların hər birinin icrası, son nəticənin əldə olunması, respublikamız üçün fayda verməsi böyük vaxt tələb edir.

"Dədə Qorqud" yarımdalma qazma qurğusunun bərpa olunması, modernləşdirilməsi üçün əvvəlcə 37 milyon dollar deyirdilər, indi isə bildirirlər ki, 40 milyon dollar vəsait xərclənibdir. Burada deyildi ki, "Şelf-5" qurğusunun hazırlanması və modernləşdirilməsi, – verilən məlumata görə, onun əsas hissəsindən az bir şey qalacaq, – həmin qurğunun tamamilə yeni texnika və texnologiya ilə quraşdırılması üçün 115 milyon dollar vəsait lazımdır. Təsəvvür edin, bu işləri görmək, [8-9] müəyyən texnika, texnologiya yaratmaq üçün nə qədər böyük xərclər lazımdır.

Bu faktlar bir daha sübut edir ki, biz bu problemlərin həllində düzgün yoldayıq və bundan sonra da bu yolla gedəcəyik. Dünyanın böyük neft şirkətləri ilə bundan sonra da əməkdaşlıq edəcəyik. Azərbaycanın sərvətlərindən səmərəli istifadə etməyə nail olacağıq.

Cənab Şermanın verdiyi vədlərin hamısını mən nəzərə alıram. Bu vədlərin yerinə yetirilməsini gələcəkdə də izləyəcəyəm. Güman edirəm ki, onlar bu işləri nəinki vaxtında, hətta vaxtından qabaq yerinə yetirə biləcəklər. Azərbaycan Dövlət Neft Şirkəti bu barədə öz vəzifələrini bilir və üzərinə düşən bu vəzifələri vaxtlı-vaxtında yerinə yetirməlidir. Ancaq mən bir daha qeyd etmək istəyirəm ki, bu proqramın yerinə yetirilməsinə çalışmalısınız. Mən sizdən rica edirəm ki, Azərbaycanın sənaye müəssisələrinin, mütəxəssislərinin ümumiyyətlə, respublikamızın işçi qüvvəsinin imkanlarından maksimum istifadə edəsiniz

Mən sizin bu barədə verdiyiniz vədləri nəzərə alıram. Ümidvaram ki, siz onları yerinə yetirəcəksiniz. Eyni zamanda belə anladım və mən belə də istəyirəm ki, Azərbaycanın sənaye müəssisələri, mütəxəssisləri, respublikamızın işçi qüvvəsi, fəhlələri bu işlərə get-gedə daha da çox cəlb olunacaqlar. Mən baş nazir Artur Rasizadəyə tapşırıram ki, o, bu məsələlərə nəzarət etsin və bu layihənin həyata keçirilməsi üçün Azərbaycanın sənaye müəssisələrindən, şirkətlərindən, zavodlarından istifadə edilməsində əgər bir problem yaranarsa, bunlara vaxtında baxıb, lazımi ölçü götürsün.

Cənab Şerman, sizdən və idarəetmə komitəsinin üzvlərindən xahiş edirəm ki, belə çətinliklərlə rastlaşan zaman siz utanmayın, çəkinməyin, mənə, xüsusən baş nazirə müraciət edin. Mən bu məsələləri ona həvalə edirəm. Siz burada dediniz, əgər sifarişinizi Azərbaycanda icra etmək mümkün deyilsə, onu Leninqrad vilayətində hazırladırsınızsa, edin, yaxud başqa bir iş Qərb ölkələrində görülməlidirsə, edin. Amma eyni zamanda, o cihazları, texnikanı, o şeyləri ki, Azərbaycanın müəssisələrində də hazırlamaq olar, xahiş edirəm, buna xüsusi fikir verin. [9-10]

Cənab Şerman qeyd etdi, indi respublikamızın neft sənayesində dünyanın bir çox ölkələrinin nüfuzlu neft şirkətləri ilə imzalanmış beş müqavilə, hər bir müqavilənin layihəsini həyata keçirmək üçün orqan var – birinci müqavilə üzrə idarəetmə orqanı konsorsiumdur, Beynəlxalq Əməliyyat Şirkətidir, ondan sonra imzalanan müqavilələrin hər biri üzrə idarəetmə komitəsi vardır. Mən bu fikirdəyəm ki, məsələnin sürətlə və səmərəli həll edilməsi üçün bu təşkilatlar, kollektivlər arasında sıx əlaqə olmalıdır. Gərək bu kollektivlər bir-biri ilə çox sıx əlaqədə işləsinlər. Onu siz də, biz də nəzərə alırıq ki, bir çox işlərin görülməsi, yəni infrastrukturların yaranması, neft kəmərlərinin, terminalların tikilməsi, yaxud bütün müqavilələrin həyata keçirilməsində gələcəkdə səmərəli istifadə olunacaq müəssisələrin yaradılması bu müştərək işi daha da çox tələb edir. Ona görə də sizin bir-birinizlə sıx əlaqədə işləməyiniz lazımdır.

Mən bir-birinizlə fikir, təcrübə mübadiləsi aparmaq barədə cənab Şermanın verdiyi məlumatlardan çox məmnunam. Amma hesab edirəm ki, bu əlaqələr bundan sonra daha da sıx olmalıdır. İndi bizim imzalanmış beş müqaviləmiz vardır. Düşünürəm ki, işlər qaydaya düşəndən sonra bu müqavilələrin hər birinin layihələrini həyata keçirən təşkilatların bir yerdə toplantısını, görüşünü keçirib, qarşılıqlı əlaqələr məsələlərini müzakirə etmək olar. Mən belə bir vəzifəni öz üzərimə götürürəm.

Nəhayət, görüşümüzə yekun vuraraq demək istəyirəm ki, qısa bir müddətdə, cəmisi beş ay içərisində siz çox iş görmüsünüz. Mən gördüyünüz bu işlər münasibətilə sizi təbrik edirəm. 1997-ci ildə nəzərdə tutulmuş proqramın vaxtından əvvəl yerinə yetirilməsini arzu edirəm. İş prosesində nə vaxt ehtiyacınız olsa, siz mənə müraciət edə bilərsiniz. Mən sizi həmişə dinləməyə hazıram.

Bilməlisiniz ki, həm bu layihənin, həm də bütün başqa müqavilələrin həyata keçirilməsi Azərbaycan dövlətinin ən mühüm bir vəzifəsidir. Bu məsələlər mənim şəxsi nəzarətimdədir.

Bu gün elan etdiyiniz proqramın həyata keçirilməsində sizə uğurlar arzulayıram. Sağ olun, gələn görüşlərədək.

[10-11]

## XALQ ŞAİRİ SƏMƏD VURĞUNUN EV MUZEYİNDƏ ÇIXIŞ

*6 mart 1997-ci il*

Mən 1975-ci ilin oktyabrını xatırladım. O vaxtdan 21 il keçib. Keçmiş əsrlərdə də, XX əsrdə də Azərbaycanın böyük insanları olubdur. Ancaq bu böyük insanların xatirəsini əbədiləşdirmək lazımdır. Gələcək nəsillər onların həyat yolunu, yaradıcılığını, gördükləri işi, yaratdıqlarını daim bilməlidirlər. Bu sahədə müxtəlif vasitələrdən istifadə etmək lazımdır.

1970-ci illərdə biz xalqımızın böyük şəxsiyyətlərinin ev muzeylərinin yaradılması fikrini meydana atdıq. Bu gün sizə demək istəyirəm ki, bu, mənim şəxsi təşəbbüsümlə olmuşdur.

Xatirimdədir, biz 1974-cü ildə ilk dəfə Üzeyir Hacıbəyovun ev muzeyini yaratdıq. Sonra isə, 1975-ci ildə Səməd Vurğunun 70 illik yubileyi ərəfəsində onun ev muzeyinin yaradılması haqqında qərar qəbul etdik.

Xatirimdədir, bu, o vaxt asan məsələ deyildi. Siz – ailə üzvləri, hamınız bu evdə yaşamısınız, bu, sizin doğma eviniz idi. Səməd Vurğun da, siz də burada yaşamışdınız. Mən təklif edəndə ki, Səməd Vurğunun ev muzeyi yaradılsın və siz başqa mənzillərə köçəsiniz, başa düşürəm, psixoloji nöqteyi-nəzərdən bu, sizin üçün nə qədər çətin bir məsələ, proses idi. Mən çox məmnunam ki, o vaxt siz bu təklifi çox şüurlu, düşüncəli olaraq qəbul etdiniz, bu cür gözəl mənzili qoydunuz, sonra tikilmiş müasir mənzillərə köçdünüz. Xatirəmdədir, o vaxt siz başqa mənzillərlə təmin olundunuz. O vaxtdan 21 il keçib, görürsünüz bu, nə qədər lazım idi. Ona görə də mən birinci növbədə Səməd Vurğunun həyat yoldaşı Xavər xanıma, onun övladlarına təşəkkür edirəm. O vaxt siz burada ev muzeyi açmağa imkan yaratdınız. [11-12]

Şübhəsiz ki, bu muzey sizin üçün də lazımdır. Çünki Səməd Vurğun birinci növbədə sizə, ailənizə mənsubdur. Amma eyni zamanda Səməd Vurğun bütün xalqımıza, millətimizə mənsubdur. Siz də, biz də bu addımı birlikdə atdıq və belə bir mədəniyyət ocağı, Səməd Vurğun ocağı yaratdıq. Bilirsiniz, Səməd Vurğunun xatirəsini daim yeni-yeni nəsillərə çatdırmaq üçün bu muzeyin bu gün də, gələcəkdə də böyük əhəmiyyəti vardır. Xatirimdədir, biz bu muzeyi o vaxt böyük təntənə ilə açdıq. Həmin vaxt keçmiş Sovetlər İttifaqının böyük respublikalarından bizə çox mötəbər qonaqlar gəlmişdi. O dövrün ən görkəmli şairləri, yazıçıları, ədəbiyyatçıları, mədəniyyət xadimləri respublikamıza gəlmişdilər. Biz bu tədbiri elə bir vaxtda keçirdik ki, ev muzeyini məhz belə tanınmış adamların iştirakı ilə açaq.

Ev muzeyinin açılmasından 21 il keçir. Biz Səməd Vurğunun 70 illik, 80 illik yubileylərini də keçirdik. Allah bizə imkan verdi, yaşadıq. Səməd Vurğunun 90 illik yubileyini də qeyd edirik. Hesab edirəm ki, bu muzey indi təmirdən və eksponatları dəyişiləndən sonra daha yaxşı təsir bağışlayır. Bu muzey Səməd Vurğunun yaradıcılığını bu gün də, gələcəkdə də təbliğ etmək üçün gözəl bir vasitədir.

Bilirsiniz, bu bizim milli borcumuzdur. Çünki Səməd Vurğun millətimizin başını tarixdə uca edən şəxsiyyətlərdən biridir. Onun yaradıcılığını daim yaşatmaq, yeni-yeni nəsillərə çatdırmaq bizim borcumuzdur. Biz bu ənənəni yaradaraq, bizdən sonra gələn nəsillərə də yol açırıq ki, onlar da bu yolla getsinlər.

İndi biz buradakı şəkillərə baxarkən Aybəniz xanım dedi ki, Səməd Vurğunun "Fərhad və Şirin" pyesi 50 il bundan qabaq tamaşaya qoyulmuşdur. Mən onun fikri ilə razıyam ki, indiki gənc nəsildən çoxları "Fərhad və Şirin" pyesinin tamaşasına baxmayıblar və ya bəziləri bu əsəri oxumayıblar. İndi bu əsər teatrımızda yenidən hazırlanır, onun tamaşası olacaq, bizim gənclər onu görəcəklər. Bu tamaşanı yenidən gedib görən yaşlı adamlar üçün də maraqlı olacaqdır. Bu tamaşanı mən vaxtilə çox böyük məmnuniyyətlə gedib Azərbaycan Dövlət Dram Teatrında görmüşəm. Bu əsər mənə çox böyük [12-13] təsir bağışladı. Onu gedib yenidən görmək mənə də, sizə də lazımdır. Amma gənclərə xüsusən lazımdır.

Milli ənənələrimizin nə qədər dəyərli olduğunu dünyaya gələn yeni nəsillərə çatdırmaq və onları bu ənənələr əsasında tərbiyə etmək üçün belə muzeylər lazımdır. Səməd Vurğun muzeyi də məhz buna xidmət edir. Mən çox məmnunam ki, siz, Səməd Vurğunun ailə üzvləri Xavər xanım, Aybəniz xanım bu muzeyi 21 ildir saxlayırsınız, qoruyursunuz. Bu muzey daim fəaliyyətdədir. O, xalqımıza, millətimizə xidmət edir. Bu muzeyi biz ölkəmizə ziyarətə gələn insanlar üçün gözəl bir nümunə kimi göstəririk ki, xalqımız nəyə malikdir, nəyə qadirdir, xalqımızın milli sərvətləri nədən ibarətdir. Gəlib həm bu muzeyi görənlər, həm buradakı bu kitabları oxuyan, onlarla tanış olanlar xalqımızı daha da dərindən tanıyacaqlar.

Mən Səməd Vurğunun 90 illik yubileyi münasibətilə sizi təbrik edirəm. Təşəkkür edirəm ki, tək sizə yox, bütün Azərbaycan xalqına mənsub olan Səməd Vurğunun irsini, adını və burada onun ruhunu yaşadırsınız.

* * *

## MUZEYİN FƏXRİ QONAQLAR KİTABINA YAZILMIŞ ÜRƏK SÖZLƏRİ:

*"Bu gün böyük şair Səməd Vurğunun 90 illik yubileyini qeyd edərkən, 1975-ci ilin oktyabr ayını xatırlayıram. O günlər ölməz Səməd Vurğunun ev muzeyinin təntənəli açılışı oldu. Ötən illər muzey Səməd Vurğunun həyat və yaradıcılığını təbliğ etmək üçün çox iş görüb, xalqımızın, mədəniyyətimizin inkişafına böyük xidmət göstərib. Əminəm ki, Səməd Vurğunun ədəbi irsi daim yaşayacaq, muzey ölkəmizin görkəmli mədəniyyət ocağı kimi o şərəfli işə bundan sonra da xidmət edəcəkdir".*

**H. Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti"**
[13-14]

## SƏMƏD VURĞUNUN 90 İLLİK YUBİLEYİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN BAKIYA GƏLMİŞ DAĞISTANIN XALQ ŞAİRİ RƏSUL HƏMZƏTOVLA GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Prezident Sarayı*

*7 mart 1997-ci il*

Hörmətli Rəsul Kubaçi!

Mən sizi səmimi salamlayır və Azərbaycana gəlişinizdən məmnun qaldığımı bildirirəm. Qafqaz və Dağıstan xalqlarının böyük və qəhrəman oğlu Şamilin 200 illik yubileyi münasibətilə Kibaçi sənətkarlarının hazırladığı suvenir xəncəri və şer kitablarınızı mənə hədiyyə etdiyinizə görə təşəkkür edirəm. Bir daha vurğulamaq istəyirəm ki, sizin Bakıya, Səməd Vurğunun yubileyinə gəlişinizdən çox məmnunam.

Çıxışınızda göstərdiniz ki, Səməd Vurğun sizin üçün müəllim və ən əziz adam olmuşdur. Səməd Vurğun təbiətən böyük şair və böyük insan idi.

Səməd Vurğunun adı və xatirəsi xalqımız üçün çox əzizdir. Biz Səməd Vurğunun 70 illiyini bayram kimi qeyd etmiş, ondan bir qədər də əvvəl – 1975-ci ildə Bakıda sovet ədəbiyyatı günləri keçirilərkən Səməd Vurğunun ev muzeyini təntənəli surətdə açmış, həmçinin böyük Azərbaycan şairinin adı ilə bağlı bir çox digər tədbirləri həyata keçirmişik.

Hörmətli Rəsul Həmzətov, siz həmişə Azərbaycanın fəxri qonağı olmuşsunuz, burada sizin istedadınızın çoxlu pərəstişkarı var... Böyük məmnunluqla bildirirəm ki, Azərbaycan və Dağıstan xalqlarının dərin tarixi köklərə malik münasibətləri[14-15]nin möhkəmlənməsi və inkişafında sizin – Dağıstanın xalq şairinin böyük xidmətləri var. Xalqlarımızı birləşdirən cəhətlərdən biri də budur ki, Dağıstanın ağır dövründə orada Əziz Əliyev işləmişdir. Bildirirəm ki, Azərbaycanda bu görkəmli dövlət xadimi və alimin 100 illiyi qeyd olunur. Arzu edirəm ki, Azərbaycan və Dağıstan xalqları arasındakı qədim və mehriban münasibətlər əbədi qorunub saxlansın.

[15-16]

## XALQ ŞAİRİ SƏMƏD VURĞUNUN 90 İLLİK YUBİLEYİNƏ HƏSR EDİLMİŞ GECƏDƏ NİTQ

*Respublika sarayı*

*7 mart 1997-ci il*

Hörmətli xanımlar və cənablar!
Əziz dostlar!

Böyük şair Səməd Vurğunun 90 illik yubileyi şeir, mədəniyyət bayramıdır, Azərbaycan xalqının bayramıdır. Bu bayram münasibətilə mən sizi, bütün Azərbaycan vətəndaşlarını ürəkdən təbrik edirəm.

Bu bayram mərasimlərində iştirak etmək üçün dost ölkələrdən zəhmət çəkib Azərbaycana gəlmiş hörmətli qonaqlarımıza təşəkkür edirəm.

Azərbaycan bir ildir ki, Səməd Vurğunun 90 illik yubileyini qeyd edir, ölkəmizdə yubiley mərasimləri keçirilir. Bu təbiidir, çünki Səməd Vurğun xalqımız, millətimiz üçün o qədər dəyərli bir şəxsiyyət olub, o qədər zəngin bir irs qoyub ki, onun 90 illik yubileyi bir gün, bir ay yox, məhz bir il müddətində keçirilməli idi. Bu müddətdə hər yerdə, hər evdə, hər şəhərdə, hər kənddə Səməd Vurğun yad olunur, onun şeirləri oxunur, əsərləri yenidən canlanır və bunlar hamısı müasirlərimizə, gənclərimizə ruh verir, onları sevindirir, şadlandırır.

Səməd Vurğun XX əsrin əvvəlində dünyaya gəlib və az ömür sürərək 50-dən sonra dünyasını dəyişibdir. XX əsr bəşər tarixində çox ziddiyyətli, mürəkkəb proseslər dövrüdür. Səməd Vurğunun yaşadığı illər həddindən artıq mürəkkəb, qarışıq, çətin olub. Birinci dünya müharibəsi dünyaya nə qədər ziyanlar vurubdur. Ondan sonra Yer kürəsinin altıda bir hissəsində yeni bir quruluş, yeni ideologiya hökm sürməyə başlayıbdır. Sonra bəşəriyyət üçün ən təhlükəli olan faşizm mey[16-17]dana çıxıb, İkinci dünya müharibəsi başlanıb, nə qədər insanlar qurban gedib. İkinci dünya müharibəsindən sonra "soyuq müharibə" başlayıb, yer üzündə yenə də gərginlik yaranıb, eyni zamanda sülhü müdafiə etmək üçün qüvvələr yaranıbdır. Bunlar o dövrün ən böyük, tarixi hadisələridir. Belə bir dövrdə yaşamaq, yaratmaq və yüksək yaradıcılıq səviyyəsinə çatmaq hər bir insana nəsib ola bilməzdi.

Səməd Vurğun öz dövrünün, zəmanəsinin mühitində, çərçivəsində yazıb-yaradıb və Azərbaycan xalqı qarşısında əvəzsiz xidmətlər göstəribdir, Azərbaycan ədəbiyyatını, mədəniyyətini, dünya ədəbiyyatını zənginləşdiribdir. Fitri, parlaq istedadı, çox nadir xüsusiyyətə malik olan istedadı, eyni zamanda ən gənc yaşlarından yazıb-yaratmaq əzmi Səməd Vurğunu qısa bir zamanda xalqımızın sevimli şairinə çevirmiş və o, həm Azərbaycanda, həm də bir çox xarici ölkələrdə tanınmış, sayılan bir insan olmuşdur.

Səməd Vurğunun yaradıcılığı dəryadır, indiyədək yazılanlar bunun hamısını əks etdirə bilməyib. Hesab edirəm ki, onun yaradıcılığı və qoyduğu irs bu gün də, gələcəkdə də tədqiq olunacaq və bu barədə yeni-yeni əsərlər yaranacaqdır.

Səməd Vurğun böyük şairdir. Şərq aləmində şair həmişə ən yüksək hörmətə layiq olubdur. Səməd Vurğun isə öz dövrünün şairlərinin şairi olubdur.

Səməd Vurğun Azərbaycan şeirinə çox böyük yeniliklər gətiribdir. Ancaq mən bir məqama toxunmaq istəyirəm. Böyük şairimiz Molla Pənah Vaqif XVIII əsrdə şeir dilini xalq dilinə daha da yaxınlaşdırdı. Onun yazdığı şeirləri xalqın bütün təbəqələri həm anlaya, həm qavraya bildi, həm də sevdi. Beləliklə, o. Azərbaycan şeirində yeni bir yol açdı. Səməd Vurğun Azərbaycan klassiklərinin ənənələrini davam etdirərək, bizim dövrümüzdə – məhz 20-ci, 30-cu, 40-cı illərdə Azərbaycan şeirini daha da yüksək səviyyələrə qaldırdı.

Səməd Vurğunun şeiri Azərbaycan dilini zənginləşdiribdir, inkişaf etdiribdir. Azərbaycan dilini hər bir azərbaycanlı üçün doğma, sevimli, şirin edibdir. Bu da Səməd Vurğunun Azərbaycan xalqı qarşısında göstərdiyi böyük xidmətlərdən biridir.

Səməd Vurğun şerinin böyüklüyü, eyni zamanda gözəlliyi ondan ibarət idi ki, onun hər kəlməsi, hər sətri hər bir azər[17-18]baycanlının qəlbinə çatırdı, onun beynini fəth edirdi, onu öz təsiri altına salırdı. Səməd Vurğunun şeiri bu gün də müasirlərimizə, gənc nəslə ilham, ruh verir, onları coşdurur, daha da vətənpərvər edir, onlara vətəni, milləti, torpağı sevməyi öyrədir.

Səməd Vurğunun ədəbi yaradıcılığı çox genişdir, çoxşaxəlidir. Bu gün burada məndən əvvəl çıxış edən natiqlər bu barədə çox gözəl və əsaslı fikirlər söylədilər. Səməd Vurğunun bürün yaradıcılığında ən görkəmli yer tutan onun "Vaqif" tarixi mənzum dramıdır və Azərbaycan milli teatrında onun əsasında yaranmış "Vaqif" tamaşasıdır. Bu gün tam qətiyyətlə demək olar ki, böyük Səməd Vurğunun 60 il bundan əvvəl yaratdığı və teatrımızı daim inkişaf etdirən "Vaqif" pyesi XX əsr mədəniyyət, ədəbiyyat tariximizdə ən görkəmli yer tutubdur.

"Vaqif" əsərinin xüsusiyyəti, şübhəsiz ki, birinci növbədə bu əsərin Azərbaycan xalqının tarixinin müəyyən bir hissəsini əks etdirməkdən ibarətdir. O, eyni zamanda, dərin fəlsəfi fikirləri əks etdirən bir əsərdir, hər bir azərbaycanlının ürəyinə yatan, onu sevindirən şeir misralarıdır.

"Vaqif" əsəri Azərbaycan xalqına onun Molla Pənah Vaqif kimi bir şəxsiyyətini tanıdan əsərdir. Etiraf etməliyik ki, Səməd Vurğunun "Vaqif" əsəri yarananadək Molla Pənah Vaqif xalqın arasında geniş təbliğ olunmamışdı və xalq onu o qədər də tanımırdı. Şübhəsiz ki, ədəbiyyatçılar, ziyalılar, şeir pərəstişkarları Vaqifin şeirlərini yaxşı bilirdilər. XVIII əsrdə Azərbaycan ədəbiyyatının, şeirinin inkişafında Vaqifin xidmətləri haqqında mən dedim. Ancaq Vaqifi geniş tanıtmaq, onu xalqa daha da yaxınlaşdırmaq, Vaqifin şəxsiyyətini açmaq, onun surətini xalqa göstərmək və Vaqifi xalqa doğma etmək – bunların hamısını Səməd Vurğun etdi.

Xatırlayın, 1937-ci ilədək – "Vaqif" əsəri yaranana qədər Azərbaycanda Vaqif adı daşıyan adam ya olmayıb, ya da çox az olubdur. Bəlkə də heç kəs buna fikir verməyib. Bəlkə do hamı güman edir ki, Azərbaycanda geniş yayılmış Vaqif adı elə dövri-qədimdəndir. Amma "Vaqif" əsəri meydana çıxandan sonra insanlar Vaqifi, yəni Səməd Vurğunun yaratdığı Vaqif obrazını o qədər sevdi ki, həddindən çox ailə yeni doğulan övladlarına Vaqif adı verdi. [18-19]

Bilirsiniz, bu təhlili genişləndirmək, bu barədə daha geniş fikirlər, mülahizələr söyləmək olar. Ancaq mən bu məqamları xatırladıram ki, Səməd Vurğunun yaradıcılığının nə qədər dərin iz buraxdığını bu gün biz bir daha dərk edək.

Yenə də "Vaqif" pyesinə qayıtmalıyam. Azərbaycanın milli teatrı qədim tarixə, böyük ənənələrə malikdir. Biz 1873-cü ildə Şərqdə ilk dəfə yaranmış Azərbaycan teatrı ilə, onun tarixi ilə həmişə fəxr etmişik, edirik. Ancaq Azərbaycan Dram Teatrının tarixində "Vaqif" pyesi bir inqilab oldu. O illəri yaşayan adamlar xatırlamalıdırlar – bu, mənim də xatirimdədir – həmin tamaşa o vaxt bir inqilab oldu.

Azərbaycan teatrının ən parlaq səhifələrindən biri "Vaqif" pyesidir. onun yaranmasıdır və uzun illər onun teatrımızın səhnəsində olmasıdır. "Vaqif" pyesi, eyni zamanda teatrımızın görkəmli sənətkarlarını daha da yüksəltdi.

Bu gün biz Vaqifin şəkillərini, heykəlini görürük. Amma həqiqətdə Vaqifin fotoşəkili olmayıbdır. Vaqifin şəklini də Səməd Vurğun və Vaqif rolunu oynayan böyük sənətkarımız, aktyorumuz Ələsgər Ələkbərov və Azərbaycan Dövlət Dram Teatrı yaratmışlar.

Görürsünüz, Səməd Vurğun bir əsərlə bizim milli mədəniyyətimizə, ədəbiyyatımıza, mənəviyyatımıza aid nə qədər böyük məsələləri həll edibdir. Səməd Vurğun xalqımıza nə qədər böyük xidmətlər göstəribdir. Biz də Səməd Vurğunun yolu ilə gedərək Vaqifin adını əbədiləşdirməyə çalışdıq, onun ölümündən 200 il sonra Şuşada, Cıdır düzündə Vaqifin qəbri üzərində böyük məqbərə yaratdıq. Həmin məqbərədə Səməd Vurğun, Azərbaycan teatrı və Ələsgər Ələkbərov tərəfindən yaradılmış Vaqif surətinin heykəlini qoyduq.

Səməd Vurğunun digər dram əsərləri də yüksək qiymətə layiqdir. "Fərhad və Şirin" də, "Xanlar" da, "İnsan" da Azərbaycan ədəbiyyatına, şeirinə, teatrına böyük töhfələrdir. Onlar əbədi yaşayacaqlar.

Səməd Vurğun həddindən çox şeirlər, poemalar yazıbdır. Bütün bu poemalarının, şeirlərinin və pyeslərindəki şeirlərin hamısı məhz Səməd Vurğuna məxsusdur. Bütün bunlar onu göstərir ki, Səməd Vurğun ana dilimizi – Azərbaycan dilini təkmilləşdirib, inkişaf etdiribdir. Bu, Səməd Vurğunun ən [19-20] böyük xidmətlərindən biridir. Bizim hazırkı dilimiz 70, 80, 90 il bundan əvvəl olan dil deyil. İndiki dilimiz – türk dilləri qrupuna məxsus olan Azərbaycan dili, türk dillərinin kökündən gələn Azərbaycan dili məhz Səməd Vurğun kimi şəxsiyyətlərin yaradıcılığı nəticəsində, onların şeirlərinin, əsərlərinin nəticəsində bu qədər gözəlləşib, bu qədər zənginləşib, səlisləşib, şirinləşibdir. Biz bu dilimizlə fəxr edirik və fəxr edə bilərik.

Səməd Vurğun eyni zamanda böyük alim, filosof idi. Səməd Vurğun Azərbaycan Elmlər Akademiyasının təsisçilərindən, yaradıcılarından biridir. Səməd Vurğun Elmlər Akademiyasının yaradılmasının təşəbbüsçülərindən biridir. O, sadəcə akademik seçilmiş bir adam deyil. Səməd Vurğun və məhz onun kimi Üzeyir Hacıbəyov, Heydər Hüseynov, Yusif Məmmədəliyev, Mustafa bəy Topçubaşov, Mirzə İbrahimov və başqa belə insanların təşəbbüsü nəticəsində 1945-ci ildə Azərbaycan Elmlər Akademiyası yaranıbdır. Bu, böyük tarixi hadisədir. Burada Səməd Vurğunun xidmətləri böyükdür. Ən böyük xoşbəxtlik ondadır ki, Səməd Vurğun ömrünün son illərində həmin akademiyanın vitse-prezidenti vəzifəsini daşımışdır və Azərbaycan elminin, ədəbiyyatşünaslığının inkişafında çox əvəzsiz xidmətlər göstərmişdir.

Səməd Vurğunun bütün əsərləri Vətənə məhəbbətlə, Azərbaycana, xalqımızın dilinə, milli ənənələrinə məhəbbətlə doludur. Səməd Vurğunun şəxsiyyətini ifadə edən, onun əsərlərinin əsas mənası və məzmunu bax, budur.

Şübhəsiz ki. Səməd Vurğunun əsərləri öz dövründə yazılıbdır. O dövrün hökmü, tələbləri Səməd Vurğunun əsərlərində də öz əksini tapıbdır. Bu gün heç kəs buna görə Səməd Vurğunun əvəzindən üzr istəməməlidir. Səməd Vurğunun bütün əsərləri ilə Azərbaycan xalqı əvvəldən axıradək fəxr edir, bundan sonra da fəxr edəcəkdir.

Səməd Vurğun komsomola həsr etdiyi poemasında da, Kommunist Partiyasına həsr etdiyi "Zamanın bayraqdarı" poemasında da öz əqidəsinə xidmət edib, öz əqidəsinə sadiq qalıbdır, eyni zamanda yüksək şeir sənətini nümayiş etdiribdir.

Şərqdə həmişə şeir böyük hörmətə layiq olubdur və hər bir şair öz dövrünün aşiqi olubdur, öz dövrünü yazıbdır. Biz buna görə keçmiş əsrlərin heç bir şairinə hər hansı bir mənfi müna[20-21]sibət göstərə bilmərik və kimisə qınaya bilmərik. Səməd Vurğunu da heç kəs qınaya bilməz ki, o şeirləri, poemaları yazıbdır.

Səməd Vurğun öz xalqına, millətinə sadiq insan olubdur. O, öz millətinin oyanışına, milli dirçəlişinə xidmət edibdir. Məhz Səməd Vurğunun şeirləri, poemaları, pyesləri, dramları – hamısı birlikdə xalqımızı xırda-xırda bu yüksək səviyyəyə çıxarıbdır.

Səməd Vurğunun yaradıcılığının əsas xüsusiyyətləri bax, budur. Məhz buna görə Səməd Vurğun qiymətlidir. Səməd Vurğun bütün yaradıcılığı boyu öz xalqını azad görmək istəyibdir. Səməd Vurğun həmişə azadlıq, müstəqillik tərəfdarı olubdur. Səməd Vurğun Üzeyir Hacıbəyovla, Cəfər Cabbarlı ilə çiyin-çiyinə gedibdir. Onlar – Səməd Vurğun da, Üzeyir Hacıbəyov da, Cəfər Cabbarlı da Azərbaycanı azad, müstəqil, sərbəst görmək istəyiblər.

Biz bu günümüzə görə – xalqımızın mədəniyyətinin, ədəbiyyatının, elminin, təhsilinin ümumi səviyyəsinin bu mərtəbəyə qalxmasına görə Səməd Vurğuna minnətdarlığımızı bildirməliyik.

Bilirsiniz, hər bir insanın özünəməxsus taleyi vardır. Az ömür yaşamasına baxmayaraq, Səməd Vurğunun taleyi xoşbəxt taledir. Ona görə xoşbəxt taledir ki, Səməd Vurğun 50 il yaşasa da, amma 40 ildir Azərbaycan xalqının dilindən və dünyanın çox xalqlarının dilindən düşmür.

Bu gün biz azad, müstəqil ölkəmizdə yaşayarkən keçmiş nəsillərə minnətdar olmalıyıq, bizdən qabaq yaşamış, yaratmış insanlara daim minnətdarlığımızı bildirməliyik. Çünki bugünkü Azərbaycan əzəmətli, böyük bir binadır. Bu binanı kərpic-kərpic qoyan indiyə qədər yaşamış, yaratmış nəsillərdir. Bu binaya hərə öz payını qoyubdur – kimi çox, kimi az. Amma bu insanların tam əksəriyyəti Azərbaycanı qurmağa, yaratmağa və inkişaf etdirməyə çalışmışdır. Onlardan da ən görkəmlisi böyük şairimiz Səməd Vurğundur.

Səməd Vurğun öz yaradıcılığı, əsərləri, ictimai-siyasi fəaliyyəti ilə XX əsr Azərbaycan tarixində ən görkəmli şəxsiyyətlərdən biri olubdur. Biz Səməd Vurğun ilə fəxr edirik. Çox sevindirici haldır ki, biz bu yubileyi dostlarımızla – [21-22] Türkiyə cümhuriyyətinin, Qazaxıstan, Rusiya, Gürcüstan, Dağıstan respublikalarının nümayəndələri ilə bir yerdə keçiririk. Bu da təbiidir. Buradakı çıxışların hamısı çox səmimidir və Səməd Vurğunun yaradıcılığına, onun qoyduğu irsə böyük hörmət hissi ilə doludur.

Burada şəxsi xatirələr də söylənildi. Mənim də şəxsi xatirələrim vardır. Biz gənclər vaxtilə Səməd Vurğunu sadəcə olaraq görməkdən özümüzü xoşbəxt hesab edirdik. Biz özümüzü xoşbəxt hesab edirdik ki, Səməd Vurğunu haradasa gördük, dinlədik, eşitdik. Biz o illərdə bax, belə yaşamışdıq.

Xatirimdədir, 1952-ci ildə Opera və Balet Teatrının binasında Azərbaycan ziyalılarının iclası keçirilirdi. Azərbaycanın o vaxtkı rəhbəri də ziyalılara çox təzyiq edirdi. Səməd Vurğuna söz verildi. Onun o çıxışı qulağımda bugünkü kimi səslənir. Səməd Vurğuna söz veriləndə salona toplaşanlar onu çox böyük hərarətlə qarşıladılar. Səməd Vurğun çox dərin məzmunlu və həyəcanlı bir nitq söylədi. Həmin nitq yəqin, haradasa dərc olunub və onu oxuyanlar bunları bilirlər. Onun o nitqi də məhz Azərbaycanın ədəbiyyatına, mədəniyyətinə, ziyalılarına aid qayğılarla dolu idi. O vaxt ona iki-üç dəfə replika verdilər, amma Səməd Vurğun heç bir dəfə də əyilmədi, sınmadı, iradəsini itirmədi, öz nitqini mərdi-mərdanə, böyük iftixar hissi ilə başa çatdırdı.

Səməd Vurğun o vaxt bizim hamımız üçün nümunə – xalqına, millətinə, ölkəsinə, vətəninə sədaqətlikdə nümunə idi. Səməd Vurğun Azərbaycanı, öz xalqını, öz dilini nə qədər sevirdi! Bunları hər dəfə yada saldıqca insan coşur, həyəcanlanır. Səməd Vurğun əgər bu günləri – Azərbaycanın müstəqilliyini, azadlığını görmədisə də, onun ruhu bu gün bizimlədir. Mən hesab edirəm, onun ruhu bu gün həddindən artıq şaddır ki, Azərbaycan xalqı azaddır, sərbəstdir və Azərbaycan Respublikası müstəqildir.

Səməd Vurğunun "Azərbaycan" şeiri dillərdə əzbər olubdur. Bilirsiniz, o qısa sözlərdə o qədər dərin məna var ki, həmin sözləri hər bir insan dilinə gətirib, təkrar edərkən öz xalqına, ölkəsinə bir daha öz məhəbbətini, sevgisini, sədaqətini ifadə edir: [22-23]

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən!
Anam, doğma, Vətənimsən!
Ayrılarmı könül candan?
Azərbaycan, Azərbaycan!

Biz Səməd Vurğunun ruhu qarşısında baş əyərək deyə bilərik: əziz şairimiz, sənin canın qədər sevdiyin Azərbaycan bu gün müstəqil dövlətdir. Sənin canın qədər sevdiyin xalqın bu gün azaddır. Bu gün mən bir daha bəyan edirəm ki, biz Səməd Vurğunun ruhunu gələcəkdə də şad edəcəyik. Müstəqil Azərbaycan yaşayacaq. Azərbaycanın dövlət müstəqilliyi əbədi, dönməz olacaqdır. Xalqımız daim sərbəst, öz taleyinin sahibi olacaqdır.

Yaşasın müstəqil Azərbaycan!
Yaşasın Səməd Vurğun yaradıcılığı!
Səməd Vurğuna eşq olsun! [23-24]

## BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİLƏ "SEVİL" AZƏRBAYCAN QADINLARI MƏCLİSİNİN TƏŞKİL ETDİYİ GÖRÜŞDƏ NİTQ

*Rəşid Behbudov adına Mahnı Teatrı*

*8 mart 1997-ci il*

Əziz xanımlar!

Mən sizi beynəlxalq qadınlar günü münasibətilə ürəkdən təbrik edir, sizə cansağlığı, daim gözəllik, səadət və bütün işlərinizdə müvəffəqiyyətlər arzulayıram.

Bu bayram münasibətilə mən şəhid analarım, əsgər analarını, ölkəmizin torpaqlarını qoruyan igidlərin analarını, ordumuza əsgər böyüdən anaları xüsusi təbrik edir və onlara öz təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Cəmiyyətdə qadınların üzərinə daim çox böyük vəzifələr düşür, onların yükü həmişə ağırdır. Ancaq qadınların da xüsusiyyəti bundan ibarətdir ki, onlar bu vəzifələri şərəflə yerinə yetirirlər və cəmiyyətdə həmişə olduğu kimi, indi də aparıcı rol oynayırlar.

Ermənistanın Azərbaycana etdiyi hərbi təcavüz nəticəsində bizim qadınların bir qismi evlərindən, yurdlarından didərgin düşüb, ağır vəziyyətdə yaşayır. Onların bir hissəsi çadırlarda yaşayır. Belə bir ağır vəziyyətdə – çadırlarda, yaxud da çox çətin mənzil şəraitində yaşasalar da öz qadınlıq, analıq borcunu yerinə yetirir, övladlar böyüdür, millətimizə, xalqımıza, dövlətimizə sədaqətlə xidmət edirlər. Mən respublikamızın bu dövründə belə ağır vəziyyətdə yaşayan qadınlara xüsusi salamımı çatdırır və onlara cansağlığı, səadət arzulayıram. [24-25]

Qadınlar cəmiyyətin bəzəyidir, gözəlliyidir. Qadınsız cəmiyyət ola bilməz, qadınsız həyat ola bilməz. Azərbaycan qadınları da öz ağıllarına, zəkalarına görə, biliklərinə, istedadlarına görə, eyni zamanda gözəlliklərinə görə dünya qadınları içərisində özünəməxsus və çox yüksək yer tuturlar. Ona görə də biz qadınlarımızla fəxr edirik. Azərbaycanda bütün sahələrdə gördükləri işlərə, səmərəli fəaliyyətlərinə görə bu bayram günündə mən bütün qadınlarımıza təşəkkür edirəm.

Xalqımız milli azadlıq yolu ilə gedir, ölkəmiz müstəqil dövlətdir. Bu keçid dövründə həyatımızda çoxlu çətinliklər, çox böyük maneələr var. Bunlar hamısı bizdən daha fəal işləməyi, daha səfərbər olmağı tələb edir, cəmiyyətimizi, respublikamızın bütün insanlarını daha da birliyə, həmrəyliyə dəvət edir. Bu sahədə qadınların rolu çox böyükdür. Qadınlar həmişə sülh, xoş münasibətlər tərəfdarı olublar. Qadınlar həmişə yaxşı ailələr yaradan qüvvə olublar.

İndi, respublikamızın bu keçid dövründə, çətin dövründə, torpaqlarımızın bir qisminin işğal altında olduğu zamanda, ölkəmizdə yerindən-yurdundan qaçqın, didərgin düşmüş bir milyondan artıq həmvətənimizin olduğu zamanda birliyə, həmrəyliyə, dostluq əlaqələrinə, səmimi əlaqələrə daha çox ehtiyacımız var. Bu yolu keçmək, respublikamızı bu mərhələdən keçirmək üçün, bu çətinliklərdən çıxmaq, Ermənistanın işğalından, təcavüzündən xilas olmaq üçün, respublikamızın ərazi bütövlüyünü bərpa etmək üçün cəmiyyətimizdə qarşılıqlı anlaşma, qarşılıqlı münasibətlər yaranmalıdır. Cəmiyyətimiz daha sıx birləşməli, əsas hədəflərimiz yolunda – dövlət müstəqilliyimizin möhkəmlənməsi və inkişaf etməsi, ölkəmizin ərazi bütövlüyünün bərpası, işğal olunmuş torpaqların azad edilməsi, respublikamızın dünya miqyasında özünəməxsus layiqli yerini tutması yolunda siyasi dünyagörüşündən, fikir müxtəlifliyindən asılı olmayaraq, respublikamızın bütün vətəndaşları bir olmalı, həmrəy olmalı, birləşməlidirlər, bundan sonra ölkəmizdə heç bir təxribata, qarışıqlığa yol verməməlidirlər.

Bütün bu vəzifələrin yerinə yetirilməsində qadınların rolu da böyükdür, imkanları da çoxdur və qadınlar çox iş görüblər, bundan sonra da görə bilərlər. [25-26]

Xatirimdədir, 1994-cü ilin oktyabrında Azərbaycanda dövlət çevrilişinə cəhd göstərən qüvvələr baş qaldırıb ölkənin konstitusion hakimiyyətinin əleyhinə çıxdığı bir zamanda mən televiziya vasitəsilə xalqa müraciət edərkən gecə vaxtı Prezident Sarayının ətrafına yüz minlərlə insan toplaşdı. Onların içərisində qadınları görəndə, yaşlı, gənc qadınları, qucağında təzəcə doğulmuş, yenicə dünyaya gəlmiş uşaqla, südəmər uşaqla o meydana ayaqyalın gələn qadınları görəndə mən bir daha düşündüm ki, qadınlar nə qədər vətənpərvər, millətinə, ölkəsinə, dövlətinə nə qədər sədaqətlidirlər, eyni zamanda nə qədər cəsur, qorxmaz, qəhrəmandırlar. Həmin gecə o meydana toplaşanlar, şübhəsiz ki, böyük təhlükə altında idilər, çünki bizim dövlətçiliyimizin əleyhinə silahlı qüvvələr çıxmışdı. Amma o silahlı qüvvələrin, kişilərin əleyhinə qadınlar, – bəziləri də ayaqyalın, başıaçıq, havanın da bir az soyuq vaxtında qucaqlarında uşaqla çıxmış, Prezident Sarayının önünə gəlmişdilər və Azərbaycan dövlətçiliyinin qorunmasına qalxmışdılar, onun keşiyində dayanmışdılar. Mən bunu heç vaxt unuda bilmərəm.

Ancaq bu, yeganə hal deyil. Qadınlarımız həmişə belə olublar və əminəm ki, bundan sonra da belə olacaqlar. Qadınlarımız müstəqil Azərbaycanın dövlətçiliyinin dayağıdırlar, görəcəyimiz bütün işlərin dayağıdırlar. Ona görə də mən qadınlara indiyə qədər güvəndiyim kimi, bu gün də güvənirəm, sabah da güvənəcəyəm. Mən sizin hamınızı sevirəm, bağrıma basıram, əgər icazə versəniz, öpürəm, sizə cansağlığı, xoşbəxtlik arzu edirəm. Bir daha bayramınız mübarək olsun. Sizə uzun ömür və yeni-yeni nailiyyətlər arzulayıram. Sağ olun. [26-27]

**PAKİSTAN İSLAM RESPUBLİKASININ
BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ
NƏVAZ ŞƏRİF CƏNABLARINA**

Zati-aliləri,

Sizi Pakistan İslam Respublikasının baş naziri seçilməyiniz münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Mən iki qardaş ölkə arasında mövcud olan dərin köklü siyasi, iqtisadi, mədəni və tarixi əlaqələrin daha geniş inkişafına böyük əhəmiyyət verirəm və əminəm ki, Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında dostluq və əməkdaşlıq əlaqələri daha da genişlənib, xalqlarımızın rifahı naminə inkişaf edəcəkdir.

Fürsətdən istifadə edərək, Sizə bir daha öz dərin hörmət və ehtiramımı bildirirəm.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 11 mart 1997-ci il* [27-28]

## XALQ ARTİSTİ LÜTFİ MƏMMƏDBƏYOVA

Hörmətli Lütfi Məmmədbəyov!

Sizi – Azərbaycan teatr və kino sənətinin görkəmli nümayəndəsini anadan olmağınızın 70 illiyi münasibətilə ürəkdən təbrik edirəm.

Əminəm ki, siz bir aktyor, rejissor və müəllim kimi milli teatrımızın inkişafı yollarında yeni uğurlar qazanacaq, öz yaradıcılığınızla sənətsevərləri bundan sonra da sevindirəcəksiniz.

Sizə cansağlığı və xoşbəxtlik arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 13 mart 1997-ci il* [28-29]

**İRAN İSLAM RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ- ALİLƏRİ**
**HAŞİMİ-RƏFSƏNCANİ CƏNABLARINA**

İran İslam Respublikasında təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı olması xəbəri məni dərindən sarsıtdı. Bu faciə ilə əlaqədar Sizə və bütün qardaş İran xalqına dərin hüznlə başsağlığı verirəm.

Allah həlak olanlara rəhmət eləsin!

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 15 mart 1997-ci il* [29-30]

**GÜRCÜSTAN RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**EDUARD ŞEVARDNADZE CƏNABLARINA**

Bakı-Bolnisi marşrutu ilə hərəkət edən sərnişin avtobusunun Azərbaycanın Tovuz rayonu ərazisində qəzaya uğraması, Gürcüstan vətəndaşlarının həlak olması və yaralanması xəbəri məni dərindən sarsıtdı.

Həlak olanların qohum-əqrəbalarının dərdinə şərik çıxır, onlara dərin hüznlə başsağlığı verirəm.

Allahdan ölənlərə rəhmət, yaralananlara şəfa diləyirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 17 mart 1997-ci il* [30-31]

## XALQ ŞAİRİ BALAŞ AZƏROĞLUNA

Hörmətli Balaş Azəroğlu!

Sizi – müasir Azərbaycan poeziyasının görkəmli nümayəndəsini anadan olmağınızın 75 illiyi münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Siz xalqımızın əhval-ruhiyyəsini, fikir və düşüncələrini, azadlıq ideallarını öz yaradıcılığında daim əks etdirən xoşbəxt sənətkarlardansınız. Zəngin qədim ədəbi ənənələrə, xəlqiliyə, humanizmə əsaslanan əsərləriniz hər bir azərbaycanlının mənəviyyat aləminə daxil olmuşdur.

Şair olmaqla yanaşı, Siz Azərbaycan ədəbiyyatının nüfuzlu tədqiqatçısı kimi də respublikada yaxşı tanınırsınız. Keçdiyiniz şərəfli sənət yolunun ayrılmaz bir hissəsini təşkil edən çox şaxəli ictimai fəaliyyətiniz də mübariz həyat mövqeyinizi özündə əks etdirir.

İnanıram ki, əsl vətənpərvərlik duyğuları tərənnüm edən sənətiniz azadlıq və istiqlaliyyət məfkurəsi ətrafında bütün azərbaycanlıların daha sıx birləşməsi işinə bundan sonra da xidmət edəcəkdir.

Sizə cansağlığı, xoşbəxtlik və yeni yaradıcılıq uğurları arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri. 17 mart 1997-ci il* [31-32]

## NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Əziz həmvətənlər!

Sizi, respublikanın bütün vətəndaşlarını qədim milli bayramımız – Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm.

Xalqımızın uzun əsrlər boyu qeyd etdiyi bu Bahar bayramı Azərbaycanın müstəqillik əldə etməsi ilə respublikanın dövlət bayramlarından biri oldu. Novruzun hər dəfə keçirilməsi müstəqillik və dövlətçilik prinsiplərimizin təntənəsinə olan inamı daha da artırır.

Mənəvi dəyərlərimizə sədaqət və ehtiramı nümayiş etdirən Novruz bayramı insanlar arasında səmimiyyət, mehribanlıq və qardaşlıq tellərinin möhkəmləndirilməsi, onların bir-birinə qayğı və diqqətinin artırılması üçün həmişə gözəl zəmin yaratmışdır. Qoy builki Novruz da müstəqil Azərbaycanımızın tərəqqisi naminə cəmiyyətdə milli həmrəyliyin tam bərqərar olması işində yeni bir mərhələ olsun, təbiətin oyanması və yeniləşməsinin rəmzi olan bu bayram ürəklərdə ancaq saf niyyətlər, xoş duyğular oyatsın.

Əziz Novruz bayramını hər kəsin öz ocağı başında qeyd etməsi xalqımızın gözəl adətlərindəndir. Əminəm ki, öz yurdundan, ev-eşiyindən didərgin düşmüş soydaşlarımızın bu adəti gerçəkləşdirə biləcəkləri gün uzaqda deyildir. Azərbaycanın müstəqilliyi uğrunda şəhid olmuş oğul və qızlarımızın qohum-əqrəbasına, yaxınlarına bu əziz gündə Ulu Tanrıdan səbir diləyirəm. İnanıram ki, respublikanın ərazi bütövlüyünün bərpa edilməsi yolunda atdığımız hər yeni uğurlu addım şəhidlərimizin ruhunu şad edəcəkdir.

Dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq, ürəyində Vətən sevgisi olan hər bir həmvətənimiz Novruz bayramını böyük sevinc və fərəhlə qeyd edir. Bu bayram şən[32-33]likləri onları vətənlərinə, ata-baba yurdlarına, öz milli köklərinə daha sıx bağlayır.

Əziz bacı və qardaşlar, əziz soydaşlar!

Bu şad bayram günlərində hər birinizi bağrıma basıram, sizə gözəl Novruz əhval-ruhiyyəsi diləyir, həyatınızda və işlərinizdə uğurlar arzulayıram!

Bayramınız mübarək olsun!

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 19 mart 1997-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ TƏRƏFİNDƏN ŞƏHİD ÖVLADLARI VƏ KİMSƏSİZ UŞAQLAR ÜÇÜN TƏŞKİL EDİLMİŞ NOVRUZ ŞƏNLİYİNDƏ ÇIXIŞ

*"Gülüstan " sarayı*

*20 mart 1997-ci il*

Əziz balalar, bayramınız mübarək olsun!

Mən sizi, bütün Azərbaycan övladlarını, gənclərini Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm. Sizə cansağlığı, səadət, şənlik və gələcək həyatınızda uğurlar arzulayıram.

Novruz bizim ən qədim milli bayramımızdır. O, xalq bayramıdır. Xalqımız çoxəsrlik tarixində böyük sınaqlardan keçibdir. Tariximizin ağır, çətin dövrləri olubdur. İnsanlar ağır günlər, çətin illər yaşayıblar. Ancaq bunlara baxmayaraq, Novruz bayramını heç kəs heç vaxt unutmayıbdır. Əksinə Novruz bayramı insanları, xalqımızı həmişə sevindirib, ən çətin anlarda, ən ağır günlərdə də onlarda xoş, nikbin əhval-ruhiyyə yaradıbdır. Ona görə də bu bayram hər bir azərbaycanlı üçün əziz bayramdır. Bu eyni zamanda, hər bir şəxsin qəlbinin bayramıdır, hər bir ailənin bayramıdır.

İndi, Azərbaycan dövlət müstəqilliyini, milli azadlığını əldə edəndən sonra Novruz bizim dövlət bayramımız olubdur. Ona görə də xalqımızın gözəl ənənələrini son illərdə sürətlə bərpa edərək, respublikamız, xalqımız bu bayramı ildən-ilə daha da şən, gözəl, yüksək səviyyədə keçirir.

Novruz bayramı həmişə xalqımızı birləşdirən, bir yerə yığan, insanları bir-biri ilə barışdıran bayram olubdur. Ona görə də insanlar bu bayramı sevirlər. Xalqımızın ənənələri məlumdur: bu bayramda küsülülər barışır, insanlar bir-birinə qonaq gedir. Bu bayramda insanlar bir-birinə daha da mehri[34-35]ban olur, daha da yaxınlaşır, bir-birinin günahından keçir, səhvini bağışlayır, cəmiyyətdə insanlar arasında münasibətlər daha da saflaşır, yüksəlir. Beləliklə, bu bayram xalqımızın milli birlik, milli həmrəylik bayramıdır.

Novruz bayramı insanlarda həmişə xoş əhval-ruhiyyə yaradır, milli ruhu yüksəldir, vətənpərvərlik hissiyyatlarını daha da möhkəmləndirir və hər bir insanı Vətəninə, millətinə, ölkəsinə, doğma dövlətinə daha da sadiq olmağa dəvət edir.

Xalqımız bu bayramı əziz bir bayram kimi qoruyub saxlayıbdır. Keçmişdə bu bayrama münasibət də birmənalı olmayıbdır. Ancaq buna baxmayaraq bu bayram insanlarımız, xalqımız, millətimiz üçün o qədər əziz və insanlara o qədər fayda gətirən və onların həyatını yeniləşdirən, gəncləşdirən bayram olubdur ki, insanlar onu qoruyub saxlayıblar.

Xalqımızın daha bir gözəl ənənəsi vardır – bu bayramı qeyd edərkən insanlar öz əcdadlarını, dünyasını dəyişmiş valideynlərini, qohum-əqrəbalarını yad edirlər, Vətən, torpaq, millət uğrunda şəhid olanları yad edirlər, həyatını dəyişmiş Vətən, millət qəhrəmanlarını yad edirlər. Bu bayram dünyasını dəyişmiş yaxınlarımızın hamısının ruhunu şad edir. Bu bayramın ən gözəl mənalarından biri də budur.

Biz bu gün də bu bayramı belə şən əhval-ruhiyyədə, gözəl, çox yüksək səviyyədə qeyd edərkən dünyasını dəyişmiş əzizlərimizi, Vətən, torpaq yolunda canlarını qurban vermiş şəhidlərimizi xatırlayırıq. Bu gün buraya toplaşan, Gülüstan Sarayının bu salonunda bu bayramı qeyd edən balalarımızın bir çoxunun valideynləri Vətən, torpaq yolunda şəhid olublar. Biz onların xatirəsini xüsusi yad edirik. Güman edirəm ki, bu gün sizin belə şən, gözəl, xoşbəxt, çalan, oxuyan əhval-ruhiyyəniz dünyasını dəyişmiş bütün şəhidlərin hamısının ruhunu şad edir.

Mən bu gün bu bayrama, yəni sizin yanınıza, bu bayramı sizinlə birlikdə qeyd etməyə çox yüksək hisslərlə gəlmişəm. Siz Azərbaycanın gələcəyisiniz, bizim əziz övladlarımızsınız, balalarımsınız. İndi siz təhsil, tərbiyə alırsınız, oxuyursunuz, özünüzü gələcək üçün hazırlayırsınız. Biz də sizə və bütün Azərbaycan gənclərinə böyük ümidlə baxırıq.

Bu əziz bayram günündə mən bir daha bildirmək istəyirəm ki, müstəqil Azərbaycan Respublikamızın gözəl gənc nəsli ye[35-36]tişir, gözəl gəncləri vardır. Azərbaycanın bu gündən də gözəl gələcəyi vardır və bu gələcəyi də quran, yaradan siz olacaqsınız, əziz balalar, ölkəmizin gəncləri olacaqlar.

Bu gün siz gözəl mahnılar oxuyursunuz, rəqslər edirsiniz, öz istedadınızı nümayiş etdirirsiniz. Sizə baxanda hər bir kəs, o cümlədən mən də iftixar hissi keçirirəm. Xalqımız yüksək mənəviyyata, böyük zəkaya malik olan bir xalqdır. Xalqımız qəhrəman, şücaətli xalqdır. Xalqımız məğrur, yenilməz xalqdır. Bizim əcdadlarımız bunu tarix boyu dünyaya nümayiş etdirib, sübut ediblər. Bu gün biz çalışırıq ki, xalqımızın bu gözəl xüsusiyyətləri qorunub saxlansın və daha da vüsət alsın, daha çox inkişaf etsin və xalqımızı yüksəklərə qaldırsın. Bunlar da olacaqdır. Burada – bu salonda sizin əhval-ruhiyyənizi, sevincinizi, istedadınızı görəndə mən bir daha inanıram ki, belə də olacaq və siz bunlara nail olacaqsınız.

Bizim borcumuz gənclərə daha çox qayğı göstərməkdən, onların təhsil və tərbiyəsi işini, yaşayış şəraitini daha da yaxşılaşdırmaqdan və gələcək nəsil üçün daha yaxşı həyat qurmaqdan ibarətdir. Əziz balalar, sizə bildirmək istəyirəm ki, bu, bizim və şəxsən mənim ali məqsədimdir. Bu məqsəd yolunda mən bundan sonra da durmadan çalışacağam.

Sizin borcunuz yaxşı təhsil, tərbiyə almaqdan, öz istedadınızdan səmərəli istifadə etməkdən, həyat fəaliyyətinə, gələcəyinizə yaxşı hazırlaşmaqdan, öz əxlaqınızla, təhsilinizlə, tərbiyənizlə valideynlərinizi, cəmiyyətimizi və bizi sevindirməkdən ibarətdir. Əziz balalarım, mən sizə bu arzularla müraciət edirəm.

Mən inanıram ki, Azərbaycanın bu gün yetişən gənc nəsli bütün keçmiş nəsillərdən daha da yüksəklərə qalxacaqdır. Çünki siz müstəqil Azərbaycanda, öz azad Vətəninizdə yaşayırsınız. Qarşımızda duran bu çətinliklər aradan götürüləndən sonra müstəqil, azad, sərbəst Azərbaycanın gələcək vətəndaşları olacaqsınız. Biz bu çətinlikləri aradan götürəcəyik. Həyat gündən-günə rahatlaşacaq, yaxşılaşacaqdır. Mən buna sizi tam əmin edirəm. Siz də çalışmalısınız bu həyatdan özünüz üçün daha da çox götürəsiniz ki, gələcəkdə müstəqil Azərbaycanın inkişafını yaradan, quran, təmin edənlər olasınız. [36-37]

Mən sizinlə bugünkü görüşümdən çox xoşbəxtəm. Gözəl uşaqlarsınız, balalarsınız. Mən sizin hamınızı ən dərin sevgi və məhəbbət hissi ilə bir daha təbrik edirəm. Sizə səadət, daim şənlik arzulayıram. Sizə gələcək həyatınızda xoşbəxtlik arzulayıram.

Mən sizi öpürəm, qucaqlayıram, bağrıma basıram. Sizə yeni-yeni uğurlar arzulayıram.

Əziz balalar, bayramınız mübarək olsun! [37-38]

## BAKININ GƏNCLƏR MEYDANINDA, QOŞA QALA QAPILARI ÖNÜNDƏ NOVRUZ ŞƏNLİYİNDƏ ÇIXIŞ

*21 mart 1997-ci il*

Əziz həmvətənlər, bacılar, qardaşlar!

Əziz Bakı şəhərinin sakinləri!

Sizi Azərbaycan xalqının milli bayramı – Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm. Sizə cansağlığı, səadət, həyatınızda, bütün işlərinizdə uğurlar arzulayıram.

Müstəqil Azərbaycan Respublikasında Novruz bayramı ilbəil geniş vüsət alır, bizim qədim, əziz bayramımız kimi ölkəmizin ictimai-siyasi həyatında özünə layiq yer tutur və insanlara ruh verir, onları sevindirir, şadlandırır. Bu bayram hər bir azərbaycanlının, hər bir vətəndaşımızın əziz və sevimli bayramıdır. Bu bayram bizim ölkədə yaşayan hər bir insanın qəlbində, onun duyğularında olan bayramdır. Ona görə də bu bayram hər kəs üçün əzizdir. Bu bayramı hər kəs böyük sevinc və məhəbbət hissi ilə qeyd edir. Bu bayram ümumxalq, ümummillət, ümumölkə bayramına çevrilmişdir.

Bu bayram günlərində xalqımız Azərbaycanın dövlət müstəqilliyinin, milli azadlığının nə qədər qiymətli, hər bir şəxs üçün tarixi əhəmiyyətli bir hadisə olduğunu daha da dərindən dərk edir. Ona görə də bu bayram indi artıq Azərbaycanın dövlət müstəqilliyinin və milli azadlığının rəmzidir. Bu bayram ölkəmizin azadlığının, sərbəstliyinin rəmzidir. Bu bayram əmin-amanlığın, ictimai-siyasi sabitliyin rəmzidir. Bu bayram ölkəmizdə gedən hüquqi, demokratik, dünyəvi, sivil dövlət quruculuğunun rəmzidir. Bu bayram insan azadlığının rəmzidir. Bu bayram ölkəmizdə insan haqlarına, hüquqlarına olan yüksək hörmət və qayğının rəmzidir.

Bu bayram, yəni bu il keçirilən Novruz bayramı onu göstərir ki, Azərbaycanda dövlət müstəqilliyi artıq dönməz bir amil [38-39] olubdur, bu müstəqillik gündən-günə möhkəmlənir, inkişaf edir. Bu bayram, Azərbaycanın hər bir guşəsində, hər bir ucqar ərazisində yüksək sevgi və məhəbbətlə keçirilən şənliklər onu göstərir ki, biz ölkəmizdə artıq daxili ictimai-siyasi sabitliyə nail olmuşuq. İnsanlar o ağır, əziyyətli günlərdən, daxili toqquşmalardan, vuruşmalardan, atışmalardan, ədavətdən, ziddiyyətlərdən xilas olublar. İnsanlar rahat, sərbəst yaşayırlar, onların üzü gülür. İnsanlarda sevinc, nikbinlik, gələcəyə inam hissi gündən-günə artır.

3-4 il bundan əvvəl olan illəri, ayları, günləri xatirinizə salın. Həmin o illərdə də bu Novruz günlərini xatirinizə salın. Bu qədər dostluq, mehribanlıq, qarşılıqlı anlaşma, ünsiyyət var idimi? Yox idi. O vaxt insanlar dərd-qəm içində yaşayırdı. O vaxt insanlar bir-birinə şübhə ilə yanaşırdı. O vaxt insanlar bir-birindən qorxurdu. Ayrı-ayrı cinayətkar qruplar, dəstələr qanun-qaydanı, mənəviyyat prinsiplərimizi pozaraq zorakılıq edirdilər, insanları incidirdilər, insanların hüquqlarını tapdalayırdılar. Şübhəsiz ki, o zaman bayram belə ümumxalq bayramı, bu qədər sevinc, ruh yüksəkliyi gətirən bayram ola bilməzdi. Ona görə də builki bayram şənlikləri son illərdə Azərbaycanın həyatında mütəmadi olaraq ictimai-siyasi vəziyyətin sabitləşdirilməsi, cəmiyyətdə sabitlik, rahatlıq yaradılması proseslərinin əməli nəticəsidir. Bu, bizi sevindirir və görürəm ki, siz də sevinirsiniz.

Azərbaycan televiziyası bir neçə gündür ki, respublikamızın müxtəlif şəhərlərində, qəsəbələrində, kəndlərində, ayrı-ayrı yerlərdə Novruz bayramı ərəfəsində keçirilən tədbirləri nümayiş etdirir, göstərir. Onlara baxdıqca, insanların üzlərində olan təbəssümü, gülüşü gördükcə, adamları dinlədikcə düşünürsən ki, həyatımızda nə qədər böyük dəyişikliklər baş veribdir!

Şübhəsiz ki, bunların hamısı Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, respublikamızda dövlət quruculuğu prosesinin əzmlə aparılması və xalqın, millətin, ayrı-ayrı insanların hüquqlarının qorunması sahəsində görülən işlərin nəticəsidir. Bunlar ölkəmizdə, xalqımızda günü-gündən artan milli həmrəylik, vətəndaşlıq həmrəyliyi hisslərinin yüksəlməsinin nəticəsidir. Bizim bu günümüzdə, bayram şənlikləri[39-40]mizin keçirilməsində hər bir vətəndaşın, hər bir kəsin xidməti vardır. Çünki ölkəni, xalqı bu qədər həmrəy etmək, bir-birinə yaxın etmək, bu qədər birləşdirmək mütləq və mütləq insanların hamısının istəyindən, rəyindən və onların fəaliyyətindən asılıdır. Ona görə də mən bu müqəddəs Novruz bayramı günü Azərbaycanda ictimai-siyasi vəziyyətin sabitləşməsi, insanlar üçün rahatlığın yaranması və Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsi yolunda səylərini qoymuş hər bir vətəndaşımıza təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Şübhəsiz ki, bu hələ son hədd deyil. Ancaq eyni zamanda, bu onu göstərir ki, bütün daxili və xarici çətinliklərə baxmayaraq, bizim ölkəmiz daha da rahat, sakit yaşaya bilər, insanlar bir-biri ilə daha da mehriban ola bilər, dostluq münasibətləri daha da yüksək ola bilər. Mən əminəm ki, əldə edilən bu nailiyyətlər əsasında biz hamımız birlikdə irəliyə gedəcəyik, müstəqil Azərbaycanın bayrağını daha da yüksəklərə qaldıracağıq, Azərbaycanı daha qüdrətli dövlətə çevirəcəyik, hər bir Azərbaycan vətəndaşı üçün daha da yaxşı yaşayış təmin olunacaqdır.

Bu gün biz Azərbaycanın paytaxtında, Bakı şəhərində, Bakının bu gözəl guşəsində Novruz bayramı şənliklərinə toplaşmışıq. Amma sizinlə birlikdə bilirik ki, bu gün Azərbaycanın hər bir guşəsində insanlar bayram şənlikləri keçirirlər. Novruz bayramı onları sevindirir, bir yerə toplayır, həmrəy edir. Bu şən, xoşbəxt

günümüzdə biz son illər xalqımıza, millətimizə, ölkəmizə vurulan yaraları da unutmuruq. Yaralarımız ağırdır. Ermənistanın Azərbaycana etdiyi hərbi təcavüz nəticəsində torpaqlarımızın bir qismi işğal olunubdur. İşğal edilmiş torpaqlardan bir milyondan artıq soydaşımız didərgin düşübdür, ağır vəziyyətdə çadırlarda yaşayırlar. Torpaqlarımızın müdafiəsi uğrunda şəhidlər vermişik. Azərbaycanın igid övladları özlərini qurban veriblər, şəhid olublar. Biz onların qəhrəmanlığını, şəhidliyini heç vaxt unutmayacağıq. Bu Novruz bayramı günü biz sevinərək, bayram edərək, eyni zamanda onları xatırlayırıq, onların ruhuna dua edirik. Böyük Allahdan onlara rəhmət diləyirik. [40-41]

Yerindən-yurdundan didərgin düşmüş bacı-qardaşlarımız çadırlarda ağır vəziyyətdə yaşayırlar. Onların maddi vəziyyətini, şəraitlərini müəyyən qədər yaxşılaşdırmaq üçün əlimizdən gələni edirik. Amma eyni zamanda, bizim xalqımızın ən yüksək mənəvi dəyərlərindən biri də odur ki, azərbaycanlılar heç vaxt əyilmirlər, sınmırlar, dözümlüdürlər. Bu gün o çadırlarda da, çadır şəhərciklərində də Novruz bayramı qeyd olunur, şənliklər keçirilir. İnsanlar öz müqəddəs bayramını yüksək əhval-ruhiyyə ilə keçirirlər.

Ona görə da mən çadırlarda yaşayan, yerindən-yurdundan didərgin düşmüş soydaşlarımıza, bacı-qardaşlarımıza bu gün buradan, sizin adınızdan, bütün Azərbaycan xalqı adından xüsusi bayram salamı göndərirəm, onları Novruz bayramı münasibətilə təbrik edirəm. Əmin edirəm ki, onlar bu ağır günlərdən xilas olacaqlar, xalqımız bu ağır günlərdən xilas olacaqdır.

Mən əminəm, inanıram ki, biz bütün bu ağır günləri ötüb keçəcəyik. Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır. Azərbaycanın işğal olunmuş torpaqları azad ediləcəkdir. Yerindən-yurdundan didərgin düşmüş bacı-qardaşlarımız öz evlərinə, elinə-obasına, doğma torpaqlarına qayıdacaqlar. Azərbaycan öz sərhədləri çərçivəsində bütöv, vahid Azərbaycan kimi yaşayacaq, inkişaf edəcəkdir. Biz o günü görəcəyik. O gün uzaqda deyil, biz sadəcə dözməliyik.

Xalqımız dözümlü xalqdır. Xalqımız əsrlər boyu böyük, şərəfli yol keçərək, qəhrəmanlıq nümunələri göstərərək, dünyaya özünün milli mənliyini nümayiş etdirərək həmişə dözümlü olmuşdur, çətinliklərə, məhrumiyyətlərə, itkilərə, bəlalara, qarşısına çıxan cürbəcür xətalara dözmüşdür. Eyni zamanda, yüksək mənəvi xüsusiyyətləri xalqımızı bu ağır, çətin sınaqlardan həmişə çıxarmışdır. Bu illərdə də biz böyük bir sınaqdan keçirik. Əminəm ki, biz bu sınaqdan da çıxacağıq.

Torpaqlarımızı qoruyan, onun keşiyində duran Milli Ordumuz vardır. Qəhrəman övladlarımız, əsgərlərimiz müstəqil Azərbaycanın, onun torpaqlarının keşiyində dayanıblar, Ermənistan silahlı qüvvələrinin təcavüzünün qarşısını almaqdan ötrü torpaqlarımızın müdafiəsində durublar. Bu gün mən onları Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm, onlara cansağlığı, qüdrət arzulayıram. Əminəm ki, onlar müstəqil [41-42] Azərbaycanın hüdudlarının, torpaqlarımızın qorunmasında bundan sonra da qəhrəmancasına duracaqlar və qəhrəmanlıq nümunələri göstərəcəklər.

Biz gələcəyə ümidlə baxırıq. Bizim hamımız nikbinlik hissi ilə yaşayırıq. Ona görə ki, Azərbaycan xalqının işi haqq işidir. Biz ədalət, haqq tələb edirik. Biz heç bir ədalətsiz yola getməmişik və getməyəcəyik. Bu haqq-ədalət də tələb edir ki, dünya birliyinə daxil olan müstəqil Azərbaycan Respublikasının ərazi bütövlüyü təmin olunsun, onun beynəlxalq hüquq normalan tərəfindən tanınmış sərhədləri toxunulmaz olsun, bərpa edilsin və qorunsun. Dünya birliyi bizim səsimizi eşitməlidir və eşidir, səsimizə səs verir.

ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının keçən il Lissabonda keçirilən Zirvə görüşündə Ermənistan-Azərbaycan münaqişəsinin həll olunması ilə əlaqədar məsələnin müzakirəsində bütün ATƏT üzvləri (Ermənistandan başqa), ATƏT-ə daxil olan dövlətlərin başçıları Azərbaycanın bu haqq, ədalətli işini müdafiə etdilər. Bu münaqişənin sülh yolu ilə həll edilməsi üçün prinsiplər təsdiq olundu. O prinsiplər əsasında biz danışıqlar aparırıq və bu danışıqları bundan sonra da aparacağıq. Əminəm ki, bu danışıqlar nəticəsində məsələnin sülh yolu ilə həll edilməsinə nail olacağıq. Son illərin təcrübəsi də, keçdiyimiz yol da buna əsas verir.

Bilirsiniz ki, 1994-cü ilin may ayında Ermənistan-Azərbaycan hərbi münaqişəsindəki döyüşlərdə atəşkəs əldə olundu. Atəşi dayandırdıq. Artıq iki il on aydır ki, atəş yoxdur, qan tökülmür, şəhidlər yoxdur. Biz sülh və əmin-amanlıq şəraitində danışıqlar aparıb ölkəmizin hüquqlarını bərpa etməyə çalışırıq. Əminəm ki, bərpa da edəcəyik.

Mən bu gün – bizim xalqımız, millətimiz üçün müqəddəs olan Novruz bayramı günü bir daha dünyaya bəyan edirəm ki, Azərbaycan Respublikası bundan sonra da atəşkəs rejiminə riayət edəcəkdir. Biz hərbi əməliyyatların, döyüşlərin yenidən başlanmasını istəmirik və bunlara yol verməyəcəyik. Atəşkəs rejiminə riayət edəcəyik və torpaqlarımızın bu yolla, sülh yolu ilə azad olunmasına, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsinə nail olacağıq. Mən ümidvaram ki, biz buna nail olacağıq. Ona görə ki, biz artıq bütün dünyaya sübut etmişik ki, [42-43] Azərbaycan sülhsevər dövlətdir, bizim xalqımız sülhsevər xalqdır.

Biz dünyadakı bütün ölkələrlə, xalqlarla qarşılıqlı surətdə faydalı, mehriban dostluq əlaqələri yaradırıq və yaratmaq istəyirik. Biz bölgəmizdə, Qafqazda sülhün bərqərar olmasını istəyirik. Biz bütün qonşularımızla – Rusiya, İran, Türkiyə, Gürcüstan və başqa qonşularımızla sülh şəraitində yaşamaq istəyirik. Bundan sonra da sülh və əmin-amanlıq şəraiti yaratmağa çalışacağıq.

Biz bütün ölkələrlə qarşılıqlı surətdə faydalı əlaqələr qurmuşuq və bu əlaqələr də Azərbaycana öz faydalarını verir, beynəlxalq miqyasda, aləmdə respublikamızın hüquqlarını müdafiə edir və Azərbaycanın Dünya

Birliyində özünə layiq yer tutmasına kömək göstərir. Bütün bunlar bizim siyasətimizin strateji istiqamətidir. Biz bundan sonra da bu istiqamətdə hərəkət edəcəyik. Eyni zamanda, torpaqlarımızın işğal altında qalmasına heç vaxt razı olmayacağıq. Biz heç vaxt torpağımızın bir qarışının da, bir metrinin də heç kəsə verilməsinə razı ola bilməyəcəyik. İşğal edilmiş torpaqlarımız azad olunmalıdır. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Nəyin bahasına olursa-olsun, hansı yolla olur-olsun, biz buna nail olacağıq. Biz müstəqil Azərbaycan Respublikasını bundan sonra da inkişaf etdirəcəyik, yüksəklərə qaldıracağıq.

Bu günlər bizim Vətənimizdə, ölkəmizdə hökm sürən bayram əhval-ruhiyyəsi, bu xoş dostluq münasibətləri, bu meydana toplaşan insanların üzündəki təbəssüm və xoş gülüşlərin hamısı onu göstərir ki, biz qarşımızda duran bütün çətinliklərin öhdəsindən gələcəyik. Biz bundan sonra da ölkəmizdə əmin-amanlığın təmin olunmasına çalışacağıq. Əminəm ki, biz artıq huna nail olmuşuq və olacağıq.

Mən bu bayram günü sizi bir daha təbrik edirəm. Sizin hər birinizə, hər bir ailəyə, hər bir Azərbaycan vətəndaşına səadət, xoşbəxtlik, uzun ömür arzu edirəm, bütün işlərinizdə uğurlar arzulayıram. Sizə, vətənimizə, xalqımıza, ölkəmizə sülh, əmin-amanlıq arzu edirəm. Sağ olun, var olun, xoşbəxt olun! Bayramınız mübarək olsun! Sağ olun. [43-44]

## PAKİSTANIN DÖVLƏT MÜSTƏQİLLİYİ GÜNÜ ŞƏRƏFİNƏ PAKİSTAN İSLAM RESPUBLİKASININ AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ

*"Hyatt-Recensi-Naxçıvan" mehmanxanası*

*23 mart 1997-ci il*

Hörmətli xanımlar və cənablar, hörmətli səfir!

Mən sizi Pakistan İslam Respublikasının yaranmasının 50 illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm, Pakistan xalqına sülh, əmin-amanlıq və səadət arzulayıram.

Pakistan bizim üçün – Azərbaycan üçün dost, qardaş ölkədir. Pakistan Asiya qitəsində böyük ölkələrdən biridir, dünya birliyində özünə layiq yer tutmuşdur. Pakistan xalqı Pakistan Respublikasının yaranmasının 50 illik yubileyini qeyd edir. 1940-cı il martın 23-də Pakistanın qabaqcıl, öncül adamları Məhəmməd Çinnə başda olmaqla Pakistanın müstəqilliyi uğrunda mübarizəyə qoşulmuş və nəhayət, 1947-ci ilin avqustunda Pakistan öz dövlət müstəqilliyini əldə etmişdir.

Bu hadisə, yəni 50 il bundan öncə Pakistan xalqının milli azadlıq, dövlət müstəqilliyi əldə etməsi tarixi bir hadisədir, həm Pakistan xalqı üçün, həm də illər, əsrlər boyu əsarət altında yaşamış və öz müstəqilliyi, milli azadlığı uğrunda çalışmış bütün xalqlar üçün çox əlamətdar tarixi hadisədir. Məhz buna görə də bu gün İslamabadda, Pakistanda İslam Konfransı Təşkilatı ölkələrinin dövlət başçıları, dövlət nümayəndələri toplaşıb bu hadisənin 50 illik yubileyini təntənə ilə qeyd edirlər.

Mən çox təəssüf edirəm ki, çox ciddi səbəblərə görə əvvəlcədən nəzərdə tutduğum planı həyata keçirə bilmədim, [44-45] yəni bu gün Pakistanda olan yubiley tədbirlərində iştirak edə bilmədim. Ancaq Milli Məclisin sədri Murtuz Ələsgərov başda olmaqla Azərbaycan Respublikasının nümayəndə heyəti bu gün İslamabaddadır, Pakistan Respublikasının 50 illik yubileyi münasibətilə keçirilən təntənəli mərasimlərdə iştirak edir. Mən bizim nümayəndə heyəti vasitəsilə, parlamentin başçısı Murtuz Ələsgərov vasitəsilə Pakistan xalqına Azərbaycan xalqının təbrikini və xoş arzularını çatdırmışam. Bu axşam isə sizinlə birlikdə Azərbaycanda, Pakistanın səfirliyində bayramı, 50 illik yubileyi qeyd edirik.

Biz böyük dostluq, məmnuniyyət hissi ilə qeyd edirik ki, Pakistan xalqı 50 illik müstəqillik dövründə çox yüksək səviyyələrə çatmış və böyük nailiyyətlər əldə etmişdir.

Pakistan ilə Azərbaycan arasında dostluq, qardaşlıq, əməkdaşlıq əlaqələri gündən-günə inkişaf etməkdədir. Azərbaycan Respublikası dövlət müstəqilliyini elan edərkən onun müstəqilliyini tanıyan ilk ölkələrdən biri də Pakistan olmuşdur. Pakistan ilə Azərbaycan arasında dövlətlərarası əlaqələrin inkişaf etdirilməsində 1995-ci ilin sonunda Pakistan prezidenti cənab Fərrux Əhməd Xan Leqarinin Azərbaycana səfəri və keçən il mənim Pakistana səfərim zamanı imzalanmış sənədlər və aparılmış danışıqlar çox mühüm rol oynamışdır.

Biz Pakistan ilə Azərbaycan arasındakı əlaqələrə xüsusi qiymət veririk, bu əlaqələrin bütün sahələrdə inkişaf etməsinə, genişlənməsinə çalışırıq və bundan sonra da çalışacağıq.

Pakistan islam ölkəsi, müsəlman ölkəsi olaraq eyni zamanda demokratik prinsiplər əsasında yaşayır, inkişaf edir. Pakistanda demokratik prinsiplərin bərqərar olması və tətbiqi islam aləmində, islam ölkələri arasında ona xüsusi hörmət və ehtiram qazandırmışdır.

Pakistanın böyük təbii sərvətləri, geniş iqtisadi imkanları var və şübhə yoxdur ki, müstəqil dövlət kimi Pakistan öz ölkəsində demokratik prinsipləri inkişaf etdirərək bundan sonra daha böyük nailiyyətlər əldə edəcəkdir.

Dost, qardaş ölkə kimi Pakistanın həyatında gedən proseslərə biz çox böyük maraq və diqqət göstərir, bu prosesləri dostluq, qardaşlıq münasibətləri baxımından izləyirik və Pakistanın qarşısında duran bütün problemlərin müvəffəqiyyətlə həll [45-46] olunmasını arzu edirik. Şübhə yoxdur ki, 50 illik müstəqillik yolu keçən, eyni zamanda çox qədim, zəngin tarixə, çox dəyərli milli, mənəvi ənənələrə malik olan Pakistan xalqı bundan sonra da yüksəklərə qalxacaq və yeni-yeni nailiyyətlər əldə edəcəkdir. Pakistan ilə Azərbaycan arasında yaranmış və daim inkişaf edən əməkdaşlıq, dostluq, qardaşlıq əlaqələri bundan sonra da bizim ölkələrə fayda gətirəcək və bölgədə sülhün, əmin-amanlığın bərqərar olmasına kömək edəcəkdir.

Pakistan Respublikasının Azərbaycandakı səfirliyi ölkələrimiz arasında əlaqələrin inkişafına layiqli xidmət edir və səfirliyə öz fəaliyyətində bundan sonra da uğurlar arzulayıram.

Hörmətli dostlar, xanımlar və cənablar, sizi bu bayram münasibətilə bir daha ürəkdən təbrik edirəm, sizə cansağlığı, səadət arzulayıram. Pakistan xalqına sülh, əmin-amanlıq və yeni-yeni uğurlar arzulayıram. Təşəkkür edirəm. [46-47]

# UKRAYNA PREZİDENTİ LEONİD KUÇMANIN DƏVƏTİ İLƏ RƏSMİ DÖVLƏT SƏFƏRİNƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*24 mart 1997-ci il*

Ukraynaya səfər Azərbaycan ilə Ukrayna arasında yaranmış sıx qarşılıqlı əlaqələrlə bağlıdır. Bilirsiniz ki, Ukraynanın prezidenti cənab Leonid Kuçma 1995-ci ildə Azərbaycanda rəsmi səfərdə olubdur. Biz yaxşı danışıqlar aparmış, çox mühüm sənədlər imzalamışıq. Həmin vaxt o, məni Ukraynaya rəsmi səfərə dəvət etmişdi. Mən bu dəvəti qəbul etmişəm və indi oraya gedirəm. Hesab edirəm ki, orada yaxşı danışıqlarımız, birinci növbədə iqtisadi əməkdaşlıq barədə danışıqlarımız olacaqdır. Özü də təkcə iki ölkə arasında yox, ümumiyyətlə, Qafqaz bölgəsi, Ukrayna, Avropa ölkələri, Mərkəzi Asiya arasında. Bu ölkələrin bir-biri ilə əməkdaşlığı, xüsusən nəqliyyat və başqa sahələrdə əməkdaşlıq indi çox böyük aktuallıq kəsb edir. Bunların hamısını müzakirə edib əməkdaşlığımızın sonrakı perspektivləri və onların həyata keçirilməsi üçün konkret tədbirlərin görülməsi barədə danışıqlar aparacağıq. Mən bu səfərə çox yüksək qiymət verirəm. Çünki Ukrayna böyük dövlətdir, iqtisadi sahədə əməkdaşlığımıza çox böyük imkanlar var. Bu əməkdaşlığı edərkən həm Ukrayna, həm də Azərbaycan çox fayda götürə bilər. Ona görə də mən bu rəsmi səfərə gedirəm. Hesab edirəm ki, yaxşı olacaqdır.

Mən Ukrayna – Azərbaycan münasibətlərinin bütün istiqamətlərdə, bütün sahələrdə inkişaf edəcəyini gözləyirəm. İqtisadi, elmi-texniki əməkdaşlığı, təhsil sahəsində əməkdaşlığı inkişaf etdirmək üçün bizim geniş imkanlarımız var. Bu məsələlərə dair dövlətlərarası bir çox sənədlər hazırlanıb və biz [47-48] bunları orada imzalayacağıq. Bir sözlə, səfərdən yaxşı nəticələr gözləyirik.

MDB ölkələri dövlət başçılarının qarşıdakı görüşü ilə bağlı suala cavab olaraq onu deyə bilərəm ki, həmin görüşdə müzakirə olunacaq məsələlər hazırdır. Kimin hansısa rəyi varsa, ola bilər ki, biz bu barədə fikir mübadiləsi aparaq. Ancaq görüşə hansısa birgə təklif çıxarmaq niyyəti yoxdur.

Gürcüstan kimi Ukraynanın da Azərbaycan üçün strateji tərəfdaş ola bilməsinin mümkünlüyü barədə suala qısaca belə cavab vermək olar: biz Ukrayna ilə də Gürcüstanla imzaladığımız bəyannaməyə bənzər bir sənəd imzalamaq niyyətindəyik. [48-49]

## UKRAYNANIN ALİ MÜKAFATININ – YAROSLAV MUDRI ORDENİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ NİTQ

*Kiyev, Mariya sarayı*

*24 mart 1997-ci il*

Çox hörmətli Leonid Daniloviç!
Hörmətli xanımlar və cənablar!

Bu hadisə məni son dərəcə həyəcanlandırmışdır. Lakin mən ilk növbədə ona sevinirəm ki, dostum, Ukrayna prezidenti çox hörmətli Leonid Daniloviç Kuçmanın dəvəti ilə Kiyevə, Ukraynaya gəlmişəm və biz Ukrayna-Azərbaycan münasibətlərinin gələcək inkişafı üçün həll edilməsi tələb olunan məsələlərin müzakirəsinə başlamışıq.

Ukraynanın Ali Ordeni – Yaroslav Mudrı ordeni ilə təltif olunmağım və Ukrayna prezidenti Leonid Daniloviç Kuçma ordeni təqdim edərək Azərbaycan Respublikasının, Azərbaycan xalqının ünvanına və mənim ünvanıma çox səmimi sözlər deməsi mənim üçün böyük şərəf və şübhəsiz ki, son dərəcə xoş hadisədir.

Leonid Daniloviç, mən Sizə minnətdaram. Mənə göstərilən bu yüksək şərəf üçün Ukrayna dövlətinə təşəkkürümü bildirirəm və Sizi əmin edirəm ki, Ukrayna ilə Azərbaycan arasında dostluq münasibətlərini, geniş Ukrayna-Azərbaycan əməkdaşlığını inkişaf etdirmək, möhkəmləndirmək üçün indiyə qədər olduğu kimi, bundan sonra da əlimdən gələni edəcəyəm.

Başa düşürəm ki, bu orden mənim üzərimə çox şey qoyur və qardaş Ukraynanın belə yüksək mükafatına layiq olmaq üçün səylərimi əsirgəməyəcəyəm.

Son vaxtlar Ukrayna ilə Azərbaycan arasında əlaqələr uğurla inkişaf edir və bu işdə Ukrayna prezidentinin, hörmətli [49-50] Leonid Daniloviç Kuçmanın böyük xidməti var. Şübhəsiz, bu əlaqələrin inkişafı üçün mən də lazımi tədbirlər görmüşəm və görürəm və mənim bu azacıq xidmətim indi belə yüksək qiymətləndirilmişdir.

Eyni zamanda hesab edirəm ki, bu mükafatla Ukrayna xalqı və Ukrayna prezidenti müstəqil Azərbaycan Respublikasına, Azərbaycan xalqına özlərinin xoş münasibətini, dostluq hisslərini ifadə edirlər. Mən bu mükafatı Ukrayna ilə Azərbaycan arasında inkişaf etməkdə olan dostluq münasibətlərinə aid edirəm.

Açığını deyirəm, mən Azərbaycan Respublikasının prezidenti vəzifəsində ilk dəfədir ki, mükafat alıram. Öz respublikamda indiyədək heç bir mükafat almamışam. Əlbəttə, bu təbiidir, mənim fikrimcə, prezident öz respublikasının mükafatı ilə təltif edilə bilməz. Mən başqa dövlətin, dost ölkə, dost dövlət olan Ukraynanın mükafatını da ilk dəfə alıram.

Bilirsiniz, bu, çoxlu mükafatlar aldığım həyatımda və böyük tərcümeyi-halımda yeni bir səhifədir. Lakin bu mükafatın xüsusi əhəmiyyəti, xüsusi mənası var. Birincisi, ona görə ki, görkəmli Yaroslav Mudrının adını daşıyır, ikincisi, bu, qardaş Ukraynanın mükafatıdır, üçüncüsü isə, məni bu mükafata dostum, Ukraynanın hörmətli prezidenti Leonid Daniloviç Kuçma layiq görübdür.

Mən həddən artıq həyəcanlıyam, olduqca sevinirəm və Ukrayna-Azərbaycan münasibətləri ilə bağlı olan bu son dərəcə görkəmli hadisə üçün bir daha dərin minnətdarlığımı bildirmək istəyirəm. Hörmətli Leonid Daniloviç, hörmətli dostlar, sizi əmin etmək istəyirəm ki, Ukrayna ilə Azərbaycan arasında əlaqələrin inkişaf etməsi və dərinləşməsi üçün, Azərbaycanın indən belə də qardaş Ukraynanın sədaqətli dostu və müttəfiqi olması üçün hər şeyi edəcəyəm.

Çox sağ olun. [50-51]

## UKRAYNA-AZƏRBAYCAN DÖVLƏTLƏRARASI SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA MƏTBUAT ÜÇÜN BƏYANAT

*Kiyev, Mariya sarayı*

*24 mart 1997-ci il*

Hörmətli cənab prezident!
Möhtərəm xanımlar və cənablar!
Mən və məni müşayiət edən Azərbaycandan gəlmiş şəxslər burada, Ukraynada, Kiyevdə olmağımızla əlaqədar dərin sevinc və məmnunluq hissləri keçiririk. Buraya gəldiyimiz ilk dəqiqələrdən biz böyük qayğı və diqqətlə əhatə olunduq, səmimiyyətlə və qonaqpərvərliklə qarşılandıq. Bu, təbiidir, çünki ölkələrimiz və xalqlarımız arasında son dərəcə xoş münasibətlər, dostluq münasibətləri yaranmışdır və bu münasibətlər Ukrayna prezidenti Leonid Daniloviç Kuçmanın 1995-ci ilin iyul ayında Azərbaycana səfəri zamanı, sonralar müxtəlif beynəlxalq təşkilatlarda görüşlərimiz və danışıqlarımız zamanı daha da inkişaf etdi. Bu münasibətlər Bakıda imzalanmış sənədlərdə və bu gün burada imzalanmış sənədlərdə də öz inkişafını tapmışdır.

Problemlər, ən əvvəl, ölkələrimizin qarşılıqlı münasibətləri ilə bağlı problemlər barəsində, əməkdaşlığımız barədə, eyni zamanda ölkələrimizin istər Avropada, istər dünyada, istərsə də üzv olduğumuz MDB-də qarşılaşdığımız problemlər barəsində bu gün Ukrayna prezidenti, möhtərəm Leonid Daniloviçlə mənim aramda çox açıq, səmimi və mehriban söhbət oldu.

Mən bütün deyilənlərlə razıyam və Leonid Daniloviçin belə bir fikrinə tam şərikəm ki, bütün məsələlər barəsində baxışlarımız tamamilə uyğun gəlir. Bu isə daha böyük inam verir ki, [51-52] biz fəal əməkdaşlıq etməli, əməkdaşlığı genişləndirməli və dərinləşdirməliyik.

Ukrayna prezidenti və Azərbaycan prezidenti tərəfindən imzalanmış sənəd – Ukrayna ilə Azərbaycan arasında əməkdaşlığı dərinləşdirmək və inkişaf etdirmək haqqında bəyannamə də məhz buna xidmət edir. Biz neft-qaz sənayesi sahəsində əməkdaşlıq haqqında imzalanmış sənədə çox böyük əhəmiyyət veririk. Təbii ki, qalan bütün sənədlər də böyük əhəmiyyətə malikdir və əməkdaşlığımızın uğurla həyata keçirilə bilməsi üçün yaxşı hüquqi zəmin yaradır.

Bu gün imzalanmış çoxsaylı sənədlərlə yanaşı, əvvəlki dövrün də başlıca yekunu bundan ibarətdir ki, Ukrayna ilə Azərbaycan arasında dostluq münasibətləri təşəkkül tapmış və mövcuddur, buna görə də biz bu münasibətləri inkişaf etdirmək və möhkəmlətmək əzmindəyik. Bu münasibətlər ölkələrimizin dövlət müstəqilliyini, ölkələrimizin suverenliyini daha da möhkəmlətməyi və inkişaf etdirməyi, demokratik, hüquqi, sivilizasiyalı dövlətlər qurmağı, habelə keçid dövrü ilə bağlı qarşıya çıxmış sosial-iqtisadi çətinlikləri bacardıqca tez bir zamanda aradan qaldırmaq üçün iqtisadi islahatlar aparmağı nəzərdə tutur.

Bütün bu məsələlərdə biz yekdilik, baxış və fikirlərimiz uyğun gəlir və bu gün imzaladığımız sənədlər bizə öz ölkələrimizdə işi daha uğurla aparmağa, dostluq münasibətlərimizi möhkəmlətməyə və inkişaf etdirməyə kömək edəcəkdir.

Leonid Daniloviç, bizim – mənim və məni müşayiət edən şəxslərin burada qarşılaşdığımız xoş qəbula, qonaqpərvərliyə, mehribanlığa və səmimiliyə görə Sizə təşəkkür edirəm. Sizi əmin etmək istəyirəm ki, biz bu dostluğa və imzalanmış bütün sazişlərə və sənədlərə sadiq olacağıq.

**Sual: Bu qədər dövlətlərarası sənədlər imzalandıqdan sonra Ukrayna ilə Azərbaycan strateji tərəfdaşdırlarmı?**

**Leonid Kuçma:** Xüsusən Heydər Əliyeviçin indiki səfərini nəzərə alaraq Ukrayna ilə Azərbaycanın strateji tərəfdaşlar olduğuna məndə heç bir şübhə yoxdur. Strateji tərəfdaş[52-53]lıq təkcə iqtisadiyyatda deyil, yəqin ki, ən əvvəl, siyasətdədir. Bizim siyasətimiz isə məhz bundan ibarətdir ki, dövlətlərimizin yalnız deklarativ surətdə deyil, sözün əsl mənasında müstəqil dövlətlər olması üçün biz bir-birimizi bütün mövcud üsul və imkanlarla dəstəkləməliyik. Bundan ötrü isə biz iqtisadi imkanlarımızı sahmanlamalıyıq. Mən razılıq hissi ilə bir daha bildirirəm ki, Ukrayna məhz belə də edəcəkdir.

**Sual: İmzalanmış sənədlərlə əlaqədar olaraq Azərbaycan nefti vurulmuş ilk eşelon Ukrayna ərazisindən nə vaxt keçəcəkdir?**

**Heydər Əliyev:** Görünür, suala mən birinci cavab verməliyəm... Bildiyiniz kimi, Azərbaycandan ilkin neftin dünya bazarlarına ixracı üçün iki neft kəməri çəkilir. Bir neft kəməri bizim tərəfimizdən, Azərbaycan ərazisindən çəkilmişdir və bu kəmərlə nefti Rusiya Federasiyasının Qara dəniz sahilindəki Novorossiysk limanınadək nəql etmək nəzərdə tutulur. Rusiya tərəfi söz verir ki, yaxın vaxtlarda onlar da öz ərazilərində lazımi tədbirlər görəcəklər və bu neft kəməri işləməyə başlayacaqdır.

İkinci neft kəməri Gürcüstan ərazisi ilə çəkiləcək və o da Qara dəniz sahilindəki Supsa limanına gedəcəkdir. Onun inşasına bu ay başlanmışdır. Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri" və "Çıraq" yataqlarında neft hasilatına dair bütün layihəni həyata keçirən beynəlxalq neft şirkətləri konsorsiumu bu boru kəmərinin inşasını 1998-ci ilin sonunadək başa çatdırmağı vəd edir. Boru kəməri hazır olan kimi neft nəql edilməyə başlanacaqdır...

**Leonid Kuçma:** Heydər Əliyeviç elə ətraflı danışdı ki, mənim nəsə əlavə etməyə sözüm yoxdur. Mən ancaq arzu edərdim ki, Azərbaycanda nəzərdə tutulmuş bütün planlar hökmən həyata keçirilsin. Mən yalnız daha bir məsələni açıqlamaq istərdim. Heydər Əliyeviç onu demədi. Həmin məsələ bundan ibarətdir ki, Azərbaycan tərəfi Xəzər bölgəsinin böyük imkanlarını nəzərə alaraq Ukrayna tərəfini gələcək layihədə bilavasitə iştiraka dəvət edir.

Təşəkkür edirəm. [53-54]

## UKRAYNA PREZİDENTİ LEONİD KUÇMANIN ADINDAN AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ

*24 mart 1997-ci il*

Çox hörmətli Leonid Daniloviç!

Hörmətli xanımlar və cənablar!

Sizə Azərbaycan xalqının, Azərbaycan Respublikasının bütün vətəndaşlarının səmimi salamlarını və ən dərin dostluq və hörmət hisslərini yetirirəm.

Ukraynaya rəsmi səfər bizim üçün mühüm hadisədir və mən çox məmnunam ki, bu gün səhərdən böyük və səmərəli iş görə bildik və bu, mühüm dövlətlərarası sənədlərin imzalanması ilə başa çatdı. Bu, Ukrayna ilə Azərbaycan arasında əməkdaşlığı daha da inkişaf etdirmək və genişləndirmək, xalqlarımız arasında dostluğu möhkəmləndirmək üçün böyük imkanlar açır. Bu gün Ukrayna torpağına, Kiyevə gəldiyimiz andan necə mehriban bir şəraitə düşməyimiz isə xalqlarımız arasında sıx dostluq əlaqələrinin, qarşılıqlı anlaşma və əməkdaşlıq olduğunu göstərir.

Mən bu qonaqpərvərlik, səmimiyyət üçün, görüşümüzün, səfərimizin və bütün işimizin belə gözəl şəraitdə keçməsi üçün dostum Leonid Daniloviçə ürəkdən təşəkkür etmək istəyirəm. Leonid Daniloviç, dəvətinizə görə Sizə minnətdaram və şadam ki, bu arzumu yerinə yetirə, Sizin dəvətinizdən istifadə edə bildim. Ancaq eyni zamanda bu gün biz hamımız 1995-ci ilin iyulunu, Ukrayna prezidenti hörmətli Leonid Kuçmanın Azərbaycana səfərini, oradakı görüşləri və danışıqları, insanlarımızla söhbətləri və imzalanmış sənədləri böyük səmimiyyətlə xatırlayırıq.

O zamandan kifayət qədər vaxt keçmişdir, bəlkə də bunun özü ən yaxşı sübutdur ki, xalqlarımız, ölkələrimiz, dövlətləri[54-55]miz arasında yaranmış dostluq və əməkdaşlıq dönməz xarakter daşıyır. Bu dostluq əcdadlarımızın bizə vəsiyyət etdikləri gözəl ənənələrə əsaslanır. Ukrayna və Azərbaycan xalqları arasında qarşılıqlı münasibətlərin tarixi çox böyükdür və mədəniyyət, elm, incəsənət xadimləri, müxtəlif kollektivlər arasında əməkdaşlıq, dostluq və qarşılıqlı əlaqə nümunələri ilə zəngindir. Bu hazırda başa çatan XX əsrin əvvəllərindən bəri olan dövrə aiddir.

Burada, Ukraynada, Kiyevdə olarkən biz faşizmin darmadağın edilməsinə Ukrayna xalqının verdiyi töhfəni çox böyük minnətdarlıq hissi ilə xatırlayırıq. Mən bu gün naməlum əsgərin məzarını qəhrəmanlıq, igidlik göstərmiş və təkcə Ukraynanı deyil, həm də Qafqazı faşist işğalçılarından müdafiə etmiş insanlara hədsiz minnətdarlıq hissi ilə ziyarət etdim.

Bu gün, naməlum əsgərin məzarı önündə dayanarkən xatırladım ki, burada, Ukrayna torpağında ukraynalılarla birlikdə digər xalqların nümayəndələri də, Azərbaycan övladları da cəsarətlə vuruşmuşlar. Mən xatırladım: Ukrayna ərazisində vuruşmuş, – bunlar isə çoxdur, – azərbaycanlılardan 20 nəfəri Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür.

Kökləri əsrlərin dərinliyinə gedib çıxan, ikinci dünya müharibəsi illərində yaranan və İkinci dünya müharibəsindən sonra möhkəmlənən dostluğumuz elə bir əsasdır ki, o, bugünkü münasibətlərimizi və indinin özündə bəhrələrini verən əməkdaşlığımızı şərtləndirir.

Lakin bununla yanaşı indi münasibətlərimiz prinsipcə tamamilə yeni əsasda qurulur. Müstəqil, suveren dövlətlər olan Ukrayna və Azərbaycan bu münasibətləri dəstəkləyirlər. Dövlət müstəqilliyi həm Ukrayna üçün, həm də Azərbaycan üçün tarixi əhəmiyyətə malikdir. Mən çox razıyam ki, bu başlıca, prinsipial məsələdə Ukrayna və Azərbaycanın, Ukrayna prezidenti Leonid Kuçmanın və Azərbaycan prezidentinin baxışları, mövqeləri tamamilə uyğun gəlir.

Bir sistemdən digərinə keçidlə əlaqədar, dövlət müstəqilliyi yolunda ilk addımlar atmağımızla əlaqədar olaraq ölkələrimiz qarşısında çox çətinliklər durur. Lakin buna baxmayaraq mən əminəm ki, biz bu çətinlikləri dəf edəcəyik. Məhz ona görə dəf edəcəyik ki, ölkələrimizin, xalqlarımızın, dövlətlərimizin [55-56] azad, müstəqil yaşamaq və öz taleyinin sahibi olmaq imkanlarına, qabiliyyətinə inanırıq. Ukrayna çox böyük Avropa dövlətidir. Ukrayna istər Dünya Birliyinə, istərsə də Avropa birliyinə daha böyük töhfə vermək üçün çox geniş potensial imkanlara malikdir.

Azərbaycan Avropa ilə Asiyanın hüdudlarında yerləşir, Avropanın bir hissəsidir, bununla bərabər, coğrafi baxımdan ən ucqar cinahdadır. Ukrayna da, Azərbaycan da son dərəcə böyük coğrafi-siyasi əhəmiyyətə malikdir. Buna görə də xalqlarımızın, ölkələrimizin rifahı naminə dövlətlərimiz arasında əməkdaşlığın olduqca böyük əhəmiyyəti var. Əməkdaşlıq üçün iqtisadi sahədə geniş imkanlar meydana çıxmışdır. Odur ki, indi Ukraynanın və digər Mərkəzi Asiya dövlətlərinin qoşulduqları Transqafqaz magistralının çəkilməsi iqtisadi əlaqələrimizin inkişafı üçün, eyni zamanda Ukrayna ilə Azərbaycan arasında daha sıx qarşılıqlı əlaqələr, daha

qısa yol yaradılması üçün də, iqtisadi əməkdaşlıq üçün də, xalqlarımızın daha fəal ünsiyyətdə olması üçün də çox mühüm vasitədir. Bir çox digər imkanlar da mövcuddur. Biz onlardan əməkdaşlığımızın daha bəhrəli, qarşılıqlı surətdə faydalı və uğurlu olması üçün istifadə edə bilərik. Bu gün gördüyümüz iş də, bu gün imzaladığımız sənədlər də bundan ötrü böyük imkanlar verir və geniş yol açır.

Əminəm ki, biz həmin sənədlərdə şərh edilmiş razılaşmaları həyata keçirə biləcəyik. Əminəm ki, biz əməkdaşlığın daha geniş yoluna çıxacağıq. Əminəm ki, Ukrayna və Azərbaycan bu çətinlikləri və ölkələrimizin qarşısında sosial-iqtisadi sahədə duran problemləri aradan qaldıracaqdır. Onlar həll ediləcəkdir, başlıcası budur ki, biz malik olduğumuzu – suverenliyi və dövlət müstəqilliyini qiymətləndiririk.

Azərbaycanda bəzi digər problemlər də var. ATƏT-in üzvləri olan ölkələrimiz – həm Ukrayna, həm də Azərbaycan Avropada sülhün, əmin-amanlığın və təhlükəsizliyin təmin edilməsi üçün tədbirlər görürlər. Bununla yanaşı, bildiyiniz kimi, Qafqazda heç də hər şey sakit deyildir. Qafqazda gedən hərbi münaqişələr təkcə Azərbaycanın deyil, bir çox digər ölkələrin də mənafelərinə toxunur. Təbiidir ki, Qafqazda və[56-57]ziyyətin qeyri-sabitliyi Avropada sülh, əmin-amanlıq və təhlükəsizlik üçün mənfi amildir.

Buna baxmayaraq Ermənistanla hərbi münaqişəyə cəlb olunan biz sülh mövqelərində dururuq. Ermənistan ilə Azərbaycan arasında münaqişənin dincliklə aradan qaldırılması mövqelərində dururuq, halbuki Ermənistanın hələ 1988-ci ildə başlanmış hərbi təcavüzü Azərbaycana olduqca böyük ziyan vurmuşdur. Biz çox adam itirmişik. Biz iqtisadiyyatda çox şey itirmişik. Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı birləşmələrinin işğalı altındadır. Azərbaycanın bir milyondan artıq sakini, vətəndaşı Ermənistan silahlı birləşmələri tərəfindən işğal edilmiş ərazilərdən didərgin salınmış və çadır şəhərciklərində olduqca ağır şəraitdə yaşayır.

Leonid Daniloviç Bakıda olarkən kiçik bir rayona getdi, orada öz doğma ocaqlarından zorla qovulmuş Azərbaycan sakinləri müvəqqəti məskunlaşmışlar. O, bu adamların necə çətin şəraitdə olduqlarını gördü. Dörd- beş ildir ki, insanlar çadırlarda yaşayırlar. Bu, çox ağırdır, hələ onu demirəm ki, onlar özlərinin yaxın adamlarını, doğmalarını itirmişlər, evləri dağıdılmışdır, əcdadlarından qalan və özlərinin yaratdıqları nə vardısa hamısı talan edilmişdir.

Lakin bütün bunlara baxmayaraq, biz sülh mövqeyində dayanırıq və bu hərbi münaqişəyə sülh yolu ilə son qoymaq istəyirik. Məhz buna görə də biz hələ 1994-cü ilin mayında Ermənistanla atəşkəs haqqında saziş əldə etmişik. İki il on aydır ki, Ermənistan ilə Azərbaycan arasında döyüşlər getmir, biz atəşkəs şəraitində yaşayırıq. Bununla belə tam sülh də yoxdur. Mən bayaq dedim, Azərbaycan ərazisinin bir hissəsi işğal atındadır. Lakin bütün bu çətinliklərə, itkilərə, Azərbaycan Respublikasına dəymiş çox böyük zərərə baxmayaraq, bir də təkrar edirəm, biz məsələnin sülh yolu ilə həllinə çalışırıq.

Bununla əlaqədar biz ATƏT-in Lissabon Zirvə görüşünün yekunlarına son dərəcə böyük əhəmiyyət veririk. Orada ATƏT-in üzvü olan ölkələrin Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması prinsiplərini nəzərdə tutan bəyanatı qəbul edilmişdir. Bunlar Azərbaycan Respublikasının və Ermənistan Respublikasının ərazi bütövlüyünün tanınması, Azərbaycan Respublikasının tərkibində Dağlıq Qara[57-58]bağa yüksək özünüidarə statusu verilməsi və Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinə təminat verilməsi prinsipləridir.

Biz bu prinsipləri – Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün əsas kimi qəbul etmişik. Fürsətdən istifadə edərək, Lissabon Zirvə görüşündə bu prinsipləri dəstəklədiyinə görə və həmin görüş zamanı bir çox məsələlər, o cümlədən də bu məsələ barədə apardığımız söhbətə görə prezident Leonid Daniloviç Kuçmaya təşəkkür etmək istəyirəm.

Mən bu barədə burada sizə, dostlarımıza ona görə danışıram ki, bu, təkcə bizim məsələmiz deyildir. Hər bir dövlətin suverenliyi və ərazi bütövlüyü məsələsi – dünyaya aid məsələdir, bütün dünya birliyinin məsələsidir, Avropada sülh və təhlükəsizliyə aid məsələdir. Bu, beynəlxalq hüquq normalarının başlıca prinsipidir, BMT-nin prinsipidir və ATƏT-in prinsipidir. Ona görə də hər bir ölkənin ərazi bütövlüyünə əməl edilməsinin bizim üçün, o cümlədən Rusiya üçün də, Ukrayna üçün də, o cümlədən bizim qonşularımız olan Gürcüstan və Ermənistan üçün də son dərəcə mühüm əhəmiyyəti var. Ancaq eyni zamanda biz Azərbaycanın ərazi bütövlüyünü, Azərbaycanın sərhədlərinin toxunulmazlığını bərpa etmək istəyirik, bütün qonşu dövlətlərlə sülh şəraitində yaşamaq, regionumuzda, Qafqazda, Avropada, bütün dünyada sülh olmasını istəyirik.

Bir də qeyd edirəm, bunların hamısı Azərbaycanın bütün ölkələrlə qarşılıqlı fayda əsasında geniş əməkdaşlıq etməsinin zəruriliyini getdikcə daha çox şərtləndirir. Bu baxımdan biz Ukrayna ilə əlaqələrə, əməkdaşlığa xüsusi əhəmiyyət veririk. Bununla əlaqədar mən son dərəcə şadam ki, bu gün bizim səmərəli görüşlərimiz və söhbətlərimiz oldu, çox mühüm sənədlər imzalaya bildik və burada belə səmimi, dostluq şəraitində sizinlə bir yerdəyik. Problemlərimizdən danışarkən eyni zamanda onu da bilirik ki, hər bir ölkənin öz problemləri var. Ukraynanın da öz problemləri var. Biz Ukraynanın dövlət suverenliyini və ərazi bütövlüyünü tamamilə dəstəkləyirik və ürəkdən arzulayırıq ki, Ukrayna dövlət müstəqilliyinin bu ölkəyə verdiyi bütün imkanlardan tam istifadə edə bilsin. [58-59]

Biz əminik ki, zəngin sərvətlərə, çox böyük intellektual potensiala malik olan Ukrayna çiçəklənən ölkəyə çevriləcək, biz bunu ürəkdən istəyir, arzu edirik. Şübhəsiz ki, qarşılıqlı fayda götürmək məqsədi daşıyan

Azərbaycan-Ukrayna əməkdaşlığı da dost Ukraynanın gələcək inkişafına və tərəqqisinə müəyyən töhfə verəcəkdir.

Mən sizin hamınıza səadət və xoş həyat arzulamaq istəyirəm. Ukrayna prezidenti çox hörmətli Leonid Daniloviç Kuçmanın sağlığına, hörmətli dostlar, sizin sağlığınıza, Ukraynanın şərəfinə, Ukrayna-Azərbaycan dostluğunun şərəfinə, əməkdaşlığımızın şərəfinə badə qaldırıram.

Xay jive samostiynaya Ukraina! (Yaşasın Müstəqil Ukrayna!) [59-60]

## AZƏRBAYCAN PREZİDENTİNƏ KİYEV ŞƏHƏRİNİN FƏXRİ QONAĞI DİPLOMUNUN ŞƏHƏRİN RƏMZİ AÇARININ TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ ÇIXIŞ

*Kiyev Bələdiyyə İdarəsi*

*25 mart 1997-ci il*

Kiyev şəhərinin meri, hörmətli
Aleksandr Omelçenko cənabları!
Hörmətli xanımlar və cənablar, dostlar!

İki gündür ki, mən Ukrayna torpağında, Kiyev şəhərindəyəm və hər yerdə səmimiyyət, hörmət hissləri və böyük qonaqpərvərliklə qarşılaşıram.

Mən sizin ölkənizə Ukrayna prezidenti hörmətli Leonid Daniloviç Kuçmanın dəvəti ilə rəsmi səfərə gəlmişəm və sevinirəm ki, bu səfər dostluq və qarşılıqlı anlaşma, səmimilik və mehribanlıq şəraitində keçir.

Ukrayna ilə Azərbaycan arasında əməkdaşlığı daha da inkişaf etdirmək və dərinləşdirmək üçün zəmin yaratmaqdan ötrü biz dünən və bu gün çox iş görə bildik. Dünən Ukrayna prezidenti hörmətli Leonid Daniloviç Kuçmanın və mənim tərəfimizdən, Ukrayna və Azərbaycan nümayəndə heyətlərinin üzvləri tərəfindən imzalanmış sənədlər əməkdaşlığımızı genişləndirmək və dərinləşdirmək, dostluğumuzu möhkəmləndirmək üçün yaxşı hüquqi – müqavilə əsas yaratmışdır. Biz bunu çox yüksək qiymətləndiririk.

Bu gün xatırlatmaq istəyirəm ki, Ukrayna prezidenti hörmətli Leonid Daniloviç Kuçma 1995-ci ilin iyulunda Azərbaycanda rəsmi səfərdə olmuşdur. O zaman biz, demək olar, əməkdaşlığımız üçün yaxşı əsas yaratdıq, əməkdaşlığı inkişaf [60-61] etdirmək, dostluq münasibətlərini möhkəmləndirmək sahəsində xalqlarımızın, ölkələrimizin iradəsini birlikdə ifadə etdik, mühüm sənədlər imzaladıq. Bundan sonra keçən dövr əməkdaşlığımızı daha da genişləndirməyin və inkişaf etdirməyin zəruriliyini, bu sahədə böyük ehtiyatlar və imkanlar olduğunu açıq-aydın nümayiş etdirdi. Dünən imzalanmış sənədlər, iki gün ərzində prezidentlə, parlamentdə, nazirlərlə, Kiyev şəhərinin Bələdiyyə İdarəsində aparılmış danışıqlar onu göstərir ki, biz əməkdaşlığımızın çox mühüm mərhələsindəyik və qarşımızda gözəl perspektivlər açılır. Biz bu perspektivləri görürük və elə edə bilərik ki, irəliyə doğru gedək, əməkdaşlığımızı dərinləşdirək və inkişaf etdirək.

Şübhəsiz ki, Kiyevdə olarkən biz kiyevlilərin və şəhər rəhbərliyinin xüsusi qayğısını hiss edirik və mən bu qayğıya görə hədsiz minnətdarlığımı bildirirəm. Lakin mənim üçün əlamətdar olan bu görüşdən xüsusilə sevinirəm. Kiyev şəhərinin meri hörmətli Aleksandr Omelçenkonu, burada iştirak edən nazirləri və şəhər bələdiyyə idarəsinin rəhbər işçilərini, deputatları salamlamağıma şadam. Azərbaycan xalqını, Azərbaycanın bütün vətəndaşlarının və paytaxtımız Bakı şəhərinin sakinlərinin səmimi salamlarını və xoş arzularını sizə çatdırıram.

Ölkələrimiz arasında, Kiyevlə Bakı arasında ənənəvi dostluq əlaqələri mövcuddur. Lakin bu gün burada, sizin yanınızda olarkən xoş hisslər keçirir, əmin oluram ki, əməkdaşlıq etmək, yaranmış ənənəvi əlaqələri inkişaf etdirmək üçün xalqlarımızın, ölkələrimizin, paytaxtlarımız Kiyev və Bakının daha böyük imkanları var. Kiyev şəhərinin Fəxri qonağı diplomunu və şəhərin rəmzi açarını almaq mənə xüsusilə xoşdur. Bu, mənim həyatımda böyük hadisədir. Bunu Azərbaycan xalqına, müstəqil Azərbaycan Respublikasına və təbii ki, şəxsən mənə olan hörmət və ehtiram hisslərinin ifadəsi kimi qəbul edirəm. Sizə minnətdaram. Zəngin tarixə malik, rus dövlətinin başlanğıcı sayılan, bütün tarixi boyunca Ukraynanın milli azadlığının, dövlət müstəqilliyinin rəmzi olmuş və indi də rəmzi olaraq qalan Kiyev kimi gözəl şəhərin Fəxri qonağı statusunu almaq mənə çox xoşdur. Ona görə də Kiyev şəhərinin Fəxri qonağı olmaq, sizdən diplom və rəmzi açar almaq son dərəcə xoşdur. Bu, mənim üzərimə böyük vəzifə qoyur. Əmin ola bi[61-62]lərsiniz ki, mən bundan sonra da Ukrayna xalqının, Kiyev şəhərinin sadiq, etibarlı dostu olacağam və əlimdən gələni edəcəyəm ki, Ukrayna ilə Azərbaycan xalqları arasında, Kiyev ilə Bakı arasında dostluq münasibətləri müstəqil dövlətlərimizin, xalqlarımızın tərəqqisi naminə müvəffəqiyyətlə inkişaf etsin.

Sizi Azərbaycana, Bakıya dəvət edirəm. Mən də, bakılılar da Sizi qarşılamağa şad olacağıq. Sizin bu səfəriniz münasibətlərimizin daha da inkişaf etdirilməsi işində yeni addım ola bilər.

Sizə bir daha səmimi təşəkkürümü bildirirəm və Sizə, sizin şəxsinizdə bütün Ukrayna xalqına çox böyük ehtiram, qardaşlıq münasibəti hissləri yetirirəm. Çox sağ olun.

* * *

## KİYEV ŞƏHƏR BƏLƏDİYYƏ İDARƏSİNİN FƏXRİ QONAQLAR KİTABINA YAZILMIŞ ÜRƏK SÖZLƏRİ:

*"Bu gün mən Kiyevin meri Omelçenkodan Kiyev şəhərinin Fəxri qonağı fərmanını və şəhərin rəmzi açarını böyük minnətdarlıq hissi ilə qəbul etdim. Kiyev şəhəri böyük və zəngin tarixə, gözəl əməksevərlik, humanizm, qəhrəmanlıq, yüksək mədəniyyət ənənələrinə malikdir. Bu gözəl şəhərin Fəxri qonağı şərəfinə layiq olduğuma görə son dərəcə şadam. Mən buna Azərbaycan xalqına, müstəqil Azərbaycan Respublikasına dostluq hisslərinin ifadəsi kimi baxıram. Əminəm ki, Ukrayna ilə Azərbaycan arasında dostluq münasibətlərinin yaxşı əsası, gözəl gələcəyi var. Bizim borcumuz bu imkanları reallığa çevirməkdir. Bütün kiyevlilərə sülh, firavanlıq, tərəqqi arzulayıram.*

**Heydər Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti"**
[62-63]

## AZƏRBAYCAN VƏ UKRAYNA PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

*Kiyev, Mariya sarayı*

*25 mart 1997-ci il*

Çox hörmətli Leonid Daniloviç!
Möhtərəm xanımlar və cənablar!

Ukraynaya rəsmi səfərim başa çatır və indi hava limanına getməyə hazırlaşarkən mən bu səfərin baş tutduğuna, olduqca əlverişli şəraitdə, dostluq, yoldaşlıq şəraitində keçdiyinə, dövlətlərarası münasibətlərimizlə, ölkələrimiz və dövlətlərimiz arasında əməkdaşlığın gələcək inkişafı ilə bağlı bir çox məsələləri birlikdə müzakirə və bu məsələlər barəsində qərarlar qəbul etdiyimizə görə böyük məmnunluq hissi keçirirəm. Hörmətli Leonid Daniloviç, fürsətdən istifadə edərək, dəvətinizə görə, qonaqpərvərliyə görə, mənə və mənimlə gəlmiş bütün Azərbaycan nümayəndələrinə göstərdiyiniz xoş hisslərinizə görə, getdiyimiz hər yerdə əhatə olunduğumuz səmimi, həqiqətən mehriban mühitə görə Sizə bir daha təşəkkürümü bildirirəm.

Leonid Daniloviç, mənə göstərdiyiniz yüksək şərəfə görə, diqqət və qayğıya görə, bununla yanaşı, Ukraynanın ali ordeni – Yaroslav Mudrı ordeni ilə təltif olunduğuma görə Sizə bir daha təşəkkürümü bildirmək istəyirəm. Beləliklə, mən Azərbaycana Ukrayna mükafatı ilə qayıdıram. Mən bu mükafatı münasibətlərimizin daha da dərinləşməsini və genişlənməsini ifadə edən son dərəcə mühüm amil kimi qiymətləndirirəm.

Leonid Daniloviç, 1995-ci ildə Siz Azərbaycana səfər etdiniz, indi isə mən cavab səfərinə gəlmişəm. Sizə üz tutaraq xahiş [63-64] edirəm ki, Azərbaycan Respublikasına bir daha səfər etməyi planlaşdırasınız. Mən Sizin səfərinizi səbirsizliklə gözləyəcəyəm və düşünürəm ki, Siz elə ilk imkan düşən kimi onu həyata keçirəcəksiniz. 1995-ci ildə Bakıda da, bu günlərdə Kiyevdə də çox işlər görülməsinə, çox sənədlər hazırlanıb imzalanmasına baxmayaraq, hələ çox şey edilməlidir ki, strateji tərəfdaşlıq xarakteri daşıyan sənəd – Ukrayna ilə Azərbaycan arasında əməkdaşlığın daha da dərinləşdirilməsi haqqında dünən imzaladığımız bəyannamə həyata keçirilsin. Bu, bizim üzərimizə çox böyük vəzifələr qoyur, buna görə də sonrakı görüşlərə ehtiyac var. Bununla əlaqədar olaraq mən Sizi Azərbaycana rəsmi səfərə gəlməyə dəvət edirəm.

Ukraynanın və Kiyev şəhərinin bütün nümayəndələri ilə görüşlərdən aldığım ən xoş təəssüratlar barədə danışmağı lazım bilirəm. Nadir qoruq, Ukrayna xalqının qədim tarixinin, qədim mədəniyyətinin nadir abidəsi olan Kiyev-Peçera lavrası ilə tanışlıq mənə böyük təsir bağışladı. Şadam ki, bu tarix abidəsi ilə yenidən tanış ola bildim. Bu gün Kiyev Bələdiyyə İdarəsinə getməyimə və Kiyevin fəxri qonağı adına layiq görülməyimə şadam. Kiyevin fəxri qonağı adına layiq görüldüyüm üçün təşəkkür edirəm. Görüşlərimizin yekunları və imzalanmış sənədlər barəsində Leonid Danilovičin dedikləri ilə tamamilə razıyam. Bəyan edirəm ki, söhbətlər zamanı və ikitərəfli münasibətlərə, MDB, Avropa təhlükəsizliyi çərçivəsində, bütün beynəlxalq təşkilat və strukturlarda əməkdaşlığımıza aid məsələlərin müzakirəsi zamanı biz fikir və baxışlarımızın, mövqe və münasibətlərimizin tamamilə uyğun gəldiyini aşkara çıxardıq. Mənim üçün böyük əhəmiyyət kəsb edən başlıca məsələ bundan ibarətdir ki, Ukrayna iqtisadi bazar islahatları aparılması, demokratik dövlət quruculuğu, hüquqi cəmiyyət yaradılması yolu ilə gedir, öz dövlət müstəqilliyini qətiyyətlə qoruyub müdafiə edir. Biz də bu yolla gedirik, bütün bunlar ölkəmizdə də həyata keçirilir və Azərbaycanın dövlət müstəqilliyi bizdən ötrü ən mühüm tarixi nailiyyətdir və biz bu nailiyyəti bundan sonra da qoruyacağıq.

Leonid Daniloviç, Sizə, Kiyevdəki, Ukrayna torpağındakı bütün dostlarımıza bir daha təşəkkür edirəm. [64-65]

Təbii ki, bizi dünən və bu gün müşayiət etmiş, indi də bizimlə olan mətbuata da təşəkkürümü bildirirəm. Sağ olun.

**Sual: Hörmətli prezidentlər, siz MDB-nin Zirvə toplantısı ərəfəsində birliyin perspektivlərini necə qiymətləndirirsiniz? Sual Leonid Daniloviçədir: Siz Rusiya hərbi texnikasının Ermənistana əvəzsiz və gizli olaraq göndərildiyi barədə Rusiyanın müdafiə naziri İqor Rodionovun təsdiqlədiyi faktı necə qiymətləndirirsiniz?**

**Leonid Kuçma:** Belə düşünürəm ki, martın 28-də keçiriləcək MDB-nin Zirvə toplantısının nəticələrindən görüş keçirildikdən sonra danışmaq olar. Lakin biz belə bir ümidlə gedirik ki, dünənki və gələcək MDB barəsində öz sözümüzü deyə biləcəyik. Zənnimcə, MDB-nin mövcud olduğu indiki forma ona daxil olan tərəflərdən heç birini, ölkələrdən heç birini qane edə bilməz. Biz, hər şeydən əvvəl, bu strukturu bərabərhüquqlu tərəflərin birliyi kimi görmək istəyirik. Elə bilirik ki, burada hər bir ölkə ərazisinin həcmindən və əhalisinin sayından asılı olmayaraq eyni səsə malik olsun.

İkinci suala – o isə həqiqətən çox mürəkkəbdir, – gəldikdə, mən Azərbaycana səfər zamanı qaçqınların məskunlaşdığı yerləri görmək imkanına malik oldum. Deməliyəm ki, bütün bunlara ürək ağrısı, sarsıntı və təəssüf hissləri keçirmədən baxmaq olmaz. Axı adamlar əslində hər şeylərini itirmişlər, onların gələcəyi bu gün çox problematik və qeyri-müəyyəndir. Buna görə də mən bunu əsas tuturam ki, bütün tərəflər Təhlükəsizlik Şurasının qərarlarına ciddi əməl etməlidirlər. Bu qərarlarda açıq-aydın yazılmışdır ki, nə kimi işlər görmək lazımdır. Mən də öz tərəfimdən, xarici işlər və müdafiə nazirliklərinə tapşırıram ki, həmin məsələni əlavə olaraq öyrənsinlər və bu problem barəsində rəsmi fikir hazırlasınlar.

**Heydər Əliyev:** Vaxtınızı almamaq üçün demək istəyirəm ki, Leonid Daniloviç Kuçmanın MDB barəsində söylədiyinin hamısı ilə tam razıyam. Mən də bu fikirdəyəm ki, birliyimiz demokratik, səmərəli olmalı və beynəlxalq standartlara cavab verməli, bütün üzvlərinin bərabərhüquqlu iştirakını təmin etməlidir. Təəssüf ki, buna nail olmaq hələlik mümkün olmayıbdır. Bununla belə, hesab edirəm ki, bu, real [65-66] surətdə mümkündür. Bundan ötrü lazımi şərait yaratmaq, MDB-nin fəaliyyətinin daha da təkmilləşdirilməsi mexanizmlərini müəyyənləşdirmək gərəkdir. Yəqin ki, biz bu fikirləri martın 28-də deyəcəyik. Ümid etmək istərdim ki, dövlət rəhbərlərinin görüşündən sonra birliyin fəaliyyəti əsaslı surətdə yaxşılaşmağa başlayacaqdır.

**Sual: Suallarım hər iki prezidentədir: Neft dəhlizi yaradılmasının həyata keçirilməsində Ukrayna və Azərbaycanın planlarına hər hansı üçüncü tərəf, xüsusən Rusiya mane ola bilərmi? Siz Belarusda baş verən hadisələri necə şərh edərdiniz?**

**Heydər Əliyev:** Bilirsinizmi, bizə çox şeydə mane olmağa çalışırlar. 1994-cü il sentyabrın 20-də biz Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının birgə işlənməsi haqqında ilk iri müqavilə imzaladıqda çox etirazlar, narazılıqlar və müxtəlif cür uydurma əngəllər oldu. Onlar bu gün də mövcuddur, lakin onların heç bir əsası yoxdur. Biz müstəqil dövlət kimi öz hüququmuzdan istifadə edərək, onda da tamamilə qanunauyğun hərəkət etdik və bu gün də düz hərəkət edirik. Odur ki, mane olmaq istəyəcəklər, amma zənnimcə, bunu bacarmayacaqlar.

Belarusda hadisələrə gəldikdə, mənim bu barədə çox az məlumatım var. Eşitdiklərim və mənə məlum olanlar ancaq televiziya ilə gördüklərimdən ibarətdir. Lakin orda baş verən bütün hadisələr mənim üçün anlaşıqlı deyildir, dumanlıdır. Həqiqətən, orada nələr baş verir? Bəlkə bu barədə Leonid Daniloviç danışsın?

**Leonid Kuçma:** Birinci sual ilə əlaqədar mən Heydər Əliyeviçlə tam razıyam. Belə konkret nöqteyi-nəzərə görə minnətdaram. Buna bir neçə kəlmə əlavə edib demək istərdim ki, baxır, Rusiya hansı mənafeləri əsas tutacaq – çar Rusiyasının mənafelərini, yoxsa müasir demokratik dövlətin mənafelərini. Axı biz görürük ki, indi Rusiyada neft hasilatı gündən-günə azalır və tezliklə onun təkcə özündə deyil, kənarda da əlavə neft mənbələrinə ehtiyacı ola bilər. Bəs belə isə nə üçün Rusiya hər yerdə öz dostu elan etdiyi qonşularına mane olur? Sağlam düşüncə müasir dünyada hər yerdə və hər şeydə qalib gəlməlidir. [66-67]

O ki qaldı Belarusa, orada baş verən bəzi son hadisələr mənə dumanlı görünür. Lakin mən həmişə bunu əsas tuturam ki, hər bir xalq öz ölkəsinin inkişaf yolunu seçmək hüququna malikdir.

Bir sözlə, sağlıq olsun, görərik.

**Sual: Sualım cənab Kuçmayadır: Ermənistan bəyan edir ki, Ukrayna Azərbaycana silah və hərbi texnika göndərmişdir. Bu bəyanata sizin münasibətiniz necədir? İkinci sual hər iki prezidentədir: Siz Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasında Ukraynanın iştirakı məsələsini müzakirə etdinizmi, əgər etdinizsə, onda bu iştirak hansı formada olacaqdır?**

**Heydər Əliyev:** Hesab edirəm ki, mən birinci suala cavab verə bilərəm və əgər lazım gələrsə, Leonid Daniloviç əlavə edər. Ukraynadan Azərbaycana gizli yolla heç bir silah göndərilməyib. Bu gün sizin qarşınızda, bütün dünya qarşısında bəyan edirəm ki, biz atəşkəs haqqında saziş imzaladığımız bu, 1994-cü il mayın 12-də olub, – vaxtdan bəri Azərbaycan heç yerdən bir dənə də silah almayıb. Rusiya Müdafiə Nazirliyinin səhih məlumatına cavab olaraq Yerevanda söylənilmiş fikirlər ağ yalandır, uydurma və böhtandır. Mən bunu qəti şəkildə deyirəm. Hesab edirəm ki, Leonid Daniloviç də belə deyəcəkdir.

**Leonid Kuçma:** Mən bunu təsdiq etməyə bilmərəm, çünki, bu doğrudur. Həmin müddətdə silah göndərilməsindən heç söhbət də getməmişdir.

**Heydər Əliyev:** O ki, qaldı Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasında Ukraynanın iştirakı məsələsinə, biz onu Leonid Daniloviçlə müzakirə etdik, çünki bu, bizim üçün müstəsna əhəmiyyətli məsələdir. Qafqazda sabitlik məsələsi isə Ukrayna üçün, şübhəsiz, böyük əhəmiyyətə malikdir. axı Ukrayna Qafqaza coğrafi cəhətdən çox yaxındır və onunla bütün digər əlamətlərlə bağlıdır. Bundan başqa, hiss edirəm ki, Ukrayna, xüsusən onun prezidenti hörmətli Leonid Daniloviç çox böyük maraq göstərirlər ki, ölkələr sülh və əmin-amanlıq şəraitində yaşasınlar. Buna görə də biz bu məsələni müzakirə etdik və yekdil fikirdə olduq ki, Ermənistan-Azərbaycan münaqişəsinin dincliklə aradan qaldırılması [67-68] haqqında, yəni dincliklə tənzimləmənin prinsipləri – Azərbaycan Respublikasının və Ermənistan Respublikasının ərazi bütövlüyünün tanınması, Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək özünüidarə statusu və Dağlıq Qarabağın bütün əhalisi üçün təhlükəsizliyə təminat verilməsi prinsipləri haqqında Lissabon bəyanatı sülhə nail olmaqdan ötrü yaxşı əsasdır. Biz məsələni bax, bu ruhda müzakirə etdik.

**Leonid Kuçma:** Azərbaycanın ərazi bütövlüyünə ciddi əməl edilməsinin zəruriliyindən başqa, bizim ayrı nöqteyi-nəzərimiz olmamışdır və yoxdur. Biz bunu əsas tutmuşuq və ATƏT-in Lissabon görüşündə də mövqeyimiz belə olmuşdur.

**Sual: Hörmətli Heydər Əliyeviç, xahiş edirik, banknot fabriki ilə tanışlıqdan aldığınız təəssüratı bölüşəsiniz və izah edəsiniz ki, Azərbaycan tərəfinin bu müəssisəyə marağına səbəb nədir?**

**Heydər Əliyev:** Sualınızın axırıncı hissəsinə dərhal cavab verəcəyəm. Mən hətta bilmirdim ki, Kiyevdə belə bir fabrik var. Buna görə də məndə ona bu cür yüksək maraq yox idi. Lakin buraya səfərimin proqrammı mənə təqdim etdikdə və proqramda bu fabrikə getmək nəzərdə tutulduğunu gördükdə mən onunla çox maraqlandım və oraya böyük həvəslə getdim. Deməliyəm ki, fabrik mənə çox güclü təsir bağışladı. Bu müəssisə müasir texnologiya, texnika quraşdırılmış və beynəlxalq standartlara cavab verən yüksək keyfiyyətli məhsul buraxmağa qadir böyük bir kompleksdir. Çox şadam ki, Ukrayna belə müəssisəyə malikdir və qısa bir müddətdə bu cür istehsalat, özü də fəaliyyətini genişləndirmək üçün böyük perspektivləri olan istehsalat yarada bilmişdir. Bu, təsərrüfat – iqtisadi baxımdan belədir, dövlət baxımından, siyasi nöqteyi-nəzərdən isə, hesab edirəm ki, bu, Ukraynanın dövlət müstəqilliyinin mühüm atributudur. Ukrayna böyük ölkədir, böyük potensiala malikdir və öz qiymətli kağızlarını özü yaratmaq iqtidarındadır. O, belə də edir. Bu, Ukraynanın müstəqilliyinin rəmzidir. Mən bunu fabrikdə dedim və indi də deyirəm. Bununla yanaşı, mən Ukrayna Milli Bankının prezidentindən xahiş etdim ki, o, Azərbaycan Milli Bankının prezidenti ilə görüşsün. Biz bunu mütləq edəcəyik ki, o banknot fabriki ilə [68-69] tanış ola bilsin. Ola bilsin ki, biz onun xidmətlərindən istifadə edəcəyik.

**Sual: Sualım Leonid Daniloviçədir: Bu gün Ukraynanın kütləvi informasiya vasitələri xəbər vermişdir ki, iki layihəni – Transqafqaz nəqliyyat dəhlizinə dair və Xəzər neftinin Ukrayna ərazisi ilə Avropaya nəql olunmasına dair layihələri maliyyələşdirmək xahişi ilə Avropa Yenidənqurma və inkişaf Bankına Ukrayna, Azərbaycan və Gürcüstan prezidentlərinin ümumi müraciətinin layihəsi Sizin danışıqlarınız zamanı razılaşdırılmalıdır. Belə bir müraciət həqiqətən mövcuddurmu, əgər mövcuddursa, onun layihəsi hazırdırmı?**

**Leonid Kuçma:** Bu məsələ ilk dəfə qaldırılmır. Ukrayna tərəfi bunu əsas tutur ki, əgər Xəzər neftinin Avropaya göndərilməsi üçün dəhliz qəti şəkildə müəyyən edilərsə, onda Avropa Yenidənqurma və İnkişaf Bankına üç prezidentin bu cür müraciət imzalaması məqsədəuyğun olar. Bu, bütün nöqteyi-nəzərlərdən əsaslandırılmışdır. Lakin onu əlavə olaraq öyrənmək lazımdır. Biz Heydər Əliyeviçlə bu barədə razılığa gəlmişik və yaxın vaxtlarda Ukrayna-Azərbaycan birgə komissiyası onun üzərində işləyəcəkdir.

**Sual: Leonid Daniloviç, Ukrayna nə dərəcədə ümid bəsləyə bilər ki, gələcəkdə Azərbaycan nefti Rusiyadan neft idxalına alternativ ola bilər? Heydər Əliyeviç, Siz Dağlıq Qarabağ "prezident"inin Ermənistan baş naziri təyin olunmasını necə şərh edirsiniz?**

**Leonid Kuçma:** Siz gərək bağışlayasınız, özgənin cibinə baxmaq yaxşı deyil. Mən bilən, Xəzərdə neftin kəşf edilmiş ehtiyatları təkcə Ukraynaya deyil, başqa ölkələrə də neft göndərilməsinin çox ciddi alternativ mənbəyidir. Biz bu regionun inkişafında bütün baxımlardan maraqlıyıq. Odur ki, bu neft Ukraynaya Rusiya nefti ilə paralel surətdə gələ bilər.

**Heydər Əliyev:** Dağlıq Qarabağın erməni icmasının lideri Robert Koçaryanın Ermənistan baş naziri təyin edilməsini biz mənfi və anlaşılmaz fakt kimi qiymətləndiririk. Dağlıq Qarabağ Azərbaycan Respublikasının bir hissəsidir. Ermənistan tərəfindən təcavüz nəticəsində Dağlıq Qarabağı, eləcə də onun ətrafındakı Azərbaycan torpaqlarını Ermənistan silahlı [69-70] birləşmələri işğal etmişlər. Bu işğalda, bu qanlı müharibədə Koçaryan da fəal iştirak etmiş, fəal rol oynamışdır. O, son illərdə Dağlıq Qarabağın erməni icmasına başçılıq edir və ya qondarma "Dağlıq Qarabağ Respublikası"nın üzdəniraq "prezidenti" adlanır. Bu, normal anlayışlara və adicə beynəlxalq hüquq normalarına heç cür uyğun gəlmir. Buna görə də bu təyinat bizim tərəfimizdən əsla qəbul edilə bilməz və müvafiq orqanlarımız bu məsələyə münasibətimizi bildirmişlər.

**Sual: Sual hər iki prezidentədir: Siz Avropada adi silahlı qüvvələr haqqında müqaviləyə dair məsələni müzakirə etdinizmi və XXI əsrdə Avropa təhlükəsizliyinin modeli, sizcə, necə olmalıdır?**

**Leonid Kuçma:** Siz cinah məhdudiyyətlərinə dair sazişi nəzərdə tutursunuz? Bəli, müzakirə etdik. Mövqelərimiz indiki halda üst-üstə düşür. Bu problemin təkcə Azərbaycana və Ukraynaya deyil, həm də qonşularımıza, – mən Moldova və Gürcüstanı deyirəm, – aid olduğunu nəzərə alaraq, biz məsləhətləşmələri davam etdirmək qəti olaraq qərar qəbul etmək barədə razılığa gəldik.

**Heydər Əliyev:** Mən də bu fikirdəyəm. Biz bu məsələni müzakirə etdik və bu baxımdan fikirlərimiz uyğun gəlir. Biz bu məsələdə əvvəllər də eyni mövqe tuturduq, çünki o, təzə məsələ deyil və danışıqların bir neçə mərhələsində müzakirə olunmuşdur. Ukrayna ilə Azərbaycanın mövqeləri bu baxımdan tamamilə üst-üstə düşür. Bu dəfə də, Leonid Daniloviçlə mənim aramda fikir mübadiləsi zamanı həmin məsələ müzakirə mövzusu idi. Biz öz mövqeyimizi təsdiqlədik və belə bir qərara gəldik ki, Ukrayna ilə Azərbaycan arasında, Gürcüstanla və Moldova ilə məsləhətləşmələri davam etdirmək lazımdır. Axı bu, onlara da aiddir və bizim mövqelərimizə onların da mövqeləri yaxındır.

İkinci məsələyə – XXI əsrdə təhlükəsizlik modeli məsələsinə gəldikdə isə, yəqin ki, siz bilirsiniz, ATƏT-in Lissabon Zirvə görüşündə dövlət başçılarının bu barədə xüsusi qərarı qəbul olunmuşdur, biz bu qərara səs

vermişik. Hesab edirəm ki, XXI əsrdə Avropa təhlükəsizliyi modeli haqqında sənəddə şərh olunmuş prinsiplər real və həyata keçirilə bilən prinsiplərdir. Biz bu prinsipləri dəstəkləyirik. [70-71]

**Leonid Kuçma:** Mən bu məsələdə Heydər Əliyeviç ilə razıyam. Xüsusilə Avropaya aid olan bu problemin nə qədər mürəkkəb və məsuliyyətli problem olduğunu biz başa düşürük. Ona görə də ölkələrin bir-birinə yaxınlaşmaq üçün atdıqları addımı müsbət hadisə kimi qiymətləndirmək lazımdır. Mən Almaniyanın Çexiya ilə barışıq haqqında müqavilə imzalamasını nəzərdə tuturam, Macarıstan Rumıniya ilə müqavilə bağlamışdır, Ukrayna da, o cümlədən Rumıniya ilə müqavilə imzalamaq niyyətindədir. Mayda Polşa ilə də belə müqavilə imzalamağa hazırlaşırıq. Bir sözlə, bunların hamısı Avropa qitəsində təhlükəsizliyin gücləndirilməsinə yönəldilmişdir.

Lakin hazırda elə bəlalar da var ki, biz bunlara əlac etməyin metodlarını hələ bilmirik. Bu, ilk növbədə separatizm bəlasıdır. Onun bütün səviyyələrdə, o cümlədən də Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin 50-ci sessiyası səviyyəsində pislənməsinə baxmayaraq, separatizm bəzən çox eybəcər formalarda güclənməkdə davam edir. Bu isə Avropanın və dünyanın bir çox nöqtələrində müşahidə olunan qeyri-sabitliyə gətirib çıxarır. Ona görə də ATƏT-in elan etdiyi prinsiplərin həyata keçirilməsinə çalışacağıq. Sağ olun. [71-72]

## UKRAYNADAKI AZƏRBAYCAN DİASPORUNUN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*25 mart 1997-ci il*

Mən Ukraynaya ilk dəfədir ki, rəsmi səfərə gəlmişəm. Xarici ölkələrə bütün səfərlərim zamanı mən orada olan azərbaycanlılarla, həmvətənlərimizlə görüşürəm. Şübhəsiz ki, indi burada da belə bir görüşə ehtiyacım vardır. Mən xahiş etmişdim ki, Ukraynada yaşayan azərbaycanlıların hamısı da olmasa, bir hissəsi gəlsin, görüşək.

İstəyirəm biləm ki, Ukraynada nə qədər azərbaycanlı var, burada necə yaşayırsınız, nə iş görürsünüz, Vətənlə əlaqələriniz necədir, hansı problemləriniz var? Doğrudur, mənə dedilər ki, vaxt çox azdır. Ancaq bu az müddətə də bir şey öyrənmək, demək olar. Bilirsiniz ki, mən bu gün Bakıya qayıdıram. Bu, bizim ilk görüşümüzdür. Mən heç də bilmirdim ki, Ukraynada 500 min azərbaycanlı yaşayır, bu böyük rəqəmdir. Şübhəsiz ki, azərbaycanlıların Ukraynada yaşaması nə sizdən, nə də məndən asılı deyildir. Bu hər kəsin öz taleyidir – gəlib, buraya düşüb, yaşayır. Mən buna mənfi bir hal kimi baxmıram, əksinə, müsbət hal kimi baxıram. Çünki hər bir millət öz torpağında cəmləşib yaşamamalıdır. Bilirsiniz ki, hansı millətin nümayəndələri bir çox başqa ölkələrdə yaşayırsa, onlar öz xalqları, ölkələri üçün orada yaxşı təmsilçi olurlar. Ona görə də bunun xeyri var, zərəri yoxdur.

Dedilər ki, burada yaşayan azərbaycanlıları bəzən incidirlər. Onları kim, necə incidir? Bu gün mən Ukrayna Prezidenti ilə görüşəcəyəm, ona nə deməliyəm? Deməliyəm ki, kimi, necə incidiblər? [72-73]

**Yerdən səs**: Burada yaşayan azərbaycanlıları incidən əsasən milis orqanlarıdır. Onlar başqa millətlərin nümayəndələrinə nisbətən, daha çox azərbaycanlılara təzyiq göstərirlər.

**Heydər Əliyev**: Aydındır, burada yaşayan yerli əhali ukraynalılardır, ruslar da çoxdur, başqa millətlərin nümayəndələri də vardır.

**Yerdən səs:** Ukraynada təqribən 17 min erməni yaşayır.

**Heydər Əliyev**: Ukrayna dövlətinin, şəxsən prezidentin Azərbaycana çox böyük və gözəl münasibəti vardır. Ümumiyyətlə siz bilməlisiniz ki, Ukrayna və Azərbaycan dövlətləri arasında son illər çox yaxşı münasibətlər yaranıbdır. Ukraynanın Prezidenti Leonid Kuçma 1995-ci ilin iyul ayında mənim dəvətimlə Azərbaycanda rəsmi səfərdə olmuşdur. Səfər çox uğurlu keçdi. Biz ölkələrimiz arasındakı əməkdaşlığın möhkəmləndirilməsinə dair bir çox sənədlər imzaladıq.

Prezident Leonid Kuçma məni buraya, Ukraynaya rəsmi səfərə dəvət etmişdi. Təəssüf ki, işlərimiz çox olduğuna və başqa səbəblərə görə mən 1996-cı ildə bu səfəri həyata keçirə bilmədim. İndi, 1997-ci ildə mən buraya rəsmi səfərə gəlmişəm.

Mənim indi də işim çoxdu. Sabah axşam Fransaya getməliyəm. Martın 28-də Moskvada olmalıyam. Bir neçə işlərim də vardır. Ancaq buna baxmayaraq, martın 24-25-nə təyin olunmuş bu səfərimin vaxtını dəyişdirmədim.

Burada bizi çox böyük qonaqpərvərliklə, mehribanlıqla dostluq şəraitində qarşıladılar. Prezident Leonid Kuçma ilə mənim danışıqlarım çox uğurlu keçdi. Bizim nümayəndə heyətimizlə Ukraynanın Baş naziri cənab Lazarenko, xarici işlər naziri cənab Udovenko, parlament sədrinin birinci müavini cənab Tkaçenko ilə çox ətraflı söhbətimiz oldu. Dünən biz 17 sənəd imzaladıq. Onların içərisində ən mühüm xarakter daşıyan odur ki, Azərbaycanla Ukrayna arasında strateji tərəfdaşlıq prinsipləri əsasında əlaqələr yaranıbdır. Bu, çox yeni bir məsələdir. Belə bir sənədi biz yalnız Gürcüstanla imzalamışıq, indi isə Ukrayna ilə imzaladıq. Bu da Ukraynanın Azərbaycana nə qədər böyük marağı və bizim də Ukraynaya necə böyük marağımız olduğunu göstərir. [73-74]

Keçmiş Sovetlər İttifaqına mənsub olmuş və indi Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrlə münasibətlərimizdə Ukrayna Azərbaycan üçün xüsusi yer tutur. Əvvəl də bilirdik ki, dünən və bu gün də bizim üçün bir daha aydın oldu ki, Azərbaycan da Ukrayna üçün çox mühüm əhəmiyyət kəsb edir. İqtisadi əlaqələri inkişaf etdirmək üçün geniş imkanlarımız vardır. Ukrayna gələcəkdə Azərbaycanın xüsusən neftindən və qazından istifadə etmək istəyir. Dünən biz bu barədə də bir sənəd imzaladıq. Bu da çox böyük bir əhəmiyyət kəsb edən bir sənəddir.

Beləliklə, ölkələrimiz arasında, yəni dövlət səviyyəsində Prezident, Baş nazir və başqa səviyyələrdə çox dost, mehriban münasibətlər yaranıbdır. Deyə bilərəm ki, bəlkə də bu, başqa dövlətlərə nisbətən müsbət cəhətdən fərqlənir, ona görə də belə bir halda mən təəccüblərinəm – deyirsiniz ki, burada azərbaycanlılara münasibətdə nə isə var. Sizi dinlədikcə mən belə bir nəticəyə gəlirəm ki, əgər belə hallar varsa, – bir halda siz deyirsiniz var, – bu dövlət siyasətinə aid deyil, bu Ukrayna hökumətinin siyasəti deyildir. Bu, yəqin ki, müəyyən vəzifəli şəxslərin özlərinin hərəkətlərindən doğan məsələdir. Bir də, bilirsiniz, keçmişdəki kimi deyil ki, hamı bir fikrə tabe olsun. Görürsünüz, burada da parlament bir şey, icra orqanları başqa bir şey deyir, bəzən bir çox məsələlərdə parlament ilə icra orqanları arasında razılıq olmur. Buradakı parlamentdə də cürbəcür partiyalar

vardır. Bizdə də belədir. Hərə bir fikir söyləyir. Birinin fikri o birisinə xoş gəlmir. Yəni belə bir şəraitdə ola bilər ki, hansısa bir şəxs öz subyektiv hissiyyatlarına bağlı olaraq azərbaycanlılara qarşı mənfi münasibət göstərsin. Bu, ola bilər.

İkincisi, gəlin açıq danışaq, ola bilər ki, bəzi azərbaycanlılar cinayət edirlər, qanunu pozurlar, nalayiq işlər görürlər. Bunların da nəticəsində azərbaycanlıların hamısına belə bir münasibət bəslənilir. Hesab edirəm ki, bunlar aradan götürülə biləsi hallardır. Mən Leonid Kuçma ilə bu barədə danışacağam. Ancaq yenə də öz fikrimi deyirəm ki, bu, dövlətin, hökumətin siyasəti deyil. Bu, sadəcə, subyektiv təəssüratlardan, hissiyyatlardan doğan bir hadisədir. Güman edirəm ki, bunu aradan qaldırarıq. Ancaq biz nə qədər desək də, göstəriş [74-75] verilsə də sizin özünüzdən, yəni azərbaycanlılardan da daha çox şey asılı olacaqdır. Gərək azərbaycanlılar hər yerdə bütün dövlət qayda-qanunlarına riayət etməklə nümunə olsunlar. Əgər nümunə olsanız, mənə elə gəlir ki, onda azərbaycanlılara qarşı belə ədalətsiz hallar az ola bilər. İndi bu məsələləri həll etmək üçün artıq bizim Azərbaycanın Ukraynada, Kiyevdə səfirliyi vardır. Mən səfiri təyin etmişəm. Siz onu tanıyırsınız. Özü deyir ki, burada üç il sizin kimi adi, vətəndaş kimi yaşayıbdır, müəyyən bir işlə məşğul olubdur. İndi də səfir təyin edilibdir. Onun səfir təyin olunmasının əsas səbəblərindən biri də odur ki, o, burada yaşayıb, işləyib. Ukraynanı tanıyır. Ona görə də o, burada səfir vəzifəsini apara bilər.

Bundan sonra səfir və səfirlik bu məsələlərlə məşğul olacaqdır. Belə halları dərhal, təcili aradan götürmək mümkün deyildir. Bunlar tədricən ola bilər. Güman edirəm ki, bunları tədricən aradan götürmək mümkün olacaqdır. Ancaq mən sizdən bir şeyi xahiş edirəm. Mən səfirə də bu barədə göstəriş verirəm ki, ayrı-ayrı insanların azərbaycanlılara qarşı subyektiv hissiyyatlarından doğan hərəkətləri ümumiləşdirməyin və bunu Ukrayna xalqının, hökumətinin, dövlətinin azərbaycanlılara qarşı münasibəti kimi qiymətləndirməyin. Bu, qətiyyən olmaz.

Mən bir daha deyirəm, bizim dövlətlərarası münasibətlərimiz indi o qədər sıxdır, səmimidir, yaxındır, xüsusən şəxsən Leonid Kuçma ilə mənim münasibətlərim o qədər yaxşıdır ki, hesab edirəm, bu, dövlətlərarası münasibətlərə gərək heç bir xələl dəyməsin.

Yəqin, dünən siz televiziyada gördünüz ki, Azərbaycan Prezidenti Heydər Əliyevi müstəqil Ukrayna dövlətinin ən yüksək mükafatı olan "Yaroslav Mudrı" ordeni ilə təltif etdilər. Özləri də mənə dedilər ki, bu ordenlə 2-3 dövlət başçısı təltif olunubdur. Bu, çox nadir bir haldır. Hər halda keçmiş sovetlər birliyinə mənsub olmuş, indi Müstəqil Dövlətlər Birliyinin tərkibində olan dövlətlərin başçılarının heç biri belə bir ordenlə təltif edilməyibdir. Deməк, bu, Ukraynanın Azərbaycan Respublikasına, ölkəmizə olan münasibətidir. Bu, iki ölkəmizin arasında olan dostluq əlaqələrinin daha da inkişaf etməsinə yönəldilmiş çox mühüm bir dövlət qərarıdır. Məsələn, mən [75-76] bunu çox yüksək qiymətləndirirəm.

Hesab edirəm ki, Ukraynanın Azərbaycana olan münasibətini bax, bununla ölçmək lazımdır, xırda şeylərlə ölçmək lazım deyildir.

Bilirsiniz ki, biz respublikamızda da cinayətkarlığa qarşı ciddi mübarizə aparırıq. Eşitmiş olarsınız ki, Azərbaycanda xüsusən 1989-1990-cı illərdə cürbəcür böyük cinayətkar qruplar, silahlı dəstələr yaranmışdı, bir çox adamların öz silahlı dəstələri olmuşdur. Bunlar nəinki dövlət qanun-qaydalarını pozmuş, dövlətə qarşı cinayətlər etmişlər, hətta ayrı-ayrı adamlara qarşı zorakılıq etmişlər, onları incitmişlər, reketçiliklə məşğul olmuşlar. Son üç ildə biz respublikamızı cinayətkarlardan təmizləmişik.

Bizdə olan məlumatlara görə Azərbaycanda çox böyük bir cinayətlər etmiş adamlar gəlib Ukraynada gizləniblər. Biz bilirik ki, onlar gəlib burada saxta pasportlar alıblar, burada gizlənərək Azərbaycanın hakimiyyətinə, dövlətçiliyinə qarşı terror aktları hazırlayıblar. Bir neçə belə adam yaxalanıbdır. Xarkovda, Ukraynanın başqa yerlərində bir neçə belə adam yaxalanıb Azərbaycana gətirilmişdir. Onlardan bir neçəsi də Rusiyaya, Moldovaya gedibdir. Biz onları Rusiyada, Moldovada yaxalamışıq.

Yəni Azərbaycanda cinayət etmiş adamlar gəlib burada yaşayırlarsa, cinayətkar – cinayətkardır. O burda da cinayət edir. Azərbaycanda cinayət etmək üçün gəlib burada hazırlıq işi görürsə, demək, o, burada da cinayət edir. Ona görə də biz deyə bilmərik ki, azərbaycanlıların hamısı burada "quzudurlar", heç bir şey etmirlər, yəni qeyri-qanuni heç bir hərəkətə yol vermirlər. Biz bunu deyə bilmərik.

Bir halda ki, sizin burada belə bir cəmiyyətiniz var, gərək siz özünüz də, cəmiyyətiniz də azərbaycanlıların əxlaqı, mənəviyyatı haqqında çox ciddi düşünəsiniz, bu işlərə fikir verəsiniz, çalışasınız ki, azərbaycanlılar hər yerdə özlərini yüksək əxlaqlı, mədəniyyətli, dövlət qayda-qanunlarına riayət edən insanlar kimi göstərsinlər. Azərbaycanlılar həqiqətən belə insanlardır. Bizim xalqımız belə xalqdır. Amma xalqımızın içində cinayətkar da, yaramaz da vardır. [76-77]

Azərbaycanın özündə bizim hakimiyyəti nə qədər devirmək, terror etmək istəmişlər. Məsələn, 1995-ci ilin martında bizdə dövlət çevrilişi etməyə cəhd göstərdikləri üçün cəzalandırılmalı olan adamlar qaçıb müxtəlif yerlərdə, bəziləri isə gəlib Ukraynada gizlənmişlər. Leonid Kuçma 1995-ci ilin iyul ayında Azərbaycanda rəsmi səfərdə olarkən onlar gəlib Bakıda hava limanına gedən körpünün altına 170 kiloqram trotil partlayıcı qoymuşdular ki, körpünü partlatsınlar, məni öldürsünlər, mənimlə bərabər cənab Kuçmanı da öldürsünlər. Belə bir hadisə də olub. Biz onları yaxaladıq. Həmin o trotil partlayıcı maddəsini oradan çıxardıq və respublikada

hamıya göstərdik. Onlar mühakimə olundular, cəza aldılar. Deməк, beləlәri də vardır. Vaxt az olduğuna görə mən bu barədə geniş danışa bilmərəm.

Mənim buradakı danışıqlarım, görüşlərim çox müvəffəqiyyətlə keçibdir. Bayaq dedim ki, biz 17 sənəd imzalamışıq. Ukrayna-Azərbaycan iqtisadi əlaqələrinin və digər sahələrdəki əlaqələrimizin inkişaf etdirilməsi üçün bu sənədlər çox yaxşı şərait yaratmışdır. Mən hesab edirəm ki, Ukrayna ilə Azərbaycan arasındakı əlaqələr ölkəmiz üçün çox lazımdır. Biz bu əlaqələri bundan sonra da inkişaf etdirəcəyik. Bu sadəcə iqtisadi əlaqələr deyildir. Bu, Avropa Birliyində, dünyada, beynəlxalq aləmdə Azərbaycanın problemlərinin həll olunmasında bizə yaxın olan bir ölkə ilə yaranmış əlaqələrdir.

Bilirsiniz ki, bizim ən ağır problemimiz Ermənistanın Azərbaycana etdiyi təcavüzdür. Təəssüf ki, bu təcavüz nəticəsində Azərbaycanın ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur. İşğal olunmuş ərazidən bir milyondan artıq soydaşımız didərgin düşübdür, çoxları ağır vəziyyətdə çadırlarda yaşayırlar. Hərbi təcavüz zamanı bizim 20 mindən artıq insanlarımız həlak olubdur. Çoxlu adam əsir düşübdür, onların bir qismini biz geri almışıq. Amma onların bir hissəsini hələ də geri verməyiblər. Məlumatlara görə əsirlərin bir çoxunu öldürüblər. Təkrar edirəm ki, Azərbaycan torpağını Ermənistan silahlı qüvvələrinin təcavüzündən qoruyarkən 20 mindən çox vətəndaşlarımız şəhid olub.

Biz 1994-cü ilin mayında "Atəşin dayandırılması haqqında" saziş imzalamışıq. Biz bu sazişə riayət edirik. İndi atəş yoxdur. [77-78] Ancaq sülh də yoxdur. Biz məsələni sülh yolu ilə həll etmək istəyirik. Biz hərbi əməliyyatların, döyüşlərin, müharibənin yenidən başlanmasını istəmirik. İstəyirik ki, məsələni sülh yolu ilə həll edək. Amma bu, asan məsələ deyildir. Bütün səviyyələrdə həm Birləşmiş Millətlər Təşkilatı, həm Avropa Birliyi, ATƏT çərçivəsində, ATƏT-in Minsk qrupu vasitəsilə, həm də böyük dövlətlərin imkanlarından istifadə edərək danışıqlar aparırıq. Sağlıq olsun. Ola bilər, mənim sizə bu barədə geniş məlumat verməyə imkanım olacaqdır.

Ancaq sizdən bir xahişim var: harda yaşamasından asılı olmayaraq heç bir azərbaycanlı öz Vətənini, ulu babalarını, dilini unutmamalıdır. Harda yaşayırsansa yaşa, yaxşı da, pis də yaşasan, gərək ürəyin öz vətəninlə, torpağınla döyünsün. Gərək nəbzin vətənin nəbzi ilə vurulsun. Bu vətənpərvərlik hissi bizim hər birimizdə olmalıdır. O cümlədən, respublikamızdan kənarda, Ukraynada yaşayan azərbaycanlılarda da olmalıdır.

Mən arzu edirəm ki, bu hissiyyatlar sizdə daha çox olsun. Əminəm ki, indi burada Azərbaycanın Ukraynadakı səfirliyi ətrafında daha çox toplaşacaqsınız, bir-birinizlə daha yaxşı ünsiyyət, əlaqə yaradacaqsınız, birləşəcəksiniz, həmrəy olacaqsınız, bir-birinizə kömək edəcəksiniz, dayaq olacaqsınız. Eyni zamanda Azərbaycanın qayğıları ilə yaşayacaqsınız.

Sağ olun. Sizə cansağlığı, xoşbəxtlik arzu edirəm. [78-79]

**ZƏMANƏMİZİN GÖRKƏMLİ MUSİQİÇİSİ
MSTİSLAV LEOPOLDOVİÇ
ROSTROPOVİÇƏ**

Möhtərəm Mstislav Leopoldoviç!

Sizi 70 illik yubileyiniz münasibətilə təbrik edir, Sizə cansağlığı, xoşbəxtlik və çoxşaxəli fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

XX əsrin musiqi sənətində və ictimai həyatında müstəsna yer tutan şəxsiyyətiniz istər mədəniyyət xadimlərinin, istərsə də siyasətçilərin daim diqqət mərkəzindədir. Bu gün dünyanın ən sanballı simfonik orkestrləri Sizinlə birlikdə verdikləri konsertlərlə fəxr edir. Sizin Berlin divarları önündə və Moskvada Ağ evin qarşısındakı siyasi çıxışlarınız isə totalitarizmin bütün formalarına qarşı mübarizə rəmzinə çevrilmişdir.

Siz violonçel sənəti tarixinə bu alət haqqındakı təsəvvürü kökündən dəyişdirmiş bir ustad kimi əbədi daxil olaraq öz ifaçılıq, dirijorluq, bəstəkarlıq və pedaqoji fəaliyyətinizlə elə bir təzahürü nümayiş etdirə bildiniz ki, onu cəsarətlə Rostropoviç fenomeni adlandırmaq olar. Müxtəlif dövrlərin və xalqların Sizin ifanızda səslənən musiqisi ülvi bəşəri dəyərlərə sədaqəti ilə ürəkləri fəth edən əsl sənətin gücünü bir daha dünyaya göstərdi.

Dünya mədəniyyətini zənginləşdirən yaradıcılığınızla Siz sübut etdiniz ki, yalnız nadir istedadlar öz fitri qabiliyyəti, fədakar əməyi, musiqiyə hədsiz məhəbbəti sayəsində incəsənətin qüdrəti ilə dünyanın simasını dəyişdirməyə qadirdir.

"Mənən azad olmayan sənətkar yarada bilməz" müddəasını özündə əks etdirən yaradıcılıq əqidəniz insan haqlarının müdafiə olunması sahəsindəki fəaliyyətinizdə də öz ifadəsini tapmışdır. Sizin sənətin özü kimi zaman və məkan hüdudları bilməyən şəxsiyyətinizi Yer kürəsinin vətəndaşı olaraq formalaşdıran bir tərəfdən bəşəriyyətin müqəddəratı üçün hər bir şəxsin dərin məsuliyyət daşıdığını dərk etmək hissiniz, digər tə[79-80]rəfdən isə demokratiya və azadlıq ideallarına sonsuz sədaqətiniz olmuşdur.

Sənətdə hədsiz müasir olmaqla yanaşı Siz yaradıcılığınızda varisliyin novatorluqla bənzərsiz vəhdətinə nail ola bilmişsiniz. Təbii ki, burada valideynlərinizin də xidmətləri böyük olmuşdur. Sizin atanız professor Leopold Vitoldoviç Rostropoviçin Azərbaycanda violonçel məktəbinin yaradılmasındakı böyük rolunu doğma şəhəriniz Bakıda minnətdarlıqla xatırlayırlar.

Respublikanın musiqi ictimaiyyəti valideynlərinizin və şəxsən Sizin Azərbaycan musiqiçilərinin bir neçə nəslinin yetişdirilməsi sahəsindəki fəaliyyətinizi yüksək qiymətləndirir.

Ədəbiyyat və mədəniyyət sahələrində bəşəriyyətə bir çox dühalar bəxş etmiş qədim Azərbaycan torpağı ləyaqətli oğlu kimi Sizinlə haqlı olaraq fəxr edir.

Sizi bağrıma basıram.

Səmimiyyətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 27 mart 1997-ci il* [80-81]

## FRANSAYA İŞGÜZAR SƏFƏRƏ YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*26 mart 1997-ci il*

Bu, çox qısamüddətli, işgüzar bir səfərdir. Mən sabah səhər Fransanın prezidenti Jak Şirakla, xarici işlər naziri Erve de Şarett ilə görüşəcəyəm. Ola bilər, başqa görüşlərim də olsun.

Prezident Jak Şirakın və böyük musiqiçi Mstislav Rostropoviçin dəvəti ilə günün ikinci yarısında, axşam Mstislav Rostropoviçin 70 illiyinə həsr olunmuş mərasimlərdə iştirak edəcəyəm.

Qondarma "Dağlıq Qarabağ Respublikası"nın "prezidenti" Robert Koçaryanın Ermənistanın baş naziri təyin edilməsi ilə bağlı suala cavab olaraq deməliyəm ki, bu məsələ məlumdur, Xarici İşlər Nazirliyi bizim bu barədə fikrimizi bildiribdir. Mənim Moskvada da görüşlərim olacaqdır. Levon Ter-Petrosyan ilə də görüşəcəyik. Biz Ermənistan – Azərbaycan münaqişəsinin, Dağlıq Qarabağ probleminin sülh yolu ilə həll edilməsi məsələsi barədə danışıqlar aparacağıq. MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının görüşündən sonra Rusiyanın prezidenti Boris Yeltsinlə də mənim görüşüm olacaqdır. Biz bir sıra məsələləri müzakirə edəcəyik. [81-82]

## FRANSA PREZİDENTİ
## JAK ŞİRAK İLƏ GÖRÜŞDƏ
## BƏYANAT

*Paris, Yelisey sarayı*

*27 mart 1997-ci il*

Cənab prezident, hörmətli Jak Şirak!

Fransa torpağında, əzəmətli və qədim Yelisey sarayında yenidən görüşdüyümüz bu anda görkəmli musiqiçi, böyük ictimai xadim, bizim dostumuz Mstislav Rostropoviçin 70 illik yubileyi mərasimlərinə şəxsən dəvət olunduğum üçün təşəkkürümü bildirirəm.

Ermənistan-Azərbaycan münaqişəsinin həllinə münasibətdə sizin ölkənizin mövqeyinin dəyişməz qaldığına, yəni münaqişəyə Azərbaycanın ərazi bütövlüyü, onun sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında, Dünya Birliyi tərəfindən qəbul olunmuş normalar əsasında son qoyulmasına dair bəyanatınızı bu gün bir daha eşitmək bizim üçün çox xoşdur.

Fransa böyük dövlətdir. Fransanın dünyada böyük nüfuzu var və ona görə də bu problemin həlli üçün imkanları böyükdür. Xüsusən də indi, ATƏT-in Minsk qrupunun həmsədri olandan sonra. Biz çox ümid edirik ki, Siz Azərbaycanın haqq işini bundan sonra da dəstəkləyəcək, Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulması barəsində öz mövqeyinizi dəyişməyəcəksiniz. Bizim üçün bunun böyük əhəmiyyəti var. [82-83]

## FRANSANIN APARICI KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİNƏ BƏYANAT

*Paris, "Krion" mehmanxanası*

*27 mart 1997-ci il*

Hörmətli qonaqlar, mən sizi salamlayıram. Bilirsiniz ki, mən Parisə dünən axşam gəlmişəm. Buraya gəlməyim bir neçə məsələ ilə bağlıdır. Mən bir neçə saat bundan əvvəl Fransanın prezidenti cənab Jak Şirakla görüşdüm və çox ətraflı söhbət etdim. Bu gün saat 4-də xarici işlər naziri cənab Erve de Şarett ilə görüşəcəyəm. Bu gün axşam isə görkəmli musiqiçi, böyük ictimai xadim, bizim dostumuz Mstislav Rostropoviçin 70 illiyinə həsr olunmuş mərasimlərdə iştirak edəcəyəm.

Bilirsiniz ki, Mstislav Rostropoviç Bakıda anadan olubdur. Onun valideynləri uzun müddət Azərbaycanda, Bakıda işləyiblər. O, bizim yaxın dostumuzdur və 70 illik yubileyi münasibətilə məni şəxsən bu mərasimlərə dəvət edibdir. Mən bu dostluq əlaqələrinə görə də bu gün onun 70 illik yubileyində iştirak edəcəyəm.

Gecə mən buradan Moskvaya gedəcəyəm. Sabah səhər saat 11-də Kremldə Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrin dövlət başçılarının görüşüdür. Şübhəsiz ki, mən bu görüşdə iştirak edəcəyəm. Sonra Moskvada bir neçə görüşlərim olacaqdır. O cümlədən, Rusiyanın prezidenti Boris Yeltsinlə də görüşüm nəzərdə tutulur.

Mən Parisə gələrkən Azərbaycanın Fransadakı səfiri xanım Hüseynova burada mətbuat nümayəndələrinin mənimlə görüşmək istədiyi barədə mənə müraciət etdi. Mətbuat nümayəndələrinə həmişə böyük hörmət bəslədiyimə görə mən bu təklifi qəbul etdim və sizinlə bir yerdəyəm. Bilirəm ki, adətən [83-84] siz suallar verirsiniz. Görüşümüzün daha səmimi və canlı keçməsi üçün bu gün sizə səhər yeməyi də təşkil etmişəm.

Jak Rumelar (Fransa Xarici İşlər Nazirliyi mətbuat xidmətinin rəhbəri): Cənab prezident, mən öz həmkarlarım adından Sizə "Fransaya xoş gəlmisiniz" demək istəyirəm. Biz ümid edirik ki, Sizin Parisə bu səfəriniz xoş keçəcəkdir. Bakıda anadan olmuş Mstislav Rostropoviçin sənətinə verdiyiniz qiyməti də biz Sizinlə bölüşdürürük. Onu da qeyd edirəm ki, jurnalistlərin suallarında və onlara verəcəyiniz cavablarda bizim ümumi marağımız vardır. Cənab prezident, bizi buraya dəvət etdiyiniz üçün çox sağ olun.

**Sual**: **Cənab prezident, Jak Şirakla görüşünüz zamanı əsasən musiqi, yoxsa neft haqqında danışdınız?**

**Cavab**: Yox, musiqi haqqında danışmadıq. Musiqi barədə danışacağıq. Neft haqqında bir az danışdıq. Ancaq əsas danışığımız Ermənistan-Azərbaycan münaqişəsinin həll edilməsi məsələsinə həsr olunmuşdu.

Bilirsiniz ki, ATƏT-in üzvü olan ölkələrin dövlət başçılarının Lissabon Zirvə görüşündən sonra Fransa Minsk konfransının həmsədrlərindən biridir. Yanvarın 13-də Fransada rəsmi səfərdə olarkən mən prezident Jak Şirakla bu barədə ətraflı söhbət aparmışdım. İndi isə artıq Fransa Minsk konfransının həmsədridir. Bilirsiniz ki, Minsk konfransı Ermənistan-Azərbaycan münaqişəsinin həll edilməsi üçün yaradılıbdır. Fransa Minsk konfransının həmsədri olduğuna görə biz söhbətimizi daha da konkretləşdirdik.

**Sual**: **Mənim sualım Minsk qrupu ilə əlaqədardır. Deyirlər ki, Azərbaycan ümumiyyətlə Minsk konfransında Amerika Birləşmiş Ştatlarının həmsədrliyinə üstünlük vermək istəyir.**

**Cavab**: Minsk qrupunun həmsədrliyində dəyişiklik bir prosesdir. Bilirsiniz ki, həmsədrlərdən biri Rusiya, digəri Finlandiya idi. Finlandiya bu həmsədrlikdən uzaqlaşandan sonra, şübhəsiz ki, onun yerini kimin tutacağı müzakirə olunurdu. Sevindirici haldır ki, bir neçə dövlət bu məsələyə çox böyük maraq göstərdi. Mən bunu çox müsbət qiymətləndirirəm. Deməli, həmin dövlətlər bu münaqişənin həll olunmasını və bu prosesdə iştirak etmək istəyirlər. O cümlədən, Amerika Birləşmiş [84-85] Ştatları da, Fransa da bu məsələdə öz namizədliyini irəli sürmüşdü. Almaniyanın da namizədliyi var idi. Ona görə də bir müddət müzakirə getdi və sonra qərar qəbul edildi ki, üç həmsədr olsun. Rusiya əvvəldən də həmsədr idi. Sonradan isə, həm Fransa, həm də Amerika Birləşmiş Ştatları həmsədr oldular. Bu, çox yaxşı bir qərardır. Hesab edirəm, bu, yaxşı nəticə verməlidir. Biz bundan məmnunuq və əməli nəticələri gözləyirik.

Təsəvvür edin, dünyanın üç böyük dövləti: Rusiya, Fransa, Amerika Birləşmiş Ştatları Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması ilə məşğul olmağa maraq göstərmişlər. Bu, bizi sevindirir. Mən inanıram ki, bu üç ölkə məsələnin həll olunmasında həmsədr kimi çox yaxşı iş görə bilər və nəhayət, bu münaqişəyə son qoymaq olar.

**Sual**: **Cənab prezident, bu mövzunu davam etdirərək Sizdən soruşmaq istəyirəm. Sabah Siz ermənistanlı həmkarınızı Moskvada görəcəksiniz. Dağlıq Qarabağın başçısının Ermənistanın baş naziri təyin edilməsinə Siz necə baxırsınız?**

**Cavab**: Cənab Ter-Petrosyanla sabah mən Moskvada görüşəcəyəm. Birincisi, dövlət başçılarının toplantısında biz birlikdə iştirak edəcəyik. Onunla telefonla danışmışıq və razılaşmışıq ki, toplantıdan sonra bizim fərdi görüşümüz olacaqdır. Ermənistanın baş nazirinin təyin olunmasına gəldikdə isə, biz onu Dağlıq

Qarabağdakı erməni icmasının başçısı kimi tanıyırıq. Koçaryanın Ermənistana baş nazir təyin edilməsi çox qeyri-adi bir haldır. Çünki Dağlıq Qarabağ Ermənistanın tərkibində deyil. Dağlıq Qarabağ hüquqi cəhətdən Azərbaycanın tərkibindədir. O, faktiki olaraq Azərbaycanın tabeliyindən çıxmış olsa da, dünyada heç kəs onu tanımır. Ona görə də Ermənistanın vətəndaşı olmayan bir şəxsin – Azərbaycanın bir hissəsi olan Dağlıq Qarabağda erməni icmasına başçılıq edən, özünü qeyri-qanuni olaraq "prezident" elan etmiş bir şəxsin Ermənistanın baş naziri təyin olunması mənfi bir haldır.

Mən məmnunam ki, Fransa hökuməti bu məsələyə öz münasibətini bildiribdir. Fransanın Xarici İşlər Nazirliyi bu barədə bəyanat veribdir. Bəyanatda da göstərilir ki, onlar bu ha[85-86]disəni bəyənmirlər. Cənab Jak Şirak da bu gün bu barədə mənə dedi. O, qeyd etdi ki, qətiyyən imkan vermək olmaz ki, Koçaryan Ermənistanın baş naziri olaraq, eyni zamanda Dağlıq Qarabağın başçısı kimi qalsın.

**Sual**: **Cənab prezident, indicə Siz üç böyük ölkənin ABŞ-ın, Fransanın, Rusiyanın bu problemin həlli sahəsindəki səylərindən danışdınız. Sizdə belə bir təəssürat yaranmırmı ki, hazırda dünyada fövqəldövlət vardır və o, hər bir şeyin həllində inhisarı öz əlinə almaq və hamıya öz hökmünü diktə etmək istəyir?**

**Cavab**: Bilirsiniz, bizdə belə bir təəssürat yoxdur. Şübhəsiz ki, Amerika Birləşmiş Ştatları böyük bir dövlətdir. Amma Fransa da, Rusiya da böyük dövlətlərdir. Dünya Birliyində hər bir dövlətin özünəməxsus yeri vardır. Dediyiniz fikirləri bəlkə də siz hiss edirsiniz. Amma biz kiçik bir dövlətik. Bizim üçün böyük dövlətlərin hamısı böyük dövlətdir. Hansının daha böyük, hansının daha kiçik dövlət olmasının bizim üçün o qədər də fərqi yoxdur.

**Sual**: **Bu üç dövlətin Minsk qrupunda rəhbərliyindən Siz razısınızmı, onların neytral münasibəti Sizi qane edirmi? Yaxud bu dövlətlərdən hər hansı birinin Azərbaycana, Ermənistana daha yaxın olacağı və ya üstünlük verəcəyi barədə nə deyə bilərsiniz?**

**Cavab**: Bilirsiniz, mən deyə bilmərəm ki, indiyədək olan işlərdən tam razıyam. Əgər bu məsələ həll edilmiş olsaydı, onda deyə bilərdim ki, mən tam razıyam. Çünki 1994-cü ilin mayında, təxminən üç il bundan əvvəl biz Ermənistanla Azərbaycan arasında atəşin dayandırılması haqqında saziş imzalamışıq. 1997-ci ilin mayında bunun üç ili tamam olacaqdır. Üç ildir ki, atəş yoxdur. Qan tökülmür. Bu yaxşı bir haldır. Ancaq bu üç il elə bir vaxtdır ki, bu müddətdə həmin münaqişəni həll etmək mümkün idi. Əgər bu münaqişəni həll edə bilməmişiksə, bizim özümüzün də, şübhəsiz ki, burada günahımız var, eyni zamanda bu məsələni həll etmək üçün yaradılmış Minsk qrupunun, xüsusən həmsədrlərin də böyük günahı vardır.

Fransa ilə Amerika bu ilin fevral ayında həmsədr olmuşlar. Onlar hələ bir iş görə bilməyiblər. Ancaq prezident Jak Şirakla bugünkü danışığımızdan mən belə bir fikrə gəldim ki, Fransa [86-87] bu məsələ ilə çox ciddi məşğul olmaq istəyir. Bunu nümayiş etdirən faktlardan biri də ondan ibarətdir ki, Fransanın xarici işlər naziri cənab Erve De Şarett bu ayın axırında bizim bölgəyə gələcək, Ermənistanda, Azərbaycanda və Moskvada olacaqdır. Həmsədr təyin olunandan sonra Fransanın xarici işlər nazirinin dərhal regiona səfər etməsinin özü müsbət haldır, eyni zamanda çox ümidverici haldır.

Bir daha qeyd edirəm, prezident Jak Şirakla bu gün bizim söhbətimizin əsas hissəsi bu mövzuya həsr olunmuşdu. Prezident Jak Şirakın fikirləri, mülahizələri məni rahat etdi və çox böyük ümidlər verdi. Ona görə də mən gələcək aylara çox nikbinliklə baxıram. Hesab edirəm ki, Fransanın təşəbbüsü, yəni xarici işlər naziri cənab Erve De Şarettin regiona gəlməsi digər həmsədrlər üçün də nümunə olacaqdır.

**Sual**: **Gürcüstandan və Ermənistandan fərqli olaraq Siz rus qoşunlarının öz ərazinizdə qalmasına etiraz etmisiniz. Bundan əlavə, bizə elə gəlir ki, Rusiya ilə sizin aranızda Xəzər dənizinin statusu ətrafında da müəyyən mübahisə vardır. Yəni Rusiya Sizin ölkənizi öz təsir dairəsinə salmaq iradəsini göstərməkdən çəkinmir. Sabah Siz Müstəqil Dövlətlər Birliyinin Zirvə toplantısında olacaqsınız. Orada öz ölkənizin istədiyiniz xəttini qorumaq imkanını necə görürsünüz və bu xətti qoruyarkən Sizi kim dəstəkləyəcəkdir, Siz kimə arxalanacaqsınız?**

**Cavab**: Ermənistandan, Gürcüstandan fərqli olaraq bizdə, Azərbaycanda Rusiya hərbi hissələrinin, qoşunlarının olmaması bizim tam müstəqilliyimizi nümayiş etdirir. Rusiyanın hərbi hissələrinin, qoşunlarının Azərbaycanda olmasına hazırda heç bir ehtiyac yoxdur. Mən bilmirəm, Rusiya nə üçün Gürcüstanda, Ermənistanda hərbi hissələrini saxlayır? Rusiyanın hazırda çox böyük problemləri, o cümlədən ordu sahəsində də problemləri vardır. Belə olan halda Rusiyanın öz ölkəsindən başqa, digər müstəqil ölkələrdə – Ermənistanda, Gürcüstanda ordu saxlaması heç bir məntiqə uyğun deyildir. Ona görə də mən bunu düzgün hesab etmirəm. Hətta mən buna etiraz edirəm.

Xəzər dənizi məsələsində Rusiya ilə bizim aramızdakı mübahisələrə gəldikdə isə, buna real yanaşsanız, elə bir mübahisə yoxdur. Rusiyanın bəzi dairələrində dünyanın, Qərb öl[87-88]kələrinin neft şirkətləri ilə Azərbaycanın müqavilə bağlamasına qısqanclıq edilir. Amma buna da əsas yoxdur. Çünki indiyədək imzalanmış beş müqavilənin üçündə Rusiyanın böyük neft şirkəti olan "LUKoyl" da iştirak etmişdir. Nə üçün qısqandıqlarını mən bilmirəm. Nəhayət, Rusiya çox narahat idi ki, biz neftin dünya bazarına ixracı üçün çəkiləcək neft kəmərini başqa istiqamətdə aparacağıq. Biz isə qərar qəbul etdik ki, neftin dünya bazarına çıxarılması üçün eyni zamanda iki neft kəməri tikilsin, onlardan biri Rusiyanın ərazisindən Qara dənizdəki Novorossiysk limanına, ikincisi

Gürcüstanın ərazisindən Qara dənizdəki Supsa limanına getsin. Yəni biz burada da Rusiyanın marağını təmin etmişik.

İş burasındadır ki, biz artıq şimal istiqamətində, Rusiyanın ərazisindən keçərək neft kəmərinin Azərbaycandakı hissəsini tikmişik. Konsorsiuma daxil olan şirkətlər bu kəmərin tikintisinə 50 milyon ABŞ dolları xərcləyiblər. Amma Rusiya tərəfi bu nefti qəbul etməyə hazır deyildir. Biz bu neft kəmərini nəinki tikmişik, hətta həmin borunun içərisini neftlə də doldurmuşuq. Biz Rusiya ilə danışıqlar aparırıq ki, onlar bu nefti qəbul etsinlər.

İki gün bundan əvvəl mən Ukraynada rəsmi səfərdə idim. Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti də mənimlə Kiyevdə idi. Mən onu Moskvaya göndərdim ki, gedib Rusiya ilə danışıqlar aparsın. Sabah mən Moskvaya gedən kimi o, bu danışıqların nəticəsi barədə mənə məlumat verməlidir.

Görürsünüz, biz öz müstəqilliyimizi, milli mənafelərimizi qoruyuruq. Ancaq qonşu dövlətlərin maraqlarına da imkan daxilində lazımi şərait yaradırıq. Ona görə də Rusiya tərəfinin bu məsələ barəsində Azərbaycandan narazı olmağa haqqı yoxdur.

**Sual**: **Cənab prezident, Sizə bir sual da vermək istəyirəm. Açıq-aydın görünür ki, cənab Yeltsin NATO-nun genişlənməsindən söhbət gedəndə narazılığını bildirir və xüsusən üç Baltikyanı ölkəyə NATO-nun genişlənməsini istəmir. Siz ukraynalı həmkarınızla görüşmüsünüz. O, bir qədər əvvəl Fransada olarkən dedi ki, NATO-nun genişləndirilməsinə tərəfdardır. Bəs şəxsən Siz NATO-nun genişlənməsinə necə baxırsınız? Sizə elə gəlirmi ki, cənab Yeltsin bu sahədə çox müqavimət göstərə bilər?** [88-89]

**Cavab**: Cənab Boris Yeltsin cənab Bill Klintonla Helsinkidə görüşdü. Bu məsələlər müzakirə olundu. Cənab Yeltsin bu məsələlər barəsində sabah bizə məlumat verməlidir. O, bu məlumatı verəndən sonra mən bu barədə fikrimi deyə bilərəm.

**Sual**: **Cənab prezident, mənim Sizə sualım Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin dövlət başçılarının sabah keçiriləcək Zirvə toplantısı ilə əlaqədardır. Bilirsiniz ki, cənab Yeltsinin səhhəti ilə əlaqədar olaraq bu Zirvə toplantısının keçirilməsi vaxtı bir neçə dəfə dəyişdirilmişdir. Mən bilmək istəyirəm ki, bu Zirvə toplantısında Azərbaycanın maraqları özünü necə göstərir? Ümumiyyətlə, Siz necə düşünürsünüz, ölkənizin gələcək inkişafında Avropaya meyliniz daha çoxdur, yoxsa Rusiya ilə birlikdə qalsanız Azərbaycanın milli maraqları öz həllini necə tapacaqdır?**

**Cavab**: Birincisi, MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının Zirvə görüşü həqiqətən çoxdandır ki, keçirilmir. Boris Yeltsinin səhhəti ilə əlaqədar olaraq bu toplantı bir neçə dəfə təxirə salınıbdır. Hesab edirəm ki, sabahkı Zirvə görüşündə geniş fikir mübadiləsi aparılacaqdır. Biz isə hər dəfə olduğu kimi, sabah da Azərbaycanın milli mənafelərini qoruyaraq, eyni zamanda Müstəqil Dövlətlər Birliyində əməkdaşlığın inkişaf etdirilməsi üçün öz səylərimizi göstərəcəyik.

Siz soruşdunuz ki, biz Rusiya ilə qalmaq, yaxud Avropaya meyl etmək istəyirik. Mən buna bir balaca aydınlıq vermək istəyirəm. Elə Rusiya da Avropadır. Azərbaycan Avropaya daxil olan ölkədir. Biz Avropanın bütün strukturlarına daxil olmaq istəyirik. Biz, məsələn, Avropa Şurasına üzv olmaq istəyirik. Respublikamızı oraya xüsusi qonaq statusu ilə qəbul edirlər. Ancaq güman edirəm ki, bu ilin may-iyun aylarında bizim ona həqiqi üzv olmağımız məsələsi həll ediləcəkdir.

Keçən ilin aprel ayında biz Lüksemburqda Avropa Birliyi ilə əməkdaşlıq haqqında saziş imzalamışdıq. Biz Avropa Birliyinin bütün strukturları ilə əməkdaşlıq etmək istəyirik. Biz Avropa Birliyinin İqtisadi Komissiyası ilə yaxşı əməkdaşlıq edirik. Bunlar bizim Müstəqil Dövlətlər Birliyi ilə, o cümlədən Rusiya ilə ikitərəfli, qarşılıqlı surətdə əməkdaşlığımıza heç də zidd deyildir. [89-90]

Biz müstəqil dövlətik və istəyirik ki, müstəqillikdən irəli gələn bütün hüquqlarımızdan tam istifadə edək. Hesab edirəm ki, hansısa bir başqa dövlət buna mane olmamalıdır.

**Sual**: **Cənab prezident, mənim bildiyimə görə, bu günədək Azərbaycanın böyük ordusu olmayıbdır. Neft satışından gələn gəlirin müəyyən hissəsini belə ordu yaratmaq üçün istifadə etmək fikriniz varmı?**

**Cavab**: Yox! Biz neft istehsalından gələn gəliri ölkəmizin iqtisadiyyatının və xalqımızın sosial vəziyyətinin yaxşılaşdırılmasına yönəltməyə çalışırıq. Biz sülhsevər siyasət aparırıq və istəyirik ki, qonşu dövlətlərin hamısı ilə dostluq, mehribanlıq əlaqələrimiz olsun, böyük ordu saxlanmasına ehtiyac olmasın.

Ermənistan ilə münaqişəni aradan qaldırandan sonra bizim sülhsevər siyasətimiz daha da uğurlu ola bilər.

**Sual**: **Cənab prezident, sizinlə qonşu olan bir dövlət də var, onun haqqında danışmamışıq. Bu, İran dövlətidir... Cənab prezident, bilmək istərdim ki, İrana Siz necə baxırsınız, ümumiyyətlə, İrandan inqilabın ixrac edilməsi faktı, prosesi olubmu? Ümumiyyətlə İranın gələcək inkişafını necə görürsünüz?**

**Cavab**: İran bizim böyük qonşumuzdur. Bizim İranla çox böyük sərhədimiz var. İranda da çoxlu azərbaycanlı yaşayır. Bəzi məlumatlara görə, İranda 30 milyona qədər azərbaycanlı yaşayır. Elə bilməyin ki, siz burada, Fransada hər şeyi bilirsiniz. Çox şeyi bilmirsiniz.

**Jurnalist**: **Siz bu 30 milyonu deyəndə mənşəcə azərbaycanlı olan iranlıları nəzərdə tutursunuz?**

**Cavab**: Əlbəttə, azərbaycanlıları deyirəm. Necə mənşəcə? Bunlar həqiqi azərbaycanlıdırlar. Tarixən Azərbaycan keçmişdə bir olubdur. XIX əsrin əvvəlində Rusiya ilə İran arasında gedən müharibələr nəticəsində Azərbaycan iki yerə parçalanıbdır. Onun çox hissəsi İranın tərkibində qalıb, indi də oradadır. Az hissəsi

Rusiyanın tərkibində qalıb. Rusiyanın tərkibində olan həmin o Azərbaycan da indi bizim yaşadığımız Azərbaycandır. Bizim aramızda ancaq Araz çayı var. Bəzi yerlərdə heç Araz çayı da yoxdur. İranda olan kəndlə bizim kəndin arasında yüz metrlik məsafə var. Ona görə də sərhədi[90-91]mizin İran tərəfində olan əhalinin hamısı azərbaycanlıdır. Bunu siz bilməlisiniz.

Ancaq şübhəsiz ki, onlar İran vətəndaşlarıdır. Biz hər bir ölkənin ərazi bütövlüyünü tanıdığımız kimi, İranın da ərazi bütövlüyünü tanıyırıq. Ona görə də İran ilə bizim aramızda yaxşı, mehriban dostluq əlaqələri var. Bir dinə mənsub olmağımız və ənənələrimizin də eyni olması bu əlaqələrimizi daha da yaxınlaşdırır.

O ki qaldı İslam inqilabının Azərbaycan təsirinə, bunun Azərbaycana heç bir təsiri yoxdur. Mənim təmsil etdiyim müstəqil Azərbaycan Respublikasının öz dövlət quruluşu, dövlət prinsipləri var. İran Respublikasının da öz dövlət quruluşu, öz yaşayış prinsipləri var. Biz onların daxili işlərinə qarışmırıq, onlar da bizim daxili işlərimizə qarışmamalıdırlar.

**Sual**: Siz belə düşünürsünüzmü ki, ümumiyyətlə, Azərbaycanın gələcəyi Amerika Birləşmiş Ştatlarından keçir, yoxsa Orta Asiya ölkələri ilə əməkdaşlıqdan?

**Cavab**: Nə oradan, nə o birindən. Azərbaycanın gələcəyi onun dövlət müstəqilliyindən keçir. Siz bilirsiniz ki, mən Azərbaycanın həyatında çox işlər görmüşəm və keçmişdə Sovetlər İttifaqı dövlətinin başçılarından biri olmuşam. Həyat təcrübəm və gördüklərim, bildiklərim məndə qəti bir fikir yaradıbdır: Azərbaycanın gələcəyi onun dövlət müstəqilliyi və milli azadlığı ilə bağlıdır.

Şübhəsiz ki, dövlət müstəqilliyini qoruyub saxlamaq asan bir şey deyildir. Amma sizə bildirmək istəyirəm ki, əhalimizin tam əksəriyyəti Azərbaycanı daim müstəqil dövlət kimi görmək istəyir. Şübhəsiz ki, biz bütün dövlətlərlə, o cümlədən, iqtisadi cəhətdən çox zəngin olan Amerika Birləşmiş Ştatları ilə əməkdaşlıq etmək istəyirik. İmzaladığımız neft müqavilələrinə əsasən, Amerikanın böyük neft şirkətləri artıq bizimlə müştərək iş görürlər. Mən bunu müsbət qiymətləndirirəm. Amma eyni zamanda bizim bu müqavilələrdə Böyük Britaniyanın "Bİ-Pİ", Norveçin "Statoyl" şirkətləri də çox böyük yer tuturlar. Fransanın "Elf Akiten" şirkəti də. Mən buraya gələndə Fransanın "Elf Akiten" şirkətinin prezidenti cənab Filipp Jafreni də gördüm, onunla görüşdüm. O da sizinlə qonşu otaqda oturub söhbət edir. Yanvarda biz burada bir müqavilə imzala[91-92]dıq, "Elf Akiten" şirkəti ilə bərabər "Total" şirkəti də oraya daxil oldu.

Bizim neft müqavilələrində Yaponiya da iştirak edir, Rusiya iştirak edir, İtaliyanın "Acip" şirkəti, Səudiyyə Ərəbistanının "Delta", Türkiyənin "Türk petrolları" şirkətləri iştirak edir. Görürsünüz, əməkdaşlığımız nə qədər böyük çərçivədədir. Bizim müqavilədə İran da iştirak edir.

Biz istəyirik ki, sizin dediyiniz kimi, Orta Asiya ölkələri ilə də sıx əməkdaşlıq edək. Qonşu Gürcüstanla yaxşı əməkdaşlıq edirik. Məsələn, Amerikanın "Şevron" şirkəti Qazaxıstanın "Tengiz" yatağında neft çıxarır və onu ixrac etmək, xarici bazara çıxarmaq üçün Rusiyada olan neft kəmərindən istifadə edir, eyni zamanda Xəzər dənizindən və Azərbaycan, Gürcüstan ərazisindən keçməklə Qara dənizə də çıxarmaq istəyir. Biz buna da razılıq vermişik. Beləliklə, biz Qazaxıstanla da, "Şevron" ilə də əməkdaşlığa başlamışıq.

Nəhayət, keçən ilin mayında biz – Özbəkistan, Türkmənistan, Azərbaycan və Gürcüstan Mərkəzi Asiyadan yüklərin Avropaya Xəzər dənizi, Azərbaycan və Gürcüstan vasitəsilə daşınması üçün Transqafqaz magistralı haqqında böyük saziş imzalamışıq. Bu sazişə Ukrayna, Qazaxıstan, Qırğızıstan da qoşulublar.

Mən Ukraynada olarkən biz razılığa gəldik ki, gələcəkdə Xəzər dənizindən Azərbaycan neftinin Avropaya ixracının bir yolu da Ukrayna ərazisi ola bilər.

Beləliklə, mən Azərbaycanın gələcək inkişafını, bax, bu yollarda görürəm.

**Sual**: Cənab prezident, Sizə şəxsi sual vermək istəyirəm. Bu sualım Sizin söhbətinizdən alındı. Bayaq dediniz ki, Siz keçmiş SSRİ-nin rəhbərlərindən biri olmusunuz. O illərdə bir azərbaycanlı hissləri ilə SSRİ-nin rəhbəri olmaq arasındakı ziddiyyəti necə həll edirdiniz? Azərbaycanlıtək özünüzü bir vətənpərvər kimi görürdünüz, yaxud qarşınıza çıxan məsələlərdə bu iki qüvvə özünü necə göstərirdi?

**Cavab**: O vaxt belə bir ziddiyyət yox idi. Azərbaycan Sovetlər İttifaqının tərkibində olan bir respublika idi. Onsuz da Azərbaycanın başçısı kimi mən Sovetlər İttifaqının rəhbər orqanlarına daxil olan şəxs idim. Moskvada işləyərkən, Sovetlər İttifaqının rəhbərlərindən biri olarkən, şübhəsiz ki, mən öz üzərimə düşən vəzifəni də həyata keçirməyə çalışırdım. Amma eyni zamanda azərbaycanlılığımı da heç vaxt unutmamışdım, milliliyimi və vətənpərvərliyimi də heç vaxt unutmamışdım. Əksinə, mən Moskvada işləyərkən, Sovetlər [92-93] İttifaqının rəhbərlərindən biri olarkən çalışırdım ki, bu imkanlardan istifadə edib Azərbaycanın inkişafını daha da sürətləndirim.

Amma eyni zamanda Sovetlər İttifaqının rəhbərlərindən biri olmağım, Moskvada yüksək vəzifədə işləməyim də nadir, yəni o vaxta qədər olmayan bir hadisə idi. Tarixdə heç vaxt olmamışdı ki, azərbaycanlı, müsəlman, ya Rusiya imperiyasının, ya da Sovetlər İttifaqının başçılarından biri olsun. Bu onu göstərir ki, azərbaycanlı, müsəlman da belə mərtəbəyə çata bilərdi.

**Jurnalist**: Hər halda birinci başlayan gürcü olmuşdu.

**Cavab**: Gürcü həmişə olubdur. Amma müsəlman olmamışdı. Gürcü xristiandır, siz bilin. Amma Rusiya heç vaxt müsəlmanı Moskvaya qoymamışdı. Gürcü təkcə Stalin deyildi, Stalindən başqaları da olmuşdur.

Amma eyni zamanda mən orada işləyərkən razı olmadığım bir çox faktlarla da rastlaşdım. Bunların da nəticəsində mən 1987-ci ilin sonunda Moskvada vəzifələrimdən istefa verdim.

**Sual**: Cənab prezident, icazənizlə iqtisadiyyata aid sula vermək istəyirəm. Siz indicə dediniz ki, neft sahəsində əməkdaşlıq etmək istəyən tərəflər çoxdur. Təhlilə görə mütəxəssislər deyirlər ki, 2005-2010-cu illərdə Azərbaycan gündə təxminən 700 min barrel neft verəcəkdir. Bu, düzdürmü? İkinci sualım belədir: Siz dediniz və biz də yaxşı başa düşdük ki, neftdən gələn pulu güclü ordu yaratmaq üçün işlətməyəcək, ölkənizin iqtisadi inkişafını, rifahını yüksəltmək üçün istifadə edəcəksiniz. Sizin üçün hansı sənaye sahələri daha vacibdir? Nəhayət, bu gün bizim xarici işlər naziri ilə görüşəcəksiniz. Bilmək istərdik ki, Fransa hansı başlıca sahələrə kapital qoyuluşunda Sizə kömək edə bilərdi?

**Cavab**: Birincisi, ikimininci ilin əvvəlində nə qədər neft çıxarılacaq, – bunu dəqiq deyə bilmərəm. Amma hesab edi[93-94]rəm ki, Siz dediyiniz rəqəmdən çox olacaq. Şübhəsiz ki, maneçilik olmasa, yeni bir faciə üz verməsə, yəni işlər normal getsə. Güman edirəm, normal da gedəcəkdir. Kapital qoyuluşu ki deyirsiniz, şübhəsiz, indi bizə xarici sərmayə əsasən neft-qaz sənayesi sahəsinə, infrastruktura gəlir. Bilirsiniz, indi Azərbaycanda Norveç kimi xırda ölkənin 60 şirkətinin ofisi var. Neft müqavilələri bunların həyata keçirilməsi üçün lazım olan yeni böyük şirkətlərin yaranmasına gətirib çıxarıbdır. Ona görə də təkcə neft müqaviləsi bağlamış şirkətlər deyil, o müqavilələri həyata keçirmək üçün dünyanın bir çox şirkətləri Azərbaycana gəlib yerləşirlər. Odur ki, indi infrastruktura çox sərmayə qoyulur. Neft və qazın emalı və onlardan müəyyən məhsullar alınması sənayesi də çox inkişaf edəcəkdir. O cümlədən kimya sənayesi, – çünki bu, neftlə, qazla çox bağlı olan sənayedir, – maşınqayırma sənayesi də.

Bizim böyük kənd təsərrüfatı kompleksimiz var. Kənd təsərrüfatı məhsulları emal edilir, pambıq, tütün istehsal olunur, bunların emalı, son məhsul əldə edilməsi, meyvə, tərəvəz istehsalı, sənaye üsulu ilə emal olunması da çox inkişaf edibdir.

Azərbaycanda toxuculuq sənayesi, qara və əlvan metallurgiya, alüminium istehsalı var. İndi bizdə özəlləşdirmə proqramı həyata keçirilir. Ölkəmizdə çox böyük sənaye müəssisələri var. Özəlləşdirmədən sonra bunların çoxu modernləşdiriləcək və böyük bir iqtisadi potensial yaranacaqdır.

Biz Müstəqil Dövlətlər Birliyi ölkələri, yəni keçmiş Sovetlər İttifaqına daxil olmuş dövlətlər içərisində torpaq islahatı ilə əlaqədar ən radikal qanun qəbul etmişik – kolxozların və sovxozların ləğv olunması və bütün torpaqların kəndlilərə, insanlara verilməsi haqqında. Torpaq şəxsi mülkiyyətə verilir, torpaq sahibi onu sata, başqasına da verə bilər. Hesab edirik ki, bu islahat kənd təsərrüfatı məhsulları istehsalının sürətlə inkişafını təmin edəcəkdir.

Ümumiyyətlə, ölkəmizdə bazar iqtisadiyyatı, iqtisadi islahatlar bu il, gələn illərdə çox sürətlə həyata keçiriləcəkdir.

**Sual**: Cənab prezident, Sizə son sualımı vermək istərdim. Siz özəlləşdirmədən danışdınız. Elə bir orqan yaradacaqsınızmı ki, o, Şərqi Almaniyadakı kimi, torpağın özəlləşdirilməsi ilə məşğul olsun? Torpaq özəlləşdirildik[94-95]dən sonra Siz torpaqdan kapitalizmdə olan üsulla istifadə mədəniyyətini öyrənmək üçün Avropa dövlətlərinin, yaxud başqa ölkələrin investisiyasına müraciət edəcəksinizmi?

**Cavab**: Bəli, güman edirəm ki, biz bunların hamısından istifadə etməyə çalışacağıq. Həyat prosesləri bizi buna vadar edəcəkdir. Bir halda ki, biz özəlləşdirmə aparır, torpağı şəxsi mülkiyyətə veririk, ondan səmərəli istifadə olunması üçün tədbirlər də görməliyik. Avropada torpaqdan səmərəli istifadə etmək mədəniyyəti çox yüksəkdir. Sizin ölkədə, Fransada bu sahədə çox gözəl təcrübə, çox gözəl nailiyyətlər var. Biz bütün bu təcrübələrdən, o cümlədən Fransanın təcrübəsindən istifadə etməyə çalışacağıq. Bir halda ki, bu yolla gedirik, bizdən qabaq bu yolla gedən ölkələrin sınaqdan keçmiş təcrübəsindən istifadə etməliyik.

**Jak Rumelar**: Çox sağ olun, cənab prezident. Qonaqpərvərlik üçün və bu gün bizə verdiyiniz izahatlar, gətirdiyiniz aydınlıqlar üçün Sizə minnətdarlığımızı bildirirəm. Siz Fransa mətbuatına çox böyük məlumat verdiniz. Bir daha Sizə Fransada xoş səfər arzulayırıq.

**Heydər Əliyev**: Sağ olun, təşəkkür edirəm. Mən bu görüşdən çox məmnunam, gələcəkdə də sizinlə hər dəfə görüşməyə hazıram. Sizin hamınızı, hər birinizi Azərbaycana dəvət edirəm. Vaxt tapın, Azərbaycana gəlin. Orada Azərbaycan haqqında daha çox məlumat toplaya bilərsiniz.

Sağ olun. [95-96]

## MDB-nin ÜZVÜ OLAN DÖVLƏTLƏRİN BAŞÇILARININ İCLASINDAN SONRA BİRGƏ MƏTBUAT KONFRANSINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*29 mart 1997-ci il*

**Sual**: Bu gün dəfələrlə bəyan edildi ki, dövlət başçıları arasında çox açıq söhbət getdi. Bilmək istərdik, Rusiya hərbi texnikasının Ermənistana əvəzsiz və gizli verilməsi məsələsi müzakirə edildimi?

**Heydər Əliyev**: Bəli, bu məsələ müzakirə olundu. Daha doğrusu, o, Birlik ölkələrinin xarici işlər nazirlərinin görüşlərində, müdafiə nazirlərinin görüşündə, baş nazirlərinin görüşündə müzakirə edildi və dövlət başçılarına belə bir məlumat vermək qərara alındı ki, qanunsuz surətdə hərbi texnika göndərilib və təhqiqat aparılır. İvan Mixayloviç Korotçenya məlumat verdikdən sonra Boris Nikolayeviç təhqiqatın bitməsini gözləməyi və iyun ayında dövlət başçılarının növbəti görüşündə bu məsələni təhqiqatın yekunlarını nəzərə almaqla tam müzakirə etməyi təklif etdi. [96-97]

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİNƏ MOSKVA DÖVLƏT HÜQUQ AKADEMİYASININ FƏXRİ DOKTORU ADI VERİLMƏSİ MƏRASİMİNDƏ ÇIXIŞ**

*29 mart 1997-ci il*

Hörmətli nazir, hörmətli rektor, hörmətli xanımlar və cənablar!

Sizi səmimi salamlayır və gözəl görüş münasibətilə ürəkdən sevindiyimi bildirirəm. Mənə Moskva Dövlət Hüquq Akademiyasının fəxri doktoru adı verərək mənə göstərdiyiniz böyük şərəfə görə Moskva Dövlət Hüquq Akademiyasının rektoru hörmətli akademik Oleq Yemelyanoviç Kutafinə, akademiyanın Elmi Şurasına, sizin hamınıza təşəkkür edirəm. Sözün düzü, bu qərardan xəbər tutduqda təəccübləndim və həyəcanlandım ki, axı bu, nə üçün, nə ilə əlaqədar baş verdi. Sonra belə qənaətə gəldim ki, bu akademiya çox nüfuzlu akademiyadır, burada görkəmli hüquqşünaslar, alimlər, professorlar işləyirlər, onlar isə çətin ki, səhv etsinlər. Bir də ki, bizdə həmişə belə olurdu, – mən bunu öz təcrübəmə əsasən deyə bilərəm ki, hər hansı bir sənəd və ya məsələ müəyyən şübhə doğurduqda, mütləq hüquqşünasların rəyini soruşurdular. İndi imzalamalı olduğum hər hansı sənədə hüquqşünas imza qoymasa, o mənə çatdırılmır. Axı söhbət qanundan gedir. Əgər belə alimlər, hüquqşünaslar belə qərar qəbul etmişlərsə, deməli, bu, qanunidir. Ona görə də mən bu qərarla razılaşdım; sözün düzü, indi də çox böyük həyəcan və sevinc hissi keçirirəm. Çox sağ olun.

Hesab edirəm ki, bu fakt Azərbaycanın və Rusiyanın təhsil müəssisələri arasında, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dostluq münasibətlərinin bundan sonra da möhkəmlənməsinə və inkişaf etdirilməsinə yönəldilmiş[97-98]dir. Əmin ola bilərsiniz ki, bu yüksək adı almağımla əlaqədar mən öz vəzifəmi, öz məsuliyyətimi başa düşürəm və Rusiya ilə Azərbaycan arasında mehriban münasibətlərin, dostluq münasibətlərinin gündən-günə inkişaf etməsi və möhkəmlənməsi üçün, Rusiyanın və Azərbaycanın ali təhsil müəssisələri arasında, təhsil orqanları arasında əlaqələrin uğurlu və səmərəli olması üçün səylərimi əsirgəməyəcəyəm.

Burada çıxış edənləri dinləyərkən xatırladım ki, keçmişdə öz işimdə həqiqətən qanunla, qanunvericiliklə, hüquqşünaslıqla, hüquq elmi ilə sıx bağlı olmuşam. Sizin vaxtınızı almaq və bütün bunlar haqqında danışmaq istəmirəm, çünki buna çox vaxt gedərdi. Ancaq bəzi epizodlar haqqında danışmaq istəyirəm.

Hər şeydən öncə Moskva Dövlət Hüquq Akademiyasının rolu və əhəmiyyəti barədə demək istəyirəm. Müasir mərhələdə bu təhsil müəssisəsinin çox böyük əhəmiyyəti var. Şübhəsiz ki, hüquq təmayüllü, yaxud hüquqşünaslar hazırlayan hər hansı ali məktəbin keçmiş dövrlərdə də əhəmiyyəti var idi. Ona görə də 1931-ci ildə yaradılmış, böyük tarixi yol keçmiş və o vaxtkı Sovetlər İttifaqı üçün, onun müttəfiq respublikaları üçün hüquqşünaslar, alimlər, əməli işçilər hazırlanması işinə çox böyük töhfə vermiş Ümumittifaq Qiyabi Hüquq İnstitutu bu gün də çox mühüm rol oynayır. 80-ci illərin ortalarında Qiyabi Hüquq İnstitutunun zəruri olub-olmaması haqqında məsələnin meydana çıxmasını xatırladan Oleq Yemelyanoviç haqlı idi, mən həqiqətən bu məsələyə dair qərar qəbul etməli olmuşam. Özü də ona görə yox ki, mən bu kollektiv üçün nə isə yaxşı bir iş görmək istəyirdim, ona görə ki, bu ali məktəbin gələcəkdə də mövcud olmasının zəruriliyinə şübhə edənlər səhv edə bilərdilər, mən isə elə etdim ki, bu səhvə yol verilməsin.

Siz bilirsiniz ki, keçmişdə mən bir çox illər dövlət təhlükəsizliyi orqanlarında işləmişəm. Şübhəsiz ki, bu orqanlar digər hüquq-mühafizə orqanları, hüquq xidmətləri ilə çox sıx bağlı idi. Xatirimdədir, o illərdə, 50-ci, 60-cı illərdə Azərbaycandan çoxları Ümumittifaq Qiyabi Hüquq İnstitutuna daxil olmaq üçün Moskvaya gəlirdi və onlar burada oxuduqlarına görə fəxr edirdilər. Onlar bu gün də institutun diplomu ilə yaşayır, [98-99] işləyirlər, bəziləri yüksək vəzifələr tuturlar. Bu institut o vaxtlar Sovetlər İttifaqında, o cümlədən də Azərbaycanda böyük şöhrət və nüfuz qazanmışdı.

Bu institut nə üçün lazım idi? Açığını deyək, keçmişdə bizim Sovetlər İttifaqında hüquq təhsilinə kifayət qədər diqqət verilmirdi. Lakin bu, onda, ola bilsin o qədər də başa düşülmürdü. İndi isə, böyük dəyişikliklər baş verdiyi, ictimai dövlət sisteminin dəyişdiyi bir vaxtda hər şey aydın oldu. Sovet sosialist idarəetmə sisteminin hüquqşünaslara bir o qədər də ehtiyacı yox idi, çünki ümumiyyətlə, ölkə bir qanunla yaşayırdı. Buna görə də hüquq sahəsində kadrlara, əsl hüquqşünaslara çox da böyük tələbat yox idi, onların nüfuzu da yüksək deyildi, yalnız prokurorluqda, məhkəmədə, daxili işlər orqanlarında və sairədə işləmək üçün hazırlanırdı. O illərdə, – mən 40-cı, 50-ci illəri deyirəm, – bu orqanlarda işləmək də çox da şərəfli olmadığına görə, hüquq fakültəsinə daxil olmaq istəyən adamlar da az idi. Şəxsi həyatımdan xatirimdədir, mən 1939-cu ildə Bakı Universitetinin memarlıq fakültəsinə daxil olanda hüquq fakültəsində yerlər dolmamışdı. İnsanlar o fakültəyə getmirdilər. Bu, onların günahı deyildi, cəmiyyətin günahı idi, çünki hüquq təhsili olan bu qədər saylı adamlara ehtiyac yox idi. Ancaq Sovetlər İttifaqında qanuna hörmətin artması prosesi getdikcə, hüquq təhsilinin nüfuzu da yüksəlirdi. Lakin mənfi proses də gedirdi, hər halda Azərbaycanda belə idi, hüquq fakültəsinə daxil olmaq üçün

gözlənilmədən ajiotaj yarandı. Bizim universitetdə hüquq fakültəsinə hər il 50 nəfər – rus və Azərbaycan bölmələrinin hər birinə 25 nəfər qəbul edirdilər. Müsabiqə çox yüksək idi. Mən maraqlandım ki, bu, nə məsələdir və aydın etdik ki, bu hüquqşünas işinə olan maraqla deyil, sadəcə olaraq milisdə, prokurorluqda, məhkəmələrdə işləmək arzusu ilə izah edilir.

Sonralar mən gördüm ki, müsabiqə böyük olduğuna görə oraya ən çox hüquq-mühafizə orqanları işçilərinin və rəhbər vəzifəli işçilərin uşaqları daxil olurlar. Bir il ərzindəki qəbulu təhlil edib aydınlaşdırdım ki, oraya bir nəfər də olsun sıravi adam girməyib, yalnız prokurorların, milis rəislərinin, raykom katiblərinin uşaqlarıdır. Mən onda düşünməyə başladım ki, belə halda bizdə deformasiya baş verə bilər, bəs həqiqətən [99-100] yaxşı hüquqşünas ola biləcək istedadlı, qabiliyyətli insanlar nə etsinlər ki, onların valideynləri raykom katibləri, prokuror, milis rəisləri deyil? Bax, onda mən ixtiyarı öz əlimə alıb yüksəkvəzifəli adamların uşaqlarının Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsinə qəbul edilməsinə qadağa qoydum. Bu, mənfi münasibət doğurdu. Burada, Moskvada bəzi hüquqşünaslar etiraz etməyə başladılar. Mərhum Yuri Vladimiroviç Andropov bir dəfə mənə zəng etdi. Həmin dövrdə o, Dövlət Təhlükəsizlik Komitəsinin sədri idi və bizim aramızda çox yaxşı dostluq münasibətləri vardı. O, mənim qərarımın narazılıq doğurduğunu bildirdi. Mən "Literaturnaya qazeta"da dərc olunmuş müsahibəm haqqında onun rəyini soruşdum, dedi: "Əladır". Mən soruşdum: bəs onda nə məsələdir? Cavabında mənə dedi ki, bəzi hüquqşünaslar Əliyevin qərarından şikayət etmək niyyətindədirlər, çünki o, insan hüquqlarını tapdalayır. Mən bu barədə onun fikrini xəbər aldım. Andropov dedi ki, mən düzgün hərəkət etmişəm və mənim əleyhimə çox da çıxmasınlar deyə, bu məsələni burada yoluna qoymağa söz verdi. Ancaq deməliyəm ki, sonra, 1987-ci ilin axırında mən istefaya çıxanda – sizin xatirinizdədir, 1988, 1989, 1990-cı illərdə burada, Moskvada mənim əleyhimə böyük təqib başlamışdı, müxtəlif qəzetlərdə məni gözdən salan, başdan-başa iftiralarla dolu yazılar dərc edilirdi, məni özbaşınalıqda və sairədə günahlandırmaq üçün bu faktdan istifadə edildi. Ancaq hesab edirəm ki, mən o zaman düzgün hərəkət etmişdim və keçmişdə qəbul etdiyim heç bir qərardan imtina etmirəm.

Mən bu barədə məhz ona görə danışıram ki, hüquqşünas peşəsinə marağın birdən-birə artmasını, hüquq təhsilinə birdən-birə yaranmış böyük marağı nəzərə çarpdırım. Ancaq bu, qeyri-sağlam maraq idi.

Bu mərhələlər arxada qalmışdı. İndi Rusiya da, Azərbaycan da, keçmiş Sovetlər İttifaqının ölkələri də özlərində demokratik, hüquqi dövlət qurduqları zaman bu peşə, bu ixtisas birinci dərəcəli əhəmiyyət kəsb edir. Bir vaxtlar Sovetlər İttifaqında biz təəccüblənirdik ki, nə üçün Amerika Birləşmiş Ştatlarında hüquq kontorundan olan hansısa vəkilin böyük nüfuzu var, üstəlik də o, varlı adamdır. Fikirləşirdik ki, ilahi, bizdə hüquqşünas, hansısa bir notarius, hansısa icraçı ən kasıb [100-101] adamdır, heç nəyi yoxdur. Düzdür, milis rəisinə əlavə nə isə gəlir. Biz təəccüblənirdik, çünki həqiqətən qanunlarla yaşayan ölkələrdən büsbütün fərqlənən bir ölkədə yaşayırdıq. İndi Rusiyada da, Azərbaycanda da qanun hər şeydən yüksəkdir. Qanun isə səriştəli hüquqşünaslar tərəfindən yaradılır və hüquqşünas bütün sahələrdə lazımdır. Hesab edirəm ki, bu ixtisas, bu peşə indi xüsusi nüfuz qazanır. Ona görə də həmin Ümumittifaq qiyabi institutdan böyük yol keçərək yaranmış bu akademiya, Rusiya Hüquq Akademiyası Rusiyanın təhsil sistemində belə layiqli yer tutur. Çünki, əvvələn, böyük tədris və elmi potensialı var, ikincisi isə, hüquqi Rusiya dövlətində bu akademiya hüquqşünas kadrlar, bir çox məsələlərin həlli üçün mütəxəssislər hazırlanmasında hələ çox, uzun illər fayda gətirəcəkdir. Ona görə də burada belə ad almağımdan, sizinlə bir yerdə olmağımdan son dərəcə məmnunam.

Bununla yanaşı, keçmiş Sovetlər İttifaqında hətta həmin sistemdə, – indi mən burada Sov. İKP MK Siyasi Bürosunun üzvü və Nazirlər Soveti sədrinin birinci müavini işlədiyim dövrləri xatırlayıram, – biz dövləti, cəmiyyəti və başqa sahələri demokratikləşdirmək üçün az iş görməmişdik. Bu xətt Andropov ölkənin rəhbərliyinə gəldikdən sonra götürülmüşdü. Həmin dövrdə mən görkəmli hüquqşünaslarla, hüquq institutları ilə çox fəal əməkdaşlıq edirdim və xatırlamağa şadam ki, o illərdə mən dərin hüquqi mənaya malik olan çox mühüm sənədlərin hazırlanmasında yaxından iştirak edirdim.

Məsələn, 1983-cü ilin əvvəllərində əmək kollektivləri haqqında qanun hazırlamaq qərara alınmışdı. Buna görə MK Siyasi Bürosunun qərarı ilə mən bu qanunun layihəsini hazırlayan komissiyanın sədri təyin olunmuşdum. Mənim komissiyamda hüquqşünaslar, professorlar, akademiklər, o cümlədən Kudryavtsev və başqaları var idi. Biz bu qanunu bir neçə aya hazırladıq. Elə olurdu ki, mən günlərlə şəhər ətrafında komissiyanın üzvləri ilə otururdum və biz müzakirə edirdik. 1983-cü ilin iyununda Ali Sovetin sessiyasında mən layihə haqqında məruzə etdim və biz əmək kollektivləri haqqında ilk qanun qəbul etdik. Bu, onu göstərirdi ki, biz dövlətimizdə qanunçuluğu möhkəmləndirmək yolu ilə gedirik. Sonralar, 1985-ci, [101-102] 1986-cı illərdə isə biz dövlət müəssisəsi haqqında qanun üzərində işlədik. Bu, yəqin ki, yadınızdadır. O vaxtlar bu komissiyaya Nazirlər Sovetinin sədri Rıjkovun özü başçılıq edirdi, mən bu komissiya sədrinin müavini idim və işçi qrupuna başçılıq edirdim. Biz bu qanunu da hazırlayıb qəbul etdik. Doğrudur, bunların hamısı indi tarixə çevrilmişdir, çünki həmin sistem, həmin dövlət daha yoxdur. Lakin bunlar dövlət idarəçiliyində qanunçuluq prinsiplərinin bərqərar edilməsinə doğru, dövlətdə və cəmiyyətdə qanunun nüfuzunun yüksəldilməsinə doğru ilk addımlar idi.

Yeri gəlmişkən, mən öz aktuallığını bu gün də itirməmiş olan belə bir mühüm faktı da xatırlayıram. Mən Dövlət Arbitrajının islahatı üzrə komissiyanın sədri idim. Siz yuristlər yaxşı bilirsiniz ki, Dövlət Arbitrajı dövlətə bir əlavə idi, müstəqil statusa malik deyildi, Nazirlər Sovetinə tabe idi. Bu məsələni bir çox hüquqşünaslar

qaldıraraq dedilər, bir halda ki, biz demokratikləşdirməyə doğru gedirik, onda Dövlət Arbitrajında islahatlar aparmaq lazımdır. Mən Nazirlər Sovetinin rəhbərlərindən biri idim, burada hamı Dövlət Arbitrajını Nazirlər Sovetinin tərkibindən çıxarmağın və ona müstəqil status verməyin əleyhinə idi. Yadınızdadırsa, Dövlət Arbitrajının sədri Anisimov idi. O da Dövlət Arbitrajının statusunun vacibliyindən danışırdı. O vaxtlar biz Siyasi Büroda Dövlət Arbitrajında islahatın zəruriliyi məsələsinin həll edilməsinə müvəffəq olduq. Mən sənədin üzərində işləmişdim və şadam ki, hazırlayıb müzakirəyə çıxara bilmişdim. Beləliklə, Dövlət Arbitrajının statusu haqqında qərar qəbul edildi. Dövlət Arbitrajına böyük müstəqillik verdilər, onu Nazirlər Sovetinin tərkibindən çıxartdılar. Mən bu epizodları sizin peşənizlə bağlı olduğunu təsdiqləmək üçün xatırlayıram.

Hazırda Rusiyada da, Azərbaycanda da bütün sahələrdə islahatlar aparılır. Bu islahatların qanunvericilik bazasına böyük ehtiyacı var. Bizdə də, Rusiyada da qanunlar qəbul edilir. Lakin nə qədər qanun qəbul etsək də, məsələn, respublikamızda biz islahatları aparmaqdan ötrü qanunlara, qanunvericilik bazasına, bazar iqtisadiyyatı, demokratiya, qanunvericilik yolu ilə tam irəliləmək üçün, şəxsiyyətin hüquqlarına əməl etmək və s. [102-103] üçün lazım olan dəyişikliklərin həyata keçirilməsindən ötrü qanunlara hələ çox böyük ehtiyac duyuruq.

Lakin demək istəyirəm ki, Azərbaycan müstəqil dövlət yolunda qətiyyətlə durmuşdur. Azərbaycanın dövlət müstəqilliyi tarixi nailiyyətdir, biz onu möhkəmləndirəcək və inkişaf etdirəcəyik. Azərbaycan demokratiya, tərəqqi yolu ilə gedir və hüquqi dövlət qurur. Bu, quruca söz deyil, gerçəklikdir. Bununla bərabər, dövlət bir kəlmə ilə, bir ifadə ilə hüquqi dövlət olmur. Dövləti hüquqi, əsl demokratik dövlət etmək üçün qanunlar, digər tədbirlər gərəkdir. Odur ki, biz bu yolla gedirik. Biz iqtisadiyyatı yenidən qururuq, özəlləşdirmə haqqında qanun qəbul etmişik və onu həyata keçiririk. Amma ağıl-kamalla, iqtisadiyyatımızın sosial yönümünü nəzərə alaraq. Zənnimcə demək olmaz ki, səhv buraxmayacağıq, səhvlərdən heç kəs sığorta olunmayıb. Lakin biz bu yolu daha az nöqsanlarla keçəcəyik. Torpaq islahatı haqqında çox sanballı bir qanun qəbul etmişik. Bu qanunda torpağı alıb-satmaq, vermək hüquqi ilə onun şəxsi mülkiyyətə verilməsi nəzərdə tutulur və biz bu qanunu 2-3 il ərzində real surətdə həyata keçirəcəyik, torpaq sahibkarların, adamların, vətəndaşların tam ixtiyarında olacaqdır. Biz artıq onun əməli səmərəsini görürük.

Bütün bunlarla yanaşı, biz öz fəaliyyətimizdə bunu əsas tuturuq ki, Rusiya ilə, digər MDB ölkələri ilə inteqrasiya əlaqələri son dərəcə böyük əhəmiyyətə malikdir. Odur ki, bu məsələyə xüsusi diqqət yetiririk. Dünən dövlət başçılarının iclasında, xüsusən qapalı iclasda biz bu məsələləri müzakirə etdik. Deməliyəm ki, müzakirə çox yaxşı oldu. Rusiya prezidenti, MDB-nin Dövlət Başçıları Şurasının sədri Boris Nikolayeviç Yeltsinin olduqca məzmunlu, ağıllı, yaxşı çıxışını qeyd etmək istəyirəm. Bu gün mən onunla görüşdüm və biz ikitərəfli münasibətlərə dair məsələləri müzakirə etdik. Mən bu görüşdən, söhbətdən çox məmnun qaldım. Bütün bunlar Rusiya ilə dostluq münasibətlərini inkişaf etdirmək və möhkəmlətmək niyyətlərimizə uyğundur. Bizi Rusiya ilə bir il deyil, on il deyil, yüz illərdən bəri çox şey bağlayır. Bu əlaqələri qırmaq olmaz. Bu əlaqələrin qırılması tarix qarşısında da, bu illər, bu onilliklər ərzində bir-biri ilə son dərəcə bağlı olmuş bir çox insanlar qarşısında da cinayət olardı. [103-104]

Aprelin 1-də bizdə Rusiya mədəniyyəti günləri başlayır. Mənə elə gəlir ki, bu da böyük hadisə olacaq və Rusiya ilə Azərbaycan arasında münasibətlərin daha da möhkəmlənməsinə və genişlənməsinə xidmət edəcəkdir. Əlbəttə ki, imkanlar var. Siz əmin ola bilərsiniz ki, Azərbaycanda biz bundan sonra da təhsil sahəsində əməkdaşlığımızı daha da genişləndirmək xətti tutacağıq. Yenə də təhsildən danışarkən mən o illəri, Nazirlər Soveti sədrinin birinci müavini kimi təhsil, ali təhsil, maarif, texniki peşə təhsili sahələrini idarə etdiyim illəri xatırlayıram. O illərdə də işləmiş, indi də işləyən bir çox adamlarla – universitetlərin, təhsil orqanlarının rəhbərləri ilə yaxşı tanışam. Ali təhsil, maarif nazirliklərinin, texniki peşə komitəsinin kollegiyalarında öz görüşlərimi çox səmimiyyətlə xatırlayıram. Bunların hamısı mənim üçün çox əzizdir. Keçmiş həyatımın parlaq səhifələridir. Mən burada öz həyat fəaliyyətimin həmin dövrünə minnətdaram, çünki bu da elə bir təməl olmuşdur ki, indi belə bir çətin dövrdə prezident kimi Azərbaycan Respublikasına rəhbərlik etmək üçün mənə imkan verir.

Burada Azərbaycanda görülmüş tədbirlərdən danışıldı. Vaxtınızı almaq istəmirəm. Həqiqətən, Azərbaycan dövlət müstəqilliyinə nail olduğu vaxtdan bəri respublikada vəziyyət çox mürəkkəb idi. Əvvəla, bu, onda da, indi də bununla bağlı idi ki, 1988-ci ildən Ermənistan tərəfindən Azərbaycana qarşı hərbi təcavüz başlanmışdı. Ermənistan silahlı birləşmələri Azərbaycan ərazisinin 20 faizini işğal etmişlər, ölkəmizin bir milyondan çox sakini bu işğal olunmuş torpaqlardan didərgin salınmışdır, indi onlar ağır şəraitdə, çadırlarda yaşayırlar. Digər tərəfdən, daxili siyasi vəziyyət çox mürəkkəb idi, müxtəlif qruplar, silahlı dəstələr hakimiyyət uğrunda mübarizə aparırdılar.

Bu beş il ərzində hakimiyyət 1992-ci ildə, sonra 1993-cü ildə, Azərbaycanda vətəndaş müharibəsi başlayanda dəyişdi. O zaman məni Bakıya dəvət etdilər, mən bu dəvəti qəbul etdim və tezliklə dörd il olacaqdır ki, mən Azərbaycanın rəhbəriyəm. Əlbəttə, çətin idi. İndi də çətindir. Ancaq mühüm cəhət odur ki, biz vəziyyəti sabitləşdirə, bütün daxili ziddiyyətləri və çətinlikləri aradan qaldıra, bir çox silahlı, qanunsuz quldur dəs[104-105]tələrini təcrid edə və zərərsizləşdirə, ölkədə ictimai-siyasi sabitlik yarada bildik.

Digər böyük nailiyyət də odur ki, artıq üç ildir hərbi əməliyyatlar yoxdur, qan tökülmür. Mən dünən Ermənistan prezidenti Levon Ter-Petrosyanla görüşdüm. Bu gün Boris Nikolayeviç Yeltsin ilə görüş zamanı da

biz bu məsələni müzakirə etdik. Biz məsələnin sülh yolu ilə həll olunması üçün addımlar atırıq. Respublikamızdakı vəziyyəti dərindən bildiyinə görə, – bunu onun çıxışından hiss etdim, – Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasının prinsipləri haqqında ATƏT-in Lissabon Zirvə görüşündə qəbul olunmuş sənədə verdiyi, – həm də təkcə o yox, – əhəmiyyətə görə mən professor Bekeşevə çox minnətdaram. Biz bu gün də, dünən də dedik ki, Ermənistan istisna olmaqla, həmin prinsiplər ilk dəfədir ATƏT-in bütün üzvləri tərəfindən təsdiq edilmişdir. Bu prinsiplər münaqişənin sülh yolu ilə aradan qaldırılmasının əsasını təşkil edir. Əmin ola bilərsiniz ki, biz öz tərəfimizdən hərbi əməliyyatların yenidən başlanmasına heç vaxt yol verməyəcəyik. Biz Zaqafqaziyada da, bütün Qafqazda da keçmiş Sovetlər İttifaqının bütün ərazisində, bütün dünyada sülh olmasını istəyirik. Biz sülh uğrunda mübarizə aparırıq, bütün qonşularımızla sülh şəraitində yaşamaq istəyirik, istəyirik ki, hər yerdə, xüsusən Qafqazda əmin-amanlıq olsun. Qafqaz xüsusi regiondur, onun öz xüsusiyyəti var. Ancaq eyni zamanda indi onu bir çox münaqişələr – Ermənistan-Azərbaycan, abxaz-gürcü münaqişələri, Çeçenistandakı münaqişə bürümüşdür. Bir baxın, kiçik ərazidə nə qədər münaqişə var və bunlar MDB məkanının dinc yolla həllinə, sülhün bərqərar edilməsinə nail olmaq üçün tədbirlər görəcəyik. Əminəm ki, biz Ermənistanla sülhü bərpa edəndə, – şübhəsiz ki, Azərbaycan ərazisindən erməni silahlı birləşmələrinin tamamilə çıxarılması, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi, onun suverenliyinə və sərhədlərinin toxunulmazlığına əməl olunması şərtilə – onunla da mehriban münasibətləri çox uğurla inkişaf etdirə bilərik. Mən buna inanıram.

Çıxışımın sonunda bugünkü səmimi görüş üçün mənə verdiyiniz fəxri ad üçün sizə bir daha təşəkkür etmək istəyirəm. [105-106]

Sizə, Moskva Dövlət Hüquq Akademiyasının bütün kollektivinə hüquq kadrları hazırlanması işində bundan sonra da uğurlar diləmək istəyirəm.

Hesab edirəm ki, Azərbaycan ilə Moskva Dövlət Hüquq Akademiyası arasında əməkdaşlıq uğurlu ola bilər. Biz Azərbaycanda yüksək ixtisaslı kadrlar hazırlamaq üçün gələcəkdə də sizin akademiyanın imkanlarından və şübhəsiz ki, böyük təcrübənizi, elmi potensialınızı nəzərə alaraq köməyinizdən istifadə edəcəyik. Sizə təşəkkür edir, cansağlığı, xoş həyat, uğurlar arzulayıram. [106-107]

## AZƏRBAYCANDA RUSİYA FEDERASİYASININ MƏDƏNİYYƏT GÜNLƏRİNDƏ DÖVLƏT TRETYAKOV QALEREYASININ KOLLEKSİYASINDAN İBARƏT SƏRGİDƏ ÇIXIŞ

*R. Mustafayev adına İncəsənət Muzeyi*

*1 aprel 1997-ci il*

Hörmətli xanımlar və cənablar!

Mən Tretyakov Qalereyasının 25 cildlik kitablar külliyyatından qədim rus rəngkarlığına dair birinci cildi lütfkarlıqla mənə hədiyyə etdiyinə görə, habelə Tretyakov Qalereyası əsərlərinin Bakıda sərgisinə görə Dövlət Tretyakov Qalereyasının direktor müavini Raisa Litvinovaya təşəkkürümü bildirirəm və hesab edirəm ki, bu sərgini əsl mənada böyük hadisə adlandırmaq olar. Çünki heç də sirr deyildir ki, şedevr olan Tretyakov Qalereyasına getməyə heç də hər kəsin imkanı yoxdur.

Tretyakov Qalereyası ilə bağlı mənim çoxlu xatirələrim vardır. Mən hələ çox gənc olarkən və Moskvaya ilk dəfə gələrkən birinci getdiyim yerlərdən biri Tretyakov Qalereyası idi. Mən bütöv bir günümü ona həsr etdim. Sonralar bu qalereyaya dəfələrlə gedərək, gözəl əsərlərdən həzz aldım. Tretyakov Qalereyasındakı əsərlərin qorunub saxlanmasına öz kiçik töhfəmi qeyd etmək istəyirəm. Mən Moskvada SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini işləyərkən və mədəniyyətə, incəsənətə kuratorluq edərkən indi mərhum Korolyov, – o, uzun illər Tretyakov Qalereyasının direktoru olmuşdur və aramızda xoş münasibət vardı, – bütün əsərlərin qorunub saxlanması və depozitari tikilməsi barədə məsələ qaldırdı. Odur ki, sizdən xahiş edirəm unutmayasınız ki, depozitari tikilməsi haqqında qərarı Nazirlər Sovetində mən qəbul etdim, onun həyata keçirilməsinin gedişini nəzarət altında saxladım. O [107-108] vaxtlar depozitarinin tikilməsi üçün Finlandiyadan avtomaşınlarla inşaat materialları, konstruksiyalar gətirildi. Tretyakov Qalereyasının otaqlarını yenidən qurmaq və genişləndirmək üçün bizim böyük bir planımız vardı. Lakin sonra mən çıxıb getdim. Buna baxmayaraq, işin bünövrəsi mənim iştirakımla qoyulmuşdur.

Hörmətli Raisa Litvinova təmirdən sonra bu yaxınlarda açılan Tretyakov Qalereyasına məni dəvət etdi, habelə bildirdi ki, qalereyanın Qəyyumlar Şurasına Azərbaycanda Rusiya mədəniyyət günlərinin sponsoru olan "LUKoyl" şirkətinin prezidenti Vahid Ələkbərov da daxildir. Mən bu dəvətin cavabında deyirəm: şadam ki, depozitarinin tikintisinə mən başlamışam. Həmvətənim Vahid Ələkbərov isə Qəyyumlar Şurasının üzvü kimi Tretyakov Qalereyasına himayəçilikdə mənim işimi davam etdirir. [108-109]

## AZƏRBAYCANDA RUSİYA FEDERASİYASI MƏDƏNİYYƏT GÜNLƏRİNİN TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏN SONRA ONUN İŞTİRAKÇILARI İLƏ GÖRÜŞDƏ TƏBRİK SÖZLƏRİ

*Respublika Sarayı*

*1 aprel 1997-ci il*

Mən sizin hamınızı, Azərbaycanda Rusiya mədəniyyəti günlərini açan gözəl çıxışlarınız münasibətilə təbrik edirəm. Bu çıxışlar bir daha göstərdi ki, Azərbaycanda Rusiya ədəbiyyat və incəsənət ongünlüyündən sonra iyirmi beş il ötsə də, son illərin keşməkeşlərinə və çətinliklərinə baxmayaraq, məhəbbət, qarşılıqlı anlaşma, dostluq, hörmət hissləri qalmışdır.

Mən sizə – bugünkü konsertin iştirakçılarına Rusiyanı yüksək məharətlə və layiqincə təmsil etdiyinizə görə ürəkdən təşəkkür edirəm. Bütün Azərbaycan xalqı adından Rusiyanın mədəniyyət xadimlərinə, Rusiyaya, rus xalqına, rus mədəniyyətinə dərin ehtiram hisslərimi çatdırıram.

Yüksək incəsənəti başa düşən, duyan Azərbaycan tamaşaçılarının Rusiya artistlərini çox yaxşı anlaması məni ürəkdən sevindirir. Azərbaycanda Rusiya mədəniyyəti günləri başlanmasından çox məmnun qaldığımı bildirir və əmin olduğumu söyləyirəm ki, mədəniyyət günləri uğurla keçəcək, ölkələrimiz, xalqlarımız arasında münasibətlərin daha da inkişaf etməsinə böyük töhfə olacaqdır.

Mən vaxtilə Sovet İttifaqı hökuməti rəhbərlərindən biri olduğum illərdə mədəniyyətin inkişafına, yaradıcı ziyalıların dəstəklənməsinə göstərdiyim səylərə görə Rusiyanın xalq artisti Svetlana Bezrodnayanın mənim ünvanıma söylədiyi xoş sözlərə görə təşəkkürümü bildirir və sizin hamınıza uğurlar arzulayıram.

Sağ olun. [109-110]

## KƏLBƏCƏR RAYONUNUN ERMƏNİSTAN SİLAHLI QÜVVƏLƏRİ TƏRƏFİNDƏN İŞĞALININ 4-cü İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR NƏRİMANOV RAYONUNDAKI YATAQXANADA MƏSKUNLAŞMIŞ KƏLBƏCƏR QAÇQINLARI İLƏ GÖRÜŞDƏ NİTQ

*2 aprel 1997-ci il*

Əziz kəlbəcərlilər!

Əziz bacılar və qardaşlar, həmvətənlər!

Bu gün biz buraya Azərbaycanın Kəlbəcər rayonunun Ermənistanın silahlı qüvvələri tərəfindən işğal olunmasından dörd il keçməsi ilə əlaqədar toplaşmışıq. Bir il bundan öncə biz belə bir görüş keçirmişdik. O vaxt biz Ermənistanın Azərbaycana hərbi təcavüzü başlayandan sonra Kəlbəcərin həyatında baş vermiş hadisələr, gedən proseslər və nəhayət, Kəlbəcərin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunması haqqında söhbət apardıq. Kəlbəcərlilər o dövr haqqında, Kəlbəcərin işğal olunması ərəfəsi barədə, həmin günlər haqqında öz fikirlərini, bu barədə dəqiq məlumatları çatdırdılar. Demək olar ki. bir il bundan öncə, həmin gün, Ermənistan silahlı qüvvələri tərəfindən Kəlbəcərin işğal olunması məsələsinə əvvəlki illərə nisbətən daha çox aydınlıq gətirdilər. Azərbaycan və dünya ictimaiyyətinə daha çox, daha ətraflı məlumat verildi.

Bu gün biz yenidən toplaşmışıq. Ona görə toplaşmışıq ki, Kəlbəcərin müdafiəsi zamanı Vətənimiz, torpağımız uğrunda şəhid olanların xatirəsini yad edək, Ermənistanın Azərbaycana təcavüzünün başlandığı gündən indiyədək Azərbaycan torpaqlarının müdafiəsi uğrunda şəhid olanların xatirəsini yad edək, Azərbaycanın müstəqilliyi uğrunda, o cümlədən 1990-cı [110-111] ilin Qanlı Yanvar faciəsi günlərində şəhid olmuş soydaşlarımızın xatirəsini yad edək. Eyni zamanda, hüzrlə və matəmlə bağlı bu görüşümüz həm də kəlbəcərlilərin, bütün Azərbaycan xalqının ölkəmizi, respublikamızı bu ağır vəziyyətdən çıxarmaq üçün həmrəylik və birlik görüşüdür. Çünki biz keçmiş hadisələri, faciələri xatırlayaraq, onlara doğru-düzgün, ədalətli, obyektiv qiymət verərək, eyni zamanda irəliyə baxmalıyıq, bu vəziyyətdən çıxmaq üçün tədbirlər görməliyik, bunun üçün daha sıx birləşməliyik, həmrəy olmalıyıq, əl-ələ verməliyik, keçmişdə buraxılan səhvlərə, xəyanətlərə bundan sonra daha yol verməməliyik.

Hamımız üçün ağır olan bu gündə siz kəlbəcərlilərin arasında olmağımdan, sizinlə görüşümdən çox məmnunam. Sizə öz hörmət və ehtiramımı bildirirəm. Kəlbəcər torpaqlarını qoruyarkən, müdafiə edərkən canlarını qurban vermiş, şəhid olmuş oğullarımızın, qızlarımızın xatirəsi qarşısında baş əyirəm. Allah bütün şəhidlərə rəhmət eləsin! Allah şəhidlərin ailələrinə və xalqımıza səbir versin. Mən əminəm ki, xalqımız, o cümlədən kəlbəcərlilər keçmişi təhlil edərkən ötən günləri dərin müzakirə edərək daha sıx birləşəcək, Azərbaycan torpaqlarının Ermənistanın işğalından azad olması üçün öz səylərini göstərəcəklər.

Böyük əraziyə malik olan Kəlbəcər Azərbaycanın gözəl və qiymətli guşələrindən biridir. Respublikamızın ucqar rayonu olmaqla bərabər Kəlbəcər ölkəmiz üçün həm də strateji əhəmiyyəti olan bir rayondur. Allah Kəlbəcərə hər cür nemətlər, gözəl təbiət, zəngin sərvətlər veribdir. Kəlbəcər məğrur dağları, gözəl meşələri, otlaqları, çəmənləri, obaları, bulaqları olan, Vətənimizin təbiət gözəlliyini və zənginliyini özündə əks etdirən bir parçasıdır. Kəlbəcərin həm yeraltı sərvətləri, həm də yerüstü sərvətləri Azərbaycanın milli sərvətlərinin bir hissəsidir.

Kəlbəcərdə yaşayan insanlar da o gözəl təbiətin, məğrur qayaların, dağların təsiri altında daim cəsur olublar, qəhrəman və rəşadətli olublar. Eyni zamanda zəkalı olublar, elmə, biliyə, mədəniyyətə həmişə çox böyük maraq göstəriblər. Ona görə də Azərbaycanın ucqar və dağlıq rayonu olan Kəlbəcərdə eyni zamanda həmişə yüksək mədəniyyət və yüksək mənəviyyat [111-112] olmuşdur. Təbiidir ki, Kəlbəcər rayonundan çıxmış adamlar, kəlbəcərlilər Azərbaycanın hər yerində, xüsusən Bakıda ölkəmizin ictimai-siyasi, mədəni, elmi həyatında özlərinə məxsus görkəmli yer tutmuşlar və ölkəmizin inkişafında öz xidmətlərini göstərmişlər. Bütün bunlara görə Kəlbəcərin dörd il bundan əvvəl işğal edilməsi, düşmən tapdağı altında qalması bizim hər birimizi ağrıdır. Bu, bizim hər birimiz üçün, Azərbaycan xalqı üçün ürək ağrısıdır, böyük dərddir.

Şübhəsiz ki, hər bir kəlbəcərli öz evi, ocağı, eli-obası, əcdadlarının qəbirləri, doğma torpağı haqqında düşünür. Xalqımız, dövlətimiz, o cümlədən mən də həm bu barədə, həm də Vətənimizin, ölkəmizin parçalanması dərdi barədə düşünürəm.

Bunların hamısı bir tərəfdən bizim dərdimizi, faciəmizi göstərirsə, ikinci tərəfdən ölkəmizin ərazi bütövlüyünü bərpa etmək, işğal olunmuş torpaqlarımızı azad etmək, o cümlədən Kəlbəcər rayonunu Ermənistan silahlı qüvvələrinin işğalından azad etmək fikrini daha da gücləndirir.

Keçən görüşümüzdə də çox geniş söhbət oldu. Son günlər Azərbaycan televiziyasında o dövrə aid sənədli verilişlər nümayiş etdirilir, mətbuatda yazılar dərc olunur. Kəlbəcərin başına bu faciənin gəlməsinin səbəbləri araşdırılır. Deyə bilərəm ki, keçən görüşümüzdən indiyə qədər, yəni bir il müddətində bu barədə çox iş görülübdür. Bu, lazımdır.

Əvvəlki illərdə bəzi dövlət orqanları və ayrı-ayrı dairələr tərəfindən Kəlbəcərin işğal olunması ilə əlaqədar günahkar adamların və ya buraxılan səhvlərin gizlədilməsi üçün cəhdlər göstərildiyinə görə məsələlər tam açılmamışdı. Digər tərəfdən insanları yalnız öz dərdləri düşündürdüyündən bu məsələlərə o qədər də fikir verilmirdi. Ancaq bu, lazımdır. Keçdiyimiz illərdə baş verənlər tarixdə açıq-aydın öz əksini tapmalıdır. Birincisi, ona görə ki, bu faciənin günahkarları, səbəbkarları aşkar olunmalıdır, ona görə ki, bundan sonra nəinki Kəlbəcərdə, Azərbaycanın heç bir yerində belə xəyanətlər bir daha olmasın, səhvlər buraxılmasın, biz bundan sonra torpaqlarımızı qorumaq üçün daha da etibarlı tədbirlər görək. Eyni zamanda ona görə aşkar olmalıdır ki, xalqımız kimin kim olduğunu bilsin – kim həqiqətən Vətənə sədaqətlə xidmət edibdir, kim isə həmin o dövrdə, Azərbaycanın həyatında ən mürəkkəb pro[112-113]seslərin getdiyi bir vaxtda, Ermənistanın Azərbaycana güclü hərbi təcavüz etdiyi bir dövrdə ümummilli, ümumxalq mənafelərini tapdalayaraq öz şəxsi məqsədləri, şəxsi mənafeləri üçün çalışıb və bunların hamısı böyük faciələrə gətirib çıxarmışdır. Ona görə də mən bu son bir il içərisində bu barədə aparılan işləri, araşdırmaları, təhlilləri, tədqiqatları bəyənirəm və bizim mətbuatın, xüsusən Azərbaycan televiziyasının son günlərdə hazırlayıb geniş tamaşaçı kütləsinə çatdırdığı verilişləri bəyənirəm. Çünki bunlar həqiqətdir. Televiziya olan şeyləri göstərir. Hər kəs özü bundan nəticə çıxara bilər.

Bunları mən bəyənirəm. Güman edirəm, bu işlər davam edəcəkdir.

Xalqımızın milli mənafeyini kimliyindən asılı olmayaraq ayrı-ayrı adamların şəxsi mənafelərinə qurban vermək olmaz. Milli mənafeyimiz, xalqın aqibəti bizim üçün hər şeydən əzizdir, hər şeydən üstündür. Kim günahkardırsa, o bilinməli, cəzalanmalı, onun haqqında ölçü götürülməlidir. Əgər indiyə qədər bəzi həqiqi günahkarlar cəzasız qalıblarsa, güman edirəm ki, siz də, hüquq-mühafizə orqanlarımız da bu işləri davam etdirməlidir və Kəlbəcər faciəsinin günahkarlarının hamısı öz cəzasını almalıdır. Cəzanın böyük tərbiyəvi əhəmiyyəti var. Əgər bir insan öz cinayətinə, xəyanətinə görə cəzalanırsa, bu, minlərlə, on minlərlə insanların belə cinayətlərdən xilas olmasına kömək edir, belə cinayətlərə qoşulmamasını təmin edir. Ona görə də cəza tədbirlərini təkcə ayrı-ayrı adamları cəzalandırmaq kimi qəbul etmək lazım deyil, yəni mahiyyəti bundan ibarət deyil.

Qeyd etdiyim kimi, Kəlbəcər Azərbaycan ərazisinin böyük bir hissəsini təşkil edir. 60 min kəlbəcərli öz yer-yurdlarından məhrum olubdur. Əgər bir adamın hüququ tapdalanırsa, bir adamın həyatı pozulursa, bir nəfərə qarşı ədalətsizlik edilirsə, bunun özü günahdır, ədalətsizlikdir. Ancaq 60 min adam – qoca, cavan, körpə, qadın, kişi öz yerindən-yurdundan didərgin düşübdür, qurbanlar verilibdir, qan tökülübdür, insanlar varından-yoxundan məhrum olubdur. Bu, təbii ki, böyük hadisədir.

Mən bu gün eyni zamanda kəlbəcərlilərdə öz xalqına, torpağına nə qədər məhəbbət hissi olduğunu sübut edən, nümayiş etdirən faktları yada salmaq istəyirəm. Bu gün burada yenə de[113-114]dilər ki, gəlinlər özlərini qayadan atdılar. Bu, Azərbaycan qadınının nə qədər yüksək mənəviyyata, namusa, qeyrətə malik olduğunu sübut edən faktdır. Mən keçən dəfə demişdim, bu gün də deyirəm – Kəlbəcərin Ermənistan işğalından azad olacağı gün gələcək, biz sizinlə Kəlbəcərə qayıdacağıq, orada kəlbəcərlilərin qəhrəmanlığını əbədiləşdirən abidələr yaradılacaq. Lakin ən birinci abidə özünü qayadan atan həmin gəlinlərin abidəsi olmalıdır. Bu abidə qoyulmalıdır.

Sizin hər biriniz varınızdan-yoxunuzdan məhrum olmusunuz. Amma Azərbaycan dövləti, Azərbaycan Respublikası həm də öz sərvətlərindən məhrum olubdur. Kəlbəcərdə zəngin qızıl yataqları var. Təəssüf ki, keçmiş illərdə, yəni 50-ci illərdə bu qızıl yataqlarının axtarılması, qızılın çıxarılması ilə məşğul olmamışdılar. Bu da həmin dövrdə Azərbaycan rəhbərlərinin fərasətsizliyinin, ağılsızlığının, o vaxtlar Azərbaycanda iş başında olan ermənilərin xəyanətinin nəticəsi idi. Kəlbəcər rayonundakı qızıl yataqları guya perspektivli deyildi və onların istismarı iqtisadi cəhətdən səmərəli hesab edilmirdi. Ancaq siz kəlbəcərlilər yaxşı bilirsiniz ki, Ermənistanın Cermuk rayonu ilə bizim Kəlbəcər rayonu arasındakı dağın o tərəfində ermənilər hələ 50-ci illərdən Zod yatağını istismar edir, oradan qızıl çıxarırlar.

Sonra onlar tunel açaraq Azərbaycana aid yataqdan, bizim ərazidən qızıl çıxarmağa başlamışdılar. Bu, təxminən 70-ci illərin sonunda idi. Həqiqət naminə deməliyəm ki, bu barədə ilk dəfə o vaxt Kəlbəcərdə Rayon Partiya Komitəsinin birinci katibi işləmiş İnqilab Nadirov mənə böyük həyəcanla məlumat verdi. Mən böyük bir komissiya təşkil edib oraya göndərdim, Moskvaya müraciət etdim. Bu sahəyə baxan nazir Lomakonu Azərbaycana dəvət etdim, ciddi danışıqlar apardım, Ermənistanın Zod qızıl mədəninin Azərbaycanda gördüyü işlərin qarşısını aldım. Bildirdim ki, bu işlərlə biz özümüz məşğul olacağıq. O vaxt mütəxəssislərimizi çağırdım. Onlardan soruşdum ki, nə üçün dağın o tərəfində Ermənistan 20 ildir qızıl çıxarmaqla məşğuldur, amma siz dağın bu tərəfindəki yatağı bağlamısınız ki, bu yatağın istismarının gələcəyi və böyük əhəmiyyəti yoxdur? Bax, həyatımızda belə günahlar və səhvlər də olmuşdur.[114-115]

O vaxt mən bunun qarşısını aldım. Kəlbəcərdə, Azərbaycanda qızıl mədənlərinin yaranması haqqında lazımi tədbirlər gördüm. Lakin sonra mən Moskvaya getdim. Daha sonra başıma gələn işləri siz bilirsiniz. Bu məsələ

sonra öz həllini tapa bilmədi. Ermənistan o vaxtlar qızılı bizim ərazidən gizli olaraq çıxardırdısa, indi Kəlbəcər onların əlindədir. Bizə məlumdur ki, ABŞ və Kanada şirkətləri ilə əlaqə yaradıblar, oradan qızıl çıxarmaqla məşğuldurlar və çoxlu qızıl çıxarıblar.

Görürsünüz, burada artıq söhbət Azərbaycanın milli sərvətlərinin itirilməsindən gedir. Tək budurmu? Burada "İstisu" kompleksini yada saldılar. Nə qədər böyük əhəmiyyətə malik olan mineral su mənbəyidir. Siz bunu yaxşı bilirsiniz ki, orada İstisu yeganə mineral su mənbəyi deyil. İnsanların sağlamlığı üçün orada nə qədər əhəmiyyətli mineral su mənbələri var. Onlar əlimizdən gedibdir. Nə qədər gözəl meşələr, otlaqlar vardı. Azərbaycanın aran rayonlarının qoyun sürüləri yay vaxtı Kəlbəcərin otlaqlarına aparılırdı.

Yəni iqtisadi nöqteyi-nəzərdən Azərbaycan nə qədər böyük itki ilə üzləşibdir. Burada hər bir insanın, yəni kəlbəcərlinin itkisi var. Eyni zamanda xalqımızın, ölkəmizin böyük sərvətləri əlimizdən çıxıbdır. Ona görə də bu, təkcə kəlbəcərlilərin faciəsi deyil, ümummilli faciədir. Məqsədimiz və vəzifəmiz Azərbaycanın ərazi bütövlüyünü təmin etmək, işğal olunmuş torpaqlarımızın hamısını erməni silahlı qüvvələrindən təmizləmək və xüsusən də Kəlbəcər rayonunu işğaldan azad etmək, kəlbəcərliləri öz yerlərinə, yurdlarına qaytarmaqdır.

Əminəm ki, buna nail olacağıq. Doğrudur, vaxt keçir. Mən də, siz də bunun tez olmasını istəyirik. Ancaq bilirsiniz ki, torpaqlarımız asanlıqla verilibsə, onu geri almaq nə qədər çətindir.

Siz Kəlbəcərin işğal olunmasının hansı şəraitdə baş verməsi barədə keçən dəfə danışmışdınız, bu dəfə də dediniz. Həqiqətən, televiziyada deyildiyi kimi, kəlbəcərlilər silahı, tankı, topu olmayanda belə əllərindəki silahla, çomaqla, başqa nə iləsə 20-30 nəfərlə ermənilərin qarşısını almışlar. Bu, 1918-ci ildə olmuşdur. Şübhəsiz ki, keçən dəfə dediyiniz kimi, televiziyada göstərildiyi kimi, bu gün burada bildirdiyiniz kimi, Kəlbəcər böyük xəyanət nəticəsində verilibdir. Bizim başqa rayonların, ərazilərin əldən getməsi də xəyanət nəticəsində [115-116] olubdur. Amma Kəlbəcərin əldən getməsi xüsusi xəyanətin nəticəsidir.

Burada danışdınız ki, parlamentin sədri o ağır günlərdə Kəlbəcərə toya gəlmişdi. O zaman toy vaxtı idimi? Ar olsun belə adamlara! Əgər sən Kəlbəcərə gəlmisənsə, respublikanın rəhbərisənsə, sən gedib xalqla görüşməlisən, onun dərdini bilməlisən, Kəlbəcəri qorumaq üçün lazımi tədbir görməlisən. Amma hökumətə rəhbərlik edən bir şəxsin buradan, necə deyərlər, basa-basa Kəlbəcərə toya getməsindən, orada iştirak etməsindən, sərxoşluq etməsindən böyük xəyanət ola bilməz. Bilirsiniz, belə bir insanın xalq arasına çıxmağa haqqı yoxdur – təkcə bu hərəkətinə görə. Burada yalan bir şey yoxdur. Qızğın müharibə gedən vaxtı kim toy edə bilərdi? Toy vaxtı idimi? Qan tökülürdü, insanlar şəhid olurdu, qurban gedirdi. Görün nə qədər mənəviyyatsız, nə qədər düşkün, nə qədər alçaq insanlardır ki, Bakıdan dövlət rəhbəri Kəlbəcərə gedir ki, orada icra hakimiyyəti başçısının toyunda iştirak etsin. Siz hələ dözümlüsünüz, kəlbəcərlilər. Siz gərək çomağınızı götürüb, gedib onun başını əzəydiniz orada, Kəlbəcərdən qovaydınız, deyəydiniz çıx buradan. Sizin də günahınız var. Kəlbəcərlilər həmişə döyüşkən olub, cəsur olublar. Ona xalq qarşısında gərək sual verəydiniz: sən bura niyə gəlmisən? Gəl bizə cavab ver.

Ancaq bunlar olub-keçib. Mən bunlardan həyəcansız, hiddətsiz danışa bilmirəm, öz münasibətimi ancaq bu cür bildirə bilərəm. Bu insanlar dövlətdən, hökumətdən, xalqdan öz məqsədləri üçün istifadə etməkdən ötrü hakimiyyətə gəlmişdilər. Ona görə də onları toy, araq içmək və başqa-başqa çirkin əməllər maraqlandırırdı. Amma Kəlbəcərin aqibəti maraqlandırmırdı. Kəlbəcərin işğalı ilə həmin toy arasında neçə gün fərq vardı? Təqribən bir ay, 40 gün. Fevralın 7-də toy olubdur, aprelin 2-də isə Kəlbəcər işğal edilibdir.

Yenə də deyirəm, şübhəsiz ki, kəlbəcərlilər əgər 1918-1919-cu illərdə özləri ermənilərin qabağına çıxdılarsa, qəhrəmanlıqlar göstərdilərsə, deməli, 1993-cü ildə də bunu edə bilərdilər. Dağlıq Qarabağ Ermənistan tərəfindən tamamilə işğal olunduğu halda, Kəlbəcər Azərbaycanın ərazisindən təcrid edilmiş vəziyyətdə yaşaya bilirdisə, deməli, işğal olunmaya bilərdi. Bu, kəlbəcərlilərin dəyanətidir ki, onlar vaxtilə öz tor[116-117]paqlarını qoruya biliblər. Onlar Kəlbəcəri tərk etmirdilər, oradan getmirdilər.

Şübhəsiz ki, Kəlbəcərin işğalı xəyanətin, cinayətin nəticəsidir. Ancaq yenə də deyirəm, olan olub, keçən keçib. Bizim vəzifəmiz işğal olunmuş torpaqları azad etməkdən ibarətdir. Bir də qeyd etmək istəyirəm ki, torpağı təslim etmək, təhvil vermək asandır, amma geri almaq çox çətindir. Ancaq nə qədər çətin olsa da biz bu işlə gecə-gündüz məşğul oluruq. İndiyə kimi apardığımız və gördüyümüz işlər, tədbirlər göz qabağındadır. Mənim iş günümün əksər hissəsi məhz Azərbaycanın bu vəziyyətdən çıxmasına və birinci növbədə ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsinə, işğal olunmuş torpaqların azad edilməsinə həsr olunubdur. İndiyə qədər hansı işlərin görüldüyü sizə məlumdur. Bunların ən yüksək nəticəsi odur ki, keçən il Lissabon sammitində, ATƏT-in Zirvə görüşündə biz Ermənistan-Azərbaycan münaqişəsi başlayandan indiyə qədər beynəlxalq təşkilatlarda ilk dəfə ən yüksək nailiyyət əldə etdik. Avropada təhlükəsizlik və əməkdaşlıq təşkilatına daxil olan 54 dövlətdən 53-ü Ermənistan müstəsna olmaqla, Azərbaycanın ədalətli, haqq işinə səs verdi, Azərbaycanın ərazi bütövlüyü və işğal olunmuş torpaqlarının azad edilməsi barədə əsas prinsipləri qəbul etdi. Bu prinsiplər sizə məlumdur. Birincisi, Azərbaycanın ərazi bütövlüyünün tanınması, ikincisi, Dağlıq Qarabağa Azərbaycan Respublikasının tərkibində yüksək dərəcəli özünüidarəetmə hüququ verilməsi, üçüncüsü, Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinin təmin edilməsidir.

Bilin, səkkiz il davam edən münaqişə şəraitində, beynəlxalq təşkilatlarda məsələnin həll olunması üçün indiyə qədər aparılan işlərdə, bu, əldə edilən ən yüksək nəticədir. Dünyanın hər yerində deyirlər ki, Lissabon

sammitinin nəticələri Azərbaycanın böyük qələbəsi oldu. Bilirsiniz ki, indi Ermənistanda əhali öz narazılığını bildirir ki, nə üçün onların dövlət başçısı Lissabonda belə qərarın qəbul edilməsinə yol verdi. Düzdür, Ermənistan bu qərara səs vermədi. Ancaq eyni zamanda Ermənistan belə bir qərarın qəbul edilməsinin qarşısını ala bilmədi.[117-118]

Mən 2-3 gün bundan qabaq Parisdə idim, Fransanın prezidenti cənab Jak Şirakla görüşüb danışırdım. O, açıqca dedi ki, Lissabon sammiti Azərbaycanın qələbəsidir. Yenə də deyirəm, bu, asan məsələ deyil. Biz qarış-qarış irəliləyirik. Amma məqsədə doğru gedirik. Biz bütün beynəlxalq aləmə sübut etməli idik ki, Azərbaycana qarşı ədalətsizlik edilib. Təsəvvür edin ki, bizim həm torpaqlarımız işğal olunub, həm insanlarımız şəhid olub, həm də Ermənistan tərəfi bütün dünya ölkələrində çox güclü lobbiyə malik olmaqla və çevik hərəkət etməklə elə əhval-ruhiyyə yaratmışdı ki, guya ermənilər günahkar deyil, burada azərbaycanlılar günahkardır. Bu illər ərzində biz həmin fikri dəyişdirmişik. Biz dünya ictimaiyyətində ədalətli fikir formalaşdırmışıq ki, günahkar Ermənistandır, Azərbaycan deyil. Onlar bizim torpaqlarımızı işğal ediblər – biz bunu sübut etmişik.

Bunların nəticəsində Lissabon sammitində belə nəticə əldə etdik. Minsk qrupu 1992-ci ildə yaradılıbdır, münaqişənin sülh yolu ilə həll olunması istiqamətində fəaliyyət göstərir. Lissabon Zirvə görüşündən sonra Minsk qrupuna üç həmsədr müəyyən olundu. Rusiya əvvəldən də var idi. Amma Rusiyadan başqa indi Amerika Birləşmiş Ştatları və Fransa – dünyanın üç böyük dövləti Minsk qrupuna həmsədr təyin olunub. Mən bu dövlətlərin başçıları ilə görüşmüşəm, danışmışam. Bu məsələni həyata keçirmək üçün son bir həftə ərzində nə qədər görüşlər keçirmişəm.

Bilirsiniz ki, mart ayının 24-25-də mən Ukraynada oldum. Ukrayna böyük dövlətdir, bizim üçün çox dost və yaxın dövlətdir. Ukrayna ilə Azərbaycan arasında indi çox yaxşı əməkdaşlıq əlaqələri yaranıb. Ukraynanın həm Müstəqil Dövlətlər Birliyində səsi var, həm də Dünya Birliyində səsi var. Orada başqa məsələlərlə yanaşı, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması, torpaqlarımızın azad edilməsi məsələsini də müzakirə etdik. Ukraynanın prezidenti birmənalı olaraq dedi ki, Azərbaycanın işğal olunmuş torpaqları azad edilməlidir, ərazi bütövlüyü təmin olunmalıdır, Azərbaycanın suveren hüquqları təmin olunmalıdır.

Ondan bir gün sonra mən Parisdə oldum. Bilirsiniz ki, yanvar ayında mən Fransanın prezidenti cənab Jak Şirakın dəvəti [118-119] ilə Parisə getmişdim. Amma iki aydan sonra yenidən Fransada oldum, bu ölkənin prezidenti cənab Jak Şirakla görüşdüm. Çox ətraflı və əhəmiyyətli söhbətimiz oldu. Deyə bilərəm ki, söhbətimizin 90 faizi Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması, məsələnin sülh yolu ilə həll edilməsi problemlərinə həsr olunmuşdu. Orada Fransanın xarici işlər naziri Erve de Şarett ilə ətraflı söhbət etdim.

Martın 27-də gecə yarıyadək mən Parisdə oldumsa, martın 28-də səhər saat 10-da Moskvada Rusiyanın baş naziri cənab Çernomırdinlə görüşdüm. Saat 11-də Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin başçılarının görüşü oldu. Bütün günü görüşlərdə, söhbətlərdə iştirak etdim. Müstəqil Dövlətlər Birliyi başçılarının görüşündə də mən bu məsələni, yəni Ermənistan-Azərbaycan münaqişəsinin həll olunması məsələsini qaldırdım, bu barədə öz fikirlərimi söylədim, təkliflərimi irəli sürdüm. Ondan sonra axşamçağı Rusiyanın xarici işlər naziri ilə görüşdüm. Ermənistanın prezidenti ilə, Moldovanın yeni seçilmiş prezidenti ilə görüşdüm. Görüşlərimdə bu məsələ diqqət mərkəzində olub.

Martın 29-da Rusiyanın prezidenti cənab Boris Yeltsinlə görüşüm və ətraflı söhbətim olub. Yenə də bu məsələləri müzakirə etmişik. Moskvada keçirdiyim bu görüşlərdə Rusiyanın Ermənistana gizli olaraq döyüş silahları verməsi haqqında məsələ qaldırdım. Bu məsələni Müstəqil Dövlətlər Birliyinin iclaslarında, xarici işlər nazirlərinin görüşlərində, müdafiə nazirlərinin iclaslarında, baş nazirlərin görüşlərində və iclaslarında müzakirə etdirdik. Məcbur etdik ki, müzakirə olunsun. Ermənistan tərəfi buna yol vermirdi. Amma biz nail olduq ki, bu məsələ müzakirə olunsun. Müzakirə olundu və nəhayət, dövlət başçılarının – prezidentlərin görüşündə mən bu məsələni irəli sürdüm və müzakirə edildi. Rusiyanın prezidenti Boris Yeltsin bəyan etdi ki, indi istintaq gedir. İstintaq qurtarandan sonra bu məsələnin müzakirəsinə bir daha qayıdacağıq.

Bilirsiniz ki, Ermənistana 84 ədəd T-72 tankı, 50 ədəd piyadaların zirehli maşını, ehtiyat hissələri verilibdir. Əgər əvvəllər bunu Ermənistan inkar edirdisə, Rusiyada ayrı-ayrı dairələr bu faktı gizlədirdilərsə, Rusiyanın prezidenti, baş naziri, müdafiə naziri, xarici işlər naziri bu məsələyə ədalətli münasibət gös[119-120]tərdilər. Bizə məlumdur ki, onların icazəsi olmadan bu silahlar Ermənistana verilib. Bu məsələləri biz Moskvada açıq-aydın, aşkarcasına qaldırdıq və sübut etdik ki, bu silahlar verilibdir. İndi onlar istintaq aparırlar və onun nəticəsindən asılı olaraq qərar qəbul edəcəklər. Biz tələb etmişik ki, cinayət törədən adamlar nəinki cəzalandırılsın, verilmiş o silahlar mütləq geri qaytarılsın. Mən orada bəyan etmişəm və televiziya ilə göstərilən mətbuat konfransında müxbirin mənə verdiyi suala cavab olaraq bildirmişəm ki, Rusiyanın prezidenti Boris Yeltsin göstəriş veribdir ki, bu məsələ ilə əlaqədar istintaq aparılsın və nəticəsi sonra müzakirə edilsin.

Mart ayının 28-29-da Moskvada olarkən biz çox səmərəli iş gördük, yaxşı nəticə əldə etdik. Eyni zamanda görürsünüz, biz 1994-cü ildən atəşi dayandırmışıq. May ayında atəşkəsin üç ili tamam olacaq. Mən Moskvada bəyan etmişəm ki, biz bundan sonra da atəşkəs rejiminə riayət edəcəyik və hərbi əməliyyatların yenidən başlanmasına yol verməyəcəyik. Mənimlə bərabər Ermənistan prezidenti Levon Ter-Petrosyan da belə bəyanat verdi və söz verdi ki, onlar da atəşkəs rejiminə əməl edəcəklər. Amma eyni zamanda böyük həyəcan, təəccüb və

narahatlıq hissi doğuran budur ki, bu atəşkəs dövründə, yəni 1995-1996-cı illərdə Ermənistan Rusiyadan bu qədər silah alıbdır. Deməli, onlar öz hərbi imkanlarını gücləndiriblər, onlar öz təcavüzkar niyyətlərindən əl çəkməyiblər. Bunu da bizim ictimaiyyət bilməlidir, siz də bilməlisiniz. Bunların da qarşısını almağa çalışırıq.

Nəhayət, dünən axşam Fransanın xarici işlər naziri cənab Erve de Şarett buraya gəldi. Siz mənim həyatımı bilirsiniz və bilməlisiniz. Gecə saat 3-ə qədər mən onunla danışıq apardım. Çünki bu gün səhər saat 10-da o, buradan Yerevana getməli idi. Danışığın əsas məqsədi ondan ibarətdir ki, Minsk qrupunun həmsədri olan Fransa ilə Ermənistan arasında tarixən sıx dostluq əlaqələri var. Fransanın prezidenti və xarici işlər naziri ilə danışıqlarda biz çalışırıq ki, onlar Ermənistanla olan tarixi əlaqələrindən istifadə edərək ermənilərə başa salsınlar ki, bu təcavüzkar siyasətin gələcəyi və sonu yoxdur. Biz öz torpaqlarımızın bir qarışını belə heç vaxt Ermənistana verməyəcəyik, – bunu onlar bilməlidirlər. İşğal olunmuş torpaqlarımızın [120-121] hamısı azad edilməlidir, respublikamızın ərazi bütövlüyü bərpa olunmalıdır, – bunu onlar bilməlidirlər. Dünyanın böyük dövlətləri, beynəlxalq ictimaiyyət, Minsk qrupuna həmsədrlik edən dövlətlər bunu artıq dərk edir və bəyan edirlər. Məsələn, Rusiyanın prezidenti Boris Yeltsinlə görüşərkən mən dedim ki, Ermənistan Dağlıq Qarabağa müstəqillik istəyir. Lakin biz buna razılıq verə bilmərik. O da dedi ki, əlbəttə, vermək olmaz. Rusiya da Dağlıq Qarabağa müstəqillik verilməsinə razı ola bilməz.

Bu nailiyyətlər hələ nəticə verməsə də, münaqişənin sülh yolu ilə həll edilməsi istiqamətində atdığımız addımlardır və onun müsbət nəticələridir. Biz bu yolla gedirik və bu yolla da gedəcəyik.

Üç ilə yaxındır ki, atəş yoxdur. Mən bilirəm, kəlbəcərlilər də, işğal olunmuş, əhalisi zorla çıxarılmış bütün başqa rayonlardan didərgin düşmüş soydaşlarımız – bacılarımız, qardaşlarımız da ağır, çətin vəziyyətdə yaşayırlar. Burada çıxış edən bacım dedi ki, mən kənd adamıyam, kənd təsərrüfatı ilə məşğul olmuşam, indi yaşadığım doqquzuncu mərtəbədə heç bir iş görə bilmərəm. Doğrudur, əkib-biçə bilməz, – mən bunu belə başa düşürəm. Mən bu fikirdəyəm.

Yerindən-yurdundan didərgin düşmüş soydaşlarımızın ağır vəziyyətdə yaşaması gecə-gündüz bizim hamımızı incidir. Bilin ki, bu, mənim ən böyük dərdimdir. Əgər mən gecə saat 3-dək Fransanın xarici işlər naziri ilə danışmışamsa, bu danışıqların təsiri nəticəsində ondan sonra iki saat yata bilməmişəm. Ancaq eyni zamanda, inanın ki, nə mümkündürsə onu edirik və edəcəyik. Bütün son danışıqlarımız məndə çox böyük ümid yaradır ki, bizim tutduğumuz sülh yolu məsələnin həllində müsbət nəticələr verəcəkdir. Hətta Fransada da, başqa yerlərdə də belə fikirlər eşidirəm ki, 1997-ci ildə bu məsələ tamamilə həll olunacaqdır. Minsk qrupunun həmsədrləri bu fikirləri söyləyirlər. Əlbəttə, biz istəyirik ki, məsələ bu gün, sabah həll olunsun. Ancaq 1997-ci ildə biz bu məsələni həll edə bilsək bu, bizim üçün böyük nailiyyət olacaqdır.

Eyni zamanda bunun üçün hərə öz səyini göstərməlidir. Yəni yerindən-yurdundan didərgin düşmüş adamlar daim vətənpərvərlik hissləri ilə yaşamalıdırlar. Vətəni bu ağır və[121-122]ziyyətdən xilas etmək üçün gərək hərə öz payını versin, səy göstərsin, nəyə qadirdirsə onu etsin: oturub gözləməsin ki, Azərbaycanın prezidenti var, o bizim torpaqlan azad edəcək, biz də öz yerimizə-yurdumuza qayıdacağıq. Mən öz vəzifəmi və məsuliyyətimi bilirəm. Bilirəm ki, xalq qarşısında, sizin qarşınızda böyük öhdəlik götürmüşəm və böyük məsuliyyət daşıyıram. İndi həyatımın yeganə məqsədi bu vəzifəni yerinə yetirmək, bu məqsədə çatmaq, xalqımızı bu vəziyyətdən çıxarmaqdan ibarətdir. Amma bu, tək bir adamın işi deyil. Hərə öz yerində, hərə öz işi ilə bizim bu ümumi işimizi irəliyə aparmağa çalışmalıdır. Ona görə də bizim cəmiyyətdə yaranmış ictimai-siyasi sabitlik, milli birlik hissləri bundan sonra daha da möhkəmlənməlidir. Təxribatçılara, bizim bu işimizə maneçilik törədən adamların hərəkətlərinə yol verilməməlidir, belə cinayətkarların qarşısı alınmalıdır.

Burada siz Surət Hüseynov haqqında dediniz. Görürsünüz, nə qədər böyük cinayətlər etmişdir. Mən heç bilmirdim ki, o, Kəlbəcərdə də cinayətlər etmişdir. Mən bunu bilmirdim. Siz bunu indi açıb deyirsiniz. Ancaq sonra, 1993-cü ildə Azərbaycanda vətəndaş müharibəsini başlayan günahkarlardan biri o idi. Azərbaycanı dağıdırdılar, parçalayırdılar. Çünki Surət Hüseynov, Rəhim Qazıyev, Xalq Cəbhəsindən bir başqası prezident olmaq istəyirdilər. Ermənistan gəlib bizim torpaqları işğal edib, torpağımız əldən gedib, burada da hərə vəzifə üstündə dava aparır.

Biz o vaxt bunları müəyyən qədər dayandırdıq. Ancaq gördünüz ki, o, həmin çirkin niyyətlərini 1994-cü ilin oktyabr ayında həyata keçirmək üçün dövlət çevrilişinə cəhd göstərdi. Burada nə qədər gizli silahlı dəstələr, silahlar saxlayırdı, – onlar hamısı aşkar edildi. Qaçdı, gizləndi. Biri dedi ki, nə bilim, Surəti orada Rusiyanın hansısa böyük bir adamı gizlədir. Biri dedi o gizlədir, bu müdafiə edir. Burada da ayrı-ayrı cinayətkar adamlar deyirdilər ki, Surət bu gün gələcək, sabah gələcək. Bəli, gəldi. Televiziyadan gördünüz ki, necə gəldi. Onlar bunun başqa cür gəlməyini gözləyirdilər. Amma bu, gəldi. Onu biz gətirdik.

Azərbaycana xəyanət edib, respublikamızdan qaçıb başqa ölkələrdə, şəhərlərdə Azərbaycanın əleyhinə iş görən adamla[122-123]rın hamısının aqibəti Surətin aqibətidir. Onların hamısı yaxalanacaqdır, gələcəkdir. Onların hamısı xalq qarşısında cavab verəcəkdir. Ona görə də gərək insanlar bunlardan da özləri üçün nəticə çıxarsınlar. Gərək insanlar nəticə çıxarsınlar, bilsinlər ki, bu yolların heç birisi uğurlu ola bilməz.

Öz torpağında, vətənində xalqına, millətinə sədaqətlə, namusla, şərəflə xidmət et, müstəqil dövlətini möhkəmlətməyə çalış, milli həmrəylik yarat, dövlətlə, hökumətlə, xalqla əlbir ol. Beləliklə, hər bir vətəndaş

cəmiyyətimizdə özünə layiq yer tuta bilər – özünə layiq, özündən beş mərtəbə yuxarı yox. Eyni zamanda millətimiz, ölkəmiz, müstəqil dövlətimiz də günü-gündən möhkəmlənə bilər.

Mən əminəm ki, Azərbaycanın dövlət müstəqilliyi gündən-günə möhkəmlənəcəkdir. Azərbaycanın müstəqil siyasət aparması artıq dünyada ölkəmizə böyük hörmət qazandırmışdır. Biz dövlət müstəqilliyimizi qoruyuruq, saxlayırıq. Heç bir başqa dövlətin müstəqilliyimizə zərər vuran bir hərəkət etməsinə yol vermirik və bundan sonra da yol verməyəcəyik. Ölkəmizin daxilində sabitliyi pozan adamların hamısının qarşısını almışıq və bundan sonra da alacağıq. Gedib Azərbaycandan kənarda respublikamıza qarşı terror etmək, ayrı-ayrı adamlara, o cümlədən Azərbaycan prezidentinə təxribat etmək istəyən adamların hamısının qarşısını alacağıq, arxayın olun.

İndi Azərbaycanda güclü dövlət var. İndi Azərbaycanda çox gözəl ictimai-siyasi sabitlik yaranıbdır. İqtisadiyyat günü-gündən inkişaf edir. Rüb başa çatdı. Bilin, builki dövlət büdcəmiz keçən ilin noyabr ayında təsdiq edildi. Amma keçmiş Sovetlər ittifaqına mənsub olmuş bir neçə başqa respublikada büdcə indiyədək təsdiq olunmayıb. Büdcəmiz birinci rübdə yerinə yetirilibdir. Ancaq başqa respublikalarda birinci rübdə büdcənin heç 50 faizi də yerinə yetirilməyibdir. İqtisadiyyatımızda xırda-xırda dirçəliş də vardır. İqtisadi islahatlar aparırıq, özəlləşdirmə gedir, torpaq islahatını aparacağıq. Bizim yolumuz bu yoldur, bu yolla gedirik və bu yol da respublikamıza, xalqımıza yaxşı həyat gətirəcəkdir. Mən buna əminəm.

Ona görə də daxili sabitlik bundan sonra da qorunub saxlanmalıdır. Hər bir vətəndaş Azərbaycanın qayda-qanunlarına riayət etməlidir. Xarici ölkələrdə olan düşmənlərimiz artıq bi[123-124]lirlər ki, onların bu hərəkətləri əhəmiyyətsizdir. Kim gəlib təslim olarsa, bəlkə o, öz cəzasını yüngülləşdirər. Kim gəlib təslim olmasa, biz onları Surət kimi tutub, dartıb gətirəcəyik. Buna arxayın olun, hamısı buraya gələcəkdir.

Bizim üçün indi bunların hamısından da üstün vəzifə işğal olunmuş torpaqlarımızı azad etməkdir.

Bunlara da nail olmaqdan ötrü bizim ordumuz gündən-günə güclənməlidir, ordumuz hər bir hadisənin qarşısını ala bilməyə qadir olmalıdır. Mən bu gün bir də bəyan edirəm ki, biz məsələnin sülh yolu ilə həll olunmasının tərəfdarıyıq. Mən bunu Kiyevdə də, Parisdə də, Moskvada da bəyan etdim, bu gün burada da bəyan edirəm. Ancaq eyni zamanda Azərbaycanın dövlət müstəqilliyini qorumaq, ərazi bütövlüyünü bərpa etmək, sərhədlərinin toxunulmazlığını təmin etmək üçün bizim güclü ordumuz olmalıdır. Ordu güclənməlidir, xalqımız orduya yardım etməlidir. Gənclər gedib orduda sədaqətlə xidmət etməlidirlər, hərə öz vətəndaşlıq borcunu, orduda xidmət etmək borcunu verməlidir. Ordunun güclənməsi, inkişaf etməsi Azərbaycan dövlətinin müstəqilliyinin əsas zəmanəti, əsas təminatıdır.

Əziz dostlar, əziz bacılar-qardaşlar, bu gün, bu hüzn, xatirə günü eyni zamanda qarşımızda duran vəzifələrin bir daha yenidən müzakirə edilməsi ilə bağlı oldu. Hesab edirəm ki, bu da təbiidir. Çünki biz bir tərəfdən keçmişi qiymətləndirməli və baş vermiş hadisələr barədə öz dərdimizi, qəmimizi bildirməliyik, amma eyni zamanda gələcəyə baxmalı, nikbin olmalı, xalqımızı yaşatmalı, millətimizi, dövlətimizi inkişaf etdirməliyik.

Mən sizə cansağlığı, xoşbəxtlik arzu edirəm. Vətən yolunda şəhid olanlara, Kəlbəcərin müdafiəsi yolunda şəhid olanlara Allahdan bir daha rəhmət diləyirəm. Sizə dözümlülük, dəyanət diləyirəm. Əmin olun ki, biz sizinlə birlikdə qarşımızda duran məqsədlərə nail olacağıq. Çox sağ olun. [124-125]

* * *

## EHSAN MƏRASİMİNDƏN SONRA KƏLBƏCƏRLİLƏRƏ MÜRACİƏT

Mən çox məmnunam ki, sizinlə görüşdüm. Allah şəhidlərə rəhmət eləsin. Siz sağ olasınız, möhkəm olasınız və əmin olun ki, Kəlbəcər də azad olacaq, Kəlbəcərə də qayıdacağıq, orada da sizinlə belə oturub yemək yeyəcəyik. Arxayın olun. Sağ olun, salamat qalın. [125-126]

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ SÜLEYMAN DƏMİRƏL
CƏNABLARINA**

Möhtərəm cənab prezident, Türkiyə xalqına üz vermiş ağır itki – Türkiyənin görkəmli siyasi xadimi Alparslan Türkeşin vəfatı haqqında xəbər məni dərindən kədərləndirdi.

Zati-aliləri, Sizə, qardaş Türkiyə xalqına dərin hüznlə başsağlığı verir, səbr diləyirəm.

Mənim başsağlığımı Alparslan Türkeşin ailə üzvlərinə və yaxın adamlarına çatdırmağınızı xahiş edirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 5 aprel 1997-ci il* [126-127]

**TÜRKİYƏ MİLLİYYƏTÇİ HƏRƏKAT PARTİYASI SƏDRİNİN MÜAVİNİ TOĞRUL TÜRKEŞ CƏNABLARINA**

Türkiyə xalqının görkəmli oğlu, atanız Alparslan Türkeş cənablarının vəfatı məni ürəkdən kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar Sizə, Milliyyətçi Hərəkat Partiyasının üzvlərinə, bütün Türkiyə xalqına dərin hüznlə başsağlığı verirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 5 aprel 1997-ci il* [127-128]

## XƏZƏRİN AZƏRBAYCAN SEKTORUNDA "QARABAĞ" PERSPEKTİVLİ STRUKTURUNUN MÜŞTƏRƏK İŞLƏNMƏSİ İLƏ ƏLAQƏDAR 1995-ci İLİN NOYABRINDA ARDNŞ-lə BİR SIRA TRANSMİLLİ NEFT ŞİRKƏTLƏRİ ARASINDA İMZALANMIŞ MÜQAVİLƏNİ HƏYATA KEÇİRƏN "XƏZƏR" BEYNƏLXALQ NEFT ŞİRKƏTİNİN RƏHBƏR HEYƏTİ İLƏ GÖRÜŞDƏ GİRİŞ SÖZÜ

*Prezident Sarayı*

*5 aprel 1997-ci il*

Hörmətli xanımlar və cənablar!
Hörmətli dostlar!

Mən Xəzər dənizinin Azərbaycan sektorundakı "Qarabağ" neft yatağının müştərək işlənməsi ilə əlaqədar 1995-ci ilin noyabrında imzalanmış neft müqaviləsinin həyata keçirilməsi barədə sizin gördüyünüz işlərlə tanış olmaq üçün sizi bu gün buraya dəvət etmişəm. Bu, bizim, yeni Azərbaycan Respublikasının dünyanın trans milli şirkətləri ilə imzaladığı ikinci böyük müqavilədir.

Bildiyiniz kimi, bu müqaviləni Azərbaycan Dövlət Neft Şirkəti ABŞ-ın "Pennzoyl", Rusiyanın "LUKoyl" şirkətləri, İtaliyanın "Acip" və "LUKAcip" birgə şirkəti ilə imzalamışdır. Müqavilə imzalanandan sonra Azərbaycan parlamenti tərəfindən təsdiq edilibdir. Müqavilənin qüvvəyə mindiyi gündən bir ildən çox vaxt keçibdir. Güman edirəm, siz özünüz də bu müddətdə görülən işləri müzakirə etmisiniz, onlara yekun vurmusunuz. Mənə verilən məlumatlara görə, siz bu gün də toplaşıb müzakirələr aparmısınız. İstərdim ki, siz bu barədə qısa məlumat verəsiniz. [128-129]

Belə görüşlər, iş üslubu artıq müəyyən ənənəyə çevrilibdir. 1994-cü ilin sentyabrında imzalanmış ilk müqavilə ilə əlaqədar yaradılmış Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin rəhbərləri ilə mən bir neçə dəfə görüşmüşəm. Onlar gördükləri işlər barədə mənə məlumatlar, hesabatlar veriblər. Bu gün "Xəzər" Beynəlxalq Neft Şirkətinin rəhbər heyəti buraya toplaşmışdır. Sizin şirkətin rəhbər heyəti var, bunu siz özünüz müəyyən etmisiniz. Güman edirəm ki, ilk məlumatı bu beynəlxalq şirkətin prezidenti verəcəkdir.

### YEKUN SÖZÜ

Mən sizin məlumatınızı çox böyük maraqla, həvəslə dinlədim. Mən belə bir məlumatı çoxdan dinləmək istəyirdim. Qeyd etdiyim kimi, "Qarabağ" neft yatağının işlənməsi ilə əlaqədar müqavilə 1995-ci ilin noyabrında imzalanıbdır. Sizi də, bizi də maraqlandıran məsələ bu müqavilədə imzalanandan sonra görülən işlər, bu işlərin sürəti və nəticələridir. Ona görə də belə müzakirəyə, görüşə ehtiyac var idi. Bu məsələ ilə əlaqədar mən öz arzumu həm "LUKoyl", həm də "Pennzoyl" şirkətlərinin rəhbərlərinə bildirmişdim, "Xəzər" Beynəlxalq Neft Şirkətinin rəhbər heyətinin burada, Bakıda toplanıb görülən işləri müzakirə etməsi və bunlara yekun vurmağımız çox əhəmiyyətli bir haldır.

Sizin verdiyiniz məlumatlar onu göstərir ki, müqavilə əməli surətdə həyata keçirilir. İndiyə qədər gördüyünüz işlər, qarşıda nəzərdə tutduğunuz planlar onu göstərir ki, müqavilə üzrə müəyyən edilmiş proqram artıq əməli surətdə həyata keçirilir. Mən qeyd etdim, müqavilənin imzalanmasından bir ildən çox vaxt keçir. Müqavilənin Azərbaycan parlamenti tərəfindən təsdiq olunmasından və qüvvəyə minməsindən də bir ildən çox vaxt keçir. Əlbəttə, biz istəyirik ki, bu müddətdə daha da çox iş görülmüş olsun. Hesab edirəm ki, görülən işləri müsbət qiymətləndirmək lazımdır.

Sizin verdiyiniz məlumatdan aydın oldu ki, 1996-cı il əsasən təşkilati məsələlərin həllinə həsr edilibdir. Məsələn, siz dediniz ki, 1996-cı ilin may, yaxud iyun ayında "Xəzər" Beynəlxalq Neft Şirkətini bizim Ədliyyə Nazirliyində qeydiyyatdan keçirmisiniz. Mən hesab edirəm ki, bunu ondan da tez etmək olardı. Yaxud, siz 1996-cı ilin sentyabrında "Xəzər" Bey[129-130]nəlxalq Neft Şirkətinin toplantısını keçirib, bu məsələni müzakirə etmisiniz. Hesab edirəm ki, bu da gecdir.

Siz dediniz ki, kəşfiyyat quyusunun qazılmasının yerini 1997-ci ilin fevralında müəyyən etmisiniz. Mən belə hesab etdim ki, sizdə qazma qurğusu yoxdur. Bu, bizim ikinci müqaviləmizdir. Bizim beş müqaviləmiz vardır. Əgər bu müqavilənin həyata keçirilməsi iki qurğu ilə olsa, hələ ki, bir qazma qurğumuz vardır, – onda nə qədər gec vaxt keçəcəkdir.

**Ceyms A. Tilli:** Əslində bu problemlərin hamısı qazma qurğusu ilə əlaqədar meydana çıxır. Plana görə iyun-iyulda biz artıq qazma işlərinə başlaya bilərdik. Ancaq Beynəlxalq Əməliyyat Şirkəti və Şimali Abşeron Şirkəti qazma qurğusu ilə işləmək üçün növbədə bizdən əvvəldirlər.

Biz birinci quyunun qazılmasını başa çatdıracağıq, sonra testlər keçirəcəyik və ikinci quyunun yerini müəyyən edəcəyik.

**Heydər Əliyev:** Bu, bizim üçün mühüm bir məsələdir. Əgər siz bu barədə ciddi düşünmürsünüzsə, biz ciddi düşünməliyik. Amma siz də düşünməlisiniz. Çünki bütün quyular təkcə "Dədə Qorqud" yarımdamla və "Şelf-5" qazma qurğularının hesabına qazıla bilməz. "Şelf-5" qurğusu nə vaxt hazır olacaqdır?

**Natiq Əliyev:** 1996-cı ilin oktyabrında hazır olacaqdır.

**Heydər Əliyev:** Onda bizim bütün bu işlərimiz gecikəcəkdir ki.

**Natiq Əliyev:** Cənab Prezident, biz əvvəlcə tutduğumuz plana görə, "Dədə Qorqud", "Azəri", "Çıraq" yataqlarında qazma işlərini qurtarandan sonra, – bu il üç quyu qazılacaqdır, – avqustda "Əşrəfi", "Dan ulduzu" yataqlarına keçiriləcək və yenidən "Azəri" və "Çıraq" yataqlarına qayıdacaqdır. Biz işi elə planlaşdırmışıq ki, "Şelf-5" 1998-ci ilin oktyabrında bərpa edildikdən sonra gəlib "Şahdəniz"də işləyəcəkdir.

Cənab Prezident, Siz düz deyirsiniz, hazırda iki qazma qurğusu bu gün bizim üçün azdır. Biz fikirləşirik ki, "Elf Agiten" [130-131] və "Total" şirkətləri ilə müqavilə bağlandıqdan sonra daha bir qazma qurğusunu bərpa etməliyik. Bu barədə söhbətlər gedir.

**Heydər Əliyev:** Siz çox gec fikirləşirsiniz. Mən hesab edirəm ki, sən burada günahkarsan. Sən bizim neft şirkətinin prezidentisən, gərək sən bu barədə təkliflərini verəsən. Milyonlarla dollar ora-bura xərclənir. Bir, iki, üç qurğunu təcili bərpa etməyə, yaxud da başqa yerdən alıb gətirməyə müəyyən qədər vəsait lazımdır, vəsait də bunlarda vardır. İndi biz bu qədər müqavilə imzalamışıq, gözləyək ki, "Dədə Qorqud" burada qazsın, sonra keçib orda, bundan başqa yerdə qazsın? Onda biz işimizi 15-20 il uzadacağıq? Sən burada günahkarsan. Gərək sən gəlib bu barədə deyəydin. Mən bu məsələni indi özüm üçün aşkar edirəm. Bunlar bağışlasınlar, tək bunlar yox, ümumiyyətlə, birinci müqavilə ilə bağlı neft şirkətləri və başqaları, görünür, bu məsələlər barədə lazımi səviyyədə düşünə bilmirlər. Sənin borcun, vəzifən o idi ki, bu məsələni bizim qarşımızda qaldırasan. Şübhəsiz ki, biz də bunun həll edilməsi yollarını axtarıb tapa bilərdik. Sən bunun yollarını da təklif edə bilərdin. Ona görə də mən bu işdən narazıyam.

Mən bu məsələni respublikanın Baş naziri Artur Rasizadəyə tapşırıram. Biz beş müqavilə imzalamışıq. Həmin müqavilələrin hamısının icra edilməsi, həyata keçirilməsi bu qazma qurğuları ilə bağlıdır. Biz bundan sonra da bir neçə müqavilə imzalayacağıq. Belə təkliflər, layihələr vardır. Ona görə də bu müqavilələrin həyata keçirilməsi proqramı və onların həyata keçirilməsi üçün lazım olan vasitələrin vaxtında hazırlanması lazımdır. Təkcə qazma qurğusu deyil. Başqa texniki vasitələr də lazımdır. Ona görə də mən Baş nazir Artur Rasizadəyə tapşırıram: Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin, "Xəzər" Beynəlxalq Neft Şirkətinin – "Şahdəniz", "Dan ulduzu", – "Əşrəfi", "Lənkərandəniz və "Talışdəniz" müqavilələri ilə əlaqədar yaradılmış konsorsiumların rəhbərlərini sən dəvət etməlisən və onlarla birgə proqram tərtib etməlisiniz. Bu qazma işlərinin və ümumiyyətlə, həmin layihələrin həyata keçirilməsi üçün lazımi texniki vasitələrin haradan, nə cür, hansı vaxtlarda alınıb gətirilməsi, quraşdırılması, yaradılması proqramını müəyyən etməlisiniz. [131-132]

Bizdə bu "Şelf-5"dən savayı başqa qazma qurğuları vardır, yoxsa yox?

**Natiq Əliyev:** Bəli vardır.

**Heydər Əliyev:** Bərpa edib onlardan istifadə etmək olar?

**Natiq Əliyev:** Bəzilərindən istifadə etmək olar. Ancaq bunlara hər qurğu yaramır.

**Heydər Əliyev:** Mən yarayan qurğuları soruşuram.

**Natiq Əliyev:** Bəli "Şelf-3" də bu iş üçün yarayır. Qalanlarının üzərində isə işləyirik.

**Heydər Əliyev:** İşləyirsiniz, amma çox gec işləyirsiniz.

**Natiq Əliyev:** Bunun üçün xeyli vəsait lazımdır. Şirkətlər hələlik bu işə getmirlər. Onlar qazma qurğusunun ardıcıllıqla işləməsinə tərəfdardırlar.

**Heydər Əliyev:** Necə getmirlər, əgər onlar burada iş görmək istəyirlərsə, bunu etməlidirlər.

**Natiq Əliyev:** Cənab Prezident, biz bunların hamısını hesablamışıq. Mövcud iki qazma qurğusu hələlik bu işlər üçün bəs edir.

**Heydər Əliyev:** Axı necə bəs edir? Bunlar qazma aparmalıdırlar, amma gözləyirlər ki, ona iyun ayında qazma qurğusu versinlər, əgər qurğunu buna versələr, onda başqa yerdə iş dayanacaq. Həm də bu şirkət artıq qazmanın yerini müəyyən edib.

**Natiq Əliyev:** Cənab Prezident, onlar qazmanın yerini müəyyən ediblər, amma bu qazma seysmik işlərdən sonra aparılacaqdır. Məsələn, biz bir yerdə qazma işləri görmək istəyirdik, amma seysmik vəziyyətə görə onun yerini dəyişdik. Məsələ belədir ki, quyunu qazmaq, onu yenidən öyrənmək lazımdır. Sonra ikinci quyunun qazılmasına başlanmalıdır.

**Heydər Əliyev:** Mən sənin bu fikirlərinlə razı deyiləm. Çünki "Xəzər" Beynəlxalq Neft Şirkətinin prezidenti deyir ki, birinci quyu 60 günə qazılacaqdır. Ondan sonra 9 ay gözləyəcəkdir ki, ikinci quyunu qazsın. Niyə

gözləyəcəkdir? Deməmk, qazma qurğusu yoxdur. Əgər qazma qurğusu olsaydı, ikinci quyunu da qazar. Mən onun verdiyi məlumatı deyirəm. [132-133]

Sən düz demirsən. Biz buna vaxt itirməyəcəyik. Artıq Baş nazirə bu barədə tapşırıq verdim. Baş nazir bütün bu müqavilələrin icrası ilə məşğul olan şirkətlərin rəhbərləri ilə danışar. Lazımi tədbirlər görmək, işləri sürətləndirmək lazımdır. Yenə də deyirəm, gəlib respublikamızla müqavilə imzalayan şirkət buraya sərmayə qoyur və bu sərmayənin də tezliklə nəticəsini almaq istəyir. Azərbaycan Respublikası da bu müqavilələri imzalayarkən bunların əməli nəticəsini almaq istəyir. Bunların əməli nəticəsinin alınması üçün də işlər sürətlə getməlidir.

Məsələn, cənab prezident Tilli məlumat verdi ki, 2001-ci ildə artıq neft hasil edəcəkdir. Doğrudurmu?

**Ceyms A. Tilli:** Bəli.

**Heydər Əliyev:** Amma bu cür işləsəniz, 2001-ci ildə neft ala bilməyəcəksiniz. 2001-ci ilə nə qalıb? 1997-ci il yarıya çatdı. 1998, 1999, 2000, 2001-ci il. Bir şey qalmayıbdır.

Mən bir daha deyirəm, işləri sürətləndirmək lazımdır. İndiyədək görülən işlərə yüksək qiymət verirəm. "Qarabağ" neft yatağının müştərək işlənməsi ilə əlaqədar respublikamızla əməkdaşlığa qoşulmuş və artıq bizimlə birlikdə işləyən şirkətlərə təşəkkürümü bildirirəm. Amma eyni zamanda, bundan sonra işlərin daha da sürətlə aparılmasını arzu edirəm.

Bir daha qeyd edirəm, 1996-cı il sizin üçün əsasən təşkilati işlərə həsr olunub. Artıq təşkilati işlərin hamısı görülübdür. Ona görə də 1997-1998-ci illərdə əməli nəticələr almaq lazımdır.

Sizin burada gördüyünüz işlərə Azərbaycan Respublikası mütəxəssislərinin və işçi qüvvəsinin cəlb olunması haqqında dediyiniz rəqəmlər müsbət fikir doğurur. Bu fikri mən bir daha təsdiqləyirəm ki, bu müqavilələrin icrasında xarici ölkələrin şirkətlərindən gələn yüksək səviyyəli mütəxəssislər və menecerlərdən, yaxud başqa işçilərdən əlavə, qalan bütün işlərin hamısına Azərbaycanın vətəndaşları cəlb olunmalıdır. Siz dediniz ki, bu işlərdə çalışanların 79 faizi Azərbaycan vətəndaşlarıdır, düzdürmü?

**Ceyms A. Tilli:** Bəli.

**Heydər Əliyev:** Bu 79 faiz yaxşıdır, amma 85 faiz olsa daha yaxşıdır. [133-134]

Mən bəzən eşidirəm ki, guya bu şirkətlər xarici ölkələrdən hətta ayrı-ayrı fəhlələr də gətirmək istəyirlər. Mən əvvəlcədən xəbərdarlıq edirəm və Azərbaycan Dövlət Neft Şirkətinin rəhbərinə göstəriş verirəm, nəzarət etsin ki, biz bunlarla razı ola bilmərik. Bilirsiniz ki, Azərbaycanın neftçiləri çox yüksək ixtisasa malikdirlər. Neft sahəsində Azərbaycanın çox dəyərli alimləri, mühəndisləri, yüksək ixtisaslı fəhlələri vardır. Bunlar hamısı mövcuddur. Neft müqavilələri imzaladığımız yataqların hamısını Azərbaycanın mütəxəssisləri, alimləri kəşf ediblər. Azərbaycan artıq 50 ildən çoxdur ki, dənizin dərin yerlərindən neft hasil edir. Azərbaycanın neftçiləri nəinki öz ölkəmizdə, vaxtilə gedib Vyetnamda da dənizdə neft çıxarmaqla məşğul olublar. Bilirsiniz, Vyetnamın cənubunda dənizdə Vunqtau deyilən bir yer vardır. Orada neftin kəşf olunmasına və çıxarılmasına ilk dəfə Azərbaycan neftçiləri başlayıblar. Mən 1983-cü ildə Vyetnama, Azərbaycan neftçilərinin işlədiyi həmin yerə də getmişəm və bunları görmüşəm. İndi Vyetnam oradan çox böyük miqdarda neft hasil edir.

Azərbaycan neftçiləri Kubada da, Hindistanda da, Rumıniyada da neft axtarmaqla çox məşğul olublar. Ona görə də Azərbaycan neftçiləri çox yüksək ixtisasa malik olan neftçilərdir. Hesab edirəm ki, Azərbaycanın həm mühəndisləri, həm də texnikləri, fəhlələri bu işlərə geniş cəlb olunmalıdırlar.

Məsələn, "Dədə Qorqud" yarımdalma qazma qurğusunu ziyarət edəndə gördüm ki, orada Qərb ölkələrindən gəlmiş yüksək ixtisaslı mütəxəssislərlə Azərbaycan Respublikasının yüksək ixtisaslı mütəxəssisləri bir yerdə işləyirlər və çox da yaxşı işləyirlər. Ona görə də rica edirəm ki, mənim bu fikrimi bütün gələcək işlərdə, ştatların təşkil olunmasında da nəzərə alasınız. Azərbaycan Dövlət Neft Şirkətinə və onun prezidentinə tapşırıram ki, bu məsələlərə bizim tərəfimizdən nəzarəti təmin etsin.

Biz imzaladığımız bu müqavilələrin hamısının müvəffəqiyyətlə həyata keçirilməsi üçün çalışırıq və bundan sonra da çalışacağıq, mən məmnunam, – Siz bəyan etdiniz, – burada Sizin işiniz üçün yaranmış şəraitdən razısınız. Biz xaricdən gələn şirkətlər, mütəxəssislər üçün bundan sonra da yaxşı şərait yaratmaqdan ötrü lazımi tədbirlər görəcəyik. [134-135]

Dünyanın böyük neft şirkətləri ilə bizim əməkdaşlığımız uzunmüddətli xarakter daşıyır. İmzaladığımız müqavilələrin hamısının müddəti 30 ildir. Amma güman edirəm ki, iş nəticə verəndən sonra 30 ilin üstünə daha da çox illər gələcəkdir.

Cənab prezident Tilli, əgər hesab edirsiniz ki, 30 ildən sonra Sizin 82 yaşınız olacaqdır, mənim yaşım 100-dən çox olacaqdır. Amma elə işləməliyik ki, bizdən sonra gələnlər bizdən də yaxşı işləsinlər. Biz burada Azərbaycan üçün və gəlib respublikamızda iş görməyə başlamış dünyanın iri neft şirkətləri üçün böyük və yaxşı gələcəyi olan yol açırıq. Bu, bizim şərəfli vəzifəmizdir ki, biz bu yolu açırıq. Yəni biz ilk yol açanlarıq. Amma bu yolu elə açmalıyıq ki, bizdən sonra gələnlər çətinlik çəkməsinlər, bu yolla rahatlıqla getsinlər.

İndi bu işlərin hamısının təməli, əsası qoyulur. Biz çalışmalıyıq ki, bu təməl, əsas, bünövrə möhkəm olsun. Onda gələcək işlər də etibarlı olacaqdır. Mən əminəm ki, biz belə əməkdaşlıq edə biləcəyik.

Mən arzu edirəm ki, 1997-ci ildə nəzərdə tutduğunuz proqramı vaxtında yerinə yetirə biləsiniz, 1998-ci il üçün olan proqramın üzərində işləyəsiniz ki, o proqramı daha da genişləndirərsiniz və burada Sizin bəyan

etdiyiniz kimi, 2001-ci ildə bu şirkət ilk neft hasil edə bilsin. Mən bu ümidlərlə də sizin hamınıza cansağlığı və uğurlar arzulayıram. Sağ olun. [135-136]

**AZƏRBAYCANDA RUSİYA FEDERASİYASININ MƏDƏNİYYƏT GÜNLƏRİNDƏ VAXTANQOV ADINA MOSKVA AKADEMİK TEATRININ SƏMƏD VURĞUN ADINA AZƏRBAYCAN DÖVLƏT RUS DRAM TEATRINDA D. KİLTİNİN "ƏZİZ YALANÇI" TAMAŞASI QURTARDIQDAN SONRA MOSKVALI QONAQLARLA SÖHBƏTDƏN**

*5 aprel 1997-ci il*

Mən şadam ki, bizdə Rusiya mədəniyyəti günləri keçirilir. Həqiqətən, 25 il əvvəl burada ilk dəfə olaraq geniş miqyasda Rusiya mədəniyyəti günləri keçirildi və bu tədbir çox yadda qalan tədbir oldu. Sonrakı illərdə də teatrların, konsert qruplarının, ayrı-ayrı kollektivlərin Azərbaycanda vaxtaşırı qastrolları olmuş, kino festivalları keçirilmişdir. Amma 1989-1990-cı illərdən başlayaraq əlaqələrimiz zəiflədi. Son iki-üç ildə biz bu əlaqələri bərpa etməyə, canlandırmağa və itirilmiş nə varsa, onların yerini doldurmağa çalışırıq. Bizə elə gəlir ki, bunu etmək mümkün olacaqdır.

Sabah mədəniyyət günləri başa çatır, yekun konserti olacaq. Buraya gəldiyinizə görə Sizə təşəkkür edirəm. Bu günlərdə təkcə Bakıda deyil, Rusiya incəsənət xadimlərinin getdikləri bütün şəhərlərdə hər şey əla keçmişdir. Bu da sübut edir ki, əlaqələrimizi kəsmək olmaz. Münasibətlərimizin müəyyən dərəcədə zəiflədiyi ötən bu illərdə rus və Azərbaycan xalqları arasında uzun illərdən, onilliklərdən və əsrlərdən bəri adamlarda yaranmış dostluq və hörmət hisslərini məhv etmək olmaz. Azərbaycanlılarda bu hisslər Rusiyaya, rus xalqına, rus adamına xoş, dostluq, qardaşlıq münasibətləridir.

Bugünkü tamaşa iki aktyorun qavrayış üçün heç də asan olmayan bir tamaşasıdır bu, qeyri-adi tamaşadır. Bir fikir verəy[136-137]diniz, salondakılar necə diqqətlə tamaşa edir və sizi necə səmimi qarşılayırdılar. Bu da təbiidir. Bu alqışlar sizin şəxsiyyətinizə aiddir. Sizinlə, belə görkəmli incəsənət ustaları ilə görüş böyük fərəhdir. Sizi teatrdan, kinodan tanıyırlar. Sizi bir il deyil, on illərdir sevirlər. Bu təbiidir. Belə görüş sizin şəxsiyyətinizə, istedad və sənətinizə dəlalət edir. Lakin bununla yanaşı, bu alqışlar rus mədəniyyətinə, Rusiyaya da ünvanlanmışdır. Çox sağ olun. [137-138]

## AZƏRBAYCANDA RUSİYA FEDERASİYASI MƏDƏNİYYƏT GÜNLƏRİNİN BAĞLANMASI MƏRASİMİNDƏN SONRA RUSİYA ARTİSTLƏRİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Respublika Sarayı*

*6 aprel 1997-ci il*

Çox maraqlı yekun konserti proqramı ilə çıxış etdiyinizə görə sizə ürəkdən təşəkkür edirəm. Hesab edirəm ki, sizin çıxışlarınızın qızğın alqışlarla qarşılanması rus mədəniyyətinə, Rusiyaya, rus xalqına Azərbaycan xalqının bəslədiyi hisslərin parlaq sübutudur. Siz yüksək incəsənət, Rusiyanın mədəniyyətini nümayiş etdirdiniz. Bugünkü yekun konserti dərin təəssürat buraxdı. Azərbaycan tamaşaçısı sizdən ötrü darıxmışdı, siz xalqımıza çox böyük zövq verdiniz. Mən sizlərdən çoxunuzu şəxsən tanıyıram və bu görüşə gəldiyiniz üçün, burada çıxış etdiyiniz üçün, Azərbaycan və rus xalqları arasında, Azərbaycan ilə Rusiya arasında dostluq əlaqəsinin daha da möhkəmlənməsinə çox böyük töhfə verdiyiniz üçün sizə dərin minnətdarlığımı bildirməyimə şadam.

Sağ olun. [138-139]

## YAPONİYANIN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİNİN ETİMADNAMƏSİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ ÇIXIŞ

*Prezident iqamətgahı*

*6 aprel 1997-ci il*

Yaponiya ilə diplomatik əlaqələrimiz yaranandan sonra ölkələrimiz arasında iqtisadiyyat sahəsində xeyli nailiyyət əldə edilmişdir. Yaponiya nümayəndələri və şirkətləri Azərbaycanla iqtisadi əlaqələrin inkişafına xüsusi maraq göstərir və bu əlaqələrin möhkəmləndirilməsi üçün böyük imkanlar vardır. Dünyanın böyük və iqtisadi cəhətdən inkişaf etmiş dövlətlərindən olan Yaponiyanın Qafqaza, xüsusən Azərbaycana olan marağı bizi çox sevindirir. Son illərdə Yaponiyanın bir neçə nümayəndə heyətinin Azərbaycana gəlişi, ölkəmizin müvafiq orqanları ilə danışıqlar aparması, mənimlə keçirilən şəxsi görüşləri ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişaf etməsi üçün əsas yaratmışdır. İndiyədək aparılan görüşlər və danışıqlar onu göstərir ki, bizim iqtisadi əlaqələri inkişaf etdirmək üçün böyük imkanlarımız vardır. Yaponiyanın böyük "İtoçu" şirkəti Azərbaycanın neft və qaz yataqlarının müştərək istifadə olunması üçün yaradılmış iki beynəlxalq konsorsiumun üzvüdür. Bu şirkətlə yaranmış iqtisadi əməkdaşlıq Azərbaycanın iqtisadiyyatının başqa sahələrinə və Yaponiyanın digər şirkətlərinə də yayıla bilər.

Ölkələrimiz arasında əlaqələrin inkişaf etməsinin böyük perspektivləri göz qabağındadır. Bu perspektivlərin gerçəkləşdirilməsi həm Yaponiya, həm də Azərbaycan üçün faydalıdır. [139-140]

Cənab səfir, ümidvar olduğumu bildirirəm ki, Siz Azərbaycanda bu vəzifəyə başlayarkən bütün bu məsələləri daim diqqət mərkəzində saxlayacaq və Yaponiya-Azərbaycan əlaqələrinin inkişaf etməsinə xüsusi diqqət verəcəksiniz. Əmin ola bilərsiniz ki, Sizə Yaponiyanın Azərbaycandakı səfiri kimi burada öz fəaliyyətinizi həyata keçirmək üçün bütün imkanlar yaradılacaq, o cümlədən Azərbaycanın hökuməti və müvafiq orqanları səfirliklə sıx əməkdaşlıq edəcəklər.

Sizi bir daha təbrik edirəm, işlərinizdə uğurlar arzulayıram. [140-141]

## YAPONİYANIN İŞGÜZAR DAİRƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*Prezident iqamətgahı*

*7 aprel 1997-ci il*

Hörmətli cənablar və xanımlar!

Mən sizi Azərbaycanda ürəkdən salamlayır və Yaponiyadan Azərbaycana geniş tərkibdə nümayəndə heyətinin gəlməsi münasibətilə məmnun olduğumu bildirirəm.

Bir neçə dəqiqə bundan öncə biz Yaponiyanın Azərbaycana təyin olunmuş yeni səfiri ilə görüşdük və mən səfirin etimadnaməsini qəbul etdim. Bilirsiniz ki, Yaponiya ilə Azərbaycan arasında diplomatik əlaqələr Azərbaycan Respublikası dövlət müstəqilliyi əldə edəndən sonra, 1992-ci ildə yaranıbdır. Biz Azərbaycanın dövlət müstəqilliyini dərhal tanıdığına görə Yaponiya hökumətinə minnətdarıq və ötən illərdə Yaponiya ilə Azərbaycan arasında yaranmış əlaqələri də müsbət qiymətləndiririk.

Mən məmnuniyyətlə qeyd etmək istəyirəm ki, son illərdə Yaponiya ilə Azərbaycan arasında əlaqələrin genişlənməsi sahəsində həm Yaponiya, həm də Azərbaycan tərəfindən ciddi addımlar atılmışdır. Biz belə hesab edirik ki, görülən bu işlər nəticəsində Yaponiyada Azərbaycan haqqında, respublikamızın iqtisadi vəziyyəti və imkanları haqqında ətraflı təəssürat və dolğun fikir yaranıbdır. Ona görə də mən belə düşünürəm ki, Yaponiya-Azərbaycan əlaqələrinin inkişaf etməsinin artıq yeni mərhələsi başlayıbdır. Biz öz tərəfimizdən Yaponiya ilə əlaqələrə xüsusi əhəmiyyət veririk. Yaponiyanı dünyanın böyük, iqtisadi cəhətdən inkişaf etmiş dövlətlərindən biri kimi tanıyırıq. İkinci dünya müharibəsindən sonra Yaponiyanın iqtisadiyyatda əldə etdiyi yüksək nailiyyətlər bütün dünyanı hey[141-142]ran etdiyi kimi, Azərbaycanı da heyran edibdir. Ona görə də Yaponiya ilə əməkdaşlıq bizim üçün çox əhəmiyyətlidir.

Mən qeyd etdim, bir daha təkrar etmək istəyirəm ki, son illərdə, xüsusən 1995-ci ilin ikinci yarısında – 1996-cı ildə Yaponiyadan Azərbaycana bir çox nümayəndə heyətləri gəlibdir. Bir neçə şirkətin nümayəndələri Azərbaycanın həm dövlət strukturları, həm də ayrı-ayrı müəssisələri, sənaye birlikləri ilə danışıqlar aparıblar və bu danışıqlar indi də davam edir. Bunların əməli nəticəsi olaraq Yaponiyanın böyük şirkətlərindən biri – "İtoçu" şirkəti Azərbaycanın neft yataqlarının müştərək işləməsi ilə əlaqədar yaradılmış iki beynəlxalq konsorsiumun üzvüdür. "İtoçu" şirkəti neft sənayesi ilə yanaşı, Azərbaycan iqtisadiyyatının başqa sahələrinə də maraq göstərmişdir. Bundan əlavə, "Niçiment" şirkəti bizim kimya kompleksi ilə uzun müddət danışıqlar aparır. "Mitsui", "Mitsubisi" şirkətlərinin nümayəndələri də Azərbaycanda olublar və bizimlə danışıqlar aparıblar.

Biz burada Yaponiyanın həm Ticarət Nazirliyinin, Ticarət Palatasının, həm də Xarici İşlər Nazirliyinin, xarici ticarətlə əlaqədar sahələrinin nümayəndələri ilə görüşmüşük. Bizə məlumat verilmişdir ki, Yaponiya şirkətinin Azərbaycanda işləməsi üçün onlara 100 milyon dollar məbləğində sığorta krediti verilməsi haqqında qərar qəbul olunubdur. Mən belə düşünürəm ki, bunlar hamısı hazırlıq işləridir. İndi hazırlıq mərhələsindən əməli işlər mərhələsinə keçmək lazımdır.

Mən hörmətli səfirlə danışarkən dedim: ümumiyyətlə, dünyada belə bir fikir formalaşıbdır ki, yaponlar uzun müddət öyrənməklə məşğul olurlar və xarici ölkələrdəki işlərinə çox ehtiyatla yanaşırlar. Ancaq bu uzunmüddətli öyrənmədən sonra dərhal işə başlayarkən onlar çox sürətlə işləyirlər. Bu fikrin nə qədər doğru olub-olmadığını siz deyə bilərsiniz. Mən bunları eşitdiyimə görə deyirəm. Əgər belədirsə, bu, pis hal deyil. Demək, artıq siz Azərbaycanı sağdan-sola, soldan-sağa yaxşı-yaxşı öyrənmisiniz və Azərbaycanın imkanlarını bilirsiniz. Ona görə də əməli işə başlamaq lazımdır.

Mən bir məsələni qeyd etmək istəyirəm ki, xarici sərmayə qoyulması üçün Azərbaycanda yaxşı imkanlar yaranıbdır, Azərbaycanın yaxşı iqtisadi potensialı var. Biz ölkəmizi xarici [142-143] sərmayələr üçün açmışıq, bazar iqtisadiyyatı yolu ilə iqtisadiyyatımızı tənzimləyirik. Ona görə də Azərbaycanda iş görmək üçün, buraya sərmayə qoymaq üçün, yenə də deyirəm, bütün imkanlar yaranıbdır. Lazım olan qanunlar da qəbul edilib və qəbul edilməyənlər də ardıcıl surətdə qəbul olunacaqdır.

Azərbaycan bu bölgədə, Qafqazda Yaponiyanın çox etibarlı və faydalı tərəfdaşı ola bilər. Ona görə də mən sizi Azərbaycanla sıx əməkdaşlığa dəvət edirəm. Sizin belə geniş tərkibdə nümayəndə heyətinizin Azərbaycana gəlməsini Yaponiyanın Azərbaycana olan marağının nümayişi kimi qiymətləndirirəm. Təşəkkür edirəm. [143-144]

## TİBB ELMLƏRİ DOKTORU, ƏMƏKDAR ELM XADİMİ, DÖVLƏT MÜKAFATI LAUREATI TAMERLAN ƏZİZ OĞLU ƏLİYEVİN MATƏM MƏRASİMİNDƏ ÇIXIŞ

*Şəhriyar adına Mədəniyyət Mərkəzi*

*7 aprel 1997-ci il*

Hörmətli dostlar!

Tamerlanın vəfatı bizim ailəmiz üçün ağır, böyük itkidir, şəxsən mənim üçün ağır itkidir. Eyni zamanda Tamerlanın vəfatı Azərbaycanın tibb elmi üçün, Azərbaycanın elmi, ali təhsili üçün böyük itkidir.

Tamerlan uzun illər mənim yaxın dostum olmuşdur. Əlli il bundan öncə mən onunla tanış olmuşam, sonra qohum olmuşuq. Amma bu illər ərzində o, mənim yaxın dostum olub, çox sədaqətli dostum olubdur. Ona görə belə bir dostu, belə bir yaxın adamı itirmək çox ağırdır.

Əlli il müddətində mən Tamerlanı yaxşı tanımışam, onun həyatını, fəaliyyətini həmişə müşahidə etmişəm. Burada onun haqqında deyilən sözlər tam həqiqətdir. O özü çox istedadlı bir insan, fitri istedada malik adam olubdur. Bununla yanaşı çox fədakar, əməksevər, işgüzar adam olubdur. Seçdiyi peşəni daim sevib və bu sevgi ilə, məhəbbətlə peşəsinə, insanlara xidmət edib və cəmiyyətdə özünə layiq yer tutubdur.

Tibb, səhiyyə hər bir insan üçün çox vacib olan sahədir. Özünü tibb, səhiyyə işinə, insanların sağlamlığının keşiyində durmaq işinə həsr edən adamlar həqiqətən çox yüksək hörmət və ehtirama layiq olan insanlardır. Azərbaycanda belə insanların içərisində Tamerlan Əliyevin xüsusi yeri olubdur. O, doğrudan da Azərbaycanda tibb elminin inkişafına öz töhfələrini verib, xidmətlərini göstərib, minlərlə, on minlərlə insanları [144-145] müalicə edib, onların ömrünü uzadıbdır. Ancaq indi özü həyatdan gedibdir.

Tamerlan, gözəl xüsusiyyətlərə malik bir insan, yüksək mədəniyyətli, sözün əsl mənasında ziyalı, deyə bilərəm ki, Azərbaycan ziyalılarının görkəmli nümayəndəsi, bir Azərbaycan ziyalısı kimi əsl nümunə olmuşdur. O, həddindən artıq təvazökar bir adam idi. Bəlkə do onun təvazökarlığı bəzən ifrat dərəcəyə gəlib çatırdı, o qədər təvazökar idi. Sadə, çox sadə bir insan idi, ancaq çox zəkalı, çox mədəni, çox xeyirxah, insanpərvər, sülhsevər insan idi. O, daim insanlar arasında xoş münasibətlər yaranmasına çalışırdı, daim xeyirxahlıq edirdi, insanları bir-birinə yaxınlaşdırmağa çalışırdı.

Dediyim kimi, işinə çox sədaqətli idi, öz işinə çox məsuliyyətlə yanaşırdı. Mənim xatirimdədir, gənc vaxtlarında da müəyyən bir gün işə gecikmiş olsun, yaxud üzərinə düşən vəzifəni yerinə yetirməmiş olsun və ya işində bir səhlənkarlığa əl vermiş olsun – belə şeylər mümkün deyildi. O qədər məsuliyyətli idi ki. öz işinə, peşəsinə o qədər məsuliyyətlə yanaşırdı ki, bəzən bu. insanları təəccübləndirirdi. Onu fərqləndirən xüsusiyyətlərdən biri də ondan ibarət idi ki, çox təmənnasız adam idi. Burada artıq deyildi, məktəbdə də. ali təhsildə də fərqlənibdir, fərqlənmə diplomları, yüksək adlar alıb, çox elmi əsərlər yazıb, böyük xidmətlər göstəribdir.

Ancaq heç bir vəzifədə, heç bir mənsəbdə gözü yox idi. Nəinki gözü yox idi. hətta belə təkliflərdən dəfələrlə imtina etmişdir. Bu, mənim xatirimədir. O, ancaq öz sənəti sahəsinə çalışmaq istəyirik. Şübhəsiz ki, həm Tibb İnstitutunun, universitetinin, həm də Azərbaycanın tibb ictimaiyyətinin, elminin həyatında fəal iştirak edirdi. Ancaq bununla yanaşı, o heç vaxt bu fəaliyyətini hansısa bir vəzifə, mənsəb tutmaq naminə, yaxud o arzularına etmirdi. Bir də qeyd edirəm, ona bir neçə dəfə həm institut çərçivəsində, həm do səhiyyə çərçivəsində vəzifələr təklif olunmuş, hamısından imtina etmişdi. Ona görə də ki. bu istər bacara bilməzdi. Ona görə ki, öz işini, sənətini özünün dərk etdiyi çərçivədə o qədər sevir, o qədər qiymətli və vacib hesab edirdi ki, ondan başqa çərçivəyə keçmək istəmirdi. Alicənablığı. yüksək mədəniyyəti, ziyalılığı, fədakarlığı, sadəliyi, insanpərvərliyi ilə həqiqətən o, atasının – [145-146] mərhum Əziz Əliyevin xüsusiyyətlərinin əksəriyyətini özündə əks etdirirdi. Bu gün Tamerlanı son mənzilə yola salarkən demək olar ki, o, atası Əziz Əliyevin layiqli oğlu olmuşdur.

Mənim üçün isə onun bütün bu xüsusiyyətlərindən başqa ən dəyərlisi dostluğa sədaqətli olması idi. Sədaqətli insan idi. Bilirsiniz ki, insanlar cürbəcür vaxtlarda sınanırlar, hətta yaxın qohumlar, dostlar da sınanırlar. Mənim həyatımda da əlli il müddətində bu sınaq dövrləri olubdur. Tamerlan bütün mərhələlərdə mərd, sədaqətli dost olubdur. Hesab edirəm ki, insan mənəviyyatının ən yüksək keyfiyyəti, ən yüksək göstəricisi səmimilikdir, sədaqətlilikdir. Tamerlan bu keyfiyyətlərə malik bir adam idi. Hətta deyə bilərəm ki, bu keyfiyyətlərə görə yüksək nümunə idi. Ona görə də bu gün mənim üçün və Tamerlanın bütün ailə üzvləri üçün, bizim qohum-əqrəba üçün ağır gündür. Bu, bizim matəmimizdir.

Ancaq eyni zamanda təsəlli verən odur ki, Tamerlan şərəfli həyat yaşayıbdır, öz işi ilə xalqına, millətinə, respublikasına göstərdiyi xidməti ilə, qazandığı yüksək adı ilə bizim qəlbimizdə və tələbələrinin, onu tanıyanların, onunla bir yerdə işləyənlərin qəlbində böyük iz buraxıbdır. Ona görə də Tamerlanın xatirəsi heç

vaxt unudulmayacaq, şəxsən mənim qəlbimdə daim yaşayacaqdır. Güman edirəm ki, onu yaxından tanıyanların, onunla təmasda olanların da qəlbində daim yaşayacaqdır.

Deyə bilərəm ki, bu, mənim həyatımda ən ağır itkilərdən biridir. Mən dostum Tamerlanın müqəddəs cənazəsi qarşısında baş əyirəm. Allahdan ona rəhmət diləyirəm. [146-147]

**TÜRK DÖVLƏT VƏ TOPLULUQLARININ 5-ci DOSTLUQ, QARDAŞLIQ VƏ İŞBİRLİYİ QURULTAYININ İŞTİRAKÇILARINA**

Möhtərəm qurultay iştirakçıları!

Türk dövlət və topluluqlarının İstanbulda növbəti beynəlxalq toplantısını ürəkdən salamlayır, ən səmimi arzularımı yetirirəm.

Eyni etnik kökə, ortaq tarixi keçmişə və milli mədəni ənənələrə malik türk xalqları tarix səhnəsinə çıxdığı gündən yüz illər boyu bəşəri mədəniyyətlərin şərqdən qərbə, qərbdən şərqə daşıyıcısı kimi dünya tarixində misilsiz rol oynamış, bəşər sivilizasiyasına silinməz, şərəfli səhifələr həkk etmişlər.

Tarixən türk dövlətləri xalqlarımızın mentalitetinə uyğun olaraq haqq, ədalət və indiki anlarda demokratiya kimi yüksək bəşəri təməllər üzərində bərqərar olmuşdur. Hazırda – XXI yüzilliyin astanasında dünyanın siyasi xəritəsində özünə layiqli yer tutan, zəngin və mütərəqqi dövlətçilik ənənələrinə əsaslanan qardaş cümhuriyyətlərimiz tarixi-milli haqqına qovuşaraq müstəqillik yolu ilə inamlı addımlar atmaqdadırlar. Bu böyük nailiyyəti qoruyub saxlamaq, dövlət müstəqilliyimizi daha da möhkəmləndirmək, yeni dünya nizamına uyğun beynəlxalq əlaqələr qurmaq, çağdaş siyasi gerçəkliyi və gələcək qarşısında tarixi məsuliyyəti aydın dərk etmək günümüzün ən başlıca məsələlərindəndir. Gələcək uğurlarımız üçün orta milli, mədəni və mənəvi dəyərlərimizin bizə bəxş etdiyi imkanları dövlətlərimizin ümumi mənafe işinə səfərbər etməli, qarşılıqlı və bərabərhüquqlu münasibətlərin etibarlı təməllər üzərində inkişafına nail olmalıyıq. Müstəqil Azərbaycan Respublikası beynəlxalq aləmlə, o cümlədən qardaş türk cümhuriyyətləri ilə əlaqələrində bu mövqedən çıxış edir və daim həmin prinsiplərə sadiq qalacaqdır. Əminəm ki, türk dünyasının bugünkü nəsilləri, fikir adamları, dövlət və siyasət xadimləri öz şərəfli tarixi keçmişinə layiq olduğunu sübut edərək iş[147-148]də, əməldə, fikirdə birlik kimi möhtəşəm ümumtale işimizin gerçəkləşməsi naminə var qüvvə ilə çalışacaqlar.

Əziz dostlar!

Qəlblərinizin tarixi məsuliyyət və iftixar duyğuları ilə döyündüyü bu xoşməramlı anlarda özümü sizlərlə bir arada hiss edir, qardaş xalqlarımızın aydın sabahı naminə xeyirxah fəaliyyətinizdə böyük uğurlar arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 9 aprel 1997-ci il* [148-149]

## ABŞ-ın "AMOKO" ŞİRKƏTİNİN BAKIDA YENİ OFİSİNİN AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ

*11 aprel 1997-ci il*

Hörmətli cənab Riçard Fleri!
Hörmətli cənab Don Steysi!
Hörmətli səfir Riçard Kozlariç!
Hörmətli qonaqlar, xanımlar və cənablar!

Azərbaycanın həyatında bu gün yeni bir əlamətdar hadisə baş verir: Amerika Birləşmiş Ştatlarının böyük neft şirkəti olan "AMOKO"-nun Azərbaycanda, Bakıda daimi ofisi açılır. "AMOKO"-nun Bakıda ofisi çoxdan açılıbdır, bu ofis indi yeni binaya keçir və şirkət burada öz işini daha da yaxşı qurmağa çalışır.

"AMOKO" Azərbaycanın neft yataqlarından müştərək istifadə olunması üçün respublikamıza gəlmiş ilk xarici şirkətlərdən biridir. "AMOKO" şirkəti 1994-cü ilin sentyabrında Azərbaycanda imzalanmış və "Əsrin müqaviləsi" adlanan ilk müqavilənin hazırlanmasında çox xidmətlər göstərmişdir və bu müqavilənin həyata keçirilməsində aparıcı şirkətlərdən biridir. "AMOKO" şirkəti 1996-cı ildə respublikamızda imzalanmış başqa bir müqavilənin də iştirakçısıdır. Mən bilirəm ki, cənab Steysinin gələcək işlər haqqında da çox böyük planları vardır. Güman edirəm ki, bu planların həyata keçirilməsi mümkün olacaqdır. Hər halda biz uzunmüddətli əməkdaşlığa başlamışıq. İlk müqavilə 30 il müddətinə imzalanıbdır. Həmin müqavilə imzalananda da demişəm və bu gün daha qətiyyətlə deyirəm ki, bu 30 ilin üstünə bir neçə onilliklər də gəlmək lazımdır. Yəni XXI əsr Amerika Birləşmiş Ştatlarının şirkətləri ilə və xüsusən "AMOKO" şirkəti ilə Azərbaycan arasında əməkdaşlıq əsri olacaqdır. [149-150]

Güman edirəm, bilirsiniz, mən də bilirəm – aparılan qazma işləri, alınan nəticələr onu göstərir ki, biz müqavilədə nəzərdə tutulmuş göstəricilərdən daha da yüksək səviyyələrə gəlib çata biləcəyik. Yəni bizim əməkdaşlığımız çox əsaslı və etibarlıdır. İndiyə qədər görülən işlər bu nəticəyə gətirir ki, biz burada həqiqətən böyük neft sahibi olacağıq. Ona görə də əməkdaşlığımız uzunmüddətli olacaqdır.

Mən bütün bu işlərdə "AMOKO" şirkətinin xidmətlərini xüsusi qeyd edirəm, o cümlədən cənab Don Steysinin Azərbaycanla qurduğu əlaqələrdə səmimi, çox fədakar olduğunu xüsusi qeyd edirəm. Belə münasibətlər məni çox sevindirir. Azərbaycanın prezidenti kimi mən yaratdığımız bütün əlaqələrin, xüsusən ABŞ şirkətləri ilə və ümumiyyətlə, Amerika Birləşmiş Ştatları ilə yaratdığımız əlaqələrin daha da genişlənməsini və səmimi olmasını istəyirik.

"AMOKO" şirkəti ilə bizim yaratdığımız əlaqələr, cənab Don Steysi ilə olan əlaqələrimiz məhz bu sahədə nümunədir. Ona görə də bu gün mən bu dəvəti məmnuniyyətlə qəbul edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu binada sizin, "AMOKO" şirkətinin Azərbaycanda olan nümayəndələrinin işi daha da müvəffəqiyyətli olacaqdır və daha da sürətlə gedəcəkdir. Biz isə indiyədək olduğu kimi, bundan sonra da əməkdaşlıq edəcəyik və "AMOKO" şirkətinin burada fəaliyyət göstərməsi üçün lazımi imkanları yaradacağıq.

Mən sizi bir daha təbrik edirəm, bu ofisdə sizə uzun ömür arzulayıram. Bütün işlərinizdə sizə uğurlar arzulayıram. Arzu edirəm ki, "AMOKO" şirkəti Amerika Birləşmiş Ştatlarının ən böyük şirkətləri səviyyəsinə gəlib çata bilsin. Mən buna kömək edəcəyəm. Sizi təbrik edirəm. [150-151]

## TÜRKİYƏNİN TANINMIŞ MÜĞƏNNİSİ ƏBRU GÜNDƏŞİN KONSERTİNDƏN SONRA AİLƏSİ İLƏ BİRLİKDƏ ONUNLA SÖHBƏTDƏN

*Respublika Sarayı*

*13 aprel 1997-ci il*

Çox gözəl konsert verdiniz, mən sevindim və konsertinizi bəyəndim. Gördünüz ki, salondakılar da çox bəyəndilər.

**Əbru Gündəş:** Sevil xanım öz mahnısının ifasını bəyəndimi?

**Sevil Əliyeva:** Bəli, çox sağ olun, bəyəndim.

**Heydər Əliyev:** Sevil xanım da, mən də bəyəndim. Siz bu mahnını çox gözəl ifa etdiniz. Konsert bütünlüklə çox gözəl idi. Sizin orkestriniz də çox gözəldir. Azərbaycana ilk dəfədir gəlirsiniz?

**Əbru Gündəş:** Bəli, Azərbaycana ilk dəfədir gəlirəm.

**Heydər Əliyev:** Sizi Azərbaycanda görməkdən çox məmnunam. Təşəkkür edirəm ki, gəldiniz, bizim insanlarla görüşdünüz, onları öz sənətinizlə, gözəl şərqilərinizlə sevindirdiniz.

**Əbru Gündəş:** Cənab prezident, Sizə bir daha dərin minnətdarlığımı bildirirəm. Azərbaycana gəlmək, Sizinlə görüşmək mənim üçün şərəfdir və çox gözəldir. İnşallah, təkrar qonaq gələrəm.

**Heydər Əliyev:** Ürəyiniz istədiyi vaxt gəlin.

**Əbru Gündəş:** Sağ olun, təşəkkür edirəm. [151-152]

## MƏŞHUR HEYKƏLTƏRAŞ, XALQ RƏSSAMI ÖMƏR ELDAROVUN GÖRKƏMLİ OFTALMOLOQ, AKADEMİK ZƏRİFƏ ƏLİYEVANIN XATİRƏSİNƏ HƏSR ETDİYİ "ELEGİYA" ƏSƏRİNİN – MƏRMƏR ABİDƏNİN VƏ BU ABİDƏDƏN BƏHS EDƏN ALBOMUN TƏQDİMAT MƏRASİMİNDƏ ÇIXIŞ

*Bakı İncəsənət Mərkəzi*

*15 aprel 1997-ci il*

Hörmətli dostlar!

Bu gün bizim üçün əziz, eyni zamanda kədərli gündür. Əzizdir o mənada ki, Zərifə xanımın xatirə günüdür. Kədərlidir o mənada ki, Zərifə xanım 12 ildir bizdən ayrılıbdır. Ancaq bu hadisə bu gün bizim buraya toplanmağımızda bir məna daşımır. Ailəmiz üçün bir xatirə günü olaraq biz bu günü həmişə yad edirik. Eyni zamanda, bu gün Zərifə xanımın surətini əks etdirən gözəl bir incəsənət, heykəltəraşlıq əsəri nümayiş etdirilir. Ona görə də bu, bizim respublikamızın mədəniyyətində, heykəltəraşlıq, incəsənət sahəsində yeni bir əsərin meydana çıxmasını nümayiş etdirir.

Ola bilər, mənim fikirlərim subyektiv olsun. Ancaq mən həmişə düşündüyümü demişəm. Ömər Eldarovun yaratdığı heykəl – Zərifə xanımın surətini əks etdirən heykəl həqiqətən böyük, gözəl bir əsərdir. Ömər Eldarov Azərbaycan mədəniyyətinin inkişafında misilsiz xidmətlər göstərmişdir. Mən Ömər Eldarovu çox illərdir ki, yaxından tanıyıram. Onun əsərlərinin demək olar ki, hamısı ilə tanışam. Hələ on, iyirmi il bundan əvvəl mən Ömər Eldarovu Azərbaycan mədəniyyətinin, incəsənətinin ən görkəmli simalarından biri hesab etmişəm. İndiyədək onun heykəltəraşlıq sahəsindəki xidmətləri bu [152-153] fikri ardıcıl olaraq təsdiq edibdir və mən bu fikri bir daha deyiləm. Ömər Eldarovun yaratdığı heykəltəraşlıq əsərləri Azərbaycan xalqının mədəni, mənəvi sərvətidir və onlar Azərbaycan xalqının mədəniyyətini zənginləşdirmişdir.

Məlumdur ki, bizim xalqımızın keçmiş tarixində, mədəniyyət tarixində heykəltəraşlıq olmamışdır. Bu, bizim dini, mənəvi ənənələrimizlə bağlı olmuşdur. Azərbaycanda heykəltəraşlıq məktəbi demək olar ki, XX əsrdə yaranmış və bu əsrdə çox böyük sürətlə inkişaf etmişdir. Bu gün biz böyük iftixar hissi ilə deyə bilərik ki, Azərbaycan Respublikasının ərazisində, ölkəmizin muzeylərində, şəhərlərində, o cümlədən, xüsusən Bakıda meydanlarda, bağçalarda, parklarda çox dəyərli heykəltəraşlıq əsərləri qoyulmuşdur. Bunlar bizim mədəniyyətimizə, memarlığımıza, incəsənətimizə böyük yenilik gətirmişdir.

Bu illər ərzində bizim böyük heykəltəraşlarımız yaranmışdır. Bu gün onların heykəllərinə baxarkən xalqımız bunları qiymətləndirir, xatırlayır. Fuad Əbdürrəhmanov gözəl əsərlər yaradıbdır. Cəlal Qaryağdı, Tokay Məmmədov və başqaları da həmçinin. Biz sevinməliyik ki, heykəltəraşlarımız çoxdur. Bu görkəmli Azərbaycan heykəltəraşları içərisində Ömər Eldarov xüsusi yer tutur – həm yaratdığı əsərlərin bədiiliyinə, yüksək təsirliyinə, gözəlliyinə görə, eyni zamanda, öz sənəti sahəsində çox məhsuldar işinə görə.

Ömər Eldarov nə qədər yüksək səviyyəli heykəltəraşdırsa, o qədər də zəhmətkeş, fədakar və işgüzar bir adamdır. O, daim çalışır, işləyir. Mən vaxtilə, hələ çox illər bundan əvvəl Ömər Eldarovun emalatxanasında olmuşam. Orada onun nə qədər çox heykəltəraşlıq eskizlərinin, işlərinin nümunələrini görmüşəm, cürbəcür heykəllərin hazırlanması ilə əlaqədar hazırlıq işlərini əks etdirən əlamətləri görmüşəm. Bunlar həddindən artıq idi. Yenə də deyirəm, bir, iki, üç böyük və gözəl heykəl yaradan heykəltəraşlar da tarixdədirlər. Qədim yunan, İtaliya, Avropa, Rusiya və Qərb ölkələrinin heykəltəraşları bizə məlumdur.

Onların bir çoxu iki-üç əsəri ilə məşhurluq əldə etmişlər, əsrlər boyu sayılırlar, yeni gələn nəsillər tərəfindən qiymətləndirilirlər. Hesab edirəm ki, Ömər Eldarov belə heykəltə[153-154]raşlardan biridir. Amma onu dünyanın ən məşhur heykəltəraşlarından, onların bəzilərindən fərqləndirən cəhət bir də bundan ibarətdir ki, o, həddindən artıq işləyir və çox əsərlər yaradıbdır.

Azərbaycanın görkəmli mədəniyyət, incəsənət xadimlərinin, ədəbiyyatımızın görkəmli simalarının, ictimai xadimlərin heykəllərinin əksəriyyətini yaradan Ömər Eldarovdur. Ona görə də mən bu günü eyni zamanda, heykəltəraş Ömər Eldarovun yaradıcılığı ilə bağlı olan bir gün hesab edirəm. O, yaratdığı əsəri, nəhayət, bu gün nümayiş etdirərkən mən onun bütün yaradıcılığına öz münasibətimi bildirmək istəyirəm və bildirməyə çalışaram.

Azərbaycan dövlətinin başçısı kimi, bəlkə də bu mərasim mənim üçün şəxsi xarakter daşıyır. Ancaq bu fürsətdən istifadə edib, Azərbaycan dövlətinin başçısı kimi mən Ömər Eldarova onun böyük yaradıcılığına, Azərbaycan mədəniyyətinə göstərdiyi xidmətlərə və yaratdığı dəyərli, hesab edirəm, ölməz əsərlərə görə təşəkkürümü bildirirəm.

Bu gün önünə toplaşdığımız heykəl isə mənim üçün çox əziz olan bir insanın surətini əks etdirən heykəldir. Ömər Eldarov burada onun yaranma tarixi haqqında danışdı. Ancaq bu gün xatirə günü olduğuna görə mən də xatirələrimin bəzi məqamlarına toxunmaq istəyirəm.

Zərifə xanımın həyatdan getməsi bizim ailəmizi, şəxsən məni və mənim övladlarımı çox sarsıtdı. Hər bir ailə üçün itki itkidir. Burada heç bir şeyə fərq qoymaq olmaz. Ancaq hər bir insan da, ailə də özünün daxili mənəviyyatına, yaxud xüsusiyyətinə uyğun olaraq, ailəyə baş vermiş faciəyə, bədbəxt hadisəyə, yaxud itkiyə öz münasibətini bildirir. Ümumiyyətlə, ailəmiz çox həssas ailə olduğuna görə Zərifə xanımın vəfatı bizim üçün çox ağır olmuşdur. Bunun üstündən 12 il keçibdir. Biz bu gün də razılaşa bilmirik ki, biz onsuz yaşayırıq. Onun xatirəsi bizim qəlbimizdə, nəinki bizim qəlbimizdə, bizim ailənin bütün gələcək davamçılarının qəlbində daim yaşayacaqdır.

Şübhəsiz ki, Zərifə xanımın vəfatından sonra onun Moskvada, Novodeviçye qəbiristanındakı məzarının üstündə abidə yaranması mənim və övladlarımın arzusu olmuşdur. Bilirsiniz ki, [154-155] Moskvada da heykəltəraşlar çoxdur və çox görkəmli heykəltəraşlar vardır, bunu qeyd etmək lazımdır. Bizim Azərbaycanın heykəltəraşları da – adını çəkdiklərimin də, çəkmədiklərimin o əksəriyyəti, etiraf etmək və minnətdarlıq hissi ilə demək lazımdır ki, Rusiya heykəltəraşlarının təsiri altında yaradıcılıq yolunu keçiblər, onların tələbələri olublar və onlardan aldıqları dərs və təcrübə nəticəsində formalaşıb böyük heykəltəraş olublar.

Ömər Eldarovun özü də keçmiş Sovetlər İttifaqında, Rusiyada, Moskvada heykəltəraşlar içərisində çox yüksək qiymətə layiq olan bir heykəltəraş idi. Ona görə də təsadüfi deyildir ki, Ömər Eldarov o vaxt Sovetlər İttifaqı Rəssamlıq Akademiyasının həqiqi üzvü seçilmişdir, – indi bu, Rusiyanın akademiyasıdır. Məlumdur ki, həmin akademiyaya seçkilər çox ciddi aparılırdı. O vaxt Sovetlər İttifaqında olan çoxsaylı heykəltəraşlardan az-az sənətkar belə bir ada layiq görülürdü. Onlardan biri bizim azərbaycanlımız, soydaşımız Ömər Eldarovdur.

Onu demək istəyirəm ki, Moskvada heykəltəraşlar çox idi. Onların əksəriyyəti mənim yaxın tanışlarım, dostlarım idi. Mən vaxtilə Azərbaycanda da, Moskvada da işləyərkən onlarla yaxın təmasda olmuşdum. Şübhəsiz, Moskva heykəltəraşları tərəfindən bir neçə təklif gəldi ki, onlar mənə kömək etmək, bu arzumu yerinə yetirmək istəyirlər. Amma bunların hamısını nəzərdən keçirəndən sonra fikirləşdim ki, mənim istədiyim bu abidənin müəllifi mütləq azərbaycanlı, öz həmvətənim olmalıdır. Həmvətənlərim içərisindən də Ömər Eldarovu seçdim. Onu Moskvaya dəvət etdim, o vaxt görüşdük, söhbət etdik. İlk söhbətlərimiz rəssam Tahir Salahovun iştirakı ilə gedirdi. Xatırlayıram, biz Kremldə də, mənim yaşadığım xüsusi villada da söhbət etdik. Beləliklə, birgə yaradıcılıq işinə başladıq.

Şübhəsiz ki, mən Ömər Eldarova öz arzularımı bildirdim. O isə bir usta, incəsənət xadimi, heykəltəraş kimi mənim bu arzularımı necə yerinə yetirəcəyi barədə düşünərdi, onu ölçərdi-biçərdi. Çünki həqiqi incəsənət əsəri yaratmaq çox çətin işdir. Hər bir adam həqiqi rəssamın yaratdığı rəsm əsərini yarada bilməz. Hər bir adam həqiqi bəstəkarın bəstələdiyi musiqini bəstələyə, yarada bilməz, onun müəllifi ola bilməz. Hər bir adam böyük şairin, yazıçının yazdığı əsərlər kimi əsərlər [155-156] yarada bilməz. Şübhəsiz ki, hər bir adam yüksək istedada malik musiqiçi ola bilməz. Eləcə də hər bir adam Ömər Eldarov kimi və başqa heykəltəraşlar kimi heykəltəraş ola bilməz. Bunun üçün xüsusi bir istedad, bilik, təcrübə, xüsusi daxili, fitri istedad lazımdır.

Ona görə də, ola bilər, hər birimiz, o cümlədən mən də arzu edim, tövsiyəmi verim, ancaq həqiqi incəsənət ustası istənilən, arzu edilən o incəsənət əsərini yaratmaq üçün gərək bunu öz daxili aləmindən keçirsin, gərək bunu özü dərk etsin. Ona görə də Ömər Eldarov da çox düşündü və həqiqətən bir çox hazırlıq işləri gördü, eskizlər hazırladı. Bizim bir neçə görüşümüz oldu, nəhayət, bunların nəticəsində Ömər Eldarov bu gün nümayiş etdirilən heykəlin eskizini hazırlayıb mənə təqdim etdi. Mən eskizi bəyəndim və xahiş etdim ki, o, bunu icra etməyə başlasın.

Görürsünüz, bu, adi bir əsər deyil. Bu əsərdə məni valeh edən, – bu sözü tam həqiqətlə deyirəm – sevindirən və məndə böyük hissiyyatlar doğuran odur ki, bu əsərdə böyük fəlsəfə, məna vardır. Ən birincisi odur ki, Zərifə xanımın daxili mənəviyyatını, onun simasını, daxili və zahiri simasını Ömər Eldarov əks etdirə bilibdir. Eyni zamanda, o, gözəl bir heykəltəraş kimi heykəltəraşlıq sənətinin, məktəbinin, – nəinki Azərbaycan heykəltəraşlıq məktəbinin, dünya heykəltəraşlıq məktəbinin elementlərini, yaxud onların müəyyən cəhətlərini – bu əsərində həyata keçirə, tətbiq edə bilibdir.

Bu, heykəltəraşlıq əsəri kimi mürəkkəb əsərdir. Çünki burada heykəltəraş üçün, xüsusən daş, ağ mərmər üzərində işləyən heykəltəraş üçün çox çətinliklər vardır. Görürsünüz, bu heykəlin çox incə, nazik, zərif fraqmentləri vardır. Yenə də deyirəm, bunların hamısı bir tərəfdən bir heykəltəraş kimi Ömər Eldarovun əsərinin dəyərini nümayiş etdirir, amma eyni zamanda, mənim üçün bu, mücərrəd əsər deyil. Deyə bilərəm ki, Zərifə xanımın mərhum ata-anası da bəlkə onu mənim kimi tanımayıblar. Ona görə də mən Zərifə xanımın daxili mənəviyyatını tam bildiyim üçün görürəm ki, bu əsərdə bunların hamısı öz əksini nə qədər tapıbdır. Ona görə də bu əsər həm bədii, həm də fəlsəfi xarakter daşıyır və yüksək heykəltəraşlıq səviyyəsini nümayiş etdirir. [156-157]

Şübhəsiz, mənim fikrim var idi ki, bu heykəli Moskvada Zərifə xanımın qəbrinin üstündə yerləşdirək. Ancaq əsər hazır oldu, – indi keçən günləri xatırlayıram, – mənim üçün problem oldu ki, bunu necə gətirim. O vaxt bunların hamısı mənim üçün böyük çətinlik yaradırdı. Sonra necə olsun, gələcək necə olacaq?

Bunların hamısı mənim qarşımda duran məsələlər idi. Ona görə də mən Ömər Eldarova bildirdim ki, təşəkkür edirəm, ancaq bu əsəri saxla, yəqin, bir zaman gələcək. Dünya elə idi ki, bu gündən sabaha ümid yox idi. Mənim özüm də bu işi axıra çatdırmasam, övladlarımdan kimsə bunu axıra çatdıra biləcək. Ömər Eldarov bu əsəri həqiqətən bu illər müddətində – bu gün burada dedi ki, səkkiz ildir – öz emalatxanasında qorudu, saxladı.

Mən Bakıya gələndən sonra dəfələrlə emalatxanaya gedib, saatlarla heykəlin qarşısında durub, ona həmişə böyük heyranlıqla tamaşa etmişəm. Bilirsiniz ki, mənim heyranlığımın bir tərəfi Zərifə xanımın xatirəsi idisə, ikinci tərəfi həqiqətən bu əsərin incəsənət, heykəltəraşlıq nöqteyi-nəzərindən yüksək keyfiyyətə malik olması idi. 1994-cü ildə Zərifə xanımın cənazəsini Moskvadan Bakıya gətirəndən sonra isə yeni bir mərhələ başlandı ki, bunu harada qoyaq? Ancaq Ömər Eldarov fikirləşdi, mənə məsləhət verdi, mən də onun məsləhətinə qulaq asdım ki, bu əsər həqiqətən elə bir əsərdir ki, ola bilər, heykəltəraşlıq, incəsənət əsəri kimi onu muzeydə qoruyub saxlamaq lazım olsun. Mən də buna razılıq verdim. Bu, 1994-cü ildə olan söhbətdir. Qəbirin üzərinə həmin heykəl əsasında tuncdan hazırlanmış heykəl qoyuldu. Bu əsər isə yenə də Ömər Eldarovun emalatxanasında qaldı. Nəhayət, bu yaxın vaxtlarda mənə xəbər verdilər ki, Ömər Eldarov deyir, onu daha bu qədər saxlamaq olmaz, onu göstərmək, nümayiş etdirmək istəyirəm, çünki bu mənim əsərimdir.

Beləliklə də, bu gün biz buraya toplaşmışıq.

Bu heykəlin hazırlanması üçün Ömər Eldarov məndən xahiş etdi ki, yüksək keyfiyyətli ağ mərmər lazımdır, Azərbaycanda da bu yoxdur. O vaxt mənim Moskvada imkanım var idi. Bilirsiniz ki, bu mərmər bütövdür, bir hissədən ibarətdir, ayrı-ayrı hissələrdən ibarət deyil. Ömər Eldarov da bunu xahiş etmişdi. [157-158]

Mən həyatımda iki dəfə belə hadisə ilə rastlaşmışam. Biz Cəfər Cabbarlının heykəlini yaradırdıq. Onun müəllifi, indi burada olan Mirqasımov məsələ qoydu ki, bu heykəli yaratmaq üçün gərək elə böyük qranit gətirəsiniz ki, bütöv olsun, heç bir parça olmasın. O vaxt mən burada işləyirdim. Gəlib mənə dedilər ki, bu mümkün deyildir. Mirələsgər Mirqasımov öz xanımı ilə, – o da buradadır, – mənim yanıma gəlib dedilər ki, əgər belə olmasa, biz bu heykəli qoymayacağıq. Şübhəsiz, mən də istəyirdim ki, Cəfər Cabbarlının heykəlini yaradaq və yaratdıq, bilirsiniz – şəhərin gözəl bir guşəsində qoyduq. Çox gözəl bir heykəltəraşlıq əsəridir. Amma o vaxt mən tədbir gördüm və Ukraynada belə böyük qranit tapıldı. Siz onu görmüsünüz, rəngini də görmüsünüz.

Bu gün biz xatirə gecəsinə toplaşmışıq, ona görə bəzi xatirələri yada salmaq lazımdır. Mənə dedilər ki, bu həcmdə qranit tapılıb, ancaq vaqona qoyub gətirmək mümkün deyildir. Çünki elə bir vaqon tapmaq mümkün deyil ki, bu ağırlığa dözsün. Onu mütləq parçalamaq lazımdır. Yenə də Mirələsgər Mirqasımovun tələbləri mənim qarşımda durdu və mən də dedim ki, yox, nə edirsiniz – edin, vəzifə yerinə yetirilməlidir. Biz buna nail olduq. O heykəlin qoyulmasından neçə il keçir? 1980-ci ildə qoyulub? 1981-ci ildən 16 il keçir ki, biz o heykəli qoymuşuq. Hesab edirəm ki, Cəfər Cabbarlıya layiq olan heykəl Bakının gözəl guşələrindən birində yüz illər yaşayacaq və bizdən sonra gələn nəsillər də birinci növbədə Mirələsgər Mirqasımova dua edəcəklər. Ola bilər duanın bir hissəsi də bizə çatsın.

Hər halda, bilirsiniz, rəssam, heykəltəraş – incəsənət ustası öz istəyini yerinə yetirmək istəyəndə, – əgər bu istək doğrudan da yeni bir əsərin yaranmasına kömək edəcəksə, – bunu etmək lazımdır. Dövlət adamlarının, dövlət işində olan insanların borcu odur ki, bunu etsinlər. O vaxt mən bunu etdim və öz həyatımda gördüyüm çoxsaylı işlərin ən dəyərlilərindən biri hesab edirəm. Cəfər Cabbarlı 1934-cü ildə vəfat etmişdir. Mən bunu bir dəfə demişəm, – Azərbaycan ədəbiyyatının, Azərbaycan milli şüurunun inkişafında onun nə qədər böyük xidmətləri olubdur! Onun yaratdığı əsərlər neçə-neçə nəsilləri tərbiyə edib və yüksəldibdir. Bunu hamımız bilirik, amma [158-159] onun abidəsini 1981-ci ildə biz qoyduq. Onun yaşadığı binada ev-muzeyini 1981-ci ildə biz yaratdıq. Mən bu işlərlə fəxr edirəm.

Bundan sonra ikinci dəfə idi mənə heykəltəraş müraciət etdi ki, gərək böyük həcmli ağ mərmər tapılsın. Bu dəfə mənim imkanlarım 1980-1981-ci illərdə olandan çox idi və ağ mərmərin tapılıb Bakıya göndərilməsini təmin etdim. Ancaq Ömər Eldarov da çox cəld hərəkət elədi. O qədər çox sifariş vermişdi ki, mən də hamısını icra etdim, onun xahişlərini yerinə yetirdim. Beş blok mərmər buraya gətirildi. Sonra bunu da biləndə çox məmnun oldum. Çünki mənim buraya göndərdiyim ağ mərmərlərin bir bloku Zərifə xanımın indi gördüyümüz heykəlinin yaranması üçün istifadə olunubsa, o birilərindən Ömər Eldarov bizim hamımız üçün, xüsusən mənim üçün çox əziz olan insanların – Fikrət Əmirovun, Niyazinin gözəl heykəllərini yaradıbdır. O biriləri bilmirəm harada istifadə eləmisən – özün bilərsən. Amma Niyazi ilə Fikrət Əmirovun heykəllərini mən bilirəm.

**Ömər Eldarov:** Müslüm Maqomayevin abidəsi.

**Heydər Əliyev:** Müslüm Maqomayevin heykəli, tamamilə doğrudur. Vaxtilə, bizdən qabaq Fəxri xiyabanda onun qəbrinin üstündə gipsdən heykəl qoymuşdular, yadınızdadırmı? O da uçub dağılırdı. Biz Müslüm Maqomayevin 100 illik yubileyini qeyd edəndə mən dedim ki, heykəli dəyişmək lazımdır və dəyişdik. Filarmoniyanın qarşısında da büstü qoyuldu. Çox gözəl büstdür.

Beləliklə, mən bu işlərimlə o vaxt Ömər Eldarovun da yeni-yeni əsərlər yaratmasına kömək etdim. Eyni zamanda, onlardan biri də Zərifə xanımın heykəlinin yaranmasına sərf olunubdur.

Bu işlərin görülməsində çox adamlar iştirak ediblər, hamısına təşəkkür edirəm. Ancaq xüsusi xidmətləri Rəfael Allahverdiyev göstəribdir. o vaxt Ömər Eldarovla sıx əməkdaşlıq edibdir. Bilirsiniz ki, 1987-ci ildə mən böyük vəzifələrdən istefa verəndən sonra həyatımda qaranlıq bir dövr yarandı. O dövrdə Rəfael Allahverdiyevi

də burada tutduğu vəzifədən çıxardılar. Ancaq Ömər Eldarovla o, bu işə sadiq qaldılar, bütün təzyiqlərə, təqiblərə baxmayaraq, bu işi birlikdə apardılar və [159-160] heykəli 1989-cu ildə hazırladılar. Xatırlayın, o illər mənim həyatım üçün çox ağır illər idi. O mənada ağır ki, mənə qarşı ədalətsiz ittihamlar, böhtanlar, keçmiş fəaliyyətimi ləkələmək məqsədi ilə cürbəcür hərəkətlər xatirinizdədir. Amma o vaxt Ömər Eldarov da, Rəfael Allahverdiyev də mənəviyyata sadiq olduqlarını göstərdilər və o sınaqlardan keçdilər. Mən təkcə bu işi gördüklərinə görə yox, sədaqətlərinə görə onlara – Ömər Eldarova da, Rəfael Allahverdiyevə də təşəkkür edirəm. Sonra Ömər Eldarov bu heykəlin rəsmlərini gətirib mənə göstərdi. Həqiqətən, mən ona məsləhət verdim ki, bir albom yaratsın. Məni düzgün başa düşün, ona görə yox ki, bu, Zərifə xanımın heykəlidir. Ona görə ki, bu, həqiqətən çox dəyərli bir əsərdir, heykəltəraşlıq əsəridir. Bu heykəltəraşlıq əsərini bir fikirlə nümayiş etdirmək mümkün deyildir.

Ömər Eldarov bilir, bəzi başqaları da bilir, mən keçmişdə memarlıq fakültəsində təhsil almışdım. O illərdə, gənc yaşlarımda mən ayrı-ayrı memarlıq əsərlərinin, həmçinin antik yunan heykəllərinin, yaxud da Romada, İtaliyada yaranmış heykəllərin fraqmentlərinin şəkillərini görmüşəm. O vaxt bizim müəllimlərimiz, – vaxtilə mənim heykəltəraş, memar müəllimlərim də olub, – bu albomlar əsasında bizə dərs verirdilər, bunlar hamısı mənim xatirimdədir. Ona görə də mən Ömər Eldarova dedim ki, belə təcrübələr var. Belə bir albom yarat, bu, sənin əsərini tam nümayiş etdirəcəkdir. Ola bilər, əsərin bir-iki şəkli olsun. Amma indi hazırladığın həmin albomda bu əsər çoxcəhətli, çoxtərəfli, çoxsahəli əks olunmuşdur. Çünki onun hər bir nöqtəsinin özünəməxsus heykəltəraşlıq xüsusiyyəti var. Ömər Eldarov bunu da edibdir, bu gün təqdim edir. Buna görə də mən çox məmnunam.

Ömər, sənə bir daha, xüsusən bu əsərinə görə təşəkkür edirəm. Səni təbrik edir, ümidvar olduğumu bildirmək istəyirəm ki, bundan sonra daha yeni, daha gözəl heykəllər, əsərlər yaradacaq, Azərbaycan mədəniyyətinə çox xidmətlər göstərəcəksən və Azərbaycanın monumental sənətinə öz töhfələrini verəcəksən. Sənin hələ böyük imkanların var. Təşəkkür edirəm. Səni təbrik edirəm.

Sizə də təşəkkür edirəm ki, Ömər Eldarovun dəvətini qəbul edib bugünkü görüşə gəlmisiniz. Güman edirəm ki, bu əsər, [160-161] şübhəsiz ki, bir muzeydə olmalıdır. İncəsənət əsəri kimi muzeydə olmağa onun haqqı var. Sağ olun, təbrik edirəm.

* * *

... Mənim xatirimdən çıxdı, Ömər burada Nosovun adını çəkdi, o, çox iş işləmişdir. Mən yaxşı bilirəm ki, Nosov çox iş görmüşdür, onu o vaxt Leninqraddan dəvət etmişdik. Ancaq Ömər özü çəkiclə çox işləmişdir. Heykəltəraş kimi, Ömərin bir xüsusiyyəti də ondan ibarətdir ki, özü həm yaradır, həm də fəhləlik işini görür. O, həm böyük heykəltəraşdır, həm də çox zəhmətkeş bir fəhlədir. Çox, həddindən artıq nadir bir insandır. Çünki bəzən böyük rəssamlar, heykəltəraşlar əsərin ümumi konsepsiyasını, kompozisiyasını verirlər, sonra onların köməkçiləri bu işi başa çatdırırlar. Amma bu adam bilavasitə özü işləyir. Bunların hamısını incəliklərinə qədər yonmaq nə qədər çətin işdir! Bu, daşdır, mərmərdir, amma elə bil ki, parçadır. Mərmərə, daşa bu qədər incəlik vermək böyük məharətdir, böyük ustalıqdır. Mənəviyyatca pak, təmiz insanlar həmişə yüksək zirvələrə qalxıblar. Ömər Eldarov belə insanlardan biridir. Ona görə yox ki, sən bunu etmisən, bu mənim əziz adamımdır. Mən səni 20-30 ildir tanıyıram, o illərdə də sənin əsərlərin haqqında bu sözləri demişəm. İndi yaradıcılığının lap yüksək zirvəsinə çatanda bunu yaratmısan, amma o illərdə yaratdıqlarının hamısı barədə mən öz sözümü demişəm. Bu abidəyə gəldikdə isə, Zərifə xanımın xarakterini başqa bir adam aça bilməzdi. Mən isə Ömər Eldarovu tanıyıram, – o, sınaqdan çıxmış adamdır. Mənə başqa təkliflər də olmuşdu, onlarla görüşmüşdüm də, ancaq Ömərin yerini verə bilməzdilər. [161-162]

**İKİ MÜQƏDDƏS OCAĞIN XİDMƏTÇİSİ,**
**SƏUDİYYƏ ƏRƏBİSTANI KRALI**
**FƏHD İBN ƏBDÜLƏZİZ ƏL-SƏUDA**

Məkkə şəhərində Həcc ziyarəti zamanı yanğın nəticəsində baş vermiş çoxsaylı insan tələfatı xəbəri məni dərindən sarsıtdı.

Sizə, həlak olanların ailə üzvlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 16 aprel 1997-ci il* [162-163]

## AZƏRBAYCANDA İQTİSADİ İSLAHATLARIN GEDİŞİNƏ, EYNİ ZAMANDA KƏND TƏSƏRRÜFATINDA CARI İŞLƏRİN VƏZİYYƏTİNİN MÜZAKİRƏSİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ GİRİŞ SÖZÜ

*Prezident sarayı*

*16 aprel 1997-ci il*

Hörmətli xanımlar və cənablar!

Bugünkü müşavirə Azərbaycanda iqtisadi islahatların gedişinə həsr olunubdur. Eyni zamanda kənd təsərrüfatı sahəsində cari işlərin vəziyyətinin də müzakirə olunması nəzərdə tutulubdur.

Bildiyiniz kimi, respublikamız tutduğu strateji yolu davam etdirərək iqtisadiyyatın bütün sahələrində islahatların hazırlanması və həyata keçirilməsi prosesi ilə məşğuldur. 1994-cü ildən başlayaraq bu sahədə əməli tədbirlərin həyata keçirilməsinə başlanıbdır. Bu tədbirləri həyata keçirmək üçün zəruri hüquqi-normativ aktların, qanunların, sənədlərin hazırlanması lazım olmuşdur. Biz bu işlərlə məşğul olmuşuq, islahatların həyata keçirilməsinin qanunvericilik aktları ilə təmin olunması işlərini aparmışıq və 1995-ci ildən başlayaraq əməli tədbirlər görülür.

Bilirsiniz ki, 1995-ci ilin fevralında respublikada "Aqrar islahatların əsasları haqqında", "Sovxoz və kolxozların islahatı haqqında" qanunlar qəbul olunubdur. Bu qanunların həyata keçirilməsi üçün Azərbaycanın Dövlət Aqrar İslahat Komissiyası yaradılıb, komissiya o vaxtdan işə başlayıbdır. Bir çox eksperimentlər həyata keçirilibdir. 1996-cı ilin iyulunda "Torpaq islahatları haqqında" qanun qəbul olunubdur. Bu qanunun da həyata keçirilməsi tədbirləri müzakirə edilibdir və əməli iş aparılır. [163-164]

Ümumiyyətlə, şübhəsiz ki, bu islahatların, dəyişikliklərin həyata keçirilməsi qanuna söykənməli, qanun əsasında, hüquq normaları çərçivəsində olmalıdır. Ona görə də, qeyd etdiyim kimi, biz əvvəlcə hüquqi sənədlərin hazırlanmasına çox diqqət yetirmiş və çox vaxt sərf etmişik. İndi deyə bilərik ki, o vaxtdan indiyə qədər 15-dən çox qanun, fərman, sərəncam və başqa normativ aktlar qəbul olunubdur. Bu sənədlər də respublikamızın aqrar sektorunda, – mən aqrar sektor haqqında danışıram, – iqtisadi islahatların keçirilməsi üçün tam əsas, bütün imkanlar yaradılıbdır.

Əməli iş gedir və bir çox sahələrdə bu işlərin nəticələrini də görürük. Hər halda 1996-cı ilin yekunları ilə əlaqədar olan, ümumiyyətlə, bütün iqtisadiyyatda əldə etdiyimiz göstəricilər və 1997-ci ilin birinci rübündə həm büdcənin yerinə yetirilməsi, həm vergilərin toplanması ilə əlaqədar planların ödənilməsi, həm də başqa iqtisadi göstəricilər onu sübut edir ki, bizim tutduğumuz yol və həyata keçirdiyimiz tədbirlər doğrudur, düzgündür, iqtisadi islahatlar ardıcıl surətdə həyata keçirilir və bunlar iqtisadiyyatımızın vəziyyətində, müəyyən mənada onun inkişafında, artmasında öz nəticələrini göstərir.

Şübhəsiz ki, bunlar bizdə daha çox inam yaradır və məmnunluq hissi doğurur. Ancaq eyni zamanda müşahidələr, aparılan təhlil, mənim mütəmadi surətdə tanış olduğum materiallar onu göstərir ki, ümumən iqtisadi islahatların, o cümlədən aqrar sektorda iqtisadi islahatların həyata keçirilməsi işi istənilən səviyyədə aparılmır. Yəni bunların həyata keçirilmə sürəti hələ lazımi səviyyəyə çatmayıbdır və bəzi hallarda bu tədbirlərin həyata keçirilməsinə maneçilik törədən amillər də meydana çıxır.

Eyni zamanda çətinliklər də var. İqtisadi islahatların keçirilməsini heç də asan bir məsələ hesab etmək olmaz. Bəzi adamlar, xüsusən bu işə kənardan baxanlar və bizim gördüyümüz işlərə qərəzli münasibət bəsləyən adamlar bu barədə cürbəcür fikirlər söyləyirlər. Fikir söyləmək, söz demək çətin deyildir, xüsusən əsassız fikir söyləməyə öyrənmiş adamlar üçün çətin deyildir. Ancaq belə böyük, köklü iqtisadi dəyişikliklər aparmaq, şübhəsiz ki, çətindir. Çətinlikləri də aradan götürmək üçün bu məsələlərin həll olunmasına daim [164-165] nəzarət etməli, həm meydana çıxan çətinliklərin, həm də maneçiliklərin qarşısını almalıyıq. Eyni zamanda, bizim vəzifəmiz iqtisadi islahatların və xüsusən aqrar sektorda islahatların həyata keçirilməsi sahəsində konkret iş görən orqanlara, təşkilatlara, rayonlara, müəssisələrə əməli yardım etməkdən ibarət olmalıdır.

Bütün bunlara görə də mən bu gün belə bir müşavirənin keçirilməsini zəruri hesab etmişəm və sizi bu müşavirəyə dəvət etmişəm. Nəzərdə tutulur ki, dövlət aqrar islahat komissiyasının sədri Abbas Abbasov bu barədə məlumat versin, sonra kənd təsərrüfatı naziri İrşad Əliyev islahatların gedişi haqqında, eyni zamanda kənd təsərrüfatı işlərinin cari vəziyyəti və qarşıda duran vəzifələr haqqında məlumat versin. Hansı tədbirləri həyata keçirmək, hansı işləri görmək lazımdır ki, həm islahatların gedişi sürətlənsin, həm də kənd təsərrüfatı sahəsində cari işlər axsamasın və islahatların aparılması cari işlərin həyata keçirilməsinə mane olmasın, əksinə, onların daha da müvəffəqiyyətlə yerinə yetirilməsini təmin etsin – İrşad Əliyevdən təxminən belə bir çıxış gözlənilir. Bundan sonra isə dəvət olunan şəxslər müzakirədə iştirak edə bilərlər.

## YEKUN NİTQİ

Hörmətli müşavirə iştirakçıları!

Bugünkü müşavirəni sona çatdıraraq hesab edirəm ki, bu müşavirənin keçirilməsi çox zəruri imiş. Ümidvaram ki, bu gün burada aparılmış müzakirə davam edəcəkdir və bunlar hamısı 1997-ci ildə respublikanın iqtisadiyyatında ciddi müsbət dəyişikliklər əldə olunmasına, iqtisadi islahatların həyata keçirilməsinə kömək edəcəkdir.

Dinlədiyimiz məlumatlar onu göstərir ki, respublikamızda iqtisadi islahatlar ardıcıl surətdə həyata keçirilir və onlar öz müsbət nəticəsini verir. Bu gün əsasən aqrar islahatların gedişi müzakirə olunur. Bununla əlaqədar qətiyyətlə demək olar ki, bu sahədə böyük iş görülübdür. "Aqrar islahatların əsasları haqqında" və "Sovxoz və kolxozların islahatı haqqında" [165-166] 1995-ci ilin fevralında qəbul olunmuş qanunlar, 1996-cı ilin iyulunda qəbul olunmuş "Torpaq islahatı haqqında" qanun və prezidentin bu islahatlarla əlaqədar fərmanları, sərəncamları və başqa normativ sənədlər həyata keçirilir və onlar əməli nəticələr verir. Bugünkü çıxışlarda aqrar bölmədəki islahatlar haqqında ətraflı məlumatlar verildi, alınan nəticələrdən söhbət açıldı.

Bu məlumatları mən məmnuniyyət hissi ilə qəbul edirəm. Çünki iqtisadi islahatların keçirilməsi mürəkkəb bir prosesdir. O adi bir iş deyil, çox mürəkkəb prosesdir. Şəxsən mən məmnunam ki, respublikamızda bu prosesləri normal inkişaf etdirmək üçün cürbəcür maneələrin və obyektiv amillər nəticəsində yaranmış vəziyyətin mənfi təsirinə baxmayaraq, biz iqtisadi islahatları ardıcıl surətdə həyata keçiririk və artıq onların müsbət nəticələrinin şahidiyik.

Bugünkü məlumatlar bir də ona görə sevindiricidir ki, keçən illərdə bəziləri hesab edirdilər ki, Ermənistanla hərbi münaqişə mövcud olduğu, ölkəmizin ərazisinin bir qismi işğal altında qaldığı, bir milyondan çox vətəndaşımız yerindən-yurdundan didərgin düşüb köçkün vəziyyətində, ağır şəraitdə yaşadığı bir halda respublikamızda islahatlar keçirilməsi mümkün deyil, yaxud, ümumiyyətlə, lazım deyil. Digərləri isə çox böyük "qəhrəmanlıqlar" göstərmək istəyirlər. Onlar deyirdilər ki, nəyin bahasına, necə olur-olsun, islahatları tezliklə keçirmək, indiyədək dağılmayanları da dağıtmaq lazımdır, hər şey dağılmalıdır. Onlar belə hesab edirdilər ki, həmin dağılanların yerində guya, yeni bir möcüzə əmələ gələcəkdir. Belə bəyanatlar, çıxışlar xatirinizdədir. Bizim bu müşavirələrdə də həm islahatların əleyhinə olan fikirlər, həm də islahatları plansız, qaydasız, özbaşınalıq yolu ilə həyata keçirmək barədə təkliflər və çıxışlar olmuşdur.

Bunlar hamısı artıq geridə qalmışdır. Biz isə nə o cür, nə də başqa cür mənfi fikirlərin təsiri altına düşmədik. İşimizi planlı, təmkinli, düşüncəli aparmaqla məşğul olduq. Qanunlar da qəbul etdik, fərmanlar da, sərəncamlar da verildi, başqa hüquqi sənədlər də yarandı. İndi onlar əməli surətdə həyata keçirilir. Bunlar onu göstərir ki, bizim strateji yolumuz düzdür, doğrudur. Yəni, respublikanın iqtisadiyyatı bazar [166-167] iqtisadiyyatı yolu ilə inkişaf etməlidir, xüsusi mülkiyyət yaranmalıdır. Bunun üçün iqtisadi islahatlar ardıcıl surətdə həyata keçirilməlidir, sahibkarlıq, təşəbbüskarlıq yaranmalıdır və inkişaf etməlidir.

Bu gün tam qətiyyətlə demək olar ki, biz bundan sonra da bu yolla gedəcəyik və görürəm, heç kimdə şübhə yoxdur ki, həm iqtisadiyyatın inkişafında, həm də respublika əhalisinin sosial-iqtisadi vəziyyətinin, rifah halının yaxşılaşmasında biz bunları tezliklə müşahidə edəcəyik, görəcəyik, bunların şahidi olacağıq.

Bugünkü məlumatlar eyni zamanda onu göstərir ki, nə o tərəfə, nə də bu tərəfə əyilmək olar. Keçmiş zamanlarda da qanundan, yaxud məntiqdən kənar fikirlər, – ona ifratçılıq deyirlər, – zərər veribdir. Bunlara indi də yol vermək olmaz. Hər işi təmkinlə, ağılla görmək lazımdır. Respublikanın mövcud sərvətlərini qoruyub saxlamaq, dağıntının qarşısını almaq, dağıntıya yol verməmək, ölkənin mülkiyyətini qoruyub saxlamaq yolu ilə islahatları həyata keçirib, dövlət mülkiyyətini xalqın, vətəndaşların mülkiyyətinə çevirmək lazımdır. Bu prosesdə dağıntının, özbaşınalığın qarşısı alınmalıdır. İndiyədək çox dağılıbdır. Xüsusən 1990-cı ildən bəri respublikamızda hərə bir tərəfdən dağıdıbdır. Bu dağıntıların, qanunsuzluqların, özbaşınalığın, hərc-mərcliyin nəticəsində bəziləri həddindən artıq zənginləşib, bəziləri isə həddindən artıq kasıblaşıb, müflisləşib və respublikanın iqtisadiyyatına böyük zərbələr vurulubdur.

Aydındır ki, respublikamızda gedən bu proseslər ölkəmizin iqtisadi vəziyyətinə mənfi təsir göstərməli idi və göstərdi. Bunu, yəni bu mənfi təsiri təbii qəbul etmək lazım idi. Çünki əgər respublikamız bir tərəfdən Ermənistan silahlı qüvvələrinin təcavüzünə məruz qalıbsa, döyüşlər gedibsə, torpaqlarımız işğal olunubsa, digər tərəfdən respublikanın daxilində özbaşınalıq, hərc-mərclik, qanunsuzluq hökm sürübsə, şübhəsiz, bunlar ölkənin iqtisadiyyatına mənfi təsir göstərməli idi. Amma bununla yanaşı, ümumiyyətlə, keçmiş Sovetlər İttifaqı məkanında, o cümlədən, Azərbaycanda gedən proseslər, yəni iqtisadi-siyasi sistemin dəyişilməsi, yeni iqtisadi formaların tətbiq edilməsi iqtisadiyyatın vəziyyətinə təbii olaraq təsir göstər[167-168]məli idi. Keçmiş Sovetlər İttifaqından ayrılmış, indi müstəqil dövlət olan bütün müstəqil dövlətlərin həyatında da bu, özünü göstərməkdədir.

Ancaq Azərbaycana rəhbərlik etmək etimadı almış adamlar, vəzifəli şəxslər vicdanlı, namuslu, xalqın mənafeyini öz şəxsi mənafelərindən üstün tutmuş olsaydılar, bu mənfi təsir çox az olardı və biz iqtisadiyyatımızda bu qədər itkilərə yol verməzdik. Bu gün buradakı çıxışlarda, o cümlədən dövlət müşaviri Vahid Axundovun məlumatında rəqəmlər gətirildi. Görürsünüz, 1996-cı ildə və 1997-ci ilin birinci rübündə

iqtisadiyyatımızda az da, kiçik də olsa müsbət dəyişikliklər vardır. Birincisi, iqtisadiyyatda bir neçə il – 7-8 il ardıcıl mövcud olan tənəzzülün qarşısı alınıbdır, bunun özü böyük bir haldır, hadisədir, böyük bir nailiyyətdir. Amma təkcə tənəzzülün qarşısının alınması deyil, dirçəliş, inkişaf, artım da vardır.

Əgər 1990-cı ildən başlayaraq Azərbaycanda sənaye istehsalı ilbəil aşağı düşübsə – burada rəqəmlər gətirildi ki, 1995-ci ildə bu, 21, yaxud 22 faiz, 1996-cı ildə 6 faiz aşağı düşüb, 1997-ci ilin birinci rübündə 0,4 faiz artım varsa, bu artım müsbət meylin sabit və ardıcıl olduğunu göstərir. Ümidvaram ki, ikinci, üçüncü rüblərdə və 1997-ci ilin yekununda biz bu göstəricini daha da artıra bilərik. Ümumi daxili məhsulun istehsalı keçən il 1,2 faiz, yaxud, gərək ki, 1,4 faiz artmışdır, artıq bu ilin birinci rübündə isə 3 faiz artmışdır.

Kənd təsərrüfatı məhsulları istehsalı bütün illər, ilbəil azalıbdır. 1996-cı ildə isə 3 faiz, bu ilin birinci rübündə 3 faizdən bir az çox artım olmuşdur. Deməк, bu ilin birinci rübündə 1996-cı ilin birinci rübünün səviyyəsindən 3 faiz çox artım əldə edilmişdir. Başqa iqtisadi göstəricilər də sizə məlumdur. Sevindirici hal budur ki, kapital qoyuluşunda, yüklərin daşınmasında artım vardır. Burada deyildi, sərmayələrin qoyuluşunda böyük artım vardır. Nəhayət, vergilərin planının yerinə yetirilməsi müsbət haldır.

Vahid Axundov burada xatırlatdı ki, 1995-ci ilin sonunda və 1996-cı ilin əvvəlində biz 1996-cı ilin büdcəsini təsdiq edərkən, – o vaxt biz Milli Məclisdə büdcəni 1996-cı ilin fevralında təsdiq etdik, – Milli Məclisdəki yüksək vəzifəli bəzi şəxslər hesab edirdilər və təklif edirdilər ki, bu büdcə heç [168-169] büdcə deyildir, onu təsdiq etmək lazım deyildir, işləyib görək ki, bir neçə aydan sonra nə olur, çünki büdcə təsdiq olunacaq, amma yerinə yetirilməyəcəkdir. Bilmirəm, o şəxslər kimə, hansı qüvvələrə xidmət edirdilər – xalqa, bizim ümumi işimizə, yaxud öz şəxsi iddialarına, başqa kənar qüvvələrə xidmət edirlər?

O vaxt belə təkliflər gələndə mən çox qəti surətdə dedim ki, büdcə layihəsi hazırlanıb, təqdim olunub və Milli Məclisin borcudur ona baxsın, öz fikrini desin. Milli Məclis baxdı və büdcə təsdiq olundu. 1996-cı ilin yekunlarına görə, büdcə 101 faiz yerinə yetirilibdir. Bu qədər də qərəzçilik olmazdı ki! 1996-cı ilin yekunlarına görə, o cümlədən, vergilərin yığılması planı yerinə yetirilibdir. Amma 1997-ci ilin birinci rübündə 1996-cı ilin birinci rübünə nisbətən plan xeyli artırılıbdır. Artırılmış plan 103 faiz yerinə yetirilmişdir. Fakt da ondan ibarətdir ki, bu ilin birinci rübündə respublikanın büdcəsinə daxil olan, vergidən gələn gəlir 1996-cı ilin birinci rübünə nisbətən 60 faiz artmışdır.

Biz həmişə özümüzü başqa ölkələrlə müqayisə edirik. Müstəqil Dövlətlər Birliyinə daxil olan başqa ölkələrin birinci rübdəki göstəriciləri barədə məlumatlar bizdə yoxdur. Ancaq keçən ilin və bu ilin birinci rübünün yekunları ilə əlaqədar Rusiyanın rəqəmləri bizə məlumdur. Çünki hər gün axşam kim Moskva televiziyasına baxırsa, bunları müşahidə edir. Orada vergi planı birinci rübdə 60 faiz yerinə yetirilibdir. 1996-cı ildə isə plan tamamilə yerinə yetirilməmişdir, xatirimdədir ki, 54 faiz yerinə yetirilmişdir.

Bilirsiniz, təsəvvür etmək mümkün deyildi. 1994-cü ildə inflyasiyanın səviyyəsi 1600 faiz idi və burada hərə cürbəcür hoqqabazlıqla məşğul olurdu – biri orada bank açmışdı, digəri "Vahidbank" düzəltmişdi. Hətta bəzi vəzifəli adamlar aparıb oraya pul qoymuşdular ki, böyük faizlər alacaqlar. Yaxşı ki, elə onların da pulu batdı. Əlbəttə ki, mən camaatın pulunun batmasına çox heyfsilənirəm, ürəyim ağrıyır. Çünki orada bir çox sadə adamın pulu batıbdır. Axı burada onların günahı nədir, onları aldadıblar. Amma vəzifəli adamlar ki, gedib o cür yaramaz təşkilatlara, cürbəcür uydurma banklara – "Vahidbank"a, "Xəyalbank"a və başqasına dollar qoymuşdular ki, ondan faiz [169-170] götürəcəklər, – onların pulu batdı və çox yaxşı oldu ki, batdı. Mən bilirəm ki, bəzilərinin pulu batıbdır.

Belə bir vəziyyəti indi unutmaq lazım deyildir. Bu, iki il bundan qabaq olan məsələlərdir. Bunlar 1994-cü ildə baş vermişdir.

1995-ci ildə də vəziyyətimiz yaxşılaşırdı, amma belə deyildi. Ancaq 1996-cı ilə baxın. Nəhayət, 1997-ci ilin birinci rübünə baxın.

Bu rəqəmlərdən söhbət açıldı. Mən sizin diqqətinizi sadəcə olaraq bu rəqəmlərə cəlb edirəm, ona görə ki, bir həqiqəti bir daha bildirim. Əgər qanun-qayda, nizam-intizam yaranırsa, ən çətin hallarda da nailiyyət əldə etmək mümkündür. Mən çox məmnunam ki, bizim apardığımız işlər müsbət nəticələr verir. Bu rəqəmlər çox asanlıqla əldə olunan rəqəmlər deyildir. Biz bu işlərlə gecə-gündüz məşğuluq. Apardığımız işlər öz nəticəsini verir və bunlar hamısı da birinci növbədə respublikanın əhalisinin, Azərbaycan vətəndaşlarının, müstəqil dövlətimizin insanlarının rifah halının yaxşılaşması naminə edilir və bundan sonra da ediləcəkdir.

Beləliklə, mən hesab edirəm ki, respublikamızda iqtisadi islahatların hamısı həyata keçirilir və 1997-ci il Azərbaycanda iqtisadi islahatların daha da sürətlə, dərin, geniş həyata keçirilməsi ili olacaqdır. Əminəm ki, 1997-ci il Azərbaycan Respublikasının iqtisadiyyatının inkişafına yeni müsbət nəticələr gətirəcəkdir.

Buradakı çıxışların hamısında bildirildi ki, bu nəticələr birinci növbədə, iqtisadiyyat sahəsində bizim apardığımız düzgün siyasətin nəticəsidir. Mən bunu bu gün bir daha təkrar edirəm, kəskin olaraq bir daha deyirəm ki, bu, düzgün siyasətin nəticəsidir. Mən bir il də, iki il də bundan əvvəl belə düşünürdüm. Amma o vaxt hələ nəticələr yox idi. Ancaq mən inanırdım ki, bu nəticələr olacaqdır. İndi isə nəticələr göz qabağındadır. Kənardan kim nə deyir-desin, burada bu barədə söhbət açıldı, kənardan deyilən bu sözlərə siz fikir verməyin. Belə danışan adamların özləri bilmirdilər ki, iqtisadiyyat, islahat nədir və onu necə aparmaq olar.

Əldə olunan uğurlar iqtisadiyyat sahəsində bizim apardığımız işlərin və siyasətimizin nəticəsidir. Eyni zamanda respublikamızda son illər görülən çox gərgin işlərin və böyük təd[170-171]birlərin əsasında yaradılan daxili ictimai-siyasi sabitliyin nəticəsidir. Bu ictimai-siyasi sabitliyin nəyin bahasına, hansı çətinliklər hesabına əldə edildiyini siz hamınız bilirsiniz. Bunların hamısı sizin gözünüz qabağında olubdur, bunu respublikanın bütün ictimaiyyəti, hər bir vətəndaş bilir.

İndi artıq aydın görünür ki, hər bir vətəndaşın həyatı naminə respublikadakı bu cinayətkarların qarşısının alınması, ayrı-ayrı silahlı dəstələrin zərərsizləşdirilməsi, ayrı-ayrı qrupların aradan götürülməsi nə qədər lazım imiş, vacib imiş. İndi insanlar rahat işləyirlər, yaşayırlar, istirahət edirlər. Görülən işlər də həyatımızda, o cümlədən iqtisadiyyatımızda, sosial sahədə öz nəticələrini verir.

Eyni zamanda, görülən bu işlər, yəni əldə olunan nəticələr Ermənistan-Azərbaycan münaqişəsində yaranmış atəşkəs rejimi ilə də bağlı olubdur. İndi artıq iki il on bir aydır ki, atəş yoxdur. Bir aydan sonra üç il tamam olacaqdır ki, atəş yoxdur. Bu, böyük nailiyyətdir. Hətta insanların çoxu artıq unudur ki, vuruşlar, döyüşlər var idi, şəhidlər verirmişik, bunu unudurlar.

Mən hesab edirəm ki, biz bu barədə də düzgün yoldayıq, düzgün siyasət aparırıq. Ümidvaram ki, bizim bu siyasətimiz də öz son nəticəsini verəcəkdir. Hər halda, – bu gün çıxışlarda da bildirildi, – ATƏT-in keçən ilin dekabrında Lissabonda keçirilən Zirvə görüşündə qəbul edilən sənəd Ermənistan-Azərbaycan münaqişəsi tarixində ən böyük müsbət nəticədir, nailiyyətdir, ən dəyərli bir sənəddir. İndi artıq bütün dövlətlər, o cümlədən ATƏT-in Minsk qrupunun üzvləri, ATƏT-in Minsk konfransının həmsədrləri – Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa danışıqları və məsələnin sülh yolu ilə həll olunmasını məhz Lissabon Zirvə görüşündə qəbul olunmuş bu prinsiplər əsasında aparırlar. Bu, böyük nailiyyətdir, böyük hadisədir.

Bilirsiniz, bizim apardığımız bu siyasətə zidd olan qüvvələr indi nə qədər təlaş, narahatlıq içindədirlər ki, ATƏT-in Zirvə görüşündə belə bir qərar qəbul edilibdir. Biz bu danışıqları aparırıq. Sizə məlumdur ki, bu ilin əvvəlində mən Fransada olarkən – yanvar ayında rəsmi səfərdə olarkən, martda isə bir günlük işgüzar səfərim zamanı – Fransanın prezidenti cənab Jak Şirakla və başqa vəzifəli şəxslərlə çox ətraflı danışıqlar [171-172] aparmışam. Martın 28-29-da həm Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin dövlət başçılarının görüşündə, həm də Rusiyanın prezidenti cənab Boris Yeltsinlə danışıqlarımda bu barədə ətraflı söhbətlər aparmışıq. Mənim şəxsi nümayəndəm Vəfa Quluzadə Amerika Birləşmiş Ştatlarına getmişdi, orada görüşlər keçirib və mən bu ölkənin yüksək vəzifəli şəxsləri ilə telefon əlaqələri saxlamışam. Beləliklə, biz indi Minsk qrupunun işinin yeni mərhələsinə başlamışıq. Güman edirəm ki, biz artıq müsbət nəticələr əldə edə biləcəyik.

Mən fürsətdən istifadə edib bir daha bəyan edirəm ki, Azərbaycan Respublikası, dövləti Ermənistan-Azərbaycan münaqişəsində yaranmış atəşkəs rejiminə sadiq qalacaqdır. Bizim tərəfimizdən onun pozulmasına yol verilməyəcəkdir. Böyük Sülh Müqaviləsi əldə olunana qədər biz atəşkəs rejimini qoruyub saxlayacağıq.

Martın əvvəlindən indiyədək Rusiyada aşkar olunmuş hadisə – Rusiyanın bəzi dairələri tərəfindən Ermənistana gizli, qeyri-qanuni külli miqdarda çox ağır silahların verilməsi bizim bölgədə vəziyyəti gərginləşdirmişdir. Buna baxmayaraq, biz öz prinsiplərimizə sadiqik, atəşkəs rejimini qoruyub saxlayırıq və qoruyub saxlayacağıq.

Bilirsiniz ki, mən Ermənistana külli miqdarda silah verilməsi haqqında Rusiyanın prezidenti cənab Boris Yeltsinə müraciətlər etmişəm, rəsmi məktublar göndərmişəm. Onunla şəxsi görüşüm zamanı da bu məsələni ciddi müzakirə etmişəm və məsələni kəskin qoymuşam ki, həmin silahlar Ermənistandan Rusiyaya qaytarılmalıdır. Azərbaycan parlamenti – Milli Məclis bu məsələni iki dəfə müzakirə edibdir və həm Rusiyanın Dövlət Dumasına, parlamentinə, həm də prezidentinə müraciətlər göndəribdir. Milli Məclisin Arif Rəhimzadə başda olmaqla nümayəndə heyəti son vaxtlar Moskvada, Dumada görüşlər keçirib, danışıqlar aparıbdır. Nəhayət, Rusiyanın Dövlət Duması bu məsələ ilə əlaqədar bir neçə gün bundan əvvəl qərar qəbul edibdir. Həmin qərarda açıq-aydın göstərilir ki, silahların qeyri-qanuni verilməsi barəsində istintaq aparılmalıdır. Dumanın Müdafiə Komitəsi sədrinin məruzəsi Rusiya prezidentinə və istintaq aparmaq üçün baş prokurora göndərilibdir. Biz bu məsələlərə daim nəzarət edirik və onunla daim [172-173] məşğuluq, çalışırıq və bundan sonra da çalışacağıq ki, Rusiyadan Ermənistana qeyri-qanuni verilmiş silahlar geriyə qaytarılsın.

Təkrar edirəm, bu faktlar bizi çox narahat edir, gərginlik yaradır. Ancaq bunlara baxmayaraq, biz öz prinsiplərimizin üstündə dururuq. Yəni, atəşkəs rejimi qorunub saxlanmalıdır və biz öz tərəfimizdən bunu qoruyub saxlayacağıq. Moskvada olarkən mən bu barədə Ermənistanın prezidenti Ter-Petrosyan ilə görüşümdə də ona bildirdim, o da belə bəyanat verdi. Martın 29-da onun da, mənim də mətbuat qarşısında bəyanatım olubdur. Ümid edək ki, Ermənistan tərəfi də verdiyi bəyanatlara sadiq qalacaqdır.

Beləliklə, atəşkəsin üç ilə yaxın davam etməsi bizim iqtisadi məsələlərlə məşğul olmağımız üçün şərait yaradıbdır. Bunlar hamısı birlikdə respublikamızda ümumi vəziyyəti dəyişibdir.

Şübhəsiz ki, görülən işlər qarşımızda duran vəzifələrin həyata keçirilməsində ilk addımlar, ilk nəticələrdir. Biz hələ çox iş görməliyik. Çox iş görməliyik ki, bütün iqtisadi islahatları axıra çatdıraq, iqtisadiyyatımızda ciddi dəyişikliklər əmələ gətirək, bazar iqtisadiyyatı Azərbaycan iqtisadiyyatının bütün sahələrində bərqərar olsun. Çox iş görməliyik ki, Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesini tam axıra

çatdıraq. Çox iş görməliyik ki, 1995-ci ilin noyabrında qəbul etdiyimiz Konstitusiyanın tələbləri Azərbaycanın həyatının, cəmiyyətinin bütün sahələrində tətbiq olunsun və həyata keçirilsin. Çox iş görməliyik.

Ona görə də bu gün burada verilən məlumatlar, söhbət açılan müsbət nəticələr heç kəsdə belə fikir yaratmasın ki, biz artıq hesab edirik ki, çox böyük nailiyyətlər sahibiyik və bununla da rahatlana bilərik. Yox, rahat ola bilmərik və bu rahatlığa əsas yoxdur. Hələ çoxlu problemlər vardır, çoxlu məsələlər həll edilməlidir. Ona görə də çox iş görülməlidir.

Aqrar bölmədə islahatların keçirilməsinin bugünkü müzakirəsi – burada verilən məlumatların hamısı bu fikri cəmləşdirdi, – bir tərəfdən, aqrar bölmədə bu islahatların artıq əldə olunmuş çox gözəl nəticələrini nümayiş etdirdi, eyni zamanda bir çox [173-174] problemləri açıqca göstərdi. Biz həmin problemlərin həll edilməsi ilə məşğul olmalıyıq.

Aqrar islahatların həyata keçirilməsi ilə əlaqədar əldə edilən nailiyyətlərə görə bizim sevinməyə haqqımız vardır. Mən bu işdə nailiyyət, müsbət nəticə əldə edən vətəndaşlarımızın, təşkilatlarımızın, orqanlarımızın hamısına təşəkkür edirəm. Ancaq eyni zamanda hələ bu islahatların tam həyata keçirilməsi üçün nə qədər iş görəcəyimiz də tamamilə aşkar edildi. Ona görə də gərək biz bütün fikrimizi, diqqətimizi bu nöqsanların, qüsurların aradan qaldırılmasına, islahatların daha da sürətlə həyata keçirilməsinə yönəldək. Vəzifə bundan ibarətdir.

Hesab edirəm ki, hər kəs öz sahəsində mövcud olan nöqsanların aradan qaldırılmasına çalışmalıdır və aqrar islahatların ardıcıl surətdə həyata keçirilməsini təmin etməlidir. Hər kəs öz sahəsində ciddi çalışmalıdır. Heç kəs hesab etməməlidir ki, bunu ondan yuxarıda kimsə və yaxud onun yanındakı etməlidir. Hər bir kəsin bu sahədə imkanı vardır və bu imkanlar hərəkətə gətirilməlidir, bu işlər görülməlidir.

Ancaq eyni zamanda aqrar islahatlar komissiyasının üzərinə çox böyük vəzifələr düşür. Vaxtilə biz belə bir komissiyanı yaratmışıq. Bu komissiyada çox yüksək vəzifəli şəxslər toplaşıbdır – komissiyaya baş nazirin birinci müavini Abbas Abbasov, kənd təsərrüfatı naziri İrşad Əliyev və başqa şəxslər, alimlər, mütəxəssislər toplaşıblar. Komissiya yaxşı işləməlidir.

Mən əldə edilən bax, bu nəticələrə müsbət qiymət verərək, komissiyanın işini müsbət qiymətləndirə bilmərəm. Çünki komissiya təkcə bəzi məsələlərin həll olunması ilə məşğul olmamalı, bax, bu günlər meydana çıxan məsələlərin həll edilməsi yollarını aramalıdır.

Bizim qanunlarımız müəyyən edibdir ki, torpaq şəxsi mülkiyyətə verilməlidir. Burada çıxış edənlər də dedilər ki, torpağın hansı hissəsi şəxsi mülkiyyətə verilir, hansı hissəsi bələdiyyə mülkiyyətinə veriləcəkdir, hansı hissəsi dövlətdə qalır. Bu, aydındır. Baxmayaraq ki, bu prosesin özü də çox ağır, çox çətin bir prosesdir. Heç kəs hesab etməsin ki, məsələlər həll edilibdir. Yox, biz bu məsələnin həllinin hələ başlanğıcındayıq. Ancaq iş təkcə bu torpağın şəxsi mülkiyyətə verilməsində deyil. Şəxsi mülkiyyətə keçən torpaqdan sahibkarın [174-175] istifadə edə bilməsi, yəni daha da səmərəli istifadə edə bilməsi üçün bir çox məsələlər həll olunmalıdır. Bunların çoxu həll olunmayıbdır.

Təsadüfi deyildir ki, pambıqçılıq rayonlarının başçılarına – Saatlı və Bərdə rayonlarının icra hakimiyyəti başçıları çıxış edərkən – mən bu sualları verdim. Onlar bu suallara cavab verə bilmirlər. Çünki məsələ ilə dərindən məşğul olmayıblar. Amma bizim dövlət aqrar islahat komissiyası bununla məşğul olmalıdır, bir çox variantlar təklif etməlidir, hansı variantın, hansı yolun üstün olduğu barədə təklif verməlidir.

Bilirsiniz, torpaq Azərbaycan respublikasının sərvətlərindən ən qiymətlisidir. Qiymətinə görə torpağa bərabər sərvət yoxdur. Çünki bu, daimi sərvətdir. Bizim yerli sərvətlərimiz vardır. Onların müəyyən miqdarı var və müəyyən dövr istifadə edildikdən sonra onlar tükənir. Cürbəcür müəssisələr var – yararlıdır, işləyir, öz ömrünü sürüb qurtarır. Amma torpaq, təbiət daimidir. Ona görə də torpaq islahatı deyəndə bu məsələ barəsində nə qədər yüksək hissiyyatlarla düşünmək lazımdır.

20-30-cu illərdə kollektivləşdirmə aparılan zaman torpağın başına bir iş gətirdilər. Həmin o illərdə, kollektivləşdirmə aparılan zaman nə qədər insanlar qurban gedibdir. Eyni zamanda torpaq əsrlər boyu olduğu vəziyyətdən başqa bir vəziyyətə, özü də qısa bir müddətdə keçdiyinə görə nə qədər itkilər olubdur. Bəs, 30-cu illərin əvvəllərində olan aclıq – Rusiyada, təkcə Rusiyada yox, Sovetlər İttifaqının hər yerində, o cümlədən, Azərbaycanda da bu aclıq var idi – nə ilə bağlı idi? Axı, bunlar tarixdən məlumdur. Yaşlı adamlar o aclığı xatırlamalıdırlar. Mənim özüm, məsələn, 1930-1931-ci illərdə Azərbaycanda olan aclığı xatırlayıram. Bu nə ilə bağlı idi? Çünki kollektivləşdirmə lazım idi, başqa işə fikir vermirdilər. Ancaq 30-cu illərin sonunda o kolxozları, sovxozları qaydaya salandan sonra, İkinci dünya müharibəsi ərəfəsində Sovetlər İttifaqında kənd təsərrüfatı sahəsində müəyyən nəticələr əldə etmək mümkün oldu.

Doğrudur, həqiqəti demək lazımdır ki, sonrakı dövrdə, xüsusən müharibədən sonrakı illərdə Sovet İttifaqında torpağa çox böyük sərvətlər sərf olundu, meliorasiya işləri aparıldı, [175-176] böyük xərclər çəkildi və torpaqdan çox da məhsullar götürüldü. O cümlədən, Azərbaycanda da biz məhsullar götürdük. 1970-ci illərdə, 1980-ci illərin birinci yarısında biz Azərbaycan torpaqlarından nə qədər çox məhsullar – taxıl, üzüm, pambıq, tərəvəz və başqa məhsullar götürdük. Xatırlayın, orta hesabla ildə 800 min ton pambıq istehsal olunurdu, indi 300 min tona çata bilmirik. Üzüm istehsalı 2 milyon tona çatmışdı, indi heç 300 min ton da istehsal edə bilmirik.

Vaxtilə ildə 1 milyon 500 min ton taxıl istehsal edirdik. Keçən il isə 1 milyon tondan bir az çox istehsal edildi. O illərdə Azərbaycanda torpaqdan da səmərəli istifadə olunurdu. Ancaq sonrakı illərdə səmərəlilik aşağı düşməyə başladı və bu vəziyyətə gəldik.

İndi torpaqla əlaqədar başqa proses gedir. Vaxtilə torpağı, bütün kənd təsərrüfatını, mal-qaranı kollektivləşdirirdilər. O vaxt nə qədər mal-qara qırıldı. İnsanlar öz inəyini, davarını kolxoza vermək istəmirdi, ya kəsirdi, ya nə gəldi edirdi, ona görə nə qədər adam cəza çəkdi. Həm bitkiçilik, həm də heyvandarlıq sahəsinə nə qədər zərbələr dəydi. İndi şükür olsun ki, görürsünüz, biz heyvandarlıq sahəsində son bir il müddətində yaxşı nəticələr əldə etmişik. Güman edirəm, bu müsbət nəticələr daha da artacaqdır. Biz burada dağıntının qarşısını aldıq, amma nə qədər dağıldı? İndi biz ancaq 1982-ci ilin səviyyəsinə gəlib çatmışıq. Görün nə qədər dağılıb.

Burada çıxış edən hər bir adam böyük iftixar hissi ilə deyirdi ki, heyvandarlıq özəlləşdirildikdən sonra nə qədər artım vardır. Amma buna baxmayaraq, biz hələ 1982-ci ilin səviyyəsinə çatmışıq. Ancaq 1982-ci ildə bazarda ət yox idi. Ət, süd məhsullarının 50 faizini biz Rusiyadan, Ukraynadan gətirirdik. 1980, 1981, 1982-ci illərdə ət talonla verilirdi. İndi burada çıxış edənlər dedilər, hətta Lənkəran rayonu da əgər özünü ət-süd məhsulları ilə təmin edirsə, çünki məlumdur, orada tarixən mal-qara, ümumiyyətlə, çox az olubdur, bu özü böyük nailiyyətdir. Ona görə də bu məsələ məni artıq narahat etmir. [176-177]

Mən çox məmnunam ki, bu bir il müddətində siz artıq bu məsələnin əhəmiyyətini başa düşmüsünüz. Bizdə kolxozlarda və sovxozlarda olan mal-qara artıq özəlləşdirilibdir. Özəlləşdirilməyəni isə qısa müddətdə – bir-iki aya özəlləşdirilməlidir. Ümidvaram ki, 1997-ci ilin sonunda biz çox gözəl nəticələr əldə edəcəyik, ət, süd məhsullarının qiyməti get-gedə aşağı düşəcək və əhalimiz bunlardan istifadə edəcəkdir.

Yenə də deyirəm, ancaq torpaq çox mürəkkəb bir amildir. Ona görə də torpağın bölünməsi, onun xüsusi mülkiyyətə verilməsi və torpaqdan səmərəli istifadə edilməsi məsələsi kompleks surətdə həll olunmalıdır. "Torpaq islahatı haqqında" qanunun həyata keçirilməsi ilə əlaqədar görülən işləri mən qiymətləndirirəm. Amma hesab edirəm ki, hələ yerli hakimiyyət, kənd təsərrüfatı orqanları da, Kənd Təsərrüfatı Nazirliyi də və bizim Dövlət Aqrar İslahat Komissiyası da bu sahədə istənilən səviyyədə iş görmürlər.

Pambıqçılıq rayonlarında o böyük torpaqların şəxsi mülkiyyətə verilməsi və ondan səmərəli istifadə olunması məsələsinə yenə də qayıdıram. Məsələn, Qəbələ rayon icra hakimiyyətinin başçısı burada çıxış etdi. Onun verdiyi məlumat məni narahat etmir, çünki orada torpaq sahələri o qədər də böyük deyildir. O dedi ki, taxıl əkini sahəsi 20 min hektara çatdırılacaqdır, bu sahələr normal bölünəcəkdir. Burada o qədər böyük narahatlıq yoxdur. Baxmayaraq ki, orada da ədalətsizlik də ola bilər, torpaq dağıla da bilər, hərc-mərclik də ola bilər.

Böyük torpaq sahələrinin bölünməsi, şəxsi mülkiyyətə verilməsi və xüsusən ondan istifadə olunması çox mühüm məsələdir. Çünki böyük torpaq sahələrinin təkcə şəxsi mülkiyyətə verilməsi ilə iş bitmir, eyni zamanda su mənbələrindən, irriqasiya, su sistemindən, texnikadan istifadə edilməsi, kənd təsərrüfatı servisi məsələsi – bunlar hamısı kompleks surətdə həll olunmalıdır. Yenə də deyirəm, iş təkcə torpağı bölüb hərənin payını özünə verməkdə deyildir. Bizim vəzifəmiz onu, birincisi, ədalətli bölməkdən ibarətdir. Yəni heç kəs vəzifəsindən sui-istifadə etməsin, ədalətsizlik olunmasın, çünki biz qərar qəbul etmişik, "Torpaq islahatı haqqında" qanunda da var – kənddə yaşayan hər bir vətəndaş tor[177-178]pağın sahibkarıdır. Deməli, ona məxsus olan torpaq ona çatmalıdır. Burada ədalət prinsipi gözlənilməlidir və yerli hakimiyyət orqanları buna başları ilə cavabdehdir.

Ancaq bununla yanaşı, torpaqdan səmərəli istifadə olunması üçün şərait yaradılmalıdır. Torpağı xüsusi mülkiyyətə verməkdə bizim əsas məqsədimiz torpaqdan istifadənin səmərəliliyini, torpağın məhsuldarlığını artırmaqdır.

Torpaq şəxsi mülkiyyətdə olanda həmin torpağın sahibi onu göz bəbəyi kimi qoruyacaqdır. Ancaq məsələ təkcə onun qorunmasında deyildir. Gərək torpağın sahibinə bütün şərait yaradılsın ki, o, bu torpaqdan səmərəli istifadə edə bilsin. Torpağı alıb onun üstündə oturdu – nə olsun? Torpağı alandan sonra onun min dənə problemi çıxdı, onu da həll edə bilmədi – vətəndaş bundan da razı olmayacaqdır. Əksinə, hətta bəlkə bəziləri söyəcək ki, niyə məni bu işə saldılar. Ona görə də burada çox problemlər vardır. Amma gərək bu problemlərə bizim komissiyada baxılsın. Kənd təsərrüfatı orqanları, yerli icra hakimiyyəti gərək bu işə xüsusi fikir versinlər. Bu işi bütün rayonların hamısında eyni cür həll etmək olmaz. Hər rayonun özünə görə xüsusiyyəti vardır. Buna görə də həmin məsələlər hər rayonun xüsusiyyətinə uyğun həll edilməlidir.

Həm iqlim şəraiti, həm su, həm də texnikadan, gübrədən istifadə etmək imkanları, başqa məsələlər də var. Birincisi, rayonlarda bu işlə məşğul olmalıdırlar. İkincisi, bizim islahat komissiyasında bu məsələlər müzakirə edilməlidir, yollar axtarılmalıdır. Rayonların təşəbbüsü nəticəsində Mərkəzi İslahat Komissiyasında gərək bir neçə tipik variant olsun. Məsələn, Qəbələ, Oğuz rayonları üçün bir variant, Sabirabad, Saatlı rayonları üçün bir variant, Yevlax rayonu üçün bir variant, Qazax, Tovuz rayonları üçün ayrı bir variant, Xaçmaz, Quba rayonları üçün bir variant və cürbəcür başqa variantlar ola bilər.

Bunlar hamısı hazırlanmalıdır. Yoxsa burada yenə də söz verirlər ki, bu il bu qədər pambıq, taxıl istehsal edəcəyik. Bu göstəricilər keçən ilkindən fərqli deyil. İrşad Əliyev keçən il də demişdi ki, 320 min ton pambıq istehsal olunacaq. Amma 273 min ton məhsul istehsal edildi. Bu il də onu deyir. Axırda gəlib deyəcəkdir ki, belə oldu, elə oldu, olmadı. Amma nə 320 min ton, nə də ondan aşağı bizi qane edə bilər. Biz torpaq isla[178-

179]hatını aparırıq ki, – bu gün mənə dedilər ki, 219 min hektar sahədə pambıq əkiləcəkdir, – ondan daha da çox məhsul götürək. Biz torpaq islahatını ona görə aparırıq.

Buna nail olmaq üçün iş təkcə torpağı bölməkdən ibarət deyil. Böyük sahələrdə torpaq hələ bölünməyibdir. Torpaqdan səmərəli istifadə prosesini təşkil etmək lazımdır. Bu prosesin də bir çox komponentləri, ünsürləri, elementləri vardır. Hər bir element ayrılıqda və hamısı bir yerdə kompleks surətdə müəyyən edilməlidir.

Bu işləri yerli islahat komissiyaları və bizim Mərkəzi İslahat Komissiyası aparmalıdır. Əgər bunlar bu gün yoxdursa, hər halda yoxdur, çünki mən nə Mərkəzi İslahat Komissiyasının sədri Abbas Abbasovun, nə İrşad Əliyevin, nə də yerli icra hakimiyyəti başçılarının çıxışlarından bunu hiss etdim. Mən görülən işləri qiymətləndirərək, eyni zamanda bunlara görə hesab edirəm ki, aqrar islahat komissiyalarının işini kafi, qənaətbəxş hesab etmək olmaz. Çox ciddi işləmək lazımdır.

Güman edirəm ki, mənim dediyim bu sözlər, irəli sürdüyüm fikirlər bu məsələlərə daha da geniş yanaşmaq üçün sizə əsas verir. Mən istəmirəm indi bu məsələləri xırdalayım. Birincisi, siz bunu məndən yaxşı bilməlisiniz, çünki siz mütəxəssissiniz. İkincisi, bu, bugünkü müşavirənin yeri deyil. Amma mən indi bir neçə məqamlara toxundum.

Mən hesab edirəm ki, yerlərdə islahat komissiyaları və Mərkəzi İslahat Komissiyası işlərində olan bu nöqsanları aradan götürməlidir və işi daha da yaxşı təşkil etməlidir. Qarşıya çıxan bütün suallara, problemlərə cavab tapılmalıdır. Biz bu islahatların gedişini uzun müddətə uzada bilmərik. Bu islahatların həyata keçirilməsində 1997-ci il həlledici il olmalıdır. Bax, bizim komissiyalar bu fikirləri əsas götürərək işləməlidirlər.

Cari işlər haqqında da bir neçə kəlmə demək istəyirəm. Burada verilən məlumatlar onu göstərir ki, indi yaz tarla işləri ümumən normal gedir, amma çətinliklər də vardır. Burada İrşad Əliyev yanacaq, kreditlər, maliyyə məsələləri, gübrə və başqa məsələlər haqqında danışdı. Şübhəsiz ki, bu məsələlərin hamısını istənilən səviyyədə həll etmək mümkün deyil. Ancaq mən hesab edirəm ki, bu müşavirədən sonra Nazirlər Kabineti bu gün burada qaldırılan bütün məsələlərin hamısına baxmalıdır. [179-180] Mən bunu baş nazir Artur Paşazadəyə tapşırıram. O, öz müavinləri ilə, nazirlərlə birlikdə bu məsələləri müzakirə etməlidir və biz cari işlərin gedişini sürətləndirmək üçün və hazırkı kənd təsərrüfatı işlərini müvəffəqiyyətlə aparmaq üçün hansı imkanlardan bu gün – sabah istifadə edə biləriksə etməliyik. Çünki biz gərək çalışaq ki, bu il daha çox kənd təsərrüfatı məhsulları istehsal edək. Məqsəd bundan ibarət olmalıdır. O cümlədən, taxıl, pambıq və başqa məhsulların hamısı çox istehsal edilməlidir.

Nazirlər Kabineti, baş nazir Rasizadə bu məsələlərə baxmalıdır, lazımi tədbirlər görməlidir. Bəlkə əlavə vəsaitlər də tapmaq lazımdır və bunu bir neçə günün ərzində etməlidir, mənə məlumat verməlidir.

Mənə məlumatlar gəlib çatır ki, bu kreditlərin verilməsindən bəzən sui-istifadə olunur. Vaxt olmadı, Aqrar-Sənaye Bankı idarə heyətinin sədri Musayevi qaldırıb burada dinləmək istəyirdim. Ancaq bilsin ki, mənim qulağıma bəzi məlumatlar gəlib çatır ki, bu banklarda, Maliyyə Nazirliyində kreditləri verərkən onların üstündə faiz istəyirlər, başqa belə çirkin işlər yenə də mövcuddur. Belə siqnallar gəlir. Ona görə də mən hamını xəbərdar etmək istəyirəm ki, belə çirkin işlərlə məşğul olmaq bəsdir, bunlardan əl çəkmək lazımdır. Bütün sahələrdə korrupsiya ilə mübarizəni gücləndirmək lazımdır. Bunu gücləndirmək üçün, birinci, o sahələrdə ki, korrupsiya baş verir, onlar özləri tədbirlər görməlidirlər. Məcbur etməməlidirlər ki, başqa orqanları bu işə cəlb edək. Baxmayaraq ki, başqa orqanlar da öz vəzifələrini yerinə yetirməlidirlər.

Dağıntı, oğurluq hallarını aradan götürmək lazımdır. Üç-dörd gün bundan əvvəl Salyan pambıqtəmizləmə zavodundan 250 ton pambığı çıxarıb Gəncəyə apararkən Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları orada onları tutub saxlayıblar. Mən tapşırmışam ki, çox ciddi istintaq aparsınlar. Oradan birinci növ pambığı dördüncü növ əvəzinə çıxarırlar, deyirlər ki, hər tonunda 300 dollar, daha nə qədər mənimsəyirlər. Verilən məlumata görə, 250 ton pambıqdan 400 min dollar mənimsəmə meydana çıxır. Bu, yarayarmı? Biz o pambığı nə qədər çətinliklə istehsal edirik. [180-181]

İndi mən bu gün sizinlə danışıram ki, sentyabrda, oktyabrda nə qədər məhsul əldə edəcəyik. Ona görə ki, ayrı-ayrı pambıq zavodlarının direktorları, yaxud rayon icra hakimiyyəti başçıları götürüb bundan şəxsi məqsədləri üçün istifadə etsinlər? Belə şey yarayarmı? Yaxşı ki, o tutulubdur. Amma nə qədər belə tutulmayan hallar vardır.

Siqnallar gəlir ki, Salyan pambıqtəmizləmə zavodunda, ümumiyyətlə, Salyan rayonunda belə çirkin işlərlə məşğul olurlar. İndi də bu, tutulub. Şübhəsiz ki, cinayətkarlar cavab verməlidirlər. Dəfələrlə bildirmişəm, bu gün bir daha deyirəm – əgər kim oğurluqla, əyriliklə, xalqın, dövlətin malını mənimsəməklə məşğuldursa, yaxud bununla məşğul olmaq istəyirsə, çıxsın aradan. Bilsin ki, bu gün də olmasa, sabah bu adamların cəzası gəlib çatacaqdır.

Bu məsələlərdə bizim mövqeyimiz məlumdur. Bizim mövqeyimiz dövlətin, xalqın mənafeyidir. Xalqımız belə ağır, çətin vəziyyətdə yaşadığı bir zamanda, iqtisadiyyatımızda belə çətin proseslər keçirdiyimiz zaman bir pambıq zavodunda bir əməliyyatdan 400 min dollar pul, valyuta mənimsəsinlər – bu, yarayarmı? Bu, bizim bugünkü günümüzə yaraşarmı?

Mən göstəriş vermişəm və bu gün də deyirəm – belə hallarla kəskin mübarizə aparılır və aparılacaqdır. Prokurorluq istintaq aparmalıdır, cinayətkarlar qısa müddətdə məsuliyyətə cəlb olunmalıdır. Bu işə qatılmış

vəzifəli şəxslərin hamısı öz cəzasını almalıdır. Mən hamınızı xəbərdar edirəm. Bir sizi yox, respublikamızın bütün vəzifəli şəxslərini, dövlət, hakimiyyət orqanlarında, aqrar bölmədə, sənayedə, iqtisadiyyatda, hüquq-mühafizə orqanlarında işləyənləri, hamını xəbərdar edirəm: bu işlərdən əl çəkin! Rüşvətxorluqdan, oğurluqdan, əyrilikdən, korrupsiyaya qurşanmaqdan əl çəkin! Bilin ki, biz bu mübarizədən geri dönməyəcəyik. O cinayətkarlar bu gün də olmasa, sabah aşkar ediləcəklər. Görürsünüz, son illər Azərbaycanın başına bəla gətirmiş bu adamların hamısını biz harada da olsa tapıb gətiririk. Əgər o cinayətkarları haralarda olsa da tapıb gətiririksə, buradakıları onlardan da tez aşkara çıxaracağıq.

Hesab edirəm ki, mənim bu ədalətli və kəskin sözlərimdən hər bir vəzifəli şəxs və hər bir vətəndaş nəticə çıxaracaqdır. Respublikamızın iqtisadiyyatının bu çətin mərhələdən keçməsi [181-182] üçün təkcə iqtisadi islahatların keçirilməsi, istehsalatda vəziyyətin yaxşılaşdırılması yox, eyni zamanda ölkənin varidatının, əmlakının qorunması, saxlanılması çox vacibdir. Respublikanın, xalqın, dövlətin əmlakını dağıdanlar, mənimsəyənlər ən yüksək cəzaya məhkum olunmalıdırlar. Həm bu gün, həm də gələcək üçün bunu bilmək lazımdır.

Bu gün biz iqtisadiyyatda əldə etdiyimiz nailiyyətlər haqqında danışarkən şübhəsiz ki, iqtisadiyyatın bu müsbət dəyişikliklərindən respublika əhalisinin rifah halının yaxşılaşdırılması üçün istifadə etməyə çalışmalıyıq. Burada rəqəmlər gətirildi ki, keçən il biz maaşların artırılmasını da təmin etmişik. Bu il də bu barədə müəyyən tədbirlər görüləcəkdir. Sosial fondlardan səmərəli istifadə olunmalıdır. Hər sahədə vətəndaşların rifah halının yaxşılaşdırılmasına çalışmalıyıq. Bu bizim borcumuzdur, vəzifəmizdir və bütün siyasətimizin, sosial-iqtisadi siyasətimizin əsas məqsədidir.

Bu baxımdan, yerindən-yurdundan didərgin düşmüş, qaçqın vəziyyətində yaşayan vətəndaşlarımıza xüsusi qayğı göstərilməlidir. Sizin rayonlarınızda çoxlu qaçqınlar məskunlaşıblar. İndiyə qədər görülən işlər qiymətləndirilir. Ancaq mən hesab edirəm ki, hər bir rayon, şəhər icra hakimiyyəti, müvafiq nazirliklər, təşkilatlar qaçqın, köçkün vəziyyətində yaşayan insanlara xüsusi qayğı, diqqət göstərməlidirlər. Bu, sizin əsas vəzifənizdir və bizim hamımızın əsas vəzifəmizdir. Bunu heç vaxt unutmaq lazım deyil. Xahiş edirəm ki, bu vəzifəni daim diqqət mərkəzində saxlayasınız.

Şəhid ailələrinə xüsusi qayğı göstərmək bizim bütün orqanların diqqət mərkəzində olmalıdır. Vətənimizi müdafiə edərkən əlil olmuş, xəsarət almış adamların sosial vəziyyətinə qayğı göstərmək də əsas vəzifəmizdir. Mən xahiş edirəm və tələb edirəm ki, bir daha deyirəm, bu vəzifələri daim diqqət mərkəzində saxlayasınız.

Hesab edirəm ki, bugünkü danışıq çox səmərəli, əhəmiyyətli oldu və bu, 1997-ci ildə, ümumiyyətlə, iqtisadi islahatların və xüsusən aqrar islahatların həyata keçirilməsinə kömək edəcəkdir. Ancaq o şərtlə ki, burada qarşıya qoyulan vəzifələr ardıcıl surətdə həyata keçirilsin. Ümidvar olduğumu bildirmək istəyirəm ki, siz bunu edəcəksiniz. [182-183]

Mənə ümid verən bir də odur ki, bu gün çıxış edənlərin hamısı çox yüksək hisslərlə, həvəslə və nikbinliklə danışırdılar. Məni sevindirən odur ki, bizim insanlarımız bu islahatların nə qədər əhəmiyyətli olduğunu artıq dərk edirlər və bunun əməli nəticələrini görərək özləri sevinirlər. Bu, çox gözəl haldır. Demək, beləliklə, bu məsələlərdə başqa bir fikir, başqa bir yol yoxdur. Hərə öz sahəsində lazımi tədbirlər görməlidir.

Mən əmin olduğumu bildirmək istəyirəm ki, bugünkü müzakirədən lazımi nəticələr çıxarılacaqdır və aqrar bölmədə həm islahatların həyata keçirilməsi, həm də cari kənd təsərrüfatı işlərinin yerinə yetirilməsi ilə əlaqədar bizim sizinlə görüşlərimizdə müsbət nəticələr haqqında danışacağıq.

Nəhayət, biz Qurban bayramı ərəfəsindəyik. Bu, bizim milli xalq bayramımızdır. Bu bayram münasibətilə mən sizi təbrik edirəm. Bütün Azərbaycan vətəndaşlarını təbrik edirəm. Hamınıza cansağlığı, səadət və bütün işlərinizdə uğurlar arzulayıram. Sağ olun. [183-184]

## QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Mərhəmətli, rəhmli Allahın adı ilə!
Əziz bacılar və qardaşlar!

Ulu tanrının İslamı bir din kimi tamamlayıb insanlar üçün hidayət yolu seçdiyi bu əziz Qurban bayramı günündə hamınızı səmimi-qəlbdən təbrik edirəm.

Bütün müsəlmanların həmrəylik və qardaşlıq rəmzi olan mübarək Qurban bayramının ölkəmizdə rəsmi qeyd olunması həm müstəqilliyimizin dönməzliyini, həm də Azərbaycan xalqının öz milli, dini ənənələrinə sadiq olduğunu dünyaya nümayiş etdirir.

İnanıram ki, bu müqəddəs bayram günlərində böyük xalqın bəxş etdiyi nemətlərə görə minnətdarlığınızı bildirməklə yanaşı Azərbaycanın suverenliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyünün bərpa edilməsi, xalqımızın xoşbəxt həyata qovuşmasını diləyirsiniz.

Əminəm ki, arzu və diləkləriniz Allahın köməyi və xalqımızın qeyrəti ilə həyata keçəcəkdir. Xalqımızın haqq işi qalib gələcəkdir. Şəhid balalarımızın ruhlarının şad olacağı gün – Vətən torpağının mənfur düşmən tapdağından tamamilə azad ediləcəyi və taleyinə qaçqınlıq, köçkünlük düşmüş həmvətənlərimizin öz doğma yerlərinə qayıdacaqları gün uzaqda deyildir. Azərbaycan-Ermənistan münaqişəsinin dinc yolla həlli uğrunda apardığımız ardıcıl siyasət və tutduğumuz qətiyyətli mövqe, gənc ordumuzun günü-gündən artan döyüş qüdrəti bu inam üçün möhkəm zəmindir.

Qurban bayramı insanlar arasında mehribanlıq və qardaşlıq tellərinin möhkəmləndirilməsi üçün ən gözəl vasitədir. Qoy bu ilki Qurban bayramı da bürün azərbaycanlıların, o cümlədən xaricdə yaşayan soydaşlarımızın bir-birinə qayğı və diqqətinin artırılması, cəmiyyətdə milli həmrəyliyin daha da möhkəmləndirilməsi işinə öz töhfəsini versin! [184-185]

Əziz bayram münasibətilə Allah-Təaladan hər birinizə can-sağlığı və xoşbəxtlik arzulayır, xalqımıza müstəqil Azərbaycanın tərəqqisi naminə daha böyük əzmkarlıq və hünər diləyirəm!

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 16 aprel 1997-ci il* [185-186]

## QURBAN BAYRAMI GÜNÜ LERİKLİ FERMER XANIŞ ŞAHIYEVLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*18 aprel 1997-ci il*

Səni və Lerik camaatını Qurban bayramı münasibətilə təbrik edirəm. Qurban bayramı xalqımızın, millətimizin milli, dini bayramıdır, əziz bayramımızdır. Bu gün bütün xalqımız bayram edir. Bir zəhmət adamı, əsl Azərbaycan vətəndaşı kimi bu bayramı həm öz evində qeyd etmisən, həm də qurban kəsib gətirmisən ki, onu səninlə birlikdə paylayaq, camaatın bu bayramı yaxşı keçirməsinə kömək edək. Çox sağ ol, təşəkkür edirəm.

Səninlə artıq birinci dəfə deyil ki, görüşürük. Sən mənim dostumsan, mən də sənin dostunam. Mən həmişə dostluğa sədaqətli olmuşam. Həmişə arzu etmişəm ki, mənimlə dostluq edən adamlar sədaqətli olsunlar. Düzdür, həyatımda sədaqətsizliyə də rast gəlmişəm. Ancaq bu böyük, uzunmüddətli həyatımda mən xalqın sədaqətini həmişə hiss etmişəm və ona yüksək qiymət vermişəm. Bu ağır dövrlərdə məni yaşadan, bütün bu çətinliklərin öhdəsindən gəlməyimə imkan verən xalqın sədaqəti, xalqın zəhmətimə verdiyi qiymət olubdur. Mənim ən böyük dayağım xalqdır. Xalqın da ən görkəmli nümayəndələrindən biri sənsən.

Lerik Azərbaycanın dağ, ucqar rayonudur. İndi sən dedin ki, Lerikdə 64 min əhali yaşayır. Orada gözəl insanlar, zəhmətkeş adamlar, qəhrəman insanlar yaşayır. Bu qəhrəmanlardan biri də sənsən və doğrudan da nümunəsən. Həm əməkdə, həm həyatda, həm də Vətənə sədaqətində qəhrəmansan. Oğlun şəhid olubdur, övladların ölkəmizə sədaqətlə xidmət edirlər. Məni sevindirən odur ki, indi sən bildirdin, iki oğlunu orduya xidmətə göndərmisən.

Gördüyün işlər, zəhmətin, qazandığın hörmət ailənlə birlikdə sənin xalqa, millətimizə göstərdiyin böyük xidməti sübut [186-187] edir. Ona görə də mən sənə təşəkkür edirəm. Xahiş edirəm, mənim salamımı, bayram təbriklərimi bütün Lerik camaatına çatdırasınız. Mən leriklilərlə əbədi dostam. Bu dostluq çox böyük sınaqlardan keçibdir. Bu dostluğun ən gözəl nümunəsi isə mənim səninlə dostluğumdur. Bu gün sən gözəl sözlər danışdın. Bilirsiniz, mən keçən dəfə də demişəm, – alimlərimiz, yazıçılarımız, şairlərimiz, mədəniyyət xadimlərimiz hesab edirlər ki, dəyərli sözləri onlar deyə bilərlər. Ancaq xalqımızın çoxəsrlik tarixində dəyərli, müdrik sözləri müdrik insanlar deyiblər. Müdriklik təkcə o insanların elmi biliyi, təhsili ilə bağlı deyildir. Müdriklik insanın fitri istedadıdır, müdriklik həm də insanın həyatı dərk etməsi, gedən proseslərə düzgün qiymət verə bilməsi və ondan özü üçün lazımi faydalar götürməsidir.

Sən dağda yaşayan, təsərrüfatla, heyvandarlıqla məşğul olan bir şəxssən. Azərbaycanın xarici siyasəti haqqında nə gözəl, ağıllı, dəyərli sözlər deyirsən. Lissabon Zirvə görüşündə dünyanın 54 dövlətinin başçılarının toplandığı mötəbər beynəlxalq tədbirdə Azərbaycan Respublikasının siyasətinin əldə etdiyi nailiyyəti, qələbəni tamamilə doğru, düzgün qiymətləndirirsən, bu qələbəyə sən qurban kəsmisən.

**Xanış Şahıyev:** Cənab prezident, bayaq da dedim, mən Sizin keçirdiyiniz bütün tədbirlərə, səfərlərinizə televiziya vasitəsilə çox böyük maraqla tamaşa edirəm. Bu gün mən buraya 155-dən çox qurban kəsib gətirmişəm. Mənim üçün Sizinlə dostluq etməkdən böyük xoşbəxtlik yoxdur. Siz mənim gözəl prezidentimsiniz. Bu, gözəl arvadımdır, bu da mənim nəvəmdir. Kişi gərək kişinin ayağı altında ölsün, namərdin yox. Mən Allahdan həmişə arzu edirəm ki, Sizin kimi kişinin ayağı altında ölüm. Bu, mənim üçün bəsdir. Elə bil ki, gedib Kərbəlanı ziyarət edirəm. Lissabonda dünyanın bütün ölkələrinin başçıları Sizin sözünüzü eşitdi. Siz bu qələbəni əldə etdiniz. Qoy xalq da bilsin ki, əgər Siz hər hansı bir işdə mənə kömək etsəniz, mən dostluğu pozaram. Bu mənə bəsdir ki, mən Heydər Əliyev kimi böyük bir şəxsiyyətlə dostluq edirəm. Mən tamahkar adam deyiləm. Adam var ki, vəzifə dostudur, adam var, ehtiyac dostudur. Amma mən ürək dostuyam, bir gün də məktəbə getməmişəm. [187-188]

**Heydər Əliyev:** Sən vəzifəli adam deyilsən. Amma nə qədər böyük məktəblər qurtarandan da çox ağıllı sözlər danışırsan.

**Xanış Şahıyev:** Mən uşaq deyiləm ki, prezidentin dostuyam.

**Heydər Əliyev:** Prezidentin dostu olmaqla yanaşı, sənin əməllərin, həyatın var.

**Xanış Şahıyev:** Mən boş-boş danışan adamları sülhə, prezidentin ətrafında birləşməyə çağırıram. Cənab prezident, rayonumuzda işlər çox yaxşı gedir. Əkin də yaxşı gedir. İndi yaylaqdan Lerikə yeni su kəməri çəkilir. Bu su yayda gəlib Lerikə çatacaqdır. Yaxşı işə Siz də, biz də qiymət veririk.

**Heydər Əliyev:** Müdriklik insanın kökündə, əməllərindədir. Mən də səni öz dostum, müdrik bir adam kimi qəbul edirəm. Müdrik, ağıllı adamsan. Sənin bu təşəbbüsün Azərbaycanda bütün zəhmət adamları, saf, pak insanlar üçün böyük nümunədir. Çox sağ ol. Təşəkkür edirəm. Sən bu qədər qoyun kəsib gətirirsən. Lerikdə camaat yaxşı yaşayır, yoxsa yox?

**Xanış Şahıyev:** Mən prezidentə yalan danışa bilmərəm, çətinlik var. Amma Allahın köməyi ilə ötən il payız Lerikdə çox yaxşı keçdi. Camaat necə lazımdır, elə də əkib. Allahın köməyi ilə gələn il leriklilər taxıl satacaqlar.

**Heydər Əliyev:** Mən Lerikdə gedən islahat haqqında soruşmaq istəyirəm.

**Xanış Şahıyev:** Mənə elə gəlir ki, heç bir rayonda Lerikdəki kimi islahat getmir. Lerikdə mal-qara, qoyun nəzarət altında camaata verildi. Rayonda islahatlar çox yaxşı gedir.

**Heydər Əliyev:** Biz islahatların gedişi vəziyyəti haqqında müşavirə keçirdik. Sən ona qulaq asdın?

**Xanış Şahıyev:** Sizin tədbiriniz olanda mən işimi-gücümü atıb həmin gün televizorun qarşısında oturub bunlara qulaq asıram.

**Heydər Əliyev:** Sən müşavirədə gedən müzakirələri bəyəndinmi? Demək istəyirəm ki, islahatlarla əlaqədar görülən işlər doğru-düzgün işlərdimi?

**Xanış Şahıyev:** Bəli, bunlar çox düzgün işlərdir. Xalq bütün bunları çox yaxşı qarşılayır. Fəhlə onsuz da fəhlədir, qoy o boş-boş danışanlar da işə qoşulsunlar. [188-189]

**Heydər Əliyev:** Biz istəyirik ki, camaatın malı, mülkü olsun, adamlar sahibkar olsunlar, hərə öz mülkünün sahibi olsun.

**Xanış Şahıyev:** Bunlar mənim ata-babamdan qalma malımdır. Əgər təsərrüfatım yaxşı olmasaydı, bunları bura gətirə bilməzdim. Gərək camaat da çalışsın, işləsin, öz xüsusi malına, əkininə yaxşı baxsın.

**Heydər Əliyev:** Lerikdə torpaq camaata paylanıbdırmı? Camaat bundan razıdırmı?

**Xanış Şahıyev:** Bəli, paylanıb, camaat da bundan çox razıdır. Ağsaqqal olduğuma görə məni islahat komissiyasının sədri təyin ediblər. Hər iş razılıqla görülür, hamı bu təşəbbüsü bəyənir.

**Heydər Əliyev:** Çox sağ ol. Mən sənə təşəkkür edirəm, səni təbrik edirəm. Çox yaxşı ki, bu dəfə xanımını da gətirmisən.

De görüm, bu sənə neçə övlad bəxş edibdir?

**Xanış Şahıyev:** 17 uşaq anasıdır. Onların 16-sı oğlandır. Bu uşaqlardan ikisi şəhid olubdur. Hörmətli prezident! Mənim ailə üzvlərim ilə mehribanlıqla görüşdüyünüzə görə Sizə bir daha öz dərin minnətdarlığımı bildirirəm.

**Heydər Əliyev:** Mən sənin ailənlə görüşümdən, xüsusən 17 uşaq anası olan, Qəhrəman ana Səmərqənd xanımla görüşdən çox məmnun oldum. Mən sənin nəvəni bağrıma basıram və deyirəm: sağ ol, oğlum, sən böyüyüb baban kimi olacaqsan, işləyəcəksən və xalqımıza baban kimi xidmət göstərəcəksən. [189-190]

**XALQ ARTİSTİ**
**NƏSİBƏ XANIM ZEYNALOVAYA**

Hörmətli Nəsibə xanım!

Sizi – Azərbaycanın görkəmli səhnə ustasını anadan olmağınızın 80 illiyi münasibətilə ürəkdən təbrik edirəm.

Siz Milli Teatrımızın inkişafında böyük xidmətləri ilə seçilən nadir sənətkarlardansınız. Azərbaycanda aktyor sənətinin zəngin ənənələrini ləyaqətlə davam etdirən, teatr mədəniyyətimizdə yeni bir mərhələ olan yaradıcılığınız, səhnədə və kinoda bizə bəxş etdiyiniz rəngarəng, parlaq obrazlar Azərbaycanın komediya teatrı tarixinə əbədi daxil olmuşdur.

Yüksək ifaçılıq məharəti ilə yaratdığınız müxtəlif xarakterli rollar öz səmimiliyi, xəlqiliyi və həyatiliyi ilə ürəkləri fəth edir, hər bir tamaşaçıda doğmalıq hissləri oyadır. İnsanın daxili aləmini ən xırda incəliklərinə qədər açmaq bacarığı, milli kolorit və zəngin səhnə təcrübəsi ilə səciyyələnən sənətiniz Sizə xalq arasında geniş şöhrət gətirmişdir.

60 illik səhnə həyatınız yeni nəsillər üçün sənətə sonsuz sədaqət və əsl fədakarlıq nümunəsidir. Sizin təmənnasız xidmətləriniz ayrı-ayrı dövrlərdə yüksək dövlət mükafatlarına layiq görülmüşdür. Ən qiymətli mükafatınız isə yaratdığınız duzlu, məzəli obrazlara vurğun olan milyonlarla tamaşaçının, bütün xalqımızın Sizə bəslədiyi dərin məhəbbət olmuşdur.

Azərbaycan komediya teatrını zənginləşdirmiş gərgin əməyinizə. fitri istedadınıza və sənətə vurğunluğunuza görə qədirbilən xalqımız adından Sizə böyük minnətdarlığımı bildirir. cansağlığı, xoşbəxtlik və işinizdə uğurlar arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 20 aprel 1997-ci il* [190-191]

## KALMIKİYANIN XALQ ŞAİRİ DAVİD KUQULTİNOVA

Əziz David Nikitiç!

Sizi şərəfli 75 illik yubileyiniz münasibətilə təbrik edir, Sizə cansağlığı, səadət və yeni-yeni yaradıcılıq uğurları arzulayıram

Dünya mədəniyyəti xəzinəsinə sanballı töhfə vermiş kalmık ədəbiyyatı əsl xalq şairi kimi Sizinlə haqlı olaraq fəxr edir. Əsrimizin taleyüklü problemləri Sizin şəxsi taleyinizdə, yaradıcılığınızda və ictimai fəaliyyətinizdə öz əksini tapmışdır. Kalmık xalqının mənəvi ənənələri əsasında formalaşmış poeziyanız tarixin bütün mərhələlərində həmişə xeyirxahlıq, humanizm ideallarına, ümumbəşəri dəyərlərə xidmət etmişdir.

Siz xalqlar dostluğunun nəğməkarı kimi postsovet məkanının mürəkkəb şəraitində də öz doğma mövzunuza sədaqətinizi qoruyub saxlayaraq çoxcəhətli mədəni əlaqələrin inkişafına ardıcıl surətdə tərəfdar çıxmısınız. Eyni zamanda gerçəkliyin yaradıcılığınız üçün xas olan fəlsəfi nöqteyi-nəzərdən və vətəndaşlıq mövqeyindən dərk edilməsi nəticəsində dünya ədəbiyyatının böyük humanist ideyalarını yeni şəkildə səsləndirmisiniz.

Əsərlərinizin güclü və cəsur qəhrəmanları, igidliyi və vətənpərvərliyi vəsf edən kalmık eposlarında əksini tapan qədim ənənələri davam etdirmişlər. Siz ədəbiyyata romantik kimi gələrək öz yaradıcılığınızda gənclik ideallarına sədaqəti qoruyub saxlaya bilmisiniz ki, bu da şerlərinizdə sonrakı nəsillər üçün əxlaq və mənəvi kamillik dərsinə çevrilmişdir. [191-192]

Azərbaycan ilə Sizi çoxdankı dostluq telləri bağlayır. Əminəm ki, tariximizin müasir mərhələsi bütün sahələrdə Azərbaycan-Kalmıkiya əməkdaşlığının daha da inkişafı işinə hələ çoxlu yeni səhifə yazacaqdır.

Ömrünüz uzun olsun. Sizi bağrıma basıram.

Sizin

**HEYDƏR ƏLİYEV**
Azərbaycan Respublikasının Prezidenti

*Bakı şəhəri, 21 aprel 1997-ci il* [192-193]

**"AZƏRBAYCANDA İNVESTİSİYA QOYULUŞU İMKANLARI" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA**

Hörmətli konfrans iştirakçıları!

Sizi qədim Azərbaycan torpağında ürəkdən salamlayıram, konfransınıza müvəffəqiyyət arzulayıram.

Bu konfransın Bakıda keçirilməsi ölkəmizdə baş verən əsaslı dəyişikliklərin, tutduğumuz demokratiya, iqtisadi islahatlar yolunun dünyanın işgüzar adamları tərəfindən yüksək qiymətləndirilməsinin bariz təzahürüdür.

Müstəqil Azərbaycan Respublikasının beynəlxalq əlaqələr sistemində layiqli yer tutmasına və iqtisadiyyatımızın önəmli problemlərinin həllinə göstərdiyiniz maraq və qayğı üçün sizə təşəkkür edirəm.

Bizim ardıcıllıqla həyata keçirdiyimiz islahatların məqsədi milli iqtisadiyyatımızı dirçəltmək, onun dinamik inkişafını və xalqımızın firavan həyat səviyyəsini təmin etməkdir. Bunun üçün biz bazar iqtisadiyyatı münasibətlərinin bərqərar olmasına, xarici investisiyalardan, milli sərvətlərimizdən səmərəli istifadə edilməsinə başlıca diqqət yetiririk və sizin hərtərəfli əməkdaşlığınıza bel bağlayırıq.

Əminəm ki, Azərbaycan Respublikası bu məqsədlərə çatacaqdır. Xalqımızın əməksevərliyi, əzmi və iradəsi, sizin kimi dostların köməyi və əməkdaşlığı bun etibarlı zəmanətdir.

Sizə xeyirxah fəaliyyətinizdə böyük uğurlar arzulayıram.

**HEYDƏR ƏLİYEV**
Azərbaycan Respublikasının Prezidenti

*Bakı şəhəri, 22 aprel 1997-ci il* [193-194]

# AZƏRBAYCANA RƏSMİ SƏFƏRƏ GƏLƏN QIRĞIZISTAN RESPUBLİKASININ PREZİDENTİ ƏSGƏR AKAYEVİN BİNƏ HAVA LİMANINDA QARŞILANMASI MƏRASİMİNDƏ BƏYANAT

*23 aprel 1997-ci il*

Hörmətli dostumuz, Qırğızıstan Respublikasının prezidenti cənab Əsgər Akayev!

Sizin Azərbaycan Respublikasına ilk rəsmi səfəriniz münasibətilə məmnun olduğumu bildirirəm, Sizə "Qədim Azərbaycan torpağına xoş gəlmisiniz!" – deyirəm.

Qırğızıstanla Azərbaycan arasında olan dostluq və qardaşlıq əlaqələrinin qədim tarixi var. Biz bu əlaqələrin yeni mərhələsini yaşayırıq. Qırğızıstan və Azərbaycan müstəqil dövlətlərdir. Ölkələrimiz, dövlətlərimiz arasında dostluq əlaqələri yaranıb və ümidvaram ki, Sizin Azərbaycana rəsmi səfəriniz bu əlaqələrin inkişaf etməsinə təkan verəcək, kömək edəcəkdir.

Sizi Azərbaycanda xoş görüşlər, mehriban qonaqpərvərlik gözləyir. Bizim ölkəmizə xoş gəlmisiniz, səfa gətirmisiniz! Sağ olun. [194-195]

## QIRĞIZISTAN PREZİDENTİ ƏSGƏR AKAYEVİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ ZAMANI YÜKSƏK SƏVİYYƏLİ AZƏRBAYCAN-QIRĞIZISTAN DANIŞIQLARINDA ÇIXIŞ

*Prezident sarayı*

*23 aprel 1997-ci il*

Hörmətli Əsgər Akayev!

Qırğızıstan nümayəndə heyətinin hörmətli üzvləri. Mən sizi Azərbaycan torpağında səmimiyyətlə salamlayır, sizə "Xoş gəlmişsiniz!" deyir və bildirirəm ki, Qırğızıstan dövlət başçısının ölkəmizə rəsmi səfəri bizim iki dövlətimiz arasında münasibətlərin inkişafında əlamətdar hadisə, mühüm mərhələdir.

Mən ötən il "Manas" eposunun 1000 illiyinin bayram edildiyi günlərdə Qırğızıstan torpağında keçirdiyim və mənə dərin təsir bağışlayan görüşləri böyük səmimiyyətlə xatırlayıram.

Azərbaycan və Qırğızıstan müstəqillik əldə etdikdən sonra çoxdankı və sıx iqtisadi, elmi, mədəni əlaqələrin möhkəmlənməsi və inkişafı üçün ölkələrimizin imkanları xeyli artmışdır. Bu müddətdə az iş görülməmişdir, lakin hələ çox iş görülməlidir, bundan ötrü bütün mövcud imkanlardan fəal istifadə etmək lazımdır.

Qətiyyətlə bildirirəm ki, öz müstəqilliyi illərində Azərbaycan suveren dövlət kimi formalaşması üçün böyük yol keçmiş, hüquqi, demokratik, sivilizasiyalı dövlət quruculuğu yolunu qətiyyətlə tutaraq böyük çətinlikləri aradan qaldırmış və aradan qaldırmaqda davam edir.

Mən müstəqillik yolunda inamla irəliləyən Azərbaycanla Qırğızıstanın MDB-də, bütün beynəlxalq təşkilatlarda uğurlu [195-196] əməkdaşlığını böyük məmnunluq hissi ilə qeyd edərək deyirəm ki, indiki görüş ölkələrimiz arasında münasibətləri fəallaşdırmağa və bu münasibətlərin səmərəliliyini yüksəltməyə dair bir çox məsələlər barəsində ətraflı fikir mübadiləsi aparmağa imkan verir.

Mən Qırğızıstan rəhbəri cənab Əsgər Akayevə mənim dəvətimi qəbul edib Azərbaycana rəsmi dövlət səfərinə gəldiyinə görə təşəkkürümü bildirir və əmin olduğumu söyləyirəm ki, bu səfər Azərbaycana da, Qırğızıstana da böyük fayda gətirəcəkdir.

Azərbaycan xalqı, respublikamız haqqında səmimi və dostcasına sözlər üçün, Azərbaycan-Qırğızıstan münasibətləri barədə verdiyi ətraflı məlumata görə, ölkələrimiz və xalqlarımız arasında əməkdaşlığın və dostluq əlaqələrinin bundan sonra da genişləndirilməsinə dair söylədiyi mühüm fikirlərə görə Qırğızıstan prezidentinə təşəkkür edirəm. Eyni zamanda baxışların və mövqelərin bütünlüklə üst-üstə düşməsindən razı qaldığımı bildirərək deyirəm ki, bu, Azərbaycan ilə Qırğızıstan arasında münasibətlərin gələcək inkişafı üçün yaxşı əsas və etibarlı təminatdır. Mən dost və qardaş Qırğızıstanın hörmətli başçısını əmin edirəm ki, Azərbaycan bundan sonra da bütün sahələrdə Qırğızıstan üçün çox etibarlı tərəfdaş olacaq, qarşılıqlı surətdə faydalı əməkdaşlığı inkişaf etdirməkdən ötrü bütün imkanlardan istifadə edəcəkdir. Bununla əlaqədar mən Qırğızıstan rəhbərinin belə bir fikri ilə tam razıyam ki, onun Azərbaycana səfərinin tarixi əhəmiyyəti var, çünki bu səfər ölkələrimiz arasında əlaqələri indən belə də möhkəmləndirməyin və inkişaf etdirməyin daha sanballı bünövrəsini qoyur. Bildirmək istəyirəm ki, Azərbaycan və Qırğızıstan arasında imzalanmaq üçün hazırlanmış başlıca sənəd dostluq və əməkdaşlıq haqqında müqavilədir, digər sənədlər də mühümdür və əməkdaşlığımızın inkişaf etdirilməsi və möhkəmləndirilməsi üçün yaxşı normativ – hüquqi əsas yaradırlar.

Bir daha qeyd edirəm ki, Qırğızıstanın müstəqillik qazandıqdan sonra bu yolla inamla və ardıcıl surətdə getməsini Azərbaycan yüksək qiymətləndirir. Dövlətlərimizin xalqlarının başlıca vəzifəsi onların qazandıqları müstəqilliyi qoruyub saxlamaq və möhkəmləndirmək, ölkələrimizi Dünya Birliyinin [196-197] tam hüquqlu üzvlərinə çevirməkdir ki, dövlət müstəqilliyi dövlətlərimiz üçün dönməz hadisəyə çevrilsin, onlar əcdadlarımızın arzularını həyata keçirə bilsinlər.

Müstəqillik illəri Azərbaycan üçün çox mürəkkəb və çətin olubdur. Ermənistanın təcavüzü, 1990-cı ilin yanvarındakı faciəli hadisələr Azərbaycanın həyatına və ictimai mühitinə, xalqımızın psixoloji vəziyyətinə ağır təsir göstərmişdir. Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycanın torpaqlarının iyirmi faizdən çoxu işğal olunub, bir milyondan çox vətəndaşımız işğal olunmuş torpaqlardan qaçqın düşüb və indi ağır şəraitdə çadırlarda yaşayır. İşğal olunmuş ərazilərdə sənaye və kənd təsərrüfatı müəssisələrimiz, sosial obyektlərimiz və mədəniyyət abidələrimiz, taxıl zəmilərimiz, pambıq plantasiyalarımız, üzüm bağlarımız işğalçılar tərəfindən yandırılmış, viran edilmişdir. Böyük itkilərə və qurbanlara baxmayaraq ölkəmiz məsələnin sülh yolu ilə həllinin tərəfdarıdır. Üç ildir ki, atəşkəs haqqında sazişə əməl olunur, Azərbaycan bunu Ermənistan-Azərbaycan münaqişəsinin bütün tarixi ərzində mühüm nailiyyət sayır və ona tam sülhə nail olmaq üçün imkan kimi baxır. Münaqişənin sülh yolu ilə aradan qaldırılması sahəsində Azərbaycanın gördüyü işlər artıq ciddi bəhrələr verməkdədir. Lissabon Zirvə

görüşünün yekunları və həmin toplantıda münaqişənin aradan qaldırılmasına dair qəbul edilmiş universal prinsiplər, – gələcəkdə bütün danışıqların əsasını təşkil etməli olan prinsiplər bu deyilənlərə inandırıcı sübutdur.

Lissabonda qəbul edilmiş sənədi dəstəklədiyinə, habelə bu prinsiplərin məsələnin həlli üçün yeganə məqbul prinsiplər olduğunu indi də təsdiqlədiyinə görə prezident Əsgər Akayevə təşəkkürümü bildirirəm. Ümidvaram ki, bu prinsiplərin həyata keçirilməsində ATƏT, MDB çərçivələrində Azərbaycan indən belə də Qırğızıstan tərəfindən dəstəklənəcəkdir.

Biz ölkəmizin ərazi bütövlüyünün təmin olunması, qaçqınların doğma yurdlarına qayıtması şərtilə, Dağlıq Qarabağ üçün nəzərdə tutulanlar da gözlənilməklə Ermənistan ilə Azərbaycan arasında sülhə tərəfdarıq, dünyanın bir çox ölkələri, o cümlədən Mərkəzi Asiya ölkələri üçün də böyük əhəmiyyəti olan Qafqazda sülh yaranmasına tərəfdarıq. Azərbaycan Qafqazda sülh haqqında Tbilisidə imzalanmış bəyan[197-198]namənin həyata keçirilməsinə çalışacaqdır, öz qonşuları – Gürcüstan, Rusiya, İran, Türkiyə ilə, habelə tarixən bağlı olduğu Mərkəzi Asiya ölkələri ilə tam dostluq və qarşılıqlı anlaşma şəraitində yaşamaq, əlaqələri inkişaf etdirmək və möhkəmləndirmək niyyətindədir. Bunun üçün ən mühüm vasitə isə sülhdür.

Mən Bakıda 1990-cı ilin faciəli Yanvar hadisələri ilə əlaqədar Qırğızıstan başçısının ifadə etdiyi səmimi hisslərə görə təşəkkürümü bildirirəm. Hörmətli prezident Əsgər Akayevin tamamilə haqlı olaraq qeyd etdiyi kimi, müharibədən sonrakı dövrdə Sovet İttifaqının heç bir xalqı SSRİ-nin mərkəzi hakimiyyət orqanları tərəfindən bu cür təcavüzə məruz qalmamışdır. Azərbaycan xalqı bu faciəni heç vaxt unutmayacaqdır. Bu faciə xalqımızın milli azadlıq, dövlət müstəqilliyi mövqelərində nə dərəcədə möhkəm dayandığını, xalqımızın nə dərəcədə azadlıqsevər olduğunu göstərdi.

Yeri gəlmişkən, mən həm bu yaxınlarda respublikada baş vermiş və ölkəmizdə vəziyyəti mürəkkəbləşdirmiş hadisələr üzərində qısaca dayanmaq istərdim. Müstəqilliyimizin ilk illərində hakimiyyət üç dəfə dəyişmişdi, müxtəlif qanunsuz silahlı dəstələr fəaliyyət göstərirdi, dövlət çevrilişi etməyə, terror əməlləri törətməyə cəhdlər edilirdi. Mən 1993-cü ilin iyununda Azərbaycan rəhbərliyinə gəldikdən sonra respublikada ictimai-siyasi vəziyyəti sabitləşdirmək üçün çox iş görülüb, 1994-cü ilin oktyabrı və 1995-ci ilin martında iki böyük dövlət çevrilişinin qarşısı alınıb. İndi bütün bunlara son qoyulmuş, xalq sıx birləşmişdir, ictimai-siyasi sabitlik yaradılmışdır, Azərbaycan demokratik, hüquqi dövlət quruculuğu yolu ilə qətiyyətlə gedir. Bütün bunlar əlbəttə Azərbaycanda yeridilən və xalq tərəfindən dəstəklənən siyasət sayəsində əldə olunmuşdur. Mən respublikada aparılan və artıq öz müsbət nəticələrini verən islahatlardan, xüsusən aqrar sektorda, maliyyə sahəsində və bütövlükdə iqtisadiyyatda həyata keçirilən islahatların əhəmiyyətindən danışarkən bildirmək istəyirəm ki, bu islahatlar nəticəsində artıq iqtisadiyyatda durğunluğa son qoyulmuş və hətta istehsalda artım əmələ gəlmiş, yığılan vergilərin məbləği çoxalmışdır. Bir daha qeyd edirəm ki, Azərbaycan olduqca böyük sənaye potensialına malikdir. Düzdür, hələlik [198-199] bir çox sahələr ağır vəziyyətdədir, lakin ümid var ki, özəlləşdirmə və islahatlar sənayedə vəziyyəti yaxşılaşdırmağa imkan verəcəkdir. Mən xarici sərmayələrin cəlb olunmasına yönəldilmiş siyasətin də öz bəhrələrini verdiyini vurğulamaq, imzalanmış neft müqavilələrindən, onların həyata keçirilməsi üçün, Azərbaycan neftinin dünya bazarına nəqli üçün görülən işlərin əhəmiyyətini xüsusi vurğulamaq istərdim.

Transqafqaz magistralı haqqında dördtərəfli saziş imzalanmasını böyük iqtisadi və sosial hadisə adlandıraraq prezident Əsgər Akayevin belə bir məlumatını minnətdarlıqla qəbul edirəm ki, Qırğızıstan da bu nəqliyyat dəhlizinə qoşulur və dəhliz ölkələrimizi daha da yaxınlaşdıracaq, onların bütün sahələrdə əlaqələrini canlandıracaqdır. Bunda isə Azərbaycanın marağı var.

Böyük rəğbət hissi ilə bildirirəm ki, Qırğızıstan füsunkar məmləkətdir, Azərbaycana qardaş, dost olan gözəl bir xalqın yaşadığı respublikadır. Elə bunun özü də göstərir ki, bu ölkə ilə dostluq etmək, onunla münasibətləri möhkəmlətmək və genişləndirmək lazımdır. Mən imzalanmağa hazırlanmış sənədləri yüksək qiymətləndirərək, bunun ölkələrimiz arasında münasibətləri daha da genişləndirmək üçün böyük addım olduğunu hesab edərək nəzərə çarpdırmağı özümə borc bilirəm ki, Azərbaycan öz üzərinə götürdüyü öhdəliklərə, başlıcası isə Qırğızıstan xalqı ilə, Qırğızıstan dövləti ilə dostluğa və əməkdaşlığa sadiq qalacaqdır. [199-200]

**AZƏRBAYCAN–QIRĞIZISTAN İKİTƏRƏFLİ SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT**

*Prezident sarayı*

*23 aprel 1997-ci il*

Hörmətli Qırğızıstan prezidenti cənab Əsgər Akayev!

Hörmətli qonaqlar, hörmətli xanımlar və cənablar!

Bu gün Qırğızıstan prezidentinin, dostumuz cənab Əsgər Akayevin Azərbaycana rəsmi səfəri başlanmışdır. Artıq bir neçə saat keçibdir və böyük məmnunluq hissi ilə deyə bilərik ki, səfər uğurla keçir. Biz çox səmərəli, faydalı danışıqlar, söhbətlər apardıq və dövlətlərarası, hökumətlərarası sənədlər imzalanıbdır.

Gördüyünüz kimi, görüş, danışıqlar, söhbətlər ölkələrimiz arasında qarşılıqlı münasibətlər üçün xarakterik olan tamamilə dostluq, səmimilik şəraitində keçir.

İndinin özündə demək olar ki, Qırğızıstan prezidentinin Azərbaycana səfəri respublikamızın həyatında əlamətdar hadisədir, bu səfərin tarixi əhəmiyyəti var. Bu, Qırğızıstan Respublikası prezidentinin Azərbaycana ilk səfəridir və bu gün imzalanmış 13 sənəd müstəqil respublikalarımız arasında imzalanmış ilk sənədlərdir.

Qırğızıstan ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq haqqında müqavilənin xüsusi əhəmiyyəti var, o, bizim dostluğumuzun, qardaşlığımızın, əməkdaşlığımızın möhkəm müqaviləli-hüquqi bünövrəsini qoyur. Ümidvaram ki, bu müqavilə xalqlarımız arasında dostluğun və qardaşlığın əbədiliyini bildirir. İmzalanmış digər bütün sənədlər də müxtəlif sahələrdə ölkələrimiz arasında əməkdaşlığın təşkili və həyata keçirilməsi [200-201] üçün müstəsna əhəmiyyətə malikdir, respublikalarımızın qarşılıqlı münasibətlərinin yaxşı müqaviləli, hüquqi əsasını təşkil edir. Şübhəsiz ki, bütün bunlar əməkdaşlığımızı dərinləşdirmək və inkişaf etdirmək üçün yaxşı zəmindir.

Əməkdaşlığımızın bundan sonra da inkişaf etməsi, şübhəsiz, hökumətlərarası bir çox digər sənədlərin də hazırlanmasına və imzalanmasına gətirib çıxaracaqdır. Biz bunu edəcəyik. Ancaq bu gün imzalanmış sənədlər bünövrədir, yaxşı başlanğıcdır və tam əminlik var ki, münasibətlərimiz bu zəmində daha uğurla inkişaf edəcəkdir.

Prezident Əsgər Akayev ilə təkbətək söhbətimizdə, nümayəndə heyətləri arasında danışıqlar zamanı bir çox məsələlərə dair ətraflı fikir mübadiləsi aparıldı. Biz qarşılıqlı surətdə faydalı əməkdaşlığı, Birləşmiş Millətlər Təşkilatının, ATƏT-in prinsiplərini, qırğız və Azərbaycan xalqlarının dostluq və qardaşlıq ənənələrinə əsaslanan prinsipləri rəhbər tutaraq ilk növbədə dövlətlərarası, hökumətlərarası məsələlərimizi müzakirə etdik. Regional məsələləri, Avropada, Asiyada, ümumən dünyada müasir vəziyyətə dair məsələləri müzakirə etdik. Qafqazda sülhün və sabitliyin təmin edilməsi ilə bağlı məsələlər diqqət mərkəzində olubdur. Biz belə bir yekdil fikirdəyik ki, Qafqazda, Zaqafqaziyada sülh və əmin-amanlıq yaratmaq üçün əlavə tədbirlər gərəkdir.

Ermənistan-Azərbaycan münaqişəsi barədə məsələ söhbət və danışıqlarımızın diqqət mərkəzində idi. Biz yekdil olduq ki, bu məsələ sülh danışıqları yolu ilə, ATƏT-in Lissabon Zirvə toplantısının sənədlərində əksini tapmış prinsiplər əsasında həll edilməlidir.

Yaradılmış Transqafqaz dəhlizinin əməli fəaliyyəti ilə bağlı məsələlər danışıqlarımızda mühüm yer tutdu. Qırğızıstan bu sazişə qoşuldu və biz yekdil olduq ki, bu iqtisadi cəhətdən son dərəcə səmərəli nəqliyyat dəhlizinin Qafqaz və Mərkəzi Asiya ölkələri arasında, Mərkəzi Asiya, Qafqaz və Avropa ölkələri arasında gələcək əməkdaşlıq üçün böyük əhəmiyyəti olacaqdır ki, bu da nəinki iqtisadi bəhrələr verəcək, həm də həmin nəqliyyat dəhlizindən istifadə edəcək ölkələrin əməkdaşlığını hərtərəfli genişləndirmək və dərinləşdirmək üçün müstəsna əhəmiyyət kəsb edəcəkdir. [201-202]

Biz MDB ölkələri dövlət başçılarının görüşünün bu yaxınlarda, martın 28-də keçirildiyini və onların yayda yeni görüşə toplaşacağını nəzərə alaraq, MDB-nin vəziyyəti barədə fikir mübadiləsi apardıq. Biz yekdil olduq ki, MDB-nin fəaliyyətini təkmilləşdirmək üçün səmərəli tədbirlər gərəkdir.

Biz bir çox digər məsələləri də müzakirə etdik. Bir daha demək istəyirəm ki, görüşlərimiz, söhbətlərimiz, danışıqlarımız səmimilik və dostluq şəraitində keçdi və bu gün ötən saatlar ərzində baş verənlərin hamısı sübut edir ki, Qırğızıstan ilə Azərbaycan arasında sıx münasibətlər, dostluq münasibətləri möhkəm zəminə və yaxşı perspektivə malikdir. Biz daha da irəliləmək, gözəl gələcəyə doğru getmək əzmindəyik. Diqqətinizə görə sağ olun.

**Sual: – Hörmətli Heydər Əliyeviç, Dağlıq Qarabağ probleminin həllində MDB-nin rolu nədən ibarətdir? Bu barədə Əsgər Akayeviçin də fikrini bilmək istərdim.**

**Heydər Əliyev:** – Ermənistan-Azərbaycan münaqişəsinin, Dağlıq Qarabağ münaqişəsinin həllində MDB-nin əslində heç bir rolu yoxdur. Rusiya vasitəçilik səyləri göstərir. ATƏT-in, Minsk qrupunun üzvü kimi, böyük ölkə kimi o, vasitəçilik vəzifəsini üzərinə götürübdür və 1994-cü ilin dekabrından ATƏT-in Minsk konfransının, xüsusi olaraq Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması üçün yaradılmış konfransın həmsədridir. Rusiya bu müddət ərzində və ondan əvvəl də vasitəçilik funksiyalarını həyata keçirmişdir. Bir halda ki, sual verilir, bu imkandan istifadə edərək demək istəyirəm ki, Rusiyanın, Minsk qrupunun vasitəçiliyi və mayın 5-də Bişkekdə imzalanmış protokolun köməyi ilə 1994-cü il mayın 12-də Ermənistan ilə Azərbaycan arasında atəşkəs əldə olunmuşdur. O vaxtdan bəri döyüş əməliyyatları, atəş yoxdur. Bir sözlə, Rusiya vasitəçilikdə iştirak edibdir, 1994-cü ilin dekabrında Minsk qrupunun həmsədri olana qədər də münaqişənin aradan qaldırılmasında fəal iştirak edibdir. İndi, ATƏT-in Lissabon Zirvə görüşündən sonra Minsk qrupunun həmsədrliyi tərkibində dəyişiklik baş veribdir. Hazırda onun həmsədrləri Rusiya, Amerika Birləşmiş Ştatları və Fransadır. Beləliklə, Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılmasında Rusiyanın fəal rolu olduğunu deyə bilərəm. Ancaq [202-203] təəssüf ki, bu məsələdə MDB-nin hansısa bir fəal iştirakı yoxdur.

Deməliyəm ki, MDB dövlət başçılarının 1993-cü ilin dekabrında Aşqabatda keçirilən növbəti görüşündə mən belə bir bəyanatla çıxış etdim ki, MDB çərçivəsində kollektiv təhlükəsizlik haqqında müqavilənin iştirakçısıyıq, bununla belə, MDB-yə daxil olan iki ölkə arasında hərbi münaqişə mövcuddur, bu, yolverilməzdir. O zaman fəal hərbi əməliyyatlar, müharibə gedirdi və mən təklif etdim ki, MDB məsələni müzakirə edib qərar qəbul etsin ki, MDB-yə daxil olan ölkələr bir-birilə hərbi münaqişə vəziyyətində ola bilməzlər. Əgər münaqişə baş verərsə, onu MDB-nin ümumi səyləri ilə aradan qaldırmaq lazımdır.

Ancaq təəssüf ki, MDB dövlət başçılarının Aşqabat görüşündəki bu bəyanatım diqqətdən kənarda qaldı. Bu yaxınlarda, martın 28-də Moskvada MDB dövlət başçılarının görüşü zamanı müstəqil dövlətlərin bir çoxunun prezidentləri MDB məkanında hərbi münaqişələrin olmasını yolverilməz sayaraq, qapalı iclasda bu mövzunu qaldırdılar. Çoxlu təkliflər oldu ki, bu məsələni xüsusi olaraq nəzərdən keçirib münaqişələri ləğv etmək, onların yaranmasına yol verməmək üçün səmərəli tədbirlər görmək lazımdır. Mən də bu cür çıxış etdim, çünki ölkələrin öz daxilində, məsələn Rusiyada Çeçenistan, Gürcüstanda gürcü-abxaz və gürcü-osetin, Moldovada Dnestryanı münaqişələr var, Zaqafqaziyada isə MDB-nin üzvü olan iki dövlət – Ermənistan ilə Azərbaycan arasında münaqişə var. Ona görə mən də bu mövzuda fəal çıxış etdim. Bəyan edildi ki, tədbirlər görüləcək, münaqişələrin həllinə dair hansısa bir komitə yaradıldı. Ümid edəcəyik ki, tədbirlər görüləcəkdir. Hələlik isə bu sahədə MDB-nin fəaliyyətini mən qənaətbəxş saymıram. Diqqətinizə görə sağ olun.

**Əsgər Akayev:** – Bu suala Heydər Əliyeviç, məncə, ətraflı cavab verdi. Mən əslində heç nə əlavə edə bilmərəm, ancaq buna təəssüflənirəm ki, Müstəqil Dövlətlər Birliyi, – mən onun möhkəmlənməsi naminə həmişə ardıcıl çıxış etmişəm, – birlik daxilindəki bu cür regional münaqişələrin aradan qaldırılması üçün, yeni münaqişələrə yol verilməməsi üçün səmərəli mexanizm yaratmamışdır. Yeni münaqişələr də [203-204] mümkündür, ona görə ki, əgər Siz MDB-nin iclasına cəmi bir neçə gün qalmış, martın ya 26-da, ya da 27-də çıxmış "Nezavisimaya qazeta"nı oxumuş olsanız, görərsiniz ki, bu qəzet bax, beləcə millətlərarası ədavəti qızışdırmaq, yeni münaqişələr törətmək əhvalı oyadır, elə bil ki, indiki münaqişələr bizim üçün azdır. Buna görə də mən ancaq təəssüflənirəm ki, MDB bu cür səmərəli mexanizm işləyib hazırlamamışdır.

Heydər Əliyeviç dedi ki, biz həmin məsələni müzakirə etdik və bu məqsədlə iyunda da görüşəcəyik. Mən də buna qoşulmaq və ümid etmək istəyirəm ki, səmərəli mexanizm, kifayət qədər səlahiyyətlərə malik komitə olacaqdır. Elə bir komitə ki, MDB məkanında münaqişələr yaranmasının qarşısını qətiyyətlə ala bilsin, hər hansı formada, hər hansı təzahürdə və hər hansı yerdə separatçılığa, xüsusən təcavüzkar separatçılığa qarşı əzmlə mübarizə apara bilsin. Çünki münaqişələr də, separatçılıq da heç bir xalqa yaxşı heç nə gətirmir. Mən Heydər Əliyeviçin bu məsələ barəsindəki fikrinə şərikəm.

**Sual: – Sual hər iki prezidentədir. Hazırda MDB çərçivəsində gedən və fövqəlmilli strukturlar, o cümlədən Qırğızıstanın da üzv olduğu Gömrük İttifaqı kimi, yaxud Belarus-Rusiya ittifaqı kimi strukturlar yaradılmasına gətirib çıxaran inteqrasiya prosesləri, Sizcə, nə dərəcədə əsaslıdır?**

**Əsgər Akayev:** – Qırğızıstan Gömrük İttifaqının üzvü olmağı həqiqətən istəyir, çünki bizim iki əsas müttəfiqimiz, ənənəvi ticarət-iqtisadi tərəfdaşımız – Qazaxıstan və Rusiya bu ittifaqa daxildirlər. Bu gün xarici iqtisadi fəaliyyətimizin, xarici ticarət dövriyyəmizin 50 faizi onların payına düşür. Əgər bu Gömrük İttifaqı bizim müəyyənləşdirdiyimiz, Sizə söylədiyim kimi, Mərkəzi Asiya İttifaqında, – bu ittifaq sayəsində, Qırğızıstan ticarətin həcmini təxminən iki dəfə artırmışdır, – tətbiq olunan prinsiplər əsasında işləsəydi, onda biz başlıca ticarət-iqtisadi tərəfdaşımız olan Rusiya ilə ticarətin həcmini genişləndirə bilərdik. Amma təəssüf ki, belə olmadı. Bunun isə, bildiyiniz kimi, obyektiv və subyektiv səbəbləri olmuşdur. Gömrük İttifaqı haqqında sənəd imzalandıqdan sonra Rusiyada prezident, qubernator seçkiləri keçirildi və digər hadisələr baş verdi. İndi də hökumətin tərkibi təzələndi. Gömrük İttifaqına daxil olan dövlətlə[204-205]rin başçıları may ayında Moskvada görüşəcəklər. Əgər biz gömrük İttifaqını işə salsaq, onda bu, Qırğızıstana da, Qazaxıstana da, Rusiyaya da iqtisadi cəhətdən sərfəli olar. O ki qaldı Belarusa, onunla əlaqələrimiz azdır.

Belarusun Rusiya ilə ittifaqına gəldikdə, bu, iki dövlətin, iki xalqın öz işidir. Mən Rusiya Federasiyasının prezidenti Boris Nikolayeviç Yeltsinin yalnız bu sözlərini xatırlatmaq istərdim ki, inteqrasiya proseslərinin,

xüsusən də maliyyə, bank sahəsində, digər çox mühüm sahələrdə bu proseslərin dərinləşdirilməsi məsələlərində hər hansı şəkildə irəliyə qaçmaq inteqrasiyanın dərinləşməsi prosesinə ancaq ziyan vura bilər. Mənə elə gəlir ki, bundan da yaxşı heç nə demək olmaz. Buna görə də biz yaxın illərdə vəzifəmizi bunda görürük ki, Gömrük İttifaqı yalnız iqtisadi əsasda işləsin. Sizdə heç şübhə qalmasın deyə həmçinin nəzərə çarpdırmaq istərdim ki, biz MDB-nin tərəfdarıyıq, Qırğızıstan həmişə birliyin tərəfdarı onun möhkəmlənməsinin tərəfdarı olmuşdur. 1997-ci il martın 28-də istisnasız bütün prezidentlər yekdilliklə belə bir fikirdə olmuşlar: biz elə bir birliyin tərəfdarıyıq ki, o, yeni müstəqil dövlətlərin müstəqilliyinin, suverenliyinin möhkəmlənməsi naminə işləsin, regional münaqişələri aradan qaldırmağa, yenilərinin yaranmasına yol verməməyə qadir olsun. Avropa Birliyindəki kimi, qarşılıqlı surətdə faydalı, bərabərhüquqlu əsasda iqtisadi əməkdaşlığa kömək etsin. Odur ki, Qırğızıstan fövqəlmilli orqanlar yaradılacaq hər hansı ittifaqa daxil olmayacaqdır. Çox sağ olun.

**Heydər Əliyev:** Görünür, mən də bir-iki kəlmə deməliyəm, çünki bu sual mənə də verilib, sonra deməsinlər ki, cavabdan yayınıram.

Azərbaycan Gömrük İttifaqına daxil deyil, ona görə də heç nə deyə bilmərəm. O ki qaldı Rusiya və Belarusun ittifaqına, bu, onların işidir. Sağ olun.

**Sual: – Sualım prezident Əsgər Akayevədir. Lissabon Zirvə görüşünün iştirakçısı, ATƏT sədrinin bəyanatını dəstəkləyən dövlət başçısı kimi Sizə müraciət edirəm. Həmin bu üç prinsipə, o cümlədən Azərbaycanın tərkibində Dağlıq Qarabağa muxtariyyət verilməsi prinsipinə Ermənistana səfərinizdən sonra münasibətiniz necədir? İkinci** [205-206] **sualım Ermənistana Rusiyanın qanunsuz olaraq hərbi texnika göndərməsi ilə bağlıdır. Bununla əlaqədar Azərbaycan MDB-nin bütün ölkələrinə və ATƏT-ə müraciət etmişdir. Qırğızıstanın münasibətini bilmək istərdim.**

**Əsgər Akayev:** – Birinci suala cavab verərkən, Ermənistanla münasibətlərimizin necəliyindən asılı olmayaraq, qəti, aydın mövqeyimizi bildirmək istəyirəm. Lissabonda ATƏT-in üzvü olan bütün ölkələr Heydər Əliyevin ifadə etdiyi üç prinsipə əsaslanan bəyanatı dəstəklədilər. Bu üç prinsip bütün beynəlxalq hüquq normalarına cavab verir, Yer kürəsinin bütün nöqtələrində bu cür münaqişələri aradan qaldırmaq üçün əsas rolunu oynayır. Ona görə də, şübhəsiz ki, bu bəyanat yekdilliklə dəstəkləndi. Məsələ yalnız həmin bəyanatı praktikada nə cür həyata keçirməkdədir. Heydər Əliyeviç artıq dedi ki, Lissabon Zirvə görüşündən sonra Qarabağda münaqişənin aradan qaldırılması üzrə ATƏT-in Minsk qrupunun həmsədrliyində dəyişiklik baş vermiş, üç böyük dövlət – Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa onun həmsədrləri olmuşlar. ATƏT-in və MDB-nin üzvləri kimi biz hamımız ürəkdən arzu edir və inanır, ümid bəsləyirik ki, bu üç böyük dövlət Lissabon bəyanatı əsasında həmin problemi həll edə biləcəkdir.

O ki qaldı ikinci suala, burada iki fikir ola bilməz, çünki bu məsələ Rusiyanın özündə də müzakirə edilmişdir. Bilirsiniz, Rusiya Federasiyasının prezidenti Boris Nikolayeviç Yeltsin qapalı iclasda, zənnimcə, hətta ümumi iclasda da qəti şəkildə demişdir ki, Rusiyanın ən səlahiyyətli orqanlarına həmin məsələni araşdırmağı və bu qanunsuz əməliyyatda əli olanların hamısını cəzalandırmağı tapşırır.

**Sual: - Cənab Akayev, Yerevana səfəriniz zamanı Siz 1915-ci il hadisələri ilə bağlı abidənin qarşısına əklil qoymusunuz. Əklili qoyanda bilirdinizmi ki, ermənilər bu abidəni bütün türk xalqlarına tarixi düşmənçilik kimi səciyyələndirirlər, yoxsa abidəyə Sizin münasibətiniz başqadır?**

**Əsgər Akayev: -** Demək istərdim ki, əziz dostlar, biz hamımız ümumbəşəri prinsipləri və ümumbəşəri dəyərləri rəhbər tutmalıyıq. Yeri gəlmişkən, bu gün biz danışıqlar apararkən sizin prezident Heydər Əliyev bu barədə çox yaxşı dedi ki, qarşıdurmaya səbəb olan, dünyanı parçalayan, vətəndaş [206-207] müharibələrinə gətirib çıxaran amillərdən biri də insanları xristianlara, müsəlmanlara bölmək, dinləri bir-birinə qarşı qoymaqdır. Ona görə də biz hər halda ümumbəşəri prinsipləri əsas götürməliyik. Harada, hansı ölkədə baş verməsindən, kim tərəfindən törədilməsindən asılı olmayaraq, soyqırımına bəraət qazandırmaq olmaz. Hesab edirəm ki, bütün sivilizasiyalı bəşəriyyət, biz hamımız mümkün olan hər şeyi etməliyik ki, belə hallar heç vaxt baş verməsin. Azərbaycanın azadlığı, müstəqilliyi, bütövlüyü uğrunda həyatlarını qurban vermiş minlərlə azərbaycanlı oğlanın və qızın dəfn olunduğu Şəhidlər xiyabanını bu gün ziyarət edəndə də mən xatirə kitabına bu sözləri yazdım. Ona görə də hesab edirəm ki, biz bu məsələdə Sizin dediyinizi əsas götürməməliyik. Bilirsiniz, mənim qarşımda həmişə Almaniyanın böyük kansleri Villi Brandt nümunə kimi dayanır, neçənci ildə olduğunu yada sala bilmirəm, Varşavada diz üstə çökərək öz xalqının törətdiyi soyqırımını pisləmişdir.

**Müxbir:** Hesab edirsiniz ki, türk xalqı doğrudan ermənilərə qarşı soyqırımı törətmişdir?

**Əsgər Akayev:** Bu məsələ barədə fikrimi bildirdim.

**Sual: Hörmətli Heydər Əliyeviç, Azərbaycan Qərbə neft ixracına yaxın bir neçə ildə Şərqə ixracı da əlavə etməyi planlaşdırırmı? Azərbaycanın neft biznesinin bu yeni istiqamətində Qırğızıstan bir növ ilk qaranquş olacaqmı? Sualım hörmətli Qırğızıstan prezidentinədir: Siz Azərbaycandan Qırğızıstana neft, neft məhsulları, kimya sənayesi məhsulları göndərilməsi baxımından əvvəlki əlaqələri bərpa etmək arzusunda olduğunuzu bildirdiniz. Əgər bu sazişlər imzalanarsa, Qırğızıstan hesablaşmaları necə – sərbəst dönərli valyuta ilə, yaxud mal göndərməklə aparmağı planlaşdırır? Əgər mal göndəriləcəksə, bu nədən ibarət olacaqdır. Başqa sözlə, hazırda Qırğızıstan Azərbaycandakı tərəfdaşlarına nə təklif edə bilər?**

**Heydər Əliyev:** Azərbaycanın böyük nefti olanda, – bu isə, şübhəsiz, olacaq, çünki biz beş müqavilə imzalamışıq və yəqin ki, bu işi indən belə də davam etdirəcəyik, – biz Qərbə də, Şərqə də neft göndərə bilərik, Qırğızıstana isə ələlxüsus göndərə bilərik, çünki o dost, qardaş ölkədir. Axı Qırğı[207-208]zıstana nə üçün neft göndərilməsin? Bir sözlə, qoy bu məsələyə heç kim şübhə etməsin.

**Əsgər Akayev:** Demək istəyirəm ki, biz Azərbaycandan vaxtı ilə həmişə aldığımız neftin, neft məhsullarının idxalına çox maraq göstəririk. Xüsusi ilə yağları nəzərdə tuturam. Ona görə ki, benzini, dizel yanacağını qonşuluqda da almaq mümkündür. Mən bu gün imkanları öyrənməyi və Qırğızıstana ildə bir milyon ton neft göndərilməsi haqqında uzunmüddətli saziş imzalamağı təklif etdim. Bu bizim üçün çox faydalı olardı, çünki hazırda neftin dərin emalı ilə məşğul olacaq neftayırma zavodu tikirik. Təkcə benzinə, dizel yanacağına deyil, həm də neftdən alınan kimya məhsullarına ehtiyacımız var. Ona görə də maraq göstəririk.

İndi isə necə hesablaşacağımız barədə. Bilirsiniz ki, Qırğızıstan milli gəliri az olan kiçik ölkədir, lakin hazırda biz bütün ölkələrlə yalnız dönərli valyuta ilə hesablaşırıq, iki ildir ki, Qırğızıstan somu da sərbəst dönərlidir. Siz Bişkekdə istənilən sərbəst dönərli valyutanı soma və əksinə dəyişə bilərsiniz, heç bir məhdudiyyət yoxdur. Som möhkəm valyutadır və bilirsiniz ki, biz onun məzənnəsini saxlaya bilmişik. Somu 1993-cü il mayın 10-da dövriyyəyə buraxmışdıq və birinci il, əlbəttə, məzənnəsini bir qədər itirdi. Biz dörd somu bir dollara bərabər götürməklə tətbiq etmişdik. Birinci il 11 soma endi və bu məzənnəni əslində üç il saxlaya bildik. Keçən il ödəmə balansımızı, ticarət balansımızı yaxşılaşdırmaq üçün onu azacıq devalvasiya edərək dollara nisbətdə 18-ə endirdik. Bu məzənnəni saxlayacağıq. Bir sözlə, bizim valyutamız möhkəmdir və hesablaşmaları yalnız onunla aparırıq.

Təəssüf ki, bizimlə ticarətdə daha güclü dövlətlərdən belə münasibət görmürük. Onlar bizə barteri qəbul etdirməyi çalışırlar. Zənnimcə barterdən uzaqlaşmaq lazımdır, əgər Bakıdan neft, neft məhsulları idxal etsək, əvəzini valyuta ilə ödəməyə hazırıq. Azərbaycan bizim məhsullumuza, mallarımıza maraq göstərərsə, sivilizasiyalı ticarət aparmaq mümkündür. Qırğızıstan bu yolu çoxdan tutmuşdur. Başqa ölkələrin isə, təəssüflər olsun, buna hazır olmaması ayrı məsələdir, heç də hamının sərbəst dönərli valyutası yoxdur və bizə barter təklif edir. Bu da bizim üçün faydalı deyildir. Sağ olun.

**Heydər Əliyev**: Qurtardı, daha sual yoxdur? Sağ olun. [208-209]

**QIRĞIZISTAN PREZİDENTİ ƏSGƏR AKAYEVƏ M. Ə. RƏSULZADƏ adına BDU-nun FƏXRİ DOKTORU DİPLOMUNUN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ NİTQ**

*23 aprel 1997-ci il*

Hörmətli xanımlar və cənablar!
Hörmətli müəllimlər, tələbələr!
Əziz dostlar!

Bu gün mən Bakı Dövlət Universitetinin binasında yenidən olmağımdan, universitetin müəllim və tələbələrinin nümayəndələri ilə görüşməyimdən çox məmnunam. Mən sizi ürəkdən salamlayıram. Sizə – Bakı Dövlət Universitetinin müəllim, tələbə heyətinə, professorlara, alimlərə və universitetdə çalışan insanların hamısına cansağlığı, səadət və işlərinizdə uğurlar arzulayıram.

Bizim dövlət işlərimiz və xüsusən böyük ölkələrlə əlaqələrimiz o qədər sürətlə inkişaf edir ki, mən bu münasibətlə son vaxtlar tez-tez universitetə gəlirəm və sizinlə görüşmək imkanı əldə edirəm. Bilirsiniz ki, mən Bakı Dövlət Universitetini çox sevirəm, işinizi yüksək qiymətləndirirəm və sizinlə daha da tez-tez görüşmək arzusundayam. Ancaq onu da bilirsiniz, – bizim başqa işlərimiz o qədər çoxdur ki, belə imkan əldə etmək mümkün olmur. Bu fürsət indi mənim üçün çox əhəmiyyətlidir, dəyərlidir.

Bakı Dövlət Universiteti öz ənənələrinə sadiqdir. Respublikamızda gedən gərgin ictimai-siyasi proseslərə, o cümlədən ali təhsil sahəsində cürbəcür yeniliklərin olmasına baxmayaraq Bakı Dövlət Universiteti öz ənənələrini qoruyur, saxlayır və ümidvaram ki, saxlayacaqdır. Nə qədər yeni ali təhsil ocaqları, özəl universitetlər yaransa da Bakı Dövlət Universiteti [209-210] Azərbaycan xalqının, millətinin ən yüksək səviyyədə duran ali təhsil ocağıdır.

Əziz Əsgər Akayeviç!

Mən olduqca şadam ki, bizə təşrif gətirmisiniz. Bu gün Sizinlə çox səmərəli işlədik və işləyirik. Mən bu görüşə Bakı Dövlət Universitetinin professor – müəllim heyəti və tələbələri ilə görüşünüzə şadam. Mən şadam ki, müsəlman Şərqində ilk universitet olan bu universitet XI-XIII əsrlərdə fəaliyyət göstərmiş universitetlərin, əlbəttə davamıdır. Siz bu barədə danışdınız. Mən Sizin fikirlərinizə tamam şərikəm, həmin mədrəsələr əsl universitetlər idi, sadəcə olaraq o vaxtlar Şərqdə universitet adı yox idi, buna görə də çoxları belə hesab edir ki, universitet sonralar meydana gəlmişdir. Lakin bildiyiniz kimi, hər dövr, hər zəmanə öz adlarını müəyyənləşdirir, odur ki, həmin mədrəsələr doğrudan da əsl universitetlər idi. Əks halda nə Nəsirəddin Tusi olardı, nə də bir çox digər görkəmli alimlər. Dostum Əsgər Akayev burada onların haqqında çox gözəl danışdı.

Lakin buna baxmayaraq, Bakı Dövlət Universiteti XX əsrdə Şərqdə, müsəlman dünyasında ilk universitetdir. Bu universitetin nəinki Azərbaycanda ali təhsilin, elm və mədəniyyətin inkişaf etdirilməsində çox böyük xidmətləri var, həm də o, Orta Asiyanın qardaş xalqları qarşısında da, demək olar, bu cür xidmətlərə malikdir. Məlum olduğu kimi, Orta Asiyanın bir çox alimləri vaxtı ilə burada, Bakıda, məhz bu universitetdə təhsil almışlar. Bakı Dövlət Universiteti ilə Orta Asiya universitetləri arasında, o cümlədən Qırğızıstan Dövlət Universiteti arasında uzun illərdən və onilliklərdən bəri mövcud olan əlaqələr – elmi əlaqələr, tədris əlaqələri bunun təsdiqidir.

Bəli, mən çox şadam ki, bu gün Siz öz həmkarlarınız arasındasınız, Bakı Dövlət Universitetinin professor – müəllim heyəti ilə, tələbə nümayəndələri ilə görüşürsünüz. Əvvəla, ona görə ki, bu görüş Sizin üçün respublikamızın nümayəndələri ilə görüşdür. İkincisi, mən görürəm ki, Siz alimsiniz, bir çox illər ali məktəblərdə dərs demisiniz. Mən görürəm ki, Siz özünüzü bu auditoriyada balıq özünü suda hiss etdiyi kimi hiss edirsiniz. [210-211]

Mən Sizin dövlət fəaliyyətinizə, siyasi, ictimai, elmi fəaliyyətinizə yüksək qiymət verilməsi münasibətilə təbrik edirəm. Bu yüksək qiymət Sizə Bakı Dövlət Universitetinin Fəxri doktoru adı verilməsində ifadəsini tapmışdır. Siz buna bütün öz əmək fəaliyyətinizə və xüsusən, əlbəttə, qardaş qırğız xalqının rifahı naminə öz müdrik siyasi, dövlət fəaliyyətinizə görə layiqsiniz.

Əziz dost, mən Qırğızıstanın başçısı kimi, qardaş xalqın rəhbəri kimi Sizə cansağlığı, firavanlıq, xoşbəxtlik və yeni böyük uğurlar arzulayıram.

Eyni zamanda Sizi söylədiyiniz gözəl nitqiniz, məzmunlu, ağıllı, dərin mənalı nitqiniz münasibəti ilə alqışlayıram. Mən Sizə Azərbaycan xalqının tarixinə, dünya sivilizasiyasına Azərbaycan xalqının töhfəsinə və müasir Dünya Birliyində Azərbaycanın roluna yüksək qiymət verdiyinizə görə təşəkkür edirəm. Mən şadam ki, Siz Nizamini, Füzulini əla bilirsiniz. Mən şadam ki, Siz Nəsrəddin Tusini əla tanıyırsınız. Mən öz xalqım üçün

şadam, həm də ona görə şadam ki, bütün bu dühalar bizim hamımıza məxsusdur. Onlar bütün xalqlarımıza, bütün türkdilli xalqlara, o cümlədən də qırğız xalqına məxsusdur.

Burada qırğız dövlətinin banisi dahi Manasın min illiyi münasibətilə şənliklərdə mənim iştirakımdan danışıldı. Siz də danışdınız. Bəli, bu, çox böyük tarixi hadisə idi. Zənnimcə, qırğız xalqının bütün tarixi ərzində heç vaxt Manası min illiyi münasibətilə keçirilən bayram kimi belə möhtəşəm, məzmunlu bayram. başlıcası isə, qırğız xalqının milli ləyaqət hisslərini belə yüksəklərə qaldıran bayram olmayıb. Həqiqətən mən Sizə gələndə respublikamızda çoxlu problem və olduqca mürəkkəb işlər var idi. Lakin bununla yanaşı, mən bunu özüm üçün böyük bir qəhrəmanlıq hiss etmirəm. Əksinə, mən bunu öz borcum, öz vəzifəm bilmişdim və bilirəm, çünki biz eyni köklərə mənsubuq və öz əcdadlarımıza, öz köklərimizə hörmət bəsləmək xalqlarımızın ən yüksək nailiyyətidir. Biz milli azadlıq əldə etdikdə, dövlət müstəqilliyi əldə etdikdə, öz millətimizdən, öz xalqımızdan, öz tariximizdən, öz keçmişimizdən açıq, ləyaqət hissi ilə danışmaq və bununla fəxr etmək imkanına nail olduqda biz, şübhəsiz bir olmalıyıq, birlikdə olmalıyıq. [211-212]

Mən bunu Qırğızıstanda 1995-ci ilin avqustunda da demişdim və bu gün də deyirəm. Manas qırğız xalqının böyük oğludur və eyni zamanda o, bizim hamımıza məxsusdur. Manas eyni dərəcədə bütün türkdilli xalqlara məxsusdur, elə eyni dərəcədə Azərbaycan xalqına məxsusdur.

Bax, belə görüşlər xalqlarımızın tarixi keçmişini səciyyələndirən və bugünkü əməkdaşlığımız üçün, dostluğumuz üçün, qardaşlığımız üçün bünövrə olan qiymətli, əziz nə varsa, hamısını yaddaşlarda canlandırmağa imkan verir.

Qırğızıstan prezidenti, əziz dostum Əsgər Akayev bu dostluğun möhkəmlənməsinə, bu qardaşlığın möhkəmlənməsinə böyük töhfə vermişdir və verir. Mən şadam ki, Bakı Universitetinin hörmətli professorları, müəllimləri, tələbələri, siz möhtərəm qonağımız Əsgər Akayevi qəlbən hiss edirsiniz. Mən şadam, çünki siz, belə yüksək hörməti, belə yüksək etimadı həm də öz çox böyük, zəngin elmi fəaliyyətinizlə, ən başlıcası isə, öz dövlət fəaliyyətinizlə, siyasi fəaliyyətinizlə qazanmışsınız və qazanırsınız. Axı məlumdur ki, 80-ci illərin axırları – 90-cı illərin əvvəlləri xalqlarımız üçün çox ağır dövr olmuşdur. Doğrudur, keçmiş Sovet İttifaqı respublikalarında vəziyyət müxtəlif idi, lakin hamıda böyük problemlər meydana çıxdı, hamı böyük çətinliklərlə və mürəkkəb hadisələrlə qarşılaşdı. Bu, Qırğızıstanda olduğuna nisbətən Azərbaycanda daha ağır və faciəli surətdə baş vermişdir, lakin Qırğızıstanın da öz problemləri, öz çətinlikləri yaranmışdır.

Sovet İttifaqı süquta uğradı, öz xalqın üçün, öz millətin üçün, öz ölkən üçün yolu, istiqaməti müəyyənləşdirmək lazım idi. Məhz belə bir tarixi dövrdə qırğız xalqı Əsgər Akayevi özünə rəhbər, özünə bələdçi, ilk prezident seçərək, bu mürəkkəb, çətin işi belə bir tarixi mərhələdə ona etibar etdi. Bu da təsadüfi deyildir, çünki Əsgər Akayev ondan əvvəlki dövrdə alim, siyasi xadim və dövlət xadimi kimi öz görkəmli keyfiyyətləri ilə özünü öz xalqı arasında da, başqa respublikalarda da, keçmiş Sovet İttifaqında da göstərmişdi. Budur, artıq neçə illər ötüb keçmişdir və həmin dövr inandırıcı surətdə sübut edir ki, qırğız xalqı düzgün hərəkət etmişdir, yanılmamışdır, onların həmin çətin dövrdə, prezidentin ümumiyyətlə, [212-213] nə demək olduğunu və bütün bu strukturun o çətin dövrdə ümumiyyətlə, necə fəaliyyət göstərəcəyini aydınlaşdırmaq hələ çətin olduğu bir vaxtda Əsgər Akayevi prezident seçməklə düzgün hərəkət etmişdir.

Əsgər Akayev, bundan əvvəl olduğu kimi, Qırğızıstan Respublikasının, Qırğızıstanın prezidenti vəzifəsində də öz istedadını, öz görkəmli keyfiyyətlərini göstərdi və öz xalqmı bu keçid dövründə azadlıq yolu ilə, dövlət müstəqilliyi yolu ilə irəli aparmışdır və aparır. Bu müddətdə də o, öz vətənində, Qırğızıstanda çox böyük nüfuz qazanmışdır. Axı məlumdur ki, o, ikinci dəfə ümumxalq səsvermə yolu ilə, açıq, demokratik yolla prezident seçilmişdir, zənnimcə, bu, ötən il olmuşdur. Bilirəm ki, onun rəqibləri də vardı, onlar bir deyildi, çox idilər. Lakin Qırğızıstanda prezident seçkiləri zamanı məhz demokratik prinsiplər əsas olmuş və bu prinsiplər ona gətirib çıxarmışdır ki, Əsgər Akayev bürün xalq tərəfindən ikinci dəfə prezident seçilmişdir.

Bütün bunlar məhz ona görə olmuşdur ki, Əsgər Akayev öz xalqına, öz respublikasına rəhbərlik etmək bacarığını özünün bütün dövlət, siyasi fəaliyyəti ilə sübut etmişdir. O sübuta yetirmişdir ki, öz xalqını dövlət müstəqilliyinin və tərəqqinin hamar yoluna çıxarmağa qadirdir.

Heç bir şübhə yoxdur və şəxsən mən Qırğızıstanda indiki vəziyyəti bildiyimə görə əminəm ki, Qırğızıstan doğru yolla gedir, demokratiya yolu ilə, islahatlar yolu ilə, azadlıq yolu ilə, yeniləşmə yolu ilə gedir və qırğız xalqının çox böyük potensial imkanları, intellektual potensialı, Qırğızıstanın olduqca böyük iqtisadi potensialı sözsüz ki, bütün bu müasir tədbirlər nəticəsində öz bəhrələrini verəcək və Qırğızıstan suveren, müstəqil bir dövlət kimi Mərkəzi Asiyada və bütün dünyada öz layiqli yerini tutacaqdır.

Bu gün burada Əsgər Akayev birlikdə gördüyümüz böyük işdən danışdı, öz tərəfimdən mən də Qırğızıstan prezidenti Əsgər Akayevin Azərbaycana səfərini tarixi əhəmiyyətə malik əlamətdar bir hadisə kimi, Qırğızıstan ilə Azərbaycan arasında dostluğun və əməkdaşlığın daha da inkişaf etməsi və möhkəmlənməsində son dərəcə mühüm mərhələ açan bir hadisə kimi qiymətləndirirəm. Mən də əminəm ki, bu gün görülmüş [213-214] olan və görülən işlərin hamısı Azərbaycana da, Qırğızıstana da çox böyük fayda gətirəcəkdir.

Mən əminəm ki, dostluq və əməkdaşlıq haqqında müqavilə imzalamaqla, bütün digər sənədləri, – cəmi 13 sənəd olmuşdur, – imzalamaqla, qoyduğumuz bünövrə ilə əməkdaşlıq üçün geniş yol açdıq. Mən də əminəm ki, biz bu geniş yolla uğurla irəliləyəcəyik.

Əziz dostum, sizi bu əlamətdar hadisə ilə əlaqədar bir daha təbrik edir, sizə cansağlığı və xoşbəxtlik, çox böyük dövlət fəaliyyətinizdə uğurlar arzulayıram və əminəm ki, bu gün yadınızda Azərbaycan ziyalıları ilə, Azərbaycan elmi və Azərbaycan ali məktəbi ilə gözəl bir görüş günü kimi qalacaqdır. Hesab edirəm ki, bu görüşün iştirakçıları da bu günü Qırğızıstanın və Azərbaycanın, qırğız xalqının və Azərbaycan xalqının dostluğunu və qardaşlığını təcəssüm etdirən gözəl bir gün kimi xatırlayacaqlar. Qırğızıstan prezidenti Əsgər Akayevin Bakı Dövlət Universitetinin Fəxri doktoru adına layiq görülməsi aktı da dostluq münasibətlərimizin daha da möhkəmlənməsinin və inkişaf etməsinin mühüm amilidir.

Sizə xoşbəxtlik, firavanlıq arzulayıram.

Sizi təbrik edirəm. [214-215]

## QIRĞIZISTAN PREZİDENTİ
## ƏSGƏR AKAYEVİN
## M. Ə. RƏSULZADƏ adına BDU-nun
## TƏLƏBƏ ŞƏHƏRCİYİNDƏ
## MÜVƏQQƏTİ YERLƏŞDİRİLMİŞ
## QAÇQINLARLA GÖRÜŞÜNDƏ ÇIXIŞ

*23 aprel 1997-ci il*

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram və sizə öz hörmət, ehtiramımı bildirirəm. Azərbaycan Respublikasının, müstəqil dövlətimizin qarşısında çox böyük problemlər vardır. Biz yeni dövlət, yeni həyat qururuq, iqtisadiyyatda böyük dəyişikliklər edirik.

Bir çox məsələlər, problemlər vardır, amma bunların içərisində ən mühüm, ən vacib problem respublikamızın ərazi bütövlüyünü bərpa etmək, işğal olunmuş torpaqlarımızdan Ermənistan silahlı qüvvələrini çıxarmaq, Azərbaycanın dövlət suverenliyini tamamilə təmin etmək və əziz bacılar, qardaşlar, sizi – doğma yurdundan didərgin düşmüş vətəndaşlarımızı öz yerinə-yurduna, elinə-obasına qaytarmaqdan ibarətdir.

Azərbaycanın başına gələn bu bəla böyük bəladır. Ermənistan 1988-ci ildə Azərbaycana hərbi təcavüzə başlayandan indiyədək biz böyük itkilər, şəhidlər vermişik. Bizim bugünkü qonağımız, hörmətli prezident Əsgər Akayevlə birlikdə Şəhidlər xiyabanında olduq, şəhidlərin məzarlarım ziyarət etdik, dualar oxuduq, onların xatirəsini yad etdik, məzarları qarşısında baş əydik. Biz milli azadlığımız, dövlət müstəqilliyimiz, torpaqlarımızın müdafiəsi yolunda şəhidlər, çox itkilər vermişik. Əziz bacılar və qardaşlar, ən çox itki verən, zərər çəkən sizsiniz. Siz yerinizdən-yurdunuzdan, elinizdən-obanızdan, evinizdən, yaşadığınız yerlərdən zorla çıxarılmısınız, varınızı-yoxunuzu itirmisiniz. Neçə illərdir ki, doğma yerlərinizə həsrət[215-216]siniz. Bu, ağır dərddir, bəladır. Sizin, bizim birlikdə verdiyimiz itkilər də böyük itkilərdir.

Məlumdur ki, xalqımız əsrlər boyu böyük sınaqlardan keçibdir. Keçən əsrlərdə, dövrlərdə də xalqımızın başına bəlalar gətirən qüvvələr, xalqımıza zülm edənlər olubdur. Bizim xalqımızı sındırmaq, əzmək istəyənlər olubdur. Xalqımız itkilər də, qurbanlar da, şəhidlər də verib, ancaq heç vaxt sınmayıbdır, iradəsindən dönməyibdir, iradəsini itirməyibdir. Xalqımız məğrur xalqdır. Xalqımız ötən dövrlərdəki o sınaqlardan keçdiyi kimi, biz də bu sınaqlardan keçəcəyik, bu addımı atacağıq və müstəqil Azərbaycan Respublikasının ərazi bütövlüyünü təmin edəcəyik, Ermənistan silahlı qüvvələrini işğal etdikləri torpaqlarımızdan çıxaracağıq, siz öz yerinizə yurdunuza qayıdacaqsınız.

Dəfələrlə keçirdiyimiz görüşlərdən, danışıqlardan sizin arzunuzu, istəyinizi bilirəm. Bilirsiniz ki, eviniz-eşiyiniz dağılıb, varınız, varidatınız viran olub, amma sizə doğma torpaq, eliniz-obanız lazımdır. Bu, bizə də lazımdır. Bizə Azərbaycanın ərazi bütövlüyünü, respublikamızın sərhədlərini bərpa etmək lazımdır. Bunlar hamımıza lazımdır. Biz bunlara nail olacağıq.

Bilirsiniz, uzun müddətdir ki, biz bu barədə lazımi iş aparırıq, bu məsələnin sülh yolu ilə həllinə çalışırıq. Hörmətli qonağımız, prezident Əsgər Akayev burada dedi, ATƏT-in üzvü olan ölkələrin dövlət başçılarının keçən ilin dekabrında Lissabonda keçirilən zirvə görüşündə Ermənistan-Azərbaycan münaqişəsinin həll edilməsinin əsas prinsiplərini əks etdirən bəyanat qəbul olunubdur. Bu, tarixi sənəddir, nailiyyətdir. Ermənistanın Azərbaycana təcavüzü başlayandan biz Dünya Birliyinin, dünya, Avropa ölkələri başçılarının birgə həmrəyliyi ilə qəbul edilən belə beynəlxalq əhəmiyyətli sənəd kimi bir sənəd indiyədək əldə edə bilməmişdik. İndi isə biz bunu əldə etmişik.

Bu sənədin mahiyyəti ondan ibarətdir ki, orada Azərbaycan Respublikasının ərazi bütövlüyünün və suverenliyinin tanınması göstərilir, məsələnin sülh yolu ilə həll olunması üçün Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağa yüksək dərəcəli özünüidarəetmə statusu verilməsi və Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinə zəmanət verilməsi nə[216-217]zərdə tutulubdur. Ancaq bu üç prinsipin əsasını işğal olunmuş torpaqlarımızdan Ermənistan silahlı qüvvələrinin çıxması və sizin – yerindən-yurdundan didərgin düşmüş, köçkün, ağır vəziyyətdə yaşayan Azərbaycan vətəndaşlarının öz yerlərinə, yurdlarına, elinə-obasına qayıtması təşkil edir.

Biz bu sənədin həyata keçirilməsi ilə məşğuluq. Deyildiyi kimi, Minks qrupunun üç həmsədri təyin olunubdur: Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa. Biz bürün vasitələrdən istifadə edirik ki, 1997-ci ildə məsələnin sülh yolu ilə həll edilməsinə nail olaq. Biz buna nail olacağıq. Mən buna inanıram. Ancaq o da məlumdur ki, bu, xalqımızın, Azərbaycan millətinin iradəsidir, biz torpaqlarımızı başqalarının tapdağı altında heç vaxt qoymayacağıq. Biz heç vaxt ərazimizin bir qarışının da belə heç kəsə verilməsinə razı olmayacağıq. İşğal olunmuş torpaqlarımız nəyin bahasına olursa-olsun azad ediləcək, Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olunacaq və siz yerinizə-yurdunuza qayıdacaqsınız.

Bilirik ki, belə vəziyyətdə yaşamaq çətindir. Əlimizdən gələni edirik ki, sizin yaşayışınızı müəyyən qədər yüngülləşdirək, vəziyyətinizdə müəyyən müsbət halların əldə edilməsinə nail olaq. Bunun üçün bu gün də çalışırıq, sabah da çalışacağıq. Sizin yaşayışınız Azərbaycan dövlətinin, şəxsən mənim daim qayğım altındadır. Bilin ki, Azərbaycan prezidenti kimi, mənim üçün sizin həyatınıza olan qayğı kimi, başqa birinci dərəcəli məsələ yoxdur. Mənim üçün işğal olunmuş torpaqların azad edilməsi, Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa olunması kimi, başqa bir ali vəzifə yoxdur. Mən bu vəzifəni yerinə yetirməyi özümün müqəddəs borcum hesab edirəm. İnanın, bilin ki, mən sözümü yerinə yetirmək üçün həyatımın son dəqiqəsinə qədər çalışacağam və buna nail olacağam.

Xalqımız dözümlü xalqdır. Biz keçən dövrlərdə də çox əzab-əziyyətlərə, çətinliklərə, məhrumiyyətlərə dözmüşük. İndi də sizin aqibətiniz belə gətirib. Bu ağırlıqlara, çətinliklərə məhrumiyyətlərə dözürük, dözməliyik. Sizə və bütün xalqımıza, xüsusən yerindən-yurdundan didərgin düşmüş soydaşlarımıza bu dözümlülüyünüzə, dəyanətinizə görə təşəkkür edirəm. Dözün, biz xalqımızla bir yerdə dözək, ona görə ki, istədiyiniz [217-218] həmin o günə gəlib çataq. Əmin olun ki, torpaqlarımızın azad olunması, respublikamızın ərazi bütövlüyünün bərpa edilməsi, müstəqil Azərbaycanın gələcək xoşbəxt günü gəlib çatacaqdır. Sizə cansağlığı arzu edirəm. Bunu bilin, mənim qəlbim sizinlədir. Sizə dözümlülük, xalqımıza vüqar, cəsarət, qəhrəmanlıq arzu edirəm. Bu yolla biz respublikamızın dövlət müstəqilliyini möhkəmləndirib, müstəqil Azərbaycanı yaşadacağıq. Əziz dostlar, sağ olun. [218-219]

## AZƏRBAYCAN PREZİDENTİ ADINDAN QIRĞIZISTAN RESPUBLİKASININ PREZİDENTİ ƏSGƏR AKAYEVİN ŞƏRƏFİNƏ VERİLMİŞ RƏSMİ ZİYAFƏTDƏ NİTQ

*"Gülüstan " sarayı*

*23 aprel 1997-ci il*

Hörmətli prezident Əsgər Akayev!

Hörmətli Məryəm Akayeva!

Möhtərəm qonaqlar, xanımlar və cənablar! Qırğızıstan prezidenti, dostum Əsgər Akayev cənablarının Azərbaycana rəsmi səfəri başa çatır. Biz tam əsasla deyə bilərik ki, səfər səmərəli nəticələrlə sona yetir. Bu, Qırğızıstan prezidentinin Azərbaycana ilk səfəridir, Azərbaycan və Qırğızıstan dövlət müstəqilliyi əldə etdiyi vaxtdan bəri bu gün ilk dəfə olaraq dövlətlərarası və hökumətlərarası sənədlər imzalanmışdır.

Qırğız və Azərbaycan xalqları arasında dostluğun kökləri əsrlərin dərinliklərinə gedib çıxır. Biz eyni tarixli köklərə malikik, bir dil qrupuna, bir dinə mənsubuq, milli, mənəvi adət və ənənələrimizdə oxşar, uyğun cəhətlər çoxdur. Xalqlarımız əsrlər boyu dost olmuş, bir-birini dəstəkləmiş, bir-birinə kömək etmişlər.

Xalqlarımız arasında əvvəlki tarixdə yaradılmış çoxsahəli ədəbi, mədəni, iqtisadi, insani əlaqələrdən danışmaq olar. Lakin Qırğızıstan və Azərbaycan dövlət müstəqilliyinə nail olduqdan sonra, öz aralarında diplomatik münasibətlər yaradaraq dostluq əlaqələri ənənələrini davam etdirməyə başladıqdan sonra biz rəsmi dövlət səviyyəsində ilk dəfə görüşdük və mühüm sənədlər imzaladıq. [219-220]

Qırğızıstan ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq haqqında prezidentlər tərəfindən imzalanmış müqavilə çox böyük tarixi əhəmiyyətə malikdir. Bu gün dövlətlərimiz arasında imzalanmış bütün digər sənədlər kimi, həmin müqavilə də əməkdaşlığın, dostluğun və qarşılıqlı yardımın prinsipcə yeni münasibətlərinin, yeni prinsiplərinin əsasını qoyur. Beləliklə, yeni mərhələ açılır və bu mərhələdə suveren Qırğızıstan və suveren Azərbaycan münasibətlərimizi inkişaf etdirmək və dərinləşdirmək üçün gələcək fəaliyyət proqramını müəyyənləşdirmişlər. Buna görə də Qırğızıstan prezidenti, əziz Əsgər Akayevin Azərbaycana səfəri respublikamızın həyatında əlamətdar hadisədir, həm Qırğızıstan üçün, həm də Azərbaycan üçün tarixi əhəmiyyətə malikdir.

Heç bir şübhə yoxdur ki, bu gün yaradılmış nə varsa onların əsasında biz əməkdaşlığı inkişaf etdirmək üçün və dostluğumuzu əcdadlarımızın bizə vəsiyyət etdikləri ənənələr üzərində möhkəmlətmək üçün yüksək sürətlə irəliləyəcəyik.

Biz Qırğızıstanla bir çox sahələrdə əməkdaşlıq edirik. Hər iki dövlət Birləşmiş Millətlər Təşkilatının, ATƏT-in, İslam konfransının, MDB-nin üzvüdür, türkdilli dövlətlər birliyinə daxildir. Bu gün böyük razılıq hissilə demək olar ki, bütün bu beynəlxalq təşkilatlarda, beynəlxalq görüşlərdə və məclislərdə ölkələrimiz bir-birini ədalətli prinsiplər əsasında, beynəlxalq hüquq normalan əsasında dəstəkləyərək dostluğumuzun ənənələrini, keçmişdə bizi yaxınlaşdırmış, qovuşdurmuş və birləşdirmiş olan və bu işdə indi də xidmət edən tarixi köklərimizi əsas tuturuq.

Biz hesab edirik ki, iqtisadi əməkdaşlığı genişləndirmək üçün daha böyük imkan var. Bu gün biz bütün bunlar barədə razılığa gəldik. Transqafqaz dəhlizi bundan ötrü çox mühüm vasitədir. İndi biz hamımız – Qırğızıstan da, Azərbaycan da bu dəhlizə bağlıyıq. Bununla yanaşı, əməkdaşlığı inkişaf etdirmək və dərinləşdirmək üçün başqa imkanlar da var. Bu gün biz bu barədə ətraflı danışdıq və belə düşünürəm ki, gələcək iş prosesində daha bir sıra sənədlər imzalamağa ehtiyac yaranacaqdır. Elə sənədlər ki, əməkdaşlığımızın yollarını və vasitələrini tənzimləyəcək və müəyyən edəcəkdir.

Bu gün biz tarixi keçmişimizdən də danışdıq. Hörmətli dostumuz Əsgər Akayevə Bakı Dövlət Universitetinin Fəxri [220-221] doktoru diplomu verilməsi münasibətilə universitetin kollektivi ilə görüşdə tarixi əlaqələrimizə dair çoxlu faktlar gətirildi. Biz bunu yüksək qiymətləndiririk. Bunlar həmin köklərdir ki, bizi həmişə birləşdirmişdir, bu gün də münasibətlərimizi möhkəmlətmək üçün mənbədir. Dil birliyimiz, türkdilli ölkələr, türk dövlətləri qrupuna daxil olmağımız üzərimizə çox vəzifələr qoyur. Buna görə də biz bu gün həm qırğız xalqı üçün, həm də Azərbaycan xalqı üçün bərabər əhəmiyyəti olan Manas, Nizami, Füzuli haqqında heç də təsadüfən danışmadıq.

Biz keçmişdə olanların hamısını, indi müstəqil dövlətlər olduqdan sonra əldə etdiyimiz hər şeyi yüksək qiymətləndiririk. Dövlət müstəqilliyinin əldə edilməsi Azərbaycanda tarixi nailiyyət kimi qiymətləndirilir və biz bu nailiyyəti qorumağı, dövlət müstəqilliyimizi, milli azadlığımızı möhkəmlətməyi və inkişaf etdirməyi özümüzə müqəddəs borc bilirik. Bunlar bütün ölkələrlə, o cümlədən də bizə dost olan Qırğızıstanla münasibətlərimiz üçün tamamilə yeni imkanlar və yeni şəraitdir.

Bu mövzunu biz türk dövlətləri başçılarının görüşləri zamanı vaxtaşırı müzakirə edirik. Bu görüşlər Türkiyədə də, Qırğızıstanda da, Özbəkistanda da keçirilmişdir. Belə görüş bu il Qazaxıstanda olacaqdır. Biz bu görüşlərə böyük əhəmiyyət veririk və ildən-ilə daha çox yəqin edirik ki, türk dövlətləri başçılarının görüşü böyük gələcəyə malikdir. Bizi tarixi keçmişimiz, dilimiz, ənənələrimiz birləşdirir və bu zəmin dövlət müstəqilliyimizi, suverenliyimizi daha da möhkəmlətmək üçün, habelə ölkələrimiz və xalqlarımız arasında əməkdaşlıq üçün yaxşı vasitədir.

Biz MDB çərçivəsində əməkdaşlığa da böyük əhəmiyyət veririk. Bu gün biz bu barədə ətraflı danışdıq. Ümidvarıq ki, MDB-nin fəaliyyəti, əlbəttə, birliyə daxil olan hər bir ölkənin dövlət müstəqilliyi və suverenliyi prinsipləri əsasında təkmilləşəcəkdir.

ATƏT çərçivəsində əməkdaşlığımızın olduqca böyük əhəmiyyəti var. Azərbaycan tezliklə Avropa Şurasına da qəbul ediləcəkdir. ATƏT elə bir təşkilatdır ki, o, şəxsiyyət azadlığı, insan hüquqları ilə bağlı prinsiplərin bərqərar olması üçün ölkələrimizin bundan sonra da demokratikləşdirmə yolu ilə, ba[221-222]zar iqtisadiyyatı islahatları aparılması yolu ilə gedə bilməsi üçün çox iş görə bilər.

ATƏT-in bizim üçün böyük əhəmiyyəti var. Ona görə ki, Ermənistan-Azərbaycan münaqişəsini dincliklə aradan qaldırmaq üçün ATƏT-in tərkibində Minsk qrupu yaradılmışdır. Biz ATƏT-də, onun Minsk qrupunda iştirakımıza böyük əhəmiyyət veririk və ona Ermənistan-Azərbaycan münaqişəsinin dincliklə aradan qaldırılması üçün, Azərbaycanın erməni təcavüzündən, erməni işğalından xilas olması üçün, işğal altındakı Azərbaycan ərazilərinin azad edilməsi və çox ağır şəraitdə yaşayan köçkünlərin, qaçqınların öz yaşayış yerlərinə qayıtması üçün səmərəli bir vasitə kimi baxırıq.

Artıq bu gün deyildiyi kimi, Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunmuş, erməni təcavüzü nəticəsində bu torpaqların bir milyondan çox sakini qaçqın vəziyyətinə düşmüşdür. Bu gün hörmətli qonağımız Əsgər Akayev və onu müşayiət edən şəxslər Cəbrayıl, Ağdam rayonlarından və digər rayonlardan olan qaçqın ailələrinin yerləşdirildiyi Dövlət Universitetinin yataqxanasına getdilər. Dostumuz bu qaçqınların necə ağır şəraitdə yaşadıqlarını gördü. Lakin qonaqlarımız qaçqınlar üçün düşərgələrə getdikdə daha ağır təəssürat yaranır, belə ki, onlar çadırlarda yaşayırlar. Odur ki, Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması, Dağlıq Qarabağ probleminin həlli, öz yaşayış yerlərindən didərgin salınmış bir milyondan artıq Azərbaycan vətəndaşının doğma ocaqlarına qayıtması bizim üçün birinci dərəcəli əhəmiyyətə malikdir. Bununla əlaqədar Minsk qrupunun, ATƏT-in fəaliyyəti bizim üçün çox vacibdir və biz ötən ilin dekabrında ATƏT-in Lissabon Zirvə toplantısında qəbul edilmiş sənədi böyük razılıq hissilə qarşıladıq.

İlk dəfə qəbul olunan bu sənəddə Ermənistan-Azərbaycan münaqişəsinin dincliklə aradan qaldırılmasının əsas prinsipləri nəzərdə tutulur – bunlar Azərbaycanın, eləcə də Ermənistanın ərazi bütövlüyünün, suverenliyinin tanınması, Dağlıq Qarabağa Azərbaycan Respublikasının tərkibində yüksək özünüidarə statusu verilməsi və Dağlıq Qarabağın bütün əhalisi üçün təhlükəsizliyin təmin edilməsi prinsipləridir. [222-223]

Bu sənədi qəbul etmək ona görə mümkün olmuşdur ki, ATƏT-in bütün üzvləri yəqin etdilər ki, Azərbaycana qarşı ədalətsizliyə yol verilmişdir, erməni təcavüzü nəticəsində baş vermiş bütün hadisələr beynəlxalq hüquq normalarına, BMT-nin və ATƏT-in prinsiplərinə tamamilə ziddir. Mən prezident Əsgər Akayevə təşəkkür edirəm ki, Qırğızıstan Lissabon Zirvə toplantısı zamanı bizi dəstəklədi. Orada necə mürəkkəb vəziyyət yarandığı, bu sənədin qəbul edilməsinə nail olmaq üçün bizim nə kimi çətinliklərdən keçdiyimiz məlumdur. Prezident Əsgər Akayevə həmçinin buna görə təşəkkür etmək istəyirəm ki, Cakartada İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin xarici işlər nazirlərinin görüşündə Qırğızıstan bizi dəstəklədi ki, Ermənistan-Azərbaycan münaqişəsinin dincliklə aradan qaldırılması üçün Lissabon sənədində əsas prinsiplər kimi təsdiqlənmiş prinsiplər İslam konfransının qərarlarında öz əksini tapsın.

Bu konkret əməli işlər beynəlxalq meydanda əməkdaşlığımızın, xüsusən də erməni təcavüzünə son qoymaq və Ermənistan-Azərbaycan münaqişəsini dincliklə aradan qaldırmaq, işğal olunmuş əraziləri azad etmək, yaşayış yerlərindən didərgin salınmış vətəndaşlarımızı öz əvvəlki yerlərinə qaytarmaq kimi çox mühüm məsələdə əməkdaşlığımızın nəticəsidir.

Buna görə də mən ikitərəfli dövlətlərarası, hökumətlərarası münasibətlərimiz üzərində ayrıca dayanmağı lazım bildim. Mən bu münasibətləri yaxşı hesab edirəm, bu gün imzalanmış sənədlər isə onları daha da yaxşılaşdıracaqdır. Mən məhz belə bir məsələnin üzərində dayandım ki, biz beynəlxalq təşkilatlarla əməkdaşlıq üzrə yaxşı təcrübəyə malikik və deməli bir-birimizə kömək göstərmək, bir-birimizi dəstəkləmək üçün bu təcrübəni artırmaq, ondan gələcəkdə də istifadə etmək lazımdır.

Azərbaycanın düşdüyü vəziyyət inandırıcı şəkildə göstərir ki, harada baş verməsindən asılı olmayaraq, separatçılıq böyük təhlükə törədir. Buna görə də hər hansı formada separatçılığa qarşı mübarizənin məhdud milli deyil, həm də beynəlxalq əhəmiyyəti var. Bu, təkcə Azərbaycan üçün deyil, dünyanın bütün ölkələri üçün də vacibdir. Əgər bu gün Azərbaycan kimi hər hansı bir ölkə separatçılıqdan əziyyət çəkirsə, bu ona də[223-224]lalət etmir ki, açığını deyəcəyəm, bu cinayətdən sabah başqa bir ölkə də əziyyət çəkməyə bilməz. Odur ki, separatçılığa münasibət, ona qarşı qətiyyətlə mübarizə aparmaq, separatçılığın qarşısını almaq məsələlərində bütün beynəlxalq təşkilatlarda, o cümlədən də MDB-də həmrəylik beynəlxalq əhəmiyyətə malikdir. Buna görə

də biz bundan sonra da öz dövlət müstəqilliyimizi, ərazi bütövlüyümüzü əzmlə qoruyacaq, hər hansı formada, yer kürəsinin hər hansı bölgəsində separatçılığın əleyhinə çıxacağıq.

Hörmətli qonaqlarımız, siz bu gün, görünür yəqin etdiniz ki, Azərbaycan sülhsevər ölkədir, dünyanın bütün ölkələri ilə, ən əvvəl öz qonşuları ilə dinc münasibətlərə, dostluq münasibətlərinə malik olmaq istəyir. Biz Qafqazda mühüm strateji mövqe tuturuq və ondan Qafqazda, onun hüdudlarından kənarda, bütün dünyada sülhün möhkəmlənməsi naminə istifadə etmək istəyirik. Biz bundan ötrü gələcəkdə də müvafiq addımlar atacağıq. Biz Ermənistan-Azərbaycan münaqişəsinin dincliklə aradan qaldırılması ilə, ölkələrimiz arasında tam sülh və nəticə etibarilə Qafqazda sülh yaradılması ilə, bölgələrdə, o cümlədən Gürcüstanda, Şimali Qafqazda gedən digər münaqişələrin də aradan qaldırılması yolu ilə Qafqazın sülh bölgəsinə çevrilməsinə nail ola bilərik.

Bu, Mərkəzi Asiya ölkələri üçün də əhəmiyyətə malikdir. Hesab edirəm ki, artıq yaradılmış olan və fəaliyyət göstərən Transqafqaz dəhlizi uzunmüddətli xarakter daşıyır. O, ölkələrimizin xalqlarına təkcə bu gün üçün deyil, gələcəkdə də lazımdır. Transqafqaz dəhlizi ilə biz Mərkəzi Asiya, Qafqaz, Şərqi və Qərbi Avropa ölkələrində böyük gələcəyin bünövrəsini qoymuşuq. Deməli, bu əlverişli imkandan, bu vasitədən istifadə etmək üçün sülh gərəkdir – Qafqazda da, Mərkəzi Asiyada da, Şərqi və Qərbi Avropada da, bütün dünyada da. Buna görə də biz sülh uğrunda, ədalət uğrunda, dövlət müstəqilliyimizin daha da möhkəmlənməsi və inkişaf etməsi uğrunda mübarizə aparırıq və aparacağıq. Azərbaycan bütün bunlarda. iqtisadi əməkdaşlıq üçün, bütün digər əməkdaşlıq üçün sizin etibarlı tərəfdaşınızdır.

Biz Qırğızıstanda gedən prosesləri böyük diqqətlə izləyirik. Mən Manasın 1000 illiyi ilə əlaqədar 1995-ci ilin avqustunda [224-225] qırğız torpağında keçirilmiş bayram şənliklərindən aldığım böyük təəssüratın təsiri altındayam. Biz Qırğızıstanın hər yerindən çox böyük miqdarda insanın axışıb gəldiyi Manas – Aulda Manasın 1000 illiyini bayram edərkən orada hökm sürmüş şən mühiti indiyədək xatırlayırıq. Bütün təntənəli mərasimləri və xüsusən Manasın vətəni Talasda olduğumuz anları xatırlayıram. Bunların hamısını xatırladıqda qırğız xalqı üçün, dostluğumuz üçün çox böyük sevinc hissləri keçirir və məmnunluq duyuram. Bütün bunlar üçün sizin kimi, mən də sevinirdim və sevinirəm. Çünki bütün bunlar bizim hamımızındır.

Qırğızıstanda olarkən öz gözlərimlə gördüm ki, Qırğızıstan dövlət müstəqilliyi şəraitində necə də dəyişir, nə qədər iş görülmüşdür və görülür, necə böyük perspektivlər açılır. Bütün bunlarda dostum, Qırğızıstan prezidenti Əsgər Akayevin olduqca böyük rolu var. Bu gün mən universitetdə də dedim və bir daha demək istəyirəm ki, öz tarixinin ən mürəkkəb, çətin mərhələsində qırğız xalqı öz elmi ixtiraları ilə, təhsil sahəsində öz çoxtərəfli fəaliyyəti ilə, öz ictimai-siyasi fəaliyyəti ilə Qırğızıstanda və onun hüdudlarından kənarlarda məşhurlaşmış bir insanı – Əsgər Akayevi özünün ilk prezidenti seçməkdə düz hərəkət etmişdir. Dostumuz Əsgər Akayev Ali Sovetin üzvü olarkən onun necə coşqun fəaliyyət göstərdiyini yaxşı xatırlayırıq. O vaxtlar bunu televiziya ilə göstərirdilər. Doğrudur, onda mən işdən kənarda idim və buna görə də televizora tez-tez baxır və Əsgər Akayevin çox kəskin çıxış etdiyini görürdüm, Qorbaçovla və başqa adamlarla sözləşəndə replikalarını eşidirdim. Təbii ki, bütün bunlar onun fəal həyat mövqeyi tutduğunu, güclü ictimai-siyasi fəaliyyəti, dövlət fəaliyyəti göstərdiyini, öz xalqının milli mənafelərini qətiyyətlə qorumağa qadir olduğunu çox inandırıcı şəkildə nümayiş etdirirdi.

Bütün bunların əsasında Əsgər Akayev Qırğızıstanın ilk prezidenti seçildi və öz xalqının etimadını doğruldaraq, ötən il bu etimadı ikinci dəfə qazandı – ümumxalq demokratik seçkilərindən bir daha keçərək Qırğızıstanın prezidenti seçildi. Bunun qırğız xalqı üçün də, Qırğızıstanın dostları üçün də, o cümlədən bizim üçün, Azərbaycan üçün, respublikamız üçün də çox [225-226] böyük əhəmiyyəti var. Bu, qardaşlıq münasibətlərimizin daha da möhkəmlənməsi və inkişaf etməsi üçün, bu gün imzalanmış sazişlərin əməli surətdə həyata keçirilməsi üçün çox mühüm amildir.

Erməni təcavüzü, ölkəmizin ərazi bütövlüyünün pozulması ilə əlaqədar Azərbaycanda böyük çətinliklər çəkirik. Bununla yanaşı, bizdə iqtisadi islahatların aparılması, respublikamızda sosial-iqtisadi vəziyyətlə bağlı çətinliklər də var. Qırğızıstanın da keçid dövrü ilə bağlı öz çətinlikləri var. Lakin bu gün biz fikir mübadiləsi edərək yekdil rəyə gəldik ki, biz bu çətinlikləri aradan qaldırmağa, dövlət müstəqilliyi prinsipləri əsasında ölkələrimizi, xalqlarımızı azad inkişafın geniş yoluna çıxarmağa qadirik. Hörmətli dostlar, sizi əmin etmək istəyirəm ki, biz dostluqda və əməkdaşlıqda həmişə etibarlı olacağıq və siz bizə tamamilə bel bağlaya bilərsiniz.

Qırğız xalqının şərəfinə, müstəqil Qırğızıstan Respublikasının şərəfinə, qırğız xalqının gələcək uğurları şərəfinə, Qırğızıstan prezidenti, dostumuz Əsgər Akayevin şərəfinə, onun zövcəsi Məryəm xanımın şərəfinə, Qırğızıstan nümayəndə heyətinin bütün üzvlərinin şərəfinə, Qırğızıstandan gəlmiş bütün qonaqların şərəfinə badə qaldırıram! Əziz dostlar, sizin sağlığınıza badə qaldırıram! Sizə cansağlığı və firavanlıq, dövlət müstəqilliyinin və milli azadlığın çətin, lakin doğru yolunda uğurlar arzulayıram. Sizin sağlığınıza! [226-227]

**PASXA BAYRAMI MÜNASİBƏTİLƏ
RESPUBLİKANIN
PRAVOSLAV XRİSTİANLARINA
TƏBRİK**

*25 aprel 1997-ci il*

Əziz həmvətənlər!

Müqəddəs Pasxa bayramı münasibətilə sizi – respublikamızın bütün pravoslav xristianlarını ürəkdən təbrik edir, ən səmimi arzularımı yetirirəm.

İnsanların mənən yeniləşməsində və saflaşmasında, cəmiyyətdə əxlaqi dəyərlərin, dostluq və humanizm prinsiplərinin olmasında dinin mühüm rolu vardır. Bu xeyirxah niyyətlərin gerçəkləşməsi, müstəqil demokratik Azərbaycanda əmin-amanlığın və vətəndaş həmrəyliyinin qorunub saxlanması işində başqa konsessiyalarla yanaşı, ölkəmizdə fəaliyyət göstərən rus pravoslav kilsəsi də yaxından iştirak edir. Əminəm ki, dilindən, dini və etnik mənsubiyyətindən asılı olmayaraq respublikamızın bütün vətəndaşları doğma vətənimiz Azərbaycana müqəddəs övladlıq borcunu bundan sonra da ləyaqətlə yerinə yetirəcək, ölkəmizin daha da çiçəklənməsi və tərəqqisi, dövlət müstəqilliyimizin əbədi olması naminə var qüvvə ilə çalışacaqlar.

Bu əziz bayram günündə uca Tanrıdan hamınıza xoş ovqat, ailə sevinci və firavan həyat arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 25 mart 1997-ci il* [227-228]

**AZƏRBAYCANIN XALQ ARTİSTİ**
**LYÜDMİLA GEORGİYEVNA ZIKİNAYA**

Hörmətli Lyudmila Georgiyevna!

Sizi yaradıcılıq fəaliyyətinizin 50 illik yubileyi münasibətilə təbrik edir, sizə cansağlığı, firavanlıq və yeni-yeni uğurlar arzulayıram.

Sizin yaradıcılığınız gözəlliyə və insanlığa hədsiz sədaqətlə xidmət etmək nümunəsi kimi rus musiqi mədəniyyətinin inkişafında bütöv bir mərhələ olmuşdur. Özün rus mahnılarında əksini tapan xalqın dühası həyat və ölüm, məhəbbət və səadət kimi əbədi problemlərin dərk olunmasına həmişə xidmət etmişdir. Sizin ifanızda bu mahnılar əxlaq dərsi kimi səslənəcək, müasirlərimizin mənəvi aləminin formalaşmasına amiranə təsir göstərmişdir.

Rusiya ilə, vətən və dünya mədəniyyəti ilə min tellərlə bağlanan sizin yaradıcılığınız dünyanın bütün guşələrində milyonlarla insanın qəlbinə hakim kəsilmişdir. Siz öz misilsiz səsinizin gücünə və rus mahnısının mənəvi qüdrətinə arxalanaraq, rus incəsənətinin təbliğində heyrətamiz müvəffəqiyyətlər qazanmısınız.

Sizin yaradıcılığınız rus musiqisinin üzgünlüyünün çox parlaq ifadəsi kimi bir çox xalqlara müyəssər, anlaşıqlı və yaxın olmuş. geniş şöhrət və nüfuz qazanmış, ümumbəşəri sərvətə çevrilmişdir. Azərbaycanda sizin gözəl mahnılarınız, unudulmaz səsiniz, təkraredilməz şəxsiyyətiniz xüsusi məhəbbət və ehtirama malikdir. Sız Rusiya-Azərbaycan mədəni əlaqələrinin inkişafına, Azərbaycan və rus xalqları arasında dostluğun möhkəmlənməsinə böyük töhfə vermisiniz. Biz bunu yüksək qiymətləndiririk ki, siz 25 ildir Azərbaycanın xalq artisti fəxri adını daşıyırsınız.

İnsana, xalqın həyati qüvvəsinə, ümumbəşəri dəyərlərə inam aşılanmış mahnılarınız indiki ağrılı-acılı və ölümlü-itimli günlərdə bizim üçün xüsusi məna kəsb edir. Siz öz səmimi, [228-229] dərin milli sənətinizlə humanizm amallarına daim xidmət edərək, xeyir və sülhdən ibarət olan öz yaradıcılıq öyüdünüzü gələcək əsrə yönəldirsiniz.

Ömrünüz uzun olsun.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 26 aprel 1997-ci il* [229-230]

## QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİNİN İSTANBULDA KEÇİRİLƏCƏK BİZNES KONFRANSINDA İŞTİRAK ETMƏK ÜÇÜN TÜRKİYƏYƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ

*28 aprel 1997-ci il*

Bildiyiniz kimi, İstanbulda Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının biznes konfransı keçirilir. Bu, çox əhəmiyyətli bir toplantıdır, çünki bu dəfə Qara Dəniz hövzəsi ölkələri ilə iqtisadi əməkdaşlıq çərçivəsində ən çox xüsusi şirkətlərə, biznes nümayəndələrinə yer verilir. Bu ölkələrin bir çox dövlət başçıları, Dünya Bankının, Avropa Yenidənqurma və İnkişaf Bankının, Beynəlxalq Maliyyə Korporasiyasının, Birləşmiş Millətlər Təşkilatının və bir sıra digər beynəlxalq təşkilatların nümayəndələri toplantıda iştirak edəcəklər. Hətta Qərb ölkələrindən, o cümlədən ABŞ-dan da iş adamları gəlmişlər. Ona görə də toplantıda Azərbaycan da təmsil olunur, orada respublikamızın da nümayəndə heyəti var. Ancaq Türkiyə prezidenti cənab Süleyman Dəmirəl mənə müraciət edərək dedi ki, mənim də oraya gəlməyim münasib olar, lazımdır, çünki bir neçə başqa ölkənin də prezidentləri oraya gəlirlər.

Bu. birgünlük səfərdir, axşam vətənə dönəcəyəm. Mən bu səfəri əhəmiyyətli hesab edirəm. Biz bütün imkanlardan istifadə edib iqtisadiyyatımızın inkişafı və xarici sərmayənin cəlb olunması, bazar iqtisadiyyatının inkişaf etdirilməsi sahəsində yeni-yeni işlər görmək istəyirik.

**Sual: Konfransda Azərbaycandan keçəcək nəqliyyat yolları layihələrinin, yəni Traseka layihəsinin maliyyələşdirilməsi məsələsi müzakirə ediləcəkmi?** [230-231]

**Cavab :** Ola bilsin ki, bu barədə məlumatlar veriləcək, lakin məsələ müzakirə edilib hər hansı qərar qəbul olunmayacaqdır. Bununla yanaşı, bu layihələr, xüsusən kommunikasiya layihələri, elektrik enerjisi sistemlərinin, habelə Avropa və Asiya qitələrinin bu cür sistemlərinin birləşdirilməsi və Xəzər dənizindən enerji daşıyıcılarının nəqli məsələləri də orada müzakirə olunacaq, yəni bu barədə fikir mübadiləsi ediləcəkdir. Ola bilər ki, müəyyən layihələr də müzakirəyə çıxarılsın. Orada yeni bir qərar qəbul etmək nəzərdə tutulmayıb, ancaq bu məsələlərin irəlilədilməsi üçün, inkişaf etdirilməsi üçün fikir mübadiləsi, müzakirələr lazımdır, çox əhəmiyyətlidir. [231-232]

## İSTANBULDA "QARA DƏNİZ REGİONUNDA YENİ İMKANLAR" MÖVZUSUNDA KEÇİRİLMİŞ BİZNES KONFRANSINDA NİTQ

*28 aprel 1997-ci il*

Hörmətli cənab sədr!

Xanımlar və cənablar!

Hörmətli dövlət və hökumət başçılarını, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı İşgüzar Şurasının Türkiyə Respublikası Xarici İqtisadi Əlaqələr Şurası ilə birlikdə təşkil etdiyi "Qara dəniz regionunda yeni imkanlar" biznes konfransının bütün iştirakçılarını ürəkdən salamlayıram.

Qonaqpərvərlik üçün və bizə əla iş şəraiti yaratdığı üçün hörmətli prezident Süleyman Dəmirələ, konfransın təşkilatçılarına təşəkkürümü bildirirəm.

Olduqca əlamətdardır ki, məclisimiz gözəl İstanbul şəhərində keçirilir. Beş il bundan əvvəl, 1992-ci ilin iyununda məhz burada Qara dəniz hövzəsinin on bir ölkəsi regionumuzu sülh, sabitlik və tərəqqi regionuna çevirməli olan, xalqlarımızın rifahını yüksəltməli olan yeni beynəlxalq təşkilat yaradıldığını elan etmişdir.

Məmnuniyyət hissi ilə qeyd etmək olar ki, ötən beş il bu qərarın düzgünlüyünü, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının zəruriliyini və yaşamağa qadir təşkilat olduğunu inandırıcı şəkildə sübut etmişdir. Həmin dövr ərzində bir çox sahələrdə əməkdaşlığımızın genişlənməsi və dərinləşməsi üçün xeyli iş görülmüş, regional ticarətdə və iqtisadi kooperasiyada müsbət nəticələr əldə edilmişdir.

Bütün bunlar bizim əməkdaşlığımızın yeni, daha yüksək səviyyələrinə və formalarına çıxmaq üçün əlverişli ab-hava və şərait yaranmasına kömək etmişdir. Qara dəniz İqtisadi Əməkdaşlığı ölkələrinin biznes konfransı da belə yeni formalardan [232-233] biridir. Biznes konfransının işində Qara dəniz İqtisadi Əməkdaşlığının iştirakçısı olan ölkələrin biznesmenləri, işgüzar dairələrinin nümayəndələri iştirak edirlər. Şübhə yoxdur ki, bu, əməkdaşlığımızın müvəffəqiyyətinə, planlarımızın konkretləşməsinə, yeni birgə müəssisələr yaradılmasına, mövcud problemlərin həllinə kömək edəcəkdir.

Qara dəniz İqtisadi Əməkdaşlığı ölkələrinin dövlət və hökumət başçılarının, BMT nümayəndələrinin, Dünya Yenidənqurma və İnkişaf Bankının, Avropa Yenidənqurma və İnkişaf Bankının, Beynəlxalq Maliyyə Korporasiyasının və bir çox digər nüfuzlu beynəlxalq təsisatların rəhbərlərinin bu məclisdə iştirak etməsi Qara dəniz İqtisadi Əməkdaşlığına çox böyük əhəmiyyət verdiyini sübut edir.

Əminəm ki, konfransımız regionumuzun nəhəng iqtisadi potensialından daha yaxşı istifadə etməyə şərait yaradacaq, investisiyaların artmasına və bizim regional iqtisadi layihələrimizin əməli surətdə həyata keçirilməsinə kömək edəcəkdir.

Məsələn, nəqliyyat, energetika, rabitə sahələrində birgə fəaliyyət üçün, investisiya qoyuluşu üçün böyük imkanlar vardır. Qara dəniz iqtisadi əməkdaşlıq regionunun nəqliyyat infrastrukturunun layihələri böyük əhəmiyyət daşıyır. Bu infrastruktur Avropanın nəqliyyat sisteminə inteqrasiya olunacaqdır. Qara dəniz İqtisadi Əməkdaşlığının nəqliyyat layihələrinin "TRASEKA" layihələri ilə əlaqələndirilməsi Avropa və Asiya ölkələri arasında yük daşımaları üçün çox geniş imkanlar açacaqdır.

Qara dəniz İqtisadi Əməkdaşlığının üzvü olan ölkələrin elektroenergetika sistemlərinin birləşdirilməsi layihəsi perspektivli layihədir. Ona birləşmiş Avroasiya elektroenergetika sisteminin yaradılması istiqamətində atılan addım kimi də baxmaq olar. Qara dəniz regionu Xəzər dənizi regionundan enerji daşıyıcılarının nəql edilməsi üçün xüsusi əhəmiyyətə malikdir. Bununla əlaqədar olaraq həmin enerji daşıyıcılarının nəql edilməsinin ekoloji cəhətdən təhlükəsiz və etibarlı sistemini yaratmaq zərurəti meydana çıxır.

Azərbaycanın bu layihələrdə marağı vardır və o, bunların hazırlanıb həyata keçirilməsində fəal iştirak etmək niyyətindədir.

Hörmətli xanımlar və cənablar!

Qara dəniz İqtisadi Əməkdaşlığının əsas məqsədi regionumuzun çiçəklənməsini, xalqlarımız üçün sülhü və firavanlığı [233-234] təmin etməkdir. Ona görə də bizim regionda mövcud silahlı münaqişələrin davam etməsi yolverilməzdir.

Məlumdur ki, Azərbaycan Respublikası Ermənistan Respublikasının təcavüzü nəticəsində çox böyük ziyan çəkmişdir – ərazimizin iyirmi faizi işğal edilmişdir, Azərbaycanın bir milyondan çox sakini qaçqına çevrilmişdir və olduqca ağır bir şəraitdə yaşayır.

1996-cı ilin dekabr ayında ATƏT-in Lissabon sammiti bu təşkilatın üzvü olan 53 dövlət adından Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılmasının aşağıdakı əsas prinsiplərini qəbul etmişdir:

- Ermənistanın və Azərbaycanın ərazi bütövlüyü;
- Azərbaycanın tərkibində Dağlıq Qarabağın geniş muxtariyyəti;
- Dağlıq Qarabağın bütün əhalisi üçün təhlükəsizlik.

Bu prinsipləri Avropa Şurasının Parlament Assambleyası da 1997-ci ilin aprelin 22-də öz qətnaməsində təsdiq etmişdir.

Biz Lissabon sammitinin qərarlarının əməli surətdə həyata keçməsinə nail olmaq üçün öz tərəfimizdən bütün lazımi tədbirləri görürük və ümidvarıq ki, 1997-ci il sülh sazişinin əldə edilməsi üçün həlledici il olacaqdır. Biz uzun sürən bu münaqişənin aradan qaldırılmasında ATƏT-in Minsk qrupunun fəaliyyətinin güclənəcəyinə, Minsk konfransının həmsədrləri olan Rusiyanın, ABŞ-ın və Fransanın birgə səylərinə, habelə Qara dəniz hövzəsi ölkələrinin köməyinə bel bağlayırıq.

Biz Ermənistanı ATƏT-in Lissabon sammitinin təsdiq etdiyi prinsiplər əsasında münaqişənin sülh yolu ilə aradan qaldırılmasına çağırırıq.

Bu tribunadan istifadə edərək mən Azərbaycan Respublikasının qəti fikrini bir daha təsdiq edirəm ki, respublikamız üç ildən bəri davam edən atəşkəs rejiminə sülh sazişi imzalanana qədər riayət etmək niyyətindədir.

Ümidvaram ki, əlbir səylərlə biz regionumuzda bütün münaqişələrin aradan qaldırılmasına nail olacaq, möhkəm sülhün, sabitliyin, xalqlarımızın tərəqqisinin və əməkdaşlığının təməlini qoya biləcəyik. Diqqətinizə görə təşəkkür edirəm. [234-235]

## MSTİSLAV ROSTROPOVİÇ, ONUN ZÖVCƏSİ QALİNA VİŞNEVSKAYA VƏ AİLƏSİNİN DİGƏR ÜZVLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*Prezident Sarayı*

*29 aprel 1997-ci il*

Əziz Mstislav Leopoldoviç, əziz Qalina Pavlovna, əziz qonaqlar, dostlar! Mən hədsiz dərəcədə şadam ki, siz dəvətimi qəbul edib öz vətəninizə, Bakıya, Azərbaycana gəldiniz və biz 70 illik münasibətilə sizi burada şərəflə qarşılamaq imkanına malik olduq.

Mən şad oldum ki, dəvətinizi alıb Parisə gəldim, orada sizin 70 illiyinizə həsr olunmuş mərasimlərdə iştirak etdim. Bu mərasimlər çox əla keçdi, mənə silinməz təəssürat bağışladı. Sevinirdim ki, dostumuz, həmyerlimiz belə geniş beynəlxalq nüfuza malikdir, onun yubileyi Avropanın mərkəzində – Parisdə layiqincə və böyük hörmətlə, çox ehtiramla qeyd edilir.

Bununla yanaşı, Paris Parisdir, Moskva Moskvadır, Bakı isə planetimizin görkəmli adamı olan Mstislav Rostropoviçin dünyaya gəldiyi torpaqdır. Doğma torpağa sitayiş etmək həmişə hər bir insanın müqəddəs borcudur. Sizin dəvəti qəbul edib bizə təşrif gətirməyiniz bir daha sübut edir ki, siz həqiqətən böyük adamsınız, keçmişdə nə varsa hamısını, öz mənşəyinizi, doğulduğunuz torpağı yüksək qiymətləndirirsiniz.

İctimaiyyətimiz sizi böyük ruh yüksəkliyi ilə gözləyir. Yəqin ki, bu gün bunu hiss etdiniz. 70 illiyinizi qeyd etmək üçün biz burada bacardığımız qədər hazırlaşmışıq. Başlıcası budur ki, siz buradasınız, sizin doğma Bakıda həmyerlilərinizlə birlikdəsiniz.

Çox şadam ki, Qalina Pavlovna sizinlə birlikdə gəlmişdir. Mən onu Parisdə olarkən təkidlə dəvət edirdim. Şadam ki, ailənizin üzvləri dəvətimizi qəbul edib sizinlə birlikdə gəl[235-236]mişlər. Bu da müstəsna hadisədir. Siz öz ailənizlə birlikdə belə bir heyətdə Bakıda heç vaxt olmayıbsınız. Sizin və gözəl insan olan zövcəniz Qalina Pavlovnanın, uşaqlarınızın və nəvələrinizin buraya gəlməyiniz ictimaiyyətimiz, xalqımız, respublikamız üçün çox böyük əhəmiyyətə malikdir. Mən sizi ürəkdən salamlayır, 70 illik münasibətilə bir daha təbrik edirəm.

Bu il sizin yubileyiniz ilidir. Əgər ilk şənliklər Parisdə başlamışsa, indi onlar Bakıda davam edir. Bilirəm ki, şənliklər mayın üçüncü ongünlüyündə Moskvada olacaq və yəqin, bundan sonra da keçiriləcəkdir. Mən sizi ürəkdən təbrik edirəm, sizə cansağlığı, firavanlıq, xoşbəxtlik, yeni-yeni yaradıcılıq uğurları və əlbəttə, çox böyük ictimai-siyasi fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzulayıram.

Mən Qalina Pavlovnanı salamlayıram. O, bütün dünyada həm Rostropoviçin həyat yoldaşı kimi, həm də görkəmli aktrisa, görkəmli incəsənət adamı kimi məşhurdur. Onun yaradıcılığı hamıya yaxşı bəllidir. Onun yaradıcılıq yolu, bioqrafiyası parlaqdır. Onun sənətinə görə, vətəndaş hünərinə görə, misilsiz keyfiyyətlərinə görə onunla Böyük Teatr da, rus opera sənəti də, dünya da fəxr edir.

Biz dostumuz Mstislav Rostropoviçdən danışdıqda onun haqqında heç də təkcə görkəmli musiqiçi, incəsənət ustadı kimi danışmırıq. Söz yox ki, bunlar onun ləyaqətidir və onu bütün dünyada şöhrətləndirmişdir. Bununla bərabər, o, birlikdə yaşamış olduğumuz ölkədə – Sovet İttifaqında 70-ci illərdə mövcud olmuş ədalətsizliyə qarşı çıxış edərkən öz cəsarətli hərəkətləri, mövqeyi, prinsipiallığı ilə şöhrətlənmişdir. Ola bilsin ki, avtoritarizmə, totalitarizmə qarşı çıxışlarınızı, siz Sovet İttifaqını tərk etməyə məcbur olduğunuz dövrdə başqa ölkələrdə coşqun siyasi fəaliyyətinizi bəzi adamlar pisləyirdi, bəziləri isə buna mənfi bir hal kimi baxırdılar. Həyat isə sizin nə dərəcədə haqlı olduğunuzu və nə dərəcədə şərəfli, prinsipial insan olduğunuzu, haqq-ədalət naminə, öz vicdanınız naminə. bütün bu çətinliklərə, məşəqqətlərə nə dərəcədə cəsurluqla sinə gərdiyinizi göstərdi. Sizin vicdanlı, ədalətli, namuslu olmağınız, haqq-ədalət uğrunda, vətəndaş hüquqları uğrunda, şəxsiyyətin azadlığı uğrunda, insan azadlığı uğrunda mərdanə [236-237] mübarizəniz sizə bir musiqiçi, məşhur incəsənət xadimi kimi görkəmli fəaliyyətinizdən heç də az şan-şöhrət gətirməmişdir.

Buna görə də siz elə bir insansınız ki, özünüzdə hər şeyi təcəssüm etdirirsiniz.

Bu sözləri sizin vəfalı dostunuz Qalina Pavlovna haqqında da demək olar. Biz onu heç də təkcə Böyük Teatrın görkəmli müğənnisi və olduqca istedadlı insan kimi tanımırıq. Biz bilirik ki, haqq-ədalət uğrunda mübarizənizdə o sizinlə birlikdə özünü cəsarətli aparırdı və həmişə sizinlə birlikdə idi. Bu, insanın etibarlı, vəfalı və sədaqətli dostu olmasına layiqli misaldır. Buna görə də mən çox istəyirdim ki, o, Azərbaycana gəlsin. Şadam ki, indi o buradadır.

Sizin uşaqlarınız, nəvələriniz sizin səadətinizdir, Rostropoviç ailəsinin gələcəyidir. Bu, bizim üçün də böyük fərəhdir, ona görə ki, belə böyük insanların, təbii olaraq böyük də varisləri, böyük də nəsilləri olur, özü də hökmən olur. Odur ki, burada onlar mənə olduqca böyük sevinc bəxş edirlər. Mən özüm də babayam, buna görə də nəvələrin olmasının necə böyük sevinc olduğunu başa düşürəm. İndiki halda biz sizinlə eyni hissləri keçiririk. Mən sizi ürəkdən salamlayır və 70 illiyiniz münasibətilə təbrik edirəm.

Mən Parisə gəldikdə və sizi salamladıqda öz təbrik məktubumu sizə verdim. Lakin burada 70 illiyinizi qeyd etməyimizlə əlaqədar mən bu gün sizin Azərbaycanın yüksək ordeni – "Şöhrət" ordeni ilə təltif olunmağınız haqqında fərman imzaladım. Gördüyünüz kimi, bu necə böyük xoşbəxtlikdir: siz şöhrətsiniz və Azərbaycanın yüksək mükafatı olan "Şöhrət" ordeni ilə təltif edilmisiniz. Mənim təbrikim sizə çatdırılmışdır. Lakin mətbuat nümayəndələrinin də burada olmasını nəzərə alaraq, sizə göndərdiyim və portretiniz əks olunmuş öz təbrikimi sizə təqdim etmək istəyirəm.

**Mstislav Rostropoviç:** Zati-aliləri, cənab prezident, mənim əziz dostum Heydər Əliyeviç, mən çox həyəcanlıyam. Siz mənim əsla gözləmədiyim bir iş etdiniz. Bugünkü gün həyatımda ən emosional günlərdən biridir. Bir insan kimi demək istəyirəm ki, Türkiyəyə səfərinizdən səhər tezdən qayıtmağınıza baxmayaraq, gümrah görünürsünüz. [237-238]

Bilirsinizmi, bu gün biz qəbiristanda olarkən göz yaşlarımızı saxlaya bilmədik. Biz insanların, o cümlədən həyatlarına müharibənin son qoyduğu cavanların məzarlarını gördükdə düşündüm ki, müharibəni, mənim sevimli Azərbaycanımın prezidenti, siz dayandırdınız. Buna görə də səmimi qəlbdən sizə baş əyirəm. Sizə çox sağ olun deyirəm ki, olduqca böyük bir iş görmüsünüz – xalqı öz ölkəsinin sahibi etmisiniz, bütövlükdə ölkədə böyük dəyişikliklər edib, onun nüfuzunu yüksəltmisiniz. Bunun misli yoxdur. Siz böyük insansınız. Elə bir insan ki, bu müharibəni dayandırmışdır, öz xalqını, bu torpaqda sülhü, əmin-amanlığı qoruyub saxlayır.

Bu gün mən yaxın dostlarımın – Niyazinin, Qara Qarayevin məzarlarını ziyarət etdim. Biz Qara Qarayevlə Şostakoviçdən dərs almışıq. Bilirsinizmi, Bakı mənim üçün xüsusi bir şəhərdir. Bu gün çox gülərüzlə qarşılanmağım, xalqın böyük istedadından xəbər verən gözəl, yüksək professional incəsənətiniz məni o dərəcədə valeh etdi ki, Bakı ilə hələ atamın başladığı öz əlaqəmi uzatmağı özümə borc bilirəm. Buna görə də xahiş edirəm mənim təklifimlə razılaşasınız. 2000-ci ilədək mənim hər bir günüm üçün konsert nəzərdə tutulmuşdur. Buna baxmayaraq, artıq 1998-ci ildə bəzi konsertlərimdən azad olmağa çalışacağam və cənab prezident, sizin icazənizlə həmin vaxtdan hər il on günlüyə Bakıya gəlib, gənc Azərbaycan musiqiçilərinə ustalıq dərsi verəcəyəm. Bu, mənim ünvanıma söylədiyiniz gözəl sözlərinizə cavab olacaqdır.

Məni təltif etdiyiniz ordenlə bir bakılı kimi çox fəxr edirəm. Mən öz ordenlərimin bütün rəmzlərini sinəmə taxaraq demək istəyirəm ki, bəlkə də mən özüm belə bir görüşə layiq deyiləm. Lakin hər halda nəyəsə layiqəm. Sizə bir daha səmimi qəlbdən təşəkkür edirəm.

Mən nəvələrimi xüsusi olaraq ona görə gətirmişəm ki, qoy onlar görsünlər babaları harada yaşamışdır. Həyatımız elə gətirdi ki, bizi ölkəmizdən – Sovet İttifaqından didərgin saldılar. Qalina Pavlovnanın mənə bəxş etdiyi qızlarım öz iradəsindən asılı olmayaraq qürbətə düşdülər, orada ərə getdilər. Birinin əri fransız, o birinin əri isə italyandır. Biz öz qanımızı zənginləşdirsək də, köklərimiz Bakıdadır. [238-239]

Mən çox həyəcanlıyam. Əziz dostumuz, çox sağ olun ki, Parisə gəlib məni öz hörmət və ehtiramınızla sevindirdiniz. Mən buna sizə öz məhəbbət və minnətdarlığımla cavab verəcəyəm. Qalina Vişnevskaya da Bakıya səfərdən aldığı təəssüratını bölüşdü. O dedi: Mən Zaqafqaziyaya ilk dəfədir gəlirəm və xalqınızla görüş mənə olduqca böyük təsir bağışladı. Xalqınız məğrur, azadlıqsevər xalqdır. Bu gün qəbiristanda gördüklərimiz bizi sarsıtdı. Bunu görmədən mən inana bilməzdim ki, belə bir şey ola bilər. Biz bu hadisələr haqqında eşitmişdik, oxumuşduq, amma həlak olanların xatirəsinə ucaldılmış bu əzəmətli abidəni gördükdə insanın qəlbində güclü bir təlatüm əmələ gəlir. Bunu ağıl-zəka ilə dərk etmək mümkün deyildir. Bunu ancaq emosional surətdə anlamaq və bütün həyatın boyu yadda saxlamaq olar. Xalqınıza dərin hörmətimi bildirirəm, istəyirəm ki, xalqınız arzuladığı kimi yaşasın, ölkəniz bir daha heç vaxt təhqirlərə, sıxıntılara məruz qalmasın. Allah sizə xoşbəxtlik, ailələrinizə firavanlıq bəxş etsin, öz əzizlərini itirənlərin hamısına təskinlik versin. Sizə ən xoş arzularımı bildirirəm.

**Heydər Əliyev:** Xalqımızın, respublikamızın ünvanına dediyiniz xoş sözlərə görə təşəkkür edirəm. Bu, sizin də doğma torpağınızdır. Əziz Slava, sizin təklifinizi böyük minnətdarlıqla qəbul edirəm ki, 1998-ci ildən başlayaraq bizə təşrif gətirəcək və haqqında danışdığınız vəzifəni yerinə yetirəcəksiniz. Açığını deyim, bu, respublikamız üçün, xalqımız üçün böyük hədiyyə olacaqdır və buna görə sizə bəri başdan təşəkkür edirəm.

Lakin siz keçmişdən də bilirsiniz və bunu indi də yəqin edərsiniz ki, Azərbaycan xalqı bütün xalqlara həmişə dostluq hissləri bəsləmişdir, həmişə sülhsevər xalq olmuşdur. Xalqımız Qərb mədəniyyətindən çox şey əxz etmişdir. Ölkəmizdə Qərb mədəniyyətinin yayıcılarından biri də sizin atanız, valideynləriniz olmuşlar. Sizin valideynləriniz kimi gözəl insanlar Azərbaycana gələrək burada çox böyük iz qoymuş və Şərq ilə Qərbin, Avropa ilə Asiyanın qovuşuğunda olan Azərbaycan xalqının öz milli, özgür mədəniyyətini qoruyub saxlaması, dünya sivilizasiyasına, professional musiqiyə, Qərb incəsənətinə qovuşması üçün çox iş görmüşlər. Sabah siz bizim konservatoriyada olacaqsınız. Onun bünövrəsinin qoyulmasında sizin [239-240] atanızın da xidməti var. Cəmiyyətimiz, musiqiçilərimiz, gənclərimiz dediyiniz o təklifə ehtiyac duyurlar. Bunu ancaq arzulamaq olardı. Odur ki, sizin təşəbbüsünüzü böyük minnətdarlıqla qəbul edirəm.

Bildiyiniz kimi, indi Azərbaycan müstəqil bir respublikadır. Biz çətin bir şəraitdə yaşayırıq, çünki dövlət müstəqilliyinin təşəkkülü prosesi özlüyündə olduqca mürəkkəb və çətin prosesdir. Bu çətinliklər bir də onunla izah edilir ki, milli azadlığa, dövlət müstəqilliyinə qarşı müqavimət göstərilmişdir. Gördüyünüz o məzarlar 1990-cı ilin yanvarında, o vaxtkı Sovet İttifaqı rəhbərliyinin göstərişi ilə Bakıya sovet qoşunlarının iri kontingenti yeridildiyi vaxtda meydana gəlmişdir. O gecə çox böyük miqdarda adam həlak oldu.

Mən görürəm ki, siz bütün bunlara çox həssaslıqla yanaşırsınız, ona görə ki, siz məhz elə adamlarsınız ki, Azərbaycanda Yanvar faciəsindən hələ xeyli əvvəl, bundan 20 il qabaq belə hadisələrə qarşı öz etiraz səsinizi ucaltmışdınız. Əslinə qalsa, məhz bu, sizi o vaxtlar Sovet İttifaqını tərk etmək məcburiyyətində qoydu, həmin köhnə totalitar rejimin dirçəldilməsinə cəhd göstərilərkən Ağ evin müdafiəsinə qalxıb Kremlin divarları qarşısında mübarizə aparmağa məcbur etdi. 1990-cı ilin yanvarında Azərbaycanda o faciəni məhz bu rejim yaratmışdı. Yeri gəlmişkən, o vaxtlar 1987-ci ildə məni çalışdığım yüksək vəzifələrdən uzaqlaşdırmışdılar, lakin Moskvada yaşayırdım və Azərbaycana qarşı bu hərbi təcavüzlə əlaqədar öz etiraz səsimi ucaltdım. Buna görə təqiblərə məruz qaldım və bir neçə aydan sonra Moskvanı tərk etməli oldum, çox çətinliklərdən keçdim. Bunlar sizə məlumdur. Xalqımız öz müstəqilliyini qurbanlar bahasına, böyük itkilər bahasına əldə etmişdir. Bu yandan isə Ermənistan tərəfindən təcavüz olmuşdur. Bu təcavüz Dağlıq Qarabağı Azərbaycandan qoparıb Ermənistana birləşdirmək məqsədilə 1988-ci ildə başlamışdır. Mayın 12-də müharibənin dayandırılmasının üç ili tamam olacaqdır.

Mən Azərbaycana rəhbərliyə 1993-cü ilin ortalarında qayıtdım və bir neçə aydan sonra atəşkəsə nail ola bildim. Bu rejim üç ildir saxlanılır. Yeri gəlmişkən, İstanbulda böyük biznes konfransı keçirilməsi – konfrans indi də davam edir – ilə [240-241] əlaqədar dünən mən orada oldum. İstanbulda Türkiyə, Rumıniya, Gürcüstan, Ukrayna, Moldova, Ermənistan və Azərbaycan prezidentlərinin görüşləri keçirildi. Mən oraya dünən səhər getdim, axşam da geri qayıtdım. Orada mən bütün prezidentlərlə görüşdüm və biz yenə də yekdil fikirdə olduq ki, Qafqazda, bütün regionda, bütün dünyada sülh, əmin-amanlıq və firavanlıq yaratmaq lazımdır.

Dünən mən Ermənistan prezidenti Ter-Petrosyanla görüşdüm, bu konfransda çıxış edib bir daha bildirdim ki, işğal olunmuş torpaqlarımızın azad edilməsi, qaçqınların öz doğma ocaqlarına qayıtması şərti ilə Ermənistanla Azərbaycan arasında tam sülh sazişi imzalanan vaxta qədər biz atəşkəs rejiminə əməl edəcəyik və hərbi əməliyyatların yenidən başlanmasına gətirib çıxara biləcək hərəkətlərə Azərbaycan tərəfindən yol verməyəcəyik.

Xalqımız bu çətinliklərdən keçmiş, çox böyük itkilər vermişdir. lakin bu gün də öz dövlət müstəqilliyi və milli azadlığı mövqelərində qətiyyətlə dayanmışdır. Bununla yanaşı, biz müstəqil dövlət olmaq etibarilə nəinki təcrid olunmaq istəmirik, əksinə, keçmiş Sovet İttifaqının bütün respublikaları ilə, əlbəttə, ən əvvəl Rusiya ilə daha sıx dostluq münasibətləri yaratmaq istəyirik.

Yeri gəlmişkən, biz sizinlə Yelisey sarayında ayrıldıqdan sonra mən Moskvaya yola düşdüm və artıq səhər Kremldə MDB ölkələrinin prezidentləri ilə görüşdüm və bunu onlara danışdım. Sonra mənim Rusiya prezidenti Boris Nikolayeviç Yeltsinlə ayrıca görüşüm oldu. Mən ona sizin yubileyiniz haqqında ətraflı danışdım və dedim ki, sizin stolunuzun arxasında Mayya Plisetskaya və Rodion Şedrin əyləşmişdilər, biz Boris Nikolayeviçin şərəfinə badə qaldırdıq. Yeri gəlmişkən, onun qızı Tatyana da orada idi.

Demək istəyirəm ki, biz bütün imkanlardan, vasitələrdən istifadə edib Rusiya ilə, MDB ölkələri ilə, eləcə də bütün digər ölkələrlə həqiqi, mehriban, səmimi əlaqələr saxlayırıq və saxlayacağıq. Məsələn, biz Fransadan çox uzaq idik. İndi isə ölkələrimiz arasında çox yaxşı, yaxın münasibətlər yaranmışdır. Prezident Jak Şirak cənablarının dəvəti ilə mən yanvarda Fransada rəsmi səfərdə oldum, ay yarımdan sonra isə o və siz [241-242] məni yenidən oraya dəvət etdiniz. Buna görə də biz dostluğumuzu bu prinsiplər əsasında möhkəmlədəcəyik.

Görürəm ki, Rusiyanın kütləvi informasiya vasitələrinin nümayəndələri də buradadırlar, mən onlara minnətdaram ki, onlar, əvvəla, 70 illiyiniz münasibətilə şənliklərdə iştirak etmək üçün, ikincisi, bu gözəl hadisənin şahidi olmaq, habelə hazırda Azərbaycanda reallığı öz gözləri ilə görmək üçün sizinlə birlikdə gəlmişlər. Problemlər, çətinliklər var, ancaq həyat yaxşılığa doğru getdikcə daha çox irəliləyir. İqtisadiyyatımızı yenidən qurmaq, cəmiyyətimizi demokratikləşdirmək, hüquqi, demokratik dövlət qurmaq, bütün sahələrdə demokratiya prinsiplərini möhkəmləndirmək üçün gördüyümüz tədbirlər öz nəticələrini verir. [242-243]

## MSTİSLAV ROSTROPOVİÇİN 70 İLLİK YUBİLEY ŞƏNLİKLƏRİNƏ GƏLƏN KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ BƏYANAT

*Prezident sarayı*

*1 may 1997-ci il*

Salam hörmətli qonaqlar, mətbuat nümayəndələri!

Qonaqlarımızın əksəriyyətinin rus dilini bildiyini nəzərə alaraq rus dilində danışacağam. Əgər kimin üçünsə ingilis dilinə və ya başqa bir dilə tərcümə etmək lazımdırsa, bizim tərcüməçimiz var.

Sözümə başlamazdan əvvəl sizə təşəkkür etmək istərdim ki, həmyerlimiz, görkəmli musiqiçi Mstislav Rostropoviçin 70 illiyinə həsr olunmuş yubiley şənlikləri ilə əlaqədar Azərbaycana gəlmisiniz. Siz özünüz bu şənliklərin necə keçdiyinin şahidisiniz, buna görə də, zənnimcə, müəyyən izahat verməyə ehtiyac yoxdur.

Nəzərə çarpdırmaq istəyirəm ki, biz buna böyük əhəmiyyət veririk. Hər şeydən əvvəl, biz həmyerlimiz kimi, musiqi sənətinin, bütün mədəniyyətin inkişafında, ümumbəşəri dəyərlərin bərqərar edilməsində, ictimai-siyasi fəaliyyətdə çox böyük xidmətləri olan bir insan kimi Mstislav Rostropoviçin şəxsiyyətinə yüksək hörmət bəsləyirik. Şəxsiyyət azadlığının müdafiəsi ilə, totalitarizmə qarşı etirazla, demokratiyanın, siyasi plüralizmin, söz azadlığının bərqərar edilməsi zəruriliyi ilə bağlı onun göstərdiyi səylər, gördüyü işlər məlumdur. Birlikdə götürdükdə bütün bunlar Rostropoviçin şəxsiyyətini səciy[243-244]yələndirir və buna görə də o, beynəlxalq aləmdə və bizdə belə böyük şöhrətə, nüfuza malikdir. Biz iftixar hissi keçiririk ki, o, Bakıda, valideynlərinin yaşayıb yaratdıqları şəhərdə doğulmuşdur. Onun valideynlərinin Azərbaycanda ali musiqi təhsilinin yaradılmasında, ölkəmizdə musiqi mədəniyyətinin inkişafında böyük xidmətləri var.

Bu dediklərimə mənim Mstislav Rostropoviçə şəxsi münasibətim də əlavə edilir. Mən onu çoxdan tanıyıram. Onun sənətini həmişə qiymətləndirmişəm. 70-ci illərin əvvəllərində o, Bakıda olmuş, burada konsertlər vermişdir. Mən onunla həmin illərdə də, təbii ki, sonrakı dövrdə də görüşmüşəm. Onun coşqun ictimai-siyasi fəaliyyəti məndə ona böyük hörmət hissi, onunla böyük həmrəylik hissi oyatmışdır. Ona şəxsi münasibətim bütün bunlarla bağlıdır.

Siz bilirsiniz ki, mən martın 27-də Parisdə onun yubiley gecəsində iştirak etmişəm. Bu, onun arzusu ilə, onun dəvəti ilə olmuşdur. Bununla bərabər, bu həm də Fransa prezidenti cənab Jak Şirakın dəvəti idi. Çox şadam ki, mən bu dəvəti həyata keçirməyə müvəffəq oldum. Mən Parisdə qaldığım bir gündən olduqca böyük məmnunluq duydum. Fransa ilə Azərbaycan arasında dövlətlərarası münasibətlərlə bağlı orada Fransa prezidenti cənab Jak Şirakla, bu ölkənin xarici işlər naziri Erve De Şarett ilə görüşlərim və söhbətlərim oldu. Mən Opera Teatrında da, Yelisey sarayında da yubiley şənliklərində iştirak etdim. Elə onda biz Mstislav Leopoldoviçin yubileyini Azərbaycanda da keçirmək üçün onu buraya dəvət etdik. O, dəvətimizi qəbul etdi və indi bu dəvət həyata keçirilir.

Bu, Azərbaycanın mədəni, ictimai-siyasi həyatında böyük hadisədir, çünki Rostropoviç nəinki böyük musiqiçi, bəstəkar, dirijordur, həm də öz vətəndaşlıq hərəkətləri ilə, azadlıq, ədalət, həqiqət, demokratiya uğrunda mübarizəsi ilə şöhrətlənmiş bir insandır.

İndi biz bu prinsipləri müstəqil Azərbaycan dövlətimizdə bərqərar edirik, buna görə də onun baxışları, mövqeyi, bütövlükdə keçmişdəki fəaliyyəti bizim üçün böyük əhəmiyyətə malikdir. Buna görə də Rostropoviçin Azərbaycanda olmasının və onun yubileyi ilə əlaqədar burada baş verən hər şeyin böyük ictimai-siyasi əhəmiyyəti var. [244-245]

Siz görürsünüz ki, hər yerdə camaat onu böyük hörmətlə, ruh yüksəkliyi ilə qarşılayır. Bu, müəyyən dərəcədə həm də respublikamızda ictimai-siyasi əhval-ruhiyyəni, habelə mədəniyyət, təhsil sahəsində vəziyyəti əks etdirir, yəni xalqımızın bu keyfiyyətlərini səciyyələndirir. Buna görə də sizin burada olmağınız, zənnimcə, sizin üçün də faydalıdır. Bizim bunda marağımız var və sizi də buna görə dəvət etmişik.

Bizə təşrif gətirdiyinizə, bütün yubiley şənliklərinin iştirakçısı olduğunuza görə sizə bir daha təşəkkürümü bildirirəm. Ümidvaram ki, bu, sizə respublikamızdakı indiki vəziyyətlə, təkcə Azərbaycanın deyil, eləcə də dünyanın bir çox ölkələrinin, xüsusən keçmişdə Sovet İttifaqının tərkibinə daxil olmuş ölkələrin keçirdikləri bu çətin dövrdə xalqımızın halı ilə daha yaxşı tanış olmağa imkan verəcəkdir. Rostropoviçin Azərbaycanda şərəflə qarşılanması ümumbəşəri dəyərlərə, dünya, Qərb və rus mədəniyyətinə xalqımızın, ictimaiyyətimizin münasibətini də əks etdirir. Bunların hamısı bizim respublikamızda mövcuddur. Bunu bu günlərdə qonaqlarımız da yəqin edə bilərlər.

Söhbətlə daha vaxtınızı almaq istəmirəm. Sizi ona görə dəvət etmişəm ki, buraya gəlməyinizdən məmnunluq duyduğumu bildirim. Təbii ki, suallarınız olacaq, mən onlara ya burada, ya da sizinlə ayrı-ayrılıqda görüşərək

cavab verə bilərəm. Lakin mənə dedilər ki, sizlərdən bəziləri onları maraqlandıran suallara cavab almaq üçün mənimlə ayrıca görüşmək istəyirlər.

Yəqin ki, burada olan adamlar əsasən mədəniyyət, incəsənət, musiqi, təhsil məsələləri ilə maraqlanırlar. Lakin indi həyatımız təkcə bunlarla deyil, həm də bir çox digər olduqca mühüm amillərlə bağlıdır. Dediyim kimi, respublikamız keçid dövrünü yaşayır, biz müstəqil dövlət qururuq. Dövlət müstəqilliyimizin artıq altıncı ilidir. Biz həyatın bütün sahələrini demokratikləşdirmək yolu ilə gedirik, bütün iqtisadi sistemimizi bazar iqtisadiyyatı prinsiplərinə keçirmək üçün iqtisadi islahatlar aparırıq. Əlbəttə, bu, böyük və mürəkkəb prosesdir. Lakin biz bu yolla çox fəal və çox inamla gedirik.

Respublikamızda vəziyyəti son dərəcə mürəkkəbləşdirən və ölkəmizdəki vəziyyəti digər bu cür respublikalardakı və[245-246]ziyyətdən fərqləndirən amil budur ki, 1988-ci ildən Ermənistan tərəfindən Azərbaycana qarşı hərbi təcavüz başlanmış, döyüşlər getmiş, çoxlu qan tökülmüş, erməni silahlı birləşmələri Azərbaycan ərazisinin 20 faizini işğal etmiş, bir milyondan artıq Azərbaycan vətəndaşı öz yaşayış yerlərindən didərgin salınmışdır, onlar ölkəmizin müxtəlif bölgələrində çox ağır şəraitdə, əksəriyyəti isə çadır düşərgələrində yaşayır.

Siz artıq bilirsiniz ki, atəşkəs əldə edilməsinin mayın 12-də üç ili tamam olur. İndi hərbi əməliyyatlar, müharibə yoxdur, amma hələ sülh də yoxdur. Tam sülhə nail olmaq üçün biz çox fəal danışıqlar aparırıq. Təbii ki, bu amil respublikamızdakı vəziyyəti keçmiş Sovet İttifaqının digər respublikalarındakı vəziyyətdən fərqləndirir. Burada bizim itkilərimiz, qurbanlarımız, çətinliklərimiz çoxdur. Biz bunların hamısını aradan qaldırmağa çalışırıq. Ən başlıca məqsəd və vəzifəmiz regionda sülhü bərqərar etməkdən, Azərbaycanın ərazi bütövlüyünü sülh yolu ilə bərpa etməkdən, qaçqınları öz yaşayış yerlərinə qaytarmaqdan və Ermənistanla keçmişdə olduğu kimi mehriban qonşuluq münasibətləri yaratmaqdan ibarətdir. Həmsərhəd olduğumuz digər ölkələrlə normal dostluq münasibətlərimiz var. Əgər biz həmin çox ağır amili – münaqişəni aradan qaldıra bilsək, onda, təbii olaraq, görərik ki, azad respublika kimi, müstəqil dövlət kimi Azərbaycan Respublikasının çox gözəl və firavan gələcəyi var.

Havalar pis deyildir. Bahardır. Bu gün mayın biridir. Bu gün səhər mən Moskva televiziyasına baxırdım. O, günün daha tez başlandığı Uzaq Şərqdə keçirilən nümayişləri göstərirdi. Bizdə belə şey yoxdur. Mən bilmirəm, mayın biri bizdə də qeyri-iş günüdür? İş günüdür. Siz məni bağışlayın, mənim üçün bütün günlər iş günüdür. Buna görə də bilmirəm, hansı gün iş günüdür, hansı gün iş günü deyildir. Bununla yanaşı, bilirəm ki, 1993-cü ildə dəyişmiş olan əvvəlki hakimiyyətin dövründə burada 9 May qələbə günü qadağan edilmişdi. Təbii ki, bu, müharibə veteranlarının çox böyük narazılığına səbəb oldu, məndə də narazılıq doğurdu. O vaxtlar mən Bakıda yox, Naxçıvanda yaşayırdım. Bakıya qayıtdıqdan sonra 9 May qələbə gününü bərpa etdim. 1-2 may isə bizdə bayram günləri deyildir. Bu günlər Rusiyada bayram günləridir, orada nümayişlər [246-247] gedir və sairə. Bizdə xalq işləyir, rahat yaşayır. Buna görə də iş əhval-ruhiyyəsi hökm sürür. Lakin bununla yanaşı, hesab edirəm ki, bu, sizin üçün də xoşdur. Hər halda, yəqin siz hər yerdə özünüzə qarşı xoş münasibət hiss etdiniz.

Hesab edirəm ki, dediklərim kifayətdir. Yaxşısı budur ki, siz mənə suallar verin.

**Sual: Biz Azərbaycan ilə Rusiya arasında münasibətlərin möhkəmlənməsi və inkişaf etməsi üçün daim göstərdiyiniz səylərə böyük hörmətlə yanaşırıq. Bugünkü mədəni əlaqələrimizin vəziyyətini necə qiymətləndirirsiniz və bu əlaqələrin perspektivləri necədir?**

**Cavab:** Belə yaxşı suala görə sağ olun. Rusiya Azərbaycan üçün olduqca böyük əhəmiyyətə malikdir. Azərbaycan, demək olar, iki əsr Rusiyanın tərkibində olmuşdur. Bildiyiniz kimi, XIX əsrin əvvəllərində Azərbaycan çar Rusiyasının tərkibinə düşdü, XX əsrin 20-ci illərində sovet hakimiyyəti Azərbaycana gəlib çıxan dövrdə isə Azərbaycan 1922-ci ildə təşkil edilmiş Sovet İttifaqının tərkibinə daxil oldu və təbii ki, Rusiya ilə bağlı idi. Bu əlaqələr Azərbaycan xalqına çox böyük fayda gətirdi. Bu barədə çox danışmaq olar. Lakin 20-ci illərin əvvəllərində Leopold Rostropoviçin buraya gəlməsi – təkcə o deyil, Rusiyadan Bakıya belə adamlar çox gəlmişdir, söz düşmüşkən, o, buraya Saratovdan köçmüşdür – burada onun bir neçə peşəkar musiqiçi – pedaqoqla birlikdə fəaliyyət göstərməsi, burada musiqi akademiyası – bu təhsil ocağı əvvəllər konservatoriya adlanırdı – yaradılmasına kömək etməsi buna sübutdur ki, Azərbaycanda mədəniyyətin, təhsilin, elmin, bütün ictimai-siyasi həyatın inkişafında Rusiyanın çox böyük xidməti olmuşdur.

Azərbaycan da Rusiya üçün faydalı olmuşdur. Bizim neftimiz bütün Rusiya üçün zəngin sərvətə çevrilmişdi. Əgər XX əsrin əvvəllərində Rusiyanın malik olduğu bütün neftin 90 faizi Azərbaycanda çıxarılırdısa, artıq əsrin ortalarında İkinci Dünya müharibəsi, Böyük Vətən müharibəsi dövründə Sovet İttifaqının neftinin 70 faizindən çoxunu Azərbaycan verirdi və çoxları deyirlər, mən də bu fikirdəyəm ki, əgər Azərbaycan nefti olmasaydı, müharibənin necə qurtaracağını təsəvvürə gətirmək çətindir. Aydın olur ki, Azərbaycan Rusiya üçün necə [247-248] böyük əhəmiyyət kəsb edirdi. Yəni bu qarşılıqlı yardım, qarşılıqlı həyanlıq Rusiya üçün də, Azərbaycan üçün də çox böyük rol oynamışdır. Buna görə də Azərbaycan Rusiya ilə çox tellərlə bağlıdır.

Rusiya dünyanın ən iri ölkəsidir, Azərbaycanla böyük sərhədə malikdir və onunla tarixi əlaqələrimiz ölkələrimiz arasında çox sıx münasibətlər, dostluq münasibətləri yaradılmasını tələb edir. Belə münasibətlər var, amma istərdik ki, bu münasibətlər daha yaxşı olsun. Biz, öz tərəfimizdən, hər şeyi edirik ki, Rusiya ilə Azərbaycan arasında münasibətlər ən səmimi, ən yaxın münasibətlər olsun, bütün sahələrdə fəal əməkdaşlıq

etmək imkanımız olsun, başlıcası isə, əvvəlki böyük tarixi dövrdə xalqımızın əldə etdiyi əziz və qiymətli nə varsa, hamısını qoruyub saxlayaq.

Biz istəyirik ki, Rusiyada hər şey yaxşı olsun, əmin-amanlıq olsun. Biz orada baş verən prosesləri çox diqqətlə izləyirik. Siz bilirsiniz ki, Rusiya televiziyasının iki əsas kanalı – ictimai Rusiya televiziyası və "Rusiya" kanalları burada bütünlüklə translyasiya edilir. Nəinki heç bir məhdudiyyət yoxdur, əksinə, bu kanallara böyük maraq var. Yeri gəlmişkən, mən "NTV" telekanalından təkliflər almışam və yaxın vaxtlarda bu kanalın verilişləri də bizdə translyasiya olunmağa başlanacaqdır.

Azərbaycanda təxminən 400 min rus yaşayır, onlar Azərbaycanın tam hüquqlu vətəndaşlarıdır. Burada rusdilli əhali ilə bağlı müəyyən bir problem yoxdur. İcazənizlə deyim ki, son illərdə Azərbaycanda mənim səylərim sayəsində çox işlər görülmüşdür ki, milli mənsubiyyətindən, dini etiqadından asılı olmayaraq, ölkəmizin bütün vətəndaşları özlərini azad və bərabərhüquqlu vətəndaşlar kimi hiss etsinlər. Zənnimcə, biz buna nail olmuşuq. Bizdə müsəlman dini ilə yanaşı, pravoslav və yəhudi dinləri də fəaliyyət göstərir, bütün dinlər azaddır. Bunların hamısı Rusiya ilə Azərbaycan arasında münasibətlərin inkişaf etməsi və möhkəmlənməsi üçün yaxşı zəmindir.

Əlbəttə, biz istəyirik, Rusiyada hər şey yaxşı olsun, Rusiya demokratik bir ölkə olsun. Biz Sovet İttifaqını, keçmiş imperiyanı və sairləri bərpa etmək üçün Rusiyanın bəzi dairələrində mövcud olan əhval-ruhiyyə ilə heç cür razılaşa bilmərik. Deməliyəm ki, bunlar perspektivsiz fikirlərdir, amma Rusiya[248-249]nın bəzi dairələrində belə fikirlər var. Lakin bu, Rusiyanın daxili işidir. Biz buna qarışmırıq. Mən sadəcə olaraq öz münasibətimi bildirirəm. Çünki istəyirik ki, Rusiyada demokratikləşdirmə prosesi fəal getsin, islahatlar fəal həyata keçirilsin. Biz Rusiyanı yeni, çiçəklənən, demokratik bir ölkə kimi görmək istəyirik. Bax, belə Rusiya ilə biz ən mehriban və yaxın münasibətlərə malik olmaq istəyirik.

**Sual: Bu yaxınlarda Azərbaycanda Rusiya mədəniyyəti günləri keçirildi. Bizcə, bu tədbir böyük müvəffəqiyyətlə keçdi və burada çıxış etmiş olan artistlərin hamısı Azərbaycan tamaşaçılarının onları çox gözəl qarşılamasına heyran qaldı. Siz özünüz Azərbaycanda Rusiya mədəniyyəti günlərini necə qiymətləndirirsiniz?**

**Cavab:** Deməliyəm ki, bu yaxınlarda Azərbaycanda Rusiya mədəniyyəti günləri bizim təşəbbüsümüzlə keçirildi. Biz Rusiya rəhbərliyinə müraciət edərək, Azərbaycanda Rusiya mədəniyyəti günləri keçirilməsini xahiş etdik.

1972-ci ildə Azərbaycanda Rusiya mədəniyyəti on günlüyünü çoxları xatırlayır. O vaxtlar Azərbaycanda olmuş adamlardan bəziləri indi aramızda deyildir. Lakin bununla yanaşı, 25 il əvvəl həmin ongünlükdə iştirak etmiş olan bir çox adamlar o günləri indi böyük hörmət, məmnunluq hissilə xatırlayırlar. Məsələn, Şostakoviç dünyasını dəyişmişdir. O, burada olmuşdur. Nikolay Tixonov da aramızda yoxdur.

Bu yaxınlarda Moskvada Lyudmila Georgiyevna Zıkinanın yaradıcılıq fəaliyyətinin 50 illiyi münasibətilə təntənəli mərasim keçirildi. Mən onu təbrik etdim və onu Azərbaycanın adından təbrik etmək, mənim məktubumu ona təqdim etmək üçün mədəniyyət naziri Polad Bülbüloğlunu xüsusi olaraq Moskvaya göndərdim və o, orada çıxış etdi. Axı, 25 il əvvəl Lyudmila Georgiyevna respublikamızda Rusiya mədəniyyəti günlərinin iştirakçısı olmuşdu və ona Azərbaycanın xalq artisti adı verilmişdi. Bu adı o, indiyədək daşıyır. Biz fəxr edirik ki, o, Azərbaycanın xalq artisti adını daşıyır. Buna görə də, bu əlaqələrin yaxşı tarixi var. Məsələn, 1972-ci ildə biz burada Sergey Yeseninin xatirə muzeyini açdıq. Yesenin 20-ci illərin əvvəllərində Bakıda yaşamış və öz məşhur əsərlərini burada yazmışdır. Yeri gəlmişkən, 1972-ci ildə açdığımız muzey Ye[249-250]seninin ilk muzeyidir. Artıq bundan sonra onun vətənində də bu cür muzey yaratmaq barədə düşünməyə başladılar.

Yəni, bizim mədəni münasibətlərimizin tarixi, xüsusən son 30 ildəki tarixi zəngindir. Bütün bunları yenidən bərpa etmək arzusu ilə biz Rusiya hökumətinə Azərbaycanda Rusiya mədəniyyət günlərinin keçirilməsi haqqında təklif verdik.

Mədəniyyət günləri keçirildi. Biz əlimizdən gələni etdik ki, bu, Rusiyanın və Azərbaycanın xalqları, rus və Azərbaycan xalqları arasında dostluğun möhkəmləndirilməsi günlərinə çevrilsin. Hesab edirəm ki, bu, yaxşı iş idi və təkrar edirəm, bizdə mövcud olan ənənələri bir daha təsdiqləyir.

Bilirsiniz, hansı dövrdə və ya hansı ictimai-siyasi rejim, dövlət rejimi şəraitində baş verməsindən asılı olmayaraq, keçmişin yaxşı ənənələrini bir kənara atmaq və unutmaq lazım deyildir.

Bir sözlə, mən bunu yüksək qiymətləndirirəm və Rusiya hökumətinə minnətdaram, bu barədə Rusiya prezidenti Boris Nikolayeviç Yeltsinə də demişəm. Mədəniyyət günlərində iştirak edən Rusiyanın mədəniyyət xadimlərinə də minnətdaram. Təəssüf doğuran isə o oldu ki, mədəniyyət günləri haqqında Rusiya mətbuatında verilən xəbərlər çox az idi. Hesab edirəm ki, belə hadisələri mətbuatda, özü də təkcə qəzetlərdə deyil, həm də televiziya, radio ilə yaxşı işıqlandırmaq lazımdır. Ümidvaram ki, Rostropoviçin yubileyi ilə bağlı burada, bizdə baş verən hadisə Rusiyada kifayət qədər işıqlandırılacaqdır.

**Sual: Rusiyanın şirkət və müəssisələri ilə əməkdaşlıq üçün Azərbaycan iqtisadiyyatının hansı bölmələrinin daha perspektivli olması barədə sizin rəyinizi bilmək bizim "Delovoy mir" qəzetinin oxucuları üçün maraqlı olardı. Sizcə, bu əməkdaşlığa mane olan səbəblər hansılardır?**

**Cavab:** Azərbaycanın iqtisadiyyatı çoxsahəlidir, vaxtilə Sovetlər İttifaqı çərçivəsində əsasən Rusiyanın ehtiyaclarına bənd edilmişdi. 70-ci illərdə Sovet hökumətinin təkidi ilə biz Azərbaycanda üzümçülüyü inkişaf etdirməyə başladıq ki, şərabçılıq məhsulu istehsal edək və onunla ilk növbədə Rusiyanı təchiz edək. Deməliyəm ki, 10 il ərzində biz üzüm istehsalını 10 dəfə artırdıq. Əgər 1970-ci ildə 200 min ton üzüm istehsal edirdiksə, 1980-ci ildə 2 milyon ton istehsal etmişdik. Üzümün [250-251] ilkin emalından sonra alınan şərabın Rusiyanın müxtəlif regionlarına göndərildiyini, orada isə son məhsul kimi yüksək keyfiyyətli şərabların istehsal olunduğunu nəzərə alaraq, biz çoxlu ilkin şərab emalı zavodları tikdik. Yeri gəlmişkən, Sovetlər ittifaqının o vaxtkı rəhbərləri deyəndə ki, xalqı həddən artıq araq istehlak etməkdən xilas etmək üçün yüksək keyfiyyətli şərab lazımdır, zənnimcə, çox ağıllı mühakimə yürüdürdülər. Tədqiqatlar isə göstərdi ki, böyük miqdarda üzüm və deməli, şərabçılıq məhsulu istehsal etmək üçün Azərbaycanda torpaq-iqlim şəraiti daha əlverişlidir.

Biz bunu etdik, üzüm plantasiyaları saldıq, çox böyük sayda ilkin şərab emalı zavodları yaratdıq, külli miqdarda pul xərclədik. Yenidənqurma deyilən dövrdə, alkoqolizmə qarşı fərsiz mübarizə genişlənəndə bu plantasiyaların bir hissəsi dağıdıldı. İnsanlara həddən artıq içməyi ağıllı şəkildə tərgitmək əvəzinə, şərabçılıq məhsulları istehsalını azaltmaq və insanlara içməyə imkan verməmək üçün Azərbaycanda üzüm plantasiyalarını qırmağa başladılar. Adamlar isə içmək üçün digər imkanlar tapırdılar.

Plantasiyaların bir hissəsi sıradan çıxdı, çünki bizdə bazar yoxdur. Məsələn, Rusiyanın əvvəlki kimi yenə də şərabçılıq məhsuluna ehtiyacı var. Yeri gəlmişkən, Azərbaycan ərazisində 5 şərab zavodu var, lakin indi elə iqtisadi maneələr qoyulmuşdur ki, biz şərabçılıq məhsullarını Rusiyaya ixrac edə bilmirik.

Bundan Rusiya da, biz da zərər çəkirik. Hazırda biz 2 milyon ton deyil, 250-300 min ton üzüm istehsal edirik, ilkin şərab emalı zavodlarının əksəriyyəti işləmir.

Mən həmin sahədən başladım, göstərmək istəyirdim ki, o illərdə mövcud olmuş inteqrasiya bu gün bərpa edilə bilərdi və Rusiyaya da, Azərbaycana da qarşılıqlı surətdə fayda gətirərdi.

Bununla bərabər, Azərbaycan hər halda sənaye ölkəsidir. Sənaye kompleksimiz də Rusiyada sənaye məhsulları istehsalına yönəldilmişdi. Özü də bütün bunlar elə qurulmuşdu ki, Azərbaycanda yarımfabrikatlar istehsal edilirdi, son məhsul isə Rusiyanın bir çox zavodlarında buraxılırdı. Bu zavodlar indiyədək qalmışdır. Ancaq inteqrasiya əlaqələri kəsilmişdir və [251-252] bundan həm Rusiya sənayesi, həm də Azərbaycan sənayesi ziyan çəkir.

Söhbət neft maşınqayırmasından da gedir. Halbuki bir vaxtlar Sovet İttifaqının bütün neft sənayesi üçün neft-mədən avadanlığını – bu avadanlığın əsas hissəsi Rusiyada: Sibirdə, Tatarıstanda, Başqırdıstanda və başqa bölgələrdə quraşdırılmışdır – 70 faizini Azərbaycan göndərirdi. Bizdə çox böyük miqdarda neft maşınqayırma zavodları var. Onlar ya boş dayanır, ya da öz güclərinin 20-30 faizi həddində işləyir.

Bizdə böyük kimya sənayesi var. O da Rusiya sənayesinin müvafiq sahələri ilə inteqrasiya edilmişdir. Bu əlaqələr də itirilmişdir. Bizdə digər sahələr də çoxdur.

İndi ən çox hansı sahəyə kapital qoymağa səy göstərildiyindən danışmalı olsaq, deməliyəm ki, bu, neft sənayesidir. Bizim neft sənayesi böyük imkanlara malikdir. Siz bilirsiniz ki, Azərbaycan dünyanın ən iri neft şirkətləri ilə bir sıra müqavilələr bağlamışdır. Bu müqavilələrdən bəzilərində Rusiyanın "LUKoyl" kimi iri neft şirkəti də iştirak edir. Rusiyanın daha iki neft şirkətindən – "YUKAS"dan və digər iri neft şirkətindən təkliflər alınmışdır. Bu barədə Viktor Stepanoviç Çernomırdin mənə məktub göndərmişdir. Şübhə yoxdur ki, gələcək layihələrimizdə biz onlara müqavilələrimizin iştirakçıları olmağa imkan verəcəyik. Yəni bizim neft sənayesi dünya neft şirkətlərini getdikcə daha çox cəlb edir. Yaxşı ki, "LUKoyl" şirkətinin ardınca Rusiyanın daha iki şirkəti də bizə müraciət etmişdir.

Biz neft, kimya sənayesi, maşınqayırma, kənd təsərrüfatı məhsullarının emalı, şərabçılıq, konserv sənayesi kimi sahələrdə Rusiya ilə əməkdaşlıq etmək istəyirik. Axı bir vaxtlar Azərbaycan, o zaman deyildiyi kimi, "Ümumittifaq bostanı" idi, Rusiyaya faraş tərəvəz göndərirdi. İndi biz həmin torpaqlardan taxıl əkmək üçün istifadə edirik. Əvvəllər isə faraş tərəvəz yetişdirir və təxminən aprel ayında Rusiyanın mərkəzi hissəsinə təzə tərəvəz göndərirdik. Amma indi Rusiya bunu istəmir. Buna görə də biz həmin torpaqlarda taxıl əkirik ki, özümüzü çörəklə təmin edək.

Bir sözlə, böyük imkanlar var. Mən Rusiyanın iş adamlarını buraya dəvət edirəm, qoy gəlib əməkdaşlığımızın sahələrini müəyyənləşdirsinlər. [252-253]

**Sual: Siz Mstislav Rostropoviç ilə görüş zamanı dediniz ki, Ermənistan prezidenti Levon Ter-Petrosyanla söhbət etmisiniz. Əgər mümkünsə, bu söhbət barədə ətraflı məlumat verin.**

**Cavab:** Bu söhbət təxminən üç gün əvvəl, aprelin 28-də İstanbulda olmuşdur. Lakin biz onunla vaxtaşırı görüşürük. Siz, məsələn, bilirsiniz ki, biz onunla martın 29-da Moskvada MDB dövlət başçılarının görüşündən sonra, aprelin 28-də isə İstanbulda görüşdük. Söhbətlərimizin başlıca mövzusu danışıqlar prosesinin irəliyə aparılmasına, bizə irəliləməyə imkan verməyən çətinliklərin aradan qaldırılmasına nail olmaqdır. Lakin son vaxtlar Minsk konfransının həmsədrləri – Rusiya, ABŞ və Fransa öz fəaliyyətini gücləndirməyə başlamışlar. Rusiya prezidentinin xüsusi nümayəndəsi, səfir Yukalov bizdə olmuşdur. Biz onunla görüşdük. Həmsədrlərin, yəni ABŞ, Fransa və Rusiyanın nümayəndələri mayın 5-də Vaşinqtonda görüşüb hər hansı qarşılıqlı surətdə məqbul bir qərara gəlmək üçün bizimlə müzakirə olunmuş bəzi təklifləri müzakirə edəcəklər. Məsələ

burasındadır ki, dekabrın əvvəllərində Lissabonda, ATƏT-in üzvü olan ölkələrin dövlət başçılarının görüşündə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dincliklə aradan qaldırılması prinsipləri haqqında qətnamə qəbul edilmişdi. Demək olmaz ki, bu qətnamə bizim üçün tamamilə məqbuldur, lakin tam sülhə nail olmaq üçün biz onunla razılaşdıq. Amma təəssüflər olsun ki, Ermənistan bununla razılaşmadı.

Bu qətnamə üç bənddən ibarətdir. Birincisi – Azərbaycanın və Ermənistanın ərazi bütövlüyünün tanınması haqqındadır. Aydın olmaq üçün deyim ki, biz Ermənistanın ərazi bütövlüyünü tanımaqdan imtina etməmişik, özü də onun ərazi bütövlüyü pozulmayıbdır. Ermənistan Azərbaycanın ərazi bütövlüyünü – beynəlxalq aləmdə qəbul olunmuş bu hüquq normasını, BMT-nin, Helsinki sazişinin, ATƏT-in bu prinsipini qəbul etməkdən indiyədək boyun qaçırır. Bax buna görə də birinci bənd məhz bundan – Azərbaycanın və Ermənistanın ərazi bütövlüyünün tanınmasından ibarətdir. İkinci bənd – Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağa geniş muxtariyyət və ya yüksək dərəcədə özünüidarə verilməsi barədədir ki, bu da hələlik Ermənistan tərəfində etiraz doğurur. [253-254] Üçüncü bənd isə Dağlıq Qarabağın bütün əhalisi üçün təhlükəsizlik təminatı haqqındadır.

Bu prinsiplər, başçıları Lissabon görüşündə iştirak edən 53 dövlət tərəfindən qəbul olunubdur. ATƏT-in üzvlərindən yalnız Ermənistan bu prinsipləri qəbul etməkdən boyun qaçırıbdır. Biz çalışırıq ki, bu prinsiplər əsasında mövqelərin yaxınlaşmasına və sülh haqqında saziş əldə edilməsinə nail olaq. Bu məsələlər prezident Ter-Petrosyan ilə müzakirələrimizin mövzusu olmuşdur.

**Sual: Cənab prezident, Mstislav Rostropoviçin yubileyinə bizi dəvət etdiyiniz üçün Gürcüstan televiziyası və Gürcüstanın mədəniyyət xadimləri adından çox sağ olun deyirəm, bu, bizim üçün böyük şərəfdir. Sizcə, Qafqazda və Zaqafqaziyada coğrafi-siyasi vəziyyətdə Azərbaycan və Gürcüstan nə kimi yer tuturlar? Sizin fikrinizcə, Qafqazda baş verən bütün bu mürəkkəb proseslərə bu iki ölkənin təsiri necədir? Üçüncü sualım zarafat xarakteri daşıyır: Mstislav Rostropoviç bakılı olduğuna görə siz ona Azərbaycan vətəndaşlığı verməyə hazırlaşmırsınız ki?**

**Cavab:** Birinci sualınızın cavabında deyirəm ki, Gürcüstan ilə Azərbaycan arasında son dərəcə yaxşı, dostluq, qardaşlıq münasibətləri var. Bu münasibətlər çoxdan mövcuddur, ötən dövrlərdə də beləcə olubdur. Son illərdə, Eduard Amvrosiyeviç Gürcüstanın prezidenti, Heydər Əliyev isə Azərbaycanın prezidenti olduqdan sonra isə bu münasibətlər xüsusilə dostluq xarakteri kəsb edibdir. Bəlkə də ona görə ki, keçmişdə biz Zaqafqaziyada çox mehriban işləmişik, ona görə ki, Eduard Amvrosiyeviç və mən bu münasibətlərin xalqlarımız üçün necə mühüm olduğunu hamıdan çox bilirik, bir də ona görə ki, bizim müəyyən təcrübəmiz var. Münasibətlərimiz çox yaxşıdır. Siz bil irsiniz ki, Gürcüstanda təqribən 500 min azərbaycanlı yaşayır. Bu da yaxşı məlumdur ki, onlar Gürcüstan üçün heç bir problem yaratmırlar. Üstəlik, onlar Gürcüstan hökumətinin və Gürcüstan prezidenti Eduard Şevardnadzenin siyasi xəttini, dövlət fəaliyyətini bütünlüklə dəstəkləyirlər.

Ötən ilin martında mənim Gürcüstana rəsmi səfərim zamanı Tbilisidə və bu ilin fevralında Eduard Şevardnadzenin Azərbaycana rəsmi səfəri zamanı Bakıda imzalanmış sənədlərdə bu [254-255] münasibətlər özünün müqavilə-hüquqi əsasını tapıbdır. Biz Tbilisidə Qafqazda sülh haqqında çox mühüm saziş, Bakıda strateji tərəfdaşlıq haqqında sənəd imzalamışıq.

O ki qaldı Gürcüstanın və Azərbaycanın Qafqazda, bu regionda nə kimi yer tutmasına, hesab edirəm ki, çox mühüm yer tuturlar. Gürcüstanın və Azərbaycanın təkcə Qafqaz üçün deyil, həm də ümumən region üçün böyük əhəmiyyətini bəzi ölkələrdə bəlkə də qiymətləndirmirlər. Ancaq hesab edirəm ki, bu əhəmiyyət günbəgün və ilbəil hamı üçün daha bəlli və daha aydın olur.

Siz bilirsiniz ki, ötən ilin may ayında Gürcüstan, Azərbaycan, Türkmənistan və Özbəkistan Transqafqaz dəhlizinin yaradılması haqqında çox mühüm sənəd imzalamışlar. Artıq bu dəhliz ilə mərkəzi Asiyadan Avropaya və oradan mərkəzi Asiyaya yüklər daşınır. Qazaxıstan, Qırğızıstan və Ukrayna da artıq bu sazişə qoşulmuşlar. Mən İstanbulda Rumıniya prezidenti ilə görüşdüm. O, Transqafqaz dəhlizinə böyük maraq göstərir. Sözlərim digər Avropa ölkələrinə də aiddir. Bu, son dərəcə mühüm məsələdir və yüklərin daşınması ilə bağlı bir çox problemləri, Asiya ilə Avropa arasında kommunikasiya xətləri ilə bağlı problemləri həll edir. Bu dəhliz Xəzər dənizindən, Azərbaycandan, Gürcüstandan və Qara dənizdən keçir.

Gürcüstanla Azərbaycanın Qafqazda necə böyük əhəmiyyətə malik olduğu barədə çox danışmaq olar. Hər iki ölkə dinc Qafqaz uğrunda, eləcə də öz ölkələrimizdə əmin-amanlıq yaradılması uğrunda çıxış edir. Biz Gürcüstana görə narahatlıq keçiririk, çünki orada da münaqişələr var, buna görə də istəyirik ki, bu münaqişələr tezliklə aradan qaldırılsın. Biz Gürcüstanın ərazi bütövlüyünü tamamilə dəstəkləyir və hesab edirik ki, hər hansı ölkənin ərazi bütövlüyü məsələsi birinci dərəcəli əhəmiyyətə malik məsələdir. Mən martın 29-da Moskvada Boris Nikolayeviç Yeltsinlə görüşərkən bu mövzu bizim diqqət mərkəzimizdə oldu. Mən ona dedim ki, Rusiyanın ərazi bütövlüyü sizin üçün nə dərəcədə vacibdirsə, Azərbaycanın da ərazi bütövlüyü Rusiya üçün bir o dərəcədə vacibdir. Rusiya dövləti Gürcüstanın və Azərbaycanın ərazi bütövlüyünü qorumasa, onda öz ərazi bütövlüyünü də müdafiə edə bilməz. Rusiyanın ərazi bütövlüyü Qafqazda və ölkənin digər bölgələrində müx[255-256]təlif separatçılıq hərəkətləri ilə pozulur. Rusiya çoxmillətli ölkədir, çoxlu milli qurumlara malikdir, buna görə də ərazi bütövlüyü prinsipi Rusiya üçün olduqca böyük əhəmiyyət kəsb edir. Biz heç də təkcə öz ərazi bütövlüyümüz, öz suverenliyimiz uğrunda deyil, həm də beynəlxalq hüquq normalarının

pozulmazlığı uğrunda, BMT prinsipləri uğrunda, 1975-ci ildə Helsinkidə təsdiq edilmiş prinsiplər uğrunda, ATƏT-in prinsipləri uğrunda mübarizə aparırıq. Bununla əlaqədar biz Gürcüstanın ərazi bütövlüyünün bərpa olunmasını istəyirik. Zənnimcə, Gürcüstanın ərazi bütövlüyü bərpa ediləcək və Gürcüstanda da, Azərbaycanda da, bütövlükdə Qafqazda da sülh olacaqdır, Gürcüstanla Azərbaycan bu baxımdan çox mühüm rol oynayır və oynayacaqlar.

Rostropoviç üçün vətəndaşlığa gəldikdə, axı o, dünya vətəndaşıdır və ona istənilən ölkədə, o cümlədən də Azərbaycanda vətəndaşlıq vermək olar.

**Sual: İndi bəzi politoloqlar deyirlər ki, nəsə müəyyən bir ox, "Bakı-Tbilisi-Kiyev" üçlər ittifaqı yaranır. Belə üçlər ittifaqı barədə nə demək olar?**

**Cavab:** Deməliyəm ki, təəssüflər olsun, Rusiyanın bəzi kütləvi informasiya vasitələrində hər cür uydurma fikirlər söylənilir və bu fikirlər ölkənin ictimaiyyətini çaşdırır. Mart ayının axırlarında "Nezavisimaya qazeta"da hansısa bir mərkəzin aşkar fitnəkar, qızışdırıcı, açığını deyim, faşistpərəst hesabatı dərc edilmişdi. Məgər belə şey etmək olar? Rusiyanı xilas etmək üçün Azərbaycanı, Gürcüstanı məhv etməyə çağırırlar. Yaxud başqa bir misal. Bu yaxınlarda hansısa təşəbbüslərin Ermənistan-Rusiya mərkəzi "Zavtra" qəzetində xalqların arasını vurmağa, onların arasına nifaq salmağa çağıran dəhşətli bir məqalə dərc etmişdi. Bu, heç yaxşı olan işdir? Onlar nə kimi məqsəd güdürlər? Bəlkə bunun sayəsində sadəcə olaraq nəsə qazanmaq istəyirlər? Əgər onlar pul qazanmaq istəyirlərsə, onda qoy başqa, daha normal bir işdə pul qazansınlar. Yoxsa ki, ehtirasları coşdurmaq, xalqları toqquşdurmaq, onlardan bəzilərini yaxşı, digərlərini isə pis kimi qələmə vermək olmaz.

Yaxud da, məsələn, bəziləri Moskva qəzetlərində yazırlar ki. Qafqazda hansı xalq xristian, hansı isə müsəlmandır. Bəli, [256-257] Azərbaycan islama etiqad edən ölkədir. Bu, bizim dinimizdir. Necə ki, xristian dini xristianlar, iudaizm yəhudilər üçündür. İslam bizim dinimizdir, biz heç vaxt ondan imtina etməyəcəyik. Ancaq əgər bu dinə etiqad edən ölkə Rostropoviçin yaradıcılığına həsr olunmuş bax, belə təntənələr keçirirsə, bu, kimin hansı dinə bağlı olduğunu deyil, başlıca, üstün cəhəti göstərir. Moskvada bəziləri yazır ki, Azərbaycanı sıxmaq lazımdır, çünki onlar müsəlmandırlar, ancaq başqaları xristiandırlar bizə doğmadırlar.

Kimin xristian, kimin müsəlman olması barədə söz-söhbətə son qoymaq lazımdır. Biz hamımız bu Yer kürəsinin insanlarıyıq və hansı dinə, millətə mənsubluğumuzdan asılı olmayaraq, bir-birimizə hörmət etməli, bir-birimizi qiymətləndirməliyik. Rus xalqının da, erməni xalqının da, gürcü xalqının da, yəhudi xalqının da, Azərbaycan xalqının da mənəvi dəyərlərinə hörmət edilməlidir. Biz hamımız eyniyik və demək olmaz ki, bu birinci dərəcəli, bu ikinci dərəcəli, bu isə üçüncü dərəcəlidir.

Ona görə də sizin dediyiniz o Gürcüstan-Azərbaycan-Ukrayna oxu da qorxu yaratmaq istəyən insanların uydurmasıdır. Burada nə ox var? Belarus ilə Rusiyanın ittifaqı yaradılan kimi, kimsə Moskvada dərhal elan etdi ki, Belarus-Rusiya-Çin oxu meydana gəlibdir. İkinci dünya müharibəsi ərəfəsində yaradılmış oxlardan bütün bəşəriyyət bəla çəkmişdir. Berlin-Tokio-Roma oxu xatirinizdədir, daha hansısa ox var idi. Mənə belə gəlir ki, bu xurafatlardan uzaqlaşmaq lazımdır.

Burada heç bir ox yoxdur, yalnız mehriban əməkdaşlıq var. Bəli, Transqafqaz dəhlizi haqqında sazişi əvvəlcə Özbəkistan, Türkmənistan, Gürcüstan və Azərbaycan imzalamışlar. Sonra isə enerji daşıyıcıları olmayan Ukrayna bu sazişə maraq göstərdi. Mən Ukraynada rəsmi səfərdə olmuşam, danışıqlarımız çox yaxşı keçmiş, çox yaxşı sənədlər imzalamışıq. Ukraynanın enerji daşıyıcılarına, neftə ehtiyacı var. Bizim isə neft hasilatında perspektivimiz böyükdür. Biz nefti ixrac edəcəyik. Axı, nə üçün onu Ukraynaya göndərə bilməyək? Biz isə oradan çoxlu başqa şeylər alacağıq. Bundan ötrü də Gürcüstan, Azərbaycan ərazisindən keçən magistral – ən qısa nəqliyyat xətti də var. Nəyə görə bu, ox adlandırılmalıdır? Mən bunu rədd [257-258] edirəm. Hesab edirəm ki, bütün bu sazişlərin əsası iqtisadi əməkdaşlıqdır.

**Sual: Siz Azərbaycan ilə Çin arasında münasibətlərin vəziyyətini və perspektivlərini necə qiymətləndirirsiniz?**

**Cavab:** Çinlə bizim yaxşı münasibətlərimiz var. Çoxdandır ki, Azərbaycanda Çin səfirliyi, Pekində isə Azərbaycan səfirliyi fəaliyyət göstərir. Çin Xalq Respublikasının sədri cənab Szyan Szeminin dəvəti ilə mən 1994-cü ildə Çində rəsmi səfərdə olmuşam və səfər çox uğurlu keçmişdir. Pekindən əlavə, mən Şanxaya da getdim, orada yaradılmış azad iqtisadi zona ilə, son onilliklər ərzində Çində həyata keçirilən iqtisadi islahatların bir çox nəticələri ilə tanış oldum. Cənab Szyan Szemin ilə bizim aramızda yaxşı münasibətlər yaranıbdır, mən onu və cənab Li Peni Azərbaycana dəvət etmişəm və onların buraya gəlişini gözləyirəm.

Çin ilə Azərbaycan arasında əməkdaşlıq üçün çox böyük imkanlar var. Doğrudur, ola bilsin, bu əməkdaşlıq hələ çox böyük miqyas almayıbdır. Ancaq biz Çinlə fəal iqtisadi əməkdaşlıq etmək istəyirik, Çin də buna maraq göstərir. Yeri gəlmişkən, bizim neft yataqlarımıza Çində maraq göstərməyə başlayıblar. Məlumat üçün bildirmək istəyirəm ki, Yaponiya artıq bizim iki böyük neft müqaviləmizdə iştirak edir və Azərbaycanın neft sənayesinin inkişafına investisiya qoyur. Bir sözlə, Yer kürəsinin həmin hissəsində yerləşən Çinin də belə imkanı var və biz bu imkanı ona veririk.

Bizim əməkdaşlığımız üçün yaxşı əsas ola biləcək digər sahələr də var. Biz Çin Xalq Respublikası ilə həm dostluq, həm də yaxşı əməkdaşlıq etmək istəyirik.

**Sual: İlkin neftin çıxarılmağa başlanması ərəfəsində Qarabağda cəbhədə vəziyyətin kəskinləşməsini gözləmək olarmı?**

**Cavab:** Mən vəziyyətin heç bir şəkildə kəskinləşməsini istəməzdim. Baş tutmuş olan və artıq üç ildir davam edən atəşkəsi yüksək qiymətləndirirəm. Mən İstanbulda biznes konfransında öz çıxışımda bir daha bildirdim ki, biz bu sazişə Böyük Sülh Sazişi imzalanan vaxtadək sadiq qalacağıq.

Əlbəttə, belə bir hal bizdə böyük narahatlıq doğurdu ki, 1994-1996-cı illər ərzində Rusiyanın müxtəlif strukturları Er[258-259]mənistana qanunsuz, gizli, qeyri-leqal surətdə 1 milyard dollardan artıq məbləğdə olduqca böyük miqdarda silah göndərmişlər. Özü də bu silah növləri Rusiya mətbuatında elan edildikdə bu, Azərbaycanda böyük narahatlıq, həyəcan, açığını deyim, vahimə yaratdı. Bu, nə üçün edilmişdir? Ermənistan bunu hansı məqsədlə edir? Görün, balaca, kiçik bir respublika nə qədər silah yığıb gətirir. Halbuki bu silah bir vaxt Ermənistanın özünü də partlada bilər. Nə üçün Rusiya oraya bu qədər silah göndərir? Məsələ də bax bundadır.

Siz bilirsinizmi ki, Dövlət Dumasında müzakirə oldu, Dövlət Duması materialları Rusiyanın baş prokurorluğuna göndərməyi qərara aldı. Bizə məlum olduğuna görə prokurorluq təhqiqat aparır. Dövlət Dumasının Müdafiə Komitəsinin məruzəsi həm baş prokurorluğa, həm də Rusiya prezidenti Boris Nikolayeviç Yeltsinə göndərilmişdir. Mən ona həmin silahların Rusiyaya qaytarılmasını təmin etmək xahişi ilə rəsmi məktub göndərmişəm. İndi bizi o qədər də maraqlandırmır ki, bu cinayəti kim törətmişdir və o, necə cəzalandırılacaq. Bu, Rusiyanın daxili işidir. Bizim üçün başlıcası budur ki, qanunsuz göndərilmiş bu silahların hamısı Ermənistandan alınıb Rusiyaya qaytarılsın.

Rusiya tərəfindən Ermənistana verilmiş bu qədər böyük miqdarda silahın olması, habelə Ermənistanın bundan əvvəl də malik olduğu silahlar çox böyük qorxu və təhlükə yaradır. Buna görə də hesab edirəm ki, atəşkəs rejiminin pozulmasına heç bir əsas vermək olmaz və əsla yol vermək olmaz ki, bu atəşkəsi kimsə hansı məqsədlərlə pozsun. Biz, öz tərəfimizdən əlimizdən gələni edəcəyik ki, bu atəşkəs pozulmasın.

**Sual: Heydər Əliyeviç, indi bütöv bir sıra kütləvi informasiya vasitələrində müharibədən "Torpağın neftlə mübadiləsi" yolu ilə, Qərb politoloqlarının təbirincə desək, "məharətlə" çıxmağın mümkünlüyü məsələsi müzakirə edilir. Belə bir variant mümkündürmü ki, beynəlxalq zəmanətlərlə neft kəmərlərindən biri Ermənistandan keçsin və bu, işğal edilmiş Azərbaycan torpaqlarının qaytarılması üçün əsas olsun? Sizdə bu məsələyə baxılmışdırmı?**

**Cavab:** Siz bilirsiniz ki, biz neft kəmərlərinin çəkilişini qabaqcadan planlaşdırmışıq. Onlardan biri ilkin neftin Rusiya [259-260] ərazisi ilə nəql edilməsi üçün bizim ərazimizdən çəkilmişdir. Amma deməliyəm ki, təəssüflər olsun, Rusiya tərəfi öz öhdəliklərini yerinə yetirməyib. Biz öz ərazimizdə Rusiya ilə sərhədədək neft kəməri çəkməli idik, o, neft şirkətləri konsorsiumu tərəfindən inşa edilmişdir. Lakin biz bilmirik, neft kəmərinin Dağıstanda sərhəddən başlayıb Novorossiysk limanınadək Rusiya ərazisindən keçən hissəsi hansı vəziyyətdədir. Biz artıq indi neft kəməri ilə neft ixrac etmək istərdik və 1996-cı ilin yanvarında Moskvada cənab Çernomırdinlə mən həmin neft kəməri haqqında saziş imzalayarkən belə bir razılaşma olmuşdur.

İndi Rusiya tərəfi bunu oktyabrda etməyə söz verir. Biz oktyabr ayınadək də gözləyəcəyik. Amma ümid etmək istərdik ki, bu vəd yerinə yetiriləcək və biz Rusiya ərazisi vasitəsi ilə neft ixrac edə biləcəyik.

Bilirsiniz, qəribə vəziyyət yaranıbdır. 1994-cü ildə biz müqavilə imzalayanda və neft kəmərləri haqqında söhbət başlananda Rusiyanın bəzi dairələrində narazılıq yarandı: necə ola bilər ki, bu neft Rusiyanın ərazisindən deyil, hansısa başqa ölkələrin ərazisindən keçsin? Biz ilk neft kəmərini məhz Rusiyaya istiqamətləndirdik, ancaq onun tərəfindən hazırlıq yoxdur. İkinci neft kəmərini Gürcüstan ərazisindən Qara dənizə doğru çəkirik, 1998-ci ilin axırında hazır olacaqdır. Ancaq gələn əsrin əvvəlində çıxardılacaq böyük nefti ixrac etmək üçün böyük neft kəməri lazımdır. Bu müqavilənin layihəsi üzrə həmin boru kəmərinin keçəcəyi marşrutun bir neçə variantı var. Sabitliyi, sülhü təmin etmək üçün, ancaq torpaqların qaytarılması əvəzində neft verilməsi üçün yox – mən məsələnin bu cür qoyulması ilə razı deyiləm – müharibəyə son qoymaq üçün, Ermənistanın da iqtisadi fayda götürməsi üçün bir neft kəmərinin Ermənistan ərazisi vasitəsilə Türkiyəyə çəkilməsini də variantlardan biri kimi nəzərdən keçirmək olar.

**Sual: Bu ilin fevralında, Gürcüstan prezidenti Eduard Şevardnadzenin Azərbaycana səfəri zamanı o və siz bəyan etdiniz ki, MDB daha demokratik və səmərəli olmalıdır. Sizin fikrinizcə, MDB-nin demokratikliyi və səmərəliliyi nədən ibarətdir? MDB-də inteqrasiya necə olmalıdır?** [260-261]

**Cavab:** Demokratiklik çox aydın məsələdir. Müxtəlif beynəlxalq ittifaqlar – Avropa Birliyi, ASEAN və bir çox başqaları mövcuddur. Onların demokratiklik sahəsində böyük təcrübəsi var. Bu ittifaqların demokratikliyi göstərir ki, birliyə daxil olan bütün ölkələr bərabərhüquqlu olmalıdır, bir ölkənin öz iradəsini başqasına zorla qəbul etdirməyə ixtiyarı yoxdur və bunu etməməlidir. Gördüyünüz kimi, bu, çox adi və aydındır. Söhbət bundan gedir. Bu isə MDB-də hələlik çatışmır.

O ki qaldı iqtisadi əməkdaşlığa, burada da bütün ölkələrə məsələyə eyni cür yanaşmağı, eyni modeli, eyni prinsipləri zorla qəbul etdirmək olmaz. Kimsə gömrük ittifaqı ilə razıdır, kim isə razı deyildir. Ancaq son nəticədə, əgər lazımdırsa ki, bu gömrük ittifaqı hamı üçün faydalı olsun, elə təklif verilməlidir ki, bütün ölkələri razı sala bilsin. Onda həmin gömrük ittifaqı – Avropa Birliyinin gömrük ittifaqı kimi – hamı üçün məqbul

olacaqdır. Gömrük ittifaqı haqqında sənədi Rusiya, Belarus, Qazaxıstan və Qırğızıstan imzalayıblar, qalanları isə imzalamayıblar. İndi Rusiya və Belarus hansısa bir ittifaq barədə sənəd imzalayıblar, onlar hələ öz aralarında mübahisə edirlər ki, bu, necə bir ittifaqdır, necəliyini hələ özləri də bilmirlər. Ona görə də çox məsələ var, bunlar da məhz onu göstərir ki, MDB-ni təkmilləşdirmək lazımdır.

**Sual: Azərbaycanda qaçqınların vəziyyəti necədir, onlar necə yaşayırlar?**

**Cavab:** Azərbaycanda qaçqınlar çox ağır vəziyyətdədirlər. Beş il qaçqın vəziyyətində olmaq, öz mənzili olmadan, şaxtalı qışda da, son dərəcə isti yayda da çadırda yaşamaq, inanın ki, çox ağırdır. Qaçqınların çadır düşərgələrində olmuş Qərb dövlətlərinin bəzi xadimləri oradan qayıtdıqdan sonra ağır təəssüratdan özlərinə gələ bilmirdilər. Məsələn, bir dəfə cənab Bjezinski buraya gəlmişdi, o da qaçqın düşərgələrində olmuşdu. Oradan qayıtdıqdan sonra mənimlə söhbət zamanı dedi ki, Fələstin qaçqınlarının, əfqan mücahidlərinin düşərgələrində, Afrikada olub, lakin belə vəziyyəti heç yerdə görməyibdir. Ancaq bizim xalqımız dözümlüdür, ən başlıcası isə bu insanlar bizim vədlərimizə inanırlar, inanırlar ki, Ermənistan silahlı birləşmələrinin işğal edilmiş torpaqlardan çıxarılma[261-262]sına sülh yolu ilə, danışıqlar vasitəsilə nail olacağıq və qaçqınlar öz yaşayış yerlərinə qayıda biləcəklər.

Halbuki onların əvvəllər yaşadıqları yerlərdə indi hər şey dağıdılmış, qarət edilmişdir. Lakin mən bu fürsətdən istifadə edib Ermənistan-Azərbaycan münasibətləri ilə bağlı ehtirasları qızışdırmaq istəməzdim. Əksinə, hər şeyi etmək istəyirəm ki, sülh bərpa olunsun. Dünən konsert verilən muzeyin həyətində Azərbaycanın görkəmli adamları olan Üzeyir Hacıbəyovun, Bülbülün, Natəvanın tunc abidələri durur. Bu abidələr onların Vətənində, indi erməni silahlı birləşmələrinin işğalı altında olan Şuşada qoyulmuşdu. Bax, həmin abidələr gülləbaran edilmişdir. Sonra eşitdik ki, bu heykəlləri tunc kimi Gürcüstanın rayonlarından birində satırlar. Biz bu abidələri özümüzə qaytarmaq üçün bəzi şəxslərə təxminən 500 min dollar verdik və onlar indi muzeyin ərazisindədir. Bir baxın, bu tunc heykəllər üzərində nə kimi vəhşilik törədilmişdir.

İşğal olunmuş torpaqlarda hər şey – yaşayış evləri də, məktəblər də, xəstəxanalar da, fabriklər də, zavodlar da, mədəniyyət sarayları da, kitabxanalar da dağıdılmış, qarət edilmişdir. Camaat bunu bilir, amma deyirlər ki, onlara doğulduqları, əcdadlarının yaşamış olduqları doğma torpaq gərəkdir. Deyirlər: biz bu çılpaq torpaqda yaşayarıq, əvəzində hiss edərik ki, öz torpağımızdayıq.

Bir daha təkrar edirəm, qaçqınların vəziyyəti çox ağırdır. İstəsəniz, hətta Bakıda yataqxanalara gedə bilərsiniz, elə inzibati binalar var ki, biz onları qaçqınlara vermişik. Əlimizdən gələni etmişik. Əgər heç bir rahatlığı olmayan inzibati binanın kiçik bir otağında üç ailə və təxminən 10 uşaq qalırsa, onda siz bu adamların vəziyyətini təsəvvürünüzə gətirin. Hələ yaxşı ki, onlar çadırda deyil, binada yaşayırlar. Bununla belə, vəziyyət çox ağırdır. Amma məsələnin dincliklə həllinə nail olmaq üçün biz də dözürük, xalqımız da.

**Sual: Son illərdə Azərbaycan iqtisadiyyatında canlanma əmələ gəlmişdir. 1995-ci ildə iqtisadiyyatda durğunluq var idi və ümumi daxili məhsul 21 faiz azalmışdı, ancaq 1996-cı ildə 3,5 faiz artmışdır. İstehsalın həcmi kənd təsərrüfatında 3 faiz, neft kimyası sahəsində 1,5 faiz, maşınqayırmada 6 faiz artmışdır. Milli valyutanın – manatın [262-263] məzənnəsi möhkəmlənmişdir. Bu o deməkdirmi ki, Azərbaycan iqtisadiyyatı böhrandan çıxmışdır?**

**Cavab:** Əvvəla, sağ olun ki, bizim rəqəmlərlə tanış olmusunuz. Yoxsa ki, mən onları imkan düşdükdə elan etmək istəyirdim.

Doğrudan da, siz dediyiniz kimidir. Amma deyə bilmərəm ki, Azərbaycan iqtisadiyyatı böhrandan çıxmışdır. Ərazinin 20 faizi işğal altında olduğu, 1 milyon adam qaçqın vəziyyətinə düşdüyü və onların böyük əksəriyyəti işsiz qaldığı, bir çox sənaye müəssisələrimiz qeyd etdiyim hallarla əlaqədar ağır vəziyyətdə olduğu bir vaxtda biz hər halda iqtisadi yüksəlişə nail ola bilmişik və bu onu göstərir ki, böhrandan çıxırıq. Bu da 1994-cü, 1995-ci, 1996-cı illərdə həyata keçirdiyimiz və cari ildə də davam etdirdiyimiz iqtisadi siyasətin nəticəsidir. Təsəvvürə gətirin ki, biz öz büdcəmizi 1996-cı ildə yerinə yetirdik. Öyünmək istəmirəm, lakin Azərbaycanın cari il üçün dövlət büdcəsini 1996-cı ilin noyabrında təsdiq etdik. Həm də birinci kvartalın büdcəsi yerinə yetirilmişdir. Bilirəm ki, Rusiyada vergilərin toplanması uğrunda hər gün mübarizə gedir. Amma bizdə birinci kvartalda vergi yığılması planı artıqlaması ilə yerinə yetirilmiş və ötən ilin müvafiq kvartalı ilə müqayisədə vergilərin yığılması 50, yaxud 60 faiz artmışdır.

Bütün bunlar iqtisadi siyasətimizin, iqtisadiyyatı liberallaşdırmağın, özəlləşdirmənin, bir çox digər iqtisadi islahatların nəticəsidir. Siz yəqin bilirsiniz ki, biz torpaq islahatı haqqında, torpağın şəxsi mülkiyyətə verilməsi haqqında qanun qəbul etmişik. Bir az özümüzü tərifləyib deyə bilərəm ki, zənnimcə, digər MDB respublikalarında belə bir qanun hələ qəbul olunmayıbdır. Biz riskə getdik və hesab edirəm ki, bu, öz nəticələrini verəcəkdir.

Özəlləşdirmə fəal gedir. Biz bütün xarici ticarətimizi liberallaşdırmışıq. Bütün bunlar da öz nəticələrini verir. Bəli, bizim manatın dollara nisbətən məzənnəsi möhkəmlənmişdir. 1994-cü ildə bizdə inflyasiya 1600 faiz olduğu halda, indi, demək olar, yoxdur.

Əlbəttə, demək istəmirəm ki, biz böhrandan çıxmışıq. Bizim hələ çox problemlərimiz var. Amma böhrandan yavaş-yavaş çıxarıq. Hesab edirəm ki, 1997-ci il bu baxımdan mühüm müsbət iqtisadi irəliləyişlər ili olacaqdır. [263-264]

**Sual: Məlumdur ki, Rostropoviç dissident olan vaxtlar siz DTK-nın generalı idiniz. Bu, sizin onunla münasibətlərinizə nə dərəcədə təsir göstərirdi? Ola bilsin ki, siz o vaxtlar onun müqəddəratında müəyyən dərəcədə iştirak edirdiniz. Daha bir sual: belə bir fikir var ki, SSRİ-də yenidənqurmaya məhz DTK başlamışdı.**

**Cavab:** Bəli, mən DTK-nın generalı olmuşam. Bu, doğrudur. Bəziləri bunu həmişə mənim bioqrafiyamın mənfi səhifəsi kimi qələmə verməyə çalışırlar. Hesab edirəm ki, mənim bütün bioqrafıyam müsbətdir. Mən öz bioqrafiyamın bir sətrindən də imtina etmirəm və keçmişdə mənim həyatımda nə olmuşsa, hamısı ilə fəxr edirəm. Mən cavan yaşlarımdan Kommunist Partiyasının üzvü olmuşam, dövlət təhlükəsizliyi orqanlarında olmuşam, burada uzun illər ərzində xidmət etmişəm, burada dövlət təhlükəsizliyi naziri, general olmuşam. Bunların hamısı olubdur. Lakin 1969-cu ilin iyul ayında məni Azərbaycan KP MK-nın birinci katibi seçdilər, Rostropoviç isə 1974-cü ildə dissident olmuşdur.

Nə deyə bilərəm? Azərbaycanın Dövlət Təhlükəsizliyi Komitəsində işlədiyim dövrdə də, respublikaya rəhbərlik etdiyim 14 il ərzində də Azərbaycanda dissidentlər olmayıbdır. Soruşa bilərsiniz: niyə? Dissidentlər olmağına olmuşdur, amma biz onları dissident hesab etmirdik. Yəni onları dissidentlik halına gətirib çıxarmırdıq, sadəcə olaraq dissidentlər axtarmırdıq.

Bizim bəzi gənc yazıçılarımız – indi onlar Azərbaycanın görkəmli yazıçılarıdır – var idi ki, onları 60-70-ci illərdə dissident etmək istəyirdilər. Mən hələ DTK-da işləyərkən Rüstəm İbrahimbəyov, Eldar Quliyev "Bir cənub şəhərində" adlı film çəkmişdilər, lakin yerli hakimiyyət orqanları filmin ekrana çıxarılmasını qadağan etmişdilər. Mən onda respublikanın rəhbəri deyil, DTK-nın sədri idim. Mübahisələr gedirdi, onlar ərizələr yazmağa başladılar və mənə müraciət etdilər. Mən kinostudiyaya gedib bu filmə baxdım və dedim ki, onu ekrana buraxmaq lazımdır. Bunu respublikanın o vaxtkı rəhbərliyinə çatdırdım. Mən bu filmə yol verdim. Lakin sonra SSRİ-nin daxili işlər naziri Şelokov etirazını bildirdi, filmin qadağan olunmasına çalışdı, çünki bu filmdə milis işçilərinin rüşvətxorluğuna dair epizodlar var idi. Dissident filmi hesab edilən [264-265] bu filmi mən ekrana buraxdım, halbuki filmin yaradıcılarını da dissident adlandırmaq istəyirdilər.

Yaxud başqa bir misal. Mən artıq respublikanın rəhbəri olarkən Rüstəm İbrahimbəyov "İstintaq" filmini çəkdi. Yeri gəlmişkən, bu filmdə baş rolu, müstəntiq rolunu Kalyagin oynayır. Respublikada bir çox rəhbər işçilər bu filmə baxıb dedilər ki, film onları gözdən salır, rüsvay edir, film göstərir ki, Azərbaycanda korrupsiya, rüşvətxorluq var və əgər onu bütün Sovet İttifaqında göstərsələr deyəcəklər: Azərbaycanda belə hallara yol verilir, halbuki rüşvətxorluq hər yerdə var. Mən dedim: bilirsinizmi, olan şeyə nə demək olar. Belə isə biz bunu niyə gizlətməliyik? Nə qədər çox gizlətsək, rüşvətxorluq üçün bir o qədər çox imkan olacaq. Qoy bilsinlər.

O vaxtlar bu film Dövlət mükafatına layiq görüldü və nəinki Sovet İttifaqının, hətta bir çox digər ölkələrin ekranlarına çıxarıldı. Demək istəyirəm ki, mən bu adamlara heç də dissident kimi baxmırdım, eləcə də hesab etmirdim ki, Rostropoviç dissidentdir. Mən belə düşünürdüm ki, o, düz hərəkət edir. Lakin o vaxtlar Rostropoviç və Qalina Vişnevskaya haqqında qəbul olunmuş qərara təsir göstərməyə haqqım və imkanım yox idi. Onları vətəndaşlıqdan məhrum etdilər və sair. Lakin sizə təəccüblü görünsə də, DTK generalı kimi mən həmin instansiyalarla, yəni Rostropoviçi dissident hesab edən instansiyalarla eyni rəydə deyildim.

Sizin ikinci sualınıza – yenidənqurma barədə sualınıza gəldikdə isə, bu, mürəkkəb sualdır. Prinsip etibarılə Andropov cəmiyyəti həqiqətən əsaslı şəkildə demokratikləşdirmək istəyirdi. Mən Andropov ilə yaxın idim. Mən Moskvaya işə dəvət ediləndə onunla bir il işlədim. Orada demokratikləşdirməyə dair həqiqətən çox xeyirxah arzular, niyyətlər, planlar var idi, çoxlu layihələr vardı. Təəssüf ki, sonralar bütün bu iş deformasiyaya uğradı və yenidənqurma sizin bildiyiniz şəklə düşdü.

**Sual: Müxalifətlə sizin qarşılıqlı münasibətləriniz necədir?**

**Cavab:** Respublikada müxalifətin olmasını normal hal sayıram. Bir halda ki, biz demokratik dövlət, cəmiyyət qururuq, deməli, burada hamı eyni cür ola bilməz. Şübhəsiz ki, [265-266] müxtəlif baxışlar, fikirlər, münasibətlər və sairə olmalıdır. Ona görə də bizdə müxalifət var, çoxlu müxalifət qəzetləri çıxır, partiyalar çoxdur, 30-a qədəri qeydiyyatdan keçmişdir, elə partiyalar da var ki, qeydiyyatdan keçməyib, ancaq özlərini partiya elan edirlər və heç kim də onlara demir ki, partiya deyilsiniz. Bir neçə nəfər partiyada cəmləşib, özlərinin də qəzeti var.

Müxalifətə mənim münasibətim normal, sakitdir. Ancaq istəyirəm ki, müxalifət sivilizasiyalı, normal olsun, Azərbaycanın qanunları və konstitusiyası çərçivəsində fəaliyyət göstərsin. Lakin təəssüf ki, Azərbaycanda bu müxalifətçilik lap əvvəldən başqa xarakter almışdır. Bizdə müxtəlif silahlı qruplar meydana çıxmışdır və təkcə adi deyil, həm də silahlı müxalifət, necə deyərlər, hərbi müxalifət var idi və mən burada onunla qarşılaşdım. Siz bilirsiniz, 1993-cü ildə burada vətəndaş müharibəsi başlandı. İş elə gətirmişdi ki, əvvəlki, kommunist hakimiyyətini devirərək hakimiyyətə gəlmiş və respublikada bir il hakimiyyətdə olmuş Xalq Cəbhəsi bu hakimiyyətə müəyyən dərəcədə həm də silah gücünə gəlmişdir. Sonra isə o, dövlət sistemi yaratmaq əvəzinə, həm bu, həm də digər tərəfdən olan müxtəlif qanunsuz silahlı dəstələri saxladı. Bu isə ona gətirib çıxardı ki, onların arasında hakimiyyət arzusunda olan insanlar 1993-cü ilin iyununda hakimiyyəti devirmək istədilər. Bu hakimiyyət isə özünü qorumağa qadir deyildir və vətəndaş müharibəsi başlandı. Məhz bu ağır dövrdə məni

Bakıya dəvət etdilər, buraya gəldim və iyunun 15-də Azərbaycan parlamentinin sədri vəzifəsini öz üzərimə götürdüm.

Ancaq adamlarda bu xəstəlik qalmışdır. Hətta özlərini müxalifət hesab edənlər də, silahlı yolla hakimiyyəti yenidən devirməyi mümkün sayanlar da qalmışdır. İş belə gətirdi ki, 1994-cü ilin oktyabrında mən bu silahlı müxalifətlə, dövlət çevrilişi cəhdi ilə qarşılaşdım. Mən bu silahlı müxalifətə qarşı xalqın gücü ilə çıxış etdim. Siz yəqin bilirsiniz ki, mən gecə yarısı televiziya ilə xalqa müraciət etdim və saat yarımdan sonra bax, bu meydana yarım milyon insan toplaşdı. Qadınlar, kişilər, uşaqlar gəldilər, bir çoxları ayaqyalın idi. Adamlar silahsız gəldilər və silahlı qruplar heç nə edə bilmədilər. Doğrudur, sonra hərəsi bir yana qaçdı, bir çoxu Moskvada, Rusiyada və başqa yerlərdə yuva saldı. [266-267]

Altı aydan sonra silahlı müxalifət başqa bir cəhd göstərdi. Dövlət strukturu olan XTPD hakimiyyətin tabeliyindən çıxdı və malik olduğu silahla, böyük miqdarda silahlı adamlar vasitəsilə hakimiyyəti devirməyi qərara aldı. Mövcud siyasi partiyaların demək olar hamısı bundan əvvəl devrilmiş Xalq Cəbhəsi, Müsavat partiyası, digər partiyalar, Moskvada olan Mütəllibov öz qrupları ilə və başqaları XTPD-yə qoşuldular. Onların hamısı XTPD-nin rəisi polkovnik Rövşən Cavadovun ətrafında birləşərək ümid edirdilər ki, o, Əliyevin, qanuni konstitusiya hakimiyyətini devirəcək və onlar Cavadovla birlikdə gəlib bu hakimiyyəti bölüşdürəcəklər. Bizim müxalifətin xarakterik xüsusiyyəti budur. Onlar silahlı yolla və ya terror yolu ilə hakimiyyətə gəlməyin mümkün olması fikrindən hələ indiyədək daşınmamışlar.

Məhkəmə gedir, onlar həbs olunmuşlar. Biz onları zərərsizləşdirə bildik. Onların bir qismi də Rusiyada idi. Həm Moskvada oturan həmin adamlar tərəfindən, həm də buradakı müxalifətçi adamlar tərəfindən birləşdirilmiş və istiqamətləndirilən böyük bir qrup; – yeri gəlmişkən, bu qrup “OMON”-çulardan ibarət idi, – ötən ilin dekabrında Dağıstandan keçib Azərbaycana soxulmuş və prezidentə hücum etməyə, onu öldürməyə və hakimiyyəti ələ keçirməyə çalışırdı. Amma şükürlər olsun ki, bütün bunları zərərləşdirməyə indi bizim kifayət qədər qüvvə və imkanlarımız var. Biz 50-dək adamı həbs etdik. Onlar nəinki günahlarını boyunlarına aldılar, həm də bütün bunları necə hazırladıqlarını açıb danışdılar.

Yaxud, götürək Surət Hüseynovu. 1993-cü ildə o, burada Xalq Cəbhəsinin hakimiyyətini devirməyə müvəffəq oldu və 1994-cü ildə dövlət çevrilişi etməyə cəhd göstərdi. O qaçıb Moskvada gizləndi. Bir ay, yaxud ay yarım bundan əvvəl biz Surət Hüseynovu Rusiyada yaxaladıq, – yeri gəlmişkən, Rusiyanın Daxili İşlər Nazirliyinə bizə kömək etdiyinə görə sağ ol deyirik, – buraya gətirdik. İndi istintaq gedir. Bilirsinizmi, bax bu bizim müxtəlif müxalif qrup və qüvvələrimizin mənfi cəhətidir. Əgər onlar bu xəstəlikdən xilas olsalar, başa düşərlər ki, Azərbaycanda hakimiyyətə silah gücünə gəlmək olmaz, əgər hakimiyyət uğrunda sivilizasiyalı yolla mübarizə aparmaq istəyirlərsə, qoy yaşasınlar, mübarizə aparsınlar. [267-268]

Axırda hər halda demək istərdim ki, mən bütün müxalif qüvvələrlə çox normal münasibətdəyəm, amma yalnız demokratiya, sivilizasiya, konstitusiya çərçivəsində fəaliyyət göstərən normal müxalifətlə.

Vəssalam? Çox sağ olun. [268-269]

## MSTİSLAV ROSTROPOVİÇİN 70 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YUBİLEY GECƏSİ VƏ KONSERT QURTARDIQDAN SONRA ÇIXIŞ

*Prezident Sarayı*

*29 aprel 1997-ci il*

Çox hörmətli Mstislav Leopoldoviç, əziz dostum Slava!

Sizi Azərbaycanda, Bakı şəhərində keçirilən gözəl yubileyiniz və şübhəsiz ki, Azərbaycanın, onun mədəniyyətinin tarixinə ən parlaq səhifə kimi daxil olacaq bugünkü əla çıxışınız münasibətilə ürəkdən təbrik edirəm!

Görkəmli musiqiçi, bəstəkar, dirijor kimi, vətəndaş hüquqları, azadlıq, demokratiya uğrunda, zorakılığa və totalitarizmə qarşı böyük mübariz kimi Sizi Azərbaycanda yüksək qiymətləndirir, ehtiramınızı saxlayır, sevir, Sizə hörmət bəsləyirlər.

Sizin yaradıcılığınız dünya, ümumbəşər mədəniyyətinin ən parlaq tərkib hissəsinə çevrilmişdir. Fəxr edirik ki, Siz, belə görkəmli incəsənət, mədəniyyət xadimi, XX əsrin görkəmli vətəndaşı bizim həmyerlimiz, bakılısınız.

Sizin Azərbaycana, Bakıya sonuncu dəfə gəldiyiniz vaxtdan 25 ildən də çox keçir. Ondan az sonra Siz Sovetlər İttifaqını tərk etdiniz və şübhəsiz ki, Sizinlə ünsiyyətdə olmağa imkan yox idi. Ancaq bununla belə, inanın, Bakıda, Azərbaycanda bizim Azərbaycan xalqı Sizinlə idi, çünki Siz bu addımı həqiqət, ədalət, şərəf, vicdan naminə atmışdınız.

Sözün həqiqi mənasında, Azərbaycanda Rostropoviç həftəsinə çevrilmiş həftə başa çatır. Bu həftə Azərbaycan vətəndaşlarına, hamımıza Sizinlə ünsiyyətdə olmaq, Sizin sənətinizlə, musiqinizlə, yaradıcılığınızla təmasda olmaq imkanı verdi. Burada, Bakıda, Azərbaycanda keçirdiyiniz çoxsaylı görüşlər silinməz təəssürat yaradır. Özünüz hiss edirsiniz ki, [269-270] insanlar Sizin buraya gəlməyinizə sevinirlər. Hamı Sizi məftunluqla qarşılayır, bu cür yüksək hörmətə və yüksək ehtirama layiq olduğunuz üçün Sizə öz hisslərini ifadə edirlər.

Bu gün biz simfonik musiqidən ibarət gözəl konsertin şahidi olduq. Bir azərbaycanlı, Azərbaycanın prezidenti kimi fəxr edirəm ki, Azərbaycan xalqı belə zəngin mədəniyyətə, zəngin incəsənətə, peşəkar musiqiyə malikdir. Azərbaycanda peşəkar musiqinin əsasını böyük Üzeyir Hacıbəyov qoyubdur. Onun məktəbi, tələbələri, silahdaşları XX əsrdə Azərbaycanda çox yüksək musiqi mədəniyyəti yaradıblar. Biz bununla fəxr edirik. Əziz Slava, bütün bunlarda 20-ci illərin əvvəlində Azərbaycana gəlmiş Sizin atanızın böyük xidməti var. O, Azərbaycanın qabaqcıl insanları ilə birlikdə, böyük Üzeyir Hacıbəyovla birlikdə peşəkar musiqinin, ali musiqi təhsilinin əsasını qoymuşdur. Biz bunlarla fəxr edirik və bu gün o, gözəl dinləyicilər qarşısında çox əla təqdim olundu.

Slava, biz Sizi tanıyırıq, Sizin valideynlərinizi tərifləyirik. Belə görkəmli insanı məhz onlar yetirmişlər. Ona görə də Sizin barənizdə danışarkən, şübhəsiz ki, valideynlərinizin də şərəfini uca tuturuq. Bu gün mən qərar qəbul etmişəm ki, Sizin doğulduğunuz, valideynlərinizin yaşadıqları, Sizin uşaqlıq illərinizin keçdiyi mənzil indən belə Rostropoviçin xatirə ev-muzeyi olacaqdır.

Əziz Slava, Sizə bütün Azərbaycan xalqının dərin hörmət hissini, məhəbbət hisslərini çatdırır və bundan sonra da uzun illər səmərəli yaradıcılıq, səadət və xoş həyat arzulayıram.

Bu gün Sizi təbrik edərkən burada iştirak edən, bizimlə birlikdə olan Qalina Pavlovna Vişnevskaya haqqında danışmalıyıq. Mən ona son dərəcə minnətdaram ki, dəvətimi qəbul edib və Azərbaycana gəlibdir. Mən görkəmli müğənni Qalina Pavlovna Vişnevskayanı salamlayıram. Bizim dostumuz Rostropoviçin sədaqətli silahdaşı olan insanı salamlayıram. Onlar birlikdə musiqini də, incəsənəti də, insan ləyaqətini də şöhrətləndirmişlər.

Sağ olun. [270-271]

**AZƏRBAYCAN RESPUBLİKASININ**
**YƏHUDİ İCMASINA**

Əziz həmvətənlər!

Hər il mütərəqqi bəşəriyyət Yəhudi Xalqının Müsibəti Gününü – İkinci dünya müharibəsi zamanı soyqırımı siyasətinə məruz qalmış günahsız qurbanların xatirəsini dərin hüznlə yad edir. Həmin dəhşətli müharibədə yəhudi millətinə mənsub altı milyon mülki əhali alman faşizmi tərəfindən xüsusi amansızlıqla qətlə yetirilmişdir.

Belə milli faciələr Azərbaycan xalqının həyatından da yan keçməmişdir. Beş il əvvəl xalqımızın tarixinə qanlı səhifə kimi daxil olmuş Xocalı soyqırımı ağlasığmaz erməni vəhşiliklərinin miqyasına görə Kiyevdəki Babiy Yarda, Varşava və Krakov gettolarında faşistlərin törətdikləri kütləvi insan qırğınları ilə bir sırada durur.

Yəhudilərin milli hüzn günündə Azərbaycan xalqı adından böyük kədərinizə şərik olduğumu bildirir, soyqırım siyasətinin bütün günahsız qurbanlarına Allahdan rəhmət diləyirəm

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 3 may 1997-ci il* [271-272]

**BÖYÜK BRİTANİYA VƏ
ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ
KRALLIĞININ
LEYBORİSTLƏR PARTİYASININ LİDERİ
ZATİ-ALİLƏRİ ENTONİ BLEYR
CƏNABLARINA**

Hörmətli cənab Bleyr!

Başçılıq etdiyiniz partiyanın Birləşmiş Krallıqda parlament seçkilərində qələbə qazanması ilə əlaqədar olaraq sizi təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasında yaranmış dostluq münasibətləri və çoxcəhətli əməkdaşlıq bundan sonra da möhkəmlənəcək və inkişaf edəcəkdir.

Qələbə münasibətilə sizi bir daha təbrik edirəm, sizə və sizin şəxsinizdə bütün Böyük Britaniya xalqına sülh, səadət və əmin-amanlıq arzulayıram.

Dərin hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 4 may 1997-ci il* [272-273]

## TÜRKİYƏ RESPUBLİKASINA RƏSMİ SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ BƏYANAT

*5 may 1997-ci il*

Rəsmi səfər Türkiyənin prezidenti cənab Süleyman Dəmirəlin dəvəti ilədir. Mən Türkiyədə son dəfə 1994-cü ildə rəsmi səfərdə olmuşam. Doğrudur, bu müddətdə həm Türkiyədə, həm Azərbaycanda, həm də beynəlxalq təşkilatların toplantılarında Türkiyə rəhbərləri ilə çox görüşlərimiz olubdur və indiyə qədər dövlətlərarası, hökumətlərarası bir çox sənədlər o imzalamışıq. Ancaq indi belə bir rəsmi səfərin həyata keçirilməsi zərurəti həm Türkiyə, həm də Azərbaycan tərəfindən qərara alınıbdır. Ona görə də mən rəsmi səfərə gedirəm. Bütün sahələrdə – həm iqtisadi əməkdaşlıq sahəsində, həm də elmi, mədəni və başqa sahələrdə ikitərəfli Türkiyə – Azərbaycan əlaqələrinin daha da genişlənməsi, inkişaf etməsi ilə bağlı geniş danışıqlar aparacaq və bir çox sənədlər imzalayacağıq. Hansı sənədlər olacağını imzalayanda görəcəksiniz.

Mən bu dəvəti çox böyük məmnuniyyətlə qəbul etmişəm və çox böyük hörmət, ehtiram hissi ilə Türkiyəyə səfər edirəm. [273-274]

**TÜRKİYƏ RESPUBLİKASINA**
**RƏSMİ SƏFƏRƏ GƏLƏRKƏN**
**QARŞILANMA MƏRASİMİNDƏ**
**MƏTBUAT ÜÇÜN BƏYANAT**

*İstanbul, "Çankaya köşkü"*

*5 may 1997-ci il*

Hörmətli cənab prezident, əziz dostum, qardaşım Süleyman Dəmirəl!
Hörmətli dostlar, qardaşlar!

Sizə Azərbaycan xalqından, Azərbaycan Respublikasından ən səmimi salamları və xoş arzuları çatdırıram. Əziz dostum cənab Süleyman Dəmirəlin dəvəti ilə Türkiyə Cümhuriyyətinə rəsmi səfər etmək imkanı əldə etdiyimə görə çox məmnunam və Türkiyə torpağına gəldiyimə çox sevinirəm.

Türkiyə bizim dost, qardaş ölkəmizdir. Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq əlaqələrinin ən dərin kökləri var. Bizim keçmiş əlaqələrimiz və son illərdə sürətlə inkişaf edən əlaqələrimiz indi Türkiyə-Azərbaycan münasibətlərini yüksək səviyyəyə qaldırıbdır. Azərbaycan bundan çox məmnunluq duyur. Azərbaycan xalqı, respublikamızın bütün vətəndaşları Türkiyə Cümhuriyyətinə, Türkiyə xalqına öz qardaş ölkəsi kimi daim sevgi, məhəbbət hisslərini bildirirlər.

Biz son illər tez-tez görüşürük. Ancaq hesab edirəm ki, bu rəsmi səfər, görüşlər zamanı əldə etdiyimiz nailiyyətlər əsasında Türkiyə-Azərbaycan əlaqələrini daha yüksək səviyyəyə çatdırmaq imkanına malik olacağıq. Hesab edirəm ki, bütün sahələrdə əməkdaşlığımızı genişləndirmək və dərinləşdirmək üçün imkanlarımız var. Bir müstəqil dövlət olaraq Azərbaycan Respublikası buna çox böyük ehtiyac duyur.

Bu günlərdəki görüşlərimiz zamanı mən bu sahələrdə danışıqlar aparmaq istəyirəm. Şübhəsiz ki, Türkiyə ilə Azərbaycan arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında sənədin imzalanması da indiyədək əlaqələrimizin inkişafı yolunda atdığımız addımların ən dəyərlisi olacaqdır. [274-275]

Azərbaycanın ən böyük dərdi – Ermənistan tərəfindən Azərbaycana edilmiş təcavüz və bunun nəticəsində torpaqlarımızın 20 faizinin işğal olunması, işğal edilmiş ərazilərdən bir milyondan artıq Azərbaycan vətəndaşının didərgin düşməsidir. Biz bu məsələnin sülh yolu ilə həll olunmasına çalışırıq. Ermənistanın Azərbaycana təcavüzü başlanandan indiyə qədər Türkiyə bu məsələdə həmişə Azərbaycanla bir olubdur, biz Türkiyənin dəstəyini, yardımını hiss etmişik. Güman edirəm ki. bu səfər günlərində də Ermənistan-Azərbaycan münaqişəsinin, Dağlıq Qarabağ probleminin keçən ilin dekabrında ATƏT-in Zirvə görüşündə qəbul olunmuş prinsiplər əsasında sülh yolu ilə həll edilməsi sahəsində də danışıqlar aparıb məsələnin həlli üçün səylər göstərəcəyik.

Bir daha qeyd edirəm ki, Türkiyə bizim üçün dost, qardaş ölkədir. Biz – mən və mənimlə bərabər buraya gələnlər özümüzü öz məmləkətimizdə hiss edirik. Buraya ayaq basdığımız andan indiyədək bizə göstərilən hörmət və ehtirama, çox dostcasına, hərarətli münasibətə görə də həm sevinir, həm də təşəkkür edirik.

Əziz dostum, hörmətli prezident Süleyman Dəmirəl, dəvətinizə görə Sizə bir daha təşəkkür edir və ümidvar olduğumuzu bildirmək istəyirəm ki, bizim görüşlərimiz ölkələrimiz, xalqlarımız arasında olan əlaqələri daha da yüksəklərə qaldıracaqdır. Təşəkkür edirəm.

Türk dünyasının görkəmli xadimi Mustafa Kamal Atatürkün məqbərəsini ziyarət etdikdən sonra fəxri qonaqlar üçün xatirə kitabına ürək sözləri:

*"Bu müqəddəs yeri, Türkiyə Cümhuriyyətinin banisi böyük Mustafa Kamal Atatürkün məzarını yenidən ziyarət edərkən onun ruhu qarşısında baş əyirəm. Onun ölməz xatirəsinə, bəşər tarixindəki xidmətlərinə dərin hörmət və ehtiramımı bildirirəm. Azərbaycan xalqı böyük Atatürkün xatirəsini qəlbində yaşadır, daim yaşadacaqdır. Allah rəhmət eləsin".*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının prezidenti**
[275-276]

**AZƏRBAYCAN RESPUBLİKASI İLƏ TÜRKİYƏ RESPUBLİKASI ARASINDA SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİNDƏ MƏTBUAT ÜÇÜN BƏYANAT**

*İstanbul, "Çankaya köşkü"*

*5 may 1997-ci il*

Hörmətli mətbuat nümayəndələri!
Hörmətli xanımlar və cənablar!

Bu gün mən prezident cənab Süleyman Dəmirəlin dəvəti ilə Türkiyəyə rəsmi səfər etməyimdən və buraya gəldiyim ilk dəqiqədən indiyədək Azərbaycan nümayəndə heyətinə, şəxsən mənə göstərilən qonaqpərvərlikdən və dostluq münasibətindən məmnun olduğumu bildirmək istəyirəm.

Bu gün biz çox səmərəli danışıqlar apardıq, çox əhəmiyyətli məsələləri müzakirə etdik, geniş fikir mübadiləsi apardıq.

Bunlar hamısı Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında yaranmış dostluq və qardaşlıq əlaqələrinin parlaq təzahürüdür. Bizim ölkələrimizi, xalqlarınızı tarixi köklərimiz, tarixi keçmişimiz, ənənələrimiz, mədəniyyətimiz, dilimiz, dinimiz birləşdiribdir.

Azərbaycan müstəqil dövlət olandan indiyədək respublikamızın bütün dövlətlərlə qurduğu əlaqələr içərisində Türkiyə ilə əlaqələri xüsusi yer tutur və xüsusi əhəmiyyət daşıyır. Çünki Türkiyə həmişə Azərbaycanı dəstəkləmiş, Azərbaycanın müstəqil dövlət olması yolunda ölkəmizə daim öz rəğbətini bildirmiş və Azərbaycan öz müstəqilliyini elan edən kimi ilk dəfə respublikamızı tanıyan dövlət olmuşdur.

O vaxtdan indiyədək əlaqələrimizin artıq zəngin tarixi vardır. Bizim əlaqələrimiz demək olar ki, sürətlə inkişaf edir. Bunların hamısının da səbəbi Türkiyənin Azərbaycana göstər[276-277]diyi xüsusi qayğı və dostluq münasibətidir. Bu qayğını, münasibəti bütün türk xalqı, Türkiyənin dövlət adamlar; göstərirlər. Türkiyənin prezidenti, mənim əziz dostum, qardaşım Süleyman Dəmirəl Azərbaycana xüsusi qayğı və münasibət göstərir.

Bu gün qeyd etmək lazımdır ki, Azərbaycan dövlət müstəqilliyini əldə edən zaman respublikamızın dövlət müstəqilliyinin tanınmasında hörmətli prezident Süleyman Dəmirəlin xüsusi rolu olmuşdur. O dövrdən indiyədək, Azərbaycan ilə Türkiyə arasındakı əlaqələrdə prezident Süleyman Dəmirəl xüsusi rol oynayıb və xidmətlər göstəribdir.

Mən bu gün bu fürsətdən istifadə edib bunlara görə hörmətli prezident Süleyman Dəmirələ hörmət və ehtiramımı və bütün Azərbaycan xalqı adından təşəkkürümü və minnətdarlığımı bildirirəm.

Azərbaycan nümayəndə heyətinə və şəxsən mənə bu gün göstərilən bu münasibətə görə də təşəkkür edirəm. Əziz dostum Süleyman bəy, mənim haqqımda və Azərbaycanın indiki ağır dövründə bir prezident kimi mənim gördüyüm işlər barədə dediyiniz xoş sözlərə görə də sizə təşəkkür edirəm.

Əziz dostlar, əmin ola bilərsiniz ki, Azərbaycan xalqı dövlət müstəqilliyini və milli azadlığını göz bəbəyi kimi qoruyur və bundan sonra da qoruyacaqdır. Dövlət müstəqilliyi Azərbaycan xalqının tarixi nailiyyətidir və bu tarixi nailiyyəti qoruyub saxlamağı biz özümüzün ali vəzifəmiz, ən yüksək borcumuz hesab edirik. Türkiyə ilə əlaqələrimiz bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. İkitərəfli əlaqələrimiz, ümumiyyətlə, məsələlərin müzakirəsində çoxtərəfli əməkdaşlığımız fövqəladə dərəcədə qiymətlidir.

Azərbaycan ilə Türkiyə arasında indiyədək bir çox müqavilələr imzalanmışdır. Amma bu gün imzalanan sazişlər də bizim əlaqələrimizin normativ-hüquqi bazasını daha da genişləndirir, gücləndirir. Xüsusən Azərbaycan və Türkiyə prezidentlərinin imzaladıqları "Azərbaycan ilə Türkiyə arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında" bəyannamə çox böyük əhəmiyyət kəsb edir. Bu, Azərbaycan ilə Türkiyə arasındakı əlaqələrin yeni bir mərhələyə, səviyyəyə çatdığını göstərir. Ümumiyyətlə, bu görüşlər, danışıqlar, imzalanan sənədlər Türkiyə-Azərbaycan əlaqələri tarixində yeni bir mər[277-278]hələ, səhifə açır. Ümidvar olduğumu bildirmək istəyirəm ki, biz bu imkanlardan bundan sonra da səmərəli istifadə edəcəyik.

Böyük məmnuniyyət hissi ilə qeyd edirəm ki, respublikamızın böyük dərdi olan Ermənistanın Azərbaycana etdiyi təcavüz və bu təcavüz nəticəsində ölkəmizin torpaqlarının 20 faizinin işğal olunması, bir milyondan çox vətəndaşımızın doğma yurdundan didərgin düşməsi və ağır vəziyyətdə yaşaması məsələsi Türkiyəni daim narahat edir və həmişə Türkiyə xalqının, ictimaiyyətinin diqqət mərkəzindədir. Türkiyənin dövlət, hökumət başçılarının diqqət mərkəzindədir. Bu məsələyə bu gün də göstərilən münasibət və Ermənistan-Azərbaycan münaqişəsinin keçən ilin dekabrında ATƏT-in üzvü olan ölkələrin dövlət başçılarının Lissabonda keçirilən Zirvə görüşündə qəbul olunmuş prinsiplər əsasında həll edilməsi barəsində apardığımız danışıqlar, məsləhətləşmələr və Türkiyənin bu barədə qəti mövqeyi bizim üçün böyük dəstəkdir, dayaqdır.

Ümidvar olduğumu bildirmək istəyirəm ki, biz bu məsələnin sülh yolu ilə həll edilməsinə bizim dostumuz, qardaşımız Türkiyə ilə bərabər nail olacağıq.

Mən ümidvaram ki, bugünkü görüşlər davam edəcək və Türkiyə-Azərbaycan dostluğu, əməkdaşlığı günü-gündən inkişaf edəcəkdir. Diqqətinizə görə təşəkkür edirəm. [278-279]

**AZƏRBAYCAN PREZİDENTİNƏ TÜRKİYƏ CÜMHURİYYƏTİNİN "DÖVLƏT NİŞANI"NIN TƏQDİM OLUNMASI MƏRASİMİNDƏ ÇIXIŞ**

*İstanbul, "Çankaya köşkü"*

*5 may 1997-ci il*

Hörmətli prezident, əziz dostum, qardaşım Süleyman Dəmirəl!

Türkiyə Cümhuriyyətinin hökumət üzvləri, dövlət adamları, mətbuat nümayəndələri!

Hörmətli dostlar, xanımlar və cənablar!

Bu gün biz Türkiyəyə gəlməyimizə, bu torpaqda olmağımıza çox sevinirik və məmnunuq. Türkiyə bizim üçün müqəddəs bir yerdir. Hər bir azərbaycanlı üçün Türkiyə sevimli bir ölkədir. Buna görə Türkiyəni ziyarət etmək özü hər bir insanın həyatında böyük bir hadisədir, xoşbəxtlikdir. Bizə bu xoşbəxtlik nəsib olmuşdur. Bu gün mən həddindən artıq həyəcanlıyam. Ona görə ki, Türkiyə Cümhuriyyətinin "Dövlət nişanı"nı mənə əziz dostum Süleyman Dəmirəl təqdim etdi. Mən Türkiyənin bu yüksək dövlət mükafatına layiq görülmüşəm.

Mən çox həyəcanlıyam. Doğrusu, belə bir yüksək mükafatı heç də gözləmirdim. Çünki Türkiyə ilə Azərbaycan arasındakı əlaqələri inkişaf etdirmək, genişləndirmək, günü-gündən irəliyə aparmaq bir azərbaycanlı, bir vətəndaş kimi mənim müqəddəs borcumdur.

Artıq dörd ilə yaxındır ki, mən Azərbaycana rəhbərlik edirəm. Bu müddətdə daim çalışmışam ki, Türkiyə ilə Azərbaycan arasında olan əlaqələr inkişaf etsin, genişlənsin, yüksəlsin. Çünki mən həm Azərbaycan üçün, həm də Türkiyə üçün bunun nə qədər faydalı olduğunu bilirəm. Bunun Azər[279-280]baycan üçün nə qədər gərəkli, faydalı olduğunu həmişə dərk etmişəm. Çünki uzun illər biz Türkiyədən ayrı düşmüşük, xalqlarımız 70 il bir-birindən ayrı düşmüşdür. Bu illər ərzində tək biz yox, bizdən əvvəl yaşamış nəsillər də Türkiyənin həsrətində olublar, Türkiyə ilə qovuşmaq, görüşmək, əl-ələ vermək, Türkiyənin əlini sıxmaq həsrəti ilə yaşayıblar.

Nəhayət, biz 1990-cı ilin əvvəllərində buna nail olduq. Bunun özü hər bir Azərbaycan vətəndaşının həyatında, o cümlədən mənim həyatımda böyük bir xoşbəxtlikdir. Buna nail olandan sonra bu əlaqələri inkişaf etdirmək, xalqlarımızı bir-birinə yaxınlaşdırmaq, qarşılıqlı fayda əldə etmək, şübhəsiz ki, bizim vəzifəmiz olubdur və mən bu vəzifəni yerinə yetirməyə çalışmışam. Əgər mənim gördüyüm bu işlər Türkiyə Cümhuriyyəti, dövləti tərəfindən bu qədər yüksək qiymətləndirilirsə, mən çox xoşbəxtəm, məmnunam.

Məni sevindirən bir də odur ki, bu mükafat məhz Türkiyə Cümhuriyyətinin mükafatıdır. Bu, böyük öndər Mustafa Kamal Atatürkün ölkəsinin, onun yaratdığı cümhuriyyətin mükafatıdır.

Mustafa Kamal Atatürk sizin üçün nə qədər əziz və hörmətli olubsa, o qədər də azərbaycanlılar üçün belədir. Ona görə də Türkiyə demokratik, Atatürk Türkiyə Cümhuriyyəti bizim üçün doğma bir ölkədir. Biz buranı öz diyarımız, məmləkətimiz hesab edirik.

Mən bu sözləri demişəm, bu gün bir daha təkrar edirəm: biz bir xalqıq, iki dövlətik. Bir xalq olan bir dövlətin başçısının o biri dövlətin yüksək mükafatını alması böyük şərəfdir.

Mən sizi əmin edirəm ki, bu böyük etimadı, şərəfi həyatımın sonuna qədər doğrultmağa çalışacağam. Mən onsuz da bunu edirəm və edəcəkdim. Ancaq bu mükafat mənim üzərimə çox böyük məsuliyyət qoyub, vəzifəmi daha da artırıbdır.

Əmin olun ki, mən bu vəzifəmi layiqincə yerinə yetirməyə çalışacağam. Əmin olun ki, Azərbaycan daim müstəqil olacaqdır. Azərbaycanın dövlət müstəqilliyi, milli azadlığı sarsılmazdır, dönməzdir. Əmin olun ki, Azərbaycan demokratiya, azadlıq yolu ilə gedəcəkdir. Azərbaycanın tutduğu yol – demokratik, hüquqi, dünyəvi dövlət qurmaq yolu bizim yolumuzdur. Biz bu yoldan heç vaxt dönməyəcəyik. Bu yolla sona qədər [280-281] gedib Azərbaycanı Dünya Birliyində layiqli bir səviyyəyə gətirib çıxaracağıq.

Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı əbədidir, sarsılmazdır. Biz çalışacağıq ki, bu dostluğu, qardaşlığı gündən-günə möhkəmlədək və yüksəklərə qaldıraq.

Əziz dostum, qardaşım, sizə bir daha təşəkkür edirəm. Çox sağ olun.

**Sual**: Cənab Heydər Əliyev, Bakı Ceyhan xətti barədə nə deyə bilərsiniz?

**Heydər Əliyev**: Bu gün imzaladığımız strateji əməkdaşlıq haqqında bəyannamədə bütün bu məsələlər öz əksini tapıbdır.

**Sual**: Azərbaycan nefti 2000-ci ildə Türkiyəyə gəlib çıxacaqmı?

**Heydər Əliyev**: Azərbaycan nefti Türkiyəyə nə vaxt gəlib çıxacaq, – bunu zaman göstərəcəkdir. Amma yaxın vaxtlarda olacaqdır.

**Sual**: Mətbuatdan məlumdur ki, Rusiya Ermənistana xeyli silah veribdir. Türkiyə-Azərbaycan danışıqlarında bu məsələ müzakirə olundumu?

**Heydər Əliyev**: Bilirsiniz ki, Ermənistan gizli olaraq Rusiyadan çoxlu miqdarda silahlar, sursatlar alıbdır. Rusiyanın paytaxtı Moskvada rəsmi elan edilib ki, Rusiya Ermənistana gizli olaraq bir milyard dollarlıq silah veribdir. Bu, çox böyük təhlükə doğurur. Ona görə də bu gün bu barədə ətraflı danışıqlar, müzakirələr apardıq. Şübhəsiz ki, bu hadisə bizim hamımızı düşünməyə dəvət edir. Düşünmək lazımdır. Əgər bu sahədə iş birliyi lazım olsa, bunu da etmək olar.

**Sual**: Cənab prezident, siz bəyan etmisiniz ki, Azərbaycanın tərkibində Dağlıq Qarabağa yüksək muxtariyyət verilməsinə tərəfdarsınız. Ermənistan Azərbaycandan nə istəyir?

**Heydər Əliyev**: Ermənistan Dağlıq Qarabağa müstəqillik istəyir. Biz bunu heç vaxt verə bilmərik. Azərbaycan öz torpağının bir qarışını, bir metrini də heç kəsə verməz. Ermənistan torpaqlarının bir qisminin keçmiş zamanlarda Azərbaycana məxsus olmasına baxmayaraq, biz başqalarının torpağını istəmirik. Biz 1991-ci ildə Azərbaycan müstəqillik qazandığı zaman Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul olunmuş sərhədlərimiz çərçivəsində torpaqlarımızı qoruyacağıq və heç kəsə verməyəcəyik. [281-282]

## XARİCİ ÖLKƏLƏRİN İQAMƏTGAHLARI ANKARADA YERLƏŞƏN, EYNİ ZAMANDA AZƏRBAYCAN RESPUBLİKASINDA AKKREDİTƏ OLUNMUŞ SƏFİRLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞI

*5 may 1997-ci il*

Hörmətli səfirlər, hörmətli cənablar!

Mən sizi salamlayıram və sizinlə bu qısa görüşümdən çox məmnun olduğumu bildirmək istəyirəm. Siz bilirsiniz ki, mən bu gün səhər buraya rəsmi səfərə gəlmişəm, bütün günü danışıqlar gedir. Proqramdan bir qədər kənara çıxmışıq. Ona görə də mən sizinlə görüşə bir az gecikmişəm. Bununla yanaşı 25 dəqiqədən sonra yeni bir proqram başlanacaqdır.

Sizin burada, Türkiyədə səfir olmaqla bərabər eyni zamanda Azərbaycanda öz ölkənizi təmsil etməyiniz bizim üçün çox əlverişlidir. Çünki Türkiyə ilə Azərbaycan arasında çox sıx dostluq, qardaşlıq əlaqələri var. Türkiyə bizim üçün çox yaxın ölkədir və Türkiyə ilə Azərbaycan arasında məsafə də çox qısadır. Ona görə də burada oturaraq Azərbaycanda səfirlik fəaliyyətini həyata keçirmək şübhəsiz ki, başqa ölkələrə nisbətən daha yaxşıdır. Ancaq biz eyni zamanda arzu edərdik ki, siz Azərbaycana tez-tez gələsiniz, Azərbaycanın vəziyyəti ilə daim maraqlanasınız, Azərbaycanda gedən proseslər haqqında həm özünüz məlumat alasınız, həm də öz ölkənizə həmişə məlumat verəsiniz. Çünki biz sizin ölkələrinizlə çox sıx əlaqə saxlamaq istəyirik və bu əlaqələrin də saxlanmasında səfirin rolu çox böyükdür. Sizin ölkələrinizdə bizim səfirliyimiz yoxdur. Buna görə də siz həm öz ölkənizin Azərbaycanda səfiri, həm də Azərbaycanın sizin ölkənizdə səfiri olmalısınız. Hər halda mən bunu arzu edir və ümidvaram ki, siz mənim arzumu yerinə yetirəcəksiniz. [282-283]

Yəqin ki, Azərbaycandakı indiki vəziyyət sizə məlumdur. Əvvəla, daxili ictimai-siyasi sabitlik təmin olunubdur. Bilirsiniz ki, keçmiş illərdə Azərbaycan daxili sabitlik baxımından çox çətin proseslər içərisində idi. İndi Azərbaycanda dövlət orqanları normal fəaliyyət göstərir, demokratik hüquqi dövlət quruculuğu prosesi gedir. Azərbaycan parlamenti daim işləyir və yerli hakimiyyət orqanları da öz vəzifələrini yerinə yetirirlər.

Cari ilin üç ayı ərzində Azərbaycan iqtisadiyyatında bəzi müsbət nəticələr əldə olunubdur. Bilirsiniz ki, inflyasiyanın qarşısı tamamilə alınıb və indi Azərbaycanda inflyasiya yoxdur. Milli valyutamızın – manatın dəyəri möhkəmlənib və ötən illə müqayisədə dollarla nisbətdə 10 faiz artıbdır. Bu üç ayda dövlət büdcəsi yerinə yetirilibdir. Güman edirik ki, büdcə ilin axırınadək də yerinə yetiriləcəkdir.

İstehsalatda, iqtisadiyyatda müəyyən artımlar var. Keçən illərdə bizdə istehsalın səviyyəsi daim aşağı düşürdüsə, indi bu dayandırılıb və müəyyən artım də əldə edilibdir. Güman edirəm ki, 1997-ci ildə bu müsbət meyl daha da artacaqdır. İqtisadi islahatlar ardıcıl surətdə həyata keçirilir. Azərbaycan öz iqtisadiyyatını bazar iqtisadiyyatı prinsipləri əsasında qurur. Özəlləşdirmə proqramı əməli surətdə həyata keçirilir. Aqrar sektorda islahatlar həyata keçirilir və bəzi hallarda biz onların müsbət nəticələrini hiss edirik. Bilirsiniz ki, biz "Torpaq islahatı haqqında" çox ciddi bir qanun qəbul etmişik. Torpaqlar xüsusi mülkiyyətə verilir. Bu qanun da artıq icra olunur.

Xarici ticarətdə liberallaşdırma prosesi davam edir. Ümumiyyətlə, Azərbaycanda artıq iqtisadiyyatda liberallaşdırma, sahibkarlığa geniş imkanlar yaradılması prosesi mövcuddur. Biz hesab edirik ki, iqtisadiyyatda baş vermiş bəzi müsbət nəticələr və meyllər məhz bu iqtisadi islahatların, özəlləşdirmənin həyata keçirilməsi ilə bağlıdır.

Siz bilirsiniz ki, ölkəmizdə çoxpartiyalı sistem, mətbuat azadlığı, söz azadlığı bərqərar olubdur. Ancaq bunlarla yanaşı, ölkəmizi narahat edən ən böyük problem Ermənistan-Azərbaycan münaqişəsidir və biz bu münaqişədə istədiyimiz nəticəni hələ əldə edə bilməmişik. Atəşkəs haqqında əldə etdiyimiz sazişin bir həftədən sonra üç ili tamam olacaqdır. Üç [283-284] ildir ki, atəş yoxdur, məsələnin sülh yolu ilə həll olunması üçün danışıqlar aparırıq. Bu baxımdan keçən ilin dekabr ayında Lissabonda ATƏT-in Zirvə görüşündə əldə olunan sənəd çox böyük əhəmiyyət kəsb edir. Sizə məlumdur ki, Lissabon Zirvə görüşündə Dağlıq Qarabağ üstündə Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması prinsipləri haqqında sənəd qəbul edilibdir. Bu məsələlərin həll olunması üçün yaradılmış Minsk qrupunun indi üç həmsədri var: Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa. Biz çox ümid bəsləyirik ki, üç böyük dövlətin bu məsələyə qoşulması və Lissabon Zirvə görüşündə sülh danışıqları prinsiplərinin müəyyən edilməsi 1997-ci ildə sülh prosesini irəlilədə bilər.

Ancaq buna çox mane olan amillər də var. Bilirsiniz ki, son iki ayda Rusiyanın Ermənistana üç il ərzində gizli olaraq çoxlu silah verməsi aşkara çıxarılmışdır. İndi artıq tam məlum olub və Rusiyanın müvafiq orqanları da bəyan ediblər ki, son üç ildə gizli olaraq, qanunsuz surətdə Rusiyadan Ermənistana bir milyard ABŞ dolları dəyərində ağır silahlar verilibdir. Bu silahlar içərisində çoxsaylı müasir tanklar da, toplar da, uzaq mənzilli raketlər də var. Rusiyanın Ermənistana bu qədər silah verməsi çox təəccüblüdür və eyni zamanda böyük təhlükə doğurur.

Bu, tək Azərbaycan üçün yox, tək Qafqaz bölgəsi üçün yox, Türkiyə də daxil olmaqla bütün bölgə üçün çox təhlükəlidir. Biz Rusiyanın dövlət başçılarından, şəxsən prezident Boris Yeltsindən xahiş etmişik, mən ona məktublarla müraciət etmişəm və mart ayının 29-da şəxsi görüşümdə ona bildirmişəm ki, Rusiya bu məsələ ilə əlaqədar ciddi ölçü götürməlidir. Bizim tələbimiz ondan ibarətdir ki, Ermənistana verilmiş silahlar geri qaytarılmalıdır və gələcəkdə belə hallara yol verilməməlidir. Doğrudur, Rusiya parlamenti bu barədə qərar qəbul edibdir. Ancaq hələ konkret bir nəticə yoxdur. Moskvada istintaq gedir, araşdırmalar aparılır, lakin bir şey şübhəsizdir ki, silahlar verilibdir və bu silahların verilməsi haqqında sənədlər mövcuddur. Mən bir daha qeyd edirəm ki, bunlar bizi narahat edir və şübhəsiz ki, sülh danışıqlarının aparılmasına mane olur.

Lakin bunlara baxmayaraq, Azərbaycan yenə də məsələnin sülh yolu ilə həll olunması mövqeyində durur. Bu gün mən si[284-285]zə bir daha bəyan edirəm ki, biz məsələ sülh yolu ilə həll olunana qədər, yəni böyük sülh müqaviləsinin bağlanmasına qədər atəşkəs rejimini qoruyub saxlayacaq və ona riayət edəcəyik.

Bu gün Türkiyənin prezidenti, baş naziri, baş nazirin müavini və başqa şəxslərlə Türkiyə-Azərbaycan əlaqələri haqqında geniş danışıqlar aparmışıq. Biz bu danışıqlardan çox məmnunuq. Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr gündən-günə inkişaf edir. Bu əlaqələri daha da inkişaf etdirmək üçün bu gün biz çox dəyərli səkkiz müqavilə imzalamışıq. Bu müqavilələrdən biri Türkiyə ilə Azərbaycan arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqındadır və onu Türkiyənin və Azərbaycanın prezidentləri imzalamışlar. Qarşıdakı günlərdə də Türkiyədə görüşlərimiz, danışıqlarımız olacaqdır. Mən Türkiyəyə bu rəsmi səfərimə xüsusi əhəmiyyət verirəm.

Mən sizi bir daha salamlayıram və Azərbaycan ilə öz ölkələriniz arasındakı əlaqələrin inkişaf etməsi üçün sizdən daha böyük səylər göstərməyinizi xahiş edirəm. Təşəkkür edirəm. Sağ olun. [285-286]

## TÜRKİYƏ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏLİN ADINDAN AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ ZİYAFƏTDƏ NİTQ

*Ankara*

*5 may 1997-ci il*

Hörmətli prezident cənab Süleyman Dəmirəl, hörmətli Nəzmiyyə xanım!
Hörmətli baş nazir cənab Nəcməddin Ərbakan!
Hörmətli dostlar, xanımlar və cənablar!

Sizin hamınızı Azərbaycan xalqı adından ürəkdən salamlayır, sizə Azərbaycan xalqının hörmət-ehtiramını və sevgi-məhəbbətini çatdırıram.

Türkiyə Cümhuriyyətinə rəsmi səfərə dəvət olunduğuma görə əziz dostum, qardaşım, prezident Süleyman Dəmirələ təşəkkür edirəm. Sizi əmin edirəm ki, bu görüşlər, danışıqlar Türkiyə ilə Azərbaycan arasında olan dostluq və qardaşlıq əlaqələrini daha da möhkəmləndirəcək, daha yüksəklərə qaldıracaqdır.

Biz hamımız – mən və mənimlə Türkiyəyə gəlmiş böyük nümayəndə heyəti sizin ölkənizə, torpağınıza gəlməkdən çox məmnunuq və çox xoşbəxtik. Türkiyə hər bir azərbaycanlı üçün, bizim üçün dəyərli ölkədir, əziz diyardır. Türk xalqı bizim qardaşımız, dostumuzdur. Ona görə də Türkiyəyə hər bir ziyarət böyük iftixar hissi doğurur, Türkiyə ilə hər bir görüş böyük məhəbbət hissi doğurur. Bu hissiyyatlarla da biz bu gün buraya gəlmişik.

Bu gün səhər tezdən indiyə qədər aparılan danışıqlar və imzalanmış sənədlər Türkiyə ilə Azərbaycan arasında əlaqələrin nə qədər möhkəm olduğunu və nə qədər böyük gələcəyə ma[286-287]lik olduğunu bir daha nümayiş etdirir. İftixar hissi ilə demək istəyirəm ki, bu əlaqələr tarixi keçmişimizlə, tarixi kökümüzlə bağlıdır. Həqiqətən xalqlarımız əsrlər boyu böyük sınaqlardan keçərək həmişə bir-birinə dayaq olmuş, yardım etmiş, bir-birini sevmiş və bir-birinin yanında olmuşdur. Hətta son yetmiş illik ayrılıq da xalqlarımızın, millətlərimizin arasında olan dostluq, qardaşlıq, məhəbbət hisslərini söndürə, qıra bilməmişlər. Əksinə, biz hər il, hər gün o keçmiş zamanlar haqqında düşünərkən yeganə fikrə gəlirik ki, ayrılıq insanlarda bir-birinə qovuşmaq hissini daha da artırır. Bu qovuşmaq hissi nəhayət, Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra Türkiyə ilə Azərbaycan arasında indi mövcud olan əlaqələrin yaranmasına gətirib çıxarıbdır.

Azərbaycan dövlət müstəqilliyini elan edən kimi, Türkiyə dünyada ilk dövlət olaraq Azərbaycanın dövlət müstəqilliyini tanıdı, dəstəklədi və beləliklə, bizim müstəqilliyimizin tanınmasına geniş yol açdı. Ötən altı il ərzində ölkələrimiz arasında əlaqələr o qədər genişlənib, inkişaf edibdir ki, sanki yetmiş illik ayrılıq olmamışdır. Bu da təbiidir. Çünki bizim bir-birimizə bağlılığımız əsrlər boyu olmuşdur. Bu əsrlərin yanında yetmiş il bir şey deyildir. Ulu babalarımızın əsrlər boyu bir-biri ilə bağlılığını, bir-birinə olan münasibətini yetmiş illik ayrılıq heç də poza bilməzdi.

Ona görə də təbiidir ki, biz müstəqillik əldə edən kimi, sərhədlər açılan kimi, bir-birimizlə əlaqələr asanlaşan kimi dostluğumuz, qardaşlığımız böyük bir fəvvarə kimi püskürdü və bütün dünyaya nümayiş etdirdi ki, Türkiyə ilə Azərbaycan keçmişdə də bir olub, bu gün də birdir, gələcəkdə də bir olacaqdır.

Türkiyənin bugünkü günü bizdə böyük iftixar hissi doğurur. Böyük öndər Mustafa Kamal Atatürkün yaratdığı Türkiyə Cümhuriyyəti yetmiş ildən artıq bir zamanda sürətlə irəliləyib dünyanın inkişaf etmiş dövlətləri sırasında durubdur və layiqli yer tutubdur.

Biz çox sevinir və fəxr edirik ki, Türkiyə Şərq ilə Qərbin sintezini dünyada təmsil edən bir ölkə olubdur. Türkiyə Cümhuriyyəti öz milli, mənəvi dəyərlərini, ənənələrini, adətlərini qoruyub saxlayaraq, eyni zamanda dünyanın ən qa[287-288]baqcıl, mütərəqqi, ümumbəşəri dəyərlərindən bəhrələnib, istifadə edib öz ölkəsində yüksək mədəniyyətə, elmə, texnologiyaya, yüksək insani dəyərlərə malik olan bir cəmiyyət, cümhuriyyət yaradıbdır.

Türkiyənin cümhuriyyət dövründə keçdiyi yol tarixi yoldur. Bu tarixi yol ilə sizin kimi biz də fəxr edirik. Fəxr edirik ki. türk xalqı böyük Mustafa Kamal Atatürkün qoyduğu yolla inamla irəliləyir. Əminik ki, türk xalqının, Türkiyənin böyük gələcəyi də bu yolla bağlıdır və bu yol Türkiyənin böyük gələcəyini təmin edəcəkdir.

Türkiyədə yaranmış demokratik, hüquqi dövlət, demokratik cəmiyyət, insan azadlığı, vicdan, din, söz azadlığı – bunlar hamısı dünyanın ən müasir, ən inkişaf etmiş cəmiyyətlərinin səviyyəsindədir və bizim üçün örnəkdir. Sizin keçdiyiniz bu möhtəşəm, şərəfli yol gənc, müstəqil Azərbaycan dövləti üçün böyük örnəkdir. Sizin təcrübəniz bizim üçün böyük örnəkdir. Müstəqillik dövründə ölkəmizdə hüquqi demokratik dövlət quruculuğu prosesində, iqtisadiyyatda apardığımız dəyişikliklərdə Türkiyənin təcrübəsindən birinci növbədə istifadə edirik.

Şübhəsiz ki, biz dünya demokratiyasının bütün təcrübələrindən bəhrələnir, istifadə edirik. Ancaq dünya demokratiyasının, mədəniyyətinin, dünyanın inkişaf etmiş ölkələrinin iqtisadiyyatının təcrübəsinin Azərbaycanda tətbiq olunması məhz Türkiyənin əldə etdiyi nailiyyətlərdən istifadə etmək yolu ilə daha əlverişli və asandır. Çünki biz bir mədəniyyətə, dəyərlərə, milli ənənələrə malikik. Eyni ənənələrimiz, adətlərimiz, eyni milli, dini dəyərlərimiz bizi sizinlə tarixən birləşdirdiyi kimi, yeni mərhələdə də sizin təcrübəniz bizi daha da bəhrələndirir və biz bu yolla daha rahat gedə biləcəyik.

Ona görə də Türkiyə ilə Azərbaycan arasındakı əlaqələri ölkəmizin dövlət müstəqilliyini inkişaf etdirmək, dövlət quruculuğunu müvəffəqiyyətlə aparmaq, iqtisadiyyatda böyük islahatlar keçirmək, böyük dəyişikliklər etmək üçün çox əhəmiyyətlidir. Bu baxımdan hər dəfə Türkiyəni ziyarət edərkən burada gördüklərimizi, anladıqlarımızı, eşitdiklərimizi Azərbaycana aparıb tətbiq etməyə çalışırıq və çalışacağıq. Bu baxımdan Türkiyəyə bu səfərimizin də çox böyük əhəmiyyəti var. [288-289]

Bildiyiniz kimi, Azərbaycan dövlət müstəqilliyinin altıncı ilini yaşayır. Bu dövr Azərbaycan üçün çox ağır, çətin, eyni zamanda şərəfli dövrdür. Çünki biz keçmişdə dövlət müstəqilliyimizi itirmişdik. 1918-ci ildə Azərbaycanda ilk demokratik cümhuriyyət yaranmışdı. Ancaq o, çox yaşaya bilmədi. Ondan sonrakı dövrdə də Azərbaycanın elminin, mədəniyyətinin, iqtisadiyyatının inkişafında böyük nailiyyətlər əldə olunubdur. Ancaq biz o zaman müstəqil, azad olmadıq, öz taleyimizin sahibi olmadıq. Ona görə də indi dövlət müstəqilliyi bizim üçün tarixi nailiyyətdir və onu qoruyub saxlamaq şərəfli vəzifəmizdir.

Altıncı ildir biz bu yolla gedirik. Ancaq bu yolla getməkdə çox maneələrlə də rastlaşmışıq. Azərbaycanın daxilində çox çətinliklər, maneçiliklər vardı. Azərbaycan xalqının birliyi, yekdilliyi, həmrəyliyi nəticəsində və apardığımız düzgün siyasət nəticəsində bu çətinlikləri aradan götürə bildik. İndi Azərbaycanın daxilində ictimai-siyasi sabitlik təmin olunub və iqtisadiyyatda aparılan islahatlar ölkənin iqtisadi böhrandan çıxması üçün müəyyən əsaslar yaradıbdır.

Ancaq bu illərdə Azərbaycanı incidən, onun həyatını zəhərləyən Ermənistanın Azərbaycana etdiyi hərbi təcavüz və bu təcavüz nəticəsində Azərbaycanın torpaqlarının 20 faizinin işğal olunması, işğal edilmiş ərazilərdən bir milyondan artıq vətəndaşımızın qaçqın düşməsidir. Biz bu problemin həll olunmasına çalışırıq. Hesab edirəm ki, son illərdə böyük nailiyyətlərimizdən biri odur ki. biz atəşi dayandırdıq. Üç ildir ki, qan tökülmür. Biz sülh təşəbbüsü irəli sürdük. Bir həftədən sonra üç il tamam olacaqdır ki, atəşkəs haqqında saziş əldə edilib və Azərbaycan bu atəşkəsi qoruyub saxlayır.

Bunun özü böyük nailiyyətdir. Amma eyni zamanda bu, tam sülhə nail olmaq üçün sadəcə olaraq imkandır, şəraitdir. Bu imkandan, şəraitdən səmərəli istifadə etməyə çalışırıq, tam sülh əldə etmək istəyirik. Biz Azərbaycanda, ölkəmizdə, dünyada sülh istəyirik. Mərhum Mustafa Kamal Atatürkün Türkiyəyə aid olan bu sözləri Azərbaycanın bugünkü gününə də aiddir. Biz sülh uğrunda mübarizə apararaq torpaqlarımızı sülh yolu ilə azad etmək, Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini bərpa etmək istəyirik. [289-290]

Bu yolda çox işlər görülübdür. Bu işlərdə Türkiyə daim Azərbaycanla bərabər olub, Azərbaycana daim yardım, kömək edibdir. Əziz dostum Süleyman Dəmirəl bu gün böyük Atatürkün sözlərini bir daha xatırlatdı ki, Azərbaycanın qəmi Türkiyənin qəmidir, Azərbaycanın sevinci Türkiyənin sevincidir. Bizim sözlərlə belə ifadə olunur. Bəli, belədir, biz də belə hesab edirik. Biz istəmirik ki, Türkiyədə qəm olsun. Ancaq Türkiyədə hansı bir qəm olsa o, bizim qəmimizdir. İstəyirik ki, Türkiyədə həmişə sevinc, şadlıq olsun, çünki bu o deməkdir ki, Azərbaycan da sevinəcək, şad olacaqdır.

Beləliklə, biz bir yerdəyik və Ermənistan Azərbaycana qarşı hərbi təcavüzə başlayandan, hələ Azərbaycan öz müstəqilliyini əldə etməzdən əvvəl də Türkiyə Azərbaycanla bərabər olub, Azərbaycanın təcavüz altında qalması ilə əlaqədar öz səsini qaldırıb, dünyaya haray çəkibdir və bizim haqq işimizi həmişə müdafiə edibdir.

1990-cı ilin yanvarında Azərbaycanda müstəqillik yolunda çalışan adamları qırmaq üçün Sovetlər İttifaqının hökuməti ölkəmizə qarşı hərbi təcavüz etmiş, Azərbaycanda yanvar qırğınları, 20 Ocaq adlı faciə baş vermişdi. Türkiyə o vaxt da səsini qaldırmışdı. Mən o vaxt Moskvada yaşayırdım, Türkiyənin qəzetlərini alırdım, radiosunu dinləyirdim, Türkiyənin televiziyası ilə verilən verilişlərdən bilgilər alırdım. O vaxt bu faciə ilə əlaqədar mən dərd içində olanda eyni zamanda fəxr edirdim ki, bizim dostumuz, qardaşımız var. Əgər Sovet İttifaqının hərbi qüvvələri gəlib Azərbaycanın günahsız insanlarını qırıbsa, Türkiyə oradan səsini qaldırıb, mitinqlər, nümayişlər keçirib, "Azərbaycandan əlini çək!" deyibdir.

Biz belə yollar keçmişik və bütün bu yollarda Türkiyə həmişə bizimlə olub, Azərbaycanı dəstəkləyib və bu gün də dəstəkləyir.

İqtisadiyyat sahəsində gördüyümüz işlərdə də Türkiyə-Azərbaycan iqtisadi əlaqələrinin böyük rolu, əhəmiyyəti var. Həqiqətən, son üç ildə Türkiyənin iş adamları Azərbaycanda daha geniş fəaliyyət göstərir və Türkiyə ilə Azərbaycan arasında mal mübadiləsi, ticarət, demək olar, 3 dəfə artıbdır. Şübhəsiz ki, mütləq rəqəmləri götürsək, bu, o qədər də çox deyil, amma hər şey müqayisə ilə ölçülür, müqayisəyə görə bu [290-291] artım da bizi sevindirir. Yəni, bu sahədə də – həm islahatların aparılması, həm iqtisadiyyatın inkişaf etdirilməsi, həm Azərbaycanda bazar iqtisadiyyatının tətbiq olunması, insanların bazar iqtisadiyyatını öyrənməsi sahəsində də Türkiyənin təcrübəsi bizim üçün həmişə çox gərəkli, əhəmiyyətlidir.

İnanırıq ki, sülhsevər ölkə olaraq biz Ermənistanın hərbi təcavüzündən xilas olacağıq. Bu məsələnin sülh yolu ilə həll olunması üçün keçən ilin sonunda Lissabonda ATƏT-in Zirvə görüşündə çox əhəmiyyətli sənəd qəbul edilibdir, məsələnin sülh yolu ilə həllinin prinsipləri qəbul olunubdur. Bu prinsiplərin qəbul olunmasında da biz Türkiyə ilə sıx əməkdaşlıq etmişik. Mənim əziz dostum, prezident Süleyman Dəmirəl Lissabonda daim bizimlə əlaqədə idi, məsləhətləşirdik. Görülən ümumi işlərin, o cümlədən burada iş birliyimizin, əməkdaşlığımızın nəticəsində belə bir mühüm sənədin əldə edilməsinə nail ola bildik.

İndi bu prinsipləri həyata keçirmək lazımdır. Yenə də, başqa dövlətlərlə bərabər, Minsk qrupuna daxil olan dövlətlərlə bərabər, Minsk qrupunun üzvü kimi Türkiyənin də böyük imkanları, rolu var. Biz bu gün danışıqlarda bu məsələləri də müzakirə etdik. Güman edirəm ki, Türkiyə yenə də bizimlə bərabər, Lissabon Zirvə görüşündə əldə olunan prinsiplərin həyata keçirilməsinə çalışacaqdır.

Ermənistanın indiki vəziyyəti və son vaxtlar ona Rusiya tərəfindən çoxsaylı silahlar verilməsi və xüsusən 1 milyard dollar dəyərində müasir silahların verilməsi, şübhəsiz ki, böyük təhlükə doğurur. Bu, bizi sayıqlığa dəvət edir. Amma eyni zamanda mən inanıram ki, Minsk qrupunun həmsədrləri – Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa, Minsk qrupunun üzvləri, o cümlədən xüsusən Türkiyə və başqa dövlətlər bizimlə birlikdə sülh prosesini davam etdirəcəklər və biz Azərbaycanı bu bəladan xilas etməyə nail olacağıq.

Mən əminəm ki, əgər bu işlər istənilən səviyyədə görülsə, 1997-ci ildə sülhə nail olmaq olar və nəhayət, Azərbaycanın işğal edilmiş torpaqları azad ola bilər. Bu gün bu məsələlərin hamısı danışıqlarda müzakirə olunub və iki prezident tərəfindən imzalanmış Türkiyə-Azərbaycan strateji əməkdaşlığının dərinləşdirilməsi haqqında müqavilə gələcək işlərimiz üçün [291-292] gözəl proqramdır. İmzalanmış başqa sənədlər də Türkiyə- Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi üçün yaxşı imkanlar yaradır. Biz bu imkanlardan istifadə etməyə çalışacağıq.

Əziz dostlar, əziz qardaşlar! Bizə göstərdiyiniz bu qonaqpərvərliyə, dost, qardaş münasibətinə görə sizə təşəkkür edirəm. Mənim əziz dostum, qardaşım Süleyman Dəmirəl bu gün böyük bir təşəbbüs göstərmiş, məni Türkiyə Cümhuriyyətinin "Dövlət nişanı" ilə təltif etmişdir. Mən bu gün böyük məmnuniyyətlə "Dövlət nişanı"nı qəbul etdim. Mənim üçün bunun nə qədər böyük şəxsi əhəmiyyəti olduğunu dərk edirəm. Amma eyni zamanda bugünkü bu hadisənin, yəni bu mükafatın Türkiyə-Azərbaycan əlaqələrinin, dostluğunun, qardaşlığının möhkəmlənməsi üçün çox böyük əhəmiyyəti var.

Hesab edirəm ki, Türkiyənin, böyük Mustafa Kamal Atatürk Türkiyəsinin bu ali mükafatı tək mənə yox, bütün Azərbaycan xalqına verilibdir. Bu, Azərbaycan xalqının dövlət müstəqilliyi yolunda nə qədər əzmlə çalışdığına verilən qiymətdir, Azərbaycan xalqının dövlət müstəqilliyini indiyə qədər qoruyub saxlamasına verilən qiymətdir, Türkiyə-Azərbaycan dostluğunun bugünkü nailiyyətlərinə verilən qiymətdir. Mən həm öz adımdan, həm də Azərbaycan xalqı, bütün Azərbaycan vətəndaşları adından bu mükafata görə təşəkkür edirəm. Sizi əmin edirəm ki, Azərbaycan xalqı Türkiyə-Azərbaycan dostluğuna həmişə sadiq qalacaqdır. Dəfələrlə dediyimiz "Biz bir millət, iki dövlətik" sözləri hər bir azərbaycanlının qulağında səslənməlidir. Bu ifadə bizim gələcəyimizin proqramıdır. İndiyə qədər bu fikirlərlə yaşamış millət bundan sonra da həmin fikirlərlə yaşayacaqdır. Azərbaycanda yaşayan bütün azərbaycanlılar Türkiyədə yaşayan qardaşları ilə indiyə qədər bir olublar və bundan sonra da bir olacaqlar.

Sizi əmin edirəm ki, biz Azərbaycanın dövlət müstəqilliyini göz bəbəyimiz kimi qoruyub saxlayacaq və onu heç vaxt əldən verməyəcəyik. Mən sizi əmin edirəm ki, Azərbaycanın dövlət müstəqilliyi sarsılmazdır və dönməzdir. Türkiyə-Azərbaycan dostluğu dövlət müstəqilliyimizi qoruyub saxlamaq üçün bizə həmişə dayaqdır, köməkdir.

Əziz dostum Süleyman bəy, əziz dostlar, qardaşlar! Bu gözəl münasibətə görə sizə bir daha təşəkkür edir, Türkiyə [292-293] Cümhuriyyətinə, xalqına səadət və xoşbəxtlik arzulayır, Türkiyə Cümhuriyyətinin qarşısında duran bütün vəzifələrin yerinə yetirilməsində sizə uğurlar diləyirəm.

Türkiyə Cümhuriyyətinin şərəfinə, Türkiyə xalqının şərəfinə, Türkiyə-Azərbaycan dostluğunun şərəfinə, Türkiyə Cümhuriyyətinin prezidenti Süleyman Dəmirəlin şərəfinə badə qaldırmağı rica edirəm. Yaşasın Türkiyə!

Yaşasın böyük Atatürk yaradan Türkiyə Cümhuriyyəti! Əbədi Türkiyə-Azərbaycan dostluğuna eşq olsun! [293-294]

## ANKARANIN MƏRKƏZİ KÜÇƏLƏRİNDƏN BİRİNƏ – 3-cü CADDƏYƏ AZƏRBAYCAN PROSPEKTİ ADI VERİLMƏSİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ ÇIXIŞ

*6 may 1997-ci il*

Hörmətli prezident, hörmətli cümhur başqanı!

Hörmətli bələdiyyə başqanı, hörmətli nazirlər, Ankara vətəndaşları, əziz dostlar, xanımlar və cənablar!

Bu gün burada, Türkiyə Cümhuriyyətinin paytaxtında, başkəndində əlamətdar hadisə baş verir. Türkiyə-Azərbaycan dostluğunun yeni bir simvolu olan Ankara caddələrindən, küçələrindən birinə Azərbaycan caddəsi, Azərbaycan küçəsi adı verilir. Bu hadisə həm sizin üçün, həm bizim üçün – hamımız üçün birlikdə çox sevindirici haldır və buraya toplaşanları, Türkiyənin, Azərbaycanın bütün vətəndaşlarını bu münasibətlə ürəkdən təbrik edirəm.

Bu qərarı qəbul etmiş böyük Ankara bələdiyyə başqanına və bələdiyyənin bütün böyüklərinin hamısına təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Türkiyə ilə Azərbaycan arasındakı dostluq, qardaşlıq əlaqələrinin böyük tarixi var. Keçmiş zamanlarda, əsrlərdən-əsrlərə xalqlarımız bir-biri ilə sıx bağlı olduğuna görə heç bələdiyyə başqanı olmadan da, hökumətin qərarı olmadan da öz dəyərli yerlərinə, küçələrə, meydanlara öz sevdikləri, bir-birini birləşdirən, bağlayan, bir-birinə daha da yaxınlaşdıran adları veriblər. Bunlar bizim keçmişimizdə xalqlarımızın nə qədər bir olduğunu sübut edir.

Ancaq indi böyük Türkiyə Cümhuriyyəti dünyada özünə layiq yer tutduğuna görə və Azərbaycan xalqı da milli azadlığına, dövlət müstəqilliyinə nail olduğuna görə Türkiyə ilə [294-295] Azərbaycan arasındakı əlaqələr daha da genişlənib və yeni vüsət alıbdır, yeni bir mərhələyə çatıbdır. Buna görə də Azərbaycanda da, Türkiyədə də insanlar, dövlət, hakimiyyət orqanları bu əlaqələrin təsdiqini nümayiş etdirmək üçün belə qərarlar qəbul edirlər.

Mən sizə bildirmək istəyirəm ki, hələ dövlət müstəqilliyi əldə edilmədən, yəni ondan öncə Azərbaycanda xalqımızın Türkiyəyə, Türkiyə Cümhuriyyətinə olan məhəbbəti özünü o qədər büruzə verirdi ki, dövlətin, hökumətin qərarı olmadan insanlar ayrı-ayrı küçələrə Türkiyə ilə əlaqədar adlar verirdilər. Azərbaycanda küçələrin, caddələrin, meydanların bir çoxu böyük öndər Mustafa Kamal Atatürkün adını daşıyır. Bakıda da, Gəncədə də, Naxçıvanda da, Sumqayıtda da, Azərbaycanın başqa şəhərlərində də Türkiyənin rəmzi olan, Türkiyəni nümayiş etdirən adlar geniş yayılıbdır. Bu şəhərlərin əksəriyyətində ən gözəl küçələr indi Mustafa Kamal Atatürkün adını daşıyır.

Bilirsiniz, mən Moskvada yaşayırdım, 1990-cı ildə oradan doğma şəhərim Naxçıvana gələndə keçmişdə Sovetlər Birliyinin böyük şəxsiyyətlərindən birinin adını daşıyan ən böyük küçələrdən birinin Atatürk adını daşıdığını gördüm. Mənim ilk addımlarım o küçəyə oldu, oraya gedib Türkiyəyə və onun böyük şəxsiyyəti Atatürkə hörmət və ehtiramımı bildirdim. Belə küçələr Bakıda da, başqa yerlərdə də var. Bunlar təbiidir, çünki insanların qəlbindəki hisslər çox vaxt dövlətlərin, hökumətlərin qəbul etdikləri qərarlardan güclü olur. Çox vaxt dövlətlər, hökumətlər, hakimiyyət orqanları bu qərarları insanların istəyinə, arzusuna görə edirlər. Bəziləri müəyyən bürokratik səbəblərə görə bunu etmək istəməsə də, xalqın təzyiqinə davam gətirə bilmir və bunu edirlər.

Mən çox sevinc hissi keçirirəm ki, bu gün Türkiyənin başkəndində, paytaxtında, bizim üçün çox əziz olan Ankara şəhərində Azərbaycan caddəsi də yarandı, yəni bu caddə var, Azərbaycan adı aldı. Doğrudur, Azərbaycan caddəsi adı Aşqabat, Bişkek, Düşənbə, Daşkənd, Almatı adlarından sonra verilir, ancaq, yəqin ki, bunun da mənası var. Həmişə ən çox hörmətli, istəkli yer son nömrələrə verilir. [295-296]

Güman edirəm ki, bu qərar, bu hadisə, gözəl mərasim Bakıda, Azərbaycanda böyük sevinc hissi doğuracaqdır. Əminəm ki, bugünkü gün də, indiyə qədər atdığımız addımlar və bundan sonra görəcəyimiz işlər də Türkiyə-Azərbaycan dostluğunu daha da gücləndirəcək, yüksəklərə qaldıracaqdır.

Ankara bələdiyyə başqanının Bakı və Ankara şəhərlərinin qardaşlaşması haqqındakı təklifini məmnuniyyətlə qəbul edirəm. Güman edirəm ki, Bakı şəhərinin başçıları da bu qərarı qəbul edəcəklər. Arzu edirəm ki, tezliklə bu qərarın həyata keçirilməsi də təmin edilsin, Ankara və Bakı şəhərləri əbədi qardaş şəhərlər olsunlar.

Bu gün hava da, günəş də, Azərbaycan caddəsindəki xoş əhval-ruhiyyə də – hamısı Türkiyə-Azərbaycan dostluğuna olan münasibətdir. Məhz belə bir bahar günündə, günəşin gözəl şüaları altında, gözəl əhval-ruhiyyə ilə, insanların sevinci ilə bu caddəyə Azərbaycan caddəsi adının verilməsini məmnuniyyətlə qəbul edirəm və buraya toplaşanlara, Ankaranın bələdiyyə başqanına və mənim əziz dostum, qardaşım, cümhur başqanı Süleyman Dəmirələ hörmət və ehtiramımı, təşəkkürümü bildirirəm.

Bundan sonra Ankaraya gələn hər bir azərbaycanlı bu caddəni ziyarət edəcək, burada görüşlər keçirəcək, Azərbaycanın vətəndaşları bu caddədə yaşayan insanlarla daha sıx əlaqələr quracaqlar və bunlar da Türkiyə-Azərbaycan dostluğunun bir zərrəsi kimi bizi daha da irəli aparacaqdır.

Eşq olsun türk xalqına! Eşq olsun Ankaraya! Eşq olsun Türkiyə-Azərbaycan dostluğuna!

Sağ olun. [296-297]

**AZƏRBAYCAN RESPUBLİKASININ TÜRKİYƏDƏKİ SƏFİRLİYİNİN YENİ BİNASININ TƏMƏLİNİN QOVULMASI MƏRASİMİNDƏ ÇIXIŞ**

*Ankara*

*6 may 1997-ci il*

Hörmətli prezident, əziz dostum və qardaşım Süleyman Dəmirəl!

Hörmətli dostlar, qardaşlar, xanımlar və cənablar!

Biz ikinci gündür ki, Türkiyə xalqının, Türkiyə Cümhuriyyətinin dostpərvərlik və qonaqpərvərlik mühiti içərisindəyik və həddindən artıq sevinirik, məmnunuq. Çünki dostlarımızla, qardaşlarımızla bir yerdə olmaq bizim üçün ən qiymətli hədiyyədir. Bizə göstərilən bu hörmətə görə, bu qonaqpərvərliyə görə, bu hərarətli münasibətə görə təşəkkür edirəm.

Burada, Ankaranın bu gözəl guşəsində Azərbaycan Respublikası səfirliyinin yeni binasının təməli qoyulur. Bu hadisəni Türkiyə Cümhuriyyətinin rəhbərləri o qədər yüksək qiymətləndirirlər ki, bununla əlaqədar belə geniş və təntənəli bir mərasim keçirilir. Mən Azərbaycanın səfirliyinə Ankaranın gözəl bir guşəsində bina yaratmaq üçün qərar qəbul etdiyinizə və yer ayırdığınıza görə sizə təşəkkür edirəm. Mən sizə təşəkkür edirəm ki, bu hadisə bu gün belə təntənəli şəraitdə qeyd olunur.

Azərbaycan ilə Türkiyə arasındakı əlaqələrin tarixində gözəl səhifələr var. Bilirsiniz ki, 1918-ci ildə Azərbaycanda ilk demokratik cümhuriyyət yaranan zaman Türkiyə Azərbaycanın bu hökumətini tanıdı və Türkiyə ilə Azərbaycan arasında dərhal diplomatik əlaqələr quruldu. Elə həmin 1918-ci ildə Türkiyə ilə ilk Azərbaycan Demokratik Respublikası arasında Batumi şəhərində ilk anlaşma imzalandı. 1918-ci ilin may [297-298] ayında Azərbaycan öz demokratik cümhuriyyətinin qurulmasını elan etdi, həmin ilin iyun ayında isə ilk anlaşma imzalandı. Bundan sonra Türkiyədə Azərbaycan səfirliyi açıldı və bu səfirlik Azərbaycanda demokratik cümhuriyyət süquta uğradıqdan sonra da burada fəaliyyət göstərirdi. Azərbaycanın Türkiyədə ilk səfiri Əbilov Böyük Mustafa Kamal Atatürk ilə şəxsi münasibətdə, onun yaxın dostu olmuşdur. Mən bu anları xatırladaraq Türkiyə-Azərbaycan əlaqələrinin çoxəsrlik tarixi ərzində Türkiyə-Azərbaycan diplomatik əlaqələrinin tarixinin də zəngin olduğunu qeyd edirəm.

Türkiyə Cümhuriyyəti də ölkəmiz Sovetlər Birliyinin tərkibində olduğu zaman Azərbaycana daim diqqət göstərib, münasibət göstərib, cürbəcür vasitələrdən istifadə edərək Azərbaycanla əlaqələr yaratmağa çalışıbdır. Xatirimdədir, 70-ci illərdə Sovet İttifaqı ilə Türkiyə arasındakı diplomatik əlaqələr bir balaca genişlənən zaman Türkiyə Cümhuriyyəti Sovetlər Birliyinin paytaxtı Moskvadakı səfirliyindən başqa, Sovetlər Birliyi kimi böyük əraziyə malik olan bir dövlətin şəhərlərindən birində baş konsulluq açmaq təklifi irəli sürmüşdü. Bilirsiniz ki, həmişə diplomatik əlaqələrdə bərabərlik olur. Sovetlər Birliyinin Ankaradakı səfirliyi ilə yanaşı, İstanbulda konsulluğu vardır. Onun müqabilində paritetə görə Türkiyə Cümhuriyyəti də Sovetlər Birliyinin şəhərlərindən birində konsulluq açmaq hüququ əldə etmişdi. Belə bir konsulluq Azərbaycanda açıldı.

Təbiidir ki, Sovet İttifaqının ərazisində türk mənşəli, türk köklü, türkdilli respublika tək Azərbaycan deyildi. Sovet İttifaqında Orta Asiyada Özbəkistan, Qazaxıstan, Türkmənistan, Qırğızıstan kimi Azərbaycana bərabər, yəni eyni hüquqlu müttəfiq respublikalar vardı, onların da paytaxtları vardı. Ancaq Türkiyə Cümhuriyyəti Sovetlər Birliyinin ərazisində paytaxtdan – Moskvadan sonra öz baş konsulluğunu Bakıda açdı. Hesab edirəm ki, bu da tarixin diqqətəlayiq bir səhifəsidir. Fürsətdən istifadə edib, bunu sizin yadınıza salmaq istəyirəm. Azərbaycan dövlət müstəqilliyini əldə edən kimi, Türkiyə Cümhuriyyətinə diplomatik münasibətlər qurmaq barədə müraciət etdi. Deyə bilərəm ki, Türkiyənin baş konsulluğu vaxtilə Bakıda fəaliyyət göstərərkən çox dəyərli işlər gör[298-299]müşdür. Məhz bu konsulluğun əsasında da dərhal Türkiyənin Azərbaycanda səfirliyi, böyük elçiliyi yarandı.

Türkiyə Azərbaycanı müstəqil dövlət kimi birinci tanıyan dünya dövlətidir. Azərbaycan da dövlət müstəqilliyini əldə edən kimi öz səfirliyini, öz böyük elçiliyini birinci növbədə Türkiyədə, Ankarada açdı. Bu tarix Türkiyə ilə Azərbaycanın çox yaxın dost olmasını bir daha nümayiş etdirir, bir daha sübut edir. Bu gün bunları xatırlayaraq bildirmək istəyirəm ki, xalqlarımızın dostluğunun çoxəsrlik tarixi var, eyni zamanda Türkiyə-Azərbaycan diplomatik əlaqələrinin də XX əsrdə, demək olar, çoxillik tarixi var. Biz bu tarixlə, bu hadisələrlə fəxr edirik. Ona görə fəxr edirik ki, Türkiyə bizim üçün ən yaxın, ən dost, ən qardaş ölkədir. İndi Türkiyədə Azərbaycan səfirliyinin, böyük elçiliyinin səmərəli fəaliyyət göstərməsi üçün, onun şəraitinin yaxşılaşdırılması üçün belə bir bina tikilməsinin zəruriliyi meydana çıxıbdır və bu gün biz belə bir binanın təməlini qoyuruq.

Mən sizin hamınızı bu münasibətlə təbrik edirəm və ümidvar olduğumu bildirmək istəyirəm ki, Türkiyə-Azərbaycan əlaqələrinin gözəl gələcəyi var və Türkiyədə Azərbaycan səfirliyi əsrlər boyu yaşayacaqdır. Mən

əminəm ki, Azərbaycanın Türkiyədəki səfirliyi bu imkanlardan səmərəli istifadə edəcək və bizim aramızdakı əlaqələrin inkişaf etdirilməsi üçün səylərini daha da artıracaqdır.

Türkiyə Cümhuriyyətinin Azərbaycandakı səfirliyi, böyük elçiliyi Bakının mərkəzində olan, tarixi-memarlıq abidəsi sayılan bir binada yerləşir. Mən bu gün sizə xatırlatmaq istəyirəm ki, o binanın açılışı mənim əziz dostum, qardaşım, Türkiyənin cümhur başqanı Süleyman Dəmirəlin Azərbaycana ilk səfəri zamanı olubdur və bu, Azərbaycanın həyatında böyük bir əlamətdar hadisə kimi qəbul edilib və tarixə düşübdür.

Türkiyənin Azərbaycandakı səfirliyi genişlənir və biz çox çalışırıq ki, o, daha da geniş olsun, daha da güclü olsun. Mən bildirmək istəyirəm ki, Türkiyənin Azərbaycandakı səfirliyinin fəaliyyəti üçün, istədiyi qədər səmərəli fəaliyyəti üçün Azərbaycanın hər yerində, o cümlədən mərkəzdə, paytaxtımız Bakı şəhərində bütün imkanlar yaradacağıq və o gözəl memarlıq [299-300] abidəsi olan bina, Bakının ən mərkəzində yerləşən bina ilə bərabər, eyni zamanda Bakının gözəl bir guşəsində Türkiyə Cümhuriyyəti səfirliyinin yeni binası ucalacaqdır. O gün olacaqdır ki, biz sizinlə birlikdə o binanın təməlini də qoyacağıq və o bina hazır olandan sonra onun açılışında da bir yerdə olacağıq.

Mən sizi ürəkdən salamlayıram, bu hadisə münasibətilə təbrik edirəm və Azərbaycan Respublikasına göstərdiyiniz bu qayğıya, bu diqqətə, bu hörmətə görə bir daha təşəkkürümü bildirirəm. [300-301]

## TÜRKİYƏ QURU QOŞUNLARI MƏKTƏBİ İLƏ TANIŞLIQ, TƏLƏBƏLƏRLƏ VƏ AZƏRBAYCAN DİASPORUNUN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*Ankara*

*6 may 1997-ci il*

Əziz dostlar, qardaşlar!
Hörmətli nazirlər, komandirlər!
Əziz tələbələr!

Mən sizin hamınızı xalqımız, müstəqil Azərbaycan Respublikası adından ürəkdən salamlayıram. Sizə dərin hörmət və ehtiramımı bildirirəm.

Bu gün mən Türkiyə Cümhuriyyətinin qüdrətli ordusunun quru qoşunları məktəbini ziyarət etməkdən çox məmnunam. Türkiyə Cümhuriyyətinin qüdrətli ordusu bu cümhuriyyəti qoruyub saxlayan, onun müstəqilliyini təmin edən böyük bir qüvvədir. Türkiyə Cümhuriyyəti və onun şöhrətli ordusu böyük öndər Mustafa Kamal Atatürk tərəfindən yaradılıbdır. Nə qədər sevindirici haldır ki, türk xalqı, Türkiyə və onun ordusu 77 ildir öz qurucusu, banisi Mustafa Kamal Atatürkün yolu ilə gedir və qələbələrdən-qələbələrə gəlir.

Mən quru qoşunları məktəbinə, onun komandirlərinə, tələbələrinə yeni uğurlar arzulayıram. Ümidvaram ki, bu məktəb Türkiyə ordusunun gələcəkdə də güclü, yenilməz olmasında öz xidmətlərini göstərəcəkdir. Bu gün mən burada, Türkiyənin quru qoşunları məktəbində Azərbaycan övladlarının da təhsil alması ilə tanış oluram. Çox məmnunam ki, Azərbaycanın bir çox övladı burada təhsil alır. Eyni zamanda, mən Polis Akademiyasının işi ilə tanış oluram. Çox məmnunam ki, Polis Akademiyasında da Azərbaycan övladları təhsil alırlar. [301-302]

Bunlar hamısı müstəqillik yolunda ilk addımlarını atan Azərbaycanın bu günü, gələcəyi üçün Türkiyə Cümhuriyyəti tərəfindən respublikamıza göstərilən böyük yardımdır. Bu yardıma, bu dostluq münasibətinə görə mən sizə – Türkiyə ordusunun quru qoşunları məktəbinin rəisinə və Türkiyə Cümhuriyyətinin prezidentinə təşəkkürümü və minnətdarlığımı bildirirəm.

Burada Türkiyədə yaşayan Azərbaycan diasporunun nümayəndələri çıxış etdilər, söz dedilər və Azərbaycanla bağlı öz hissiyyatlarını, respublikamızın bu günü, gələcəyi barədə öz arzularını bildirdilər.

Əziz dostlar, qardaşlar, mən sizə təşəkkür edirəm. Siz azərbaycanlı olaraq, Azərbaycan mənşəyinə mənsub olaraq eyni zamanda türksünüz, Türkiyə vətəndaşısınız. Siz Türkiyədə doğulmusunuz, böyümüsünüz, Türkiyənin ab-havası ilə yaşamısınız. Türkiyədə özünüzə məkan, vətən tapmısınız. Bizim xalqımız, millətimiz birdir. Sadəcə, ərazilərimiz bir-birindən ayrıdır. Bizim iki dövlətimiz, bir xalqımız var. Buna görə də Türkiyədə yaşayan azərbaycanlı da türkdür, azərbaycanlıdır, Azərbaycanda yaşayan türk də türkdür və azərbaycanlıdır.

Bizim bu əlaqələrimiz sarsılmaz tellərlə bir-birinə bağlıdır, əsrlərdən-əsrlərə böyük imtahanlardan, sınaqlardan keçibdir. Əminəm ki, bizim bu dostluq, qardaşlıq əlaqələrimiz heç vaxt sarsılmayacaqdır, əbədi, daimi olacaqdır.

Azərbaycan gənc müstəqil dövlətdir. Gənc müstəqil dövlətin hər bir dövlət atributu olmalıdır, milli ordusu, polisi olmalıdır. Bunlar yaranıb və yaranır. Təəssüflər olsun ki, Azərbaycan dövlət müstəqilliyini əldə edən zaman çox ağır bir şərait içərisində olubdur. Ermənistanın Azərbaycana etdiyi hərbi təcavüz nəticəsində respublikamız daim müharibə, döyüş içərisində olubdur. Azərbaycan torpaqlarının 20 faizi cürbəcür səbəblərdən Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilibdir. İşğal olunmuş ərazimizdən 1 milyondan çox Azərbaycan vətəndaşı doğma torpaqlardan zorla çıxarılıb, onlar qaçqın, köçkün vəziyyətində, ağır şəraitdə yaşayırlar. Bu, Azərbaycanın ağır dərdidir, problemidir.

Biz bu məsələni sülh yolu ilə həll etmək istəyirik. Üç il bundan əvvəl Ermənistan-Azərbaycan müharibəsində atəşkəs [302-303] haqqında saziş əldə edilmişdir. Biz bu atəşkəsi qoruyub saxlayırıq. Biz bu münaqişəni sülh yolu ilə aradan götürüb Azərbaycanın ərazi bütövlüyünü, tam suverenliyini təmin etmək istəyirik. Buna görə də Azərbaycanın güclü ordusu, polisi, dövlət orqanları olmalıdır. Biz bunları ağır, çətin şəraitdə yaradırıq. Xaricdən olan cürbəcür təxribatlar və təcavüz şəraitində yaradırıq. Azərbaycanın daxilində olan cürbəcür qarışıqlıqlar, çarpışmalar, hakimiyyət mübarizəsi şəraitində yaradırıq. Biz bunları belə bir ağır şəraitdə yaratmışıq və yaradırıq.

Əziz dostlar, qardaşlar, əziz azərbaycanlı tələbələr, mən sizə bildirirəm ki, indi müstəqil Azərbaycan Respublikası artıq qüdrətli bir dövlətdir, Dünya Birliyində özünə layiq yerini tutubdur, öz müstəqilliyini qoruyub saxlayır və bundan sonra da qoruyub saxlamağa qadirdir. Azərbaycan Respublikasının daxilində tam sabit ictimai-siyasi vəziyyət, əmin-amanlıq yaranıbdır.

Biz sülh istəyirik. Atatürkün böyük sözləri var: "Cahanda sülh, yurdda sülh, bölgədə sülh". Biz bu sözləri bu gün də deyərək, eyni zamanda bu fikirlərlə yaşayırıq, bu siyasəti aparırıq. Amma təkcə Azərbaycanda yox, Türkiyə Cümhuriyyəti də daxil olmaq şərti ilə, bütün bölgədə, Qafqazda sülh əldə etmək və Azərbaycanın müstəqilliyini qorumaq, respublikamızın işğal olunmuş torpaqlarını Ermənistan silahlı qüvvələrindən azad etmək üçün bizə güclü ordu lazımdır. Belə bir güclü ordu yaranır, yaranıb və yaranacaqdır. Belə bir güclü ordunun yaranmasında da bizə yüksək səviyyəli zabit kadrları, əsgərlər lazımdır.

Burada bir çox azərbaycanlı tələbələr təhsil alırlar. Mən bundan çox məmnunam. Ümidvar olduğumu bildirmək istəyirəm ki, onlar həqiqətən yüksək təhsil alıb Azərbaycana dönəcəklər. Ancaq bizim ordumuzun tələbatı bundan qat-qat artıqdır, bundan daha da çoxdur. Biz bundan sonra da Türkiyənin yüksək hərbi məktəblərindən istifadə edəcəyik. Azərbaycanda milli ordunun, polisin yaradılması, yüksək səviyyəli kadrların hazırlanması üçün sizin yardımınızdan istifadə edəcəyik. Əminəm ki, siz bizə bu yardımı etməkdən imtina etməyəcəksiniz. [303-304]

Mən üzümü burada təhsil alan Azərbaycan övladlarına tutaraq deyirəm: Əziz balalarımız, siz burada təhsil alıb Azərbaycana dönəcəksiniz, Azərbaycanın ordusunda, polisində xidmət edəcəksiniz. Əminəm ki, burada aldığınız təhsil gələcəkdə xidmət edəcəyiniz yerlərdə sizə uğurlar gətirəcəkdir. Siz uğurla çalışacaqsınız, xalqınıza, millətinizə və vətəniniz Azərbaycana xidmət göstərəcəksiniz.

Şübhəsiz ki, burada hər bir şeyi öyrənmək lazımdır. Amma Türkiyə xalqından, ordusundan, türk əsgərindən vətəni sevməyi, vətənə sadiq olmağı, milləti sevməyi öyrənmək lazımdır. Mən bunu ona görə deyirəm ki, Türkiyə Cümhuriyyətinin ən böyük nailiyyətlərindən biri odur ki, onun çox güclü, qüdrətli ordusu vardır. Bir ona görə yox ki, onun güclü silahı var, çoxsaylı ordusu var. Ona görə ki, türk ordusu, əsgəri yüksək mənəviyyatlı, vətənpərvər, vətəninə, millətinə, cümhuriyyətinə, Atatürkün qoyduğu yola sadiqdirlər. Bu, Türkiyə ordusunun qüdrəti, Türkiyə ordusunun gücüdür.

İstəyirəm ki, Azərbaycan övladlarımız burada bu qabiliyyəti əldə etsinlər, bu səviyyəyə çatsınlar, Azərbaycanı – vətəni, torpağı canı, qanı qədər sevməyə qadir olsunlar. Burada – bu hissiyyatları daha yüksəyə qaldırmaq üçün çox gözəl şərait vardır.

Mən türk əsgərinin bu yüksək keyfiyyətlərinə heyranam. Türkiyə Cümhuriyyətinin qüdrətini, torpaqlarını, dövlətini, müstəqilliyini qoruyan, şəhid olan türk əsgərinin ruhu qarşısında baş əyirəm. Türkiyə ordusuna, əsgərinə bundan sonra da yeni uğurlar arzulayıram.

Azərbaycan övladlarının burada Türkiyə övladları ilə bir yerdə təhsil alması, yaşaması, olması, eyni zamanda Türkiyə-Azərbaycan dostluğuna göstərilən xidmətdir, addımdır. Biz Türkiyə-Azərbaycan dostluğunu çox yüksək qiymətləndiririk. Azərbaycanda Türkiyəyə olan sevgi-məhəbbət hədsiz-hüdudsuzdur. Bu gün Azərbaycan xalqının bu sevgi-məhəbbətini Türkiyəyə bir daha çatdıraraq deyirəm ki, Türkiyə-Azərbaycan dostluğu əbədidir, sarsılmazdır.

*Yaşasın Türkiyə Cümhuriyyəti!*

*Yaşasın qüdrətli türk ordusu!*

*Yaşasın əbədi Türkiyə-Azərbaycan dostluğu!* [304-305]

## TÜRKİYƏNİN BİLKƏND UNİVERSİTETİNDƏ ÇIXIŞ

*Ankara*

*6 may 1997-ci il*

Əziz dostum, qardaşım, hörmətli İhsan Doğramacı!
Hörmətli dostlar, xanımlar və cənablar!

Bu gün yenidən Bilkənddə hörmətli Doğramacının qonağı olmağımdan çox məmnunam və mənə göstərilən bu diqqət və qayğıya görə təşəkkür edirəm.

İhsan Doğramacı çox böyük, nadir şəxsiyyətdir, Türk dünyasının görkəmli oğludur. Eyni zamanda bizi sevindirən, bizdə iftixar hissi doğuran odur ki, Doğramacı dünya miqyasında böyük şəxsiyyətdir və türkün, türk xalqının nə qədər yüksəklərə qalxa bilməsini, nə qədər böyük zəkaya, fəaliyyətə malik ola bilməsini dünyaya nümayiş etdirən bir insandır. Ona görə də hər dəfə bu böyük şəxsiyyətlə görüşmək mənim üçün bayramdır, mənə böyük sevinc hissi gətirir.

Eyni zamanda Doğramacı Türkiyə ilə Azərbaycan arasındakı dostluq, qardaşlıq əlaqələrinin inkişaf etdirilməsində əvəzsiz xidmətlər göstərir. Bu, onun vəzifəsi deyil, qəlbindən, içindən, ürəyindən gələn hissiyyatlardır, onun mənəviyyatıdır. Bu onu göstərir ki, Allah-təala belə bir insanı yaradarkən ona belə yüksək fəaliyyətlər bəxş edibdir ki, o, bunları xalqın, millətin, insanın inkişafına həsr edir. Yenə də deyirəm, Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin inkişafında əziz dostum Doğramacının fəaliyyəti hədsiz-hüdudsuzdur. Ancaq o, bunu həm Türkiyəni və Azərbaycanı çox istədiyinə görə, həm də türk dünyasını həddindən çox sevdiyinə və türk dünyasının yüksəlməsinə, inkişafına xidmətini öz həyatının mənası kimi hiss etdiyinə görə edir. [305-306]

Əziz dostum, bu böyük fəaliyyətinizə görə, dünya miqyasında Türk xalqının, millətinin, türkdilli xalqların elmdə, mədəniyyətdə, birlikdə görkəmli yer tutması üçün göstərdiyiniz böyük xidmətlərə görə sizə təşəkkür edirəm. Azərbaycan xalqı sizə bir də ona görə minnətdardır ki, burada, Bilkənddə Azərbaycanın görkəmli alimlərini, sənət ustalarını – bəstəkarları, musiqiçiləri, sənətçiləri başınıza toplayıb onlara atalıq qayğısı göstərərək yaradıcılıq fəaliyyətinin inkişaf etməsi üçün yardımlar etmisiniz. Eyni zamanda onların burada sizinlə birlikdə əməkdaşlığı Bilkəndin simasının da yüksəlməsinə kömək edibdir. Ona görə də mən keçən dəfələr də buraya gələrkən Azərbaycan alimlərini, sənətçilərini burada görüb sevinmişəm ki, onlar sizin ətrafınızdadır. Ona görə sizin ətrafınızdadır ki, siz onları sevirsiniz, onlar da sizi sevirlər. Bu əlaqələr yalnız və yalnız sevgi və məhəbbət əsasında qurulur. Burada heç bir başqa əsas, başqa təmənna yoxdur.

Hörmətli dostum, sizin yaratdığınız Türkiyə-Azərbaycan vəqfi ölkələrimizin əlaqələrində görkəmli hadisədir. Hesab edirəm ki, siz tarixi addım atmısınız, çox dəyərli iş görmüsünüz. Ümidvaram ki, bu vəqf fəaliyyətini gündən-günə genişləndirəcək və Türkiyə-Azərbaycan əlaqələrinin daha sürətlə inkişaf etməsi üçün öz xidmətlərini göstərəcəkdir.

Siz mənə böyük etimad, böyük şərəf göstərmisiniz – əziz dostum, qardaşım, Türkiyənin cümhur başqanı Süleyman Dəmirəl ilə bərabər məni bu vəqfin başqanı seçmisiniz. Mən həyatımda bir çox yüksək qurumlara, vəzifələrə seçilmiş bir adamam. Həyatımda belə hadisələri çox görmüşəm. Ancaq əziz dostum Süleyman Dəmirəl ilə bərabər bu vəqfə başqan seçilməyimi xüsusi qiymətləndirirəm.

Sizin pediatriya sahəsində, çocuqların, uşaqların sağlamlığının qorunması sahəsində fəaliyyətiniz çox qiymətli, dəyərlidir, dünyada məşhurdur. Hamımız bilirik ki, siz dünyanın nə qədər böyük səhiyyə, pediatriya təşkilatlarının üzvü, fəxri üzvüsünüz və daim onların işində iştirak edirsiniz. İndi, türk dövlətlərinin, respublikalarının, cümhuriyyətlərinin pediatriya sahəsində çalışan alimlərinin, həkimlərinin bir araya toplanması sahəsində gördüyünüz iş də çox yüksək qiymətə layiqdir. Bu ilin sentyabrında, yəni eylül ayında Azərbaycanda bu tədbiri ke[306-307]çirməyinizi mən bəyənir, alqışlayıram. Sizi əmin edirəm ki, Azərbaycanda keçirəcəyiniz bu toplantı indiyə qədər keçirdiyiniz bütün toplantılardan daha yüksək səviyyədə olacaqdır.

Sizin öz həmvətənlərinizə, türkmənlərə göstərdiyiniz qayğı təbiidir. Çünki onlar sizin həmvətənlərinizdir, bizim həmvətənlərimizdir. Ancaq eyni zamanda bu, sizin nə qədər böyük insan olduğunuzu göstərir. Mən iki gəncin burada şərqi söyləməsinə, mahnılarla çıxış etməsinə çox sevindim. Birincinin türkmən dilində çıxışı, ikincinin müasir, klassik Avropa musiqisini ifa etməsi çox sevindirici haldır.

Mən sizinlə bərabər sevinirəm ki, orada türkmən diyarında məktəblər açmısınız, çocuqları öz dillərində təhsilə cəlb edirsiniz. Mən bilirəm, bu nədir. Çünki Azərbaycan xalqının da XX əsrin əvvəlində öz dilində məktəbi yox idi. Ancaq məktəblər açıldı, indi Azərbaycan xalqı tam, başdan-başa təhsil almış millətdir. Ancaq ürək ağrısı ilə deyirəm ki, dünyanın başqa bölgələrində çoxsaylı, on milyonlarla azərbaycanlılar yaşayır ki, hələ öz dilində təhsil almaq imkanına malik deyillər. Gün o gün olar ki, onlar da öz dillərində məktəblər açacaq, öz dillərində kitablar oxuyacaq, təhsil alacaqlar.

Türkmən dili ilə Azərbaycan dili arasında heç bir fərq yoxdur. Mən 70-ci illərin əvvəllərində türkmənlərlə Bakıda çox görüşmüşəm. Orada məşhur yazıçı-şair var – Bəndəroğlu, tanıyırsanmı? Bakıya gəlirdi, bir neçə dəfə görüşmüşdüm. İraqdan gəlmişdi, elə bizim kimi, Azərbaycan dilində danışırdı. Deyirdim ki, sən buradan getmisən, orda yaşayırsan? Deyirdi, yox, mən türkmənəm. Bu dildə heç bir fərq yoxdur. Ona görə də sən də, mən də çox böyük sevinc və sövq ilə oxuyuruq ki, "Samovara od salmışam, küçələrə su səpmişəm, yar gələndə toz olmasın, elə gəlsin, elə getsin, aramızda söz olmasın".

Çox sağ olun, sevimli xanımınızla, oğlunuzla, bütün ailənizlə birlikdə sizə cansağlığı, uzun ömür, xoşbəxtlik arzu edirəm. Çox sağ olun, təşəkkür edirəm. [307-308]

**TÜRKİYƏDƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ**

*Ankara*

*6 may 1997-ci il*

Hörmətli millət vəkilləri, hörmətli dostlar, qardaşlar, mətbuat nümayəndələri!

Mən sizi, Türkiyə Böyük Millət Məclisinin millət vəkillərini ürəkdən salamlayır və Azərbaycan xalqının sizə, Türkiyə Böyük Millət Məclisinə, Türkiyə Cümhuriyyətinə hörmət və ehtiramını, sevgi və məhəbbətini çatdırıram.

Türkiyənin Böyük Millət Məclisində xitab etmək üçün mənə verilən bu imkana görə, göstərdiyiniz şərəfə görə təşəkkür edirəm.

Bildiyiniz kimi, Türkiyənin prezidenti cənab Süleyman Dəmirəlin dəvəti ilə mən ündən Türkiyəyə rəsmi səfərə gəlmişəm. Dünən, bu gün çox səmərəli, əhəmiyyətli görüşlərimiz, danışıqlarımız olmuşdur. Hesab edirəm ki, bu görüşlər, danışıqlar nəticəsində və imzalanmış sənədlərlə əlaqədar olaraq Türkiyə-Azərbaycan dostluq və qardaşlıq əlaqələri yeni bir mərhələyə çatıb, bizim dostluq, qardaşlıq tariximizdə yeni səhifələr açılıbdır.

Dünən biz danışıqlarımız, görüşlərimiz nəticəsində 8 müqavilə imzaladıq. Onların hər birinin özünəməxsus əhəmiyyəti var. Ancaq eyni zamanda onların içərisində Türkiyə ilə Azərbaycan arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında iki prezident tərəfindən imzalanan bəyannamə, anlaşma çox tarixi sənəddir və indiyə qədər olan əlaqələrimizi yeni yüksək səviyyəyə çatdırır, bu əlaqələrə daha geniş, siyasi məna verir. [308-309]

Mən bütün bu sənədlərin imzalanmasından çox məmnunam, xüsusən Türkiyə ilə Azərbaycan arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında müqavilənin imzalanmasından çox razıyam. Sizi əmin etmək istəyirəm ki, biz, Azərbaycan tərəfi bu müqavilələrin və indiyə qədər imzalanmış bütün müqavilələrin həyata keçirilməsinə çalışacağıq. İndiyə qədər Türkiyə ilə Azərbaycan arasında imzalanmış bütün müqavilələrin, sazişlərin, sənədlərin hamısına Azərbaycan dövlətinin sadiqliyini bir daha bəyan edir və əmin edirəm ki, biz bundan sonra da onların yerinə yetirilməsi üçün səy göstərəcəyik.

Türkiyənin Böyük Millət Məclisi böyük tarixə malik olan parlamentdir. Biz keçmiş zamanlarda da, bu gün də qardaş türk xalqının hələ 77 il bundan öncə belə bir parlament, Böyük Millət Məclisi yaratmasını həmişə yüksək qiymətləndirmişik və mən bu gün də Türkiyə Böyük Millət Məclisinin keçdiyi tarixi yola, Türkiyə xalqının tarixində və həyatında göstərdiyi xidmətlərə, əldə etdiyi nəticələrə öz hörmət və ehtiramımı bildirirəm. Türk xalqı Şərq bölgəsində, müsəlman ölkəsində Avropa ilə Asiyanın, Qərblə şərqin bir-birinə qovuşduğu yerdə hələ XX əsrin əvvəlində demokratik prinsiplərə, qanun-qaydalara, hüquqa, bərabərliyə, azadlığa qovuşan bir xalqdır. Ona görə də o dövrdə Türkiyədə Böyük Millət Məclisinin yaranması təkcə Türkiyə üçün yox, Türk dünyası, o cümlədən müsəlman ölkələri, Şərq ölkələri üçün mühüm hadisədir.

Türkiyənin Böyük Millət Məclisi böyük öndər Mustafa Kamal Atatürkün, onun silahdaşlarının, həmkarlarının səyləri nəticəsində o dövrdə Türkiyədə xalqı daha da irəli aparmaq, mədəniyyətə, demokratiyaya qovuşdurmaq istəyən mütəfəkkir adamların səyləri nəticəsində yaranmışdır. Ancaq ən böyük xoşbəxtlik ondan ibarətdir ki, Böyük Millət Məclisi 77 ildir ki, fəaliyyət göstərir, böyük sınaqlardan keçib, tutduğu yolla inamla gedir və Türkiyənin dünya miqyasında layiqli yer tutması üçün çox böyük işlər görmüş, böyük xidmətlər göstərmişdir.

Biz keçmiş zamanlarda, Sovet hakimiyyəti çərçivəsində, Sovetlər Birliyi dövlətində yaşadığımız zaman da mətbuatdan, kitablardan, qəzetlərdən Türkiyənin həyatı ilə daim maraqlanırdıq. Bizim marağımız Türkiyə ilə Azərbaycanın bir-birinə [309-310] bağlılığı, qardaşlığı idi. Amma hər dəfə maraqlanarkən Türkiyə Böyük Millət Məclisinin fəaliyyəti haqqında dünya mətbuatında verilən məlumatlar bizi heyran edirdi. Ona görə heyran edirdi ki, Türkiyə qüdrətli dövlət kimi özünə layiq olan parlamentə də malik idi.

Bilirsiniz ki, Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra, 1995-ci ilin sonunda demokratik prinsiplər, çoxpartiyalı sistem əsasında ilk parlament seçilib, indi fəaliyyətdədir. Burada, bu salonda Azərbaycan parlamentinin 17 millət vəkili iştirak edir. Azərbaycanın parlamenti Türkiyə Böyük Millət Məclisinin təcrübəsindən indiyə qədər də bəhrələnib və bundan sonra da bəhrələnəcəkdir.

Hesab edirəm ki, Böyük Millət Məclisinin təcrübəsi təkcə Azərbaycan üçün yox, demokratiya, müstəqillik yolu ilə gedən digər yeni dövlətlər üçün, o cümlədən türkdilli, türk köklü dövlətlər üçün də çox böyük məktəbdir, mənbədir. Hesab edirəm ki, siz də bu təcrübənizi paylaşmaqda heç vaxt çəkinməyəcək, həm Azərbaycanın, həm də digər ölkələrin parlamentlərinə əlinizdən gələn yardımı edəcəksiniz.

Türkiyə Cümhuriyyətinin və Böyük Millət Məclisinin tarixi eynidir. İndi, XX əsr sona çatarkən və biz XXI əsrə doğru gedərkən Türkiyə Cümhuriyyətinin yaranmasının və onun keçdiyi tarixi yolun dünya üçün, xüsusən Türk dünyası, türkdilli dövlətlər üçün nə qədər əhəmiyyətli olduğunu daha dərindən dərk edirik. Bu gün sizin

kimi, biz də Türkiyə Cümhuriyyətinin banisi, böyük Mustafa Kamal Atatürkün Türkiyə Cümhuriyyətinin yaranmasında və bu Cümhuriyyətin ayağa durmasında, inkişaf etməsində, Türkiyəni qüdrətli dövlət etməsində, Türkiyə Böyük Millət Məclisinin bu qədər yüksək səviyyədə olmasında xidmətlərini xüsusi qeyd edirik. Dünən səhər mən Mustafa Kamal Atatürkün qəbrinin ziyarəti zamanı etdiyim kimi, bu gün də deyirəm ki, onun ruhu, xatirəsi qarşısında baş əyirəm.

Türkiyə Azərbaycanın yaxın dostudur, qardaşıdır, bizim üçün ən yaxın ölkədir. Türkiyə ilə Azərbaycan arasında, türk xalqı ilə Azərbaycan xalqı arasında əlaqələrin qədim və çox zəngin tarixi var. Biz əsrlərdən-əsrlərə keçərək bir yerdə yaşamış, ölkəmizi, millətimizi, dinimizi, dilimizi, milli ənənə[310-311]lərimizi qorumuşuq, saxlamışıq və bu gün də bir yerdəyik. Azərbaycan xalqı Türkiyə ilə dostluğunu böyük səadət hesab edir. Türkiyə ilə indiyə qədər olan əlaqələrin daha yüksəklərə qalxmasına çalışırıq.

Tarixi köklərimiz sizin üçün də, bizim üçün də əzizdir. Bizim üçün Yunis İmrə də, Dədə Qorqud da, Manas da, Füzuli də, Nizami də əzizdir. XX əsrdə yazıb-yaratmış şəxsiyyətlər də, o cümlədən Tofiq Fikrət də, Rəşad Nuri də və Azərbaycan xalqının XX əsrdə yetirdiyi böyük yazıçılar, şairlər, bəstəkarlar, alimlər də əzizdir. Məhz bunlar – xalqlarımızın qabaqcıl, mütəfəkkir adamları bizi həmişə bir-birimizlə bağlayıb, bir-birimizlə birləşdiriblər.

XX əsrdə həm Türkiyənin, həm də Azərbaycanın həyatında çox ciddi proseslər, dəyişikliklər gedibdir. Türkiyədə imperatorluq dağılmış, Türkiyə ağır vəziyyətə düşmüşdü. Ancaq, yenə də qeyd edirəm, dağılmış Türkiyə imperatorluğunun yerində məhz Mustafa Kamal Atatürkün müdrikliyi ilə Türkiyə Cümhuriyyəti yarandı.

XIX əsrin əvvəlində Azərbaycanın dövlət müstəqilliyi əldən getdi. XX əsrin əvvəlində – 1918-ci ildə Azərbaycanda ilk Demokratik Respublika yarandı, ancaq o az yaşadı, sonra Sovet hakimiyyəti qurulması ilə əlaqədar bu cümhuriyyət süquta yetdi. Bu illərdə – Birinci dünya müharibəsi zamanı və ondan sonrakı dövrdə Türkiyənin həyatında həm çox böyük, ağır, çətin proseslər, həm də döyüşlər gedibdir. Qafqazda da, Azərbaycanda da döyüşlər gedibdir.

Azərbaycan 1918-1920-ci illərdə böyük təhlükələr altında olubdur. Cürbəcür istiqamətlərdən olan təzyiqlər, Bakı neftini ələ keçirmək cəhdləri Azərbaycan xalqına böyük zərbələr vurubdur. O illərdə – 1918-1920-ci illərdə Azərbaycana ən ağır zərbələr, yaralar Bakıda, Gəncədə, Qarabağda, Naxçıvanda, ölkənin başqa yerlərində ermənilərin törətdikləri qırğınlarla əlaqədar olubdur. O illərdə Türkiyə bizimlə, Azərbaycanla olubdur. Türkiyənin rəşadətli oğulları, Türkiyənin Qafqaz Ordusu Azərbaycana gəlib və bir çox yerlərdə xalqımızı ermənilərin törətdiyi qırğından xilas edibdir. Biz bunları heç vaxt unutmamışıq və unutmayacağıq. [311-312]

Sonra isə biz 70 il bir-birimizdən aralı düşmüşük. Ancaq bu dövrdə Türkiyə bir cümhuriyyət, müstəqil dövlət kimi inkişaf edib, Azərbaycan isə müstəqilliyini itirib, Sovetlər Birliyinin tərkibində olubdur. Bizi çox şeylərdən məhrum etməyə çalışıblar. Ancaq heç bir şey mümkün olmayıbdır. Yəni bizim kökümüzdən gələn milli mənəviyyatımız, dəyərlərimiz yaşayıbdır. Bu gün bunu böyük iftixar hissi ilə deyirəm, çünki mən burada müstəqil Azərbaycanı təmsil edirəm – XIX əsrdə də, XX əsrdə də nə qədər ağır çətinliklər olubsa da, biz ana dilimizi, doğma dilimizi də, İslam dinimizi də, milli ənənələrimizi, dəyərlərimizi də yaşatmışıq. Eyni zamanda bu illərdə xalqımız yüksək təhsil alıb, mədəniyyətə qovuşubdur. İndi Azərbaycan xalqı yüksək mədəniyyətə, elmə, biliyə malik olan xalqdır və milli-mənəvi dəyərlərimizin ümumbəşəri, ümumdünya dəyərləri ilə birləşməsi, sintezi xalqımızın simasını təşkil edir. Ona görə də indi Azərbaycan milli, eyni zamanda dünyəvi, sivilizasiyalı ölkədir.

Biz bu illəri yaşamışıq, keçmişik. İtkilər vermişik, zərbələrə məruz qalmışıq. Lakin hamısına dözmüşük. Amma ən böyük xoşbəxtlik ondan ibarətdir ki, nəhayət, Azərbaycan milli azadlığına, dövlət müstəqilliyinə nail olubdur və dövlət müstəqilliyini də möhkəmləndirib, gücləndiribdir. İndi Azərbaycan Dünya Birliyinə daxildir, beynəlxalq təşkilatların hamısının üzvüdür, Dünya Birliyinin bərabərhüquqlu dövlətidir. Azərbaycanın dövlət müstəqilliyi xalqımızın tarixi nailiyyətidir, biz bununla fəxr edirik və dövlət müstəqilliyini göz bəbəyi kimi qoruyub saxlayacağıq. Nə qədər çətin olsa da, nə qədər təzyiqlər olsa da biz dövlət müstəqilliyimizi heç vaxt əlimizdən verməyəcəyik. Sizin qarşınızda məsuliyyətlə bəyan edirəm ki, Azərbaycanın dövlət müstəqilliyi əbədidir, dönməzdir, sarsılmazdır.

Azərbaycan dövlət müstəqilliyini əldə edərkən çox çətin proseslərlə rastlaşıbdır. Bildiyiniz kimi, 1988-ci ildə, Azərbaycanın hələ Sovetlər Birliyinin tərkibində olarkən Ermənistan tərəfindən Azərbaycana qarşı hərbi təcavüz başlanmışdır. Dağlıq Qarabağı Azərbaycandan qoparıb Ermənistana birləşdirmək cəhdi ancaq təkcə Azərbaycana qarşı olan təcavüz [312-313] deyildir. Ermənilərin xülyası "Böyük Ermənistan" xülyasıdır. Bu xülya sizə məlumdur, bunu yaxşı bilirsiniz.

Siz bilirsiniz ki, İkinci dünya müharibəsindən sonra Sovetlər Birliyi gücləndi və Türkiyənin torpaqlarına iddialar başlandı. Bir tərəfdən Sovetlər Birliyi Türkiyənin şərqində olan vilayətlərin Ermənistana mənsub olduğunu bəyan etdi, belə yazılar getdi, belə iddialar başlandı. İkinci tərəfdən Türkiyənin digər hissəsinin Gürcüstana mənsub olması haqqında bəyanatlar, yazılar verildi. Belə proseslər, bu cür iddialar başlandı.

İndi bu fürsətdən istifadə edərək onu da demək istəyirəm ki, İkinci dünya müharibəsindən sonra Türkiyənin başında duran adamlar böyük Atatürkün vəsiyyətlərinə sadiq olaraq çox düzgün xarici siyasət apardılar və o

çətin dövrdə, Türkiyənin torpaqlarına qızğın iddialar qalxdığı bir dövrdə Türkiyənin başçıları xalqı, dövləti, ölkənin bütövlüyünü qoruyub saxlaya bildilər.

Yəni demək istəyirəm ki, 1988-ci ildə Azərbaycanın Dağlıq Qarabağ vilayətini ələ keçirmək üçün Ermənistanın başladığı təcavüz təsadüfi bir şey deyildi. Yenə də deyirəm, bu, "Böyük Ermənistan" xülyasıdır. Onlar bu iddialarla yaşayıblar və bu gün də yaşayırlar. Əgər indi Azərbaycana təcavüz ediblərsə, sabah başqa bir yerə təcavüz edə bilərlər. Çünki onlar bu hisslərdən çəkinməyiblər. Ancaq mən Azərbaycanda gedən proseslər haqqında demək istəyirəm. Müstəqilliyimizi əldə edəndə biz belə bir təcavüz altında idik və Dağlıq Qarabağ, demək olar, Azərbaycanın hakimiyyətindən çıxmışdı. Bundan sonra Azərbaycanda gedən bəzi proseslər, bəzi obyektiv və subyektiv səbəblər nəticəsində Ermənistan silahlı qüvvələri torpaqlarımızın digər bir hissəsini də işğal etməyə nail oldular. İndi Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Bu torpaqlardan bir milyondan artıq Azərbaycan vətəndaşı, sizin qardaş-bacılarınız didərgin düşüb, qaçqın vəziyyətindədir, əksəriyyəti çadırlarda yaşayırlar. Sizin nümayəndələriniz Azərbaycanı ziyarət edərkən hətta Bakı şəhərində cürbəcür yerlərdə o qaçqınları görəndə, bəziləri isə çadır düşərgələrinə, şəhərciklərinə gedib onların çətin vəziyyətini görəndə qəlbləri ilə hiss ediblər ki, xalqımız nə qədər ağır vəziyyətdə yaşayır. [313-314]

Beləliklə, biz dövlət müstəqilliyini əldə edəndə çox şad olduq. Ancaq eyni zamanda nə qədər böyük bəla ilə rastlaşdıq. Bildiyiniz kimi, üç il bundan öncə, 1994-cü ilin mayın 12-də – bir həftədən sonra üç ili tamam olacaq – Azərbaycan ilə Ermənistan arasında atəşin dayandırılması haqqında saziş əldə edilibdir. Üç ildir ki, atəş yoxdur. Bu, böyük nailiyyətdir – qan tökülmür, şəhidlər vermirik, insanlarımız müəyyən qədər rahatlaşıbdır. Ancaq verdiyimiz şəhidlərin qəm-qüssəsi, insanların həm vücudunda, bədənində, həm də qəlbində olan yaralar bizi daim incidir.

Atəşkəsin üç ildir davam etməsi müsbət bir hal olmaqla bərabər, eyni zamanda böyük sülh əldə olunması, Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulması və Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsi, didərgin düşmüş Azərbaycan vətəndaşlarının öz yerinə-yurduna qayıtması qarşımızda duran əsas vəzifədir. Bilirsiniz ki, biz bu məsələ ilə məşğul oluruq. Böyük məmnuniyyət hissi ilə sizə demək istəyirəm ki, Azərbaycana qarşı Ermənistanın təcavüzü başlayandan indiyə qədər Türkiyə, onun xalqı, Türkiyə dövləti, Türkiyə Cümhuriyyəti Azərbaycanın yanındadırlar, Azərbaycanla bir yerdədirlər. Siz bizim dərdimizə həmişə şəriksiniz və bu məsələnin həllində Türkiyənin dəstəyini, əməli qayğısını daim hiss etmişik və hiss edirik.

Son üç ildə aparılan danışıqlarda, – bildiyiniz kimi, bu danışıqlar ATƏT-in Minsk qrupunun vasitəsilə gedir, – Türkiyə Minsk qrupunun üzvü kimi çox fəal iştirak edir, çox təşəbbüslər irəli sürür. Bu məsələ dünən də çox ətraflı müzakirə olunub və Türkiyə prezidenti, ölkənin digər rəhbərləri bildirdilər ki, onlar Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulması üçün və Azərbaycanı bu bəladan xilas etmək üçün bundan sonra da yeni addımlar atacaq, yeni təşəbbüslər irəli sürəcəklər.

İndi Minsk qrupunun üç həmsədri var: Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa. Keçən ilin dekabr ayında Lissabonda ATƏT-in Zirvə görüşündə Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması üçün ilk dəfə ayrıca bir sənəd – Lissabon bəyanatı qəbul edildi. Həmin bəyanatda bu münaqişənin sülh yolu ilə həll olunmasının prinsipləri öz əksini tapdı. Bu, üç əsas bənddən ibarətdir. Birincisi, Ermənistanın [314-315] və Azərbaycanın ərazi bütövlüyünün tanınması, çünki Ermənistan Azərbaycanın ərazi bütövlüyünü yenə də tanımaq istəmirdi; Dağlıq Qarabağa Azərbaycan Respublikasının tərkibində yüksək dərəcəli özünüidarə statusu, muxtariyyət hüququ verilməsi; üçüncüsü, Dağlıq Qarabağın bütün əhalisinə, yəni erməni və azərbaycanlı əhalisinin hamısına təhlükəsizlik üçün təminat verilməsi.

Bu sənəd ATƏT-in 54 üzvündən 53-nün dövlət başçıları tərəfindən dəstəkləndi və qəbul olundu. Yalnız Ermənistan buna etiraz etdi. Beləliklə, biz tarixi bir sənəd əldə etmişik. İndi vəzifəmiz bu prinsiplər əsasında, Lissabon prinsipləri əsasında sülh danışıqlarını gücləndirmək, sürətləndirmək və 1997-ci ildə bu münaqişəyə son qoymaqdır.

Lissabon görüşündən sonra Minsk qrupunun həmsədrləri dəyişildi. Əvvəl həmsədrlər Rusiya ilə Finlandiya idisə, Lissabon Zirvə görüşündən sonra üç həmsədr oldu: Rusiya, Fransa və Amerika. Hesab edirəm ki, üç böyük dövlət bu məsələnin həlli üçün Minsk qrupunda həmsədrlik vəzifəsini öz üzərlərinə götürübsə, öz üzərlərinə böyük məsuliyyət götürübsə, gərək bu məsuliyyəti də yerinə yetirsin. Biz hər halda belə danışıqlar aparmışıq, öz fikrimizi onlara bildirmişik və onlardan, bu üç dövlətdən çox böyük hərəkət gözləyirik.

Şübhəsiz ki, bu məsələnin həll olunmasında Türkiyənin böyük rolu yenə də var və bu gün də, sabah da olacaqdır. Biz bu məsələnin həll edilməsində Türkiyənin indiyə qədər olduğu kimi, bundan sonra da fəal iştirak etməsini istəyirik.

Beləliklə, Azərbaycan altı ildir dövlət müstəqilliyi şəraitində yaşayır və belə bir böyük xarici təcavüz nəticəsində ölkəmiz çətin vəziyyətə düşmüşdür. Bilirsiniz ki, o illərdə Azərbaycanın daxili vəziyyəti də sabit olmayıbdır. Təəssüflər olsun ki, Ermənistan-Azərbaycan savaşı, döyüşü zamanı Azərbaycanda cürbəcür qanunsuz silahlı dəstələr meydana çıxmışdı. Hətta bəzi dövlət adamları, dövlət başçıları olan adamlar dövlət qurumlarında olan silahlı adamlarla yanaşı, özlərinə məxsus silahlı dəstələr düzəltmişdilər. Şübhəsiz ki, bu silahlı dəstələr bir tərəfdən qanunu pozur, cinayət edir, digər tərəfdən də hər bir silahlı dəstənin başçısı həmin silahlı dəstəyə güvənərək hakimiyyət uğrunda mübarizə aparırdı. [315-316]

Siz bilirsiniz ki, 1992-ci ildə belə bir vəziyyətdə Azərbaycanda hakimiyyət dəyişdi, yeni bir qüvvə – Xalq Cəbhəsinin nümayəndələri hakimiyyətə gəldilər. Onlar bir il hakimiyyətdə oldular və 1993-cü ilin iyun ayında Azərbaycanda dövlət böhranı əmələ gəldi. Başqa silahlı dəstələr bu hakimiyyəti devirməyə çalışdılar. Onlar böyük güc topladılar, ermənilərlə müharibə getdiyi zaman cəbhədən silahları, tankları, topları çıxarıb bir hissəsini Gəncə şəhərinə topladılar ki, Bakıya hücum etsinlər. Başqa bir hissəsini isə oradan çıxarıb Bakıya gətirdilər ki, özlərini müdafiə etsinlər. Beləliklə, ermənilər bu vəziyyətdən istifadə edib Azərbaycanın bir neçə bölgəsini də işğal etməyə nail oldular. Görün, 1993-cü ildə Azərbaycana nə qədər zərbələr vuruldu. Bir tərəfdən, Azərbaycanın bir neçə başqa bölgəsi də işğal olundu, digər tərəfdən, daxildə ixtilaflar da artdı və Azərbaycanda vətəndaş müharibəsi başlandı. Azərbaycan artıq parçalanırdı.

Bildiyiniz kimi, 1993-cü ilin iyun ayında belə bir ağır vəziyyətdə xalqın tələbi ilə mən Naxçıvandan Bakıya gəlməli oldum və 1993-cü il iyunun 15-də Azərbaycan parlamentinin sədri vəzifəsini öz üzərimə götürdüm. Mən sizə müəyyən mənada hesabat verirəm. Çünki Siz Türkiyənin Böyük Millət Məclisisiniz, bizimlə dost ölkənin Millət Məclisisiniz. Mən öz parlamentimiz qarşısında hesabat verirəm. 1993-cü il iyunun 15-də mən parlamentin sədri vəzifəsini öz üzərimə götürdüm. Ancaq bundan üç gün sonra Azərbaycanın o vaxtkı prezidenti Əbülfəz Elçibəy öz vəzifəsini gizli olaraq tərk etdi və Bakıdan qaçdı. O, indiyədək Bakıya dönməyibdir.

İndi təsəvvür edin, mən Azərbaycanda tək qaldım – respublika prezidenti yox idi, baş nazir yox idi. Buna görə də mən həm parlamentin sədri, həm də, sizin sözlə desək, prezidentin vəkili kimi, onun səlahiyyətlərini həyata keçirən şəxs kimi fəaliyyət göstərməli oldum. Lakin vəziyyət normal deyildi. Cənub tərəfdə, İranla sərhəd yaxınlığında böyük bir silahlı dəstə bir "Talış Cümhuriyyəti" düzəltdi.

Mənim sözlərimi anlayırsınızmı? Mən sizin ləhcədə də danışa bilərəm. Ancaq qəsdən danışmıram ki, siz də bizim ləhcəni öyrənəsiniz. [316-317]

Orada bir "Talış Cümhuriyyəti" düzəltdilər, Azərbaycanın böyük bir bölgəsini ələ keçirdilər. Vaxtilə Əbülfəz Elçibəy tərəfindən Dağlıq Qarabağda prezidentin səlahiyyətli nümayəndəsi təyin edilmiş Surət Hüseynova ən yüksək hərbi vəzifə verilmişdi, guya o, müharibə aparacaq və ermənilərin qarşısını alacaqdı. Halbuki onun bu sahədə heç bir hərbi hazırlığı yox idi. Keçmişdə yun fabrikinin direktoru işləmiş, cəmi 35 yaşında olan, eyni zamanda çox mafioz, cinayətkar işlərlə məşğul olan bir adamı gətirib belə yüksək vəzifəyə qoymuşdular. Bax, belə bir adam həm prezidentin səlahiyyətli nümayəndəsi, həm də baş nazirin müavini idi. O da fikirləşirdi ki, cavan bir adamam, əlimdə də vəzifəm var, bir addım qalır ki, gedib prezident olum. Ona görə də o, silahları toplayıb Bakıya hücum etməyə başladı.

Mən Bakıya gələrkən onlar Gəncədə öz qüvvələrini toplamışdılar və "Talış Muğan Respublikası" yaratmış adamlar da onlarla bir ittifaqda idilər. Siz bilirsiniz ki, o vaxt yaramaz bir adamı – Rəhim Qazıyev adlı bir şəxsi, keçmişdə Xalq Cəbhəsinin guya liderlərindən biri olan adamı da gətirib müdafiə naziri qoymuşdular. O da ki bir tərəfdən başqa bir ölkənin kəşfiyyatına, xarici kəşfiyyata xidmət edən bir adam idi, eyni zamanda çox bacarıqsız və işi bilməyən adam idi, yəni nə hərbdə olmuşdu, nə də savadı vardı, haradasa müəllim işləyib, özü də kiçik müəllim olmuşdu.

Əziz dostlar, o vaxtlar belə bir vəziyyət yaranmışdı. Mən tək qalmışdım. O vaxt Gəncədən hücumlar yenə də davam edirdi. Belə bir şəraitdə Azərbaycanı böhrandan çıxarmaq lazım idi. Vaxtınızı almaq istəmirəm, bu barədə çox danışmaq olar. Biz Azərbaycanı böhrandan çıxardıq. Amma o vaxt mən məcbur olub, həmin Surət Hüseynovu gətirib Azərbaycana baş nazir təyin etdim. Çünki başqa yol yox idi.

Onun əlində çox böyük hərbi hissələr vardı. Mən o vaxt onu baş nazir ona görə təyin etdim ki, bəlkə tərbiyə edim. Ayını meşədən tutub gətirərək ona çox şey öyrətmək olur, – o, hətta bəzən rəqs də edir. Ancaq belə adamları tərbiyə etmək mümkün deyildir. Onun qafası o qədər dar idi ki, biz istədiyimiz işləri görə bilməzdi. Nəhayət, 1994-cü ilin oktyabr ayında o, məni də devirmək üçün yeni bir hərbə başladı. Siz onu bilir[317-318]siniz. Bəli, onun əlində silahlar vardı. Amma yenə də deyirəm, mənim əlimdə silah yox idi. Çünki o, baş nazir olduğuna görə silahlar onun əlində idi.

Ancaq xalq mənimlə idi. Odur ki, mən televiziya ilə xalqa müraciət etdim və iki saatın içərisində, gecə saat 11-i keçən vaxt Bakı sakinlərindən yarım milyon adam Prezident sarayının önündəki meydana toplaşdı, bütün sarayı mühasirəyə aldılar və məni müdafiə etdilər. Dövlət çevrilişi etmək istəyənlər bunu görüb qaçdılar. İkinci gün Azərbaycanın Azadlıq meydanına, – bu meydan sizə məlumdur, – bir milyondan artıq adam toplaşdı. Xalq məni dəstəklədi və müdafiə etdi. Dövlət çevrilişi etmək istəyən həmin adamlar qaçıb Rusiyada gizləndilər. O gündən iki ildən çox vaxt keçir və biz onları Rusiyada bir-bir tapıb gətirdik. Nəhayət, bir ay bundan əvvəl həmin Surət Hüseynovu Rusiya vilayətlərindən birində yaxalayıb gətirdik. İndi o, Bakıda həbsxanadadır. 1993-cü ildə bu tədbiri yapan və Azərbaycanda böhran yaradan Rəhim Qazıyev də qaçıb Moskvada gizlənmişdi. Biz onu da orada yaxalayıb gətirdik. Məhkəmə ona cəza verib və o, indi həbsxanadadır.

"Talış Respublikası" yaradan Əlikram Hümbətov adlı bir adam var idi. Xarici kəşfiyyat orqanları onu həbsxanadan qaçırıb apararaq başqa yerdə gizlətmişdilər. Biz onu da tapıb gətirdik.

Beləliklə, biz bunların qarşısını aldıq. Ancaq, əziz qardaşlar, siz bilin ki, Azərbaycanda bu xəstəlik, – buna ruslar "zaraza" deyirlər, – bu xəstəlik o qədər dərin kök atmışdı ki, silahı olan adamlar hesab edirdilər ki, bu silahın gücü ilə gəlib hakimiyyəti ələ keçirəcəklər. 1994-cü ilin oktyabr ayından sonra 1995-ci ilin mart ayında

Daxili İşlər Nazirliyinin xüsusi təyinatlı polis dəstəsi var idi, – o, hakimiyyətin tabeliyindən çıxmışdı və o da hakimiyyət iddiası edirdi. O dəstənin başçısı daxili işlər nazirinin müavini olmasına baxmayaraq, hakimiyyətə tabe olmurdu. Ətrafında silahlı və çox təcrübəli xeyli döyüşçü vardı. Yenə bir problem yarandı. Mənə ultimatum göndərdilər ki, Heydər Əliyev istefa verməlidir, yoxsa biz onu öldürəcəyik. Dedim ki, mən belə şeyləri çox görmüşəm və qorxmuram. Mən onlarla çox danışıqlar apardım, onları yola gətirmək istədim. Amma yola gəlmədilər. [318-319]

Təəssüf ki, o vaxt bizim Azərbaycanda olan bir çox siyasi partiyalar da gizli olaraq onlarla əlaqəyə girdilər. Bizim dərdimiz budur. Bizim dərdimiz tək Ermənistanın təcavüzü deyildir, dərdimiz içimizdə olan dərddir. Onlar ümidli idilər ki, həmin bu polkovnik gəlib Heydər Əliyevi məhv edəcək, yıxacaqdır, sonra da onlar gəlib hərəsi öz payını götürəcəkdir. Kimə nə çatacaq, onu Allah bilir. Mən çox çalışdım ki, onları bir yola gətirim, amma mümkün olmadı.

1995-ci ilin mart ayında mən Kopenhagendə beynəlxalq təşkilatın bir tədbirində iştirak edirdim. Onlar plan qurmuşdular ki, mən Bakıya dönərkən məni hava limanında öldürəcəklər və hakimiyyəti ələ alacaqlar. Mən bu gün bu həqiqəti deməliyəm ki, mənim əziz dostum Süleyman Dəmirəl Kopenhagendə son görüşdə mənə bildirdi ki, belə bir təhlükə gözlənilir. Çox sağ olsun. Mən Bakıya nəzərdə tutulmuş vaxtdan öncə gəldim. Buna görə də onlar bu planı həyata keçirə bilmədilər. Amma onlar o vaxt Azərbaycanın bir neçə bölgəsində, Gürcüstanla və Ermənistanla həmsərhəd olan bölgələrimizdə artıq hakimiyyəti ələ keçirmişdilər. Beş-altı gün mən onlarla danışdım, onları yola gətirmək istədim, anlatdım ki, siz qan tökməyin, heç bir şey edə bilməyəcəksiniz və mən Azərbaycanın prezidenti kimi Azərbaycanın müstəqilliyini qorumağa qadirəm.

Əgər hansı bir namərd gülləsi məni məhv etsə də, mən Azərbaycanın müstəqilliyi yolunda qurban getməyə, şəhid olmağa hazıram.

Təəssüflər olsun ki, onlar martın 17-də gecə Prezident sarayına, televiziya mərkəzinə, Müdafiə Nazirliyinə və Daxili İşlər Nazirliyinə hücum etdilər. Gecə döyüşlər getdi. Nəhayət, biz bunların qarşısını ala bildik və onlar məhv edildilər. Mən sizinlə açıq danışıram, siz mənim qardaşlarımsınız və mən öz doğma ölkəmə gəlmişəm. Əfsuslar olsun ki, bu ikinci çevriliş cəhdinin hazırlanmasında bir neçə siyasi partiyanın üzvləri iştirak edirdilər. Çox qəribə olanı budur ki, bir-birinə zidd olanlar, məsələn, vaxtilə Azərbaycanda qısa bir müddət prezident olub və 1992-ci ildə Moskvaya qaçan, indiyə qədər Moskvanın himayəsi altında gizlənən Mütəllibov o tərəfdən, sizə məlum olan və qaçıb Naxçıvanın Kələki kəndində gizlənən Əbülfəz [319-320] Elçibəy başqa bir tərəfdən, Azərbaycan Müsavat Partiyasının nümayəndəsi, bizim keçmiş xarici işlər naziri Tofiq Qasımov və bir çox başqaları gördülər ki, bunlar böyük gücə malikdirlər və belə hesab etdilər ki, onlar doğrudan da gəlib bizi yıxa biləcəklər, onlara razılıq verdilər ki, əgər siz hakimiyyəti əldə etsəniz, onda Dövlət Şurası yaranacaqdır. Təsəvvür edin ki, bu onun əlinin altında da Moskvada olan Mütəllibov, Kələkidə dağda oturan Əbülfəz Elçibəy və başqa partiyaların nümayəndələri olacaqdılar. Allah eləməsin ki, sizin ölkəniz də gəlib o günə düşsün.

Bilirsinizmi, təəssüf hissi ilə demək istəyirəm ki, həmin bu çevriliş cəhdinin hazırlanmasında bir neçə Türkiyə vətəndaşları da iştirak etmişlər. Mən bunu əvvəllər heç kəsə deməmişdim və vaxtilə gəzlədirdim, çünki hesab edirdim ki, biz bu hadisələrin öhdəsindən gəldik. Türkiyə-Azərbaycan əlaqələrinə heç bir şey ləkə gətirməməlidir. Ancaq həmin o çevriliş cəhdini hazırlayanlardan birini – Fərman Dəmirqol adında bir şəxsi sonra biz buraxdıq və o, gizli olaraq buraya, Türkiyəyə gəldi. Bizə dedilər ki, o, burada dinc yaşayacaq. Mən də dedim ki, onda biz də bunu daha açmayacağıq. Amma sizin televiziyada, qəzetlərdə xəbərlər verdilər ki, bəs bu adam haradan çıxıb. Kimdir bu adam? Vaxtilə, yəni Xalq Cəbhəsinin hakimiyyəti dövründə gəlib, burada sizdə bir TİKA təşkilatı var, – o təşkilatın orada nümayəndəsi kimi maaş alıb. Eyni zamanda onu gətirib Azərbaycan parlamentində müşavir qoyublar, eyni zamanda ona Azərbaycan Dövlət Universitetində müəllim vəzifəsi veriblər. Amma nə müşavirlik edib, nə TİKA-nın işi ilə məşğul olub, nə də müəllimlik edib, – gedib o cinayətkarlara qoşulub və onlarla birlikdə bu çevriliş cəhdini hazırlayıbdır. Buna da söz veriblər ki, sən də Dövlət Şurasının üzvü olacaqsan və burada da bir vəzifə alacaqsan.

Başqa bir Türkiyə vətəndaşı – Kənan Gürel də bu işdə iştirak etmişdir. Təəssüf ki, onlar Türkiyənin bəzi şəxsləri ilə əlaqədə olmuş və çevriliş cəhdində axıra qədər iştirak etmişdilər. Biz bunları hiss etmişdik, amma məsələ açılandan sonra bildik. [320-321]

Ancaq bunlar hamısı geridə qalmalıdır. Biz bunlardan da ötüb keçdik. O çevriliş cəhdlərini törədən adamların bəziləri qaçdılar, yenə də Moskvada, Qərbdə, başqa ölkələrdə gizləndilər. Onların bir hissəsi Türkiyədə gizlənir və mən hüquq orqanlarından rica etmişdim ki, onları tapıb Azərbaycana təslim etsinlər. Təəssüf ki, bunu indiyə qədər etməyiblər. Onlar qaçdılar, yenə də Rusiyada gizləndilər. Ancaq ondan sonra da bir neçə qəsdlər oldu, biz bunların da qarşısını aldıq.

Sizin vaxtınızı alıram, üzr istəyirəm. Mən bunları sizə deyirəm, çünki siz bizim həyatımızda olan hər bir şeyi olduğu kimi bilməlisiniz. Bunları ona görə deyirəm ki, siz biləsiniz, bizim müstəqilliyimizin yolu nə qədər ağır, çətin, nə qədər keşməkeşli olubdur.

İndi mən sizə hesabat verirəm ki, bütün bunlara baxmayaraq, Azərbaycanın daxilində əmin-amanlıq tamamilə təmin edilibdir. Daxili ictimai-siyasi vəziyyət tam sabitdir. Şübhəsiz ki, gizlənmiş, Rusiyada və başqa ölkələrdə yerləşən ayrı-ayrı terrorçu qruplar yenə də var, onlardan hələ də tamamilə can qurtarmamışıq.

Təsadüfən yenə bir hadisə ola bilər. Ancaq biz əmin-amanlıq, qanun-qayda yaratmışıq. Hərə öz işini bilir, qanunun vacibliyini, aliliyini təmin etmişik.

İndi insanlar rahat yaşayırlar. Belə bir şəraitdə biz Azərbaycanın daxili işləri ilə məşğul olmağa imkan tapırıq. Bilirsiniz ki, 1995-ci ilin sonunda biz ilk dəfə demokratik prinsiplər və çoxpartiyalı sistem əsasında müstəqil Azərbaycanın demokratik parlamentini seçdik. 1995-ci ilin qasım ayında biz Azərbaycanın ilk demokratik konstitusiyasını, Ana Yasasını qəbul etdik. Bizim bu konstitusiyamız Azərbaycanda hüquqi demokratik, dünyəvi dövlət qurmaq prinsiplərini özündə əks etdirən bir konstitusiyadır. Bu konstitusiya ilə Azərbaycanda bütün insan azadlıqları təmin olunubdur. Söz, mətbuat, fikir azadlığı, fikir müxtəlifliyi, vicdan azadlığı, din azadlığı, bütün insanların hüquq bərabərliyi hamısı təmin olunubdur.

Çoxpartiyalı sistem təmin olunub və hər bir normal partiyanın Azərbaycanda fəaliyyət göstərməsinə şərait yaranıbdır.

Azərbaycanda 30-dan artıq partiya qeydiyyatdan keçibdir, fəaliyyət göstərir, 600-dək qəzet var, bunlardan cəmi bir neçəsi Azərbaycanın dövlət qəzetidir. Qalanları ayrı-ayrı təşki[321-322]latların qəzetləridir və əksəriyyəti də müxalifət mövqeyində olan qəzetlərdir.

Beləliklə, biz Azərbaycanda hüquqi demokratik dövlət quruculuğu prosesini hüquqi nöqteyi-nəzərdən, Ana Yasa, qanunlarımız vasitəsilə təmin etmişik və bunu inkişaf etdiririk.

Azərbaycanda iqtisadi islahatlar həyata keçirilir. Bunlar 1995-ci ilin ikinci yarısında, 1996-cı ildə və indi, 1997-ci ilin əvvəlində öz müsbət nəticələrini veribdir. İslahatlar nədən ibarətdir? Azərbaycanın iqtisadiyyatı bazar iqtisadiyyatı yolu ilə gedir. Sahibkarlıq geniş inkişaf tapıbdır. Özəlləşdirmə proqramı qəbul olunub, həyata keçirilir, bütün mülkiyyət özəlləşdirilir. Bilirsiniz ki, Azərbaycanın torpaqları dövlətin əlində, kolxozlarda, sovxozlarda idi. Biz torpaq islahatı haqqında çox ciddi və cəsarətli qanun qəbul etdik. Bu qanun əsasında Azərbaycanın torpaqları əsasən şəxsi mülkiyyətə verilir.

Sizə onu da bildirmək istəyirəm ki, keçmişdə Sovet İttifaqına mənsub olub indi müstəqil dövlət olan ölkələrin heç birində belə mütərəqqi və cəsarətli qanun qəbul edilməyibdir. Biz bu qanunu üç il müddətində yerinə yetirəcəyik, bütün torpaqlar şəxsi mülkiyyətə keçəcəkdir. Ancaq bu qanunun artıq həyata keçirilməsinin bir neçə qisimləri öz nəticəsini veribdir. Məsələn, biz heyvandarlığı tamamilə özəlləşdirmişik. Bunu özəlləşdirəndən sonra Azərbaycanda ət, süd, yağ problemimiz yoxdur.

Mən sizə bir şeyi demək istəyirəm, – bəlkə bu, sizin üçün maraqlıdır. Sovetlər İttifaqı zamanı Azərbaycan Respublikası özünü ət və südlə təmin edə bilmirdi. Biz pambıq istehsal edib Rusiyaya verirdik, Rusiya isə bizə ət göndərirdi. Amma əti vaxtında göndərmirdi, ona görə də əhalimizi ət ilə istənilən qədər təmin edə bilmirdik. Çörəklə də təmin edə bilmirdik, çünki biz pambıq istehsal edirdik, buğdanı isə Rusiyadan alırdıq. İndi islahatları keçirdikdən, ticarəti sərbəstləşdirdikdən, heyvandarlığı özəlləşdirdikdən sonra problem yoxdur. Bütün mal-qara şəxsi mülkiyyətdir. Çörək istehsalı şəxsi mülkiyyətdədir, dövlət çörəklə məşğul olmur. Bu problemlərin hamısını aradan qaldırmışıq.

Beləliklə, Azərbaycanda iqtisadi islahatlar sürətlə gedir və bir-iki il içərisində Azərbaycanın iqtisadiyyatında ciddi dəyi[322-323]şikliklər baş verəcəkdir. Ancaq sizə demək istəyirəm ki, 1996-cı il son altı-yeddi il içərisində müəyyən qədər dönüş ili olubdur. Yəni, müsbət meyllər ili olubdur. Əvvəlki illərdə bizdə istehsal, xüsusən sənayedə və kənd təsərrüfatında hər il 10-15 faiz aşağı düşürdü. 1996-cı ildə sənaye istehsalında 6 faiz aşağı düşdük, amma 1995-ci ildə 24 faiz aşağı düşmüşdük. 1997-ci ilin birinci rübündə biz bu geriləməni dayandırdıq, əksinə, istehsal bir qədər inkişafa başladı. Keçən il kənd təsərrüfatı məhsulları istehsalı 3 faiz artıbdır.

Türkiyə ilə Azərbaycan arasında ticarət əlaqələri, mal mübadiləsi son iki ildə 3 dəfə artıbdır. Düzdür, mütləq rəqəmlər o qədər də böyük deyil, – gərək bizim əlaqələrimiz daha da geniş olsun, nəticələri daha da çox olsun, – və bu ticarət əlaqələrində Türkiyədən Azərbaycana mal gətirilməsi daha çoxdur, nəinki Azərbaycandan Türkiyəyə göndərilməsi. Bu da təbiidir, biz buna etiraz etmirik. Ancaq bunun həcmi artmalıdır və biz bunu artırmağa çalışırıq, bundan sonra da çalışacağıq.

Bilirsiniz ki, biz Azərbaycana xarici sərmayə gətirməyə çox səy göstəririk. 1994-cü ilin oktyabrında biz ilk böyük neft müqaviləsi imzaladıq, dünyada ona "Əsrin müqaviləsi" adı verildi. Bu müqavilə əsasında dünyanın 11 böyük neft şirkəti 30 il müddətində Azərbaycanda müştərək neft çıxarmaqla məşğul olacaqdır. Müqavilə əsasında çıxarılacaq neftin dünya bazarına nəqli məsələsi, o cümlədən neft kəməri məsələsi meydana çıxıbdır. İndi deyə bilərəm ki, müqavilə işləyir, bir neçə quyu qazılıb və bu ilin avqust və ya sentyabrında neft alacağıq.

Ondan sonra biz bir neçə müqavilə də imzalamışıq. Böyük məmnuniyyət hissi ilə demək istəyirəm ki, bu müqavilələrdə Türkiyə də iştirak edir. Birinci müqavilədə Türkiyə Cümhuriyyəti, "Türk petrolları" şirkəti çox az faizlə iştirak edirdi. Onun payı 1,25 faiz idi. Ancaq müqavilə imzalandıqdan sonra Türkiyənin dövlət, hökumət başçıları mənə müraciət etdikdə, Azərbaycan öz hissəsindən 5 faiz Türkiyəyə verdi və Türkiyənin payı 6,25 faiz oldu. Sonra biz yeni müqavilə – Xəzər dənizində "Şahdəniz" neft yatağı haqqında müqavilə imzaladıq. O da bir neçə dünya şirkətləri ilə imzalanıbdır. Bu müqavilədə "Türk petrolları" şirkətinin payı 9 faizdir. [323-324]

Biz bundan sonra da yeni müqavilələr imzalayacağıq və Türkiyə bunların hamısında iştirak edəcəkdir. İndiyə qədər beş müqavilə imzalanıbdır.

Mən bilirəm ki, bu neftin dünya bazarına çıxarılması yolu Türkiyədə daim müzakirə olunur və böyük maraq doğurur. Bildirmək istəyirəm ki, biz əvvəllər də hesab edirdik ki, Azərbaycan neftinin xaricə çıxarılmasının birinci yolu Türkiyədir. Ancaq bir çox çətinliklərlə, təzyiqlərlə də rastlaşdıq. Birinci müqavilədən sonra cürbəcür ölkələr tərəfindən bizə həddindən artıq təzyiqlər etdilər, ancaq bunun da qarşısında durduq. Biz daxilimizdə olan təzyiqləri də, xaricdən olan təzyiqlərin də qarşısında durduq.

Bilirsiniz, biz sonra qərar qəbul etdik ki, ilkin neftin ixracı üçün iki neft kəməri çəkilsin: biri Şimala – Rusiya ərazisindən Qara dənizdəki Novorossiysk limanına, biri isə Qərbə – Gürcüstan ərazisindən Qara dənizdəki Supsa limanına, – bu, Türkiyəyə yaxın olan limandır. Bu qərarı Rusiya da bəyənmiş, ondan razı qalmışdır. Qərb də bəyənmişdir. Biz bunu həyata keçiririk.

Rusiyaya gedən neft kəməri Azərbaycan ərazisində hazırdır. Ancaq təəssüflər olsun ki, Rusiya ərazisində neft kəməri hələ hazır deyildir. Azərbaycan neftini ixrac edəcəyimiz bu kəməri bir balaca sınamaq istəyirdik, ancaq bundan məhrumuq. Rusiyada bizə söz verirlər ki, oktyabr ayına qədər borunu hazırlayacaqlar, onda müəyyən miqdarda nefti o yolla ixrac edə biləcəyik.

Gürcüstan ərazisindən Qərbə – Türkiyəyə doğru gələn xətt 1998-ci ilin sonunda hazır olacaqdır. Ancaq bizim ən əsas məqsədimiz böyük neft borusunun tikilməsidir. Bu barədə dünyada çox böyük axtarışlar gedir, bir çox layihələr də var. Hər bir ölkənin bunda öz marağı var və Azərbaycana, Türkiyəyə pis münasibət göstərən, düşmən olan ölkələr buna mane olmaq istəyirlər. Sadəcə olaraq, dünyada iqtisadi rəqabət gedir. Bu boru haradan keçəcəksə, onun çox iqtisadi mənfəəti olacaqdır. Ona görə də bu məsələni çox müzakirə etmişik. Dünən Türkiyə prezidentinin və Azərbaycan prezidentinin imzaladıqları anlaşmada biz yazmışdıq ki, həmin böyük neft kəmərinin Bakı Ceyhan yolu ilə getməyini istəyirik. [324-325]

Bir neçə gündən sonra Aşqabatda İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə görüşü olacaqdır. Ola bilər, orada da bir layihə, Türkmənistandan təbii qazın Xəzər dənizinin altından keçməklə Azərbaycan ərazisi vasitəsilə Türkiyəyə gətirilməsi barədə layihə qəbul edilsin. Belə bir layihə var, bu gün, dünən də bu barədə danışdım. Əgər hamımız birlikdə bu layihəni həyata keçirə bilsək, – çünki bizim dostlarımız bəzən söz verir, sonra yerinə yetirmirlər, – çox gözəl iş olacaqdır.

Ümumiyyətlə, demək istəyirəm ki, Xəzər dənizinin Azərbaycan sektorunda çox zəngin neft yataqları var. Qazaxıstan sektorunda da zəngin yataqlar var. Bilirsiniz ki, Qazaxıstan Tengizdə neft çıxarır. "Şevron" şirkəti oradan neft çıxarır, Rusiya ərazisindən ixrac edir. Amma indi alternativ olaraq ikinci bir yol da Azərbaycan və Gürcüstan ərazisindən keçməklə Qara dəniz sahilinə nəzərdə tutulur. Biz buna imkan vermişik. Beləliklə, bu yolu da Türkiyəyə çıxara bilərik. Azərbaycanın zəngin neft yataqlarının böyük gələcəyindən Türkiyə də bəhrələnəcək, bizim üçün dost, qardaş ölkə kimi biz Türkiyə ilə həmişə əməkdaşlıq edəcəyik.

Bir sözlə, bizim həyatımız çox ağırdır, çətindir. Ancaq gələcəyimizi də parlaq görürük. Əgər biz Ermənistanın təcavüzündən xilas olsaq, işğal olunmuş torpaqlarımız azad edilsə, şübhəsiz ki, sizinlə əməkdaşlıq edərək çox böyük nailiyyətlər əldə edə və ölkələrimizi bir-birinə daha da sıx bağlaya bilərik.

Ancaq bu baxımdan indi bir təhlükəli proses var. Bilirsiniz ki, sizinlə həmsərhəd olan Ermənistanda Rusiyanın böyük silahlı dəstələri, əsgəri hissələri var. Onlar orada hərbi baza statusu alıblar. Türkiyə də görür, Rusiya ilə Ermənistan arasında hərbi iş birliyi anlaşması imzalanıbdır. Bu anlaşma da Rusiyanın və Ermənistanın parlamentlərində təsdiq olunubdur. Sizin sərhədlərdə, Ermənistan-Türkiyə sərhədlərini qoruyan rus əsgərləridir. Rusiyanın həm Ermənistanda, həm Gürcüstanda hərbi bazalarının olmasını mən anlaya bilmirəm. Yəni bunları qanunauyğun qəbul edə bilmirəm. Mən bunu Rusiyanın başçılarına, dövlət başçılarına açıqca demişəm. Demişəm ki, nə üçün siz Ermənistanda hərbi baza saxlayırsınız, nəyə görə? Bir halda ki, Ermənistanın Rusiya ilə [325-326] heç sərhədi yoxdur, siz kimdən hücum gözləyirsiniz? Ermənistan ərazi nöqteyi-nəzərindən Rusiyaya bağlı deyildir. Ermənistan kiçik bir əraziyə malikdir, amma o ərazi silahlarla, əsgərlərlə doludur. Mən demişəm, – nə üçün bunu edirsiniz? Əgər siz Türkiyədən özünüzə qarşı hücum gözləyirsinizsə, Türkiyə heç vaxt bunu etməz. İrandan hücum gözləyirsinizsə, İran da bunu etməz. Gürcüstan, – yəni Ermənistanın ətrafında olan ölkələri deyirəm, – öz başının hayındadır. Azərbaycanın da ərazisinin 20 faizini Ermənistan işğal edibdir. Belə bir halda Ermənistanda bu qədər hərbi bazaların saxlanmasının nə əhəmiyyəti var? Gürcüstanda hərbi bazaların saxlanmasının nə əhəmiyyəti var? Mən bu barədə öz fikrimi, etirazımı demişəm.

Ancaq onlar öz işlərini görürlər. Son iki ayda məlum olubdur ki, Rusiyadan Ermənistana axırıncı üç il ərzində 1 milyard dollar dəyərində ağır silahlar veriblər. T-72 tankları, – bunlar ən müasir tanklardır, – zirehli maşınlar, toplar, raketlər, çox uzaqvuran raketlər, – o raketlər ki, Kiprə vermişdilər, ona görə siz Türkiyədə hay-küy qaldırdınız, – və başqa çox güclü atəş açan silahlar veriblər. Bu yaxınlarda məlumat alınıb ki, hətta kimyəvi silahlar da verilib. Rusiyanın Ermənistana 1 milyard dollar dəyərində silah verməsi Rusiyanın dövlət orqanları, Müdafiə Nazirliyi tərəfindən, Rusiyanın parlamentində Müdafiə Komitəsi var, onun apardığı araşdırmadan təsdiqlənir. Bu məsələ Rusiyanın parlamentində də müzakirə olunub və prokurorluğa verilib ki, yoxlanılsın, yəni bunu kim edib, kimi cəzalandırmaq lazımdır.

Məhz bu məsələ ilə əlaqədar Azərbaycan çox narahat olubdur, bilin. Çünki əgər Ermənistana o qədər silah gətiriblərsə, bu, təkcə Azərbaycanı yox, bütün bölgəni dağıda bilər. Mən Rusiyanın prezidenti Boris Yeltsinə üç dəfə məktub yazmışam və martın 28-29-da Moskvada Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrin dövlət

başçılarının toplantısında, həm də təkbətək görüşdə demişəm ki, siz nə iş görürsünüz və rica etmişəm ki, tezliklə o silahları oradan çıxarsınlar və Rusiya ərazisinə gətirsinlər.

Beləliklə, Ermənistan burada böyük təhlükə yaradır. Təkcə Azərbaycan üçün yox, bütün Qafqaz üçün, bölgə üçün təhlükə [326-327] yaradır. Güman edirəm ki, siz də buna heç vaxt biganə qalmamalısınız. Mən bu məlumatı, bilgiləri sizə verməyi özümə borc bilirəm. Çünki, yenə də deyirəm, Azərbaycanın problemi həmişə sizin probleminiz olub, ona görə sizə bir daha təşəkkürümü bildirirəm. Amma eyni zamanda baş verən hadisələr və Qafqaz bölgəsində olan ayrı-ayrı dövlətlərin bir-birinə hərbi cəhətdən yaxınlaşması bu bölgədə yeni bir şərait yarada bilər. Ona görə də düşünmək lazımdır. Hesab edirəm ki, bu məlumatlardan lazımi nəticələr də çıxarmaq gərəkdir.

Biz öz tərəfimizdən çalışırıq və bundan sonra da çalışacağıq ki, Ermənistan-Azərbaycan münaqişəsini sülh yolu ilə həll edək. Mən İstanbulda çıxış edəndə bəyan etdim və bu gün də Türkiyə Böyük Millət Məclisinin qarşısında bəyan edirəm ki, Ermənistanla böyük sülh müqaviləsi bağlanana qədər Azərbaycan üç il bundan öncə imzalanmış atəşkəs rejimini qoruyub saxlayacaq və ona sadiq olacaqdır. Bu, bizim sülhsevər olmağımızı göstərir. Bu göstərir ki, biz başqa ölkənin torpağına iddia etmirik. Baxmayaraq ki, Ermənistanın torpaqlarının çoxu Azərbaycana mənsub olub, amma biz bunu iddia etmirik. Biz 1991-ci ildə Azərbaycan və Ermənistan dövlət müstəqilliyini alarkən Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul olunmuş sərhədlər daxilində Azərbaycanın ərazi bütövlüyünü qorumağa və təmin etməyə çalışırıq. Biz Ermənistanın torpağına iddia etmirik, ancaq öz torpağımızın bir qarışını, bir metrini də heç kəsə verməyəcəyik.

Güman edirəm ki, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması üçün siz bundan sonra da Türkiyənin bütün imkanlarından istifadə edəcəksiniz və biz birlikdə buna nail olacağıq. Çünki Qafqazda sülh, bölgədə sülh ümumiyyətlə hamıya lazımdır. Mən bu gün yenə də böyük Mustafa Kamal Atatürkün sözlərini xatırlayıram: Cahanda sülh, yurdda sülh, bölgədə sülh.

Mən bəlkə də sizi yordum. Yorsam da, yormasam da danışmışam. Nəhayət, mən yenə də Türkiyə-Azərbaycan dostluğu haqqında bir neçə söz demək istəyirəm. Bu dostluq əbədidir, sarsılmazdır. Biz bütün gücümüzlə, varlığımızla bu dostluğu qoruyub möhkəmləndirəcəyik, inkişaf etdirəcəyik. Çünki Türkiyə də demokratik cümhuriyyətdir, burada demokratik [327-328] prinsiplər geniş tətbiq olunubdur. Türkiyənin böyük demokratiya təcrübəsi var. Türkiyənin cümhuriyyət, demokratik dünyəvi dövlət olaraq yaşaması bütün başqa türkdilli dövlətlər üçün örnəkdir. Cümhuriyyət tarixinizdə keçdiyiniz yol da, dövlət quruluşunuz da, demokratiyanız da, qanun-qaydalarınız da bizim üçün örnəkdir. Ona görə də biz Türkiyənin bu yolla getməsini arzulayırıq.

Biz Azərbaycanda ümidvarıq ki, Türkiyə daim bu yolla gedəcək, Mustafa Kamal Atatürkün vəsiyyətlərinə daim əməl edəcək, gündən-günə dünyanın ən qüdrətli, ən inkişaf etmiş, ən dünyəvi dövlətlərindən biri olacaqdır.

Diqqətinizə görə təşəkkür edir, sizinlə bu görüşdən çox məmnun olduğumu bildirirəm. Sizə və Türkiyə xalqına bir daha, bir daha Azərbaycan xalqının sevgi və məhəbbətini çatdırıram. Sağ olun. [328-329]

## TÜRKİYƏNİN TANINMIŞ JURNALİSTLƏRİNƏ MÜSAHİBƏ

*Ankara*

*6 may 1997-ci il*

Mən sizi salamlayıram. Əslində bu gün mən keçirilən tədbirlərdə çox danışmışam və bu tədbirlərdə siz də iştirak etmisiniz. Onlara əlavə etməyə bir şey yoxdur. Bu gün siz Türkiyə Böyük Millət Məclisində olmusunuzsa, orada mən çox məsələlər haqqında danışdım, istədiklərimi dedim. Ona görə də mən Türkiyəyə nədən ötrü gəldiyim, Azərbaycan-Türkiyə əlaqələri barədə danışmayacağam, çünki siz bunları artıq bilirsiniz. Nə sözünüz varsa, buyurun, mən sizi dinləyirəm.

**Sual: Cənab prezident, dünən Azərbaycanla Türkiyə arasında bir çox sənədlər imzalandı, o cümlədən "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında bəyannamə" imzalandı. Bu barədə nə deyə bilərsiniz?**

**Cavab:** Bu, çox əhəmiyyətli bir bəyannamədir. Çünki bu, Azərbaycan-Türkiyə əlaqələrinin strateji xarakter daşıdığını göstərir. Yəni, biz artıq strateji partnyoruq. Bunun həm Türkiyə, həm də Azərbaycan üçün məsuliyyəti böyükdür. Eyni zamanda biz dünyaya da bildiririk ki, Azərbaycan ilə Türkiyənin əlaqələri xüsusi xarakter daşıyır. Yəni bu əlaqələr bu gün, sabah üçün deyil, daimidir. Şübhəsiz ki, bu, eyni zamanda bir çox məsələlərdə həm Türkiyənin, həm də Azərbaycanın beynəlxalq aləmdə baş verən məsələlərdə eyni mövqedə olmasını, məsləhətlər aparmağımızı və bir-birimizə dəstək verməyimizi də nəzərdə tutur. Ona görə də bu bəyannamə indiyə qədər imzalanmış sənədlərə rəğmən Azərbaycan-Türkiyə əlaqələrini daha da yüksəklərə qaldırır. [329-330]

**Sual: Cənab prezident, bu bəyannamə iki ölkədən birinin savaşa girməsi zamanı onların bir-birinə dəstək verməsini nəzərdə tuturmu?**

**Cavab:** Bəyannamədə bu məsələ nəzərdə tutulmur. Bunun üçün əsgəri iş birliyi anlaşması lazımdır. Bu gün mən Böyük Millət Məclisində söylədim, ancaq sizə bir daha bildirmək istəyirəm ki, məsələn, Rusiya ilə Ermənistan arasında əsgəri iş birliyi anlaşması vardır. Bu əsgəri iş birliyi anlaşmasında onlar öz üzərilərinə vəzifə götürüblər. Əgər bir ölkəyə hücum və ya başqa bir hadisə olsa, o biri ölkə ona yardım edəcəkdir. Mən bilmirəm ki, Ermənistan Rusiyaya nə yardım edəcəkdir? Amma Rusiyanın Ermənistana nə yardım edəcəyi aydındır, məlumdur.

Bizim imzaladığımız bəyannamədə isə belə bir maddə yoxdur.

**Sual: Hörmətli prezident, bu anlaşmadan sonra əsgəri bir anlaşma imzalana bilərmi və bunu necə qiymətləndirirsiniz?**

**Cavab:** Ola bilər.

**Sual: Siz buradakı danışıqlarınızda əsgəri bir anlaşmanın bağlanması barədə müzakirələr apardınızmı?**

**Cavab:** Bilirsiniz, biz çox məsələlər haqqında danışmışıq. Amma bir halda mən dedim ki, ola bilər, bu hər şeyə cavab verir.

**Sual: Bu bəyannamə ilə əlaqədar gələcəkdə daha bir sənədin imzalanması nəzərdə tutulurmu?**

**Cavab:** Bu bəyannamənin özü çox uzunmüddətlidir. Yəni onun vaxtı yoxdur, daimidir. Ola bilər, iş birliyimiz, strateji tərəfdaşlığımız daha da dərinləşsin və müəyyən bir zamandan sonra bu anlaşmanı daha da dərinləşdirən bir sənəd imzalayaq. Bu, ola bilər. Ancaq indiki zaman üçün bu, bizi təmin edir.

**Sual: Cənab prezident, indi Türkiyə qəzetlərində Türkiyənin Ermənistana dair siyasətində bir yumşalma müşahidə edilməsi, Yerevan-Trabzon xəttində təyyarələrin uçması barədə yazılar dərc olunur. Həmin yazılarda Türkiyə iş adamlarının Ermənistanla ticarət əlaqələrindən də söhbət açılır. Siz bu barədə, ikincisi isə Bakı-Ceyhan [330-331] neft kəməri və Rusiya ilə münasibətləriniz barədə nə deyə bilərsiniz?**

**Cavab:** Birinci sualınız çox maraqlı sualdır. Bu gün sadəcə, vaxtım olmadı. Yəni, mənim Türkiyə Böyük Millət Məclisindəki çıxışım bir saatdan çox oldu, ona görə də istəmədim ki, millət vəkillərinin vaxtını çox alım. Amma bu məsələ fikrimdə idi ki, onu söyləyim. Sadəcə, vaxt çatmadı. Amma indi bu fürsətdən istifadə edib demək istəyirəm ki, Türkiyədə bəzi dairələr ticarəti hər şeydən üstün tuturlar. Amma heç bilmirlər ki, ticarət nə nəticə verəcəkdir. Yəni, Türkiyə ilə Ermənistan arasındakı ticarət bir qazanc gətirəcək deyə, Ermənistanla Türkiyə arasındakı sərhədlərin açılması, sərhəd rejiminin yumşaldılması və başqa bu kimi hərəkətlər meydana axır. Mən hörmətli xanım Tansu Çillərə söylədim ki, bir il və ya ondan da əvvəl siz məsələni belə qoydunuz ki, "H-50" hava yolunu açandan sonra Ermənistana təsir etmək üçün bizim əlimizdə bir əsas olacaqdır və Ermənistan da yumşalacaqdır, bu da ümumi işə yardım edəcəkdir. Biz buna razı deyildik.

Amma Türkiyə bunu istədi və biz də inandıq ki, bəli, doğrudan da belədir. Amma bu hava yolunu açdınız, nə oldu? Birincisi, bəs bu əsas haradadır, ondan nə üçün istifadə etmirsiniz?

İkincisi, Ermənistanın yumşalması baş verdimi? Olmadı, yoxdur. Ona görə də indi Ermənistanla Türkiyə arasında ticarət əlaqələri lazımdırmı?

Yerevandan Trabzona təyyarələr uçur. Bunu biz sizin qəzetlərdən bilirik. Sizin qəzetləriniz bunu yazdı, biz də Bakıda bunu bildik. Biz bu barədə Türkiyə hökumətinə öz etirazımızı bildirdik. Mən dünən də bu barədə danışdım. Söyləyirlər ki, bu, özəl uçaqdır, təyyarədir. Amma indi uçaqların hamısı özəldir. İndi hansı uçaq dövlətindir? Bir də ki, fərqi nədir – özəldir, ya qeyri-özəldir?

Ona görə də bu cür hərəkətlər bizi çox rahatsız edir. Bir il bundan əvvəl də belə şeylər, Ermənistanla Türkiyə arasında sərhədin açılması məsələsi olmuşdu. Məsələn, Gürcüstanın xarici işlər naziri bir-iki ay bundan əvvəl Azərbaycana gəlmişdi. O söyləyirdi ki, guya Türkiyə deyir ki, Gürcüstanla Türkiyə arasındakı sərhəddə iki qapı var, üçüncüsünü də açmaq lazımdır. Bunu Türkiyə istəyir. Nə üçün? Çünki həmin üçüncü qapı [331-332] Gürcüstanın ermənilər yaşayan sərhədindədir. Deməli, bu, ermənilərə lazımdır. Mən gürcülərdən soruşdum ki, iki qapı sizə yetərlidirmi? Dedilər ki, bizə yetərlidir, üçüncü bizə lazım deyil. Amma bunu bizdən Türkiyə istəyir, biz də sizinlə məsləhətləşirik, soruşuruq – sizin fikriniz necədir? Biz buna etiraz etdik. Bilmirəm, bizim etirazımız qəbul olundu, yoxsa yox.

Bilirsiniz, Türkiyədə heç bir şeyi unutmayın. Mən Türkiyədəki bütün qardaşlarıma, bacılarıma deyirəm ki, bunu unutmayın. Bu gün mən Türkiyə Böyük Millət Məclisində də dedim. Kimsə, hansısa tacir nəsə qazanacaq, qazanmayacaq, – Allah bilir. Ancaq milli mənafeyi, bizim böyük milli işlərimizi ona qurban vermək olmaz. Yaxud, bəzi tacirlər deyirlər ki, "Onsuz da Türkiyənin mallarını İran alır, aparıb Ermənistanda satır, qazanır. Biz özümüz satarıq, özümüz də qazanarıq". Birincisi, biz bunu araşdırdıq. Bu, doğru deyil. Türkiyənin bəzi şirkətləri gizli olaraq Gürcüstanın üstündən Ermənistanla ticarət edirlər. Ancaq öz işlərini gizlətmək üçün bu yalanı ortaya atıblar ki, guya onu İran alıb, aparıb Ermənistanda satır. İrana, İran tacirlərinə Türkiyə mallarını alıb aparıb Ermənistanda satmaq lazım deyil. Çünki İranın özünün çox malı var və o malı da Ermənistanda gen-bol satır. İran ilə Ermənistan arasında əlaqələr indi o qədər açılıb, genişlənib, o qədər güclənibdir ki, bu iki ölkə arasındakı 40 kilometrlik kiçik sərhəddə qısa müddətdə böyük bir körpü tikiblər, həmin körpüdən İranın gündə 100 yük maşını keçir. İranlılar Ermənistanın bütün bazarlarını malla doldurublar. Ona görə də iranlıya lazım deyil ki, Türkiyə malını aparıb Ermənistanda satsın. O öz malını aparıb satır.

Bax, bu cür hərəkətlər bizi çox incidir. Mən hörmətli prezident Süleyman Dəmirələ də, hörmətli baş nazir Nəcməddin Ərbakana da, hörmətli xanım Tansu Çillərə də bu barədə fikirlərimizi bildirmişəm, bu gün sizə də bildirirəm. Türkiyənin ictimaiyyətinə bildirmək istəyirəm ki, onlar gərək Ermənistana belə güzəştlər edilməsinə heç vaxt imkan verməsinlər.

Əgər Ermənistan Azərbaycanın işğal olunmuş torpaqlarından çıxsa və Azərbaycanın 1 milyondan artıq vətəndaşı – sizin bacılarınız, qardaşlarınız, türklər öz yerlərinə-yurdlarına qayıtsa, əgər Ermənistan öz torpaq iddialarından, o cümlədən [332-333] Türkiyəyə olan torpaq iddialarından geri çəkilsə, onda şübhəsiz ki, Ermənistanla da bir normal ticarət əlaqələri yaratmaq olar. Mən bunu inkar etmirəm. Hesab etmirəm ki, hər şeyi ömürlük qapamaq lazımdır. Ancaq bir halda ki, Ermənistan bu cür hərəkət edir, onun müqabilində Türkiyə tərəfindən ona münasibəti yumşaltmaq, onu açmaq, orada bir kozır əldə etmək siyasəti nəticəsiz siyasətdir.

Sən ikinci sual da vermişdin, – Bakı-Ceyhan boru xətti barədə. Bilirsiniz, Rusiyanın təsiri barədə fikirləri siz unudun. Bizim üzərimizdə Rusiyanın təsiri yoxdur. Rusiyanın bizim üzərimizə basqısı, hər şeyi var. Biz müstəqil dövlətik, amma bizim üzərimizə basqı yapırlar. Şübhəsiz ki, 1994-cü ildə biz ilk müqaviləni imzalayanda başımıza nə işlər gətirdilər – bizim insanları terror etdilər, öldürdülər. Rusiyanın kəşfiyyat orqanları bizim həbsxanalardan dörd cinayətkarı çıxardılar, apardılar. Çox işlər gördülər.

Bakı-Ceyhan xətti barədə mən hər yerdə demişəm, bu gün Böyük Millət Məclisində bir daha demişəm. Bizim istəyimiz odur, onu da edəcəyik. Biz çox şeyləri demişik, istəmişik, həyata da keçirmişik. Bunu da həyata keçirəcəyik.

**Sual: Hörmətli prezident, Dağlıq Qarabağda müstəqillik elan ediblər. Buna necə baxırsınız?**

**Cavab:** Dağlıq Qarabağın müstəqilliyi ola bilməz.

**Sual: Anıma ermənilər bunu istəyir?**

**Cavab:** Ermənilər ancaq bunu istəyirlər.

**Sual: Cənab prezident, əgər Dağlıq Qarabağın müstəqilliyi de-fakto elan edilsə, Azərbaycanın taleyi nə ola bilər?**

**Cavab:** De-fakto bu müstəqilliyi indi də yaradırlar. Ancaq bunu heç kəs tanımır. Onlar da məsələnin bu cür bitdiyini hesab etmirlər.

**Sual: Əgər onlar bu işə cəhd göstərərlərsə?**

**Cavab:** Bunu gələcək göstərəcək.

**Sual: Hörmətli prezident, Siz bütün çıxışlarınızda Mustafa Kamal Atatürkün Türkiyə xalqı qarşısındakı xidmətlərini bir daha yüksək qiymətləndirdiniz. Atatürkün adını tez-tez çəkməyiniz nə ilə əlaqədardır?** [333-334]

**Cavab:** Bilirsiniz, mən XX əsr tarixinin çoxunu şəxsən yaşamışam. XX əsr sona çatır. Bu dövrdə mən Türkiyənin həyatını izləmişəm, Azərbaycanın həyatı mənim həyatım olubdur, mən bu tarixi yaxından hiss etmişəm, görmüşəm, oxumuşam. Mən öz fikirlərimi söyləyirəm. Mən Türkiyə haqqında, Türkiyə Cümhuriyyəti, onun keçdiyi yol barədə sadəcə olaraq öz fikirlərimi deyirəm. Mən bu ölkəyə gəlmişəm, gərək bu ölkənin tarixi, keçmişi, bu günü, gələcəyi haqqında öz fikirlərimi söyləyəm. Mən dostam, qardaşam. Mustafa Kamal Atatürk haqqında dediklərim sözlər yetərlidir. Əgər istəyirsiniz, yenə də deyim.

**Sual: Türkdilli respublikalar, o cümlədən Azərbaycan öz müstəqilliyini qazananda demişdilər ki, Türkiyə Respublikasını model kimi götürəcəklər.**

**Cavab:** Bəli, bunu mən bu gün də söyləmişəm. Amma bu o demək deyildir ki, bu modeli olduğu kimi götür, istifadə et. Yəni buradakı təcrübədən hansı Azərbaycana uyğundursa, münasibdirsə, biz onu götürürük, qəbul edirik. Türkiyə ilə Azərbaycan nə qədər yaxın olsa da, bizim fərqlərimiz də var. Bilirsiniz, Türkiyəni götürün: Osmanlı imperatorluğu olub, o dağılıb, dağılmış imperatorluğun yerində Türkiyə Cümhuriyyəti qurulub. Türkiyə Cümhuriyyəti də 70 ildən çoxdur yaşayır. Amma XX əsrdə Azərbaycanın başına nə işlər gəlibdir? XIX əsrin əvvəlində Azərbaycan Rusiyanın istilası altına düşüb. Sonra – XX əsrin əvvəllərində Rusiyada Oktyabr inqilabı oldu. Bu inqilabdan sonra Rusiya dağıldı, yeni bir dəyişiklik əmələ gəldi.

Azərbaycan bu fürsətdən istifadə edib 1918-ci ildə demokratik bir cümhuriyyət yaratdı. Ancaq bu cümhuriyyət çox yaşamadı. Çünki Rusiyada yaranmış Sovet hakimiyyəti keçmiş çar imperatorluğunun bütün ərazisinə yayıldı. Ona görə də Azərbaycan Sovetlər Birliyinin içində qaldı. 70 il biz belə olduq. 70 ildən sonra müstəqilliyimizi əldə etdik. Müstəqilliyimizi hansı şərtlər içində əldə etdiyimizi mən bu gün Böyük Millət Məclisindəki nitqimdə dedim. Bunu təkrar etməyə ehtiyac yoxdur.

Yəni, XX əsrdə Türkiyənin, Azərbaycanın tarixinin nədən ibarət olması arasında fərq çoxdur. Bunlar bir-birindən çox [334-335] fərqlənir, elədirmi? Ona görə də Türkiyə cümhuriyyət, demokratiya, insan hüquqları və digər ümumbəşəri dəyərlərin hansından ki, istifadə edibdir və çox yaxşı nəticələr əldə edibdir. Bunları bizim Türkiyədən götürməyimiz daha faydalıdır, nəinki, Almaniyadan, Fransadan götürməyimiz. Çünki Türkiyə ilə Azərbaycan eyni millətdir, eyni dinə, ənənələrə malik olan bir xalqdır. Türkiyə bu demokratiya yolunu keçibdir, biz də onu götürürük. Amma hansı yerə qədər, necə demokratiyanı? – bu, sizdə bu cür, bizdə başqa cür ola bilər. Heç siz də iddia etməyin ki, sizdəki demokratiya gəlib Azərbaycanda da eyni olmalıdır.

**Sual: Cənab prezident, bəs dünyəvilik baxımından necə?**

**Cavab:** Əlbəttə, şübhəsiz ki, bu mütləq olmalıdır. Biz bunu bəyan etmişik. Biz müstəqilliyimizi əldə edən kimi bəyan etmişik ki, Azərbaycanda demokratik, hüquqi, dünyəvi, yəni layiqli dövlət quruculuğu gedir. Bu, bizim əsas prinsipimizdir. Bu prinsip bizim üçün dəyişməzdir. Siz bunu dəyişdirirsiniz, yoxsa necə?

**Sual: Cənab prezident, Türkiyə qəzetləri vaxtilə Azərbaycanda dövlət çevrilişinə olmuş cəhdlər barədə çoxlu yazılar dərc edirlər. Siz də Böyük Millət Məclisindəki nitqinizdə bu barədə geniş danışdınız və Azərbaycandakı bu çevriliş cəhdlərində Türkiyə vətəndaşlarının da iştirak etdiyini söylədiniz. Siz nitqinizdə həmçinin dediniz ki, həmin adamlar söyləmişdilər ki, Türkiyəyə gedəndən sonra səssizcə oturacaqlar. Ancaq onlar tez-tez televiziyaya çıxıb həmin çevriliş cəhdləri barədə müsahibələr verirlər. Siz buna necə baxırsınız?**

**Cavab:** Böyük Millət Məclisindəki çıxışımda mən bu barədə bütün fikirlərimi səmimi olaraq dedim. Güman edirəm ki, hökumət adamları hamısı orada idi.

**Sual: Cənab prezident, Siz Türkiyə iş adamlarının Azərbaycana sərmayə qoymasının vəziyyətindən razısınızmı? Türkiyə ilə Azərbaycan arasında iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsi üçün bir çox layihələr mövcuddur. Amma əslində Azərbaycanda Türkiyənin böyük şirkətləri yoxdur. Olanların hamısı kiçik və orta özəl [335-336] şirkətlərdir. Ona görə də bir çoxları ölkələrimiz arasındakı iqtisadi əlaqələrin lazımi səviyyədə olmadığını söyləyirlər. Siz bunu doğru hesab edirsinizmi?**

**Cavab:** Xeyr, doğru deyil. Azərbaycanda Türkiyənin böyük şirkətləri yoxdur. Respublikamıza Türkiyənin əsasən kiçik və orta şirkətləri gəlirlər. Ancaq böyük şirkətlərin nə üçün gəlmədiyini bilmirəm. Doğrudur, biz neft müqavilələrimizdə "Türk petrolları" şirkətinə yer verdik. Bu başqadır. Amma böyük şirkətlər gəlib respublikamızda iş görmürlər. Nə üçün görmürlər, deyə bilmərəm.

**Sual: Cənab prezident, Siz bunun səbəbini bu günlərdəki danışıqlarınızda soruşmadınız?**

**Cavab:** Mən bunu dəfələrlə söyləmişəm. Amma bu şirkətlər hökumət dairələrinə tabe deyillər, onların hər biri sərbəstdir.

**Sual: Məgər dövlət onlara təsir göstərə bilməz?**

**Cavab:** Bəli, təsir edilə bilərsə, edilsin. Güman edirəm, bu şirkətlər çox səhvə yol verirlər. Mən bilirəm ki, onlar başqa ölkələrə daha çox gedirlər. Məsələn, Türkmənistana, Orta Asiyanın başqa ölkələrinə daha çox sərmayə qoyurlar. Amma onlar Azərbaycana sərmayə qoymurlar. Nə üçün, bilmirəm.

**Sual: Türkiyənin böyük şirkətləri iddia edirlər ki, guya Azərbaycanda onların fəaliyyət göstərməsi üçün hüquqi baza yoxdur. Onların iddiaları var. Siz bunu doğru hesab edirsinizmi?**

**Cavab:** Doğru deyil, Azərbaycanda hər şey var. Azərbaycanda hüquqi baza, qanunlar, bütün şərait var. Amma kim gəlmirsə, uduzur. Eybi yoxdur, bu gün gəlməsə də, sonra gələcək.

**Sual: Cənab prezident, Türkiyə Azərbaycan barədə öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirirmi? Hiss edilir ki, Türkiyədən incimisiniz...**

**Cavab:** Mən nə vaxt dedim ki, incimişəm? Siz onu necə hiss etdiniz?

**Sual: Bundan qabaqkı görüşlərinizdən biz bunu hiss etdik. Yəni demək istəyirəm ki, Siz Türkiyənin Ermənistana qarşı münasibətinin yumşalmasından incimisinizmi?** [336-337]

**Cavab:** Bəli, Ermənistana münasibət məsələsində həqiqətən incimişəm. Mən bunu açıq deyirəm. Çünki bəzi vəzifəli adamlar belə şeylər söyləyirlər. İndi də mən xəbərdarlıq edirəm ki, belə şeylərə yol verilməsin.

**Sual: Siz Türkiyədən iqtisadi yardım istəmisiniz. Türkiyə bu yardımı ayıracaqmı?**

**Cavab:** Bilirsiniz, yardım etmirlər. Mən söylədim ki, son üç ildə Rusiya Ermənistana bir milyard dollar dəyərində silah veribdir. Amma təkcə silah deyil. Ermənistanda böyük bir atom elektrik stansiyası vardı. 1990-cı ildə onu bağladılar. Çünki Ukraynanın Çernobıl şəhərindəki atom elektrik stansiyasında böyük bir fəlakət oldu. Çernobıl faciəsindən 11 il keçib, amma insanlar indiyə qədər şikəstdirlər, əlildirlər. Buna görə bu, təhlükəli bir şeydir. Ermənilər 1990-cı ildə atom elektrik stansiyasını tamam bağladılar. Amma sonra, iki il bundan əvvəl Rusiyadan həm böyük maliyyə, həm də texniki yardım verdilər, onların mütəxəssisləri, alimləri gəlib həmin atom elektrik stansiyasını bərpa etdilər, işə saldılar.

Bu atom elektrik stansiyası, ümumiyyətlə Ermənistan üçün də. Türkiyə üçün də təhlükəlidir. Bunu bilin, əgər orada bir qəza baş versə, Türkiyənin yarısı gedəcəkdir. Ona görə də mən hesab edirəm ki, Türkiyə buna etiraz etməlidir. Ancaq Rusiya bu stansiyanın işə salınmasına kömək edir. Rusiya başqa şeylər də edir.

1992-ci ildə Amerika Azərbaycana qarşı embarqo qoyubdur, Konqres qərar çıxarıbdır. Orada qanuna bir 907-ci düzəliş var ki, guya Azərbaycan Ermənistanı blokadaya aldığına görə ABŞ-dan Azərbaycana yardım qadağandır. Heç bir yardım yoxdur. Amma Amerikanın qanununa görə keçmiş Sovetlər Birliyinə mənsub olmuş, indi müstəqil ölkələr olan dövlətlərə Amerika yardım edir. Amerika Ermənistana daha çox yardım edir, amma Azərbaycana yardım etmir. Yenə də deyirəm, oradan Amerika Azərbaycana embarqo qoyubdur, yardım etmir. Amma Ermənistana yardım edir; oradan Rusiya Ermənistana həm bir milyard dollar dəyərində silah verir, həm də başqa yardımlar edir. Amma Azərbaycana heç kəs, Türkiyə də yardım etmir. Mən bunu söylədim. [337-338]

**Sual: Siz yardım almaq barədə müraciət etdiniz, nə cavab aldınız?**

**Cavab:** Söylədilər ki, bu məsələyə baxacaqlar.

**Sual :Cənab prezident, deyirlər ki, "Eksimbank" Azərbaycana krediti artıracaq. Bu doğrudurmu?**

**Cavab:** Bilirsinizmi, "Eksimbank"ın krediti bizim başımıza bir bəla olubdur. Biz 71 milyon kredit almışıq. Onun da çox hissəsini buğdaya vermişik. Azərbaycanın çörəyə ehtiyacını ödəmək üçün buğda gətirilməli idi. İndi biz o krediti geri qaytara bilmirik. Son iki ildə 7 milyon dollar faiz vermişik. Əgər krediti geri qaytara bilməsək, biz 2000-ci ilədək 20 milyon dollar faiz verəcəyik. Krediti də qaytara bilmirik. Mən o vaxt Azərbaycana gec gəldim. Bu, mənim Azərbaycana rəhbərlik etdiyim vaxtdan əvvəl alınan kreditdir. Mən bilsəydim belə olacaq, heç bu krediti də almazdıq, necə olsa yaşayacaqdıq.

**Sual: Məgər bu kreditin vaxtı uzadılmayıb?**

**Cavab:** Onun vaxtının uzadılmasını neyləyirəm? Biz bu krediti almışıq, amma onu geri qaytara bilmirik. Belə kredit mənə nədən ötrü lazımdır? Belə kredit lazım deyil.

**Sual: Cənab prezident, neftə görə indi Qərb ölkələrinin, xüsusən Amerika Birləşmiş Ştatlarının Azərbaycana böyük marağı vardır. "AMOKO", "Britiş petroleum" və digər nüfuzlu şirkətlər Azərbaycanda fəaliyyət göstərir. Ermənistan-Azərbaycan münaqişəsi aradan qaldırılmadığına görə bəzi adamlar fikirləşir ki, bu cür böyük neft şirkətləri nə üçün öz ölkələrinin başçılarına və müxtəlif dairələrə bu münaqişənin həlli ilə əlaqədar təsir göstərmirlər? Əgər gələcəkdə Azərbaycan işğal olunmuş torpaqları müharibə yolu ilə azad etmək istəsə, bu neftin taleyi necə olacaqdır?**

**Cavab:** Bilirsiniz, sizin bu sualınız "O belə olsa, bu belə olacaq, bu belə olsa, o belə olacaq"dan ibarətdir. Bu suala sən özün cavab tap.

**Sual: Cənab prezident, Siz İstanbulda Ter-Petrosyanla 45 dəqiqəlik görüş keçirdiniz. Bu görüşün nəticəsi nə oldu?** [338-339]

**Cavab:** Görüşümüzün məqsədi odur ki, biz Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli imkanını tapaq. Biz deyirik ki, bunun yolu Lissabon Zirvə görüşündə qəbul olunmuş prinsiplərdir. Onlar bu prinsipləri qəbul etməyiblər. Amma nə istədiklərini bilmirəm. Ola bilər, Ter-Petrosyanla yenə görüşüm. Güman etməyin ki, hər görüşdən böyük bir nəticə ola bilər. Bu o qədər mürəkkəb, o qədər çətin məsələdir ki, bir-iki görüşlə heç bir nəticə almaq olmaz. Amma görüşmək lazımdır.

Sağ olun! [339-340]

## TÜRKİYƏNİN "SAMANYOLU" TELEVİZİYASINA MÜSAHİBƏ

*Ankara*

*6 may 1997-ci il*

**Sual**: Cənab prezident, bir neçə gündən sonra 74 yaşınız tamam olacaqdır. Bu münasibətlə Sizi təbrik edir, Sizə uzun ömür, cansağlığı arzu edirəm. Cənab prezident, Siz Böyük Millət Məclisində çox tarixi bir nitq söylədiniz. Azərbaycan ilə Türkiyə arasındakı mövcud iqtisadi iş birliyindən razısınızmı?

**Cavab**: Bilirsiniz, iş birliyindən mən məmnunam. Çünki – mən bunu Məclisdə də dedim – son üç ildə Türkiyə ilə Azərbaycan arasında ticarət üç dəfə artıb. Ancaq mütləq rəqəmi götürəndə bu, o qədər də böyük deyil. Mən bu artımdan məmnunam, amma hesab edirəm ki, Türkiyə ilə Azərbaycan arasında iqtisadi iş birliyinin daha böyük imkanları vardır. Bu imkanlardan istifadə etmək lazımdır. Biz də öz tərəfimizdən çalışmalıyıq. Mən Türkiyənin iş adamlarını Azərbaycana dəvət edirəm, gəlsinlər, respublikamızın imkanlarından istifadə etsinlər. Onlar bir çox ölkələri gəzirlər, amma qonşuluqda yerləşən və Türkiyə üçün ən yaxın dost olan Azərbaycanı unudurlar. Mən onları Azərbaycana dəvət edirəm.

**Müxbir**: Dünyanın hər yerində yaxşı bilirlər ki, Azərbaycanda iqtisadi əlaqələr üçün çox geniş imkanlar, zəngin neft yataqları vardır.

**Cavab**: Bəli, Qərb ölkələrindən bizə çox böyük şirkətlər gəlib.

**Sual**: Bəs Türkiyədən?

**Cavab**: Türkiyədən böyük şirkətlər Azərbaycana gəlmir.

**Sual**: Cənab prezident, indi Türkiyədə xeyli azərbaycanlı tələbə təhsil alır. Son illər Azərbaycanda xeyli türk [340-341] təhsil ocaqları fəaliyyətə başlamışdır. Azərbaycan dövləti bunu necə qiymətləndirir?

**Cavab**: Mən həmişə buna dəstək vermişəm və bu gün də dəstək verirəm. Mən güman edirəm ki, bunlar Azərbaycan-Türkiyə dostluğunun və əməkdaşlığının inkişaf etməsinə kömək edəcəkdir.

**Sual**: Cənab prezident, neft kəmərləri haqqında Sizə çoxlu sual verilib. İcazə versəniz mən də "Samanyolu" televiziyası adından Sizə bir sual verərdim. Sizcə, bu neft kəməri borusunun Türkiyədən keçməsi şansı böyükdürmü?

**Cavab**: Mənim könlüm həmişə Türkiyə ilə birgədir. Ona görə də çalışacağam ki, bu kəmər Türkiyədən keçsin.

**Sual**: Cənab prezident, Siz Gürcüstan və Ukrayna ilə strateji əməkdaşlıq barədə bəyannamə imzalamısınız. Bu bəyannamələrin Azərbaycan üçün faydası əsasən nədən ibarətdir?

**Cavab**: Bilirsiniz, biz Türkiyə ilə strateji əməkdaşlığın dərinləşdirilməsi barədə bəyannamə imzaladıq. Biz Gürcüstan və Ukrayna ilə də belə bir sənəd imzalamışıq. Bu, Azərbaycanın Gürcüstanla, Ukrayna ilə əlaqələrinin daha da genişləndirilməsi və gələcək üçün çox faydalıdır, əhəmiyyətlidir.

**Müxbir**: Hörmətli prezident, bu gün cənab Süleyman Dəmirəl Sizə "Dövlət nişanı"nı təqdim etdi.

**Cavab**: Bu nişan Türkiyə Cümhuriyyətinin ən böyük mükafatıdır. Mən bu "Dövlət nişanı"nı çox böyük məmnuniyyətlə qəbul etdim. Türkiyə Cümhuriyyətinin, dövlətinin belə bir hörmətli nişanına layiq olmaq, şübhəsiz ki, böyük şərəfdir. Mən bunu fərəh hissi ilə qəbul edirəm. Hesab edirəm ki, bu, mənim xidmətlərimə verilən ən böyük qiymətdir, eyni zamanda Azərbaycan-Türkiyə dostluq əlaqələrinin yüksəlməsinə xidmət edir.

**Sual**: Son zamanlar Ermənistan sürətlə silahlanır. Ermənistanın belə sürətlə silahlanması təkcə Azərbaycan üçün təhlükəlidir?

**Cavab**: Təkcə Azərbaycan üçün təhlükəli deyil. Mən Böyük Millət Məclisində bu məsələ barədə ətraflı danışdım. Rusiyanın Ermənistana verdiyi 1 milyard dollar məbləğində [341-342] silah təkcə Azərbaycanın əleyhinə işlətmək üçün deyil. Ümumiyyətlə Ermənistanda Rusiyanın böyük sayda əsgərlərinin və hərbi bazasının, silahlı dəstələrinin olması təkcə Azərbaycan üçün yox, o cümlədən Türkiyə üçün təhlükəlidir.

**Sual**: Ölkə xaricində, başda Azərbaycan olmaqla türk dünyasında bizim xeyli tamaşaçımız vardır. "Samanyolu" televiziyası barədə nə deyə bilərsiniz?

**Cavab**: Sizə birinci növbədə uğurlar diləyirəm, bu televiziyanı yaradanlar bir neçə ildir ki, mənimlə yaxşı ünsiyyət qurublar. Mən bu televiziyanın yaradılmasına dəstək vermişəm, yardım etmişəm və bundan sonra da edəcəyəm. Sizə uğurlar diləyirəm.

**Müxbir:** Hörmətli prezident, biz Sizi anadan olmağınız günü münasibətilə bir daha ürəkdən təbrik edir və sizə daha böyük uğurlar, möhkəm cansağlığı arzulayırıq. [342-343]

## TÜRKİYƏNİN "NTV" TELEVİZİYASINA MÜSAHİBƏ

*Ankara*

*6 may 1997-ci il*

**Sual:** Cənab prezident, bilirsiniz ki, Rusiya Ermənistana hər cür yardım göstərir, ona görə də Ermənistan-Azərbaycan münaqişəsi hələlik öz həllini tapmır. Rusiya Ermənistana gizli yolla silah verir. Bununla əlaqədar Azərbaycan ilə Türkiyə arasında bu sahədə bir iş birliyinin yaradılması faydalı deyildirmi?

**Heydər Əliyev:** Bildiyiniz kimi, bu gün mən Böyük Millət Məclisində də söylədim. Ermənistanda Rusiyanın hərbi bazası, əsgəri dəstələri vardır. Bundan başqa Rusiya ilə Ermənistan arasında hərbi iş birliyi barədə anlaşma imzalanıbdır. Bu anlaşma artıq həm Ermənistanın, həm də Rusiyanın parlamentlərində təsdiq olunubdur. Rusiyanın rəsmi orqanlarında – Müdafiə Nazirliyində, parlamentin bir neçə komissiyası tərəfindən aparılan araşdırmalar nəticəsində hər şey aydın oldu, sənədlər tapıldı ki, Rusiya Ermənistana son üç il müddətində bir milyard dollar dəyərində ağır silahlar vermişdir.

Bu, təkcə Azərbaycan üçün yox, bütün bölgədə, o cümlədən Türkiyə üçün çox təhlükəlidir. Mən bu gün Böyük Millət Məclisindəki nitqimdə də bunu anlatdım.

**Sual:** Cənab prezident, bu səfəriniz zamanı belə bir anlaşma bağlanması barədə müzakirələr apardınızmı?

**Heydər Əliyev:** Biz bu məsələni müzakirə etdik və gələcəkdə də müzakirə edəcəyik.

**Sual:** İkinci sualım iqtisadiyyatla əlaqədardır. Bir neçə il bundan əvvəl Türkiyənin "Eksimbank"ı Azərbaycana 250 milyon dollarlıq kredit açmışdı. Lakin bu kreditin çox [343-344] az bir hissəsi ayrıldı. Bu kreditdən istifadə olunması üçün hansı layihələr vardır?

**Heydər Əliyev:** Bilirsiniz, bu kredit açılmışdır. Lakin ondan istifadə edilməsi Azərbaycana heç bir xeyir verməmişdir. Bu vəsaitin 71 milyon dolları xərclənibdir. Onun böyük bir qismi o illər, yəni 1993-1994-cü illərdə – Azərbaycanda ağır vəziyyət olan vaxt buğda alınmasına sərf edilibdir. Deməli, insanlara çörək vermək üçün buğda alınıb. Böyük bir qismi də o vaxt digər məsələlər üçün istifadə edilib. Amma respublikamız bu kreditdən elə bir fayda götürməmişdir. Bu krediti geri qaytarmaq imkanımız yoxdur. Amma biz 10 milyon dollar da onun faizini verməyə məcburuq. Deməli, 71 milyon dollar götürmüşük. Əgər ondan bir şey qazansaydıq, başqa məsələ. Amma bir şey qazanmamışıq. Bu vəsait adamların çörəyə olan tələbatının ödənilməsinə xərclənib. Deməli biz 10 milyon faiz ödəmişik, indi 71 milyon dollar da qalıb. Mən hörmətli prezident Süleyman Dəmirəldən, baş nazirin müavini, xarici işlər naziri xanım Tansu Çillərdən, baş nazir Nəcməddin Ərbakandan xahiş etdim ki, bu məsələyə baxsınlar. Bunu yardım kimi silsinlər. Böyük ölkələr başqa dövlətlərə nə qədər yardımlar edir.

**Sual:** Bu kreditin qalan hissəsi hansı şərtlərlə verilməlidir?

**Heydər Əliyev:** Əgər qalan hissəsi də bu şərtlərlə veriləcəksə, bunu almaq heç lazım deyil. Çünki belə şərtlərlə biz nə edə bilərik?

**Sual:** Hörmətli prezident, Yuxarı Qarabağ münaqişəsinin həlli ilə əlaqədar bəzi söhbətlər yayılır. Guya siz demisiniz ki, Yuxarı Qarabağ Ermənistan Silahlı Qüvvələrinin işğalından azad olunsa, Azərbaycanın ərazi bütövlüyü təmin edilsə, neft kəmərlərindən biri Ermənistanın ərazisindən keçə bilər. Siz necə baxırsınız, ermənilər bu şərtlə razılaşa bilərmi?

**Heydər Əliyev:** Dağlıq Qarabağ Azərbaycan torpağıdır. İndi Ermənistan silahlı dəstələri oranı sadəcə olaraq işğal ediblər. Amma bu, Azərbaycan torpağıdır və Azərbaycanın torpağı olaraq qalmalıdır. Ancaq söhbət Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həllindən gedir. Ötən ilin dekabrında [344-345] ATƏT-in Lissabon zirvə görüşü keçirilmişdir. Orada bu məsələnin sülh yolu ilə həll edilməsinin əsas prinsipləri ATƏT-in üzvü olan 53 dövlət tərəfindən qəbul olunmuşdur. Bu prinsipləri təkcə Ermənistan qəbul etməmişdir.

Biz belə hesab edirik ki, münaqişə bu prinsiplər əsasında həll olunmalıdır. İndi ATƏT-in Minsk qrupunun üç həmsədri müəyyən edilibdir. Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa Azərbaycan və Ermənistanla birlikdə çalışmalıdırlar ki, bu prinsiplər həyata keçirilsin, tətbiq edilsin, beləliklə, bu məsələ sülh yolu ilə aradan qaldırılsın.

O ki qaldı neft boru kəmərinin Ermənistandan keçməsi məsələsi, buna baxmaq olar. Biz şübhəsiz ki, bunu Ermənistana hədiyyə kimi verə bilmərik. Böyük neft borusu elə bir məsələdir ki, bu kəmər hansı ölkənin ərazisindən keçsə, – ölkə daim qazanacaqdır. Ona görə də Ermənistana qazanc vermək üçün gərək Ermənistan da bunun müqabilində bir iş görsün. Bu məsələ müzakirə edilməlidir.

**Sual:** Ermənistan-Azərbaycan münaqişəsinin həllində Türkiyənin səylərini necə qiymətləndirirsiniz?

**Heydər Əliyev:** Türkiyə çalışır. Hörmətli prezident cənab Süleyman Dəmirəllə biz Lissabonda çox sıx danışıqlar apardıq, məsləhətləşdik. Mən dünənki və bugünkü söhbətlərimdə də rica etdim ki, Türkiyə bu məsələlərə daha çox diqqət yetirsin.

**Sual:** Cənab prezident, Bakı-Ceyhan xətti çəkiləcəkmi? Azərbaycan nefti Türkiyəyə nə vaxt gəlib çatacaqdır?

**Heydər Əliyev:** Bakı nefti mütləq Türkiyəyə gəlib çatacaq. Ola bilər, ilk neft bu istiqamətə, yəni Qara dənizdə Gürcüstanın Supsa limanına gələn ilin noyabr ayında gəlib çatsın.

**Sual:** Neft kəmərinin öz ərazisindən keçməsində yəqin ki, çox ölkələr maraqlıdırlar. Buna görə də Bakı-Ceyhan xətti gerçəkləşəcəkmi?

**Heydər Əliyev:** Gerçəkləşəcəkdir.

**Sual:** Bilirsiniz, neft kəmərinin Türkiyədən keçməsi bizim arzumuzdur. Amma bu məsələdə müəyyən sıxıntılar da var. Rusiyanın bu məsələdə öz marağı var. Azərbaycan bu təsirin qarşısında dayana biləcəkmi?

**Heydər Əliyev:** Əlbəttə, bunlar çətin işlərdir. Ümid edirəm ki, biz bu məsələnin həllini tapacağıq. [345-346]

**Sual:** Cənab prezident, Ankaraya rəsmi səfərinizdə nəzərdə tutduğunuz məsələlər öz həllini tapdımı? Parlamentdəki çıxışınızda mən Sizin Türkiyədən incidiyinizi anladım. Doğrudanmı siz Türkiyədən incimisiniz?

**Heydər Əliyev:** Parlamentdəki nitqimdə hər şeyi açıq dedim ki, 1995-ci ilin martında Azərbaycanda ikinci böyük çevriliş cəhdi oldu. Yəni bu dövlət çevrilişi cəhdlərindən birincisi 1994-cü ilin oktyabr ayında olmuşdur, ikincisi ondan altı ay sonra, martda baş verdi. Parlamentdəki nitqimdə mən bu barədə çox geniş danışdım. Təəssüf ki, bu çevriliş cəhdinin hazırlanmasında və icra olunmasında Türkiyə vətəndaşları da iştirak etmişdilər. Yəni Türkiyə vətəndaşları bu çevrilişi edənlərdən olmuşdular. Çox təəssüf ki, Türkiyənin bir sıra vəzifəli şəxsləri də bu işdə iştirak etmişdilər.

1995-ci il martın 17-də dövlət çevrilişinə cəhd göstərənlər gecə hücum etdilər ki, Prezident sarayını zəbt etsinlər, prezidentə qarşı terror etsinlər. Biz bunun qarşısını aldıq. Şübhəsiz ki, bizim əsgəri hissələrlə onların arasında atışma oldu. Bəzi insanlar qırıldı. Nəhayət, sabahı gün oradan bəzi məktublar, kağızlar aşkar edildi. Məlum oldu ki, Azərbaycanda Fərman Dəmirqol kimi bir insan yaşayırmış. O, Türkiyədən gəlib, Türkiyə vətəndaşıdır. Xalq Cəbhəsinin hakimiyyəti dövründə onu gətirib parlamentdə müşavir vəzifəsinə qoymuşdular. Amma o, müşavirlik etməyibdir. Bəzi adamlar da ona çox dəstək veriblər, sonra da Azərbaycan Universitetinin müəllimi ediblər, amma müəllimlik də etməyibdir, sizdə bir TİKA təşkilatı var, eyni zamanda onun təmsilçisi olubdur. Türkiyənin böyük elçisi Altan Karamanoğlu hər ay Fərman Dəmirqola TİKA-nın maaşını verirmiş ki, guya o, TİKA-ya xidmət edir və maaş alır.

Çevriliş cəhdi ərəfəsindəki dörd-beş ay içərisində o, həmin polis polkovniki və digərləri ilə birlikdə bu çevrilişi hazırlamışdı. Onu hazırlayanlardan biri olmuş və hətta Türkiyəyə gəlib buradan bəzi təlimatlar almışdı. Sonra Naxçıvanın Kələki kəndinə getmişdi. Bilirsiniz ki, keçmiş respublika prezidenti Əbülfəz Elçibəy 1993-cü ilin iyun ayında qaçandan orada, dağda yerləşən doğulduğu Kələki kəndində yaşayır. Gedib onunla görüşmüş, danışmışdı ki, çevriliş ediləcək, Heydər Əliyev [346-347] terror yolu ilə öldürüləndən sonra Azərbaycanda Dövlət Şurası yaradılacaqdır. Dövlət Şurasına bir neçə nəfər daxil olacaq, onun başında isə həmin polis polkovniki duracaqdır. Orada Əbülfəz Elçibəy də, Fərman Dəmirqol da yer alacaqlar, keçmişdə Azərbaycanda az bir müddət respublika prezidenti olub – Ayaz Mütəllibov, o, beş il bundan öncə qaçıb və beş ildir Moskvada yaşayır – o da olacaqdır. Müsavat Partiyasının bir üzvü var, Tofiq Qasımov, o, Xalq Cəbhəsinin hakimiyyəti zamanı Azərbaycanda xarici işlər naziri olubdur. O da bu çevrilişin hazırlanmasında iştirak edibdir.

Onlar hazırlaşmışdılar ki, silahla, qan tökməklə, Azərbaycan prezidentini terrorla qətlə yetirməklə hakimiyyəti ələ alsınlar. Fərman Dəmirqol da bunun ən fəal iştirakçılarından biri idi.

Amma biz bunu bilmirdik. Polis polkovnikinin şəhərdə bir bazası vardı, silahlı polis dəstəsini orada toplamışdı, çoxlu silahları da var idi. Mən bunu bilirdim. Ora şəhərin mərkəzində, yaşayış binalarının ortasında olan bir yer idi. Yəni orada atəş açılsa, həmin ərazidə yaşayan insanlara da çox zərər gətirə bilərdilər. O bazadakılar da bundan sui-istifadə edərək orada özlərini qoruyurdular.

Mən bilirdim ki, o polkovnik bu işlərlə məşğul olur və bir neçə dəfə danışmaq üçün dəvət etmişdim, bəzi adamlar gedib onunla danışmaq istəmişdilər. Onun atası da mənim yanıma gəlmişdi, atasına anlatdım ki, qoy bu cinayətdən əl çəksin. Atası da gedib onunla danışmışdı. O vaxt onun yanında çox adamlar vardı, amma mən bilirdim ki, Fərman Dəmirqol kimi bir adam da var.

Onlar yaxalanandan sonra bir çox sənədlər ortaya çıxdı, bunların arasında bir kağız da var idi, ondan göründü ki, Fərman Dəmirqol bu işdə iştirak edibdir. Ancaq bu zaman o, yaxasını qurtarıb oradan çıxa bilmişdi. Biz bir çoxunu həbs etdik, bəziləri həlak oldu, amma o qaça, gizlənə bilmişdi. Türkiyənin Azərbaycanda olan bəzi məmurları onu gizlətmişdilər. Sonra mənə müraciət oldu ki, Türkiyənin adının ləkələnməməsi üçün bu məsələ açılmasın və onu gizli olaraq Türkiyəyə verdik. Onda mən hesab etmirdim ki, bu məsələ açılmalı, yayılmalıdır. Çünki Türkiyə ilə Azərbaycan arasındakı dostluq əlaqələri bizim üçün hər şeydən üstündür. Əgər belə bir hadisə [347-348] olmuşsa, biz onun qarşısını aldıqsa, zərərsizləşdirdiksə, bunu açıb Türkiyə-Azərbaycan əlaqələrini ləkələmək lazım deyildir. Mən belə fikirdəyəm.

Bu hadisə iki il öncə, 1995-ci ilin martında oldu. Bu adam buraya gəlib bir müddət yaşadı, amma sonra televiziyanın "32-ci gün" proqramında, qəzetlərdə rəsmi verdilər, elan etdilər. Ona görə mən bu gün deməyə məcburam. Mən demək, bildirmək istəmirdim. Ancaq bir halda Türkiyənin özündə hesab edirlər ki, bunu söyləmək olar, mətbuatda vermək olar, – mən ona görə dedim. Amma o, tək deyil, orada Türkiyənin digər bir

vətəndaşı da var – Kənan Gürel, – o, həbs edildi, məhkəmə oldu, cəza aldı, həbsxanadadır. Türkiyənin bəzi məmurları da bu işdə iştirak etmişlər.

**Müxbir:** Buna görə üzüntünüz varmı?

**Heydər Əliyev:** Yox, keçdi-getdi, bitdi.

Türk xalqına sevgi-məhəbbətimi bildirmək istəyirəm. İki gündür ki, mən burada, Ankaradayam. Mənə və mənimlə bərabər buraya gələn Azərbaycanın təmsilçilərinə çox gözəl qonaqpərvərlik, çox hərarətli münasibət göstərilir. Bu günlər Türkiyə-Azərbaycan dostluq və qardaşlıq tarixinin yeni parlaq, gözəl səhifələri kimi tarixə daxil olacaqdır. Mən bundan çox məmnunam. Hər iki ölkənin xalqına səadət arzulayır, uğurlar diləyirəm. [348-349]

## AZƏRBAYCAN PREZİDENTİNƏ "9 EYLÜL" UNİVERSİTETİNİN FƏXRİ DOKTORU ADI VERİLMƏSİ MƏRASİMİNDƏ NİTQ

*İzmir*

*7 may 1997-ci il*

Hörmətli cənab rektor!
Hörmətli xanımlar və cənablar!
Hörmətli dostlar, əziz tələbələr!

Mən sizin hamınıza dostunuz, qardaşınız olan Azərbaycandan hərarətli salam gətirmişəm. Sizin simanızda Türkiyə Cümhuriyyətinin bütün universitetlərinə, bütün professorlarına. bütün alimlərinə bütün müəllimlərinə, bütün tələbələrinə hörmət və ehtiramımı bildirirəm, sizə səadət, xoşbəxtlik və bütün işlərində uğurlar arzulayıram.

Türkiyənin böyük və çox gözəl şəhəri olan İzmir şəhərinin sakinlərini, vətəndaşlarını ürəkdən salamlayıram. İzmir ilə Azərbaycanın paytaxtı Bakı qardaşlaşmış şəhərlərdir. Həm Bakı sakinləri adından, həm də Azərbaycan vətəndaşları adından İzmir şəhərinin bütün sakinlərini və vətəndaşlarını salamlayıram.

Üçüncü gündür ki, Türkiyə Cümhuriyyətinin cumur başqanı, əziz dostum, qardaşım Süleyman Dəmirəlin dəvətilə mən Türkiyə Cümhuriyyətində rəsmi səfərdəyəm. Mən və mənimlə bərabər sizin ölkəyə gəlmiş Azərbaycan nümayəndə heyəti bu üç günün içərisində türk qardaşlarımızın, türk xalqının, Türkiyə dövlətinin və hökumətinin qonaqpərvərliyi və sevgi-məhəbbəti içində yaşayırıq. Bu, bizim üçün böyük səadətdir. Bu, bizim üçün unudulmaz günlərdir. Bu Türkiyə-Azərbaycan əlaqələrinin həm türk xalqı üçün, həm də Azər[349-350]baycan xalqı üçün nə qədər əziz, nə qədər gərəkli və nə qədər dəyərli olduğunu bir daha nümayiş etdirir.

Türkiyədə, Ankarada olduğumuz zaman biz bir çox görüşlər keçirmişik və Türkiyə-Azərbaycan əlaqələrinin genişlənməsi və inkişaf etdirilməsi üçün dəyərli işlər görmüşük, çox əhəmiyyətli dövlətlərarası, hökumətlərarası müqavilələr imzalamışıq. Onların içərisində Türkiyə ilə Azərbaycan arasında strateji əməkdaşlığın daha da dərinləşdirilməsi haqqında müqavilə xüsusi əhəmiyyət kəsb edir. Bu müqaviləni Türkiyə prezidenti və Azərbaycan prezidenti imzalamışlar. Bu müqavilə ilə Türkiyə-Azərbaycan əlaqələri keyfiyyətcə yeni səviyyəyə qalxır və bu əlaqələrin gələcəkdə daha sürətlə, eyni zamanda çox geniş və hərtərəfli inkişaf etməsi üçün yeni bir mərhələ açılır.

Mən bu günlərdə Türkiyədə apardığımız danışıqlardan və keçirdiyimiz görüşlərdən, imzalanmış sənədlərdən həddindən artıq razıyam və hesab edirəm ki, bunların hamısı Türkiyə-Azərbaycan dostluq və qardaşlıq əlaqələrini daha da möhkəmləndirir.

Azərbaycan nümayəndə heyətinə və şəxsən mənə göstərilən bu hörmətə görə, bu məhəbbətə görə, bu qayğıya görə, bu qonaqpərvərliyə görə Türkiyə Cümhuriyyətinə, onun hörmətli prezidentinə, bütün Türkiyə xalqına təşəkkürümü və minnətdarlığımı bildirirəm.

Türkiyəyə səfər zamanı İzmiri ziyarət etmək mənim üçün çox əzizdir. Mən İzmir şəhərində ilk dəfə 1992-ci ildə olmuşdum və o vaxt Türkiyənin prezidenti mərhum Turqut Özalın və baş nazir hörmətli Süleyman Dəmirəlin dəvəti ilə ölkənizə gələrək, İzmirdə keçirilən III Beynəlxalq İqtisadi Konqresdə iştirak etmişdim. Həmin konqresdə mənə söz deməyə, konqresə müraciət etməyə imkan verilmişdi. Bu, mənim həyatımda, tərcümeyi-halımda çox əlamətdar və əziz bir hadisə olmuşdur. Mən o günləri daim xatırlayıram. İzmir şəhərinin nə qədər gözəl, nə qədər yaraşıqlı və nə qədər də mehriban şəhər olduğunu hiss etdim. Bu, mənim daim xatirimdədir.

Yenidən İzmirə gəlməyimdən çox məmnunam və xüsusən sizinlə görüşmək mənim üçün çox əzizdir, çox qiymətlidir. [350-351]

Əziz dostlar, siz mənə çox böyük hörmət və ehtiram göstərmisiniz. Siz mənə həm də çox böyük etimad göstərmisiniz – mənə sizin universitetin Fəxri doktoru adını vermisiniz. Mən bu barədə qəbul etdiyiniz qərarlarla və fəxri doktor adını vermək üçün sizin qərarlarınızda əks etdirilən əsaslarla çox diqqətlə və məmnuniyyət hissi ilə tanış oldum. Mənə göstərdiyiniz bu qayğıya görə, mənim fəaliyyətimə və xüsusən Azərbaycan Respublikasının dövlət başçısı kimi göstərdiyim fəaliyyətə bu qədər yüksək qiymət verdiyinizə görə, bu qədər hörmət etdiyinizə görə sizə səmimi qəlbdən təşəkkür edirəm. Çox sağ olun. "9 Eylül" Universiteti yaşca gəncdir, onun 15 yaşı var, ancaq bu 15 ildə o, sürətlə inkişaf edib, genişlənib və Türkiyənin, burada deyildiyi kimi, sıra hesabı ilə 4-cü universiteti yerinə gəlib çatıbdır. Bu, çox maraqlı göstəricidir. Yəni cəmi 15 yaşın olsun və həmin illər içərisində bir çox qocaman, yaşlı universitetləri ötüb keçəsən və dördüncü yerə çatasan – bu, böyük qəhrəmanlıqdır.

Mən yaxşı bilirəm ki, Türkiyədə təhsilin yaxşı təşkil olunmasına, ali təhsilin əldə etdiyi nailiyyətlərə qiymət verilməsinə çox ciddi yanaşılır, çox böyük tələblər qoyulur və belə nailiyyətləri əldə etmək, belə qiymət almaq da asan deyildir. Görünür, bu, universitetdə qısa müddətdə, 15 ilin içərisində toplaşmış yüksək səviyyəli müəllimlərin, professorların, doktorların, alimlərin ümumi səyi və birgə əməyi, zəhməti nəticəsində olubdur. Əziz dostlar, ona görə də mən sizi əldə etdiyiniz nailiyyətlər münasibətilə ürəkdən təbrik edirəm, sizin universitetinizə bütün gələcək işlərinizdə uğurlar arzulayıram və arzu edirəm ki, universitetiniz bu sırada dördüncü yerdən daha da irəliləsin, o birisi universitetləri də ötə bilsin.

Rəqabət həmişə insanların, eləcə də təhsil ocaqlarının, universitetlərin sürətlə inkişaf etməsinə şərait yaradır. Güman edirəm ki, sizin əldə etdiyiniz bu nailiyyətlər sizdən yaşlı, qocaman Türkiyə universitetlərini də müəyyən qədər narahat edəcək, onlar da çalışacaqlar ki, öz işlərini daha yaxşı qursunlar. Beləliklə, siz onlara kömək edəcəksiniz və siz də irəli gedəcəksiniz. Mən istəyirəm ki, qardaş, dost Türkiyənin ali təhsili daha da yüksəlsin, Türkiyə universitetləri daha da inkişaf etsin və dünyanın ən görkəmli universitetləri sırasında olsunlar. [351-352]

Güman edirəm ki, sizin universitetin nailiyyətlərinin səbəblərindən biri də odur ki, universitetiniz "9 Eylül" adını daşıyır. 9 Eylül Türkiyə Cümhuriyyətinin tarixində çox önəmli bir nöqtədir, önəmli bir mərhələdir. Biz hamımız çox yaxşı bilirik ki, Türkiyədə Osmanlı imperatorluğu dağıldıqdan sonra çox gərgin vəziyyət yaranmışdı və Türkiyənin xarici düşmənləri Türkiyəni dağıtmaq, parçalamaq, yenidən ələ keçirmək məqsədi güdürdülər. Türkiyəyə hərbi təcavüzlər olmuşdur və türk xalqının qəhrəmanlığı, rəşadəti o illərdə Türkiyəni bu böyük təhlükələrdən, böyük bəlalardan xilas etdi. Türkiyənin bu qurtuluş savaşında İzmir 9 Eylül hadisəsi, 9 Eylül qələbəsi ölkənin tarixində çox görkəmli yer tutur. Məlumdur ki, Türkiyədə qurtuluş savaşının, qələbənin yaradıcısı, qurucusu və sərkərdəsi, qurtuluş savaşını qələbə ilə sona çatdıran türk xalqının görkəmli oğlu böyük Mustafa Kamal Atatürk olmuşdur.

Mustafa Kamal Atatürkün rəhbərliyi altında burada – İzmirdə yadelli düşmənləri ölkədən çıxarmaq üçün planlar qurulmuş, hərbi əməliyyatlar keçirilmişdir. Onun rəhbərliyi altında Türkiyənin düşmənləri 9 Eylüldə dənizə atılmış, İzmir azad olunmuş və Mustafa Kamal Atatürk bu hərbi əməliyyata, bu qələbəyə bilavasitə rəhbərlik etmişdir.

Bütün bunlar Türkiyə Cümhuriyyətinin tarixinin gözəl səhifələridir. Siz universitetinizi yaradarkən ona 9 Eylül adı verməyiniz də 9 Eylül gününü nə qədər əziz və qiymətli tutduğunuzu göstərir, eyni zamanda Türkiyə Cümhuriyyətinin yarandığı gündən onun banisi olan böyük Mustafa Kamal Atatürkün ideyalarına, qoyduğu yola sizin nə qədər sadiq olduğunuzu göstərir. Universitetiniz gələcəkdə də bu yolla gedərək yeni nailiyyətlər əldə edəcəkdir. Sizin universitetiniz artıq mənim də doğma universitetimdir. Çünki mən artıq sizin universitetin Fəxri doktoru kimi, universitetinizin həyatına qatılıram və sizin universitetin həyatı mənim üçün doğma iş olur. Deməк, sizin, bizim universitetimiz bundan sonra da yeni nailiyyətlər əldə edəcəkdir. Mən buna əminəm.

Hörmətli dostlar, bu günlərdə biz Türkiyə-Azərbaycan dostluq və qardaşlıq əlaqələrinin inkişaf etdirilməsi üçün çox ciddi addımlar atmışıq. Bu gün mən bir daha bildirmək istəyi[352-353]rəm ki, Türkiyə-Azərbaycan əlaqələri gündən-günə möhkəmlənir, inkişaf edir, bundan sonra daha da sürətlə inkişaf edəcəkdir. Bizim dostluğumuz tarixi köklərimizlə, milli birliyimizlə, bir dilə, bir dinə mənsub olmağımızla, eyni adət-ənənələrə, eyni mənəvi dəyərlərə mənsub olmağımızla əlaqədar gündən-günə möhkəmlənəcək, gündən-günə inkişaf edəcəkdir. Biz Azərbaycanda bu dostluğa xüsusi əhəmiyyət, xüsusi yer veririk və əmin ola bilərsiniz, biz bundan sonra da çalışacağıq ki, bu əlaqələr daha da inkişaf etsin.

Azərbaycan müstəqil dövlət kimi gənc bir dövlətdir. O, dövlət müstəqilliyinin 6-cı ilini yaşayır. Bu gün universitetin qəbul etdiyi qərardan da hiss etdim ki, Azərbaycanda gedən proseslər, işlər sizə məlumdur və siz bilirsiniz ki, bu illər içində daim ardıcıl olaraq Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmək, Azərbaycanın suverenliyini təmin etmək, Azərbaycanı Ermənistan işğalından azad etmək üçün çalışırıq. Bu illər ərzində işlərimiz çox ağır, gərgin şəraitdə keçir. Bilirsiniz ki, 1988-ci ildən Azərbaycana Ermənistan tərəfindən hərbi təcavüz edilibdir və bu təcavüz ardıcıl olaraq bəzi başqa ölkələrin Ermənistana yardımı ilə əlaqədar və bəzi başqa səbəblərlə əlaqədar genişlənibdir və nəhayət, Azərbaycan torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilibdir. İşğal olunmuş torpaqlardan bir milyondan artıq Azərbaycan vətəndaşı didərgin, qaçqın düşübdür, onlar ağır vəziyyətdə yaşayırlar, əksəriyyəti 4-5 ildir ki, çadırlarda qalır.

Üç il bundan öncə biz Ermənistanla Azərbaycan arasında gedən döyüşləri dayandırdıq, atəşkəs haqqında saziş imzaladıq. Üç ildir ki, atəş yoxdur, biz atəşkəs rejimində yaşayırıq, ancaq eyni zamanda tam sülh də yoxdur. Azərbaycanın ərazi bütövlüyü pozulub, Azərbaycanın dövlət sərhədləri pozulub və bir də qeyd edirəm. Azərbaycan torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Biz üç ildir davam edən bu atəşkəs rejimi zamanı məsələnin sülh yolu ilə həll olunmasına çalışmışıq və çalışırıq, bundan sonra da çalışacağıq. Keçən ilin sonunda ATƏT-in Zirvə görüşündə qəbul olunmuş sənəd bu məsələnin həll edilməsi üçün daha yaxşı imkanlar yaradır. [353-354]

ATƏT-in Zirvə görüşündə ATƏT-in 53 üzvünün dövlət başçıları Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunmasının prinsiplərini qəbul etdilər. Ermənistanın və Azərbaycanın ərazi bütövlüyünün tanınması, yəni torpaq bütövlüyünün tanınması, Dağlıq Qarabağa Azərbaycan Respublikasının tərkibində yüksək muxtariyyət statusu verilməsi və Dağlıq Qarabağın bütün əhalisinin – həm erməni, həm də azərbaycanlı

əhalisinin təhlükəsizliyinə təminat verilməsi prinsiplərini biz qəbul etmişik, ancaq Ermənistan qəbul etmir. İndi məqsəd və xüsusən ATƏT-in Minsk qrupu üzvlərinin və ATƏT-in Minsk qrupunun həmsədrləri Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa nümayəndələrinin vəzifəsi bu prinsiplər əsasında danışıqları sürətləndirmək və sülh əldə etməkdir.

Türkiyə ATƏT-in üzvü kimi və ATƏT-in yaratdığı Minsk qrupunun üzvü kimi Azərbaycana hərbi təcavüz başlandığı vaxtdan indiyə qədər Azərbaycanla sıx əlaqədədir, Azərbaycanın yanındadır, bizimlə sıx əməkdaşlıq edir və Lissabonda həmin tarixi sənədin qəbul olunmasında Türkiyə Cümhuriyyətinin və onun prezidenti cənab Süleyman Dəmirəlin də çox böyük rolu olmuşdur. Ümidvarıq ki, bundan sonra da Türkiyə Azərbaycanın bu probleminin həll olunması üçün, həm Azərbaycana, həm də Türkiyəyə böyük dərd olan bu erməni işğalına, bu erməni təcavüzünə son qoymaq üçün öz səylərini əsirgəməyəcəkdir. Ümid edirəm ki, biz hamımız birlikdə, ümumi səylərimizlə bu məsələni, nəhayət, sülh yolu ilə həll edəcəyik.

Ancaq eyni zamanda bilməlisiniz ki, Ermənistan tək Azərbaycan üçün yox, ümumiyyətlə, Qafqaz üçün, habelə Türkiyə üçün də böyük təhlükə törədir. Sizə məlumdur ki, son zamanlar Rusiyanın Ermənistana bir milyard dollar dəyərində ağır silahlar verməsi aşkar olunubdur. Bir tərəfdən, biz üç ildir atəşkəs rejimində yaşayırıq, digər tərəfdən isə bu üç ildə Rusiya Ermənistana bir milyard dollar dəyərində silahlar veribdir. Şübhəsiz ki, kiçik bir dövlətə, Azərbaycan torpaqlarının 20 faizini işğal etmiş bir dövlətə, Türkiyənin qulağı dibində olan bir dövlətə bu qədər güclü silahların verilməsi hamını narahat etməlidir, o cümlədən Türkiyəni, onun ictimai fikrini, rəyini [354-355] də narahat etməlidir. Bu gün mən sizin hamınızın diqqətini bu məsələyə xüsusi cəlb edirəm və bilin ki, bu, tək Azərbaycana qarşı yönəldilməyibdir, həm də bu bölgədəki bütün başqa ölkələrə qarşı yönəldilmiş bir hərəkətdir.

Bütün bu çətinliklərə baxmayaraq, Azərbaycan öz müstəqilliyini ildən-ilə möhkəmləndirməyə çalışır. Lakin bununla əlaqədar öz daxilimizdə də çox çətinliklər olmuşdur. Sizə məlumdur ki, Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra onun daxili vəziyyəti sabit olmamış, əmin-amanlıq olmamışdır. Bizim ən böyük nailiyyətimiz bir də ondan ibarətdir ki, son iki-üç il içərisində Azərbaycanda ictimai-siyasi vəziyyəti sabitləşdirdik, əmin-amanlıq yaratdıq. İndi Azərbaycanda əmin-amanlıq mövcuddur.

Biz Azərbaycanda hüquqi demokratik dövlət qururuq, dünyəvi dövlət qururuq. Bu, bizim strateji yolumuzdur. Biz bu strateji yolla gedirik. Bilirsiniz ki, Azərbaycan uzun illər öz müstəqilliyindən məhrum idi.

İndi biz müstəqil olmuşuq, öz taleyimizin sahibiyik və müstəqil demokratik dövlət qururuq. Biz istəyirik ki, dövlətimiz tam demokratik, tam hüquqi, tam dünyəvi bir dövlət olsun. Bunun üçün də Azərbaycanda demokratiyanın bərqərar olması, inkişaf etdirilməsi, hüququn aliliyinin təmin olunması bizim əsas vəzifəmizdir və bunu da yerinə yetirməyə çalışırıq.

Biz bu xətti, siyasəti aparmaqda böyük müqavimətlərə, çətinliklərə də rast gəldik. Ancaq biz onların qarşısını aldıq, öhdəsindən gəldik. Əziz dostlar, qardaşlar sizə deyə bilərəm ki, indi Azərbaycanda ictimai-siyasi vəziyyət tam sabitdir, Azərbaycan xalqı öz həyatını özü qurur. Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, yenilməzdir, sarsılmazdır. Biz Azərbaycanın dövlət müstəqilliyini bundan sonra da göz bəbəyimiz kimi qoruyacağıq, yüksəldəcəyik. Əmin olun ki, Azərbaycan Dünya Birliyində özünəməxsus, özünə layiq yerini tutacaqdır.

Sizə dediyim problemlərlə əlaqədar Azərbaycan son illər böyük iqtisadi böhran içərisindədir. Şübhəsiz ki, bu böhran insanların rifah halını çox pisləşdirib, sosial vəziyyət çox ağırlaşıbdır. Ancaq eyni zamanda biz iqtisadiyyatda çox ciddi dəyişikliklər edir, iqtisadi islahatlar həyata keçirir, iqtisadiyyatı bazar iqtisadiyyatı yolu ilə aparır, sahibkarlığı inkişaf etdiririk. [355-356]

"Torpaq islahatı haqqında" qanun qəbul etmişik və bunun əsasında bütün torpaqları şəxsi mülkiyyətə veririk. Beləliklə, Azərbaycanın iqtisadiyyatı inkişaf etmiş dövlətlərin, ölkələrin, o cümlədən Türkiyə Cümhuriyyətinin iqtisadiyyatının tutduğu, getdiyi yolla gedir. Bu sahədə bəzi nailiyyətlər də əldə etmişik. Ümidvaram ki, bu yolla gedərək Azərbaycanın iqtisadiyyatını da yüksəldəcəyik və Azərbaycanın böyük təbii sərvətləri, xüsusən neft-qaz yataqları, başqa təbii sərvətləri, iqtisadi potensialı, elmi-intellektual potensialı xalqımızın rifahı naminə daha səmərəli istifadə olunacaqdır.

Bütün bu məsələlərin həllində biz Türkiyə Cümhuriyyəti ilə iqtisadi əlaqələrin inkişafına xüsusi əhəmiyyət veririk və bundan sonra da Türkiyə-Azərbaycan iqtisadi əlaqələri bizim bütün xarici iqtisadi əlaqələrimizin mərkəzində duracaqdır.

Azərbaycanda bu dəyişiklikləri həyata keçirmək, yeni həyat qurmaq, yeni bir dövlət qurmaq üçün bizə yeni fikirli, yüksək səviyyəli mütəxəssislər lazımdır. Ona görə də Azərbaycanın elmi, ali təhsili nə qədər inkişaf etmiş olsa da, gələcəyimiz üçün biz Türkiyədə də kadrların hazırlanmasını lazım bilmişik.

Sizə bildirmək istəyirəm ki, XX əsrdə Azərbaycanda elm, maarif, mədəniyyət, təhsil çox sürətlə inkişaf edibdir. Bizim müstəqilliyimiz, bağımsızlığımız olmayıbsa da, ancaq eyni zamanda xalqımız üçün bu vacib sahələrdə böyük nailiyyətlərimiz olubdur. Bizim nailiyyətimiz o olubdur ki, başqa bir rejim, başqa bir ölkənin tərkibində yaşayaraq dilimizi, islam dinini, mənəvi dəyərlərimizi. adət-ənənələrimizi saxlamışıq, mədəniyyətimizi inkişaf etdirmişik. Azərbaycanda bütün əhali savadlıdır. savadsız adam yoxdur. Azərbaycanda orta, yəni 10 illik təhsil həmişə məcburi olub və bu gün də məcburidir. Azərbaycanın bir çox universitetləri var.

Bakı universitetinin 77 illik tarixi var. Digər universitetlərin 60-70 illik tarixi var. Azərbaycanın böyük Elmlər Akademiyası var, onun prezidenti burada bizim nümayəndə heyətinin tərkibindədir. Bizim şairlərimizin, mədəniyyət xadimlərimizin bəziləri mənimlə bir yerdə buradadırlar. Yəni, XX əsrdə Azərbaycanın mədəniyyətinin, elminin, təhsilinin inkişafında çox böyük nailiyyətlər əldə olunubdur. [356-357]

Ancaq biz bu gün hesab edirik ki, bundan daha yüksəklərə qalxmalıyıq. Ona görə biz təhsildə də, ali məktəbdə də islahatlar aparırıq. Bu baxımdan Türkiyənin universitetləri ilə əməkdaşlığa xüsusi fikir veririk. Güman edirəm, mən sizin fəxri doktorunuz olandan sonra sizin universitetlə də əlaqələri daha yaxşı qurmalıyıq. Türkiyənin universitetlərində bizim gənclərin təhsil, ixtisas almasına xüsusi fikir veririk.

Bu baxımdan mən Türkiyənin universitetlərində Azərbaycan gənclərinə, Azərbaycanlı tələbələrə təhsil verən müəllimlərə, professorlara və universitetlərin rəhbərlərinə öz təşəkkürümü, minnətdarlığımı bildirirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, bizim bu əməkdaşlığımız bundan sonra da davam edəcəkdir.

İzmirdə, sizin universitetdə də Azərbaycan gəncləri təhsil alırlar, bu salonda da onlardan var. Üzümü onlara tutaraq demək istəyirəm ki, əziz övladlarımız, balalarımız, siz müstəqil Azərbaycanın gələcəyi üçün çox lazımsınız, gərəklisiniz. Müstəqil, bağımsız Azərbaycanı yaşatmaq, inkişaf etdirmək, daha qüdrətli etmək üçün siz gərək yüksək təhsilə malik olasınız, müasir tələblərə uyğun ixtisaslar əldə edəsiniz. Bunların, hamısını Türkiyədə, Türkiyənin universitetlərində, o cümlədən "9 Eylül" Universitetində almağa imkan var. Sizə tövsiyəm, sizdən xahişim ondan ibarətdir ki, burada olduğunuz günləri, ayları, illəri səmərəli keçirəsiniz, yaxşı təhsil alasınız, Türkiyədən ən gözəl ənənələri mənimsəyəsiniz, Azərbaycana gətirəsiniz, Türkiyə-Azərbaycan dostluğunu möhkəmləndirəsiniz və özünüzü müstəqil Azərbaycanın gələcəyi üçün hazırlayasınız.

Hörmətli dostlar, mən sizə bir daha öz təşəkkürümü, minnətdarlığımı bildirirəm. Sizi əmin edirəm ki, mən "9 Eylül" Universitetinin Fəxri doktoru adını daim böyük iftixarla daşıyacağam və bütün gələcək işlərimdə sizin etimadınızı doğrultmağa çalışacağam. Sizin universitetə, bütün İzmir şəhərinə, İzmirin sakinlərinə, vətəndaşlarına səadət, xoşbəxtlik arzu edirəm. Şübhə etmirəm ki, Türkiyə Cümhuriyyəti, o cümlədən Türkiyənin universitetləri, elm adamları böyük öndər Mustafa Kamal Atatürkün qoyduğu yolla gedərək Türkiyəni gündən-günə gücləndirəcək, onu daha qüdrətli dövlət edəcək, daha fi[357-358]ravan, xoşbəxt ölkə edəcəklər və Türkiyə vətəndaşlarının rifah halını yaxşılaşdıracaqlar. Bu yolda, Türkiyə-Azərbaycan dostluğunun möhkəmlənməsi yolunda hamınıza uğurlar arzulayıram.

Yaşasın "9 Eylül" Universiteti!

Yaşasın Türkiyə Cümhuriyyəti!

Yaşasın əbədi sarsılmaz Türkiyə-Azərbaycan dostluğu!

Sağ olun. [358-359]

## AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ İZMİR VALİSİ KUTLU AKTAŞIN VERDİYİ ZİYAFƏTDƏ NİTQ

*7 may 1997-ci il*

Əziz, hörmətli bələdiyyə başqanı, hörmətli dostlar!

Türkiyəyə rəsmi səfərim çərçivəsində İzmir şəhərini ziyarət etmək mənim üçün böyük səadətdir. İzmir Türkiyənin həm böyük şəhəri, həm də ən gözəl guşələrindən biridir. İzmir şəhərinin böyük tarixi var və Türkiyə Cümhuriyyətinin yaranmasında, türk xalqının xarici işğalçılardan, qəsbkarlardan azad olunmasında da İzmirin və izmirlilərin xüsusi rolu var. 1922-ci il 9 Eylüldə məhz burada qurtuluş savaşının böyük qələbəsi əldə edilmiş və bu, Türkiyənin tarixinə daxil olmuşdur, bizim də tariximiz üçün, ümumi, müştərək, birgə tariximiz üçün çox dəyərli səhifədir.

İzmir şəhəri ilə Azərbaycanın paytaxtı Bakı şəhərinin qardaşlıq əlaqəsi də məhz bu hissiyyatlardan doğmuşdur və biz bu qardaşlıq əlaqəsinə çox yüksək qiymət veririk. Hesab edirəm ki, bu əlaqələr bundan sonra daha da genişlənməli, inkişaf etməlidir. Məhz bu əlaqələrin rəmzi olaraq Bakının gözəl guşələrindən birində olan parka "İzmir parkı" adı verilib. Görünür, biz bu gün burada da belə bir parkla rastlaşacağıq.

Bunlar hamısı qısa bir müddətdə, yəni Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra, əlaqələrimizin sürətlə inkişaf etdiyi bir zamanda əldə olunan nailiyyətlərdir. Ancaq düşünün, qarşıda neçə illər, nə qədər böyük imkanlar var və biz bu sürətlə, bundan da artıq sürətlə inkişaf edəcəyiksə, – və etməliyik, – görün Türkiyə və Azərbaycan bir-birinə nə qədər yaxın olacaq, dostluğumuz, qardaşlığımız nə qədər sıx olacaqdır.

Bu gün "9 Eylül" Universitetində mən Türkiyə vətəndaşları ilə bərabər azərbaycanlıları, Azərbaycan vətəndaşlarını da [359-360] gördüm. Hətta mən oradan çıxıb universiteti tərk edərkən iki gənc – bir qadın, bir kişi mənə yaxınlaşdı. Gözəl qız özünü tanıtmaq üçün dedi ki, mən Şakirzadənin qızıyam, – Şakirzadə Azərbaycanın böyük alimlərindən, filosoflarından biridir, – deyir ki, beş ildir burada çalışıram. Gənc oğlan isə skripkaçıdır. Soruşdum ki, burada vəziyyətiniz necədir, necəsiniz? Dedilər ki, çox gözəldir, yaxşıyıq. Bu, mənim sadəcə bir dəqiqə içində rastlaşdığım haldır. Son dörd-beş ildə belə hallar nə qədər çoxdur. Şübhəsiz ki, bunlar bizi sevindirir. Məhz belə zərrələrlə, bizim ümumi Türkiyə-Azərbaycan abidəsini quran, yaradan insanların qoyduğu hər kərpiclə də gələcək nəsillər üçün gözəl bir abidə ucaldacağıq. O abidənin də adı əbədi, sarsılmaz Türkiyə-Azərbaycan dostluğudur.

Bu gün burada, İzmir şəhərində bizə göstərilən qonaqpərvərliyə, çox hərarətli münasibətə, çox dost münasibətinə görə təşəkkür edirəm. İzmir valisinə, bələdiyyə başqanına öz minnətdarlığımı bildirirəm. Bir daha qeyd edirəm ki, mənim bu səfərim zamanı Türkiyə ilə Azərbaycan arasında əlaqələrin inkişafı üçün görülən işlər özünün gələcək nəticələrini verəcəkdir. Biz bu işlərə, bu dostluğa sadiqik və daim sadiq olacağıq. Türkiyə-Azərbaycan, Azərbaycan-Türkiyə əlaqələri gündən-günə yüksələcəkdir.

Rica edirəm, Türkiyə-Azərbaycan dostluğunun şərəfinə, Türkiyə Cümhuriyyətinin şərəfinə, Türkiyə Cümhuriyyətinin prezidenti, mənim əziz dostum Süleyman Dəmirəlin şərəfinə, İzmir şəhərinin şərəfinə, İzmir vətəndaşlarının, sakinlərinin şərəfinə, İzmir valisinin, bələdiyyə başqanının şərəfinə və bütün İzmir əhalisinin şərəfinə badə qaldıraq. Sağ olun, sizə xoşbəxtlik arzu edirəm. [360-361]

## İZMİRDƏ "BAKI PARKI"NIN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*7 may 1997-ci il*

Hörmətli vali, hörmətli bələdiyyə başqanı,
hörmətli nazir!
Hörmətli dostlar, qardaşlar!

Mən bu gün Türkiyəyə rəsmi səfərim çərçivəsində Türkiyənin gözəl bir guşəsi olan İzmir şəhərinə gəlməyimdən çox səadət duyuram və hamınızı, sizin simanızda İzmir şəhərinin bütün vətəndaşlarını, sakinlərini ürəkdən salamlayır, sizə Azərbaycan xalqının, Bakının salamını, hörmət-ehtiramını çatdırıram.

Bu günlər biz Türkiyədə çox görüşlər keçirmiş, çox danışıqlar aparmışıq, çox əhəmiyyətli anlaşmalar, müqavilələr imzalamışıq. Bunların hamısı bir məqsəd – Türkiyə-Azərbaycan dostluğunun daha da inkişafını təmin etmək, türk xalqını və Azərbaycan xalqını bir-birinə daha sıx bağlamaq məqsədi daşıyır.

Bu, bizim ali vəzifəmizdir və bunu yerinə yetirmək üçün də Türkiyəyə gəlmişik. Türkiyənin cümhur başqanı, əziz dostum, qardaşım Süleyman Dəmirəlin dəvəti ilə rəsmi ziyarətə gəlmişəm.

Biz bu günlərdə bir daha gördük, bir daha hiss etdik ki, türk Azərbaycan xalqlarının dostluq və qardaşlığı nə qədər dərindir, güclüdür, nə qədər möhkəmdir. Bu dostluğun, qardaşlığın tarixi çox böyükdür. Əgər tarixi götürsək, bizim tariximiz də, keçmişimiz də, dilimiz də, dinimiz də, məsləkimiz də, adət-ənənələrimiz də, musiqimiz də, mədəniyyətimiz də birdir. Bir-birindən fərqi sadəcə ondan ibarətdir ki, – necə ki, İstanbul ilə İzmirdə bir fərq var, yaxud da Ərzrumla Qayseridə bir fərq var, yaxud Adana ilə Diyarbəkrdə bir fərq var, – ola bilər Türkiyə ilə Azərbaycanda da belə bir fərq olsun. Amma [361-362] bu fərq sadəcə, bizim eyni zamanda ümumi mənəvi dəyərlərimizin, mədəni, şüuri dəyərlərimizin hamısının çoxcəhətli, çoxşaxəli, çoxbudaqlı olmasını göstərir. Yəni biz böyük bir çinar ağacının budaqlarıyıq və bu da o qədər möhkəm çinardır ki, əsrlər boyu onu nə qədər silkələdilərsə də, yıxmaq istədilərsə də, bizi bir-birimizdən ayırmaq istədilərsə də bacarmadılar. Bizim qəlbimiz, bizi bir-birimizə bağlayan tellər, mənəviyyat dostluğumuzu, qardaşlığımızı, birliyimizi qorudu, saxladı.

Bu günlərdə biz bu dostluğumuzun, qardaşlığımızın yeni nümayişini görürük. Şübhəsiz ki, bunlar bizi həddən ziyadə sevindirir. Bu günlərdə biz Türkiyədə Azərbaycan barəsində çox yüksək dostluq-qardaşlıq münasibətlərini, böyük qonaqpərvərlik, hərarətli qəbul hiss edirik. Bunların hamısına görə türk xalqına, Türkiyə Cümhuriyyətinə təşəkkür edirəm. Bu gün İzmirə gələndən indiyə qədər, bir neçə saat içində bir-birimizə nə qədər bağlı olduğumuzu hiss edirik. Bizə göstərdiyiniz bu hörmət və ehtirama, qayğıya, diqqətə görə sizə təşəkkür edir və sizi əmin edirəm ki, Azərbaycan xalqı bunların hamısını yüksək qiymətləndirir. Xalqımızda, hər bir azərbaycanlıda bu hissiyyatlar burada gördüyümüzdən qat-qat çoxdur.

İzmir şəhəri ilə Azərbaycanın paytaxtı, başkəndi Bakı şəhəri arasında on iki il bundan öncə qardaşlıq haqqında müqavilə imzalanması böyük hadisə olmuşdur. Bilirsiniz ki, mən o illərdə həm Azərbaycanın, həm də Sovetlər Birliyinin başında duran şəxs olmuşam. O illərdə bizə Türkiyə ilə əlaqə saxlamağa imkan vermirdilər. Xatirimdədir, Bakı dünyanın bir çox şəhərləri ilə qardaşlaşmışdı, məsələn, Amerikanın, Fransanın, İngiltərənin, Şərqi Avropada olan Rumıniyanın, Macarıstanın, başqa ölkələrin şəhərləri ilə qardaşlaşmışdı.

Amma Türkiyə şəhərləri ilə bizim şəhərlərimizin qardaşlaşmasına yol vermirdilər. Çünki əgər o şəhərlərlə doğrudan da yeni bir qardaşlıq qururduqsa, bizim bu qardaşlığımıza kəc baxan, yəni buna zidd olan qüvvələr, – onlar bizim ətrafımızda daim çox olubdur, – heç də istəməzdilər ki, bizim bu qardaşlığımız yenidən baş versin. Yəni on iki il bundan öncə İzmir ilə Bakı arasında yaradılmış əlaqələr qardaşlaşma əlaqəsi [362-363] deyil, – biz doğulandan qardaşıq, ata-babalarımız, ulu babalarımız qardaş olublar, biz doğma qardaşıq. Sadəcə, İzmir ilə Bakı arasında xüsusi əlaqələr yaranması haqqında müqavilə bağlanıbdır. Ona görə mən hesab edirəm ki, bizim qardaşlığımız qədimdir, dünyada xalqlarımız yaranandan mövcud olan qardaşlıqdır. Bu əlaqələr isə həmin qardaşlığı müəyyən mənada sənədləşdirmək, kağız üzərində əks etdirmək kimi bir tədbirdir.

Türkiyə-Azərbaycan, İzmir-Bakı daim qardaş olublar, bu gün də qardaşdırlar, gələcəkdə də qardaş olacaqlar. Bunun da təzahürü olaraq Bakıda ən gözəl guşələrdən, parklardan birinə "İzmir" adı verilibdir. Mən çox məmnunam ki, burada, İzmir şəhərində də, bu sahildə parkın gözəl bir hissəsinə "Bakı" adı verilibdir. Bu təşəbbüs, hadisə münasibətilə İzmirin başçılarına, başqanlarına təşəkkürümü bildirir, sizin hamınızı təbrik edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bugünkü bu törən, mərasim, bayram başqa şəhərlərdə də davam edəcək, biz Türkiyə-Azərbaycan qardaşlığını addım-addım, gündən-günə genişləndirəcək, inkişaf etdirəcəyik.

Türkiyə böyük dövlətdir, dünya miqyasında özünəməxsus görkəmli yer tutubdur. Azərbaycan bir müstəqil dövlət kimi gəncdir. Amma bizim əlaqələrimiz qədimdir. Azərbaycanın dövlət müstəqilliyi əldə ediləndən sonra Türkiyə ilə Azərbaycan arasında dövlətlərarası əlaqələr son illərdə çox bəhrələr verib, çox nəticələrə gətirib çıxarıbdır. Məhz bu əlaqələrin nəticəsidir ki, indi Türkiyənin universitetlərində, o cümlədən burada, İzmir

universitetlərində Azərbaycanın gəncləri də təhsil alır, müstəqil Azərbaycanın cürbəcür sahələrində işləməyə hazırlaşırlar.

Görürsünüz, biz bir-birimizə nə qədər yaxın oluruq. İzmirdə universitetdə təhsil alan gənc, tələbə nitq söylədi. O, azərbaycanlıdır, naxçıvanlıdır, orada Nehrəm adlı məşhur yer var, o kənddəndir. Ancaq o, təmiz türk ləhcəsində danışdı. Bizim dilimiz birdir, amma sadəcə ləhcələrimizdə fərq var. Mən Azərbaycan ləhcəsində danışıram. O da bir-iki il öncə mən danışdığım ləhcədə danışırdı, amma iki il burada təhsil alandan sonra buranın ləhcəsində danışır. Demək, bu onun buraya, burada aldığı təhsilə, buradakı mühitə nə qədər alışdığını, eyni za[363-364]manda Türkiyəyə, İzmirə, bu mühitə nə qədər məhəbbəti, sevgisi olduğunu göstərir. Bu, bizim dostluq, qardaşlıq əlaqələrimizdə bir zərrədir. Amma zərrə-zərrə göl olur, dərya dolur. Bax, bu zərrələrlə biz ümumi Türkiyə-Azərbaycan dostluğunu daha da genişləndirməli, gücləndirməliyik. Biz bunu edəcəyik.

Müstəqil Azərbaycanın həyatında bir çox problemlər var. Bu problemlərdən ən ağırı, ən bəlalısı Ermənistanın Azərbaycana təcavüzüdür. Bildiyiniz kimi, 1988-ci ildə Ermənistanın silahlı qüvvələri Azərbaycanın Dağlıq Qarabağ hissəsini ələ keçirmək üçün ölkəmizə hərbi təcavüz ediblər. Bəzi dövlətlərin yardımı vasitəsilə və bəzi başqa səbəblərə görə Azərbaycan torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur. İşğal olunmuş torpaqlardan bir milyondan artıq Azərbaycan vətəndaşı yerindən-yurdundan zorla çıxarılıb, didərgin düşübdür, qaçqın-köçkün vəziyyətində çadırlarda ağır vəziyyətdə yaşayırlar.

Üç ildir ki, biz atəşi dayandırmışıq, qan tökülmür, üç ildir ki, şəhidlər yoxdur. Ancaq eyni zamanda hələ sülh də yoxdur. Biz məsələni sülh yolu ilə həll etmək istəyir, sülh danışıqları aparırıq. Keçən ilin sonunda Lissabonda ATƏT-in Zirvə görüşündə məsələnin sülh yolu ilə həlli üçün uyğun prinsiplər əldə olunub, qərar qəbul edilibdir. Biz Lissabon prinsipləri əsasında sülh danışıqları aparıb Azərbaycanın işğal olunmuş torpaqlarını sülh yolu ilə azad etmək istəyirik. Buna nail olmağa çalışırıq və mütləq nail olacağıq.

Bütün bu tədbirlərin həyata keçirilməsində Türkiyə daim Azərbaycana dayaq olub, daim Azərbaycanla bir yerdə olubdur. Ümidvaram ki, bundan sonra da bir yerdə olacaqdır. Ancaq bu gün burada onu da demək istəyirəm ki, Azərbaycan öz dövlət müstəqilliyini qoruyub saxlayacaqdır. Azərbaycanın dövlət müstəqilliyi bizim tarixi nailiyyətimizdir. Biz dövlət müstəqilliyimizi heç vaxt əldən verməyəcəyik.

Azərbaycan işğal olunmuş torpaqlarını azad edəcək və özünün ərazi bütövlüyünü bərpa edəcək, dövlət sərhədlərinin, hüdudlarının toxunulmazlığını təmin edəcəkdir. Əgər sülh danışıqları nəticə verməsə, Azərbaycan işğal edilmiş torpaqlarını nəyin bahasına olursa-olsun azad etməlidir. Biz torpaqlarımızın [364-365] bir qarışını, bir metrini də heç kəsə verməyəcəyik və Azərbaycanın müstəqilliyini, bağımsızlığını, ərazi bütövlüyünü daim qoruyacağıq. Əminəm ki, türk xalqı, Türkiyə Cümhuriyyəti indiyə qədər olduğu kimi, bundan sonra da bizimlə bərabər olacaqdır.

Bizim gələcək zəfərlərimizin, nailiyyətlərimizin, qələbələrimizin əsası, zəmini türk – Azərbaycan, Türkiyə-Azərbaycan dostluğudur. Bu dostluğa eşq olsun!

Yaşasın türk xalqı!

Yaşasın Türkiyə Cümhuriyyəti!

Yaşasın sarsılmaz Türkiyə-Azərbaycan dostluğu və qardaşlığı!

Sağ olun! [365-366]

## İSTANBULDA MƏTBUAT NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ BƏYANAT

*7 may 1997-ci il*

Hörmətli mətbuat nümayəndələri!

Siz bilirsiniz ki, Türkiyənin prezidenti hörmətli cənab Süleyman Dəmirəlin dəvətilə mən üçüncü gündür Türkiyədə rəsmi səfərdəyəm. Burada keçirdiyim görüşlərin hamısını izləyir, bilirsiniz. Ona görə də mən bu barədə ətraflı danışmaq fikrində deyiləm.

Ancaq onu bildirmək istəyirəm ki, Ankarada və bu gün İzmirdə – indi İstanbula gəlmişik, – görüşlərimizin hamısı çox yüksək səviyyədə, dostluq və mehribanlıq şəraitində keçibdir. Türkiyə Cümhuriyyəti, Türkiyə xalqı, ölkənin dövlət, hökumət rəhbərləri tərəfindən Azərbaycan prezidentinə, Azərbaycan nümayəndə heyətinə çox böyük diqqət və maraq, qonaqpərvərlik göstərilir. Belə bir dostluq və qardaşlıq şəraitində biz hesab edirəm ki, çox səmərəli işləyə bilmişik və çox yaxşı nəticələr əldə etmişik. Nəticələr ondan ibarətdir ki, həm Türkiyə tərəfi, həm də Azərbaycan tərəfi müəyyən etmişik ki, dostluğumuz, qardaşlığımız indiyə qədər hər iki ölkə üçün faydalı olmuşdur və bu dostluq, qardaşlıq əlaqələrini bundan sonra da irəliyə aparmalıyıq. Bu məqsədlə biz Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında müqavilə, anlaşma imzalamışıq. Hesab edirəm ki, bu anlaşma çox tarixi əhəmiyyət daşıyır, əlaqələrimizi daha yüksək səviyyəyə çatdırır, onun məzmununu, keyfiyyətini daha da irəli aparır.

Bununla yanaşı, bir neçə başqa müqavilə də imzalamışıq. Bunlar hamısı iqtisadi əlaqələrimizin daha səmərəli aparılması məqsədi daşıyır. İndiyə qədər Azərbaycan ilə Türkiyə arasında çox müqavilələr, anlaşmalar, sazişlər imzalanıbdır. Bu günlərdə imzalanmış sazişlər də Türkiyə ilə Azərbaycan arasında [366-367] əlaqələr üçün çox geniş normativ-hüquqi baza yaradıbdır. Güman edirəm ki, əməkdaşlığımız üçün normativ-hüquqi sənədlər var, sadəcə olaraq biz əməli işlə bu əməkdaşlığı daha da irəliyə aparmalıyıq.

Bir daha deyirəm, bu danışıqların, görüşlərin məqsədi Türkiyə-Azərbaycan əlaqələrini daha yüksəklərə qaldırmaqdır. Hesab edirəm ki, biz buna nail olmuşuq. Çünki bu, həm Türkiyə tərəfinin, həm də Azərbaycan tərəfinin istəyi, arzusudur. Bunlar da Türkiyə prezidentinin və Azərbaycan prezidentinin imzaladıqları müqavilədə öz əksini tapıbdır.

Biz bu günlərdə Türkiyədə olmağımızdan, keçirdiyimiz görüşlərdən çox razıyıq. Bir də qeyd edirəm, bizə çox gözəl qonaqpərvərlik, çox hərarətli münasibət, dostluq, qardaşlıq münasibəti göstərilir. Bunlara görə də Türkiyənin cümhur başqanına, Türkiyə hökumətinə təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Bu günlərdə Türkiyənin mətbuat nümayəndələri daim yanımızdadır, görüşlərimizi izləyirlər. Oxuya bilməmişəm, amma eşitdiyimə görə qəzetlərdə məqalələr yazıblar, televiziyada verilişlər verilib. Bunlara görə təşəkkür edirəm. İndi isə suallarınıza cavab verməyə hazıram.

**Sual: Birinci sualım belədir: Din azadlığı haqqında qanun son ildə üç dəfə dəyişmişdir. Müsəlman icmaları bundan şikayətlənirlər, bu qanun praktikada onların dini azadlıqlarına toxunur. Deyə bilərsinizmi, bu qanun hansı dəyişikliklərə uğrayıb və nə üçün?**

**Cavab:** Hörmətli dostum, siz səhv edirsiniz. Azərbaycanda din azadlığı haqqında qanun heç vaxt dəyişməyibdir. Sadəcə olaraq din haqqında qanun qəbul edilib və bu qanuna əsasən Azərbaycanda bütün dinlər azaddır. Vicdan azadlığı bizim Konstitusiyamızda əks olunub, qanunlarımızda da öz əksini tapıbdır. Bilirsiniz ki, Azərbaycanda əhalinin əksəriyyəti islam dininə itaət edir. Eyni zamanda Azərbaycanda xristianlar, xristian konfessiyası və iudaizmə itaət edənlər, sinaqoq da var. Beləliklə, Azərbaycanda nəinki din azadlığı var, həm də müxtəlif dinlərin birlikdə fəaliyyəti mövcuddur. İslam dini, xristian dini və yəhudi dini birlikdə, yəni hərəsi öz sahəsində [367-368] fəaliyyət göstərirlər. Din tamamilə azaddır və Azərbaycanda dinə qarşı heç bir qeyri-qanuni hərəkət yoxdur.

**Sual: Cənab Əliyev missionerlərin hərəkətlərindən narahatdırmı?**

**Cavab:** Missionerlərin nə hərəkəti ola bilər? Mən hiss eləmirəm ki, Azərbaycanda missionerlərin elə bir hərəkəti var.

**Sual: Sayın Əliyev, Ankaradakı çıxışlarınızda bütünlükdə türk ordusunu çox təriflədiyinizi gördük. Bunun nə ilə əlaqədar olduğunu bir qədər açıqlaya bilərdinizmi?**

**Cavab:** Bilirsiniz, bu heç bir şeylə əlaqədar deyildir. Türkiyə Cümhuriyyəti bizim üçün dost, qardaş ölkədir. Siz mənim danışıqlarımı izləmisinizsə, hər yerdə, o cümlədən Böyük Millət Məclisindəki çıxışımda, nitqimdə Türkiyənin cümhuriyyət dövründə keçdiyi şanlı, çox şərəfli yol haqqında danışmışam. Türkiyə Cümhuriyyətinin 70 ildən artıq bir dövrdə yaşamasında Türkiyə xalqının yüksək səviyyələrə çatmasında. şübhəsiz ki, türk ordusunun mühüm rolu var. Buna görə də mən Türkiyə Cümhuriyyətinə çox böyük hörmət, ehtiram bəsləyərək, eyni zamanda onun həyatının, cəmiyyətinin, dövlətinin bütün sahələrinə hörmət və ehtiramımı bildirirəm. Mən quru qoşunları məktəbinə getmişdim, bilirsiniz ki, oraya həm Azərbaycan diasporu toplaşmışdı, həm də polis

akademiyasında, quru qoşunları məktəbində təhsil alan azərbaycanlılar var idi. Onların hamısını salamladım, hörmət və ehtiramımı bildirdim. Bunun heç bir başqa səbəbi yoxdur.

**Sual: Bu sahədə Azərbaycanda qayğılarınız varmı?**

**Cavab:** Azərbaycanda qayğılarımız çoxdur. Ona görə də sualınızı birbaşa belə versəydiniz, özünüzün də, mənim də vaxtımı almazdınız.

Qayğılarımız çoxdur, ən böyük qayğımız odur ki, – mən bunu bu günlərdə hər yerdə deyirəm və bu gün də sizə çatdırmaq istəyirəm, – Azərbaycan qonşu Ermənistan tərəfindən 1988-ci ildən başlayaraq hərbi təcavüzə məruz qalmışdır. Bu hərbi təcavüz nəticəsində Ermənistan silahlı qüvvələri bəzi ölkələr tərəfindən onlara göstərilən yardımdan istifadə edərək, eyni zamanda Azərbaycan daxilində olan bəzi səbəblərə görə Azərbaycan torpaqlarının, ərazisinin 20 faizini işğal edibdir. İşğal olunmuş torpaqlardan bir milyondan artıq Azərbaycan [368-369] vətəndaşı zorla yerindən-yurdundan qovulub, didərgin düşübdür. İndi onların əksəriyyəti Azərbaycanın müxtəlif bölgələrində çadırlarda yaşayır. İnsan ola bilər bir ay, iki ay çadırda yaşasın, ancaq illərlə – dörd, beş il çadırda yaşamaq nə qədər dəhşətlidir, bunu təsəvvür edə bilərsiniz.

Şübhəsiz ki, Ermənistanın təcavüzünə qarşı Azərbaycan öz torpaqlarını qorumaq məcburiyyətində olmuşdur. Döyüşlər getmiş, qan tökülmüşdür, şəhidlər vermişik. Ancaq Azərbaycan sülhsevər dövlət olduğuna, sülh tərəfdarı olduğuna görə, üç il bundan öncə atəşin dayandırılması haqqında təşəbbüs irəli sürmüşdük. Ermənistan tərəfindən də bu təşəbbüs olmuşdu və 1994-cü il mayın 12-də atəşkəs haqqında saziş imzalanıbdır. O vaxtdan indiyə qədər, – bir neçə gündən sonra üç il tamam olacaqdır, – atəş yoxdur, yəni savaş yoxdur, müharibə getmir. Amma eyni zamanda sülh, barış da yoxdur, torpaqlarımız işğal altında qalır.

Biz bu üç il müddətində məsələnin sülh yolu ilə həllinə çalışmışıq, bu sahədə çox səylər göstərmişik. Bu məsələdə cürbəcür beynəlxalq təşkilatların imkanlarından istifadə etməyə çalışmışıq. Amma bu məsələ ilə ən çox ATƏT-in Minsk qrupu məşğul olur, onun vasitələrindən istifadə etməyə çalışmışıq.

Nəhayət, keçən ilin dekabrında Lissabonda ATƏT-in Zirvə görüşündə Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli üçün bəyanat qəbul edilib, yəni bunu sülh yolu ilə həll etməyin prinsipləri orada əks olunubdur. ATƏT-in bütün üzvləri 53 ölkənin dövlət başçıları bəyanatın qəbul olunmasına səs verib, ona tərəfdar çıxıblar. Amma Ermənistan əleyhinə çıxıb, bunu qəbul etməyibdir. Buna baxmayaraq, 54 dövlətdən 53-ü bunu qəbul edib, belə bir sənəd qəbul olunubdur. İndi Minsk qrupu yeni bir mərhələdə işə başlayıbdır. Hazırda Minsk qrupunun üç həmsədri var – Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa. Biz onlarla danışıqlar aparmışıq. Onlar da bu münaqişənin yalnız və yalnız ATƏT-in Lissabon Zirvə görüşündə əldə olunmuş prinsiplər əsasında həll edilməsini nəzərdə tuturlar.

Şübhəsiz ki, əgər Ermənistan tərəfi konstruktiv mövqe tutsaydı, normal münasibət göstərsəydi bu məsələ həll oluna bi[369-370]lərdi. Çünki Lissabon Zirvə görüşündə qəbul olunan prinsiplər Ermənistanın xeyrinə olan prinsiplərdir. Biz burada bir çox güzəştlərə getmişik. Prinsiplər bundan ibarətdir ki, Ermənistanın və Azərbaycanın ərazi bütövlüyü tanınmalıdır. Bilirsiniz ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü indiyə qədər tanımır. Bütün beynəlxalq təşkilatlarda, sənədlərdə separatçılıq pislənirsə, qınanırsa, qeyri-qanuni hesab olunursa, Ermənistan o sənədə qol çəkməyibdir. Beləliklə, Ermənistan beynəlxalq hüquq normalarına zidd olaraq separatçılığa tərəfdar çıxır. Çünki Dağlıq Qarabağda olan ermənilər Ermənistanın köməyi ilə separatçılıq yolu ilə gedib Azərbaycanda məhz belə bir şərait yaradıblar. Ona görə də bu prinsiplərin birinci bəndi Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanımasından ibarətdir. Biz Ermənistanın ərazi bütövlüyünü tanıyırıq və onun ərazisinin heç bir hissəsinə iddia etmirik. Baxmayaraq ki, Ermənistanın indiki ərazisindəki torpaqların çoxu keçmişdə Azərbaycana mənsub olubdur. Ancaq biz beynəlxalq hüquq normalarına tabe oluruq və 1991-ci ildə Azərbaycan və Ermənistan öz müstəqilliyini əldə edərkən Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul olunmuş, təsdiq olunmuş sərhədlər çərçivəsində həm Ermənistanın ərazi bütövlüyünü tanıyırıq, həm də istəyirik ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanısın.

İkinci prinsip, ikinci bənd Dağlıq Qarabağa Azərbaycan Respublikasının tərkibində yüksək səviyyəli muxtariyyət, özünüidarəetmə hüququ verilməsi barədədir. Bu, doğrudan da Azərbaycan üçün o qədər də münasib prinsip deyil, çünki biz öz torpağımızın, ölkəmizin, respublikamızın bir hissəsinə xüsusi status verməliyik. Ancaq biz münaqişəyə son qoymaq üçün sülh yolu ilə gedərək buna razı olmuşuq.

Üçüncü prinsip, Dağlıq Qarabağın bütün əhalisinin – həm erməni, həm azərbaycanlı əhalisinin gələcəkdə təhlükəsizliyini təmin etməkdir. Biz hesab edirik ki, bu üç prinsip əsasında 1997-ci ildə münaqişə həll oluna bilər. Ancaq bunun üçün çox iş görmək lazımdır. Fürsətdən istifadə edib demək istəyirəm ki, Ermənistanın Azərbaycana təcavüzü başlayandan indiyə qədər Türkiyə Azərbaycanın haqq, ədalət işini dəstəkləyib, müdafiə edibdir. Türkiyə Minsk qrupunun, ATƏT-in üzvü ola[370-371]raq bütün beynəlxalq təşkilatlarda Azərbaycanın ədalətli işini daim dəstəkləyib, müdafiə edibdir. Lissabon Zirvə görüşündə də biz bu prinsiplərin qəbul olunmasına çalışarkən Türkiyə Cümhuriyyəti, xüsusən hörmətli prezident cənab Süleyman Dəmirəl ilə sıx əməkdaşlıq edirdik. Bu günlərdəki görüşlərimizdə də Türkiyə yenə öz mövqeyini çox qətiyyətlə saxlayır və hesab edirik ki, Türkiyə Minsk qrupunun üzvü kimi, eyni zamanda beynəlxalq aləmdə böyük nüfuzu, hörməti olan ölkə kimi bundan sonra da bu məsələlərin həllində daim bizimlə bərabər çalışacaq, iştirak edəcəkdir.

Ancaq təəssüflər olsun ki, bu məsələnin sülh yolu ilə həll edilməsinə maneçilik göstərən amillər də var. Bunlar təkcə Ermənistanın Lissabon Zirvə görüşündə qəbul olunmuş prinsiplərin əleyhinə çıxması deyildir. Bu amillərdən biri son iki-üç ayda aşkar olubdur. Bu da Ermənistanın qeyri-qanuni silahlanmasıdır. Üç ildir ki, biz atəşi dayandırmışıq. Demək yenidən silahlanmaya heç bir ehtiyac yoxdur. Ancaq iki-üç ay öncə Rusiyada, Moskvada aşkar oldu ki, bu müddətdə, son üç il içərisində Rusiyanın bəzi dairələri tərəfindən Ermənistana gizli olaraq, qeyri-qanuni yolla çoxsaylı silahlar, özü də ağır, çox dəhşətli silahlar verilibdir. Rusiya Ermənistana 1 milyard dollar dəyərində silahlar veribdir. Bunların içərisində 84 ədəd T-72 tankı, – onlar ən müasir tanklardır, – habelə zirehli maşınlar, uzaqvuran raketlər, – o raketlər ki, bunları Rusiya Kiprə satmışdı və bu, Türkiyədə böyük narahatlıq doğurmuşdu, – toplar var, hətta son vaxtlar aşkar olub ki, on kimyəvi silah kompleksi də verilibdir.

Bu. çox böyük təhlükə doğurur. Azərbaycanda da təhlükə doğurur, ümumiyyətlə, Qafqazda sülhün, əmin-amanlığın saxlanması üçün çox təhlükəlidir. Hesab edirəm ki, təkcə Qafqaz ölkələri üçün yox, Türkiyə üçün də təhlükəlidir. Bilirsiniz ki, Ermənistanda Rusiyanın hərbi bazaları, ordu hissələri var. Bu ordu hissələri ola-ola, orada Rusiyanın özünəməxsus silahlan mövcud olduğu halda Ermənistanın ordusuna da, Dağlıq Qarabağın silahlı qüvvələrinə də çox güclü silahlar veriblər. Bu, bizi narahat edir, güman edirəm, Türkiyəni də narahat etməlidir və ümumiyyətlə, bizim bölgədə vəziyyəti çox gərginləşdirir. [371-372]

Şübhəsiz ki, bunlar hamısı Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həllinə mane olan amillərdir. Bunlara diqqət yetirmək lazımdır. Hesab edirəm ki, sizin sualınıza tam cavab verdim.

**Sual: Rusiya Ermənistanı silahlandırır. Sizcə, bu işdə Rusiyanın uzunmüddətli məqsədi nə ola bilər? İkinci sualım isə belədir: Siz Türkiyə ilə strateji əməkdaşlıq müqaviləsi imzaladınız. Belə müqavilə bölgədəki başqa ölkələrlə də imzalana bilərmi və bunun bir məqsədi də Ermənistanın, dolayısı ilə həm də Rusiyanın yolunu kəsməkdirmi?**

**Cavab:** Bilirsiniz, Rusiyanın hədəfi nədir, – mənim üçün bunu sizə xırdalamaq lazım deyildir. Əgər Rusiya Ermənistanda hərbi baza, böyük ordu hissələri saxlayırsa, nə üçün saxlayır? Konsert vermək, yaxud da toy etmək, ticarət etmək üçün saxlamır ki! Əgər bir ölkə başqa bir ölkədə ordu saxlayırsa, bunun məqsədi aydındır, bunu sizə deməyimə ehtiyac yoxdur. Rusiya təkcə Ermənistanda yox, Gürcüstanda da böyük ordu hissələri saxlayır. Rusiyanın Ermənistanda olan ordu hissələrinə son zamanlar hərbi baza statusu verilibdir. Bu anlaşma da həm Rusiyanın parlamentində, həm də Ermənistanın parlamentində təsdiq edilibdir. Demək, Rusiya burada öz silahları ilə uzun müddət qalmaq fikrindədir. Bundan siz özünüz nəticə çıxarın.

O ki qaldı bizim Türkiyə ilə imzaladığımız strateji əməkdaşlıq haqqında anlaşmaya, belə anlaşmanı Gürcüstanla, Ukrayna ilə də imzalamışıq. Əgər bizim üçün başqa münasib tərəfdaş olsa onunla da imzalamağa hazırıq.

**Sual: Böyük neftin nəqli üçün Bakı-Ceyhan boru kəməri barədə sual verəcəyəm. Bilirəm ki, sizin bu səfərinizə qədər heç bir hökumət qəti təklif verməmişdir. İndiki səfəriniz zamanı Türkiyə hökuməti Bakı-Ceyhan neft kəmərinin çəkilməsi haqqında dəqiq təklif veribmi?**

**Cavab:** Sizin sualınız bir az aydın deyil, amma mən çalışaram buna cavab verim.

**Sual: Məncə, Azərbaycan hökuməti özü qərara almalıdır ki, bu neft kəməri İrandan keçsin, yoxsa Türkiyədən. Bu barədə heç bir hökumət sizə qəti təklif verməmişdir.** [372-373]

**Bu görüşlər zamanı Türkiyə hökuməti sizə dəqiq təklif veribmi və əgər veribsə, bunu necə qiymətləndirirsiniz?**

**Cavab:** Siz səhv edirsiniz, bizə təklif verənlər çoxdur. Böyük neft kəmərinin cürbəcür marşrutları barədə arzularını bildirənlər və müraciət edənlər də çoxdur. Ona görə də bu neft kəmərinin bir çox variantı var, ancaq biz isə strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında imzaladığımız anlaşmada bunu əks etdirmişik, – çalışırıq və çalışacağıq ki, böyük neft kəməri Türkiyənin ərazisindən Ceyhan limanına keçsin.

**Sual: Bakı-Ceyhan boru kəmərinin çəkilməsi üçün Türkiyədə yatırım qoyulmasını gözləyirsinizmi?**

**Cavab:** Əgər Bakı-Ceyhan boru kəməri çəkiləcəksə, onun üçün böyük yatırım da qoyulacaqdır. Bu böyük layihəni yatırımsız həyata keçirmək olmaz.

**Sual: Türkiyə ilə Ermənistanın əlaqələrinin genişləndirilməsini necə qiymətləndirirsiniz?**

**Cavab:** Son vaxtlar Türkiyə ilə Ermənistanın əlaqələri genişlənibdir. Biz sülhsevər dövlətik və heç bir ölkə ilə düşmənçilik etmək istəmirik. Ermənistana qarşı heç vaxt nə hərbi təcavüz etmişik. nə də bir düşmənçilik hərəkəti etmişik. Ermənistan təcavüzkardır, Azərbaycana təcavüz edibdir. Azərbaycan övladlarının qanını töküb, işğal olunmuş torpaqlarda Azərbaycanın bütün varidatını dağıdıbdır. Əsrlərlə insanların yaratdıqları mülklər, Azərbaycanın mülkiyyəti dağıdılıbdır, o yerlərdə bizim tarixi abidələrimiz, müqəddəs dini abidələrimiz dağıdılıbdır. Yəni Azərbaycana böyük həm maddi, həm də mənəvi zərər vurulubdur. Buna baxmayaraq, görürsünüz ki, biz üç ildir atəşkəs əldə etmişik və məsələni sülh yolu ilə həll etmək istəyirik. Ancaq bunun şərti var. Şərti də ondan ibarətdir ki, Ermənistan silahlı qüvvələri Azərbaycan torpaqlarından çıxmalı, Azərbaycanın ərazi bütövlüyü təmin olunmalıdır. Ermənistanla Azərbaycan arasında sülh yaranmalıdır. Belə olan halda, ümumiyyətlə, bu bölgədə iqlim tamamilə dəyişər və Ermənistan da bölgədəki bütün dövlətlərlə əməkdaşlıq edə, əlaqələrini genişləndirə bilər.

Türkiyə Azərbaycanın yaxın dostu, qardaşı olduğuna görə həmişə Ermənistanın bu təcavüzünün əleyhinə çıxıb və ona dəfələrlə deyibdir ki, siz Azərbaycanın işğal olunmuş torpaqla[373-374]rından çıxmasanız, təcavüzə son qoymasanız Türkiyə heç vaxt Ermənistanla əlaqələrini bərpa etməyəcəkdir. Biz bunu məmnuniyyətlə qəbul edirik. Məmnuniyyətlə qəbul edirik ki, Türkiyə ilə Ermənistan arasında diplomatik əlaqələr yoxdur, heç bir başqa dövlətlərarası əlaqələr yoxdur. Bu, belə də olmalıdır. Çünki Azərbaycanda qırılan insanlar sizin, türklərin bacıları, qardaşlarıdır. Azərbaycan torpağı, Türkiyə torpağı, xalqlarımız bir-biri ilə bağlıdır. Ermənistan gəlib Azərbaycan torpağında qan töküb, insanlarımızı qırıb və Türkiyə Ermənistanla əlaqə saxlasa bu, anlaşılmaz olar, türk xalqı özü buna yol verməz, Türkiyənin ictimai rəyi buna yol verməz, – bunu mən bilirəm.

Ancaq təəssüflər olsun ki, son vaxtlar Türkiyədə bəzi adamlar qazanc əldə etmək, yaxud başqa məqsədlər üçün cürbəcür yollarla Ermənistanla əlaqələr yaratmaq istəyirlər. Bir müddət öncə çox təkid etdilər ki, Ermənistanın "H-50" hava yolu var, ona imkan vermək lazımdır. Biz buna etiraz etdik. Amma Türkiyə hökuməti tərəfindən bizə müraciət etdilər ki, bunu açsaq bəlkə Ermənistan yumşalar, bəlkə belə olar, elə olar. Yaxşı, biz buna razılıq verdik, "H-50" yolu açıldı. Amma Ermənistanın mövqeyində heç bir müsbət dəyişiklik olmadı.

İndi son zamanlar bizə məlumatlar gəlir, sizin qəzetlərdə yazırlar ki, Ermənistanın təyyarələri Trabzona gəlib-gedir. Biz buna etiraz edirik. Hesab edirik ki, bu, Türkiyə-Azərbaycan əlaqələrinə çox zərər gətirər və mən bu barədə fikrimi Türkiyənin dövlət, hökumət başçılarına demişəm. Yaxud da ki, Türkiyənin bəzi adamları Ermənistanla ticarət qurmaq istəyirlər. Məsələn, İqdır vilayətinin valisi Ermənistanı ziyarət edib, hətta orada dini mərkəz var, ibadət edib, yaxud nə edib, – özü bilər, mən bilmirəm, sizin qəzetlərdə var idi. Ermənistan televiziyası da bunu veribdir, – biz Ermənistan televiziyasını izləyirik, seyr edirik. Bəzi tacirlər gedib-gəliblər, guya Ermənistanla ticarət edəndə kimsə nə isə qazanacaqdır. Ola bilər, kimsə nə isə qazanacaq, ancaq Türkiyə ilə Azərbaycan arasında olan əlaqələr qazanc, para üzərində qurulmamalıdır. Bizim ölkələrimizin böyük mənəvi kökləri var, bunları bir-birinə bağlayan milli köklər var. Bu milli, mənəvi mənafeyi ayrı-ayrı şəxslərin qazancına qurban vermək olmaz. Ona görə [374-375] də mən bu barədə öz fikrimizi və etirazımızı Türkiyənin bütün dövlət və hökumət başçılarına bildirmişəm. Biz bildirmişik ki, buna yol vermək olmaz.

Məsələn, buradan bəzi tacirlər Ermənistana gediblər, sonra gəlib burada təbliğ ediblər ki, Ermənistanla ticarət aparmaq lazımdır. Yaxud da mən dünən, srağagün danışarkən bəzi şəxslər deyirlər ki, bilirsiniz, Türkiyə tacirləri deyir ki, guya iranlılar bizim mallarımızı alır, sərhəddən keçirib Ermənistanda sataraq para qazanırlar. Yaxşı olar, elə özümüz aparıb sataq və paranı da qazanaq.

Birincisi, bu, yanlış fikirdir. İranlılar özləri Ermənistanla çox geniş əlaqə yaradıblar, çox geniş ticarət aparırlar, ona çox yardım edirlər, oraya elektrik, qaz xətti çəkirlər, əməkdaşlıqları çox genişdir. Biz bu barədə İran hökumətinə öz etirazımızı bildirmişik. Ancaq təəssüflər olsun ki, İran hökuməti bizim bu sözlərimizə diqqət vermir və öz ticarətini, iqtisadi əlaqələrini aparır. Əgər Ermənistana getsəniz, – sizin bəzi müxbirlər bəzən Ermənistana gedirlər, türk, yaxud ermənidirlər, bilmirəm, bunu özünüz bilərsiniz, gedirlər, hətta Qarabağa da gedirlər, – əgər ədalətlidirlərsə, onlarda ədalət prinsipi və doğrudan türk qanı varsa görərlər ki, Yerevanın, Ermənistanın, Dağlıq Qarabağın bütün yollarında İran yük maşınları, avtomobilləri doludur. Yəni İran tacirlərinin Türkiyədən mal alıb, aparıb Ermənistanda satmağa ehtiyacı yoxdur. Onlar öz mallarını satırlar, çalışırlar ki, öz malları üçün xarici bazar tapsınlar. Niyə gəlib Türkiyənin malını alıb Ermənistanda satacaqlar? Sadəcə olaraq Türkiyənin ayrı-ayrı tacirləri gizli surətdə, – bunu bilirik, – Ermənistanla ticarət edir və sizin dövlət adamlarına deyirlər ki, guya bu malları iranlılar gəlib buradan alaraq aparırlar.

Sizə bir şeyi də demək istəyirəm. Biz İranın dövlət adamları ilə danışarkən onlar deyirdilər ki, niyə bizi qınayırsınız ki, mal aparıb Ermənistanda satırıq, gedin Ermənistanın, Yerevanın bazarlarına, görün, nə qədər türk malları var. Bunu bizə iranlılar deyirlər. İndi gəlin araşdırın, türk malları oraya necə gedib çıxır, – iranlılar aparırlar, yoxsa Türkiyə tacirləri özləri gizli olaraq satırlar. Bu fikirlər – guya İran tacirləri aparıb sataraq pul qazanırlar, amma Türkiyə tacirləri qazana bilmirlər, [375-376] – yanlış, aldadıcı fikirlərdir. Bunları qətiyyən qəbul edə bilmərik. Bir də deyirəm ki, Türkiyə-Azərbaycan, Azərbaycan-Türkiyə əlaqələrinin mənəvi, milli kökləri var, bunları heç bir paraya, heç bir dollara, heç bir lirəyə dəyişmək olmaz. Mən xahiş edirəm, bunu biləsiniz.

Mən Türkiyədə olan insanların belə hərəkətlərini qınayıram, bunlara çox etiraz edirəm və güman edirəm ki, Türkiyədəki qardaşlarımız, türk xalqı özü, Türkiyənin ictimai rəyi gərək belə hallara yol verməsin.

Bəzən belə danışıqlar gedir ki, Ermənistana qapı açaq. Nə üçün qapı açasınız? Qoy, Ermənistan Azərbaycanın işğal olunmuş torpaqlarından çıxsın, ondan sonra birlikdə oturub fikirləşək ki, qapını haradan açmaq lazımdır. Yaxud, bu yaxınlarda Gürcüstan tərəfindən bizə belə bir məlumat gəldi ki, Türkiyə ilə Gürcüstan arasında iki qapı var, Türkiyədən Gürcüstana təklif olunub ki, üçüncü qapı da açmaq lazımdır. Bizimlə məsləhət edirlər ki, bu işə siz necə baxırsınız? Biz soruşuruq ki, bu qapı haradadır? Bu qapı Gürcüstanda ermənilərin birgə yaşadığı Cavaxeti deyilən yerdədir, demək, onu – üçüncü qapını ermənilər üçün açırlar. Gürcülərdən soruşduq ki. sizə iki qapı yetərlidirmi? Üçüncüyə ehtiyacınız varmı? Dedilər ki, yetərlidir, ehtiyacımız yoxdur. Bəs, kimə lazımdır? Dedilər ki, Türkiyə tərəfindən bizə belə təklif gəlib. Biz buna da etiraz etdik. Çünki bu, Gürcüstan üçün deyildi, Gürcüstanda Cavaxetidə bir yerdə yaşayan ermənilər üçün idi.

Bilirsiniz, mən bunu açıq deyirəm, – bəzən siz jurnalistlər mənə sual verirsiniz ki, burada incimisinizmi, – əlbəttə, belə şeylərdən inciyərəm və dost dostdan, qardaş qardaşdan inciməlidir. Mənə yaxın olmayan başqa bir ölkədən, yaxud xalqdan inciməyə haqqım yoxdur. Çünki onun mənim qarşımda heç bir öhdəliyi yoxdur, mənim də onun qarşısında heç bir öhdəliyim yoxdur. Amma Türkiyədən, türk xalqından, Türkiyə hökumətindən və Türkiyədə bu işlərə gedən bəzi insanlardan inciməyə haqqım var. Bu, mənim inciməyim deyil, Azərbaycan xalqının inciməyidir, Azərbaycan xalqı bundan çox narahatdır. Ona görə də istərdim ki, bunlardan nəticə çıxarasınız. [376-377]

Yaxud qəzetlərdən bir müxbiriniz Dağlıq Qarabağa gedib və dünən elə biz burada olanda iki səhifəlik reportaj veribdir. Erməni təcavüzkarlarına yaxşı xidmət edirsiniz, eləyin.

**Sual: Ermənistan-Azərbaycan sərhədində yenidən atəş başlayırmı? Bu, ilkin neft kəmərinin çəkilməsi ilə hansısa şəkildə əlaqədardımı?**

**Cavab:** Belə hallar olur, bəzən atəşkəs pozulur. Son vaxtlar Ermənistan tərəfdən Azərbaycanın məhz Qazax, Tovuz bölgələrində atəşkəsi pozmağa cəhd edirlər. Sizə deyə bilərəm ki, sərhəddə atışmalar bəzən üç-dörd saat davam edir və o tərəfdən də, bu tərəfdən də insanlar həlak olubdur. Bu, o yerdir ki, indi biz Bakıdan Gürcüstandakı Supsa limanına oradan ikinci neft kəməri çəkirik. Bilirsiniz ki, birinci neft kəmərini Bakıdan Rusiya ərazisindən keçməklə Qara dənizin Novorossiysk limanına çəkirdik. Bu, ilkin neftin ixracı üçündür. Supsa limanı Türkiyəyə çox yaxın limandır. Belə fikirlər söyləyirlər, mətbuatda belə yazılar gedib ki, məhz boru xəttinin çəkilməsinə mane olmaq üçün orada atəşkəsi pozurlar. Belə fikirlər var.

**Sual: Cənab prezident, Türkiyə qəzetlərinin yazdığına görə, Levon Ter-Petrosyanın Türkiyəyə səfəri gözlənilir və o, işgüzar dairələrlə əlaqələri sıxlaşdırmaq istəyir. Ola bilərmi ki, işgüzar dairələr vasitəsilə Ermənistan rəsmi Ankaraya təsir göstərmiş olsun? Rəsmi Ankaradan nə kimi zəmanət aldınız? Gürcüstan ilə Türkiyə arasında üçüncü qapı açılması məsələsi dövlətlərarası məsələdir. Rəsmi Ankaranın buna münasibəti necədir?**

**Cavab:** Mən sizə dedim, gürcülər bizə müraciət etmişdilər. Biz etirazımızı bildirdik, sonra nə olacaq, – bu, Türkiyə ilə Gürcüstanın işidir. Amma biz buna etiraz edirik.

Ter-Petrosyanın səfəri barədə mənim məlumatım yoxdur və Türkiyənin dövlət və hökumət rəhbərləri mənim dediyim bu fikirlərlə razıdırlar. Söz verirlər ki, onlar heç bir hərəkətə yol verməyəcəklər, heç bir qapı açılmayacaq və belə halların qarşısını alacaqlar. Söz veriblər və ümid edirəm ki, verdikləri sözü yerinə yetirməlidirlər.

**Sual: Mən yenə Türkiyə qəzetlərinə istinad edirəm. Yazırlar ki, İstanbulda keçirilən biznes forumunda Azərbaycan və Türkiyə tərəfindən Ermənistan prezidentinə** [377-378] **neft kəmərinin Ermənistandan keçməsi təklif edilib ki, Ermənistan da öz qoşunlarını Azərbaycan ərazisindən çıxarsın. Bu fikirlərə sizin münasibətinizi bilmək istərdim.**

**Cavab:** Türkiyə tərəfindən mənə belə təklif olmayıbdır. Qəzetlər haradan götürürlər, bunu bilmirəm.

**Sual: Belə bir məsələ – neft kəməri və ərazi məsələsi reallaşa bilərmi?**

**Cavab:** Bilirsiniz, neft kəməri və ərazi, – mən sözün belə qoyuluşu ilə razı deyiləm. Ancaq bizim bu neft kəməri haradansa keçəcəkdir, elədirmi? Əgər doğrudan da neft kəməri bölgədə sülhün yaranmasına kömək edə bilərsə, bunu müzakirə etmək olar. Bölgədə sülh təkcə bizim üçün deyil, hamı üçün lazımdır. Türkiyə üçün də lazımdır. Mən bunu Türkiyənin bütün ictimai rəyinə çatdırıram, – qoy Türkiyədə fikirləşməsinlər ki, bütün bu hadisələr Türkiyəyə toxuna bilməz. Əgər Ermənistanda o qədər silah toplanırsa, Türkiyə də düşünməlidir, fikirləşməlidir.

Ona görə də bu bölgədə, Qara dəniz, Xəzər dənizi bölgəsində sülhü təmin etmək üçün bütün vasitələrdən istifadə etmək lazımdır.

**Sual: Hörmətli prezident, atəşkəs haqqında sazişdən sonra Ermənistan silahlanmışdır. Buna qarşı Azərbaycan dövləti nə kimi tədbirlər görməkdədir?**

**Cavab:** Azərbaycan dövləti Rusiyanın prezidentinə məktublar göndərib. Ermənistana gizli, qeyri-qanuni silah verildiyinə görə mən Rusiyanın prezidenti cənab Boris Yeltsinə üç dəfə məktub göndərmişəm, müraciət etmişəm. Xahişim də ondan ibarət olubdur ki, Rusiya dövləti tərəfindən təcili tədbirlər görülsün. Ermənistana qeyri-qanuni, gizli surətdə verilmiş silahlar Rusiyaya qaytarılsın. Mən Moskvada olarkən, martın 28-29-da Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrin prezidentlərinin görüşü zamanı bu məsələ müzakirə edildi. Mən bu məsələni qaldırmışam və bütün dövlət başçılarına, o cümlədən Rusiyanın prezidentinə öz fikirlərimi bildirmişəm.

Rusiya prezidenti ilə müzakirə etdiyimiz məsələlərdən biri də Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunmasında Rusiyanın fəaliyyətinin artırılmasıdır, – çünki, sizə dediyim kimi, Rusiya Minsk qrupunun həmsədridir, – [378-379]eyni zamanda Rusiyanın bəzi dairələri tərəfindən Ermənistana gizli, qeyri-qanuni olaraq silahların verilməsidir. Boris Yeltsin mənə bildiribdir ki, o, bu məsələni araşdırmaq barədə göstəriş veribdir. Moskvada mətbuat konfransında da biz – Boris Yeltsin, başqa respublikaların prezidentləri, o cümlədən mən bir yerdəydik. Orada sual veriləndə mən bildirdim ki, Boris Yeltsin söz verib ki, bu məsələnin araşdırılmasını nəzarət altında saxlayacaq və məsələ araşdırılan kimi lazımi tədbirlər görəcəkdir.

Bilməlisiniz ki, Rusiya parlamenti bu məsələ barəsində qərar çıxarıb, onu Rusiyanın baş prokuroruna göndəribdir. İndi baş prokuror tərəfindən istintaq, araşdırma aparılır. Parlamentin qərarı Rusiya prezidentinə də göndərilibdir. Biz gözləyirik. Amma gözləməyimizin məqsədi bir o deyil ki, orada kimi isə cəzalandırsınlar, – bu Rusiyanın daxili işidir. Məqsədimiz odur ki, Ermənistana qeyri-qanuni verilmiş silahlar geri qaytarılsın və bundan sonra Rusiya Ermənistana heç bir silah verməsin.

**Sual: Hörmətli prezident, indiyə qədər Bill Klinton ilə üç dəfə görüşmüsünüz. Onu da bilirəm ki, Almaniyanın, İngiltərənin xarici işlər nazirləri Bakıya gəldilər, Azərbaycan ilə Ermənistan arasındakı münaqişə barədə sizin mövqeyinizə yaxın olan mövqelərini bildirdilər. Azərbaycan hökuməti Xəzər neft yataqlarının işlənməsinin böyük hissəsini Qərb şirkətlərinə vermişdir. Qərb ölkələri isə öz şirkətlərinin mənafeyini qorumağa çox həssasdırlar. Qərb ölkələri ermənilərə təsir göstərə bilirlər. Bu baxımdan Azərbaycan torpaqlarının işğaldan qurtarmasında ABŞ, Fransa və digər Qərb ölkələri nə üçün daha çox fəallıq göstərmir, bu işğala son qoymurlar?**

**Cavab:** Birincisi, sən bunu onlardan soruş, onların əvəzinə cavab verə bilmərəm. Ancaq onu demək istəyirəm ki, bəli, mən Amerika prezidenti cənab Bill Klintonla da görüşərkən, onunla telefonla da danışarkən, Fransa prezidenti ilə görüşəndə də, – son üç ayda onunla iki dəfə görüşmüşəm, – artıq dedim ki, Rusiya prezidenti ilə bir ay öncə görüşmüşəm. Almaniyanın həm prezidenti, həm kansleri, həm də xarici işlər naziri ilə görüşmüşəm, – hamı söz veribdir. Xüsusən indi, Rusiya, Amerika, Fransa Minsk qrupunun həmsədrləri olduğu zaman [379-380] üçü də söz verib ki, bu işə fəal qoşulacaqlar və bu məsələnin həlli ilə məşğul olacaqlar. Onlar bəyan ediblər ki, Lissabon Zirvə görüşündə qəbul olunmuş prinsiplər bu danışıqların əsasını təşkil edəcəkdir.

**Sual: Rusiya iqtisadi çətinliklər içərisindədir və böyük həcmdə silah satır, əl altından da satır. Siz Rusiyanın dövlət başçısının verdiyi sözə inanırsınızmı?**

**Cavab:** Sizin qəzet niyə Ermənistanla belə əməkdaşlıq edir?

**Jurnalist:** Azərbaycanla da əməkdaşlıq edər, başqa yerlə də. Bizim əleyhimizə olan xəbərləri də veririk.

**Cavab:** Əgər sən Azərbaycanla Ermənistanı bir gözlə görürsənsə, bir münasibət göstərirsənsə, çox sağ ol. Sən türksən? Amma mən istəməzdim ki, türklər belə olsunlar, açıq danışıram. Rusiya, Rusiyanın prezidenti söz veribdir və güman edirəm ki, o, sözünü yerinə yetirməlidir. Əgər Türkiyənin qəzeti özünü bu cür aparırsa, onda mən Rusiyanın prezidentindən nə gözləyə bilərəm?

Sağ olun, təşəkkür edirəm. [380-381]

## AZƏRBAYCAN PREZİDENTİNƏ "FATİH" UNİVERSİTETİNİN FƏXRİ DOKTORU ADI VERİLMƏSİ MƏRASİMİNDƏ NİTQ

*İstanbul*

*8 may 1997-ci il*

Hörmətli dövlət naziri!
Hörmətli vali!
Hörmətli rektor!
Hörmətli professorlar, müəllimlər!

Əziz tələbələr, bacılar və qardaşlar! Sizə Azərbaycan xalqından hərarətli salam yetirirəm. Sizə, "Fatih" Universitetinə və böyük türk xalqına səadət və xoşbəxtlik arzulayıram.

Biz bu salona daxil olarkən burada Azərbaycanın çox sevimli mahnılarından biri olan "Sizə salam gətirmişəm" mahnısı səslənirdi. Bu gün burada hər bir insan bir-birini salamlayır və mahnı ilə də sizə Azərbaycan salamı gəlibdir. Mən bu sözlərimlə do sizə salamımı, hörmət-ehtiramımı və sevgi-məhəbbətimi bildirirəm.

Əziz dostlar, mən Türkiyənin prezidenti, əziz dostum, qardaşım Süleyman Dəmirəlin dəvəti ilə Türkiyədə dörd gündür ki. Rəsmi səfərdəyəm. Mənimlə bərabər buraya gəlmiş Azərbaycan nümayəndə heyətinin tərkibində ölkəmizin görkəmli şəxsləri, nazirlər, dövlət adamları, millət vəkilləri, elm, mədəniyyət xadimləri, yazıçılar, şairlər, musiqiçilər vardır. Dörd gündür bizim hamımız Türkiyənin qucağındayıq. Biz Türkiyə xalqı. Cümhuriyyəti, qardaş-bacılarımız tərəfindən həddindən ziyadə dostluq münasibəti və qardaşlıq hissiyyatları görürük və hiss edirik. Türkiyə Cümhuriyyətinə, onun prezidenti hörmətli [381-382] Süleyman Dəmirələ, Türkiyə xalqına və sizə bütün bunlara görə təşəkkürümüzü və minnətdarlığımızı bildiririk.

Biz bütün bu günlər Türkiyədə Azərbaycan xalqına, respublikasına, müstəqil Azərbaycana və şəxsən bizə çox böyük hörmət və ehtiram görürük. Bunlar cürbəcür formada ifadə olunur. Ancaq hamısı birlikdə Türkiyə-Azərbaycan dostluğunun, qardaşlığının indi nə qədər yüksək zirvələrdə olduğunu bütün dünyaya nümayiş etdirir. Bu, bizim üçün böyük iftixar hissidir.

Azərbaycana göstərilən bu hörmət və ehtiramın, qardaşlıq təzahürü olaraq Türkiyə dövləti məni – Azərbaycanın prezidentini Türkiyənin yüksək mükafatı olan "Dövlət nişanı" ilə mükafatlandırdı. Türkiyənin prezidenti hörmətli Süleyman Dəmirəl bu mükafatı təntənəli şəkildə mənə təqdim etdi. Mən bu hadisəni çox yüksək qiymətləndirirəm. Bu, mənim fəaliyyətimə, indiyədək keçdiyim yola və mənim Azərbaycan xalqı qarşısında göstərdiyim xidmətlərə, o cümlədən Türkiyə-Azərbaycan dostluğunun inkişaf etdirilməsində göstərdiyim xidmətlərə verilən yüksək qiymətdir. Bu, eyni zamanda Azərbaycan xalqına, onun azadlıq, dövlət müstəqilliyi yolunda apardığı mübarizəyə və əldə etdiyi nailiyyətlərə verilən yüksək qiymətdir. Bu, eyni zamanda Azərbaycan xalqına, onun azadlıq, dövlət müstəqilliyi yolunda apardığı mübarizəyə və əldə etdiyi nailiyyətlərə verilən yüksək qiymətdir.

Mən bu mükafata görə təşəkkür edirəm. Bir daha sizi, Türkiyə Cümhuriyyətini əmin edirəm ki, Azərbaycan xalqına, mənə göstərilən bu yüksək etimadı Türkiyə-Azərbaycan dostluğunu möhkəmləndirmək, respublikamızın dövlət müstəqilliyini daha da yüksəklərə qaldırmaq yolunda doğruldacağam.

Dünən biz İzmir şəhərində olduq. İzmirdə "9 Eylül" Universitetində görüşlər keçdi. "9 Eylül" Universiteti mənə bu universitetin fəxri doktoru adını verdi. Bu, mənim üçün böyük hadisədir. Mən çox minnətdaram.

Bu gün biz "Fatih" Universitetindəyik. Siz mənə, Azərbaycanın dövlət başçısına universitetin Fəxri doktoru adı verilməsi münasibətilə toplaşmısınız. Mən universitetə, universitetin rektorluğuna, idarə heyətinə və universitetin bütün [382-383] kollektivinə mənə göstərilən bu hörmət və ehtirama, şərəfə görə, mənə verilən yüksək ada görə təşəkkür edirəm. Sizi əmin edirəm ki, "Fatih" Universitetinin həm Fəxri doktoru kimi, həm də onun yaxın dostu kimi mən bu universitetin gələcək işlərinin uğurlu olmasına daim öz köməyimi göstərəcəyəm.

"Fatih" Universiteti yaşca gənc universitetdir. Ancaq sevindirici hal odur ki, təşkil olunduğu qısa müddətdən sonra universitet sürətlə inkişaf edibdir. İndi universitetin böyük tərkibdə professor-müəllim kollektivi, gözəl tələbələri, belə dəyərli insanları vardır.

Universitet Türkiyənin böyük şəxsiyyəti Fatihin adını daşıyır. Universitetin qurulması məramı çox xoş məramdır. Universitet və onunla bağlı olan vəqf türk dünyasında türk xalqının, türkün tarixini, milli ənənələrini, keçdiyi yolu təbliğ etməkdə və türk dilini, təhsilini, tədrisini qurmaqda, yaratmaqda, Türk Cümhuriyyətlərində yeni-yeni tədris ocaqları – universitetlər, kolleclər, liseylər açmaqda çox böyük xidmətlər göstərir. Bu, tək bir universitet deyil, onun çox böyük qol-qanadı vardır. Yəni bu vəqfin çox böyük qol-qanadı var. Onun böyük qanadlarından biri bu universitetdir. Mən fürsətdən istifadə edib bu vəqfin Türkiyənin və Türk

Cümhuriyyətlərinin həyatında son illər gördüyü işlərə yüksək qiymət verirəm. Görülən bu işlər münasibətilə sizi təbrik edirəm. Bu vəqfin yaranmasında, yaşamasında çox böyük xidmətlər göstərmiş Xoca Fətullah Günelin xidmətlərini qeyd edirəm.

Biz Azərbaycanda çox sevinirik, iftixar hissi keçiririk ki, Türkiyənin təhsil ocaqları gündən-günə genişlənir, güclənir və sayca artır. Türkiyənin yüksək təhsil ocaqları, universitetləri Türkiyə Cümhuriyyəti, türk dünyasının gələcəyi üçün yüksək ixtisaslı mütəxəssislər hazırlayırlar. Bizi sevindirən bir də odur ki, Türkiyənin siyasəti, mədəniyyəti də, mənəviyyatı, təhsili də, elmi də Türkiyə Cümhuriyyətinin banisi, qurucusu böyük Mustafa Kamal Atatürkün qoyduğu yolla, onun vəsiyyətlərini yerinə yetirmək yolu ilə gedir.

Mustafa Kamal Atatürk bütün türk dünyasının tarixi şəxsiyyətidir. Türkiyə Cümhuriyyətinin yüksək zirvəyə çatmasında, türk xalqının 70 ildən artıq bir zamanda əldə etdiyi nailiyyətlərin qazanılmasında onun göstərdiyi xidmətlər əvəzsiz[383-384]dir. Türkiyə Cümhuriyyətinin yaranması ilə türk dünyasında gedən proseslərə göstərilən təsirdə, Türk Cümhuriyyətlərinin, türkdilli xalqların bir-birinə daha sıx qovuşmasının təmin olunmasında, türk köklü millətlərin milli azadlıq və müstəqillik uğrunda mübarizəsi sahəsində aparılan işlərdə də onun xidmətləri və onun ideyalarının təsiri böyükdür.

Ona görə də Mustafa Kamal Atatürk bütün türk dünyasının əvəzsiz, ölməz lideridir.

Əziz dostlar!

Bu günlər bizim buradakı bütün görüşlərimiz, danışıqlarımız və imzaladığımız müqavilələr, digər sənədlərin hamısı Türkiyə-Azərbaycan əlaqələrini genişləndirmək, ölkələrimizin dostluğunu, qardaşlığını möhkəmləndirmək və daha da yüksəklərə qaldırmaq məqsədi daşıyır.

Biz bir neçə saatdan sonra Türkiyəni tərk edəcəyik. Mənim səfərim başa çatır. Bu anlarda mən böyük məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, bizim bu səfərimiz uğurlu olubdur. Qarşımıza qoyduğumuz məqsəd yolunda biz ciddi addımlar atmışıq. Bizim bu günlərdəki danışıqlarımız, əldə etdiyimiz razılıqlar və müqavilələr Türkiyə-Azərbaycan əlaqələrinin gələcək inkişafında yeni bir mərhələ açıbdır. Bu baxımdan xüsusən, Türkiyə ilə Azərbaycan arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında Türkiyə və Azərbaycan prezidentlərinin imzaladığı sənədin xüsusi əhəmiyyət daşıdığını mən bir daha vurğulamaq istəyirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu müqavilənin əsasında bizim strateji əməkdaşlığımız, iş birliyimiz bundan sonra daha da sürətlə inkişaf edəcəkdir. Türkiyə və Azərbaycan bundan sonra daim bir yerdə olacaq, bizim qardaşlıq əlaqələrimiz sarsılmaz olacaqdır.

Bu gün biz bir çox məsələləri müzakirə etdik. Mən məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, bütün məsələlərin hamısında biz Türkiyənin dövlət və hökumət başçıları ilə yekdil olduğumuzu müşahidə etdik. Biz eyni fikirdəyik, mövqedəyik. Həm dünya siyasətinə, həm də bölgədə olan vəziyyətə və bütün başqa məsələlərə eyni düşüncələrlə, eyni fikirlərlə baxırıq. Bu, çox əhəmiyyətlidir. Bu, bizim üçün xüsusi əhəmiyyətlidir, eyni zamanda Türkiyə üçün də əhəmiyyətlidir. Çünki Azərbaycan üçün Türkiyədən yaxın dost, qardaş dövlət [384-385] yoxdur. Hesab edirəm ki, Türkiyə üçün də bütün ölkələr, xalqlar arasında Azərbaycan qədər dost, qardaş ölkə yoxdur.

Bizim danışıqlarımız həm iqtisadi sahədə, həm də dünya siyasəti sahəsində əməkdaşlığı artırmaqdan, genişləndirməkdən ibarət olubdur, eyni zamanda bölgəmizdə, Qafqazda yaranmış gərgin vəziyyəti, Ermənistanın Azərbaycana etdiyi təcavüzü aradan qaldırmaq problemləri ilə əlaqədar olubdur. Biz bu məsələləri ətraflı müzakirə etmişik, ümumi fikrə gəlmişik və mən əldə etdiyimiz razılıqlardan və danışıqlardan çox razı olduğumu bildirmək istəyirəm.

Bizim iqtisadi əlaqələrimiz inkişaf edir, ancaq hesab edirəm ki, bundan sonra daha da sürətlə inkişaf edəcəkdir. İqtisadi əlaqələrimizin ən mühüm cəhəti ölkəmizin Xəzər dənizində və Azərbaycan ərazisində olan neft və qaz yataqlarından müştərək istifadə olunmasında Türkiyənin iştirakı ilə bağlıdır. Siz bilirsiniz ki, 1994-cü ilin sentyabr ayında ölkəmiz dünyanın böyük neft şirkətləri ilə Azərbaycan neft yataqlarının müştərək istifadə edilməsi üçün "Əsrin müqaviləsi" adlanan böyük bir müqavilə imzalayıbdır. Bu müqavilə imzalanarkən burada Türkiyənin kiçik bir hissə payı vardı. Sonra Azərbaycan öz hissəsindən Türkiyənin payını artırdı. Ondan sonra imzalanan müqavilədə Türkiyənin payı daha da çoxdur. Beləliklə, Türkiyə Azərbaycanın ən böyük sərvəti olan neft yataqlarından istifadə olunmasında bizimlə bərabər, müştərək istifadə edir.

Gələcəkdə Azərbaycanda böyük həcmdə neft hasil olunacağı gözlənilir. İndi bu neftin dünya bazarına çıxarılması üçün yollar araşdırılır. Bu neftin haradan, hansı yolla keçəcəyi, necə olacağı məsələsi indi dünyanın bütün ölkələrində – həm Qərbdə, həm Şərqdə, həm Avropada, həm Amerikada, həm Rusiyada, həm də başqa ölkələrdə müzakirə olunur. Çünki bu neft borusu hansı ölkənin ərazisindən keçsə, həmin ölkə böyük qazanc əldə edəcəkdir.

Bilirsiniz ki, ilkin neftin ixracı üçün biz iki neft borusunun tikilməsi haqqında qərar qəbul etmişik. Bunlardan biri şimal istiqamətində – Rusiya ərazisindən Qara dənizin Novorossiysk limanına, ikincisi qərb istiqamətində Gürcüstan ərazisindən Qara dənizin Türkiyəyə çox yaxın olan Supsa limanına gedəcəkdir. Ən böyük neft kəməri haqqında çox söhbətlər ge[385-386]dir, bu günlərdə mənə burada da çox suallar verilib. Mən demişəm və sizə də bildirmək istəyirəm ki, bu neft borusunun Türkiyə içərisindən Ceyhana keçirilməsi bizim istəyimiz, arzumuzdur. Biz bu yolda çalışırıq və çalışacağıq.

Burada müzakirə olunan məsələlərdən biri, bizim üçün ən əsası və əhəmiyyətlisi, ən vacibi Ermənistanın Azərbaycana qarşı təcavüzünün aradan qaldırılması, Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulmasıdır. Bilirsiniz ki, 1988-ci ildə Ermənistan Azərbaycanın ayrılmaz bir hissəsi olan Dağlıq Qarabağı ələ keçirmək üçün ölkəmizə qarşı hərbi təcavüzə başlayıbdır. Bu, həm Ermənistanın, həm də Azərbaycanın hələ Sovetlər Birliyinin tərkibində olduğu bir zamanda başlayıbdır. Ancaq təəssüf ki, o zamanlar Sovetlər Birliyinin başçıları Azərbaycana qarşı ədalətsiz münasibət göstəriblər və bu münaqişənin baş verməsinin qarşısı alınmayıbdır.

Mən sizə bildirmək istəyirəm ki, bu Dağlıq Qarabağ məsələsi yeni bir məsələ deyil. Ümumiyyətlə, ermənilər "böyük Ermənistan" xülyası ilə yaşayırlar. Onlar hesab edirlər ki, Türkiyənin çox hissəsi də, Azərbaycanın bir hissəsi də, Gürcüstanın çox hissəsi də, İranın da bir hissəsi Ermənistanın torpağıdır. Onlar bu fikirlərlə yaşayırlar və təəssüflər olsun ki, bəziləri bu fikirlərlə indi də yaşayırlar. Ancaq o vaxt, 1988-ci ildə onlar bu istəklərini, yəni bu planlarını həyata keçirmək üçün ən zəif nöqtə Azərbaycanı gördülər və o vaxt Sovetlər İttifaqı başçılarının gizli dəstəyi nəticəsində belə bir təcavüz başladı.

Bu gün mən sizinlə çox səmimi söhbət edirəm. Bəlkə də bu, bir az çox vaxt alır. Ancaq bu tarixi hamı bilməlidir. Burada mənim tərcümeyi-halım haqqında deyildi. 1987-ci ilin oktyabr ayında mən Moskvada tutduğum ən yüksək vəzifələrdən istefa verdim. Mən istefa verəndən düz 20 gün sonra erməni millətçiləri Fransa mətbuatında yazdılar ki, Dağlıq Qarabağ Ermənistana verilməlidir. Həmin bu məsələni yayan, erməni millətindən olan professor Aqanbekyan – o, həmişə Moskvada yaşayıb, orada da çalışır və Sovetlər Birliyinin başçılarına çox yaxın olan bir adam olubdur, – Fransada bəyanat verdi ki, bu məsələ Sovetlər Birliyinin başçısı Qorbaçovla da razılaşdırı[386-387]lıbdır. Bundan sonra erməni millətçiləri Azərbaycana təzyiq göstərməyə, təcavüz etməyə başladılar.

Yəni mənim Moskvada, Sovetlər Birliyinin başında duran bir orqanın ən yüksək nöqtələrindən birində olmağım ermənilərin qarşısını alırdı. Mən ondan əvvəlki illərdə də – Azərbaycana 14 il başçılıq etdiyim zaman və Moskvada olduğum 5 il ərzində ermənilərin Dağlıq Qarabağa olan bu iddialarının qarşısını almışdım. Demək, bu məsələyə başlamaq üçün Heydər Əliyevi aradan çıxarmaq, onu uzaqlaşdırmaq lazım idi. Bu da oldu. Mən istefa verdim, bundan 20 gün sonra bu proses başlandı. Sonra bu, hərbi təcavüzə çevrildi. Hərbi təcavüz 1988-1989-cu illərdə davam etdi. O vaxt – Azərbaycan da, Ermənistan da Sovetlər Birliyinin tərkibində olan zaman bu münaqişənin qarşısını almaq mümkün idi. Çünki biz keçmiş zamanlarda bunların qarşısını almışdıq. Almaq mümkün idi, ancaq bunu etmədilər. Çünki Ermənistanı dəstəklədilər və Azərbaycanın bir hissəsini Ermənistana verməyə razılıq verdilər.

Bu səbəbdən və Azərbaycanın daxilində olan səbəblərdən, günahlardan da Ermənistan son illərdə təcavüzünü artırdı.

Nəticədə o dövrdə Azərbaycanın ərazisinin 20 faizi Ermənistanın silahlı qüvvələri tərəfindən işğal edilibdir. İşğal olunmuş bu torpaqlardan bir milyondan artıq vətəndaş yerindən-yurdundan zorla çıxarılıb, qaçqın vəziyyətində yaşayır. 7 milyon əhalidən bir milyonu qaçqın vəziyyətindədir. Onların tam əksəriyyəti çadırlarda yaşayır. Siz də, biz də bilirik ki, çadırda yaşamaq nə qədər olar – bir ay, iki ay, üç ay olar, bunun yayı da, qışı da, yazı da var, istisi, soyuğu da vardır. Dörd ildir bizim bu qədər insanlarımız ailəsi, uşaqları ilə birlikdə çadırlarda yaşayırlar. Təsəvvür edin, insanlar çadırlarda ailə qurur, çadırda uşaq doğulur, çadırda insanlar xəstəlikdən vəfat edirlər. Bu, Azərbaycan üçün nə qədər böyük faciədir. Bu, heç vaxt unudulmamalıdır.

Əgər biz üç ildir atəşi dayandırmışıqsa, kəskin müharibə getmirsə də, ancaq Azərbaycanın həyatında bu ağır, çətin problem, faciə var, durubdur. Bunu heç kəs unutmamalıdır. Biz də unutmuruq. Şübhəsiz ki, biz bu məsələ ilə məşğul oluruq. Bu məsələni Türkiyədə də heç kəs unutmamalıdır. [387-388]

Beləliklə, Azərbaycanın ərazi bütövlüyü pozulubdur. Biz döyüşlər apardıq, vuruşlar getdi, insanlar həlak oldu, şəhidlər verdik. Ancaq üç il bundan əvvəl biz ümumi bir fikrə gəldik ki, atəşi dayandırmaq lazımdır. 1994-cü il mayın 12-də – üç il bundan əvvəl biz atəşin dayandırılması üçün atəşkəs haqqında saziş imzaladıq. Üç ildir ki, atəş yoxdur, ancaq eyni zamanda sülh də yoxdur. Atəş yoxdur, amma ermənilər üstünlük əldə ediblər. Azərbaycan torpaqları işğal olunubdur. Dağlıq Qarabağ ermənilərin əlinə keçib. Dağlıq Qarabağdan olan azərbaycanlılar çoxdan qovulublar. İşğal olunmuş torpaqlardan azərbaycanlıların hamısı zorla çıxarılıbdır. İşğal olunmuş torpaqlar viran edilibdir, dağıdılıbdır. Bizim oradakı məscidlərimiz, müqəddəs dini, tarixi, mədəni abidələrimiz, Azərbaycanın əmlakı dağıdılıbdır. Belə vəhşilik, barbarlıq tarixdə görünməmiş bir şeydir. Amma təəssüf ki, biz belə bir vəziyyətə dözürük.

Hesab edirik ki. keçmiş illərə nisbətən indi üç il atəşkəs dövrü daha münasibdir. Ona görə də biz bu atəşkəs dövrünü qoruyub saxlayırıq. Ona görə qoruyub saxlayırıq ki, münaqişəni sülh yolu ilə həll edək. Çünki Ermənistanı dəstəkləyən ölkələr çoxdur. Ermənistanın ərazisində başqa ölkələrin ordusu, hərbi hissələri vardır. Məsələni sülh yolu ilə həll etmək lazımdır. Biz bu sahədə çox çalışırıq.

Görülən bütün bu işlərin müsbət nəticəsi ondan ibarətdir ki, keçən ilin dekabrında ATƏT-in Lissabon Zirvə görüşündə ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçıları Ermənistan Azərbaycan münaqişəsini müzakirə etdilər. Qərar qəbul edildi ki, məsələnin sülh yolu ilə həlli üçün prinsiplər qəbul olunsun. Həmin prinsiplər qəbul olundu və üç bənddən ibarətdir. Azərbaycanın və Ermənistanın ərazi bütövlüyünün tanınması, Azərbaycanın tərkibində Dağlıq Qarabağa yüksək dərəcəli muxtariyyət hüququnun verilməsi və Dağlıq

Qarabağın bütün əhalisinə həm erməni, həm də azərbaycanlı əhalisinə gələcəkdə təhlükəsizlik üçün təminat verilməsi.

Bu, bizim tərəfimizdən kompromis bir qərardır. Ancaq biz bu qərarı qəbul etdik ki, məsələni sülh yolu ilə həll edək. Ermənistan tərəfi bunu qəbul etmədi. ATƏT-in üzvü olan 54 [388-389] dövlətdən 53 dövlətin başçısı, – bir Ermənistandan savayı, – bunu qəbul etdi, təsdiq etdi.

İndi biz bu prinsiplər əsasında sülh danışıqları aparırıq. ATƏT-in Minsk qrupu bu işlə məşğul olur. Bu ilin əvvəlindən ATƏT-in Minsk qrupunda üç dövlət həmsədr təyin olunubdur – Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa. Onların köməyi və vasitəçiliyi ilə biz bu məsələni sülh yolu ilə həll etmək istəyirik.

Bu gün fürsətdən istifadə edib bir daha bildirmək istəyirəm ki, Azərbaycana Ermənistan tərəfindən hərbi təcavüz başlanandan indiyədək, bütün mərhələlərdə, bütün dövrdə Türkiyə həmişə Azərbaycanla bərabər olub, Azərbaycanı dəstəkləyibdir, beynəlxalq təşkilatlarda məsələlərin müzakirəsi zamanı Azərbaycana çox yardımlar edibdir. Nəhayət, keçən il Lissabon Zirvə görüşündə dediyim həmin prinsiplərin qəbul olunmasında Türkiyə Cümhuriyyətinin və onun prezidenti hörmətli Süleyman Dəmirəlin xüsusi xidmətləri olmuşdur. Biz Lissabonda onunla görüşüb danışmışdıq, bu məsələləri müzakirə etmişdik. Bunların nəticəsində Lissabon bəyanatı əldə olunmuşdur və birgə hərəkət etmişdik. Ona görə də Türkiyənin bu məsələlərlə əlaqədar Azərbaycana verdiyi dəstəyi və mənəvi yardımı, beynəlxalq təşkilatlarda, başqa təşkilatlarda göstərdiyi yardımı biz yüksək qiymətləndiririk. Buna görə mən bir daha təşəkkürümü bildirirəm.

Ancaq məsələnin həlli indi yeni səylər tələb edir. Biz Ankarada bu məsələləri müzakirə etdik. Türkiyə bu məsələlərdə bundan sonra daha fəal olacağını bildirdi. Biz əminik ki, bu, belə də olacaqdır, ancaq eyni zamanda, Ermənistanı yerində oturtmaq, təcavüzkar hərəkətlərindən əl çəkməyi Ermənistana anlatmaq lazımdır. Ermənistan bilməlidir ki, o, ədalətsizdir, təcavüzkardır, beynəlxalq hüquq normalarını pozubdur.

Mən bu baxımdan Ermənistan-Türkiyə münasibətləri barədə bir neçə kəlmə demək istəyirəm. Son vaxtlar Türkiyənin mətbuat orqanlarında bəzi yazılar gedir ki, Ermənistanla Türkiyə arasında sərhəd xətlərini bəzi yerlərdə açmaq, ticarət etmək, iqtisadi əlaqələr qurmaq lazımdır. Təəssüflər olsun ki, son vaxtlar Ermənistandan daha çox adamlar Türkiyəyə, o [389-390] cümlədən İstanbula gəlirlər. Guya burada iş adamları ilə görüşürlər, danışıqlar aparırlar.

Mətbuatda artıq bəzi fikirlər dolaşır ki, Ermənistanla bu qədər sərt münasibətdə, yəni ticarət nöqteyi-nəzərindən, nəsə itiririk. Bunlar bizi narahat edir. Mən bu barədə bizim mövqeyimizi, fikrimizi Türkiyənin dövlət və hökumət başçılarına bildirdim. Bildirdim ki, Ermənistan Azərbaycan torpaqlarını işğal altında saxlayır, bir milyondan çox azərbaycanlını, türkü öz yerindən-yurdundan çıxarıbdır, bu qaçqınlar ağır vəziyyətdə yaşayırlar. Ermənistan Azərbaycana təcavüz edibdir. Ermənistana heç bir güzəşt ola bilməz, onunla heç bir ticarət aparmaq olmaz, heç bir qapı açıla bilməz.

Hesab edirəm ki, əgər Türkiyədə kimsə qazanc, para, iqtisadi əlaqələr naminə belə yolla getsə, türk xalqı, Türkiyənin ictimaiyyəti buna qətiyyən yol verməz. Hörmətli professorlar və hörmətli dövlət naziri bu gün burada türk dünyası haqqında çox gözəl sözlər dedilər. Bəli, türk dünyası yeni mərhələ yaşayır. Biz çox məmnunuq ki, bütün cümhuriyyətlər öz müstəqilliyini əldə ediblər. Türkiyə Cümhuriyyətinin keçdiyi yol, yaratdığı hüquqi, dünyəviliyə layiq dövlət yeni müstəqillik əldə etmiş türkdilli, türk köklü dövlətlər üçün örnəkdir, nümunədir.

Belə olan halda biz həmişə baxmalıyıq – bizim böyük dünyamızda, böyük bədənimizdə hansı nöqtə ağrıyır, yaralıdır, xəstədir, oraya daha da diqqət yetirmək lazımdır. Bax, yaranmış bu böyük dünyanın içində türk dünyasının ən yaralı yeri Azərbaycandır. Çünki Azərbaycanın torpaqları işğal olunubdur.

Çünki bizim türk dünyasının bir milyon azərbaycanlısı yerindən-yurdundan didərgin düşübdür, çadırlarda qaçqın vəziyyətində yaşayır. Ona görə də Türkiyədə yaşayan hər bir dostumuz, qardaşımız, bacımız düşünməlidir ki, o çadırda olan adam necə yaşayır, nə cür yaşayır.

Mən hesab edirəm ki, bu məsələlərdə Türkiyənin dövlət siyasəti çox ciddi olmalıdır. Türkiyənin bütün ictimai rəyi, fikri də sağlam olmalıdır. Əgər kimsə bu məsələlərdə o tərəfə, bu tərəfə əyirsə, güman edirəm ki, qəhrəman, çox qüdrətli, namuslu, qeyrətli türk xalqı onları öz yerində oturdar. [390-391]

Bu məsələlər haqqında mən çox açıq və kəskin danışıram, bir də ona görə ki, biz üç ildir Ermənistanla atəşkəs rejimi şəraitində yaşayırıq. Biz istəyirik ki, bu məsələni sülh yolu ilə həll edək. Ancaq bir-iki ay bundan əvvəl aşkar edilib ki, həmin bu üç il müddətində Rusiya Ermənistana gizli olaraq, qeyri-qanuni yolla çoxsaylı silahlar, özü də çox ağır, həddindən artıq təhlükəli silahlar veribdir.

Rusiya Ermənistana gizli yolla 1 milyard dollar dəyərində silah veribdir. Onların içərisində müasir silahlar, onlarca, yüzlərcə müasir tanklar, raketlər, toplar vardır. Bu həmin raketlərdəndir ki, vaxtilə Rusiya onlardan Kiprə vermişdi və burada tamamilə doğru, düzgün olaraq böyük bir narahatlıq yaranmışdı. Rusiya həmin raketlərdən Ermənistana da veribdir. Yəni 1 milyard dollar dəyərində olan silahlar nəinki Azərbaycanı, bütün bölgəni dağıda bilər. Görürsünüz, vəziyyət necədir?

Siz bilirsiniz ki, eyni zamanda Rusiyanın Ermənistanda hərbi bazaları, hərbi , əsgəri hissələri vardır. Bu hərbi bazaların orada qalması artıq hüquqlaşdırılıbdır və bununla əlaqədar bağlanmış müqavilə Rusiyanın və Ermənistanın parlamentlərində təsdiq olunubdur. Rusiyanın Gürcüstanda da hərbi bazası vardır, onların sərhədlərində də Rusiyanın əsgərləri durubdur. Amma Azərbaycan tam müstəqildir. Azərbaycanda heç bir xarici

ölkənin əsgəri yoxdur. Çünki biz həm müstəqilliyimizi qoruyuruq, həm də sülh siyasəti aparırıq. Sülh siyasəti aparırıqsa, demək, başqa bir ölkənin əsgərinin bizim ölkəmizdə olmasına ehtiyac yoxdur.

Əgər müstəqilliyimizi qoruyuruqsa, müstəqilliyimiz tam olmalıdır. Əgər başqa bir ölkənin ordusu və yaxud ordu hissəsi gəlib bizim torpağımızda olsa, şübhəsiz ki, bu, bizim müstəqilliyimizin tam olmağını göstərməyəcəkdir. Ona görə də biz müstəqilliyimizi qorumağı özümüz üçün ən böyük vəzifə hesab edirik. Bu baxımdan indi bu bölgədə, Qafqazda, o cümlədən Türkiyənin mənsub olduğu bölgədə yaranmış hərbi vəziyyət çox narahatedicidir, qorxuncdur və bunu bilmək, bunu nəzərə almaq lazımdır. Bizim sülh siyasətimiz, Türkiyənin sülh yolunda mübarizəsi və Azərbaycana bundan sonra göstərəcəyi dəstək daha güclü, daha yetərli olmalıdır. Bu baxımdan [391-392] mən hesab edirəm ki, Türkiyə Azərbaycanın ən yaxın dostu, qardaşıdır və eyni zamanda böyük qüdrətli dövlət kimi hər cür yardımını Azərbaycandan əsirgəməməlidir.

Azərbaycanın iqtisadiyyatında çox ciddi dəyişikliklər gedir.

Siz bilirsiniz ki, biz demokratiya yolu ilə gedirik, hüquqi demokratik, dünyəvi dövlət qururuq, bazar iqtisadiyyatını inkişaf etdiririk. "Torpaq islahatı haqqında" qanun qəbul etmişik, torpağı şəxsi mülkiyyətə veririk. Bunlar hamısı Azərbaycanın iqtisadiyyatını dəyişdirir. Azərbaycan bir neçə ildən sonra iqtisadi dirçəliş dövrünü keçirəcəkdir.

Azərbaycanda dünyanın böyük neft şirkətləri ilə beş neft müqaviləsi imzalanıbdır. Bu neft müqavilələrinin böyük gələcəyi vardır. Yəni bizim gələcəkdə haradansa iqtisadi yardım almağa ehtiyacımız olmayacaqdır. Amma bu gün bizim bu ehtiyacımız vardır. Bizim bu ehtiyacımızı da heç kim ödəmir, o cümlədən Türkiyə də ödəmir. Ermənistana Rusiya da, Amerika da, başqa dövlətlər də kömək edir. Ermənilərin bu ölkələrdə olan diasporu da onlara kömək edir. 1992-ci ildə Amerika konqresi Azərbaycana köməyə embarqo, yəni qadağan qoyubdur. Nəyə görə? Guya Azərbaycan Ermənistanı blokadaya alıbdır. Amma həqiqətdə Ermənistan Azərbaycanın ərazilərini işğal edibdir, respublikamızı blokadaya alıbdır.

ABŞ konqresi tərəfindən belə bir ədalətsiz qərar qəbul olunubdur. Bu da Amerikada yaşayan erməni diasporunun vasitəsilə qəbul edilibdir. Amerika Ermənistana hər il 100 milyon dollarla kömək etdiyi halda Azərbaycana heç bir kömək etmir, başqa ölkələrə kömək etdiyi halda Azərbaycana kömək etmir. Rusiya Ermənistana kömək edir, Ermənistanda olan atom elektrik stansiyasının bərpa olunmasına, işləməsinə kömək etdi, çoxlu maliyyə yardımı və başqa yardımlar, köməklər göstərdi. Amma Azərbaycana heç kim kömək etmir.

Azərbaycan müstəqil dövlət kimi yaşayacaqdır. Azərbaycanın gələcəyi çox gözəl olacaqdır. Ancaq hesab edirəm ki, Azərbaycan-Türkiyə əlaqələri o qədər yüksək səviyyədədir ki, indi respublikamızın iqtisadiyyatının daha da irəliyə getməsi üçün bizim Türkiyədən yardım istəməyə haqqımız vardır. Hesab edirəm ki, Türkiyənin dövlət və hökumət başçıları da bu məsələ barədə düşünməlidirlər. [392-393]

Əziz dostlar, qardaşlar!

Bu günlər bizim üçün xoşbəxt günlərdir. Çünki biz bir-birimizə canla, qanla yaxın olan qardaş və bacılarımızla bir yerdəyik. Bizim tarixi keçmişimiz həqiqətən zəngindir. Bizim ulu babalarımız öz həyatını bir yerdə qurublar. Bizim dilimizi də onlar yaşadıb inkişaf etdiriblər, milli ənənələrimizi, adətlərimizi də, mədəniyyətimizi də onlar yaşadıb inkişaf etdiriblər və bizə böyük sərvətlər veriblər. İndi biz bunların sahibiyik. Biz bir dildən, bir dindən, bir kökdən olan xalqlarıq. Canımız da, qanımız da birdir. Hamısı birdir. Ona görə də bu günlər biz həddindən artıq sevinc içindəyik. Bizim tarixi şəxsiyyətlərimiz Yunus İmrə. Dədə Qorqud, Manas, Füzuli, Nizami və başqa böyük şəxsiyyətlər türk dilini, mədəniyyətini, mənəviyyatını yaşadıblar, nəsillərdən – nəsillərə veriblər. Biz bununla fəxr edirik. Biz fəxr edirik ki, bizim müştərək bir kökümüz var. Biz fəxr edirik ki, indi Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra biz bu əlaqələri inkişaf etdirməyə daha da böyük imkan tapmışıq.

Azərbaycan öz dövlət müstəqilliyinin altıncı ilini yaşayır.

Bu illər Azərbaycan üçün çox ağır, çətin illərdir. Dağlıq Qarabağ haqqında və Ermənistanın Azərbaycana təcavüzü haqqında dedim. Amma bilirsiniz ki, Azərbaycanın daxilində də nə qədər çətin, ağır proseslər olmuş, vətəndaş müharibəsi baş vermiş, insanlar bir-birinə qarşı çıxmış, silahlı dəstələr hakimiyyəti silahla ələ keçirmək istəmişdir. Biz bunların hamısını aradan götürə bildik. Mən sizə bildirmək istəyirəm ki, indi Azərbaycanda ictimai-siyasi vəziyyət tam sərbəstdir, sabitdir, əmin-amanlıq təmin olunubdur. Azərbaycanın dövləti bütün Azərbaycana hakimdir, respublikaya tam nəzarət edir.

Bizim, Azərbaycan dövlətinin çox gözəl gələcəyi var. Biz bu gələcəyi müstəqillik yolunda görürük. Azərbaycan üçün dövlət müstəqilliyi tarixi nailiyyətdir, ən böyük sərvətdir. Bu gün mən sizə, əziz bacı-qardaşlarımıza bildirmək istəyirəm ki, biz dövlət müstəqilliyini günü-gündən möhkəmləndirəcəyik, inkişaf etdirəcəyik, qoruyub saxlayacağıq. Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əyilməzdir, əbədidir.

Bütün bu işlərdə biz daim Türkiyə Cümhuriyyətinin tarixi təcrübəsindən bəhrələnirik. Mən dedim, bir də qeyd edirəm ki, [393-394] Türkiyə Cümhuriyyətinin keçdiyi şanlı yol, əldə etdiyi nailiyyətlər və xüsusən demokratik, hüquqi dövlət quruculuğu, sərbəst iqtisadiyyat quruculuğu sahəsində əldə etdiyi nailiyyətlər bizim üçün örnəkdir. Bu gün bir daha böyük iftixar hissi ilə demək olar ki, türk xalqı cümhuriyyət qurulandan indiyədək bu cümhuriyyətin qurucusu, yaradıcısı, banisi böyük Mustafa Kamal Atatürkün tutduğu yol ilə gedir

və biz hesab edirik ki, bu yol, yalnız bu yol türk xalqını bundan sonra daha da yüksəklərə qaldıracaq, qələbədən-qələbəyə aparacaqdır.

Mən bir daha sizə təşəkkürümü, hörmət və ehtiramımı bildirirəm. Bir daha bildirmək istəyirəm ki, Azərbaycanda Türkiyənin xüsusi yeri var. Sizin vəqfin və universitetin Azərbaycanda gördüyü işlər respublikamızın təhsil sistemində müəyyən müsbət dəyişikliklər meydana gətirir. Ona görə də mən bu işlərə həmişə dəstək vermişəm, bundan sonra da dəstək verəcəyəm.

Əziz dostlar, bacılar, qardaşlar!

Sizə cansağlığı arzu edirəm. Sizə səadət arzu edirəm. Universitetinizə işlərində yeni-yeni uğurlar arzulayıram. Türk xalqına, Türkiyə Cümhuriyyətinə səadət, əmin-amanlıq və daim yüksəliş arzu edirəm.

Eşq olsun Türkiyə Cümhuriyyətinə!

Eşq olsun türk xalqına!

Yaşasın böyük Türkiyə!

Yaşasın müstəqil Azərbaycan!

Yaşasın əbədi, sarsılmaz Türkiyə-Azərbaycan dostluğu!

Sağ olun! [394-395]

## TÜRKİYƏNİN "TRT", "TQRT", "SAMANYOLU", "NTV" TELEVİZİYA KANALLARININ RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*İstanbul, "Çırağan" oteli*

*8 may 1997-ci il*

Hörmətli cənablar!

Mən sizi salamlayıram. Türkiyədə televiziya çox inkişaf edibdir, çoxlu televiziya kanalları var. Onların bəziləri Azərbaycanda da birbaşa yayılır. Azərbaycanda Türkiyəninki qədər başqa bir ölkənin televiziya kanalları yayılmır. Bunlara Azərbaycanda çox böyük maraq hissi ilə baxılır. Çünki, birincisi, Türkiyənin həyatı Azərbaycanı daim maraqlandırır. İkincisi, Türkiyə televiziyası vasitəsilə bir çox dünya məlumatları Azərbaycan vətəndaşlarına çatır. Üçüncüsü də Türkiyə televiziyasının məlumatı həm dünya məlumatıdır, həm də insanların həyatıdır. Türkiyə ilə Azərbaycanın həyatı bir-birinə çox yaxın olduğuna görə, mədəniyyətimiz, adət-ənənələrimiz bir-birinə çox yaxın olduğuna görə insanlar bu verilişlərə çox böyük maraqla, hörmət və məhəbbətlə baxırlar. Ona görə mən bu televiziya kanallarına təşəkkür edirəm ki, onlar öz verilişlərini Azərbaycanda da yayırlar.

İndi Azərbaycan televiziyası ilə Türkiyənin televiziya kanalları arasında əməkdaşlıq da var, ancaq bu, istənilən səviyyədə deyildir. Məsələn, insanların bir çoxu belə fikirdədir ki, Azərbaycan televiziyasının verilişləri Türkiyənin televiziya kanalları vasitəsilə burada da yayılsın. Azərbaycanın bir televiziyası, dövlət televiziyası var. Özəl televiziyalar da var, onlar kiçikdir. Azərbaycan televiziyasının proqramları Türkiyədə yayılsa, yaxşı olardı. Türkiyədə insanlar televiziyaya alışıblar, [395-396] onu sevirlər. Ona görə belə imkan olsa, Türkiyə üçün də, Azərbaycan üçün də çox xeyirli olar.

Bilirəm ki, bunun texniki problemləri var, müəyyən maliyyə problemləri də var, ancaq hesab edirəm ki, əgər Türkiyə tərəfi müəyyən çarə, yol tapıb bunu edə bilsə, çox yaxşı olar. Siz də bilirsiniz, biz də bilirik ki, Azərbaycanın musiqisini, şərqilərini, mədəniyyətini Türkiyədə çox sevirlər. Əgər bizim televiziyanın burada yayımları olsa, Türkiyə tamaşaçıları bütün bunlarla daha yaxından tanış ola bilərlər.

Əlbəttə, bunları siz həll edə bilməzsiniz, ancaq bizim hörmətli dostumuz, dövlət naziri Namiq Kamal Zeybək, ola bilər, bu işlərə diqqət yetirsin və Azərbaycana çox böyük hörmət və ehtiram hissi bəslədiyinə görə, – ölkəmiz dövlət müstəqilliyini əldə edən zamandan indiyə qədər Azərbaycanla çox əlaqəli olub, – güman edirəm, bunu edə bilər.

Bizim teleşirkətdən mənə dedilər ki, bəzən bir saatlıq proqram Türkiyənin "TQRT" kanalı vasitəsilə verilir. Bəzən Azərbaycan televiziyasında elan olunur ki, bizim vaxtla səhər saat 8.30-da "TQRT" ilə veriliş yayımlanacaqdır. Bizim vaxtla səhər saat 8.30-da Türkiyədə səhər saat 6.30 olur, bilmirəm, insanlar bu vaxt yuxudan ayılırlarmı? Təşəkkür edirəm ki, belə bir addım atılıb, ancaq bunun vaxtını dəyişsəniz daha yaxşı olar. Hər bir televiziyaçı həmişə hesablayır ki, onun nə qədər tamaşaçısı var. Hər şey onunla ölçülür. Bəzi proqramlar hazırlanıb buraya göndərilir və Türkiyədə də "TQRT" vasitəsilə verilir, amma bunun vaxtı dəyişsə, daha yaxşı olar.

Mən bunu müzakirə etmək istəmirəm, sadəcə, belə bir problemin olduğunu deyirəm, baxın, görün. Bizim teleşirkətin rəhbəri Nizami Xudiyevi göndərə bilərəm, gəlib sizinlə görüşsün, danışsın. Hesab edirəm, əlverişli yollar tapa bilərsiniz. Mən sadəcə bu problemin olduğunu deyirəm.

**Hacı Tosun ("Samanyolu" televiziyasının baş direktoru): Bir zaman Qarabağ məsələsi başlayanda televiziyamız yox idi. Onda Qarabağ hadisələrinə aid bir sərgi açdıq, xaricilər bu sərgiyə baxdılar. İndi ictimai rəy bu problemi sanki unutmuşdur. Biz arzu edirik ki, bu problem sülh yolu ilə həll edilsin. Zatiliələriniz də bunu dəfələrlə dilə gətirdiniz. Bu məsələ türk ictimai rəyində sanki unudulmuşdur.** [396-397]

**Heydər Əliyev:** Onu çox doğru buyurursunuz, çox doğru fikirdir. Qarabağ problemi Türkiyədə unudulur, dünyada unudulur, çünki üç ildir barışdır, savaş getmir. Adətən, belə problemlər kəskin savaş getdiyi zaman daha da çox qoyulur. İndi savaş getmir. Ancaq eyni zamanda bu problem həll olunmayıbdır. Bu problemi unutmaq olmaz, heç bir şeyi unutmaq olmaz. Ümumiyyətlə, bu bölgədə, – bu günlərdə bunu bir neçə dəfə demişəm, – Ermənistan amilini unutmaq olmaz. Son üç ildə Rusiya Ermənistana 1 milyard dollarlıq silahlar veribdir. Nə üçün veribdir, – bunu da unutmaq olmaz. Yaxud da ki, Ermənistanda, Gürcüstanda, yəni sizin sərhədlərinizdə, bizim sərhədlərimizdə Rusiyanın əsgəri bazaları, hərbi hissələri yerləşibdir, – bunu da unutmaq olmaz. Belə şeyləri unutmaq olmaz. Doğrudur, dünən mən burada mətbuat konfransında dedim. – sizdə bəzi adamlar, qəzetçilər Yerevana, hətta Dağlıq Qarabağa da gedirlər, sonra gəlib burada təbliğat aparırlar ki, Ermənistanla da ticarət edək. Bir neçə ildən sonra deyəcəklər ki, Dağlıq Qarabağla da ticarət aparaq. Çünki sizin

qəzet yazıb ki. "Dağlıq Qarabağ indi de-fakto bağımsızdır". Bu gün belə yazan on gündən sonra deyəcək ki, "Bağımsız dövlət kimi gəlin onunla əlaqələr yaradaq".

Ona görə də sizin fikrinizi çox bəyənirəm, çox gözəl fikirdir və rica edərdim ki, bu mövzu heç vaxt unudulmasın. Biz unutmuruq. Bilirsiniz, biz türk dünyası haqqında danışırıq, elədirmi? Burada da, Ankarada da, İzmirdə də hamımız böyük iftixar hissi ilə deyirik ki, türk dünyası qalxır, heç vaxt olmadığı kimi bir-birinə yaxınlaşır. Amma bu türk dünyası böyük bir yurddursa, orqanizmdirsə bunun yaralı yeri haradır? Yaralı yeri Azərbaycandır. Hesab edin ki, insanın bədənində harasısa yaralıdır – qolu, qıçı, ya qafası yaralıdır. Qarabağ məsələsi, Ermənistanın Azərbaycana təcavüzü təkcə Azərbaycana qarşı olan təcavüz deyildir. Bunu dəfələrlə çox böyük ehtiram hissi ilə qeyd etmişəm, – böyük Mustafa Kamal Atatürk deyib ki, Azərbaycanın dərdi bizim dərdimiz, Azərbaycanın sevinci bizim sevincimizdir. Bu sözləri unutmaq lazım deyildir. Bu gün Azərbaycanın dərdi var, demək, bu, Türkiyənin də dərdidir. Türkiyənin təbliğat orqanlarında – televiziyasında, qəzetlərində bu dərdin ağrısı unudulmamalıdır. [397-398]

Mən demirəm ki, bu dərd var, oturub gözümüzün yaşını tökək, – yox. Amma dərdi aradan götürmək üçün nə işlər görmək, nə etmək lazımdır və bu işlərin görülməsinə kim, nə üçün mane olur, – bunlar unudulanda hissiyyatlar korşalır. Hissiyyatlar korşalanda isə insan bəzən çox şeylərdə yanlışlıqlar buraxır.

Məsələn, Azərbaycanda yerindən-yurdundan didərgin düşmüş bir milyondan artıq insanlar, qaçqınlar var. Bu sözləri o qədər demişik ki, insanların qafası buna öyrənib, beş il, iki-üç il əvvəl olduğu kimi hissiyyatlı qəbul etmirlər. Ancaq kənardan, yabançı ölkələrdən Azərbaycana gələn insanlar gedib çadırlarda qaçqınları bu vəziyyətdə görəndə, qışda da, yazda da, yayda da görəndə – dəhşətə gəlirlər. Xatirimdədir, bir il, ilyarım bundan öncə məşhur Amerika siyasətçisi Bjezinski Azərbaycana gəlmişdi, vertolyotla çadırlar olan yerə getdi. Gələndən sonra axşam mən onunla görüşdüm. Bilirsiniz, həyəcanından özünə gələ bilmirdi. Deyirdi ki, mən dünyanın hər yerində qaçqın düşərgələrində olmuşam, fələstinlilərin, əfqan mücahidlərinin düşərgələrində, Afrikada da olmuşam, amma belə dəhşətli hal görməmişəm.

Şübhəsiz bu barədə Azərbaycanın özü də çox günahkardır ki, bunu geniş yaya, təbliğ edə bilmir. Bizim imkanımız azdır, kiçik ölkəyik, ancaq böyük təbliğat maşını, orqanları olan Türkiyə bunu etməlidir. Yəni biz öz günahımızı bilirik və ümumiyyətlə, sizə deyim ki, Türkiyə, Azərbaycan, yaxud türklər hamımız birlikdə bu işlərdə zəifik.

Ermənilər 1915-ci ildən indiyə qədər dünyanın hər yerində təbliğat aparırlar ki, "Türklər bizi qırdı, öldürdü, soyqırımı etdilər". Bunu hər yerdə yayırlar. Amma bunun müqabilində türklər ermənilərin Türkiyə ərazisində nə qədər cinayət etdiklərini, xəyanət etdiklərini demirlər. Siz, sadəcə, müdafiə mövqeyindəsiniz, yəni fikirləşirsiniz, – deyirlər, desinlər, bizə heç bir şey edə bilməzlər, böyük dövlətik, ölkəyik. Amma onlar öz işlərini görürlər. Hər il Amerika konqresində istəyirlər ki, Türkiyənin ermənilərə qarşı soyqırımı haqqında qərar çıxarılmasına nail olsunlar, amma edə bilmirlər. Ancaq hər il aprel ayında ölkələrin ictimai rəyinə səs salırlar ki, türkləri vəhşi kimi, soyqırımı edən kimi göstərsinlər. [398-399]

Amma onlar doqquz ildir azərbaycanlıları, türkləri qırırlar. Xocalıda nə qədər vəhşətlər, soyqırımı etdilər, – bunu bir dəfə, iki dəfə dedik, orada-burada göstərdik. Biz bunu heç də unutmamışıq. Bu, qəlbimizdə, bədənimizdə daim qanı tökülən, qan sızan yaradır. Amma ümumiyyətlə bu, bizim passivliyimizdir, ermənilərin fəallığı bizim passivliyimizdən çoxdur. Azərbaycanın da, türklərin də passivliyi çoxdur, ona görə də ermənilər bundan istifadə edirlər. Sizin dediyiniz sözlərin üstünə gəlib çıxıram ki, əgər bu bir milyon qaçqın haqqında daim bizdə də, sizdə də, Avropada da verilişlər getsə, unudulmaz.

Məsələn, 20 Yanvar hadisələrini bizim Azərbaycanın özündə bəziləri unudurlar. Bilirsiniz, mən 1993-cü ildə Bakıya gəldim. 20 Yanvar hadisəsində Azərbaycanın o vaxtkı başçıları da günahkar idilər, ona görə də bunun üstünü örtüb basdırdılar. Neçə il idi ki, bu məsələ müzakirə olunmurdu. Düzdür, o vaxt Azərbaycanda müxalifətdə olan qüvvələr, məsələn, Xalq Cəbhəsi, filan bunu qaldırırdılar. Bilirəm, burada Azərbaycan Xalq Cəbhəsinin pərəstişkarları var. Amma siz də bilməlisiniz ki, Xalq Cəbhəsi 1992-ci ildə hakimiyyətə gəldi, ondan sonra 20 Yanvar hadisələrini unutdu. Əgər sən müxalifətdə olanda hakimiyyətdəki adamın boğazından tutmuşdunsa ki, 20 Yanvar hadisəsində günahkarsan, filan-beşməkansan, indi hakimiyyət sənin əlindədir, aç bu məsələni, açmadılar!

1992-ci il də, 1993-cü il də keçdi.

1993-cü ildə mən Bakıya gəldim. 1994-cü il yanvarın 20-də, bu hadisənin dördüncü ilində mən bu məsələni qaldırdım.

Parlamentdə bir ay müzakirə getdi. Bir çox insanlar deyirdilər ki, nəyə lazımdır bunu yenidən qaldıraq, nə üçün qaldıraq? Bunu o işdə günahkar olan, vaxtilə kommunist rejiminin başında duran adamlar da edirdilər. Amma təəssüf ki, vaxtilə müxalifətdə olan və 20 Yanvar hadisəsində doğru, düzgün mövqedə duran adamlar da dedilər ki, bunu nə üçün müzakirə edək?

Mən özüm də gedib parlamentdə oturundum ki, dinləyim. Hətta Xalq Cəbhəsindən olan bir millət vəkili, – gənc adamdır, özü də bizim naxçıvanlıdır, konserv zavodunda kiçik bir iqtisadçı işləmiş adamdır, sonra gəlib oturmuşdu orada, bunlar [399-400] belə idilər, Xalq Cəbhəsindən olanlar hər biri özünü dahi hesab edirdi, – mənə deyir ki, siz bunu düz etmirsiniz, çünki belə hadisələri bir 50 ildən sonra araşdırmaq olar, indi araşdırmaq

olmaz. Bizim başqanımız Əbülfəz Elçibəy də deyib ki, 50 ildən sonra araşdırmaq olar. Dedim ki, 50 ildən sonra nə sən olacaqsan. nə o, nə də mən olacağam. Şahidlər də olmayacaqdır. Bu, birincisi. İkincisi, əgər biz bu gün araşdıra biləriksə, nə üçün araşdırmayaq? Nə üçün belə deyirdilər? Çünki hamının bu işdə barmağı vardı – biri o tərəfdən, biri bu tərəfdən.

Amma xalqın, millətin mənafeyini hər bir kəsin mənafeyindən üstün tutmaq lazımdır. Əgər xalqın, millətin mənafeyinə görə mən də cəzalanmalıyamsa, cəzalanmalıyam. Ona görə mən 20 Yanvar hadisəsini qoymuram unudulsun. 1994-cü ildən indiyə qədər hər il. – bu il də – bir ay Azərbaycan televiziyasında bütün bu məsələlər yenidən qaldırılır. Buna Moskvada çox pis baxırlar. Çünki Moskvada o vaxt vəzifədə olan bəzi adamlar bu işin günahkarlarındandırlar. Əgər mən də özümü o tərəfdən də, bu tərəfdən də qorumaq istəsəm, deyərəm ki, niyə bunu edim, oradan da, buradan da mənə pis baxacaqlar, niyə başımı ağrıya salım? Azərbaycanda belə bir söz var: ağrımayan başımı niyə ağrıdım. Sizdə belə söz varmı? Hesab edirəm ki, əgər mənim başım ağrımırsa, millətin faciəsi ilə bağlı qoy on dəfə də ağrısın. Amma bunu unutmaq olmaz. Biz televiziyada, qəzetlərdə bir ay bunu veririk.

Mən belə fikirdəyəm ki, nə qədər millətimiz yaşayır, 20 Yanvar hadisələrini unutmaq olmaz, çünki bu, xalqımızın başına gətirilən hadisədir. Təsəvvür edin, Sovetlər Birliyinin tarixində, – onun daxilində on beş respublika var idi, o cümlədən Azərbaycan, bu tarixi mən yaxşı bilirəm, – heç bir xalqın, heç bir ölkənin başına o qədər faciə gətirilməmişdi. Amma bizim millətin də passivliyi olub. 1989-cu ildə Gürcüstanın paytaxtı Tbilisidə də xalq ayağa qalxmışdı, meydanda mitinq etmək istəyirdi. Gürcüstanda olan sovet əsgərləri onları bir az sıxışdırdı, 15-16 adam öldü. Gürcülər dünyaya hay qaldırdılar. Moskvadan gürcü xalqından üzr istəməyi tələb etdilər. Moskva hakimiyyəti, yəni Sovet hakimiyyəti gürcü xalqından üzr istədi.

Ondan bir il sonra, 1990-cı il yanvarın 20-də Azərbaycanın başına belə bəla gəldi. Bizim azərbaycanlılar bu işi nəinki qal[400-401]dırmadılar, hətta susdular, buna görə də nə bizdən üzr istəyən oldu, hətta çoxlarının fikrincə, bu, belə də olmalı idi.

Bax, buna görə də yenə sizin sözünüzə qayıdıram, – çox doğrudur ki, Qarabağ məsələsini unutmaq olmaz. Əgər indi savaş getmirsə, bunun cürbəcür problemləri var, bunları daim vermək lazımdır. Çadırlarda yaşayan insanların vəziyyəti barədə həftədə bir dəfə Türkiyənin televiziyasında məlumat verilsə, – deyirsiniz ki, TQRT dünyanın yarısını əhatə edir, amma elə vaxtda verin ki, hamı baxa bilsin, – insanlar görəcəklər ki, bu qədər vəhşilik var. Amma bunlar unudulduğuna görə Avropada da, Amerikada da, Rusiyada da hesab edirlər ki, nə olub, ermənilər Azərbaycanda bir şey etməyiblər ki...

**Yunus Şən (NTV)**: **Ermənistan prezidenti ilə son görüşlərinizdə bir nöqtəyə gələ bildinizmi?**

**Heydər Əliyev:** Bilirsiniz, bu, mürəkkəb prosesdir. Ona görə hər bir görüşdən nəticə gözləmək də real deyildir. Keçən dəfə Qara dəniz iş birliyinə gələndə İstanbulda məndən də çox soruşurdular. Danışırıq, fikir mübadiləsi gedir, amma istənilən nəticə olmadığına görə deyilən şeyləri də açmağa ehtiyac yoxdur.

Danışıqları bundan sonra da davam etdirəcəyik, mən hər dəfə imkan olan yerdə – ya Moskvada, ya burada, ya Avropada, yaxud Amerikada görüşürəm və hesab edirəm ki, bu, lazımdır. Çünki bir halda ki, biz məsələni sülh yolu ilə həll etmək istəyirik, bu sülh iki tərəfin razılığı ilə ola bilər. Bizim prinsiplərimizi, yəni Lissabon Zirvə görüşündə qəbul olunmuş prinsipləri Ermənistan qəbul etmir. Eyni zamanda onlar deyirlər ki, bu məsələni sülh yolu ilə həll etmək lazımdır.

Bəli, sülh yolu ilə həll etmək lazımdır. Ancaq əgər sülh, barış yolu ilə həll ediriksə, bunun yolu budur, gəlin bu yolla gedək. Bilirsiniz, bu proses 1988-ci ildən başlanmış bir şeydir və özü də bu proses zamanı o qədər səhvlər, yanlışlıqlar buraxılıbdır ki. ola bilər, o tərəfdən də, bu tərəfdən də olubdur, amma hər tərəf hesab edir ki, doğru hərəkət edib, o birisi səhv buraxıbdır, bunları aradan götürmək üçün, görünür, hələ çox görüşlər olmalıdır. Bunların istənilən nəticəsi olmadığına görə mən do bunu çox açmıram və güman edirəm ki, bunu belə də anlamaq lazımdır. [401-402]

**Yunus Şən: Sayın Əliyev, bir neçə gündür Türkiyədəsiniz, görüşlər keçirdiniz. İstər iqtisadi, istər siyasi və digər sahələrdə düşündükləriniz nə dərəcədə gerçəkləşdi?**

**Heydər Əliyev:** Bilirsiniz, istədiyim olsa da, olmasa da Türkiyədən daxilən həmişə rahatam. Çünki Türkiyəyə mənim və Azərbaycan xalqının o qədər məhəbbəti var ki, ola bilər, bir şeylə razı olasan, ya olmayasan, razı olmamağın da bu məhəbbəti pozmur. Deyirik ki, Türkiyə və Azərbaycan qardaşdırlar. Bu, adi söz deyil, həqiqətən dərin məna kəsb edir. Ola bilər, bu qardaş o qardaşdan pul istəsin, o bunu verməsin. O. bununla razı olmur, amma onun qardaşlıq hissiyyatı o qədər güclüdür, əzizdir ki, razı olmasa da, ola bilər, inciyir, ancaq sonra üstündən keçir. Bu, belədir. Başqa, yad adamdan, yaxud da bağlı olmadığın, yəni qan bağlılığı olmayan adamdan sən bunu istədin, – o vermədi və sən bu sözü dedin, o səninlə razı olmadı. Sən ondan həm küsürsən, həm də onunla düşmən olursan, tamam inciyirsən. Bu, tamamilə fərqli şeydir.

İndi siz də deyirsiniz, dünən də dedilər ki, mən incidim. Bilirsiniz, dost dostdan inciyər. Azərbaycanda bir söz var, insan uman yerdən küsər. Bu söz sizdə varmı – uman yerdən küsərlər? Ummayan yerdən mən niyə küsürəm? Küsdüm – küsmədim, onun üçün də, mənim üçün də bunun əhəmiyyəti yoxdur, uman yerdən küsərlər. Azərbaycan Türkiyədən çox şey umur. Bütün xalqımızda, o cümlədən məndə də belə fikir var ki, Türkiyə böyük dövlətdir, böyük imkanlara malik olan dövlətdir. Türkiyə bizim qardaşımızdır, qan qardaşımız, can

qardaşımızdır. Qan qardaşı olan da, Azərbaycanda yenə bir söz var, öz boğazından kəsib qardaşına verir. Lazımdır ki, xalqımızın milli adət-ənənələri dövlətlərimizin arasında da olsun.

Yaxşı, 1992-1993-cü illərdə "Eksimbank" 250 milyon dollar kredit ayırıb, onun da cəmi 70 milyon dolları verilib. Bu 70 milyon dollara da o vaxt buğda alıb veriblər, çünki insanlar ac idi, buğda yox idi. Başqa şeyə verməyiblər. Əgər yatırıma veriblərsə, para götürüblərsə, gəl, parasını apar! Dərmana veriblər, – çünki bizim döyüşçülər qan içində idilər, buğdaya veriblər, başqa bir şeyə verməyiblər. İndi Türkiyə boğazımızdan tutub ki, bunu qaytar. Qaytara bilmirəm, 20 milyon dollar da faiz vermişəm. Mən bundan inciməyim? [402-403]

Bilirsiniz, vaxtilə mən Sovetlər İttifaqının başında olan adam olmuşam. O vaxtlar Sovetlər İttifaqı özünə dost ölkələr yaratmaq üçün, – Asiyanın keçmiş müstəmləkə ölkələri, yaxud Afrika, Ərəb ölkələri, – bunlara nə qədər kredit verir, sonra çoxunu da bağışlayırdı. Düzdür, onlarla nə din bir idi, nə məslək bir idi, amma özünə dəstəkli ölkələr yaratmaq istəyirdi.

Sosialist ölkələrindən savayı başqa ölkələr də var idi, "Üçüncü dünya" ölkələri hesab olunurdu, – bilirsiniz də, bloklara qoşulmayan ölkələr, – onlara nə qədər kreditlər verirdi. Elə İraqın Sovetlər İttifaqına, indi Rusiyaya nə qədər borcu var, həddindən artıq borcu var. O vaxtlar verib, çünki İraqla əlaqəsi vardı, indi qaytarmır. İraqa indi silah satır ki, bəlkə bir şey əldə etdi. Axı, mən bu şeyləri görmüşəm, yəni böyük dövlətin kiçik dövlətə yardımını, köməyini görmüşəm. Bunu gördüyümə görə anlaya bilmirəm ki, niyə belədir.

Amerika Birləşmiş Ştatları Ermənistana gecə-gündüz yardım edir. Biz Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı iqtisadi maraqlarını çox genişləndirmişik. Amma 1992-ci ildə, bizim Xalq Cəbhəsi hakimiyyətdə olduğu zaman Amerika Birləşmiş Ştatlarının konqresi qərar çıxarıb ki, – 907-ci maddə var, siz bunu Amerikaya da deməmisiniz ki, nə üçün bu maddəni Azərbaycana tətbiq ediblər, – guya Azərbaycan Ermənistanı blokadaya götürübdür. Ona görə də Azərbaycana Amerikadan yardım göstərilməsi qadağan olunubdur. Mən indiyə qədər vuruşuram, bu qadağanı, 907-ci maddəni götürə bilmirəm. Bir belə şirkətlər gəldi, müqavilələr imzaladıq, Klintonla bir neçə dəfə görüşmüşəm, danışmışam, digərləri ilə də görüşmüşəm. Klinton da deyir ki, bəli, bu, ədalətsizlikdir, amma Konqresə təzyiq göstərə bilmirəm.

Baxın, biz Amerikanın şirkətlərinə o qədər böyük imkanlar yaratmışıq, Amerika isə bizə yardım etmir. Amma Amerika keçmiş Sovetlər İttifaqına daxil olan, indi müstəqil dövlət olan ölkələrin hamısına yardım edir. Ən çox da Ermənistana yardım edir – oraya ildə 100 milyon dollardan artıq yardım gedir, amma Amerika bizə yardım etmir.

O vaxtlar ki, buğda yox idi, insanlar ac idi, biz "Eksimbank"ın krediti ilə gedib orada-burada buğda axtarırdıq, [403-404] Amerika birbaşa Ermənistana buğda göndərirdi. İndi də göndərir. Amerika Ermənistana bu köməyi edir. Amerikada, Fransada, başqa yerlərdə olan erməni diasporu, zəngin adamlar kömək edir, hamı kömək edir. Amma Türkiyə Azərbaycana heç bir kömək etmir, – mən maddi köməyi deyirəm. Bir dəfə kredit verib, indi də tutub boğazımızdan. Üç-dörd ildən sonra krediti də verə bilməyəcəyik, faizi də o kreditə bərabər olacaqdır. Belə də şey olarmı?

Keçmişdə mən bu barədə bir neçə dəfə müraciət etmişdim, eləcə qaldı. İndi bu dəfə də rəhbərlərə müraciət etmişəm. Axı mən bilirəm ki, hansı ölkə hansına nə yardım edir. Azərbaycana heç kəs yardım etmir. Rusiya Ermənistana nə qədər yardım edir. Ermənistanın atom elektrik stansiyası var. Bilirsiniz ki, 1992-ci ildə onu bağladılar. Ukraynadakı Çernobıl atom elektrik stansiyasında böyük qəza, faciə oldu, ona görə Ermənistan stansiyanı bağladı. Amma gördü ki, elektrik enerjisi olmadığından boğulur, Rusiyadan mütəxəssislər gətirdi. Rusiya oraya çox para qoydu, elektrik stansiyasını bərpa etdi, yenidən işə saldı. Rusiya olmasaydı, Ermənistan bunu edə bilməzdi. Rusiyanın parası, mütəxəssisləri, mühəndisləri, alimləri gəlib bunu işə saldılar.

Azərbaycana nə Rusiya yardım edir, nə Türkiyə, nə İran, nə Amerika yardım edir. Torpağımızın 20 faizi işğal altındadır, bir milyon da qaçqın var. Mən bunları deməməliyəm? Başqa şeylər də deyə bilərəm, ancaq bunlar bəsdir.

Sağ olun. [404-405]

## TÜRKİYƏNİN İŞ ADAMLARI İLƏ GÖRÜŞDƏ NİTQ

*İstanbul, "Suis" oteli*

*8 may 1997-ci il*

Hörmətli qardaşlar, bacılar!

Mən Türkiyəyə rəsmi ziyarətimi sona çatdırıram. Bir saatdan sonra Türkiyəni tərk edirəm. Dörd gündür ki, Türkiyədəyəm. Türkiyənin prezidenti hörmətli Süleyman Dəmirəlin dəvəti ilə üç il fasilədən sonra Türkiyəyə rəsmi səfərə gəlmişəm.

Şübhəsiz ki, bu müddətdə Türkiyənin dövlət başçıları, iş adamları, nazirləri ilə Azərbaycanda da, Türkiyədə də, başqa ölkələrdə də, beynəlxalq təşkilatların toplantılarında da çoxsaylı görüşlərim olubdur. Ancaq mən ilk dəfə 1994-cü ilin fevralında Azərbaycanın prezidenti olaraq Türkiyəyə rəsmi səfərə gəlmişdim. Bu, ikinci rəsmi səfərdir.

Demək istəyirəm ki, bu rəsmi ziyarət bizim üçün çox uğurlu olubdur. Bu səfəri başa çatdırarkən mən və bu günlərdə mənimlə bərabər Türkiyədə olan Azərbaycan nümayəndə heyətinin üzvləri çox məmnun olduğumuzu bildirmək istəyirik. Səfəri sona çatdırarkən Türkiyənin prezidenti hörmətli cənab Süleyman Dəmirələ bu rəsmi səfərə dəvətə görə və burada bizə göstərilən qonaqpərvərliyə, dost, qardaş münasibətinə görə, bizimlə aparılan çox səmərəli işlərə, əldə olunan nəticələrə və imzalanmış sənədlərə görə təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Səfərimizin ən böyük əhəmiyyəti ondan ibarətdir ki, bütün sahələrdə Türkiyə-Azərbaycan əlaqələrinin dərinləşdirilməsi və inkişaf etdirilməsi haqqında həm danışıqlar apardıq, həm də bizi təmin edən normativ-hüquqi sənəd olaraq böyük bir müqavilə, anlaşma imzaladıq. Bu anlaşma, müqavilə Türki[405-406]yə-Azərbaycan strateji əməkdaşlığının, iş birliyinin dərinləşdirilməsi haqqındadır. İndiyə qədər Türkiyə ilə Azərbaycan arasında çox müqavilələr, anlaşmalar, sazişlər, sənədlər imzalanıbdır. Onların hamısı əhəmiyyətlidir, bütün sahələrdə əməkdaşlığımızın normativ-hüquqi əsaslarını təşkil edir. Biz bütün bu müqavilələrin, anlaşmaların hamısına sadiq olduğumuzu bildiririk və bir prezident kimi mən bəyan edirəm ki, onların hamısı ardıcıl surətdə həyata keçiriləcəkdir. Ancaq onlarla bərabər yeni anlaşma, Türkiyə-Azərbaycan strateji əməkdaşlığının dərinləşdirilməsi haqqında müqavilə əlaqələrimizi keyfiyyətcə çox yüksəklərə qaldırır və həm Türkiyənin, həm də Azərbaycanın üzərinə yeni vəzifələr, eyni zamanda çox böyük məsuliyyət qoyur.

Əminəm ki, Türkiyə-Azərbaycan dostluğu son illərdə böyük sınaqlardan keçərək indi əyilməz bir qayadır və bu dostluq bundan sonra da inkişaf edəcək və imzaladığımız sənədi, yəni müqaviləni də uğurla həyata keçirəcəyik. Bu anlaşma ilə əlaqədar bir neçə başqa anlaşma da imzalanıbdır. Onlar Türkiyə-Azərbaycan əlaqələrinin – həm iqtisadi, həm mədəni, həm də başqa əlaqələrin inkişafına yönəldilibdir və bir də deyirəm, hamısı çox böyük əhəmiyyət kəsb edir.

Burada olan danışıqlarımız, görüşlərimiz dövlətlərarası əlaqələri daha yüksəklərə qaldırıb, eyni zamanda xalqlarımızın, millətlərimizin, ölkələrimizin bütün sahələrdə daha da yaxınlaşması üçün bunların yeni xidmətləri olubdur. Rəsmi danışıqlarımızda, eyni zamanda Türkiyə Böyük Millət Məclisində görüşümüzdə və mənim nitqimdə, İzmirdə keçirdiyimiz görüşlərdə, bu gün İstanbulda "Fatih" Universitetindəki görüşdə, başqa görüşlər zamanı, o cümlədən indi burada biz dərk edirik ki, Türkiyə-Azərbaycan dostluğu hər iki xalq üçün nə qədər önəmlidir, lazımlıdır, eyni zamanda nə qədər möhkəmdir, güclüdür və bu dostluğun, qardaşlığın xalqlarımız üçün nə qədər böyük faydası, gələcəyi var.

Biz burada siyasi məsələlər barəsində çox danışıqlar apardıq. Ürəyimizdəki, qəlbimizdəki sözlərin hamısını səmimi dost, qardaş olaraq dedik. Əgər siyasi məsələlər haqqında bir-iki kəlmə yenə də demək istəsəm, bu, ondan ibarətdir ki, Türkiyə Azərbaycan üçün ən yaxın, ən dost ölkədir. Türkiyə-[406-407]Azərbaycan əlaqələri Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edir və hesab edirik ki, Türkiyə üçün də belə olmalıdır. Dünya Birliyinə daxil olan hər bir müstəqil dövlət dünyanın bütün dövlətləri ilə normal, yaxın, dost, qarşılıqlı surətdə faydalı əlaqələr qurur və quracaqdır. Bu, hər bir dövlət üçün lazımdır.

Türkiyə böyük tarixə malik olan dövlətdir və əgər keçmiş əsrlərdə dünya miqyasındakı əlaqələrinə, cümhuriyyət tarixi zamanındakı əlaqələrinə nəzər salsaq, görərik ki, Türkiyənin dünyanın bütün dövlətləri ilə diplomatik əlaqələri var, çoxlu müqavilələri, iqtisadi və başqa sahələrdə əlaqələri var.

Müstəqil dövlət kimi Azərbaycan gəncdir. Şübhəsiz ki, dünya dövlətlərinin əksəriyyəti ilə diplomatik əlaqələrimiz var. Ancaq biz hələ gəncik, bir sıra ölkələrdə – təxminən 20 ölkədə səfirliyimiz var. Türkiyənin isə 120 ölkədə səfirliyi var. Bizdə, Azərbaycanda da təxminən, 20 ölkənin səfirliyi var, yəni daimi səfirliyi var. Məsələn, 25 ölkənin Ankaradakı, Türkiyədəki səfiri eyni zamanda öz ölkəsinin Azərbaycanda səfiridir. Belə bir praktika var. Amma bizim ölkədə fəaliyyət göstərən 20 səfirlik var və bizim də başqa ölkələrdə təxminən bu qədər səfirliyimiz var.

Biz hələ gəncik, əlaqələri qururuq və quracağıq. Sülhsevər dövlət olaraq, ölkəmizi inkişaf etdirməyə çalışaraq şübhəsiz ki, daha çox ölkələrlə sıx əlaqələr yaratmaq istəyirik. Ancaq bu əlaqələrimiz nə qədər genişlənsə də, ayrı-ayrı ölkələrlə əlaqələrimiz nə qədər dərinləşsə də Türkiyə ilə Azərbaycan arasında əlaqələr heç bir başqa ölkə ilə olan əlaqələrə bənzəmir. Yəni bunlar xüsusi xarakter daşıyır, xüsusi əhəmiyyət kəsb edir. Ona görə də burada dörd gün müddətində olan danışıqlarımız bu çərçivədə gedibdir. Danışıqları bu çərçivədə apararaq Azərbaycanı narahat edən bir neçə məsələ haqqında dostcasına, qardaşcasına danışdıq. Xüsusən Ermənistanın Azərbaycana etdiyi hərbi təcavüz və bu təcavüzlə əlaqədar Azərbaycanın platforması barədə çox geniş danışdıq. Şübhəsiz ki, bu məsələlərdə biz həmişə eyni fikirdəyik. Həmfikirik. Sadəcə, bu məsələlərin həlli üçün biz Türkiyə tərəfindən daha ciddi addımlar atılmasını gözləyirik.

Türkiyə 1988-ci ildən, Ermənistan Azərbaycana qarşı təcavüz edən zamandan daim Azərbaycanın yanındadır, Azər[407-408]baycanın qayğıları, dərdləri ilə yaşayır. Ermənistanın təcavüzünü özünə, öz ölkəsinə edilən təcavüz kimi qəbul edir və bu məsələlərin həlli yolunda Azərbaycana yardımlar göstərir, bizimlə əməkdaşlıq edir. Bu, bizim üçün çox böyük əhəmiyyət kəsb edir, bizə böyük dayaqdır.

Amma, eyni zamanda biz hələ ki, Ermənistanın təcavüzündən xilas ola bilməmişik. Doğrudur, üç ildir savaş, döyüş yoxdur, qan tökülmür, ancaq böyük sülh, barış da yoxdur. Üç il bundan öncə atəşkəs haqqında saziş imzalamışıq və üç ildir ki, buna riayət edirik. Böyük sazişin, böyük sülhün əldə olunması naminə riayət edirik ki, işğal olunmuş torpaqlarımızı sülh yolu ilə azad edək, Azərbaycanın ərazi bütövlüyünü təmin edək, işğal olunmuş torpaqlardan didərgin düşmüş, zorla çıxarılmış Azərbaycan vətəndaşlarını öz yerlərinə qaytaraq.

Bilirsiniz ki, Azərbaycan torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal altındadır. Bu torpaqlarda Ermənistanın silahlı qüvvələri yerləşir. Dağlıq Qarabağ demək olar, çoxdandır ki, Azərbaycanın tabeliyindən çıxıb və orada olan azərbaycanlılar çoxdan qovulublar. Ancaq Dağlıq Qarabağdan başqa onun ətrafındakı yeddi rayon, bölgə, yaxud sizin sözlə desək, il?01; Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur. Bütün bu işğal olunmuş yerlərdən 1 milyondan artıq Azərbaycan vətəndaşı didərgin düşübdür. Onların əksəriyyəti çadırlarda yaşayır. Çadırlarda yaşamayanlar da üç-dörd ailə kiçik bir otaqda yaşayır, elə otaqda ki, yaşamaq üçün normal şəraiti yoxdur. Belə bir şəraitdə, insan, ola bilər, bir ay, iki ay yaşasın, bilsin ki, bir neçə aydan sonra bu şəraitdə qalmayacaqdır. Daim belə yaşamaq olmaz. Amma bu insanların ömrünün böyük bir hissəsi çadırlarda keçibdir. İnsanlar çadırda yaşayır, amma həyat davam edir. Çadırda insan doğulur, cocuq dünyaya gəlir, insan ölüb gedir. İnsanlar çadırda həyatın bütün tərəflərinə üz tutmağa çalışırlar. Amma çadırda bunları nə cür, nə şəraitdə etmək olar? Maddi çətinliklər var, adamların əksəriyyəti işsizdir. Ona görə də biz bu məsələləri sülh yolu ilə həll etmək istəyirik. Bilirsiniz ki, münaqişənin sülh yolu ilə həll edilməsi üçün keçən ilin dekabrında ATƏT-in Zirvə görüşündə əhəmiyyətli bir nailiyyət əldə olunubdur. ATƏT-in Lissabon Zirvə görüşündə Ermənis[408-409]tan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həllinin prinsipləri təsdiq edilibdir. Bu prinsiplər Ermənistanın və Azərbaycanın ərazi bütövlüyünün tanınması, Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağa yüksək səviyyəli muxtariyyət hüququ verilməsi və Dağlıq Qarabağın erməni və azərbaycanlı əhalisinin təhlükəsizliyinin təmin olunmasıdır.

Biz bu prinsipləri qəbul etmişik. Zirvə görüşündə ATƏT-in üzvü olan 54 ölkənin dövlət başçıları iştirak edirdi. Onlardan 53-ü bu prinsipləri qəbul edib, Ermənistan qəbul etməyibdir. Ermənilər bəzi başqa ölkələrin dəstəyindən, maddi yardımından, xarici ölkələrdəki diasporun maddi yardımlarından və dəstəyindən istifadə edərək özlərini çox qudurğan, azğın aparırlar və heç bir beynəlxalq hüquq normalarına, insan hüququ normalarına riayət etmək istəmirlər. Ona görə də 54 dövlət başçısı toplaşan yerdə təkcə Ermənistan bu prinsiplərin əleyhinə çıxdı. Amma buna baxmayaraq, bu qərar qəbul olundu.

İndi biz bu qərarın həyata keçirilməsi üçün çalışırıq. ATƏT-in Minsk qrupunun üç həmsədri təyin olunubdur, bunlar Rusiya, Amerika Birləşmiş Ştatları və Fransadır. Biz onların fəaliyyətinə ümid bəsləyirik və Türkiyə Cümhuriyyətinin bundan sonra daha da çox fəaliyyət göstərməsinə ümid bəsləyirik. Qeyd etdiyim kimi, Türkiyə bu barədə daim bizimlə əməkdaşlıq edir və öz xidmətlərini göstərir. Ancaq bundan sonra da, bu məsələ həll olunana qədər, şübhəsiz ki, biz Türkiyənin yardımına, köməyinə möhtacıq. Şübhəsiz, Türkiyə də bunu edib və edəcək, ümidvaram ki, biz bundan sonra da Türkiyə ilə bu əməkdaşlığı davam etdirəcəyik.

Belə olan halda, şübhəsiz ki, Ermənistan-Türkiyə münasibətləri sizin üçün də, bizim üçün də çox mühüm xarakter daşıyır. Vəziyyəti gərginləşdirən və ağırlaşdıran cəhət bir də ondan ibarətdir ki, son iki ay müddətində Rusiyada aşkar edilib ki, üç il atəşkəs dövründə Rusiya Ermənistana gizli olaraq, qeyri-qanuni surətdə çoxsaylı silahlar veribdir. Rusiyanın öz dövlət orqanlarının verdiyi məlumata görə, Rusiya Ermənistana 1 milyard dollar dəyərində silahlar veribdir. Onların içərisində ağır silahlar – müasir tanklar, toplar, raketlər və başqa dağıdıcı silahlar var. Məsələn, Rusiya Kiprə satdığı raketlərdən Ermənistana da veribdir. Başqa çox dağıdıcı silahlar, hətta [409-410] son vaxtlar məlumat aldıq ki, 10 kompleks kimyəvi silahlar, kimyəvi silahlardan müdafiə üçün 5 min dəst paltar da verilibdir.

Bunlar çox böyük narahatlıq doğurur. Çünki əgər Ermənistana bu qədər silah verilirsə, demək, silah elə bir şey deyil ki, bunu yeyəcək, geyəcəkdir, ya da istehsal üçün lazım deyildir. Silah, ümumiyyətlə, dava, müharibə, savaş üçün lazımdır. Demək, kimsə yenə də savaş etmək istəyir.

Amma bu qədər silah təkcə Azərbaycanı dağıtmaq üçün deyildir. Azərbaycanı dağıtmaq üçün onun onda biri də bəsdir. Düşünmək lazımdır ki, bu, nə üçündür. Türkiyənin ictimai rəyi, xalqı düşünməlidir ki, Türkiyənin qulağının dibində, Ermənistanda Rusiyanın böyük hərbi bazası yerləşibdir, hərbi, əsgəri hissələri yerləşibdir. Dövlətlərarası anlaşma əsasında və ilk parlamentin – Rusiya və Ermənistan parlamentlərinin ratifikasiya etdiyi anlaşma əsasında onlara hüquq verilibdir ki, daim orada yerləşsinlər. Bu nə üçündür, nədən ötrüdür? Mən buna etirazımı bildirmişəm. Hətta Rusiyanın prezidentinə – dövlət başçısına da rəsmi olaraq bildirmişəm ki, biz Ermənistanda Rusiyanın hərbi bazasının yerləşməsinə etiraz edirik, Gürcüstanda da yerləşməsinə etiraz edirik. Çünki onlar bizimlə qonşu ölkələrdir. Biz Ermənistanda Rusiyanın hərbi bazasının yerləşməsinin heç bir mənası olmadığını deyirik. Yəni əgər Rusiya burada doğrudan da sülhsevər siyasət aparırsa, Ermənistan işğalçılıq siyasətindən əl çəkirsə, o hərbi bazaları orada yerləşdirmək nəyə lazımdır?

Bunlar, xüsusən çoxsaylı silahların verilməsi yeni amillərdir və şübhəsiz ki, bizdə çox böyük narahatlıq, narazılıq hissi doğurur. Bu məsələlər barəsində də Türkiyənin həm dövlət və hökumət başçılarına öz fikirlərimizi çatdırmışıq, həm də istəyirik ki, Türkiyədə hər bir adam, hər bir türk qardaşımız Azərbaycanın, Qafqazın vəziyyətini və Türkiyənin ətrafında olan vəziyyəti bilsin. Siz burada çox yaxşı yaşayırsınız, biz də buna sevinirik. İqtisadiyyatınız da yaxşı inkişaf edir, bu da çox gözəldir. Siz iş adamlarısınız, işiniz də var, işinizi daha da genişləndirmək istəyirsiniz, bu da çox gözəldir. Varınız da var, çoxlarınız da çox zənginsiniz, Allah xeyirli eləsin. Bu da çox gözəldir, Allah bundan da artıq eləsin. Amma sülh, əmin-[410-411]amanlıq, rahatlıq olmasa, bunlar heç kəsə lazım deyildir. Ona görə də biz istəyirik ki, bunları Türkiyədə bilsinlər, siz də biləsiniz, başqaları da bilsinlər.

Bu baxımdan Ermənistan-Azərbaycan münaqişəsinin aradan götürülməsi, sülhün yaranması – Qafqazda, bu bölgədə, Türkiyənin ətrafında sülhün yaranması – həm Azərbaycan üçün, həm də Türkiyə üçün lazımdır. Mən güman edirəm ki, iş adamları kimi, siz də öz iqtisadi məsələlərinizlə məşğul olarkən siyasi məsələləri və xüsusən bölgəmizin təhlükəsizlik məsələlərini gərək heç də unutmayasınız.

Bəzən iqtisadçılar, iş adamları deyirlər ki, biz siyasətlə məşğul olmuruq, bizə siyasət lazım deyil, iş adamıyıq, bizimki ticarət, istehsaldır, filandır. Mən bununla razı deyiləm. Çünki siyasət düzgün olmasa, iqtisadiyyat da olmayacaq. Təhlükəsizlik olmasa, sülh, əmin-amanlıq, barış olmasa, iqtisadiyyat da olmayacaqdır. Ona görə iqtisadi işlərdə, biznesdə Türkiyəni və Azərbaycanı əhatə edən ölkələrin arasında sülhün və əmin-amanlığın da əhəmiyyətini unutmaq lazım deyildir.

Şübhəsiz ki, bu baxımdan Qara dəniz iş birliyi, başqa iş birlikləri də lazımdır. Ancaq son zamanlar Türkiyənin bəzi iş adamlarının Ermənistanla iş qurmaq cəhdləri bizi rahatsız edir. Bu Azərbaycanda çox mənfi qarşılanır, anlaşılmır. Mən bunu Türkiyənin dövlət, hökumət başçılarına demişəm, öz etirazımızı da bildirmişəm. Məsələn, Yerevandan Trabzona təyyarələr uçur. Deyirlər ki, bunlar özəl təyyarələrdir. İndi elə hər şey özəldir. Demək, adını özəl qoyanda özünü kənara çəkəcəksən ki, mənim bundan xəbərim yoxdur? İndi hər şey özəldir, bundan sonra da özəl olacaqdır.

Ona görə mən bunu anlamıram, Azərbaycanda da anlamırlar. Sizin qəzetlər yazır, biz sizin qəzetlərdən götürmüşük, təyyarələr Yerevandan Trabzona gedib-gəlir, yaxud da Ermənistandan avtobuslar, yük maşınları Gürcüstan vasitəsilə Trabzona gəlirlər. Bunlar bir tərəfə, indi sizin iş adamlarının bəziləri məsələ qoyublar ki, biz gərək Ermənistanla ticarət edək. Ermənistanla nə ticarət edə bilərsiniz, orada nə var, nə itirmisiniz orada? Daşları gedib almaq istəyirsiniz?

Mən bu barədə sizin hökumət, dövlət başçıları ilə danışdım. Deyirlər, bizim tacirlər bildirirlər ki, onsuz da İran bizim mal[411-412]ları alır və aparıb Ermənistanda satır, onlar qazanırlar, biz qazanmırıq. Bu, o qədər yanlış fikirdir ki, sizlərdən kimsə bunu hökumət başçılarının qafasına qoymusunuz, yanlış şeydir, onlar da bunu deyirlər. Mən sizə bildirmək istəyirəm ki, İranla Ermənistan arasında çox geniş ticarət aparılır. İran özü də çox böyük bazarlar axtarır, onların biri də Ermənistandır. İran Ermənistana elektrik, təbii qaz xətti çəkir. Ermənistan ilə İran arasında 40 kilometrlik sərhəd var, orada böyük bir körpü tikiblər. O körpüdən gündə 100-150 yük maşını İrandan Ermənistana keçir. İran öz mallarını Ermənistanda onsuz da satır. İrana nə lazımdır ki, gəlib Türkiyədən mal aparsın, Ermənistanda satıb pul qazansın? Bu, yanlış fikirdir. Bunu deyən adamlar gizlin, xəlvət, cürbəcür yollarla öz mallarını Ermənistanda özləri satırlar və hökumət başçılarına da deyirlər ki, bunu İran bizdən alıb, aparıb satır. Tamamilə yanlış fikirdir. Hətta sizin bəzi iş adamları oraya gedirlər və oradan bəzi iş adamlarını ticarət əlaqələri qurmaq üçün İstanbula, İzmirə gətirirlər.

Yaxud da bəzi adamlar Şərq tərəfdə – Qarsda, İqdırda deyirlər ki, gəlin buradan qapı açaq, ticarət edək, bu bizə xeyir verə bilər. Yaxud da son zamanlar Gürcüstandan bizə xəbər verdilər ki, Türkiyədən Gürcüstana müraciət olunub ki, Gürcüstanla Türkiyə arasında iki qapı var, birini də açaq. Gürcüstan bizdən soruşur ki, siz buna necə baxırsınız? Dedik ki, bu qapı haradadır, hansı yerdədir? Dedilər ki, o qapı Gürcüstanın ermənilər yaşayan sərhədindədir. Biz soruşduq ki, iki qapı sizə yetərlidirmi? Dedilər ki, tamamilə yetərlidir. Demək, Türkiyə üçüncü qapını kimlər üçün açmaq istəyir, oradan birbaşa Ermənistana keçmək üçünmü? Biz buna etiraz etdik. Amma Gürcüstan hökuməti də bildirdi ki, bu bizim təşəbbüsümüz deyil, Türkiyənin təklifidir.

Bilmirəm, Ermənistanla həqiqətən ticarət etmək istəyən iş adamları bundan nə qədər para, xeyir, fayda götürəcəklər. Amma nə qədər götürsələr, heç vaxt bizim milli mənafeyimizi, məqsədlərimizi paraya qurban

vermək olmaz. İş adamı iş görməlidir, para qazanmalı, öz işini inkişaf etdirməlidir. Amma heç vaxt öz milliliyini, milli mənafeyini qurban verməməli, qoymamalıdır ki, öz milli mənafeyinə zərər gəlsin. [412-413] Yoxsa elə sən get qurdla, canavarla da, o birisi ilə də, təcavüzkarla da alver et ki, mənə qazanc lazımdır?

Ona görə sizə müraciət edirəm, nəinki özümün, bütün Azərbaycan xalqının fikrini deyirəm. Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı əbədidir, bizim qanımız, canımız, dinimiz, dilimiz birdir. Bunların hamısının olduğu yerdə gərək Türkiyədə iş adamları, dövlət adamları, adi bir vətəndaş da bilsin ki, Azərbaycanın mənafeyi Türkiyənin mənafeyidir, Azərbaycanın dərdi Türkiyənin dərdidir. Türkiyə də, biz də böyük öndər Mustafa Kamal Atatürkün sözlərini tez-tez xatırlayırıq. O, vaxtilə demişdir ki, Azərbaycanın dərdi bizim dərdimizdir, Azərbaycanın sevinci bizim sevincimizdir. Biz də deyirik ki, Türkiyənin dərdi bizim dərdimizdir, Türkiyənin sevinci bizim sevincimizdir. Mustafa Kamal Atatürk nə qədər müdrik adamdır! Bu sözləri hələ 30-cu illərdə demişdir. Onda hələ Ermənistanla Azərbaycan arasında belə savaş, münaqişə yox idi, qan tökülmürdü. Ancaq o – böyük Mustafa Kamal Atatürk 1918-1920-ci illərdə həmin o erməni millətçilərinin, daşnaklarının azərbaycanlıların başına nə bəlalar gətirdiklərini yaxşı bilirdi. Azərbaycanda nə qırğınlar etmişdilər, yaxşı bilirdi. Məhz Mustafa Kamal Atatürkün və onun kimi insanların iradəsi nəticəsində 1918-1920-ci illərdə Türkiyənin Qafqaz Ordusu Azərbaycana gəldi, Naxçıvanda, Qarabağda, Gəncədə, Bakıda azərbaycanlıları erməni qırğınından xilas etdi. Biz bunları unutmuruq.

Osmanlı imperatorluğu dağılmışdı, Türkiyənin özü dağılmış vəziyyətdə idi, Türkiyəyə təcavüz olunmuşdu. Türkiyə özünü xilas etməli, saxlamalı idi, qurtuluş savaşı gedirdi. O vaxt Türkiyənin mütəfəkkir adamları Azərbaycanı öz doğma vətəni hesab edirdilər. Qafqaz Ordusu Azərbaycana göndərildi. Naxçıvana Nuru Paşa, Kazım Qarabəkir və başqaları gəldilər, azərbaycanlıları xilas etdilər. Ona görə bunları heç vaxt unutmaq olmaz, tarixi də unutmaq olmaz, keçmişi də unutmaq lazım deyildir.

Ermənilər bütün dünyaya hay salıblar ki, türklər 1915-ci ildə erməniləri qırıblar. Sizi günahlandırırlar, sizin haqqınızda bütün ölkələrdə yanlış məlumatlar yayırlar. Bu, bizə də aiddir. Onlar azərbaycanlını, türkü, türkiyəlini bir-birindən ayır[413-414]mırlar. Bizə də türk deyirlər, sizə necə münasibət bəsləyirlərsə, bizə də elə münasibət bəsləyirlər. İndi siz onlarla bir balaca alver edirsiniz, bir-birinizə "Salaməleyküm, sağ ol, xoş gəldin" deyirsiniz.

Bu məsələni mən bir neçə dəfə demişəm, sizə, iş adamlarına da deyirəm ki, bizim problemimizi biləsiniz. Əlbəttə, biz heç kəsə heç nəyi məcbur edə bilmərik. Türkiyənin də heç bir işinə qarışmırıq və qarışa da bilmərik. Ancaq bu sözləri deməyə bizim qardaşlıq haqqımız var. Qardaş-qardaşa hər bir şeyi açıq deməlidir, nə qədər şirin olsa da, acı olsa da açıq deməlidir. Ona görə də siz çalışın ki, bu əməkdaşlığı, alış-verişi – hamısını gəlin Azərbaycanla edin. Azərbaycanda geniş imkanlar var. Burada çıxış etdilər. Nihat bəy də, Əli bəy də çox təsirli sözlər dedilər. Başqa iş adamları da çıxış etdilər, Azərbaycan-Türkiyə iqtisadi əlaqələri haqqında, Azərbaycanda görülən işlər haqqında danışdılar. Bunlara görə mən təşəkkür edirəm. Həqiqətən Azərbaycan hələ dövlət müstəqilliyini əldə edəndən öncə Türkiyənin iş adamları Azərbaycana maraq göstərirdilər, Azərbaycan hələ Sovetlər İttifaqının tərkibində olan zaman Türkiyənin iş adamları bir balaca imkan düşən kimi Azərbaycana gəlirdilər. Xüsusən Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra Türkiyənin iş adamları respublikamıza gəldilər. Onları yüksək qiymətləndirdilər. Müəyyən əməkdaşlıq başlandı, müəyyən işlər görüldü. Ancaq təsəvvür edin, bu 7-8 ildə əldə etdiyimiz nailiyyətlər mövcud imkanlarımızdan çox-çox azdır. Bu müddətdə Türkiyənin iş adamları başqa ölkələrdə, yəni bizimlə eyni vaxtda müstəqillik qazanmış ölkələrdə daha çox iş görürlər, nəinki Azərbaycanda, – bu da həqiqətdir. Bilirsiniz, mən sizin başqa ölkələrdə, xüsusən Orta Asiya ölkələrində, – bunlar bizim qardaş ölkələrimizdir, – iş görməyinizə qısqanmıram. Allah xeyirli eləsin, iş görün. Amma əgər sıraya qoysanız – bir, iki, üç, dörd, beş – siz bilirsiniz, Azərbaycan harada qalacaq? Vəziyyəti təhlil etsək, görülən işlər çox azdır.

Mən bilirəm, Azərbaycanda daxili sabitlik olmayıbdır. Siz də bilirsiniz, biz də bilirik ki, burada iş adamları qorxurdular ki, Azərbaycanın varidatı nə olacaq, nə təhər olacaq, Azərbaycanın torpaqları işğal edilmişdir, ola bilər, yenə işğal edil[414-415]sin, mən niyə gedib oraya paramı qoyum. Yaxud da Azərbaycanın daxilində əmin-amanlıq yox idi, – 1992-ci ildəki hakimiyyət dövründə, – siz bunu yaxşı bilirsiniz. Bir il keçmədi, 1993-cü ildə Azərbaycanda vətəndaş müharibəsi başlandı. Yenidən silah gücünə hakimiyyət devrildi, çox gərgin vəziyyət yarandı.

Bilirsiniz ki, 1993-cü ilin iyununda məni dəvət etdilər, Naxçıvandan Bakıya gəldim. Çox ağır, çətin dövr idi, biz bunu adlayıb keçdik. Prezident, olduğum zaman, 1994-cü ilin oktyabrında daxildə, bizim ətrafımızda olan adamlar yenə çevriliş etməyə çalışdılar. Biz onların qarşısını aldıq. Sonra, 1995-ci ilin martında yenə böyük bir silahlı dəstə – o vaxt silahlı polis dəstəsi vardı – çevriliş etmək istədi; qan da tökdülər. Azərbaycan prezidentini öldürmək, terror etməklə hakimiyyəti ələ almaq istədilər. Bunun da qarşısını aldıq. Təəssüflər olsun ki, 1995-ci ilin martındakı həmin çevriliş cəhdində bəzi Türkiyə vətəndaşları da iştirak edirdilər. Bunlar keçib getdi, onları da bağışladıq.

Amma indi, 1995-1996-cı illərdə Azərbaycanda tam sakitlik yaranıb, ictimai-siyasi vəziyyət sabitdir. Bu müddətdə biz ilk Konstitusiyamızı – ana yasamızı qəbul etdik, ilk demokratik parlamentimizi seçdik. Biz bazar iqtisadiyyatı yolu ilə gedirik. Demokratik prinsipləri bərqərar etmişik, iqtisadiyyatı liberallaşdırmışıq, çox

qanunlar qəbul etmişik. Bütün torpağı şəxsi mülkiyyətə veririk. Kənd təsərrüfatında, aqrar sektorda qoyunçuluq və mal-qara tamamilə özəlləşdirilibdir. Torpaqlar da xalqa, insanlara paylanır.

Biz iki-üç ildir ki, özəlləşdirmə proqramını həyata keçiririk. Torpaq islahatı həyata keçiriləndən sonra Azərbaycanda iqtisadiyyat tamamilə özəl, bazar iqtisadiyyatı yolu ilə, dünya standartlarına uyğun olan yolla gedəcəkdir. Biz bu yolun artıq çox mühüm bir hissəsindəyik. Çoxlu qanunlar qəbul etmişik. Bir tərəfdən daxili imkanlar, digər tərəfdən elmi-texniki potensial, Azərbaycanın təbii sərvətləri, respublikamızın böyük sənaye, kənd təsərrüfatı potensialı göz qabağındadır. Bunlar[415-416]dan müştərək istifadə olunması üçün, hesab edirəm ki, Türkiyənin iş adamları Azərbaycana daha çox gəlməlidirlər.

İndi burada Nihat bəy də dedi ki, ölkələrimiz arasında 250 milyon dollar dəyərində ticarət əlaqəsi olubdur. Doğrudur, bu iki il müddətini götürsək, burada üç dəfə artım var. Amma bu rəqəmin özü də azdır, heç bir şeydir.

İndi Azərbaycana neft sahəsində xeyli sərmayə qoyulur. Görürsünüz, respublikamızda bir balaca imkan olan kimi biz Türkiyəni də oraya gətiririk. Qərb istiqamətində boru kəmərinin tikilməsi üçün keçirilən tenderdə qalib gələn, ad qazanan şirkətlərdən biri də Türkiyənin şirkətidir. Bu şirkətə mənim dostum Nihat bəy rəhbərlik edir. Sizə deyim ki, bu işin müştərisi çox idi. Amma Türkiyə şirkəti bu işdə qazandı, biz də istədik ki, qazansın. Onların qazanmasında bizim də xidmətimiz var.

Burada neft sənayesi haqqında da bir neçə söz dedilər. Mən dörd gündür ki, buradayam. Kiçik də, böyük də, necə deyərlər, məmə yeyəndən pəpə deyənə qədər hamı soruşur ki, Bakı-Ceyhan xətti necə olacaqdır? Bu, mənim üçün aydın məsələdir. Deməк, burada təkcə dövlət, hökumət yox, hər bir vətəndaş, gənc insan da istəyir ki, Azərbaycanın bu böyük neft borusu Türkiyədən keçsin. Bunu nə üçün istəyir? Çünki Bakı-Ceyhan xəttinin çox böyük iqtisadi əhəmiyyəti vardır. Yəni əgər biz neft çıxaracağıqsa, oradan böyük fayda əldə ediləcəksə, yəni bu boru ki, Türkiyədən keçirəcəyik, – biz onu mütləq Türkiyədən keçirəcəyik – demək, buradan da çox böyük fayda gələcəkdir. Bu onu göstərir ki, biz imkanımız olan kimi Türkiyənin iş adamlarını, şirkətlərini ölkəmizə gətirəcəyik. Amma bizim hələ o qədər də böyük təcrübəmiz yoxdur. Çünki biz 70 il başqa bir iqtisadi sistemdə olmuşuq. Mən sizə açıq deyim, bizim insanlar çox şeyi hələ bacarmırlar. Bizə kömək etmək, ölkəmizə gəlmək lazımdır. Gəlib oturub bir şeydə kömək etmək lazımdır. Ola bilər, para getsin, amma bil ki, gedən yerdən bir qədərdən sonra on dəfə çox gəlir götürə bilərsiz. Çünki Azərbaycana gələn para heç vaxt batmır. Azərbaycana gətirilən sərmayə mütləq öz nəticəsini verəcəkdir.

İndiyə qədər olan işlərə görə mən məmnun olduğumu bildirmək istəyirəm. Ancaq bu işlərin çoxu ticarətdir. Azərbaycan ilə Türkiyə arasında iş birliyi isə respublikamıza Türkiyənin böyük şirkətlərinin sərmayəsinin gəlməsidir, müştərək istehsalın yaranmasıdır. Məsələn, neft istehsalı sahəsində bizim bir neçə belə müştərək müəssisəmiz vardır və işlər yaxşı gedir, [416-417] yaxşı da nəticələr olacaqdır. Amma başqa sahələrdə də işlər belə qurulmalıdır. İstehsalı artırmaq, sərmayə qoymaq, şübhəsiz ki, fayda verəcəkdir.

Ona görə də mən bu məsələlərin detallarını izah etmək istəmirəm. Bilirsiniz ki, Türkiyə-Azərbaycan iqtisadi əlaqələrini tənzimləmək üçün biz dövlətlərarası komissiya yaratmışıq. Bu komissiyanın Azərbaycan tərəfindən rəhbəri baş nazirin müavini Abid Şərifovdur. Türkiyə-Azərbaycan əlaqələrinin inkişafında Əli bəy Yücəlin böyük xidmətləri vardır. O, həqiqətən vətənpərvər bir insandır. O, para, qazanc əldə etmək üçün yox, öz qəlbi ilə yeddi il bundan əvvəl Azərbaycana gəlibdir. O, respublikamıza çətin şərtlər əsasında gəlib-gedir, iş görür, amma mən belə hesab edirəm ki, bir şey qazanmır, əksinə itirir. Ancaq onun qəlbi torpaqla, xalqla elə bağlıdır ki, onda türkçülük, vətənpərvərlik, milli hiss o qədər yüksəkdir ki, o bu işləri görür. Buna görə də mən də ona çox böyük hörmət və ehtiramla yanaşıram. Hesab edirəm ki, Nihat bəy də, Əli bəy də, Abid Şərifov da, hamısı birlikdə bu görüşdən sonra sizin təkliflərinizə baxacaqlar. Mən Abid Şərifova tapşırmışam ki, bu məsələlərlə məşğul olsun. Onlar dəqiqləşdirəndə ki, bu məsələlər barədə qərar qəbul etməyə hazırıq, onda lazımi qərarlar olacaqdır.

Gəlin biz daha da yaxınlaşaq. Millətlərimiz bir-biri ilə nəinki yaxındır, birdir. Dilimiz, dinimiz, qanımız, canımız birdir. Gəlin iqtisadiyyatda da daha da yaxınlaşaq.

Burada dedilər ki, bəzi iş adamları Bakıda nəsə açmaq, mərasim keçirmək istəyirlər. Məni də oraya dəvət etdilər. Burada mən heç kəsə bir söz deyə bilmərəm. Çünki mən dörd gündür ki, Azərbaycandan çıxmışam. Qarşıdakı günlərdə yəqin işlərim daha çox olacaqdır. Şübhəsiz ki, bir neçə gündən sonra bu təkliflərə baxa bilərəm. Amma indi buradakı dəvətlərinizlə əlaqədar bir söz deyə bilmərəm. Xahiş edirəm, bunu nəzərə alasınız.

Mən sizin hamınıza cansağlığı, işlərinizdə müvəffəqiyyətlər arzulayıram. Yaşasın əbədi Türkiyə-Azərbaycan dostluğu!

Sağ olun! [417-418]

## İSTANBULDA İSLAM KONFRANSI TƏŞKİLATININ TARİX, KÜLTÜR, SƏNƏT MƏRKƏZiNDƏ ÇIXIŞ

*8 may 1997-ci il*

Hörmətli professor Əhmənt İhsan oğlu!
Hörmətli cənablar!

Bu gün İstanbulda İslam Konfransı Təşkilatının tarix, kültür, sənət mərkəzində olarkən mən islam tarixinə aid Azərbaycanda da böyük araşdırmalar aparıldığını nəzərə çarpdırmaq istərdim. Mənim fikrimcə, bu araşdırmalar islam dünyasında geniş təbliğ edilməlidir. İslam Konfransı Təşkilatının İstanbuldakı bu mərkəzi ilə Azərbaycan Elmlər Akademiyasının, onun Şərqşünaslıq İnstitutunun və respublikamızdakı bir sıra mərkəzlərin əlaqələrinin daha da sıxlaşdırılmasının vacib olduğunu göstərməklə bildirirəm ki, yaradılacaq belə münasibətlər xalqlarımızın və islamın tarixinin, mədəniyyətinin öyrənilib daha geniş təbliğ edilməsində mühüm rol oynaya bilər.

Azərbaycanın görkəmli şəxsiyyətlərinin həyatının və xalqımızın qədim tarixə malik mədəniyyətinin ümumtürk və islam tarixində özünəməxsus yer tutduğunu xatırladaraq ümidvar olduğumu bildirirəm ki, türk və islam tarixləri yenidən işlənib hazırlanarkən orada Azərbaycanın mütəfəkkir şəxsiyyətlərinin həyat və yaradıcılığı da öz layiqli əksini tapacaqdır.

Azərbaycan mədəniyyətinin, incəsənətinin zəngin tarixi vardır. Bu tarixin öyrənilib yayılmasının əhəmiyyəti böyükdür. Yola salmağa hazırlaşdığımız XX əsrdə Azərbaycan ədəbiyyatında, mədəniyyətində, incəsənətində əldə olunmuş nailiyyətlər isə xüsusilə təqdirəlayiq və cahanşümul nailiyyətlərdir. Görkəmli bəstəkar Üzeyir Hacıbəyov dahi Nizaminin və Füzulinin "Leyli və Məcnun" poemaları əsasında 1908-ci ildə "Leyli və Məcnun" operası yaratdı, Qara Qarayev isə 1960-cı ildə "Leyli və Məcnun" simfonik poemasını bəstələyərək klas[418-419]sik Şərq mövzusunu müasir modern səviyyəsinə çatdırdı. Əlbəttə, xalqımızın içərisindən çıxmış belə dahi şəxsiyyətlərin sayı olduqca çoxdur və onların hər birinin yaradıcılığı haqqında saatlarla, günlərlə söhbət açmaq olar. Onlar həm də islam dünyasının böyük şəxsiyyətləri olduqlarına görə, bu adamların yaradıcılığının islam aləmində və türk, ərəb dünyasında geniş öyrənilib yayılması olduqca vacibdir.

Bununla əlaqədar İslam Konfransı Təşkilatının İstanbuldakı bu mərkəzi ilə Azərbaycanın əlaqələrinin daha da sıxlaşdırılması üçün birgə tədbirlər hazırlanmasının və keçirilməsinin təşkilinə diqqəti artırmağın vacib olduğu daim nəzərə çarpdırılmalıdır.

* * *

### MƏRKƏZLƏ ƏTRAFLI TANIŞLIQDAN SONRA FƏXRİ QONAQLAR KİTABINA YAZDIĞI ÜRƏK SÖZLƏRİ:

*"İslam Konfransı Təşkilatının İstanbulda yerləşən mədəniyyət mərkəzinin gördüyü çox əhəmiyyətli işlər böyük məmnuniyyət hissi doğurur. Zəngin kitabxana, çox qiymətli eksponatlar islam mədəniyyətinin tarixini və xüsusiyyətlərini tədqiq etmək üçün böyük imkanlar yaradır. Bu mərkəzə yeni uğurlar arzulayıram.*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*8 may 1997-ci il* [419-420]

## TÜRKİYƏDƏN RƏSMİ SƏFƏRDƏN VƏTƏNƏ QAYIDARKƏN İSTANBULUN ATATÜRK HAVA LİMANINDA MƏTBUAT KONFRANSINDA BƏYANAT

*8 may 1997-ci il*

Hörmətli mətbuat nümayəndələri!

Türkiyə Cümhuriyyətinə dörd günlük rəsmi səfərim başa çatdı.

Mən artıq hava limanındayam, bir neçə dəqiqədən sonra Bakıya yola düşürəm. Səfərimə yekun vuraraq məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, bu səfər Azərbaycan üçün çox uğurlu oldu. Mən bu səfərdən, aparılan danışıqlardan, imzalanan sənədlərdən, Türkiyənin dövlət, hökumət başçıları ilə görüşlərimdən və bütün başqa görüşlərdən çox məmnunam. Mən Türkiyə Cümhuriyyətinin həyatının bir sıra mühüm səviyyələrində apardığım görüşlərin, danışıqların hamısından çox razıyam.

Birinci növbədə hesab edirəm ki, ölkələrimiz, dövlətlərimiz, xalqlarımız arasında əlaqələrin daha da yüksəlməsi və genişləndirilməsi üçün biz müştərək gərəkli iş gördük. İkincisi. Türkiyə ictimaiyyəti, eləcə də Azərbaycan ictimaiyyəti xalqımız televiziya vasitəsilə mənim bu rəsmi səfərim barədə geniş məlumatlar alır – bir-biri ilə dost, qardaş olduğunu bizim bu görüşlərimiz nəticəsində daha da yaxından hiss etdi. Bu dostluq, qardaşlıq hissiyyatları, nəinki dövlətlərimizin, hökumətlərimizin arasında, xalqlarımız, millətlərimiz arasında olan dostluq, qardaşlıq əlaqələri daha da möhkəmləndi. Bunlar hamısı birlikdə Türkiyə-Azərbaycan dostluğunun, qardaşlığının, əməkdaşlığının gələcəkdə daha da irəliyə aparılması üçün gözəl təməl olubdur, yaxşı zəmin yaradıbdır.

Mən Türkiyə Cümhuriyyətinə, onun prezidenti hörmətli Süleyman Dəmirələ, Türkiyə hökumətinə, xalqına bizə göstə[420-421]rilən hərarətli dostluq, qardaşlıq münasibətinə, çox gözəl qonaqpərvərliyə, diqqətə, qayğıya görə təşəkkür edirəm. Türk xalqına bir daha öz hörmət və ehtiramımı, sevgi və məhəbbətimi bildirirəm.

Bu günlər hər yerdə Türkiyənin mətbuat nümayəndələri bizi müşayiət ediblər, əziyyət, zəhmət çəkiblər, çox iş görüblər. Ona görə də sizə və sizin simanızda bu günlər bizimlə bərabər olan, çalışan, zəhmət çəkən Türkiyə mətbuatının nümayəndələrinə hörmət və ehtiramımı bildirirəm, təşəkkür edirəm.

Hamınıza cansağlığı arzulayıram. Türk xalqına səadət, xoşbəxtlik, Türkiyə Cümhuriyyətinin dövlətinə, hökumətinə qarşıda duran bütün vəzifələrin həyata keçirilməsində uğurlar diləyirəm.

Sağ olun.

**Sual: Cənab prezident, Azərbaycanla Ukrayna və Gürcüstan arasında strateji əməkdaşlıq barədə bəyannamə imzalanıb. Siz burada rəsmi səfərdə olduğunuz zaman Türkiyə ilə Azərbaycan arasında da strateji əməkdaşlığın dərinləşdirilməsi barədə bəyannamə imzaladınız. Bu birgə bəyannamələrin gələcəyi barədə nə deyə bilərsiniz?**

**Cavab:** Bilirsiniz, biz hansısa bir dövlətlər mövqeyi yaratmaq istəmirik. Şübhəsiz ki, Azərbaycan ilə Türkiyə arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında bəyannamə imzalanıbdır. Biz bundan əvvəl Ukrayna və Gürcüstanla da belə bəyannamələr imzalamışıq.

Bizim ölkələrimiz coğrafi cəhətdən bir-birinə çox yaxın ölkələrdir. Bunlar hamısı onu göstərir ki, biz çox yaxşı məqsədlər daşıyırıq. Hesab edirəm ki, bunlar ölkələrimizin ümumiyyətlə əlaqələrini daha da genişləndirmək üçün bir vasitədir.

**Sual: Cənab prezident, Azərbaycan və Türkiyə qardaş ölkələrdir. Bu qardaşlığın daha da möhkəmləndirilməsi üçün hər iki ölkə tərəfindən vizaların verilməsinin asanlaşdırılması məsələsini qaldırmaq lazım deyilmi?**

**Cavab:** Hələ görüləsi işlərimiz çoxdur. Həll ediləsi məsələlər çoxdur, edəcəyik.

**Sual: Cənab prezident, Azərbaycanın ali təhsil haqqında diplomları Türkiyənin bir çox dairələrində nəzərə [421-422] alınmır. Ona görə də Azərbaycandan Türkiyəyə işləməyə gələn mütəxəssislər ciddi çətinliklə üzləşirlər. Siz buradakı danışıqlarınızda bu məsələyə toxundunuzmu?**

**Cavab:** Mən bunu bilmirəm, bu barədə birinci dəfədir eşidirəm. Əgər Türkiyədə Azərbaycanın ali təhsil barədə diplomları qəbul edilmirsə, bu necə qardaşlıqdır? Belə qardaşlıq olmaz ki! Azərbaycanın ali məktəblərinin diplomları çox yüksək diplomlardır. Onlar qəbul edilməlidir, əgər qəbul edilmirsə, dövlət naziri Namiq Kamal Zeybək bu məsələyə baxmalıdır.

Bizim universitetlərimiz çox yüksək təhsil verir. Təsəvvür edin, Bakı Dövlət Universitetinin 77 yaşı vardır. Bizim Dövlət Tibb Universitetində Türkiyədən çoxlu gənclər təhsil alırlar, bu universitetin də 65 yaşı vardır. Yaxud başqa universitetlər də belədir. Bizim çox güclü professorlarımız, elm adamlarımız vardır.

**Sual: Hörmətli prezident, bu səfəriniz zamanı ölkələrimiz arasında imzalanan və gələcəkdə imzalanması nəzərdə tutulan sənədlər barədə nə deyə bilərsiniz?**

**Cavab:** Mən sizə dedim ki, bu rəsmi səfərim zamanı imzaladığımız birinci sənəd strateji əməkdaşlığın dərinləşdirilməsi barədə bəyannamədir. Bu, 50 sənədin imzalanmasına bərabərdir. İkincisi, bundan da əlavə 8 sənəd imzalanıbdır. İndiyədək Azərbaycan ilə Türkiyə arasında 50-yə yaxın sənəd imzalanıbdır. Bunlar hamısı iki ölkə, dövlət arasında olan əlaqələrin hüquqi-normativ əsaslarını yaradıbdır. Bu, çox böyük məsələdir.

Daha sualınız yoxdur? Sağ olun. Azərbaycana gəlin. [422-423]

## İKİNCİ DÜNYA MÜHARİBƏSİNDƏ ALMAN FAŞİZMİ ÜZƏRİNDƏ QƏLƏBƏNİN 52-ci İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ İKİ DƏFƏ SOVET İTTİFAQI QƏHRƏMANI, TANK QOŞUNLARI GENERAL-MAYORU HƏZİ ASLANOVUN MƏZARI ÖNÜNDƏ KEÇİRİLƏN MƏRASİMDƏ NİTQ

*9 may 1997-ci il*

Əziz və hörmətli veteranlar!

Əziz həmvətənlər, əziz bacılar, qardaşlar!

Mən sizin hamınızı, bütün Azərbaycan xalqını, Azərbaycan Respublikasının vətəndaşlarını qələbə günü münasibətilə, İkinci dünya müharibəsində, Böyük Vətən müharibəsində alman faşizmi üzərində qələbənin ildönümü münasibətilə təbrik edirəm. Sizə cansağlığı, səadət, uzun ömür arzulayıram.

52 il bundan öncə İkinci dünya müharibəsində çalınan qələbədə dünyanın bir çox xalqlarının, millətlərinin payı var, rolu, fəaliyyəti var. O vaxt orduya səfərbər edilən Azərbaycan nümayəndələri, Azərbaycan xalqının rəşadətli oğulları, respublikamızın vətəndaşları dörd ildən artıq cəbhələrdə vuruşaraq faşizm üzərində qələbənin əldə olunması üçün böyük hünərlər göstərmişlər.

Azərbaycan xalqı İkinci dünya müharibəsində, Böyük Vətən müharibəsində böyük rəşadət, qəhrəmanlıq nümayiş etdirmiş, həm cəbhədə, həm arxada vuruşaraq, çalışaraq, döyüşərək, şəhid olaraq qələbənin əldə olunmasında öz xidmətlərini göstərmişdir. Bu qələbə bəşəriyyət tarixində bütün qara qüvvələrə, faşizmə qarşı mütərəqqi qüvvələrin qələbəsi idi. Bu qələbə o vaxtlar Sovetlər İttifaqında bir yerdə yaşayan, bir dövlətə mənsub olan bütün xalqların qələbəsi idi. Bu qələbə dünyanın böyük dövlətlərinin faşizmə qarşı yaratdıqları koalisiyanın qələbəsi idi. Bu, böyük qələbədir. Ona görə də 52 ildir [423-424] ki, qələbə bayramı dünyanın bütün mütərəqqi insanları, xalqları tərəfindən qeyd olunur.

Biz Azərbaycanda da bu qələbəni iftixar hissi ilə qeyd edirik. Çünki Azərbaycan xalqı bu qələbənin naminə böyük qurbanlar veribdir. Azərbaycandan 600 minə qədər insan cəbhəyə göndərilib, döyüşlərdə iştirak edibdir. Onların yarısından çoxu canlarını qurban verib, geri qayıtmayıbdır. Azərbaycanın hər bir guşəsində, demək olar, hər bir evdə qələbə uğrunda canını qurban vermiş, həlak olmuş insanların övladları, qohum-əqrəbaları yaşayır.

İkinci dünya müharibəsi, Böyük Vətən müharibəsi zamanı alman faşizminə qarşı vuruşmuş, döyüşmüş Azərbaycan Respublikası nümayəndələrinin qəhrəmanlığı, rəşadəti bizim üçün əzizdir və daim əziz olacaqdır. İkinci dünya müharibəsində, Böyük Vətən müharibəsində həlak olmuş, özlərini qurban vermiş Azərbaycan Respublikası nümayəndələrinin xatirəsi bizim üçün əzizdir, qəlbimizdə əbədi yaşayacaqdır.

Bu gün biz qələbə bayramını Azərbaycanın qəhrəman oğlu, alman faşizminə qarşı müharibədə igidlik nümunələri göstərmiş və qəhrəmancasına həlak olmuş Həzi Aslanovun qəbrinin önündə qeyd edirik və Həzi Aslanovun simasında bütün Azərbaycan xalqının, vətəndaşlarının Böyük Vətən müharibəsində iştirakına hörmət-ehtiramımızı bildirir və o müharibədə Həzi Aslanov kimi özlərini qurban vermiş, həlak olmuş soydaşlarımızın, vətəndaşlarımızın ruhu qarşısında baş əyirik. Onların qəhrəmanlığı, xidmətləri qəlbimizdə daim yaşayacaq, xalqımız, gələcək nəsillər onları heç vaxt unutmayacaqdır.

Böyük Vətən müharibəsində verilən qurbanlar, o cümlədən Azərbaycan xalqının verdiyi qurbanlar və xalqımızın qəhrəman oğullarının göstərdikləri igidlik nümunələri bugünkü gənc nəsil üçün də, gələcək nəsillər üçün də örnəkdir, təcrübə mənbəyidir. Ermənistanın təcavüzü ilə əlaqədar olaraq biz bu gün də torpaqlarımızı qorumaq uğrunda mübarizə aparırıq. 1988-ci ildən Ermənistan tərəfindən Azərbaycana edilmiş hərbi təcavüz nəticəsində bizim torpağımızda müharibə başlamış, qanlar tökülmüş, döyüşlər getmiş, Azərbaycanın övladları ölkəmizin ərazi bütövlüyü, torpaqlarımızın müdafiəsi, [424-425] Azərbaycanın müstəqilliyi, suverenliyi uğrunda canlarını qurban vermiş, şəhid olmuşlar.

Təsadüfi deyil ki, Böyük Vətən müharibəsi zamanı vətənimizi, xalqımızı alman faşizmindən qoruyarkən həlak olmuş Həzi Aslanovun məzarının yanında 1990-cı ildə faciəli yanvar gecəsində Azərbaycana edilən təcavüz nəticəsində özlərini qurban vermiş övladlarımızın məzarları da yerləşir. Onlarla bərabər Azərbaycanın torpaqlarının, ərazisinin, suverenliyinin, müstəqilliyinin qorunması uğrunda erməni qəsbkarlarına qarşı mübarizədə, müharibədə həlak, şəhid olmuş övladlarımızın da məzarları burada yerləşir. Bura artıq müqəddəs ibadətgah, Şəhidlər xiyabanı olubdur. Bura şəhidlərin məzarları ilə doludur. Bunlar bir tərəfdən başımıza gələn faciələri dünyaya nümayiş etdirir, ikinci tərəfdən də xalqımızın nə qədər qəhrəman olduğunu, öz torpağına, millətinə, ana vətəninə sədaqətli olduğunu nümayiş etdirir. Ona görə də bu gün – 9 May günü, qələbə günü biz bütün şəhidlərimizi yad edirik, Azərbaycan xalqının özlərini qurban vermiş qəhrəman oğullarının, övladlarının xatirəsini yad edirik. Allah onlara rəhmət eləsin, onların xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaqdır!

Eyni zamanda bu gün burada, Azərbaycanın, Bakının müqəddəs ibadətgaha çevrilmiş guşəsində biz bir daha bəyan edirik ki, Azərbaycan Respublikasının müstəqilliyi toxunulmazdır, əbədidir.

Biz müstəqil dövlətimizi qoruyub saxlayacağıq, Azərbaycanın işğal olunmuş torpaqlarını azad edəcəyik, ölkəmizin ərazi bütövlüyünü bərpa edəcək, sərhədlərimizin toxunulmazlığını təmin edəcəyik. Suveren, azad Azərbaycan Respublikası müstəqil dövlət kimi bundan sonra əsrlər boyu yaşayacaqdır.

Bu günümüzün və gələcəyimizin də zəmini buradakı qəbirlərdə əbədiyyətə qovuşmuş övladlarımızın qəhrəmanlıq nümunələridir. Onların qəhrəmanlığı, rəşadəti, vətən, xalq, torpaq yolunda özlərini şəhid etməsi bugünkü nəsil və gələcəkdə yaşayacaq hər bir azərbaycanlı üçün örnək olmalıdır. Bugünkü gənclərimiz bu tarixdən dərs almalı, nəticə çıxarmalı, tarix boyu göstərilmiş qəhrəmanlıq nümunələrini özlərinə örnək etməli, onlara bənzəməyə çalışmalıdırlar. Onlar kimi bu gün də, sabah da, hər bir azərbaycanlı övladı, gənci vətən, tor[425-426]paq yolunda, müstəqil Azərbaycan Respublikasının gələcəyi naminə şəhidliyə, özünü qurban verməyə hazır olmalıdır.

Əgər xalqımız qəhrəmanlıq nümunələrini özündə toplayıb, cəmləyib daha da yüksəklərə qaldıra bilməsə, biz torpaqlarımızı azad edə, müstəqil dövlətimizi, respublikamızı qoruya bilmərik. Ancaq tarix boyu Azərbaycan övladlarının vətənə, öz millətinə, dövlətinə, xalqına sədaqət nümunələri, qəhrəmanlıqları və şəhidlik nümunələri onu göstərir ki, xalqımız bu gün də, gələcəkdə də öz torpaqlarını, vətənini qorumağa hazırdır, vətən, torpaq, müstəqillik naminə şəhid olmağa hazırdır.

Bu bayram günü mən öz arzularımı, istəklərimi bütün Azərbaycan xalqına, Azərbaycan gənclərinə çatdıraraq, bir daha onları vətənimizin qəhrəman, igid övladlarının şücaətindən nümunə götürməyə dəvət edirəm.

Əminəm ki, bizim bugünkü nəsil və gələcək nəsillər indiyə qədər yaşamış, yaratmış, qurmuş, mübarizə aparmış, döyüşmüş əcdadlarımızdan, bizdən əvvəlkilərdən daha da qəhrəman, sədaqətli olacaq, öz vətənlərinə, xalqına, müstəqil Azərbaycana canla-başla xidmət edəcəklər. Bunun əsası da ondan ibarətdir ki, indi Azərbaycan müstəqil dövlətdir, Azərbaycan xalqı öz taleyinin sahibidir. İndi biz müstəqil, azad Azərbaycanın vətəndaşlarıyıq, müstəqil Azərbaycan Respublikasını yaşatmalı və gələcək nəsillər üçün töhfə etməliyik. İndi biz müstəqil, azad Azərbaycan Respublikasının suverenliyini, istiqlaliyyətini, ərazi bütövlüyünü qorumalıyıq. Əminəm ki, biz buna nail olacağıq. Bizim tarixi nailiyyətlərimiz, xalqımızın qəhrəmanlıq nümunələri bu qələbə günündə buna əmin olmağa mənə əsas verir. Sizi bayram münasibətilə bir daha təbrik edir, sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

Buraya Böyük Vətən müharibəsinin veteranları toplaşıblar. Bu insanlar həqiqətən çox şərəfli yol keçiblər – döyüşüblər, vuruşublar, qələbənin əldə olunmasına həm cəbhədə, həm də arxada öz xidmətlərini göstəriblər. O illər Azərbaycan üçün cəbhə də çox önəmli olub, amma arxada çalışanların, işləyənlərin də xidməti böyük olubdur. Bu qələbədə Azərbaycanın payı təkcə cəbhədə vuruşanların şücaəti ilə qurtarmır. Bu qələbənin əldə olunmasında Azərbaycan Respublikası zəhmətkeşlərinin, neftçilərinin, bütün Azərbaycan xalqının böyük [426-427] əməyi var. Bu da ondan ibarətdir ki, İkinci dünya müharibəsi, motorlar, tanklar, təyyarələr müharibəsi zamanı bütün Sovetlər İttifaqının həm cəbhədə, həm də arxada neft və neft məhsulları ilə təminatının 70 faizindən çoxu Azərbaycandan gedirdi. Azərbaycan xalqı gecə-gündüz neft hasil edir, neft məhsulları istehsal edir, cəbhəyə, Sovetlər İttifaqının lazım olan bütün yerlərinə göndərirdi. Beləliklə, xalqımız qələbəyə özünün böyük xidmətlərini verirdi, İkinci dünya müharibəsində, o vaxtkı vətəni qorumaqda böyük xidmətlərini göstərirdi.

Tarix bunu heç vaxt unutmayacaqdır. Biz həmişə fəxr etmişik, bu gün də fəxr edirik və gələcək nəsillər də fəxr etməlidir. Tarix bu gün də, gələcəkdə də bilməlidir ki, İkinci dünya müharibəsində, Böyük Vətən müharibəsində Azərbaycan Respublikasının xidməti, fəaliyyəti, rolu çox böyük olubdur. Yenə də deyirəm, həm övladlarımızın cəbhədəki qəhrəmanlığı, həm də neft hasilatı, cəbhəyə lazım olan bütün başqa ləvazimatların istehsalı sahəsində Azərbaycan xalqının xidmətləri misilsiz, əvəzsiz, tarixidir. Ona görə də mən bu gün burada həm müharibə veteranlarını, həm də arxa cəbhədə qəhrəmanlıq göstərənləri, əmək veteranlarını, ələlxüsus neft sahəsində çalışmış veteranlarımızı xüsusi təbrik edirəm. Onlara minnətdarlığımızı, hörmət və ehtiramımızı bildiririk. Mən onlara uzun ömür, can-sağlığı arzu edirəm.

Onlar da bilir və Azərbaycanın bütün ictimaiyyəti, bütün Azərbaycan xalqı da bilməlidir ki, İkinci dünya müharibəsinin, Böyük Vətən müharibəsinin veteranları bizim ən əziz, ən mötəbər insanlarımızdır. Onlara qayğı göstərmək, hörmət etmək, onların bütün problemlərini həll etmək bizim dövlətin və hər bir dövlət orqanının, hər bir namuslu Azərbaycan vətəndaşının borcudur. Ona görə də mən veteranları xüsusi təbrik edirəm. Bir daha sizin hamınıza cansağlığı, uzun ömür arzulayır, bundan sonra özünüzə də, övladlarınıza da, nəvələrinizə, nəticələrinizə də xoşbəxt həyat arzu edirəm.

Hamınızı bir daha təbrik edirəm. Qələbə günü münasibətilə mənim təbriklərimi qəbul edin. Sağ olun. [427-428]

## BAKININ NİZAMİ RAYONUNDA – 8-ci KİLOMETR QƏSƏBƏSİNİN CƏMŞİD NAXÇIVANSKİ KÜÇƏSİNDƏ HEYDƏR ƏLİYEV PARKININ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*10 may 1997-ci il*

Əziz həmvətənlər, əziz bacılar, qardaşlar, əziz övladlar!
Bakı şəhərinin, Nizami rayonunun sakinləri!

Mən sizin hamınızı ürəkdən salamlayır, sizə, bütün Azərbaycan xalqına, Azərbaycan vətəndaşlarına hədsiz hörmət və ehtiramımı, sevgi və məhəbbətimi bildirirəm.

Bizim xalqımız istiqlal bayramı, Azərbaycanın müstəqillik günü olan 28 May bayramı ərəfəsindədir. Azərbaycan xalqı 1991-ci ilin sonunda öz dövlət müstəqilliyini bərpa etdi, milli azadlığını əldə etdi. Müstəqil dövlət doğuldu və altıncı ildir ki, yaşayır. Azərbaycanın dövlət müstəqilliyi yolu çox ağır, çətin, keşməkeşli olubdur.

1991-ci ildən, yəni Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra arxada qalmış illər də çox ağır, çətin, əzab-əziyyətli illər olmuşdur. Xalqımız bu ağır, əzab-əziyyətli illəri yaşayıb, bu gün azad, müstəqil ölkəsində dövlət quruculuğu ilə məşğuldur. Azərbaycanın dövlət müstəqilliyinin əldə edilməsi ağır şəraitdə olubdur: bir tərəfdən Ermənistanın Azərbaycana etdiyi hərbi təcavüz nəticəsində tökülən qanlar, verilən qurbanlar, şəhidlər, ərazimizin bir qisminin işğal olunması, bir milyondan artıq soydaşımızın işğal edilmiş ərazilərdən zorla çıxarılması, qaçqın düşməsi, ikinci tərəfdən Azərbaycanın daxilində olan çəkişmələr, vuruşmalar, cinayətkar dəstələrin, ayrı-ayrı qrupların hakimiyyət uğrunda mübarizəsi və nəhayət, 1993-cü ilin məhz bu ayında, dörd il bundan öncə Azərbaycanda vətəndaş müharibəsinin başlanması. [428-429]

Xalqımız bütün bu əzab-əziyyətlərə, həm xaricdən, həm daxili cinayətkar qüvvələrin hərəkətləri nəticəsində yaranmış ağır, mürəkkəb vəziyyətə dözüb yaşamışdır. 1993-cü ilin may-iyun aylarında Azərbaycan böyük təhlükə qarşısında idi. Ermənistanın təcavüzü Azərbaycana davamlı surətdə böyük zərbələr vurduğu bir zamanda Azərbaycanın daxilində cürbəcür siyasi qruplar, yaxud da qeyri-qanuni silahlı dəstələr bir-biri ilə vuruşmağa, döyüşməyə başladı. Bunların nəticəsində Azərbaycanda qardaş qanı töküldü. Mayın axırı – iyunun əvvəlində vətəndaş müharibəsi başladı. Xarici və daxili düşmənlər Azərbaycanı parçalamağa başladılar.

Azərbaycan böyük fəlakət qarşısında idi.

O vaxtdan dörd il keçir. Bu dörd il müddətində də Azərbaycanın başına böyük bəlalar gəlmişdir. Biz 1993-cü ilin may-iyununda baş vermiş vətəndaş müharibəsinin qarşısını aldıq, ancaq həmin o cəhdləri göstərən qüvvələr yenə də mövcud idi, onlar yenə də öz çirkin niyyətlərini həyata keçirmək istəyir və yenə də qeyri-qanuni, cinayətkar məqsədlər daşıyan hakimiyyət mübarizəsi davanı edirdi.

1994-cü ilin oktyabrında cürbəcür istiqamətlərdən yönəldilən və cürbəcür mənbələrə, qütblərə xidmət edən həmin cinayətkar dəstələr Azərbaycanı yenidən qana bulamağa, dövlət çevrilişi etməyə cəhd göstərdilər. Bunun da qarşısı alındı.

1995-ci ilin martında yenə bu silahlı dəstələrin bir qismi Azərbaycanı dağıtmağa cəhd göstərdi. Onların əsas silahlı dəstələri məhz burada. Nizami rayonunun ərazisində yerləşirdi. Onlar vaxtilə Azərbaycanın dövlət strukturu kimi Bakının Nizami rayonunda özlərinə yer alandan sonra get-gedə cinayətkar dəstəyə çevrildilər və dövlətin bu xüsusi məkanını öz cinayətkar yuvalarına çevirdilər, Azərbaycanda yenidən dövləti devirmək və cinayətkar dəstələri, həm xaricdə, həm daxildə Şimalda, Qərbdə, Cənubda olan ayrı-ayrı qüvvələri guya hakimiyyətə gətirmək istədilər. Amma əslində bunlar hamısı şəxsi cinayətkar məqsədlər daşıyırdı. Biz bunların da qarşısını aldıq. Bundan sonra da Azərbaycana qarşı olan qüvvələr tərəfindən edilən qəsdlərin qarşısı alındı.

Məhz bunların nəticəsində, Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi nəticəsində, ölkədə hüquqi demokratik döv[429-430]lət quruculuğu prosesi sürətləndikdən sonra, Azərbaycanın ilk demokratik konstitusiyası qəbul edildikdən, sərbəst, demokratik parlament seçkiləri keçirildikdən sonra – bu ərəfədə, bu zaman və bundan sonra Azərbaycanda tam ictimai-siyasi sabitlik təmin olundu, bərqərar edildi.

Bütün bu çətinliklərin, təhlükələrin qarşısını biz ona görə ala bildik ki, Azərbaycanda dövlət xalqla bir olmuşdur. Xalq Azərbaycanın qanuni dövlətini, respublikanın qanuni, xalq tərəfindən seçilmiş prezidentini daim dəstəkləmiş, müdafiə etmiş və daim onun arxasında durmuşdur.

1993-cü il iyunun əvvəlində mən xalqın tələbi ilə Bakıya gələrkən, vətəndaş müharibəsinin qarşısını almağa çalışarkən daim xalqa, onun birliyinə, həmrəyliyinə arxalanmışam. Doğrudur, o vaxt, o günlər, o illər xalqı parçalamışdılar, xalqın bir hissəsinin mənəviyyatını pozmuşdular. Ayrı-ayrı dəstələr quruculuq yox, dağıdıcılıq işləri ilə məşğul idilər. Daxili ədavətlər yaranmışdı. Ancaq xalqın mənə göstərdiyi etimad, inam və mənim daim xalqla bir olmağım sayəsində həmin o ildə, 1993-cü ilin iyun-avqust aylarında qısa bir müddətdə xalqı toplaya, cəmləyə bildik və qarşımızda duran çətinliklərin öhdəsindən xalqın hamısının rəyi ilə gələ bildik.

1994-cü ilin oktyabrı daim xatirimdədir. Çünki o vaxt böyük silahlı dəstələrə malik olan cinayətkar qruplar Azərbaycanın qanuni dövlətini devirmək istədilər. Mən onların qarşısına silahla çıxmadım. Xalqa, sizə müraciət etdim və gecə yarısı olmasına baxmayaraq, Bakının bütün guşələrindən, bütün rayonlarından, o cümlədən buradan, bu evlərdən insanlar axışıb Prezident sarayının önünə toplaşdılar. Bir-iki saat müddətində yarım milyon adam oraya gəlib Azərbaycanın dövlətçiliyini, Azərbaycanın prezidentini qorumağa hazır olduğunu bildirdi. Məhz xalqın, əziz bacı və qardaşlar, sizin dəstəyinizlə biz o gecə təhlükəni aradan götürə bildik.

Nəhayət, 1995-ci ilin martında məhz burada, Nizami rayonunda polis bazasında yerləşən o cinayətkar dəstələr ətrafdakı yaşayış evlərinin üzərinə də ağır silahlar çıxarıb, yaxınlıqdakı məktəbi də zəbt edib insanları silahlarla öldürmək, tələf etmək, qan tökmək yoluna düşən zamanda da Azərbaycan dövlətinin qüdrəti, gücü nümayiş etdirildi. Yenə də xalq dövləti, [430-431] Azərbaycanın prezidentini dəstəklədi və biz bunların qarşısını aldıq.

Əziz bacı və qardaşlar, bunların hamısı bax, bugünkü rahat, firavan və sakit günlər üçün lazım idi. Mən bu tarixi anları ona görə yada salıram ki, o günlər, o illər Azərbaycanda belə bir əhval-ruhiyyəni görmək mümkün deyildi, insanlar göz yaşı tökürdü, insanlar inildəyirdi, insanlar nalə çəkirdi, insanlar küçəyə çıxmağa qorxurdu. Əvvəllər yaradılmış evlər, binalar, bağlar, bağçalar, parklar, ağaclar da o cinayətkarlar tərəfindən dağıdılırdı. Çünki cinayətkar üçün heç bir müqəddəs şey yoxdur – vətən də yoxdur, torpaq da yoxdur, ev də yoxdur, ağac da yoxdur, park da yoxdur, bağça da yoxdur, ancaq cinayətkarlıq məqsədi var.

Biz bütün bunların qarşısını alaraq Azərbaycanın hər yerində və xüsusən ölkəmizin paytaxtı Bakıda əmin-amanlıq yaratdıq, rahatlıq yaratdıq, insanlar rahat yaşamağa başladılar. Bunlarla yanaşı, Azərbaycan Respublikasının, dövlətinin apardığı xarici və daxili siyasət nəticəsində, iqtisadi siyasət nəticəsində, həyata keçirdiyi iqtisadi islahatlar nəticəsində, çox ciddi tədbirlər nəticəsində insanların həyat tərzi gündən-günə yaxşılaşır, yaşayışı gündən-günə yaxşılaşır və bundan sonra daha da yaxşılaşacaqdır. Məhz bunların çox parlaq təzahürü də bu gün burada, Nizami rayonunun bu gözəl guşəsində bu gözəl parkın yaranmasıdır.

Bu qədər iş görmüsünüz, bu qədər abadlıq işləri görmüsünüz, bu qədər gözəl ağaclar əkmisiniz, buranı cənnətə çevirmisiniz, fəvvarələr yaratmısınız, uşaqlar üçün oyun yerləri yaratmısınız, gözəl guşələr yaratmısınız, çox sağ olun. Bunların hamısını siz özünüz öz əllərinizlə etmisiniz. Bunların hamısını Azərbaycanda sabitlik, rahatlıq olandan sonra etmək mümkün idi. Bax, biz buna görə vuruşuruq, biz buna görə çalışırıq, biz buna görə Azərbaycanın daxilində olan bütün cinayətkar dəstələrin, qrupların qarşısını alırıq ki, hər bir Azərbaycan vətəndaşı özünü rahat hiss etsin, özünü sərbəst hiss etsin, rahat yaşaya bilsin.

Biz hələ tam rahatlığa çıxmamışıq, çünki Ermənistanın Azərbaycana etdiyi təcavüzdən xilas olmamışıq, Azərbaycan torpaqlarının 20 faizi işğal altındadır, işğal olunmuş ərazilər[431-432]dən bir milyondan artıq soydaşımız, bacı və qardaşlarımız didərgin düşüblər, köçkün vəziyyətində yaşayırlar, çadırlarda yaşayırlar. Bir çoxu bu binalarda, bu yerlərdə sizinlə bərabər yaşayır. Bu gün buraya, bu meydana toplaşmış minlərlə adamın arasında yerindən-yuvasından didərgin düşmüş bacı və qardaşlarımız var, onların övladları, uşaqları var, onlar da buradadırlar. Hamımız bir yerdəyik. Biz hamımız bir yerdəyik. Bizim dərdimiz də birdir, şənliyimiz də, sevincimiz də birdir, xalqımız da birdir.

Ümidvaram ki, biz bu dərddən də qurtaracağıq. İşğal olunmuş torpaqlar azad ediləcək, yerindən-yuvasından didərgin düşmüş bacı və qardaşlarımız öz evinə, elinə-obasına qayıdacaqlar, yenidən həyat qurulacaq. Azərbaycanın ərazi bütövlüyü təmin olunacaq, müstəqil Azərbaycan dövləti öz ərazisinin bütün hissələrinin sahibi olacaqdır. Azərbaycanın dövlət müstəqilliyi yaşayacaq, gündən-günə möhkəmlənəcək və görülən tədbirlər, aparılan strateji siyasət, görülən işlər, əziz bacı və qardaşlar, sizin, bütün Azərbaycan vətəndaşlarının rifah halını gündən-günə yaxşılaşdıracaqdır. Mən Azərbaycanın gözəl gələcəyinə inanıram və xalqımızın gələcəkdə firavan yaşayacağına inanıram, mən bunun üçün çalışıram, bütün həyatımı, bütün biliyimi, zəkamı, varlığımı sərf edirəm və bundan sonra da sərf edəcəyəm.

Qurmaq, yaratmaq, hər yeri abadlaşdırmaq, yaşıllaşdırmaq, gül-çiçəklə bəzəmək, çiçəkli bağlar salmaq bizim xalqımızın qədim ənənəsidir. Xalqımız harada yaşayıbsa, harada özünə məskən qurubsa daim oranı bəzəməyə çalışıb, oranı gözəlləşdirməyə çalışıb, oranın təbiətini daha da gözəl etməyə çalışıbdır. Bakı gözəl şəhərdir. Bizim əcdadlarımız, Bakıda əsrlər boyu yaşamış insanlar gözəl şəhər yaradıblar, qurublar və bugünkü nəsillərə, gələcək nəsillərə bəxş ediblər. Biz indiyə qədər Bakını qurub-yaradanlara daim minnətdar olmalıyıq. Çünki məhz onların yaratdığı bu gözəl şəhərdə siz, biz, hamımız bir yerdə yaşayırıq və gələcək nəsillərimiz də yaşayacaqlar.

Bildiyiniz kimi, bu sahədə 70-ci illərdə də biz çox iş görmüşük. Həmin bu Nizami rayonu, buradakı binalar, keçmişdə – 50-ci illərin axırlarında, 60-cı illərin əvvəllərində 8-ci Kilometr adlanan bir yer indi böyük bir şəhərə çevrilibdir. 70-ci illərin əvvəlləri mənim xatirimdədir. O vaxt burada tələm-tələsik tikilmiş binalarda yaşamaq üçün lazımi şərait yox idi. Elektrik enerjisi çatmırdı, su çatmırdı, başqa məişət xidmətləri üçün lazımi vasitələr çatmırdı. Mən buradan çox şikayətlər alırdım. Mən dəfələrlə buraya, 8-[432-433]ci Kilometr qəsəbəsinə, indiki Nizami rayonuna gəlmişəm, bu yerlərə baxmışam, görmüşəm və bu yerləri abadlaşdırmaq, yeni-yeni binalar ucaltmaq və buralarda ağaclar əkmək, bağçalar salmaq mənim məqsədim olub, vəzifəm olub. Mən bunları ardıcıl

surətdə, aybaay, ilbəil həyata keçirməyə çalışmışam. Xoşbəxtəm ki, indi Bakının bu hissəsi gözəl bir guşəyə çevrilibdir, burada gözəl evlər, gözəl şərait yaranıbdır.

Xatirimdədir, burada yaşayan insanlara nəqliyyat xidməti çox çətin idi. Mən buraya sürətlə metropoliten xətti çəkilməsi ilə məşğul oldum. Xatirimdədir və burada iştirak edənlərin bəziləri də o vaxt bizimlə bərabər idilər, - biz buraya gələn metro xəttinin stansiyasını böyük bir bayram kimi, böyük təntənə ilə açdıq. Yeni böyük binalar tikməyə başladıq, ağaclar əkməyə başladıq.

Bakıda şəhərin yaşıllaşdırılması problemi, burada ağac əkilməsi problemi mənim üçün ən əsas problemlərdən biri olubdur. Çünki bildiyiniz kimi keçmiş zamanlarda Bakıda su çatışmadığına görə, şəhərin sərt iqlimi və xüsusən xəzri küləyi ağacların inkişaf etməsi üçün çətinliklər yaratdığına görə Bakıda ağac, yaşıllıq çox az idi. 1970-ci ildə mən ilk dəfə Bakıda yaşıllıq işləri aparılması təklifini irəli sürdüm, böyük bir proqram hazırladıq və Bakını sürətlə, ilbəil yaşıllaşdırmağa başladıq.

Bəli, o vaxtlar mən bu məsələni ümumxalq vəzifəsi kimi qaldırdım. Dövlətin gördüyü işlər bir tərəfə, amma mən xalqa müraciət etdim. Müraciət edib dedim ki, hər bir Bakı sakini iki ağac əkib becərməli və böyütməlidir. Xalq bunu çox məmnuniyyətlə qəbul etdi. Qısa müddətdə hamı bu çağırışa qoşuldu və biz Bakıda yaşıllıq işlərinə başladıq. Çox ağaclar əkdik. Bax, buradan görünən o böyük ağaclar da o vaxt əkilən ağaclardır. Tək burada yox, Bakının bütün guşələrində, hər yerində ağaclar əkildi. Mən Bakıda çox binalar tikilməsinin, qu[433-434]rulmasının, fabriklər, zavodlar, mədəniyyət ocaqları, xəstəxanalar, məktəblər, saraylar tikilməsinin təşəbbüskarı olmuşam, rəhbərlik etmişəm.

Mən bunlar üçün fəxr edirəm. Ancaq bunların arasında ən çox fəxr etdiyim odur ki, mən Bakının geniş mənada yaşıllaşdırılmasının bünövrəsini qoymuşam. Uzun illər, yəni 70-ci ildən indiyə qədər bu proqramın həyata keçirilməsinə nail olmuşam. İndi Bakıya gələn xarici qonaqlar Bakını yaşıl şəhər və gözəl bağlar şəhəri kimi görürlər. Əgər onlar 30 il, 40 il bundan əvvəl Bakıya gəlsə idilər, o vaxt tamam başqa bir mənzərə ilə rastlaşardılar.

Xatirinizdədir, rus yazıçısı Maksim Qorkinin də, Mayakovskinin də belə ifadələri var idi ki, "Əsrin əvvəllərində Bakıda cəmisi iki-üç ağac görmüşdüm". Amma indi, XX əsrin sonunda Bakı bağ-bağça, yaşıllıq şəhəri olubdur. Doğrudur, mən Azərbaycandan gedəndən sonra və xüsusən 1987-1988-ci illərdə çox nadan adamların respublikamıza rəhbərlik etdikləri dövrdə, bundan sonra Azərbaycanda, o cümlədən Bakıda hərc-mərclik, özbaşınalıq hökm sürdüyü bir zamanda, cinayətkar adamların, dəstələrin böyük vəzifələr tutduğu, hakimiyyətə gəldikləri dövrdə Azərbaycan, Bakı üçün əziz olan bu sahə nəinki unuduldu, hətta bizim böyük əziyyətlərlə əkdiyimiz, becərdiyimiz, boya-başa gətirdiyimiz ağacları kəsməyə başladılar.

Mən 1993-cü ildə Bakıya gələrkən bizim əkdiyimiz, becərdiyimiz bəzi ağacların kəsildiyini görərkən elə bildim ki, mənim bədənimin bir hissəsini kəsiblər, elə bildim məni yaralayıblar. Mən dəfələrlə demişəm, bir də deyirəm – kim hansı bir sağlam ağacı kəsirsə, hesab edin ki, o, mənim qolumu, barmaqlarımı kəsir. Bundan artıq cinayət ola bilməz. İnsan qurmalıdır. yaratmalıdır. Bakı kimi şəhərdə hər bir insan ağac əkməlidir, becərməlidir, böyütməlidir, – əgər kimsə sağlam ağacı kəsirsə, o, nəinki xalqına, millətinə, ölkəsinə xəyanət edir; o, öz ailəsinə, özü-özünə xəyanət edir.

Mən bu gün bu sözləri ona görə deyirəm ki, gələcəkdə bu sahədə görüləcək işlər çoxdur. Mən istərdim ki, 1970-ci illərdə Bakı əhalisi arasında yaranmış bu ənənə indi yeni bir vüsət alsın, inkişaf etsin və Bakı daha da yaşıl olsun, park, meşə, bağ [434-435] şəhərinə çevrilsin. Bunlar hamısı Bakının iqlimini yaxşılaşdıracaq, burada yaşayan insanların sağlamlığına müsbət təsir göstərəcəkdir. Bakını gözəlləşdirəcək, yeni-yeni nəsillərin sağlam yetişməsinə kömək edəcəkdir. Bunun böyük ekoloji, mənəvi, tibbi əhəmiyyəti vardır. Bunu dərk etmək lazımdır.

1970-ci illərdə bu məsələlərlə məşğul olmağa başlayarkən mən sadə bir iş görmürdüm. Bunun böyük mənası olduğuna görə bu işə başlamışdım. Mən indi bu işi davam etdirirəm. Bakı şəhər icra hakimiyyətinin son illər gördüyü işləri mən bu baxımdan müsbət qiymətləndirirəm, təqdirəlayiq hesab edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, siz bu işləri bundan sonra da davam etdirəcəksiniz.

Görülən bu işlərin çərçivəsində bu gün burada – Nizami rayonunun bu gözəl (indi gözəl olan, indiyədək gözəl deyildi) guşəsini bu qədər gözəlləşdirdiyinizə görə, burada minlərlə ağac, gül-çiçək əkdiyinizə görə və apardığınız abadlıq işinə, gözəl bir park, bağça, fəvvarələr yaratdığınıza görə, ətrafda yaşayan insanlar üçün yaxşı bir istirahət yeri yaratdığınıza görə mən sizə – Bakı şəhər icra hakimiyyətinin başçısı Rəfael Allahverdiyevə, şəhər icra hakimiyyətinə, Nizami rayon icra hakimiyyətinə və onun başçısına təşəkkür edirəm. Bu sahədə çalışan bütün insanlara təşəkkür edirəm. Şəhərini, evini, obasını sevib ona bu cür qayğı göstərən insanlara, sizə təşəkkür edirəm. Sağ olun.

Həddindən artıq gözəl bir guşə alınıbdır. Mənə deyirlər ki, axşamlar buraya minlərlə insan gəlir, istirahət edir, bir-biri ilə görüşürlər. Uşaqlar burada əylənirlər, oynayırlar. Bu hələ işin başlanğıcıdır. Ümidvaram ki, siz buranı daha da gözəlləşdirəcəksiniz, buranın yaşıllığını, gül-çiçəklərini daha da zənginləşdirəcəksiniz, bu parkın gözəlliyinin pozulmasına yol verməyəcəksiniz.

Bilirsiniz, 1988-1989-cu illərdə Bakıda pozuculuq işləri başlandı. İndi hamı görür və siz də görürsünüz ki, qurmaq, yaratmaq çətindir, amma çox şərəflidir. Mən 1969-cu ildən Azərbaycana rəhbərlik edəndə qurub–yaratdıqlarıma görə daim fəxr edirəm. Pozmaq, dağıtmaq asandır. Amma o, heç kəsə şərəf gətirmir. Əksinə,

lənət, hiddət gətirir. O, insanlarda [435-436] nifrət doğurur. Ona görə də o illərdən nəticə çıxarmaq lazımdır. Nəticə də ondan ibarətdir ki, qurmaq, yaratmaq lazımdır.

İndi həyatımızda iqtisadi çətinliklər çoxdur. Maliyyə çətinlikləri də vardır. Amma görün, belə bir çətin vəziyyətdə, belə maliyyə çətinlikləri olduğu bir zamanda nə qədər iş görmək, qurmaq, nə qədər yaratmaq olar! Əgər bunu yaradanlar da oturub gözləsəydilər ki, bu parkı salmaq üçün kimsə bizə bundan beş qat artıq maliyyə yardımı, para, daş, başqa şeylər verməlidir, bunu yarada bilməzdiniz. Amma özünüz öz əllərinizlə, imkanlarınızla, heç kəsdən də maliyyə yardımı almadan bunu yaratmısınız. Bu, əsrlərlə qalacaqdır.

Ona görə də mən istəyirəm ki, hər kəs o illərin təcrübəsindən özü üçün nəticə çıxarsın. Qurub – yaradan adamlara eşq olsun! Xalq da, gələcək nəsillər də onlara minnətdar olacaqdır. Dağıdan, pozan adamlar nifrətlə qarşılanıblar, bundan sonra da nifrətlə qarşılanacaqlar. Onlar bu gün də lənətlənir, sabah da lənətlənəcəklər. Ona görə də qurmaq, yaratmaq lazımdır. Amma bilin, dağıtmağa heç kəsə imkan vermək olmaz.

Xatirimdədir, vaxtilə – 1960-cı illərdə mənim yaşadığım evin həyətində balaca bir qaraj düzəldilmişdi. Həmin qaraja avtomobilin girməsi üçün bir ağac mane olurdu. Bəzən mən də həyətə çıxırdım. Bir adam gəlib həmin ağacı kəsmək istəyirdi. Həyətimizdə olan adamların hamısı toplaşıb bir-iki dəfə gəlib dedilər ki, bu ağacı kəssən biz səni buradan çıxaracağıq. Bu hadisə 1960-cı illərin ortalarında olubdur. Mən bu işə çox kəskin münasibət göstərdim. Onda mən şübhəsiz ki, respublikanın başçısı vəzifəsində deyildim, o həyətdə yaşayan sadə bir adam idim. Qaraj sahibinə nə qədər çətin olsa da, biz onu bu ağacı kəsməyə, çıxarmağa qoymadıq. Biz o həyətdə bir ağacdan ötrü mübarizə apardıq.

Ona görə də siz hər bir ağacı qorumalısınız, hər bir ağacın qorunması uğrunda mübarizə aparmalısınız. Əgər kimsə, hər hansı bir adamsa – ya pulu çoxdur, yaxud vəzifəsi böyükdür, qolu zorbadır – gəlib ağacı kəsirsə, qorxmayın, çəkinməyin, siz ondan güclüsünüz. Sizin gücünüz onun pulundan da, vəzifəsindən də, qolundan da güclüdür. Çünki siz təbiəti qoruyanlarsınız. Mən istəyirəm ki, siz hamınız təbiəti qoruyanlar ola[436-437]sınız.

Təbiətə zərər vuranlar, ağac kəsənlər, təbiəti çirkləndirənlər, korlayanlar cəmiyyətimizin, hamımızın düşmənidir. Ona görə də qurub-yaradın. Ümidvaram ki, siz bu parkı daha da gözəlləşdirəcəksiniz. Ümidvaram ki, bax, buradakı təcrübə Bakının başqa guşələrində də yayılacaqdır.

Doğrudur, siz tək deyilsiniz. Bakının başqa rayonlarında da belə abadlıq işləri görənlər vardır. Mən bu gün demək istəyirəm ki, bəzi rayonlarda bu işlər çox böyük sürətlə gedir, ancaq bəzi rayonlarda bu işlər zəifdir, yaxud heç getmir.

Mən 1970-ci ildə yaşıllıq salınması işinə başladım. O vaxt rayonlar arasında yaşıllıq salınması barədə yarış keçirilməyə başlandı. O çox gözəl nəticələr verdi. Mən indi də Bakının rayonlarını yarışa – abadlıq işinə, qurub-yaratmaq, yaşıllaşdırma, ağac əkmək işində yarışa dəvət edirəm. Mən istərdim ki, sizin bugünkü nümunənizdən hər kəs özü üçün nəticə çıxarsın və bu nümunə başqa rayonlarda da yayılsın.

Nizami rayonu böyük rayondur. Şübhəsiz ki, siz rayonun başqa yerlərində də bu işləri görəcəksiniz. Mən buna əminəm.

Bu gün buraya toplaşanlar və buraya gələrkən yolboyu toplaşan bacı və qardaşlarım, uşaqlar, gənclər doğum günü münasibətilə məni təbrik edirlər. Mən sizə təşəkkür edirəm. Mən sizin hamınıza minnətdaram. Təbriklərinizə görə sizə ən dərin minnətdarlığımı, təşəkkürümü bildirirəm.

Mən yaşayıram və görürsünüz ki, gecə-gündüz çalışıram. Məni yaşadan da, bu qədər əzmlə çalışmağıma imkan verən də həmişə xalqın etimadı olubdur. Xalqın etimadı, dayağı, xalqın mənimlə bir olması həmişə mənə ilham, güc veribdir, məni daim belə gərgin, qaynar, qızğın fəaliyyətdə olmağa sövq edibdir. Mən təbriklərinizə görə sizə təşəkkür edirəm. Sizi əmin edirəm ki, bundan sonra da mən xalqa, millətə, müstəqil Azərbaycan Respublikasına xidmət etməyi, sizə, əziz bacılar və qardaşlar, xidmət etməyi özümün ən şərəfli vəzifəm, ən ali məqsədim hesab edirəm. Əmin olun ki, mən bu şərəfli vəzifəni yerinə yetirməyə daim çalışacağam. Sağ olun. [437-438]

**İRAN İSLAM RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**ƏLİ ƏKBƏR HAŞİMİ-RƏFSƏNCANİ**
**CƏNABLARINA**

Hörmətli cənab prezident!

İranda zəlzələ nəticəsində böyük dağıntılar və çoxsaylı insan tələfatı olması xəbəri məni dərindən kədərləndirdi.

Həlak olanların qohum – əqrəbalarına və bütün İran xalqına dərin hüznlə başsağlığı verirəm.

Allah-təaladan ölənlərə rəhmət, xalqınıza səbir diləyirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 11 may 1997-ci il* [438-439]

## İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ (İƏT; EKO) ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ NÖVBƏDƏNKƏNAR AŞQABAT ZİRVƏ GÖRÜŞÜNƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ

*13 may 1997-ci il*

Bu növbədənkənar toplantıdır, əsasən nəqliyyat, kommunikasiya məsələlərinə həsr olunubdur. Xüsusi bəyannamə – Aşqabat Bəyannaməsi hazırlanıbdır və mən hesab edirəm ki, bu, çox əhəmiyyətlidir. Şübhəsiz ki, əvvəlki görüşlərdə də çox iş görülübdür. Ancaq bu bəyannamədə İƏT regionundan, ona daxil olan ölkələrdən həm Şərqə, Qərbə, həm də Şimala, Cənuba gedən bütün nəqliyyat, kommunikasiya vasitələrinin yaranması, tikilməsi və bununla da iqtisadi əlaqələrin inkişaf etdirilməsi məsələsi müzakirə olunacaqdır. Hesab edirəm ki, bu, çox əhəmiyyətlidir. Çünki İqtisadi Əməkdaşlıq Təşkilatının əsas vəzifəsi iqtisadi əlaqələri inkişaf etdirməkdir. Bunu inkişaf etdirmək üçün, şübhəsiz, nəqliyyat, kommunikasiya çox böyük rol oynayır. Ona görə də mən bunu əhəmiyyətli hesab edir və oraya gedirəm.

**Sual: Ermənistan-Azərbaycan münaqişəsində üç il sürən atəşkəs rejimi dövründə aparılan sülh danışıqlarının Ermənistanın günahı ucbatından lazımi nəticə verməməsi davam edərsə, yenidən müharibə təzahürü özünü göstərə bilərmi?**

**Cavab:** Bu gün mayın 13-dür. Üç il tamam olubdur ki, Ermənistan ilə Azərbaycan arasında atəşkəs mövcuddur. Bu üç il müddətində atəşkəsin saxlanması, qorunması və atəşin yenidən başlanmasına imkan verilməməsi, hesab edirəm ki, böyük [439-440] nailiyyətdir. Bu, həm Azərbaycan tərəfinin, həm də Ermənistan tərəfinin məsələnin həqiqətən sülh yolu ilə həllinə həm meyllərini, cəhdlərini, həm də arzularını göstərir. Ona görə də mən bu gün fürsətdən istifadə edərək, birinci növbədə, üç il müddətində atəşkəsin saxlanmasına çox yüksək qiymət verir, eyni zamanda bəyan edirəm ki, Azərbaycan tərəfi bundan sonra da atəşkəsi qoruyub saxlayacaq və böyük sülh müqaviləsi əldə edilənə qədər buna sadiq olacağıq.

O ki qaldı danışıqların aparılmasına, indi danışıq prosesi başlanıbdır. Bu gün, ya sabah Vaşinqtonda Minsk qrupunun Fransa, Rusiya, Amerika Birləşmiş Ştatlarından olan sədrləri görüşürlər. Özü də görüşlər yüksək səviyyədə keçəcəkdir. Bundan əvvəl bizimlə də, başqa tərəflərlə də görüşlər aparıblar. Güman edirəm ki, onlar orada bir yeni addım ata biləcəklər. Ona görə də mən hesab etmirəm ki, bundan sonra atəş başlaya, atəşkəs pozula bilər. Doğrudur, Ermənistanla sərhədlərdə və xüsusən son vaxtlar, təəssüf olsun ki, Qazax-Tovuz bölgəsində Ermənistan tərəfdən atəş açırlar. Mən buna atəşkəsi pozmaq demək istəmirəm, bir – iki saat atəş açırlar. Şübhəsiz ki, bizimkilər də bununla əlaqədar lazımi tədbirlər görürlər. Bəzən tələfat da olub, ancaq mən bunları atəşkəsin pozulması kimi qiymətləndirmirəm, sadəcə sərhəd hadisəsidir. Təsəvvür edin, heç bir yerdə, heç bir bölgədə, dünyada belə şey olmayıb ki, bir-biri ilə neçə illər müharibə aparan iki qüvvə üz-üzə durmuş olsun, ortada heç bir ayırıcı, yaxud da vasitəçi, xüsusi qoruyucu qüvvə olmadan atəşkəsi saxlaya bilsin. Bunun özü böyük hadisə, yəni nailiyyətdir. Belə bir nailiyyət əldə olunduğu zaman orada-burada yarım saat, bir saat, özü də kiçik silahlardan atəş açılmasını o qədər də təhlükəli hal hesab etmirəm. Baxmayaraq ki, bunun özü bizi narahat edir və hər dəfə bunların qarşısını almağa çalışırıq və ala da bilirik.

Mənim narahatçılığım yoxdur ki, atəş yenidən başlaya bilər, əksinə, hesab edirəm ki, 1997-ci ildə sülhün əldə olunması üçün dəyərli addımlar ata bilərik. Bilirsiniz ki, mən mayın 10-da Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Bill Klintondan böyük məktub almışam. Məktubda birinci növbədə məni Amerika Birləşmiş Ştatlarına dəvət edirlər. Mən bu dəvəti qəbul etmişəm, gedəcəyəm. İkincisi də Adi Silahlı [440-441] Qüvvələr haqqında Müqaviləyə yenidən baxılması prosesi gedir. Cinah qərarı ilə əlaqədar prezident Bill Klinton bir daha bizə müraciət edib ki, öz mövqeyimizi müəyyən qədər ümumi istəyə uyğun edək. Burada bizim mövqeyimiz çox prinsipialdır, indiyə qədər də prinsipial olubdur. Mən dünən cənab Bill Klintona cavab məktubu göndərmişəm, bizim fikirlərimizi, mülahizələrimi də bildirmişəm. Beləliklə, qarşıda həmin görüş də var. Güman edirəm ki, belə bir vəziyyətdə atəşkəs pozulmamalıdır və biz çalışacağıq ki, pozulmasın. [441-442]

## AŞQABAT ZİRVƏ GÖRÜŞÜNDƏ NİTQ

*13 may 1997-ci il*

Hörmətli cənab sədr!
Zati-aliləri!

Qonaqpərvərliyə görə və İqtisadi Əməkdaşlıq Təşkilatının növbədənkənar zirvə toplantısının gözəl Aşqabat şəhərində yaxşı hazırlandığına görə Türkmənistan rəhbərliyinə minnətdarlığımı bildirirəm.

Hörmətli Saparmurad Niyazov, sizi görüşümüzün sədri seçilməyiniz münasibətilə təbrik edirəm.

Ümidvaram ki, bizim zirvə toplantısı sülh, sabitlik və xalqlarımızın tərəqqisi naminə EKO bölgəsində səmərəli iqtisadi əməkdaşlığın dərinləşməsi və genişlənməsi yolunda mühüm addım olacaqdır.

Hörmətli cənablar!

Görüşümüz nəqliyyat, kommunikasiya və energetika sahəsində layihələrin müzakirəsinə həsr edilmişdir.

Bizim çox böyük təbii ehtiyatlarımızın olması, Avropa ilə Asiyanın, Şimal və Cənubun qovuşuğunda əlverişli coğrafi mövqeyimiz bu sahədə uğurlu əməkdaşlıq üçün bölgəmizin enerji ehtiyatlarının, malların və yüklərin nəql edilməsinin etibarlı və səmərəli sistemləri zonasına çevrilməsi üçün əlverişli şərait yaradır.

Nəqliyyat və kommunikasiyalar sahəsində əməkdaşlığı inkişaf etdirmək ideyası EKO-nun əsas sənədinin – İzmir müqaviləsinin başlıca ideyalarından biridir. Bu sənəddə sabit iqtisadi yüksəlişin və EKO-nun üzvü olan ölkələr arasında səmərəli iqtisadi əməkdaşlığın təmin edilməsi üçün bu sektorun həyati əhəmiyyətə malik olduğu nəzərə çarpdırılır. [442-443]

EKO bölgəsinin nəqliyyat-kommunikasiya infrastrukturlarını onun iqtisadi inkişafının potensial imkanlarına və dünya standartlarına uyğunlaşdırmaq vaxtı gəlib çatmışdır.

Şərq-Qərb və Şimal-Cənub dəhlizləri yaradılması yolu ilə müasir Avroasiya tranzit nəqliyyat şəbəkəsinin təşkili əməkdaşlığın bu istiqamətində perspektivlidir.

Dəmiryol nəqliyyatının fəaliyyətini əlaqələndirmək haqqında və tranzit daşımaları sahəsində əməkdaşlıq haqqında Sərəxsdə dördtərəfli saziş imzalamış olan Özbəkistan, Türkmənistan, Azərbaycan və Gürcüstan bu istiqamətdə ilk addım atmışlar. Yeni Transqafqaz nəqliyyat dəhlizi uğurla sınaqdan çıxarılmışdır və Avropa ilə Asiya arasında yük daşınmasını təmin edir. Bir sıra digər ölkələr – Qırğızıstan, Qazaxıstan, Ukrayna, Moldova, Bolqarıstan və başqaları bu sazişə qoşulmaq istədiklərini bildirmişlər.

Bu layihənin tam həcmdə həyata keçirilməsi üçün beynəlxalq maliyyə təsisatları, beynəlxalq təşkilatlar və ən əvvəl, Avropa Birliyi həlledici yardım göstərə bilərlər. Orta Asiya və Zaqafqaziya ölkələrinin imkanları və maraqları nəzərə alınmaqla onlar üçün TRASEKA regional proqramlarının işlənib-hazırlanmasına Avropa Birliyinin göstərdiyi yardım xüsusilə nəzərə çarpır.

Yaradılmaqda olan Avroasiya dəhlizi infrastrukturunun əsas pillələri Xəzər dənizinin və Qara dənizin limanlarıdır, habelə mövcud dəmiryol və avtomobil magistrallarıdır.

Sərəxs sazişi və TRASEKA proqramları EKO bölgəsində gəmiçilikdən və liman təsərrüfatından səmərəli istifadə üçün yaxşı zəmin yaradır, çünki yüklər dəniz bərəsi ilə Türkmənbaşı – Bakı istiqamətində daşınır.

Artıq bu gün Bakı limanı nəqliyyatın Şərq-Qərb və Şimal-Cənub istiqamətlərində bölüşdürülməsi qovşağının funksiyasını yerinə yetirmək iqtidarındadır və Xəzər hövzəsindəki bütün limanlar arasında ən güclü və yüksək texniki təchizata malik limandır. Onun imkanları İranın Ənzəli və Noşəhr limanlarına, habelə Türkmənbaşı, Mahaçqala, Həştərxan və Aktauya gedən yüklərin vurulması və boşaldılması işlərini tamamilə təmin etməyə şərait yaradır. [443-444]

Bakı limanının və Xəzərdəki digər limanların inkişaf etdirilməsi işləri onlara ticarət-kommersiya mərkəzləri funksiyaları verilməsi yolu ilə həyata keçirilməlidir. Bununla əlaqədar iri proqramlara ehtiyac yaranır. Elə proqramlara ki, mövcud infrastrukturu beynəlxalq standartlara yaxınlaşdırmaq məqsədilə burada həm dəmiryolunun, avtomobil magistrallarının ayrı-ayrı qovşaqlarının, həm də liman təsərrüfatının yenidən qurulması, modernləşdirilməsi və inşası nəzərdə tutulsun.

Bu dediklərimi nəzərə alaraq, bütün əlaqədar tərəflərin iştirakı ilə Avroasiya dəhlizi ölkələri nəqliyyat nazirlərinin daimi konfransını təsis etmək, zənnimcə məqsədəuyğun olardı. Bu isə Avroasiya nəqliyyat dəhlizinin lazımınca fəaliyyət göstərməsi məsələlərini operativ həll etməyə və həmin istiqamətdə əməkdaşlıq proqramlarının işlənib hazırlanmasına vahid mövqedən yanaşmağa imkan verərdi.

Xəzər dənizinin Azərbaycan sektorunda və digər Xəzəryanı dövlətlərdə zəngin neft-qaz yataqlarının işlənməyə başlanması ilə əlaqədar bu ölkələrdən Azərbaycan ərazisi ilə keçib Aralıq dənizi və Qara dəniz limanlarına çıxacaq neft-qaz kəmərləri çəkilməsi haqqında danışıqlar aparılır.

Azərbaycanın dəmiryol və suüstü vasitələrindən, boru kəmərlərindən istifadə olunması nəzərdə tutulan bir çox variantlar müzakirə edilir. Bu isə əslində Avroasiya nəqliyyat dəhlizinin ən mühüm elementlərindən birinin işə salınması deməkdir. Zənnimcə, Türkmənistandan Xəzər vasitəsilə Azərbaycana, buradan isə Türkiyəyə qaz

kəməri çəkilməsi çox səmərəli layihədir. Biz qısa müddətdə bu layihənin nəzərdən keçirilməsini və onun əməli surətdə reallaşdırılmasına başlanmasını zəruri hesab edirik.

Biz Qazaxıstanın "Tengiz" yatağından enerji ehtiyatlarını Xəzər dənizi vasitəsilə və Azərbaycan ərazisi ilə Türkiyəyə nəql etmək təkliflərinə böyük əhəmiyyət veririk. Bu məsələ Qazaxıstan prezidenti hörmətli Nursultan Nazarbayevlə müzakirələrimizin mövzusu olmuşdur və mən onun işlənib təkmilləşdirilməsini və əməli qərarlar qəbul edilməsini lazım bilirəm. [444-445]

Hörmətli cənablar!

Bizim zirvə toplantısının işi sübut edir ki, EKO bölgəsində vahid kommunikasiya məkanı yaradılmasının yeni, mühüm mərhələsi başlanmışdır.

Mən Aşqabat Bəyannaməsini hazırlamış olan işçi qrupuna öz ehtiramımı və təşəkkürümü bildirirəm. Bu bəyannamə bölgəmizdə müasir, yüksək səmərəli nəqliyyat-kommunikasiya sistemi yaradılması və onun ümumdünya sistemləri ilə birləşdirilməsi sahəsində planlı, əməli işin yaxşı bünövrəsini qoyur.

Əminəm ki, bu gün qəbul olunan bəyannamədə əksini tapan layihələrin həyata keçirilməsi EKO ölkələrinin qarşılıqlı surətdə faydalı əməkdaşlığına və nəticə etibarı ilə sabit sülhün və ölkələrimizin, xalqlarımızın tərəqqisinin təmin olunmasına kömək edəcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm. [445-446]

## NORVEÇ KRALLIĞININ MİLLİ BAYRAMI – KONSTİTUSİYA GÜNÜ MÜNASİBƏTİLƏ NORVEÇİN AZƏRBAYCANDAKI SƏFİRLİYİNDƏ RƏSMİ QƏBULDA ÇIXIŞ

*"Hyatt Recensi-Naxçıvan" mehmanxanası*

*19 may 1997-ci il*

Hörmətli cənab səfir!

Hörmətli xanımlar və cənablar!

Mən sizi Norveç Krallığının milli bayramı – Konstitusiya günü münasibətilə təbrik edirəm, Norveç xalqına xoşbəxtlik, səadət arzulayıram.

1814-cü ildə qəbul olunmuş Konstitusiya ölkənin ondan sonrakı dövrdə müvəffəqiyyətli inkişafı üçün Norveç xalqının həyatında, onun tarixində çox yaxşı əsas yaradıbdır və ona görə də təbiidir ki, bu gün Norveç xalqının milli bayramı kimi qeyd olunur.

Biz Norveç xalqının, Norveç dövlətinin keçdiyi bu şərəfli yolu yüksək qiymətləndiririk və əldə etdikləri nailiyyətlər münasibətilə norveçliləri təbrik edirik.

Norveç xalqının, Norveç dövlətinin ən böyük nailiyyəti öz ölkəsində demokratik prinsiplərin yaranması və sürətlə inkişaf etməsi, Dünya Birliyində demokratik bir ölkə kimi nümunə olmasıdır. Mən bu gün Norveç xalqının, Norveç hökumətinin bu nailiyyətlərinə Azərbaycan xalqının hörmət və ehtiramını bildirirəm.

Hörmətli səfir qeyd etdi ki, bizim xalqlarımız, millətlərimiz gəncdir. Mən bununla bir o qədər də razı ola bilmərəm. Bizim millətlərimiz çox qədim tarixə malikdir. Ancaq dövlətlərimiz gəncdir və xüsusən Azərbaycan bir müstəqil dövlət kimi gəncdir. Bayramını qeyd etdiyimiz Norveç xalqı da Konstitu[446-447]siya qəbul etdikdən sonra tarixi nöqteyi-nəzərdən qısa bir zamanda böyük nailiyyətlər əldə edibdir. Azərbaycan xalqı da öz dövlət müstəqilliyini əldə etdikdən sonra hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolunda çox uğurlu addımlar atıbdır. Bunlar bizim ölkələrimizi, xalqlarımızı, dövlətlərimizi bir-birinə bağlayan cəhətlərdir.

Eyni zamanda son illər Norveçlə Azərbaycan arasındakı əlaqələr iqtisadi əməkdaşlıq sahəsində görülən işlər nəticəsində çox sürətlə inkişaf edibdir. Mən bu bayram günü əməkdaşlığımızın səmərəli olduğunu bəyan etmək istəyirəm. Norveçin "Statoyl" şirkəti bu barədə çox işlər görüb. Onun Azərbaycan Dövlət Neft Şirkəti ilə və ümumiyyətlə Azərbaycan hökuməti, dövləti ilə gördüyü işləri yüksək qiymətləndirirəm. Ancaq "Statoyl"la yanaşı, Azərbaycanda Norveçin onlarca başqa şirkətləri fəaliyyət göstərməkdədir. Bu, sevindirici haldır. Bu əməkdaşlığın gələcəkdə də uğurlu olacağına inanırıq.

Azərbaycan qədim neft ölkəsidir. Ancaq Norveç neft ölkəsi kimi gəncdir. Lakin gənc olmasına baxmayaraq neft istehsalı sahəsində, xüsusən dənizdən, onun dərin yerlərindən neft hasil edilməsi sahəsində Norveç çox böyük nailiyyətlər əldə edibdir. Bu münasibətlə mən keçən il Norveçə rəsmi ziyarətimi böyük məmnuniyyətlə xatırlayıram və Norveç neft sənayesinin, xüsusən Stavangerdə "Statoyl" şirkətinin gördüyü işlərin Norveç üçün, ümumiyyətlə dünya neft texnologiyası üçün nə qədər əhəmiyyətli olduğunu xüsusi qeyd edirəm.

Keçən il mən Norveçdə səfərdə olduğum zaman ölkənizlə Azərbaycan arasında imzalanmış sənədlər dövlətlərimiz və hökumətlərimiz arasında əlaqələrin inkişaf etməsi üçün yaxşı əsas yaradır. Biz bu müqavilələrdən irəli gələn vəzifələrin həyata keçirilməsinə çox ciddi münasibət göstəririk və onların ardıcıl surətdə həyata keçirilməsini təmin edəcəyik. Ümidvaram ki, Norveç-Azərbaycan əməkdaşlığı gələcəkdə daha da uğurlu olacaqdır.

Bu bayram münasibətilə mən Sizi bir daha təbrik edirəm. Norveç xalqına, Norveç Krallığına səadət, xoşbəxtlik və bütün gələcək işlərində uğurlar diləyirəm.

Norveç-Azərbaycan əməkdaşlığının, dostluğunun şərəfinə badə qaldırıram. Sağ olun. [447-448]

## GÜRCÜSTANIN MİLLİ BAYRAMI – DÖVLƏT MÜSTƏQİLLİYİ GÜNÜ MÜNASİBƏTİLƏ GÜRCÜSTANIN AZƏRBAYCANDAKI SƏFİRLİYİNDƏ RƏSMİ QƏBULDA ÇIXIŞ

*"Gülüstan " sarayı*

*20 may 1997-ci il*

Hörmətli nazir, hörmətli səfir!
Hörmətli xanımlar və cənablar!

Mən Gürcüstanın dövlət müstəqilliyi günü bayramı münasibətilə sizi təbrik edirəm, gürcü xalqına səadət, xoşbəxtlik, yeni-yeni nailiyyətlər arzulayıram.

Gürcüstan və Azərbaycan əsrlər boyu qonşu yaşamış xalqlardır. Bizim çoxəsrlik tariximizdə parlaq dostluq, qardaşlıq səhifələri vardır. İndiyə qədər xalqlarımız arasında yaranmış dostluq əlaqələri bizdə daim iftixar hissi doğurur. Gürcü və Azərbaycan xalqları əsrin əvvəlində öz dövlət müstəqilliklərini əldə etmək arzusunda olmuşlar. Xalqlarımızın mübarizəsi öz nəticəsini vermişdir. 1918-ci ilin mayında Gürcüstan da, Azərbaycan da müstəqil dövlət elan olunublar və ölkələrimizdə demokratik respublikalar yaranıbdır. Sonrakı illər, onilliklər ərzində də biz bir yerdə olmuşuq, həm nailiyyətlərimizi bölüşmüşük, həm də çətin günlərdə bir-birimizə dayaq olmuşuq, yardım etmişik. Nəhayət, 1991-ci ildə Gürcüstan da, Azərbaycan da yenidən öz müstəqilliklərini əldə ediblər. Əsrin əvvəlində – 1918-ci il mayın 26-da Gürcüstan Respublikası, mayın 28-də isə Azərbaycan Respublikası öz müstəqillik günlərini ilk dəfə elan ediblər. Biz bu günləri milli bayramımız kimi qeyd edirik. Çox məmnunam ki, bu gün biz Gürcüstanın [448-449] milli bayramını, müstəqillik bayramını bir yerdə, burada, Azərbaycanın paytaxtında qeyd edirik.

Dövlət müstəqilliyini yenidən əldə etmək gürcü xalqı üçün də, Azərbaycan xalqı üçün də tarixi nailiyyətdir. Son illər, dövlət müstəqilliyi əldə ediləndən sonra gürcü xalqının atdığı addımlar və Gürcüstanda görülən işlər, demokratik cəmiyyət, hüquqi dövlət quruculuğu prosesi, aparılan siyasi və iqtisadi islahatlar qardaş Gürcüstanda dövlət müstəqilliyinin nə qədər möhkəm və daimi, əbədi olduğunu nümayiş etdirir.

Mən müstəqillik illərində əldə etdiyi böyük nailiyyətlərə görə bu bayram günü gürcü xalqını təbrik edirəm və ona tutduğu yolla gələcəkdə də əzmlə gedərək yeni uğurlar qazanmağı arzulayıram.

Dövlət müstəqilliyi əldə ediləndən sonra Gürcüstan ilə Azərbaycan arasındakı əlaqələr daha da sürətlə inkişaf etməyə başlamışdır. Biz keçmiş illərdə də, əsrlərdə də olmuş dostluq əlaqələrimizi yüksək qiymətləndiririk. Müstəqil dövlətlər kimi bizim əlaqələrimizin yaranması və inkişaf etməsi xüsusi əhəmiyyət kəsb edir. Bu, həm Azərbaycanın, həm də Gürcüstanın çoxəsrlik dostluq tarixində çox dəyərli illərdir. Biz bu illəri artıq yaşamışıq və həmin illərin əsasında həm Gürcüstanın, həm də Azərbaycanın müstəqilliyinin daimi, əbədi olmasının imkanlarını yaratmışıq.

Bu müddətdə Gürcüstan ilə Azərbaycan arasında yaranmış əlaqələr imzalanmış hüquqi-normativ sənədlərə söykənir.

Gürcüstanla Azərbaycan arasında imzalanmış müqavilələr və sazişlər, xüsusən keçən ilin martında Tbilisidə imzalanmış müqavilələr, sazişlər və Gürcüstan prezidenti cənab Eduard Şevardnadzenin bu ilin fevralında Azərbaycana rəsmi səfəri zamanı imzalanmış müqavilələr və sazişlər bizim müstəqil dövlətlərimiz arasında olan əlaqələrin, bir daha qeyd edirəm, hüquqi-normativ bazasını yaradıbdır. Bu müqavilələrin və sazişlərin həyata keçirilməsi, onların genişləndirilməsi və inkişaf etdirilməsi bizim məqsədimizdir. Ümidvaram ki, həm Gürcüstanda, həm də Azərbaycanda biz bu məqsədə nail olacağıq.

Bizim imzaladığımız sənədlərdən ən əhəmiyyətlisi Azərbaycan və Gürcüstan prezidentləri tərəfindən 1996-cı ilin mar[449-450]tında imzalanmış Tbilisi bəyannaməsidir. O, Qafqazda sülhün və əmin-amanlığın təmin olunmasına həsr edilmiş bəyannamədir. Bununla yanaşı, ən mühüm sənəd cənab Eduard Şevardnadze bu ilin fevralında Bakıda olarkən Gürcüstan ilə Azərbaycan arasında imzalanmış, strateji əməkdaşlığın inkişaf etdirilməsinə həsr edilmiş müqavilədir. Biz bunları çox yüksək qiymətləndiririk. Bunlar Gürcüstan və Azərbaycan arasındakı əlaqələrin nə qədər sıx, münasibətlərimizin nə qədər yaxın olduğunu və məqsədlərimizin də eyni olduğunu bir daha sübut edir.

Gürcüstanda da, Azərbaycanda da xalqlarımız, demək olar, eyni problemlərlə qarşılaşıblar. Biz Gürcüstanda görülən bütün tədbirləri çox maraqla izləyirik və əldə olunan nailiyyətlərə sevinirik. İqtisadi və siyasi islahatlar müstəqil Gürcüstan dövlətini gündən-günə gücləndirir və möhkəmləndirir.

Bununla bərabər, həm Gürcüstanın, həm də Azərbaycanın qarşılaşdığı çətin problemlər də var. Gürcüstanda Abxaziya münaqişəsi və Azərbaycanla Ermənistan arasında münaqişə – Dağlıq Qarabağ münaqişəsi bizim bu sahədə də eyni problemlərlə rastlaşdığımızı göstərir. Biz daim arzu etmişik və beynəlxalq aləmdə həmişə bütün

imkanlarımızdan istifadə edərək çalışmışıq ki, Gürcüstanda sülh və əmin-amanlıq yaransın, Gürcüstanın ərazi bütövlüyü bərpa edilsin və suverenliyi təmin olunsun.

Azərbaycanda da Ermənistan-Azərbaycan münaqişəsinin – Dağlıq Qarabağ münaqişəsinin həll olunması yolunu sülhdə görürük. Artıq üç ildir ki, biz atəşkəs haqqında imzalanmış sazişə sadiqik, atəşkəs rejimini qoruyub saxlamışıq. Üç ildir ki, biz Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həllinə çalışırıq və bunun üçün mübarizə aparırıq. Bu sahədə tam sülh əldə olunmasa da, nailiyyətlər göz qabağındadır. Xüsusən 1996-cı ilin dekabr ayında ATƏT-in Lissabon Zirvə görüşündə Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli üçün qəbul olunmuş bəyannamə və bu sənəddə öz əksini tapmış prinsiplər Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün çox yaxşı əsasdır və hesab edirik ki, diplomatiya sahəsində əldə olunan böyük nailiyyətdir. [450-451]

Mən böyük məmnuniyyətlə qeyd etmək istəyirəm ki, Lissabonda Gürcüstanın problemlərinin həlli üçün qərarın qəbul olunmasında Azərbaycan daim öz dəstəyini göstərdiyi kimi, Azərbaycan Respublikasının probleminin həlli üçün də Gürcüstan öz dəstəyini, yardımını əsirgəməmişdir. Beləliklə, problemlərimiz və çətinliklərimiz də bir-birinə bənzərdir, amma getdiyimiz yol da eynidir. Biz məsələləri sülh yolu ilə həll etmək istəyirik. Biz bu yolda da bir-birimizə kömək edir, bir-birimizə yardım göstəririk, bir-birimizə arxa, dayaq dururuq.

Güman edirəm ki, bunların hamısı Qafqazda, o cümlədən Zaqafqaziya regionunda sülhün və əmin-amanlığın təmin olunmasına gətirib çıxaracaqdır, biz buna nail olacağıq. Əminəm ki, Gürcüstan-Azərbaycan dostluğu və ölkələrimiz, dövlətlərimiz arasında yaranmış səmimi dostluq münasibətləri nəinki Zaqafqaziya regionunda, həm də bütün Qafqazda sülhün, əmin-amanlığın bərqərar olmasına kömək edəcəkdir. Biz bu əməkdaşlığımızdan məmnunuq və gələcəkdə də əməkdaşlıq etmək arzusundayıq.

Mən bu gün Gürcüstanın istiqlal günü, müstəqillik günü münasibətilə çox böyük məmnuniyyətlə, sevinclə bu bayrama gəlmişəm və Gürcüstanın xarici işlər nazirinin də gəlib burada, məhz Bakıda bu gün bu bayram mərasimində iştirak etməsi Gürcüstan-Azərbaycan əlaqələrinin yüksək səviyyədə olmasını nümayiş etdirir.

Mən sizi bu bayram münasibətilə bir daha təbrik edirəm, gürcü xalqına, Gürcüstanın bütün vətəndaşlarına, o cümlədən Gürcüstanda Gürcüstan vətəndaşı kimi yaşayan azərbaycanlılara, bizim soydaşlarımıza sülh, əmin-amanlıq, səadət, xoşbəxtlik arzulayıram və Gürcüstan Respublikasının qarşısında duran bütün vəzifələrin yerinə yetirilməsində Gürcüstan dövlətinə və mənim əziz dostum cənab Eduard Şevardnadzeyə yeni-yeni uğurlar diləyirəm.

Sizi təbrik edirəm. Sağ olun. [451-452]

**GÜRCÜSTAN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ EDUARD ŞEVARDNADZE**
**CƏNABLARINA**

Çox hörmətli Eduard Amvrosiyeviç, Sizi və bütün qardaş gürcü xalqını milli bayramınız – dövlət istiqlaliyyətinin bərpası günü münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Gürcüstanı tarixi müqəddəratlarının birliyi, çoxəsrlik dostluq və əməkdaşlıq, qarşılıqlı yardım və mehriban qonşuluq telləri bağlayır. Çox məmnunam ki, xalqlarımızın indiki nəsilləri də bu şanlı ənənələrə hörmətlə yanaşır və onları qoruyub saxlayırlar.

Dost Gürcüstanın öz dövlət suverenliyini və istiqlaliyyətini möhkəmləndirmək, əsaslı iqtisadi islahatlar həyata keçirmək, regionumuzda sülhü və sabitliyi bərpa etmək istiqamətində yeritdiyi siyasəti yüksək qiymətləndirir və dəstəkləyirəm.

Əziz Eduard Amvrosiyeviç, sizə və sizin şəxsinizdə bütün gürcü xalqına milli arzularımızın həyata keçməsini, sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 23 may 1997-ci il* [452-453]

**İRAN İSLAM RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**MƏHƏMMƏD HATƏMİ**
**CƏNABLARINA**

Hörmətli cənab prezident, Sizi İran İslam Respublikasının prezidenti seçilməyiniz münasibətilə ürəkdən təbrik edirəm. Sizə və bütün qardaş İran xalqına Allahdan sülh, əmin-amanlıq, tərəqqi və daim çiçəklənmə diləyirəm.

Biz İran İslam Respublikası ilə Azərbaycan Respublikasının əlaqələrinə böyük əhəmiyyət veririk. Xalqlarımızın birgə tarixi, mədəniyyəti, dini etiqadı, ənənələri və qardaşlığı ölkələrimizin yaxın dostluğu və əməkdaşlığı üçün gözəl bir zəmindir.

Ümidvaram ki, sizin bu yüksək vəzifəyə seçilməyiniz İran xalqının səadətinə, rifahının artmasına, İran-Azərbaycan əlaqələrinin daim inkişafına, bizim əməkdaşlığımızın yolunda olan bütün çətinliklərin aradan götürülməsinə xidmət edəcək. Biz öz tərəfimizdən qardaş İran İslam Respublikası ilə əlaqələrin inkişafı üçün əlimizdən gələni əsirgəməyəcəyik. Sizi bir daha ürəkdən təbrik edirəm, cansağlığı, uzun ömür və xoşbəxtlik arzulayıram.

Dərin hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 26 may 1997-ci il* [453-454]

Kitabın hazırlanmasında iştirak edənlər:
Tofiq Babayev, Müzəffər Maşayev,
Arif Məmmədov, Kamil Muxtarov, Azər Fərzəliyev

Rəssamı *Fuad Fərəcov*
Redaktorları *Tofiq Babayev, Kamil Muxtarov*
Texniki redaktoru *Zoya Nəcəfova*

"Tayms" qarnitur formatı 60x90 1/16. Ofset kağızı № 1. Şərti çap vərəqi 30.
Uçot nəşr vərəqi 30. Tirajı 5000. Sifariş 63. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyi.

Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – 370005, Hüsü Hacıyev küç. 4.

"Qismət" Nəşriyyat, Poliqrafiya və Ticarət LTD tərəfindən çap olunmuşdur.